Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

On dördüncü sessiya
Payız

56-cı cild

13 – 21 noyabr 2023-cü il

Milli Məclisin nəşri
Bakı – 2023

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

**ALTINCI ÇAĞIRIŞ**
**AZƏRBAYCAN RESPUBLİKASI**
**MİLLİ MƏCLİSİNİN**
**XIV SESSİYASI İCLASININ**

# PROTOKOLU № 148

*Milli Məclisin iclas salonu.*
*13 noyabr 2023-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 101 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 101 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Əli Əsədov**, Azərbaycan Respublikasının Baş naziri.

**Yaqub Eyyubov**, Azərbaycan Respublikası Baş nazirinin birinci müavini.

**Şahin Mustafayev**, Azərbaycan Respublikası Baş nazirinin müavini.

**Əli Əhmədov**, Azərbaycan Respublikası Baş nazirinin müavini.

**Fikrət Məmmədov**, Azərbaycan Respublikasının ədliyyə naziri.

**Samir Şərifov**, Azərbaycan Respublikasının maliyyə naziri.

**Mikayıl Cabbarov**, Azərbaycan Respublikasının iqtisadiyyat naziri.

**Sahil Babayev**, Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri.

**Məcnun Məmmədov**, Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri.

**Rəşad Nəbiyev**, Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri.

**Pərviz Şahbazov**, Azərbaycan Respublikasının energetika naziri.

**Fərid Qayıbov**, Azərbaycan Respublikasının gənclər və idman naziri.

**Muxtar Babayev**, Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri.

**Səbuhi Məmmədov**, Naxçıvan Muxtar Respublikasının Baş naziri.

**Şahin Bağırov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri.

**Bahar Muradova**, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri.

**Fuad Muradov**, Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri.

**Mübariz Qurbanlı**, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri.

**Rövşən Rzayev**, Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri.

**Qoşqar Təhməzli**, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri.

**Fuad Nağıyev**, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri.

**Anar Quliyev**, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri.

**Zaur Əliyev**, Azərbaycan Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri.

**Sahib Ələkbərov,** Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini.

**İdris İsayev**, Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini.

**Rasim İsmayılov**, Azərbaycan Respublikası səhiyyə nazirinin müavini.

**Anar Kərimov,** Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini.

**Ragim Lətifov**, Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini.

**Yusif Yusifov**, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini.

**Taleh Kazımov**, Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin sədri.

**İsrafil Məmmədov**, Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru.

**Vüqar Gülməmmədov**, Azərbaycan Respublikası Hesablama Palatasının sədri.

**Rüfət Məmmədov**, Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbəri.

**Ələsgər Ələsgərov**, Azərbaycan Respublikası Baş nazirinin Katibliyinin rəisi.

**Azər Əmiraslanov**, Azərbaycan Respublikası Nazirlər Kabinetinin İqtisadiyyat şöbəsinin müdiri.

**Fəxri İsmayılov**, Azərbaycan Respublikası Baş nazirinin köməkçisi.

**İbrahim Məmmədov**, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri.

**Elman Rüstəmov**, Azərbaycan Respublikası Baş nazirinin müşaviri.

**Fikrət Şirinov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin şöbə müdiri.

**Elşad İsgəndərov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin sektor müdiri.

**Xaqani Abdullayev**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müşaviri.

**Yalçın Əzizov**, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin şöbə müdiri.

**Nəsir Sadıqov**, Azərbaycan Respublikası Hesablama Palatası sədrinin müavini.

**Tamerlan Yusif-zadə**, Azərbaycan Respublikası Hesablama Palatası Aparatının rəhbəri.

**Gülnar Hacıyeva**, Azərbaycan Respublikası Hesablama Palatasının şöbə müdirinin müavini.

**Samir Seyidəhmədli**, Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəsinin müavini.

**Bəxtiyar Əsgərov**, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi nümayəndəliyinin rəhbəri.

**Ülvin Əliyev**, Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyəti sədrinin ofisinin rəhbəri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

2. Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

3. İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haq-

qında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

4. Azərbaycan Respublikasında 2024-cü il üçün yaşayış minimumu haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

5. Azərbaycan Respublikasında 2024-cü il üçün ehtiyac meyarının həddi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

6. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

7. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

8. "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

9. "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

10. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

11. "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

12. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

13. Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.

14. Azərbaycan Respublikası Hesablama Palatasının 2024-cü il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.01 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 4 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Samir Şərifov, Mikayıl Cabbarov, Taleh Kazımov, Vüqar Gülməmmədov, Elşən Musayev, Musa Quliyev, Fatma Yıldırım, Elşad Mirbəşir oğlu, Əli Məsimli, Bəhruz Məhərrəmov, Jalə Əhmədova, Müşfiq Məmmədli, Siyavuş Novruzov, Kamran Bayramov, Fazil Mustafa, Azər Badamov, Elman Nəsirov, Səməd Seyidov, Şahin İsmayılov, Sahib Alıyev, Səttar Möhbalıyev, Ceyhun Məmmədov, Fəzail Ağamalı.

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*13 noyabr 2023-cü il. Saat 11.*

*Azərbaycan Respublikası  Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Hörmətli cənab Baş nazir və hökumət üzvləri, hörmətli deputatlar və media nümayəndələri. Hamınızı xoş gördük. Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 101 |
| Yetərsay | 83 |

Çox sağ olun, iclasa başlaya bilərik.

Hörmətli həmkarlar, gündəlik sizə paylanıb. Xahiş edirəm, gündəliyə də münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.01 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 4 |

İştirak edir 101
Nəticə: Qəbul edildi

Çox sağ olun, gündəlik də qəbul edildi.

Hörmətli həmkarlar, bildiyiniz kimi, bizim gündəlikdə 14 məsələ var. Bu məsələlərin 12-si dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələridir. Qeyd edim ki, qanun layihələrinin hamısı birinci oxunuşda müzakirə ediləcək. Beləliklə, biz indi 1-ci məsələyə keçirik. Bu məsələ Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında qanun layihəsidir.

Hörmətli cənab Baş nazir və hökumət üzvləri, hörmətli deputatlar. Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası ölkəmizdə təşəkkül tapmış makroiqtisadi sabitliyi və maliyyə dayanıqlığını daha da möhkəmləndirməyə, iqtisadi inkişaf və təhlükəsizlik sahəsində dövlət siyasətinin prioritetlərini və məqsədlərini əldə etməyə imkan yaratmışdır.

Bu gün Milli Məclisdə müzakirəsinə başladığımız dövlət büdcəsinin layihəsi və büdcə zərfinə daxil olan digər sənədlər ölkə həyatında müşahidə olunan müsbət meyilləri əks etdirir. Məmnunluqla qeyd edilməlidir ki, dövlət büdcəsinin həm gəlirləri, həm də xərcləri ildən-ilə artırılır. Gələn il bu göstəricilərin rekord həcmdə olması dövlətimizin artan iqtisadi potensialının təzahürüdür.

Qeyd olunmalıdır ki, dövlət büdcəsinin layihəsi müasir dövrün çağırışları nəzərə alınmaqla tərtib edilmişdir. Büdcənin sosialyönümlü olmasına xüsusi diqqət yetirilmişdir. Belə ki, gələn il sosialyönümlü xərclərin cari ilə nisbətən 1 milyard 35 milyon manat və ya 7 faiz çox olması nəzərdə tutulur. Dövlət büdcəsinin digər prioritetləri sırasında

təhsil, işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri, müdafiə potensialının gücləndirilməsi və silahlı qüvvələrin maddi-texniki təminatı da vardır.

Həmçinin sahibkarlığın inkişafına rəvac verilməsi, ölkənin ərzaq təhlükəsizliyi ilə bağlı tədbirlərin, nəqliyyat, sənaye, energetika və digər sahələrdə infrastruktur layihələrinin dəstəklənməsi diqqət mərkəzində saxlanacaq.

İnamla söyləmək olar ki, gələn ilin dövlət büdcəsinin icrası üçün Azərbaycan hökumətinin həyata keçirəcəyi tədbirlər möhtərəm cənab Prezident tərəfindən müəyyən edilmiş hədəflərin əldə olunmasına, o cümlədən Azərbaycan iqtisadiyyatının davamlı inkişafına, nəzərdə tutulan dövlət proqramlarının və strategiyalarının reallaşmasına zəmin yaradacaq.

Hörmətli deputatlar, 2024-cü ilin dövlət büdcəsinin layihəsi və büdcə zərfinə daxil olan sənədlər parlament komitələrinin iclaslarında geniş müzakirə olunmuş və Milli Məclisin plenar iclasına tövsiyə edilmişdir. Hesablama Palatası da büdcə zərfi barəsində müsbət rəyini bildirmişdir.

Mən hesab edirəm ki, aparacağımız müzakirələr səmərəli olacaq, burada biz deputatların fikirlərini və təkliflərini dinləyəcəyik. Bununla əlaqədar mən millət vəkillərini müzakirələrdə fəal iştiraka dəvət edirəm.

İndi isə, hörmətli həmkarlar, biz məruzə və çıxışların ardıcıllığını müəyyən etməliyik. Mən təklif edirəm ki, iclasımızı əvvəlcə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin, maliyyə və iqtisadiyyat nazirlərinin məruzələri ilə başlayaq, sonra Mərkəzi Bankın və Hesablama Palatasının məlumatlarını dinləyək. Daha sonra millət vəkilləri öz mülahizələrini söyləsinlər.

Beləliklə, mən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri hörmətli Tahir Mirkişiliyə söz verirəm.

Tahir müəllim, buyurun.

**T.Mirkişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli, deputatlar, hökumət üzvləri və media nümayəndələri. Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev tərəfindən "Büdcə sistemi haqqında" Qanunun 12-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında qanun layihəsi və büdcə zərfinə daxil olan digər qanun layihələri Milli Məclisin müzakirəsinə təqdim olunmuşdur. Eyni zamanda, "Büdcə sistemi haqqında" Qanunun 15-ci maddəsinə uyğun olaraq, zərfə daxil olan layihələrə dair Hesablama Palatasının hazırladığı rəy də deputatlara təqdim olunmuşdur. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin və digər komitələrinin iclaslarında hökumət üzvlərinin, müvafiq dövlət orqanlarının və ictimai sektorun nümayəndələrinin iştirakı ilə qanun layihələri geniş müzakirə olunmuş, müvafiq təhlillər aparılmışdır. Milli Məclis sədrinin tövsiyəsi ilə komitə iclasına Milli Məclisdə təmsil olunan bütün siyasi partiyaların sədrləri və nümayəndələri dəvət olunmuş və onlara peşəkar müzakirələr üçün müvafiq imkanlar yaradılmışdır. Hesab edirik ki, belə bir imkanın yaradılması bir daha büdcə zərfinə daxil olan layihələrin ətraflı müzakirəsini, inklüzivliyini təmin etməklə yanaşı, ölkədə aparılan siyasi islahatların və siyasi dialoq mühitinin bir daha ali qanunverici orqanda öz əksini tapmasının bariz nümunəsidir.

Hörmətli həmkarlar, başa çatmaqda olan 2023-cü il ölkəmizin tarixində mühüm hadisələrlə zəngin olmuş, gələcək nəsillər üçün yeni dövrün başlandığı il kimi tarixə düşmüşdür. 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli"dir.

Biz müasir və müstəqil Azərbaycanın memarı olan Ulu Öndər Heydər Əliyevin 100 illiyini onun siyasətinə, tarixi irsinə ehtiram göstərərək, onun siyasətini davam etdirərək qeyd edirik. Eyni zamanda, hər kəs bilir ki, bizim Ulu Öndərin xatirəsinə hörmətimiz həm də əməli işlərlə ölçülür və hər birimiz bunu öz işimizlə daim göstərməli, onun ideallarına xidmət etməliyik.

2023-cü il Prezident cənab İlham Əliyevin Azərbaycana rəhbərlik etməsinin 20 ili tamam oldu. O, tarix üçün çox qısa sayılan 20 il ərzində dünyada bəlkə də ən mürəkkəb regionda yerləşən bir ölkəni və xalqı necə inkişaf etdirmək, gücləndirmək, müstəqilliyi və milli maraqları necə qorumaq olar, bütün daxili və xarici resursları bir hədəfə yönəldib, 20 il dayanmadan bu hədəfə doğru addım-addım irəliləyərək bütün dünyanın mümkünsüz, olmaz dediyini necə mümkün etmək olar, and içdiyi üçrəngli bayrağı bütün türk dünyasının ən uca zirvəsi olan Şuşaya necə sancmaq olar və bu 20 il ərzində daim vətəndaşlarının və soydaşlarının qəhrəmanı və sevimlisi necə olmaq oların nümunəsini yaratdı və bu nümunə nadirdir. O, bütün türk dünyasında Zəfərin simvolunu yaratdı və bu Zəfərin simvoluna çevrildi.

Qlobal pandemiya ilə mübarizə, müharibə aparmış, antiterror tədbirləri həyata keçirmiş bir ölkənin iqtisadiyyatının kifayət qədər dözümlü olması onun böyük nailiyyətlərindən biridir. O bu 20 il ərzində verdiyi bütün vədləri, qarşısına qoyduğu bütün vəzifələri icra etdi.

2023-cü il Azərbaycan Bayrağının müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən Xankəndidə dalğalandığı, uzun illər dövlətimizə və xalqımıza böyük zərər vermiş erməni separatçılığına son qoyulduğu ildir. XXI əsrdə öz dövlət suverenliyini tam bərpa edən yeganə

ölkə olaraq tarixə düşən Azərbaycan gələcək inkişafı üçün yeni bünövrə inşa etdi. Məhz bu ildə biz ilk dəfə olaraq öz bayrağımızı bütün ərazimizdə görə bildik, ilk dəfə olaraq öz ərazimizin hər qarışına sahib olduq. Bu gün ilk dəfə olaraq bütün Azərbaycan üçün dövlət büdcəsi qəbul edəcəyik. Bu, çox böyük və qürurverici bir tarixi uğurdur!

Hörmətli həmkarlar, 2023-cü ildə dünya iqtisadiyyatı azalan xammal qiymətləri, sərt monetar və stimullaşdırıcı büdcə siyasətləri fonunda mülayim templərlə inkişaf etmişdir. İnflyasiya templəri azalsa da, onun hələ də yüksək olması və dünyada geosiyasi, geoiqtisadi qarşıdurmanın artması qlobal iqtisadi artımın sürətlənməsinə mane olmuşdur. Xammal qiymətlərinin, xüsusən də enerji daşıyıcılarının qiymətlərinin azalması fonunda əksər ölkələrdə inflyasiya göstəricilərində zəifləmə müşahidə edilsə də, faktiki inflyasiya hələ də mərkəzi bankların müəyyənləşdirdikləri hədəfdən yüksək olaraq qalmaqda davam etmişdir. Qiymət dəyişməsi ölkələr üzrə əhəmiyyətli dərəcədə fərqlənmiş, orta illik inflyasiya Çin iqtisadiyyatında 0 faizə yaxınlaşdığı halda, Türkiyədə 50 faizdən çox olmuşdur. İstehlak səbətinin qrupları üzrə aparılmış təhlillər qiymət artımının mallar üzrə zəiflədiyini göstərsə də, xidmətlər sektorunda tələbin aktivliyi fonunda qiymət artımının daha qalıcı olduğunu göstərmişdir.

Beynəlxalq təşkilatların proqnozuna əsasən 2023-cü ildə qlobal iqtisadi artımın 2,5-3 faiz arasında, 2024-cü ildə isə 2,1-2,9 faiz arasında olması gözlənilir. 2023-cü ilin yanvar–sentyabr aylarında neftin 1 barelinin orta aylıq qiyməti illik müqayisədə 21 ABŞ dolları və ya 20,7 faiz azalaraq 80,6 ABŞ dolları təşkil etmiş, 2024-cü ildə neftin 1 barelinin dünya bazarlarında orta qiymətinin 80-95 dollar olacağı proqnozlaşdırılır. Amma eyni zamanda, Yaxın

Şərqdə baş verən hadisələr fonunda tamamilə fərqli səhnə ilə üzləşəcəyimiz də istisna deyildir.

Beynəlxalq təşkilatların hesablamalarına əsasən növbəti ildə sərt monetar siyasətin təsirlərinin davam edəcəyi, eləcə də tələb təzyiqlərinin səngiyəcəyi gözləntiləri ilə qlobal miqyasda inflyasiya proseslərinin mülayim xarakter alacağı proqnozlaşdırılır. Bu proqnozlara görə qlobal orta illik inflyasiyanın bu ilin sonuna 6,9 faiz, 2024-cü ildə isə 5,8 faiz olacağı proqnozlaşdırılır. Artan əmək xərcləri, xammal bazarlarında, o cümlədən enerji məhsulları bazarında yüksək volatillik inflyasiya risklərinin hələ də aktual olacağını göstərir. Bu risklər fonunda fiskal və monetar siyasətin sinxron şəkildə aparılmasının növbəti ildə də zəruri olacağı ehtimal edilir.

2024-cü ildə qlobal dövlət borcunun artaraq onun ümumi daxili məhsula nisbətinin inkişaf etmiş ölkələr üzrə 112,7 faiz, inkişaf etməkdə olan ölkələr üzrə isə 70,1 faiz olacağı proqnozlaşdırılır. Qeyd edim ki, Azərbaycanda bu göstərici 14,5 faizdir.

Hörmətli həmkarlar, cari ilin yanvar–sentyabr aylarında Azərbaycan iqtisadiyyatında əlverişli makroiqtisadi meyillər izlənmiş, tamamilə qeyri-neft sahələri hesabına olmaqla iqtisadi artım təmin edilmiş, inflyasiya tempində zəifləmə müşahidə olunmuş, tədiyyə balansında profisitlik izlənmişdir. Belə ki, bu ilin 9 ayı ərzində ölkədə ümumi daxili məhsul 0,8 faiz, qeyri-neft-qaz ümumi daxili məhsulu 3 faiz artmış, neft-qaz ümumi daxili məhsulu isə 1,5 faiz azalmışdır. Qeyri-neft sektorunda ümumi daxili məhsulun artımına əsas töhfəni tikinti və turizm sektorları vermişdir. Neft-qaz sektorunda ÜDM-in azalmasının əsas səbəbləri isə qiymətlərin enməsi və neft hasilatında azalma olmuşdur. Bu dövrdə ümumi ixrac idxalı 14 milyard

dollar üstələmiş, qeyri-neft ixracı isə faktiki qiymətlərlə 10,6 faiz, əhalinin nominal gəlirləri 13,9 faiz, orta aylıq əmək haqqı isə 11,3 faiz artmışdır. Qeyri-neft-qaz ixracının qeyri-neft-qaz idxalını maliyyələşdirməsi nisbəti 29,2 faizdən 30,5 faizə yüksəlmişdir. Eyni zamanda, bu ilin 9 ayı ərzində orta illik inflyasiyanın səviyyəsi 10,9 faiz olmuşdur. İlin sonuna bu göstəricinin 9,5 faiz olacağı proqnozlaşdırılır.

İl ərzində Mərkəzi Bank tərəfindən uçot dərəcələri artırılsa da, bu ay ilk dəfə olaraq Mərkəzi Bank tərəfindən uçot dərəcələri aşağı salınmışdır. Cari ilin 8 ayı ərzində strateji valyuta ehtiyatlarımız artaraq 67,5 milyard dollara çatmış, tədiyyə balansının cari əməliyyatlar hesabında profisit qeydə alınmışdır.

2023-cü il 1 iyul vəziyyətinə xarici dövlət borcu 116,7 milyon dollar azaldılaraq ümumi daxili məhsulun 10 faizini, daxili borc isə 782,1 milyon manat artaraq ümumi daxili məhsulun 4,5 faizini təşkil etmişdir. Baxılan dövr ərzində ölkə iqtisadiyyatına kredit qoyuluşları 17,5 faiz artaraq 22,5 milyard manatı keçmişdir.

2023-cü ilin 8 ay ərzində büdcə gəlirləri proqnoza nisbətən Dövlət Neft Fondundan transferini istisna etsək, 106 faiz icra edilmişdir. Bu dövrdə Dövlət Neft Fondunun vəsaitlərindən 6,5 milyard manat istifadə etmək proqnozlaşdırılsa da, bu məbləğin yalnız yarısından istifadə edilmişdir. Büdcə xərcləri proqnozla müqayisədə 105,6 faiz icra edilmiş, 218 milyon manat kəsir qeydə alınmışdır. Ümumiyyətlə, 2023-cü il üzrə iqtisadi artıma nail olunması, büdcə gəlirlərinin və xərclərinin icrasında qarşılıqlı nisbətin, əsasən, qorunub saxlanması, büdcə kəsirinin proqnozlaşdırılan səviyyədən xeyli aşağı olması, tədiyyə balansı hesablarında müsbət dinamikanın qorunması, qey-

ri-neft ixracının və qeyri-neft vergi daxilolmalarının artması, əldə olunan makroiqtisadi sabitlik 2024-cü ilin dövlət büdcəsinin planlaşdırılmasında mühüm baza rolunu oynamışdır. 2024-cü ilin dövlət büdcəsi ilə birlikdə təqdim olunmuş makroiqtisadi çərçivəyə əsasən növbəti il ölkə iqtisadiyyatında əlverişli makroiqtisadi mühitin müşahidə ediləcəyi, o cümlədən ölkə iqtisadiyyatının real artım, məqbul inflyasiya, profisitli tədiyyə balansı və sabit məzənnə ilə xarakterizə olunacağı nəzərdə tutulur.

Büdcə zərfində təqdim edilmiş məlumatlara əsasən növbəti il və sonrakı 3 ilin makroiqtisadi çərçivəsi baza, optimist və pessimist olmaqla, 3 ssenaridə hazırlanmışdır. Növbəti ilin büdcə layihəsinin tərtibi zamanı baza ssenari əsas olaraq götürülmüşdür. Qeyd edim ki, baza ssenari üzrə proqnozların hazırlanması zamanı 1 barel neftin qiyməti 60 ABŞ dolları həcmində müəyyən edilmişdir. Nisbətən konservativ və ehtiyatlı olan bu yanaşmanı baş verə biləcək hadisələrə adekvat cavablara hazır ola bilmək baxımından biz də məqbul hesab edirik.

Hörmətli həmkarlar, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində aparılan müzakirələr, tərəfimizdən aparılan təhlillər və Hesablama Palatasının təqdim etdiyi rəy bizə dövlət büdcəsi layihəsinə rəy vermək üçün lazımi imkanlar yaratmışdır. Məhz bu imkanlardan çıxış edərək dövlət büdcəsi layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin rəyini təqdim edirəm.

Qeyd edim ki, layihəyə makroiqtisadi rəy vermək üçün 2024-cü il üçün ölkəmiz qarşısında duran çağırışlar, bu çağırışlara cavab vermək üçün mövcud olan imkanlar, imkanların çağırışlara cavab verməsi üçün hökumətin plan və proqnozları, bütün bu alətlərin dövlət büdcəsində qanun və qaydaların tələb etdiyi formada əks etdirilməsi məsələ-

ləri bizim diqqət mərkəzimizdə olmuşdur. Apardığımız təhlillər göstərir ki, 2024-cü ilin dövlət büdcəsi layihəsi tərtib edilərkən layihənin tərtibi və strukturu ilə bağlı "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun müəyyən etdiyi tələb və müddətlər gözlənilmişdir. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın əksər tədbirlərinin maliyyə təminatı icraçı qurumların büdcəsində ayrıca nəzərə alınmaqla, dövlət büdcəsində əks etdirilmişdir. 2024-cü ilin dövlət büdcəsinin proqnozları üzrə büdcə qaydasına riayət edilmiş, büdcə qaydası üzrə hədəflərin yerinə yetirilməsinə bir sıra faktorlar da şərait yaratmışdır. Fiskal risklər nəzərə alınmış, dövlətin prioritetləri əsas götürülmüşdür.

2024-cü ildə qarşımızda ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işləri, ölkə iqtisadiyyatına reinteqrasiya olunması və Böyük Qayıdışın təmin olunması, "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın icra edilməsi kimi makrofiskal hədəflər və çağırışlar vardır.

Eyni zamanda, təhlillər göstərir ki, 2024-cü ildə biz regional və qlobal siyasi və hərbi gərginlik, qlobal miqyasda tənəzzül meyilləri və riskləri, inflyasiya təzyiqləri və təklif problemləri kimi daxili və xarici mühit çağırışları ilə də üz-üzə qalacağıq. 2024-cü ildə iqtisadi artımın davam etməsi, qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatda şəffaflığın artması, enerji məhsullarının, o cümlədən alternativ enerji məhsullarının ixracının və coğrafiyasının genişlənməsi, nəqliyyat daşımalarının intensivləşməsi üçün münbit sabit

siyasi şəraitin mövcudluğu növbəti il üçün bizə yeni imkanlar vəd edir. Belə ki, təqdim edilmiş layihədə baza ssenaridə 2024-cü ildə ümumi daxili məhsulun real artım tempinin 2,4 faiz, qeyri-neft-qaz ümumi daxili məhsulun real artım tempinin isə 4,6 faiz olacağı, artımın, əsasən, qeyri-neft sektoru hesabına təmin olunacağı, qeyri-neft-qaz sektorunun ümumi daxili məhsulda payının 71,2 faizə, orta aylıq əmək haqqının 980 manata çatacağı, orta illik inflyasiyanın 5,3 faiz olacağı, tədiyyə balansının cari əməliyyatlar hesabının və xarici ticarət balansının profisitlə olacağı proqnozlaşdırılmışdır.

Növbəti ildə dövlət büdcəsinə hesablanan vergi və gömrük rüsumları üzrə daxilolmaların ümumi həcmi 19,8 milyard manatı keçəcəkdir. Qeyd edim ki, Mərkəzi Bankın elan etdiyi proqnozlarda 2024-cü ildə ümumi daxili məhsulun 3,5 faiz, qeyri-neft-qaz sektorunda ümumi daxili məhsulun isə 6 faiz artacağı gözlənilir. Mərkəzi Bank tərəfindən bu ildən başlayaraq makroiqtisadi proqnozların verilməsini biz təqdirəlayiq hal hesab edir, apardığımız təhlil və müzakirələrdə bunu faydalı sayırıq.

Təqdim edilmiş izahatlarda 2022-ci ildə vergi və gömrük rüsumları üzrə tətbiq olunan güzəşt və azadolmalarla bağlı dövlət büdcəsinə hesablanmayan məbləğin 7 milyard 630,8 milyon manat təşkil etməsi göstərilmişdir. Qeyd etmək istərdim ki, azadolmaların dövlət büdcəsinin gəlirlərinə təsirinin qiymətləndirilməsi və büdcə, sosial və iqtisadi baxımdan səmərəliliyinin qiymətləndirilməsi ilə bağlı məlumatların Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi ilə birlikdə müzakirə edilməsini faydalı sayırıq. Sahibkarlarla aparılan bir çox görüşlər göstərir ki, təqdim edilən bəzi güzəştlərin onların məhsul istehsalının və ixracının həcminin artırılmasına, rəqabət qa-

biliyyətinin güclənməsinə təsiri əhəmiyyətli dərəcədə olmamışdır. O baxımdan ölkədə məhsul istehsalının və ixracının artımını dəstəkləyən güzəştlərin verilməsini vacib hesab edirik. Bu baxımdan Nazirlər Kabinetinin daxili istehsalda istifadə olunan və yerli istehsalı mövcud və ya səmərəli olmayan 272 adda xammal və aralıq malların idxalına tətbiq olunan gömrük rüsumlarının 2024-cü il yanvarın 1-dən 7 il müddətinə 0 dərəcəyə endirilməsi haqqında qərarını vacib və təqdirəlayiq hal hesab edirik.

Təqdim edilmiş layihədə 2024-cü il üçün dövlət büdcəsinin gəlirləri 2023-cü ilin dövlət büdcəsi gəlirlərindən 282,5 milyon manat çox olaraq 34 milyard 173 milyon manat nəzərdə tutulmuşdur. Dövlət büdcəsi gəlirlərinin 50,2 faizi qeyri-neft sektorunun, 49,8 faizi isə neft-qaz sektorunun hesabına formalaşacaqdır. Qeyri-neft-qaz sektorunda büdcə daxilolmalarının 1 milyard 58,2 milyon manat artması, neft-qaz sektorundan büdcə daxilolmalarının isə 775,7 milyon manat azalması proqnozlaşdırılır. Vurğulamaq istərdim ki, son 5 il ərzində dövlət büdcəsinin qeyri-neft gəlirləri təqribən 6,3 milyard manat və ya 60 faiz artmışdır. Qeyd edim ki, neft-qaz sektoru üzrə dövlət büdcəsi gəlirlərinin azalmasının əsas səbəbləri növbəti ildə təbii qazın satış qiymətlərinin kəskin düşməsi, neft hasilatında gözlənilən azalma ilə izah edilir. Bu riskləri nəzərə alaraq, ölkəmizdə alternativ enerji layihələrinin uğurla icra edilməsi istiqamətində mühüm işlər görülür və əminliklə demək olar ki, Azərbaycan regionun əsas "yaşıl enerji" ixracatçısına çevriləcəkdir.

Qeyri-neft-qaz sektoru üzrə vergi və gömrük orqanlarının vasitəsi ilə təmin olunan gəlirlərin təqribən 1,1 milyard manat artıq planlaşdırılmasını məqbul hesab edir, ölkə iqtisadiyyatında gedən keyfiyyət dəyişikliklərinin,

biznes mühitinin şəffaflaşmasının, dövlət–sahibkar arasında etimad mühitinin, həmçinin inflyasiyanın və idxalın artmasının buna zəmin yaradacağını düşünürük. Ümumiyyətlə, son 5 ildə vergi və gömrük orqanlarının xətti ilə təmin olunan dövlət büdcəsinin qeyri-neft gəlirlərinin 6,3 milyard manat və ya 66 faiz artması təqdirəlayiq haldır. Eyni zamanda, bu ilin büdcə gəlirlərinin 9 aylıq icra göstəriciləri və növbəti ilə optimist ssenarinin baş vermə ehtimalının yüksək olması 2024-cü ilin büdcə gəlirlərinin planlaşdırıldığından daha çox olacağını deməyə əsas verir. Səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlərdən gələn gəlirlərin 2023-cü ilə nisbətən 237 milyon manat çox planlaşdırılmasını təqdirəlayiq hal hesab etməklə yanaşı, bu müəssisələrdə dividend bölgüsünün qaydalarının işlənib hazırlanmasını vacib hesab edirik. Eyni zamanda, bu müəssisələrdə səmərəliliyin və xərclərə nəzarətin artırılması üçün mühasibatlıq uçotunun tam elektronlaşmasını və müvafiq məlumatların nəzarət orqanları ilə bölüşülməsini vacib hesab edirik.

Dövlət Neft Fondundan dövlət büdcəsinə transferin həcminin 2023-cü ilə nisbətən 1 milyard 43,3 milyon manat artırılmasının neft-qaz sektorundan daxilolmaların azaldılması ilə izah edilməsini məqbul sayırıq. Eyni zamanda, hesab edirik ki, dövlət büdcəsinin icrası zamanı mümkün potensialların reallaşması bu məbləğin az icrasına səbəb ola bilər.

2024-cü il dövlət büdcəsi xərclərinin 2023-cü ilə nisbətən 138,2 milyon manat artırılaraq 36 milyard 763 milyon manata çatdırılmasını yuxarıda sadaladığım çağırışlara cavab vermək baxımından məqbul hesab edirik. Dövlət büdcəsi xərclərində sosialyönümlü xərclərin 1 milyard 34,5 milyon manat artırılaraq 15 milyard 772,9 milyard

manata və ya xərclərin 42,9 faizə çatdırılması dövlətin və cənab Prezidentin sosial siyasətinin icra edilməsini lazımi maliyyə resursları ilə təmin edəcəkdir.

İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın təmin edilməsi üçün şəhər və kəndlərin yenidən qurulması və bərpası, həmin ərazilərdə müasir infrastrukturların yaradılması məqsədi ilə dövlət büdcəsindən 4 milyard manat vəsaitin nəzərdə tutulması bu regionun iqtisadi və sosial həyata reinteqrasiyasına mühüm töhfə verəcəkdir.

Xüsusi təyinatlı alışlar istisna olunmaqla, müdafiə, təhlükəsizlik, məhkəmə, hüquq mühafizə və prokurorluq orqanları xərclərinin təxminən 560 milyon manat artırılmasını ölkəmizin bu sahədə yaranan və yaranacaq təhlükələrdən qorunması baxımından vacib hesab edirik. Ərazimizdə münaqişə bitsə də, sərhədlərimizdən kənarda bizim üçün təhlükələrin mövcudluğu bu sahədə əlavə tədbirlərin görülməsini zəruri edir.

Təhsilə ayrılan xərclərin 142,8 milyon manat artırılmasını məqbul hesab edirik. Bu istiqamətlərdə aparılan islahatların, xüsusi ilə də Tələbə Krediti Fonduna əlavə 8 milyon manat vəsaitin ayrılmasını, sertifikatlaşmadan keçən müəllimlərin əmək haqlarının artırılmasını, dövlət hesabına təhsil alanların sayının 10 min 645 nəfər artırılaraq 137 minə çatdırılmasını müsbət hesab edirik.

Keçmiş məcburi köçkünlərin, ölkənin suverenliyi, ərazi bütövlüyü uğrunda həlak olmuş, əlil şəxslərin övladları olan tələbələr, döyüş əməliyyatlarında iştirak etdiyinə görə müharibə veteranı statusu almış şəxslər və sair güzəştli kateqoriyaya aid şəxslərin təhsili üçün dövlət büdcəsindən 38 milyon vəsait ayrılmasını sosial dəstək baxımından vacib hesab edirik.

Səhiyyə xərcləri çərçivəsində İcbari tibbi sığorta büd-

cədənkənar fonduna dövlət büdcəsindən köçürmənin 112 milyon manat artırılmasını, bu kontekstdə adambaşına düşən icbari tibbi sığorta haqqının artırılaraq 122,9 manata çatdırılmasını vacib və faydalı hal hesab edirik.

Büdcə xərclərində qeyri-neft-qaz məhsullarının ixracının müxtəlif iqtisadi dəstək tədbirlərinin həyata keçirilməsi üçün ayrılan vəsaitləri vacib hesab etməklə yanaşı, cari xərclərin artım dinamikasının, publik hüquqi şəxslərə ayrılan subsidiyaların artım dinamikasının, nəticə əsaslı büdcə planlaşması və icrası üçün büdcə təşkilatlarının strateji planlama sahəsində davranışlarının arzu olunan həddə olmamasının da bizi narahat etdiyini demək istərdim. Yalnız büdcə vəsaitlərindən deyil, bütövlükdə, dövlət vəsaitlərindən istifadəyə nəzarətin gücləndirilməsini vacib hesab edirik. Hesab edirik ki, nəzarət yalnız xərclərə deyil, həm də gəlirlərin formalaşmasında hansı prinsiplərə əməl edildiyini də əhatə etməlidir.

Büdcə planlaşmasında və icrasında hər il tətbiq olunan yenilikləri və təkmilləşmələri təqdirəlayiq hal hesab edirik. Büdcə dayanıqlığının qorunub saxlanılmasını da iqtisadi siyasətdə mühüm uğur hesab edirik. Eyni zamanda, müasir texnologiyaların tətbiqinin inkişafı, ölkəmizdə bunun hər sahədə tətbiqi bu sahədə də yeni imkanlar yaradır. Konseptual olaraq, hesab edirik ki, artıq büdcə təşkilatları üçün vərdiş halını almış bu və ya digər istiqamətlər üçün büdcə vəsaitinin istənilməsi və ayrılması təcrübəsindən tədricən uzaqlaşaraq sosial-iqtisadi siyasətin məqsədlərinə çatmaq üçün maliyyə təminatının istənməsinə, ayrılmasına və icrasına nəzarətə nail olmaq lazımdır. Bu istiqamətdə müəyyən işlər görülməkdədir, xeyli işlər də görülür, amma daha çox işlərin də görülməsinə ehtiyac vardır.

Qanun layihəsinə dair izahatda fiskal risklər və inteqrasiya tədbirləri barədə geniş məlumatların verilməsini mühüm sayırıq. Hesab edirik ki, qeyri-standart vəziyyətin hakim kəsildiyi bir dövrdə doğru və çevik qərarların qəbulu mexanizmi məlumat bolluğu, çox ssenarilik və geniş təhlillərin aparılmasını tələb edir.

Aparılmış təhlillər təqdim edilmiş layihənin büdcə qaydasına uyğun hazırlandığını deməyə əsas verir. Təqdim edilmiş məlumatlar əsasında aparılmış hesablamalara görə 2024-cü ildə icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbəti 22,2 faiz proqnozlaşdırılmışdır ki, bu da müvafiq göstəricinin büdcə qaydası çərçivəsində olduğunu deməyə əsas verir.

2023-cü ilin 1 iyul tarixinə dövlət borcunun məbləği 16 milyard 151 milyon manat olmaqla ümumi daxili məhsulun 14,5 faizini təşkil etmişdir ki, bu da müvafiq nisbətin ortamüddətli dövr üzrə hədəflənən yuxarı hədd çərçivəsində olduğunu göstərir.

Təqdim edilmiş layihədə 2024-cü ildə dövlət büdcəsinin kəsiri 144,3 milyon manat azaldılaraq 2 milyard 590 milyon manat təşkil edəcəkdir ki, bunun da ümumi daxili məhsula nisbəti 2,2 faiz təşkil edəcəkdir.

Hörmətli həmkarlar, yekun olaraq, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi büdcə zərfinə daxil olan qanun layihələri ilə bağlı Milli Məclisdə aparılan müzakirələri əhatəli və məhsuldar hesab edir. Hesab edirik ki, müzakirəyə təqdim edilən 2024-cü il və sonrakı 3 ilin icmal və dövlət büdcələrinin layihələri ortamüddətli dövr üzrə makroiqtisadi proqnoz göstəriciləri nəzərə alınmaqla hazırlanmış, eyni zamanda, dövlətin əsas funksiyalarının yerinə yetirilməsi ilə yanaşı, Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilən

prioritet xərc istiqamətləri əsasında 2024-cü ildə həyata keçiriləcək tədbir və layihələr üzrə müvafiq maliyyə təminatı yaradacaqdır.

Bütün bunları nəzərə alaraq, Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında qanun layihəsinin Milli Məclisin plenar iclasında birinci oxunuşda müzakirəsini məqbul hesab edirik. Deputat həmkarlarımdan qanun layihəsini dəstəkləmələrini xahiş edirəm. Diqqətiniz üçün minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Hörmətli həmkarlar, indi isə mən Azərbaycan Respublikasının maliyyə naziri hörmətli Samir Şərifova söz vermək istəyirəm. Samir müəllim, buyurun.

**S.Şərifov,** *Azərbaycan Respublikasının maliyyə naziri.*

Hörmətli xanım sədr,  hörmətli cənab Baş nazir, hörmətli millət vəkilləri, xanımlar və cənablar. Azərbaycan dövləti tarixinin ən qürurlu və qüdrətli dövrünü yaşayır. Cari ilin sentyabr ayının 20-də Vətən müharibəsində tarixi Zəfərimizin 3-cü ildönümü ərəfəsində ölkəmizin bütün ərazisində dövlət suverenliyi tam bərqərar olmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ali dövlət vəzifəsində 20 illik fəaliyyətinin zirvəsi olan bu tarixi nailiyyət 100 illik yubileyini böyük ehtiramla qeyd etdiyimiz Ümummilli Lider Heydər Əliyevin dövlətçilik irsinə söykənir.

Azərbaycan Respublikasının Prezidenti müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin 20 illik prezidentlik fəaliyyəti Azərbaycan tarixinin ən qüdrətli, müstəqilliyinin ən güclü, dövlətçiliyinin ən möhtəşəm quruculuq mərhələsidir. Ölkəmizin tarixinə hərtərəfli və ardıcıl  tərəqqi illəri kimi daxil olan bu mərhələdə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müstəsna liderlik bacarığı, parlaq

zəkası, nadir uzaqgörənliyi və qətiyyəti sayəsində Azərbaycanın dövlətçilik əsasları və beynəlxalq nüfuzu daha da möhkəmlənmiş, ölkəmizin iqtisadi və enerji potensialından məharətlə istifadə olunmaqla onun sürətli sosial-iqtisadi inkişafı təmin olunmuş, Vətən müharibəsində xalqımızı və dövlətimizi möhtəşəm Zəfər zirvəsinə ucaldan müasir, mütəşəkkil və qüdrətli silahlı qüvvələr yaradılmışdır. Təcavüzə son qoyan Azərbaycan dövləti artıq 3 ildir ki, müasir sosial-iqtisadi inkişafının ən vacib prioriteti kimi müəyyən etdiyi işğaldan azad edilmiş ərazilərimizdə quruculuq prosesini sürətlə davam etdirir.

2020-ci ilin sonundan etibarən yenidənqurma və quruculuq işlərinə hər il dövlət büdcəsindən ayrılan vəsaitlə yanaşı, büdcənin əlavə gəlirləri və qənaətləri də səfərbər edilməklə 11 milyard manatdan çox vəsait xərclənmişdir. Cari ilin sonuna isə bu xərclərin 12 milyard manata çatması gözlənilir. Həmin vəsaitlər hesabına Qarabağ və Şərqi Zəngəzurda bir sıra böyük infrastruktur layihələri tamamlanaraq istifadəyə verilmiş, eyni zamanda, irimiqyaslı layihələrin əsası qoyulmuş, Böyük Qayıdışın ilk addımları olan Zəngilan, Laçın, Füzuliyə 30 ildir vətən həsrəti yaşayan vətəndaşlarımızın fəxarətli geri dönüşünə başlanılmışdır.

Qarabağın və Şərqi Zəngəzurun ölkə iqtisadiyyatına reinteqrasiyası qarşıdakı illərdə də əsas milli fəaliyyət prioritetlərindən biri kimi qalacaqdır. Milli Məclisin müzakirəsinə təqdim olunan 2024-cü il büdcə sənədi və sonrakı 3 ili üzrə büdcə xərcləri çərçivəsində ilk növbədə azad edilmiş ərazilərdə quruculuğun sürətləndirilməsi və insanların öz doğma yurdlarına qayıdışının daha tez başa çatdırılması üçün əhəmiyyətli maliyyə təminatının yaradılması nəzərdə tutulur.

Bununla yanaşı, beynəlxalq hüquq normaları və ədalət əsasında Cənubi Qafqaz regionunda Azərbaycanın yaratdığı yeni reallıqlar şəraitində dövlətimizin haqlı mövqeyinin və maraqlarının müdafiəsi, ərazi bütövlüyümüzün və sərhədlərimizin toxunulmazlığının təmin edilməsi baxımından ölkənin müdafiə qabiliyyətinin, milli təhlükəsizliyinin daha da möhkəmləndirilməsi xərclərinin yüksək səviyyədə saxlanılması növbəti il üçün də əsas prioritet kimi qəbul edilib. Bu xüsusda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev noyabrın 8-də Xankəndi şəhərində Azərbaycan xalqının Vətən müharibəsində qazandığı parlaq Zəfərin 3-cü ildönümünə həsr olunan paradda bildirmişdir: "Biz bütün vəzifələri icra etmişik. Ancaq bundan sonra da ordu quruculuğu məsələləri bizim üçün prioritet məsələlərdən biri olacaq. Bunu hamı bilsin və heç kim bunu unutmasın".

Hörmətli millət vəkilləri, Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin Milli Məclisə təqdim etdiyi 2024-cü il üçün dövlət büdcəsi haqqında qanun layihəsində dövlət büdcəsinin gəlirləri 34 milyard 173 milyon manat, xərcləri 36 milyard 763 milyon manat, müvafiq olaraq, dövlət büdcəsinin kəsiri 2 milyard 589 milyon manat məbləğində nəzərdə tutulur. Dövlət büdcəsinin xərcləri növbəti il üçün proqnozlaşdırılan ümumi daxili məhsula nisbətdə 31,1 faiz, 2023-cü illə müqayisədə 0,5 faiz bənd çox, gəlirləri 28,9 faiz, 2023-cü illə müqayisədə 0,6 faiz bənd çox, kəsiri isə 2,2 faiz, 2023-cü illə müqayisədə 0,1 bənd az təşkil edəcəkdir.

Cari ilin iyununda yenidən baxılma ilə 3,4 milyard manat məbləğində, yaxud 10,2 faiz artırılmış 2023-cü ilin dövlət büdcəsinin xərcləri ilə müqayisədə növbəti ilin dövlət büdcəsinin xərcləri 0,4 faiz artımla proqnozlaşdı-

rılsa da, son 5 ildə, yəni 2020-ci illə müqayisədə 2024-cü ilin dövlət büdcəsinin xərcləri 10 milyard 347 milyon manat və yaxud 40 faizdən çox artmışdır.

2024-cü ilin dövlət büdcəsi xərclərinin 18,8 milyard manatı və ya 51 faizdən artıq hissəsi məqsədli dövlət proqramlarının və məqsədli tədbirlərin maliyyələşdirilməsinə yönəldiləcəkdir ki, bu da dövlət büdcəsi xərclərinin ünvanlığını və proqramyönlüyünü artıracaqdır.

2024-cü ilin dövlət büdcəsində müdafiə və milli təhlükəsizliyin daha da möhkəmləndirilməsi, Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması, "Azərbaycan Respublikasının Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"inə söykənən "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın məqsədlərinin reallaşması üzrə tədbirlərin maliyyələşdirilməsi prioritet olaraq qəbul edilmişdir. Bu vacib prioritetlərə uyğun olaraq, növbəti ildə azad edilmiş ərazilərdə yenidən qurulma və bərpa işləri 2024-cü il dövlət büdcəsi xərclərinin 10,9 faizinə bərabər və yaxud 4 milyard manat məbləğində vəsait ayrılacaqdır.

Müdafiə və milli təhlükəsizlik xərclərinə dövlət büdcəsi xərclərinin 17,5 faiz həcmində, yaxud 6 milyard 421 milyon manat məbləğində vəsait nəzərdə tutulmuşdur ki, bu da cari illə müqayisədə 366 milyon manat və yaxud 6 faiz çox, 2022-ci ilin icra göstəriciləri ilə müqayisədə isə 1 milyard 525 milyon manat, yaxud da 31,1 faiz çoxdur.

"Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi üçün növbəti il dövlət büdcəsi xərclərinin 4,1 faiz həcmində və ya 1 milyard 509 milyon manat vəsait yönəldiləcəkdir.

2024-cü ilin dövlət büdcəsində yuxarıda qeyd olunan 3

prioritet xərc istiqamətinin maliyyələşdirilməsi üçün büdcə xərclərinin üçdə biri və yaxud ÜDM-in 10,1 faizi həcmində vəsait yönəldiləcəkdir.

Növbəti ilin dövlət büdcəsində xərclərin prioritetliyinə önəm verilməklə yanaşı, əhalinin sosial müdafiəsi, təhsil və səhiyyə sahələrində islahatların davam etdirilməsi, ölkənin ərzaq təhlükəsizliyi, sahibkarlığa dəstək tədbirləri, səfərbərlik və fövqəladə ehtiyatların formalaşdırılması, dövlət investisiya proqramının maliyyələşdirilməsi üçün tələb olunan vəsaitlərin ayrılması da diqqətdə saxlanılmışdır. Ənənəvi olaraq dövlət büdcəsi xərclərinin tərkibində sosialyönlü xərclərin böyük xüsusi çəkiyə malik olması növbəti ilin büdcə sənədinə də xasdır. Belə ki, 2024-cü ildə dövlət büdcəsi xərclərinin 43 faizi, onun cari xərclərinin isə 70 faizi və yaxud 15 milyard 773 milyon manatı sosialyönümlü xərclərin maliyyələşdirilməsi üçün nəzərdə tutulur. Bu, cari ilin göstəricisi ilə müqayisədə 1 milyard 35 milyon manat və yaxud 7 faiz, 2022-ci ilin icra göstəricisi ilə müqayisədə isə 3 milyard 38 milyon manat, yaxud da 24 faiz çoxdur. 2020-ci illə müqayisədə 2024-cü ildə sosialyönlü xərclərinin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 6 faiz bənd, mütləq ifadədə isə bu xərclər 6 milyard 19 milyon manat və yaxud 60 faiz çox olacaqdır.

Bununla yanaşı, qeyd etmək istərdim ki, növbəti ilin dövlət büdcəsi xərclərinin 24,5 faizi və yaxud 9 milyard manatı, sosialyönlü xərclərin isə 57 faizi əməyin ödənişi xərclərinin payına düşür. 2020-ci illə müqayisədə 2024-cü ildə əməyin ödənişi xərcləri 2 milyard 811 milyon manat və yaxud 45,3 faiz artıq olacaqdır. Əhalinin sosial müdafiəsi və sosial təminat xərcləri üçün növbəti ilin dövlət büdcəsində 4 milyard 542 milyon manat vəsait nəzərdə tutulur ki, bu da 2023-cü ilə nisbətən 226 milyon manat,

yaxud 5,2 faiz, 2022-ci ilin icra göstəricisinə nisbətən isə 1 milyard 78 milyon manat və yaxud da 31,1 faiz çoxdur. 2020-ci illə müqayisədə bu xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 0,6 faiz bənd, mütləq ifadədə isə həcmi 1 milyard 430 milyon manat və yaxud 45,9 faiz artmışdır. Cari illə müqayisədə 293 milyon manat və yaxud 14,4 faiz artımla proqnozlaşdırılan sosial müavinətlər, təqaüdlər və digər sosial xarakterli ödənişlərin maliyyə təminatı üçün 2 milyard 631 milyon manat vəsait sərf ediləcəkdir. Bu xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 7,2 faiz təşkil edəcək və yaxud cari illə müqayisədə 0,8 faiz bənd çox olacaqdır.

Keçmiş məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı xərclərin növbəti ildə davam etdirilməsi məqsədi ilə dövlət büdcəsindən 355 milyon manat vəsait ayrılacaqdır.

2024-cü ilin dövlət büdcəsindən səhiyyə xərcləri üçün 1 milyard 871 milyon manat vəsait ayrılacaqdır ki, bu da 2023-cü ilə nisbətən 125 milyon manat və yaxud 7,2 faiz çoxdur. Həmin vəsaitin 73,5 faizi və yaxud 1 milyard 376 milyon manatı dövlət büdcəsinin vəsaiti hesabına əhalinin icbari tibbi sığortalanmasına sərf ediləcəkdir ki, bu da cari illə müqayisədə 112 milyon manat və yaxud 8,9 faiz çoxdur. Səhiyyə xərcləri üçün dövlət büdcəsindən ayrılan vəsait dövlət büdcəsi xərclərinin 5 faizini təşkil edəcəkdir. Bütövlükdə, gələn il üçün dövlət və icmal büdcələrindən səhiyyə xərclərinə cəm olaraq 3 milyard 307 milyon manat vəsait ayrılacaqdır ki, bu da 2023-cü ilə nisbətən 431 milyon manat və ya 15 faiz çoxdur. Səhiyyə xərcləri ümumi daxili məhsulun 2,8 faizini təşkil edəcəkdir ki, bu da cari illə müqayisədə 0,4 faiz bənd çoxdur.

“Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” strategiyasında müəyyən edilmiş 5 milli prio-

ritetdən biri olan təhsil və elm xərclərinə 4 milyard 779 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur ki, bu da cari illə müqayisədə 146 milyon manat və yaxud 3,2 faiz, 2022-ci ilin icra göstəricisi ilə müqayisədə isə 914 milyon manat və yaxud 24 faiz çoxdur. 2020-ci illə müqayisədə 2024-cü ildə təhsil və elm xərclərinin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 1,9 faiz bənd, mütləq ifadədə həcmi isə 1 milyard 767 milyon manat və yaxud 60 faiz artacaqdır. Növbəti ildə dövlət sifarişi və dövlət hesabına kadr hazırlığı üzrə təhsil alanların sayının təqribən 10 min 645 nəfər artaraq 136 min 968 nəfərə, təqaüd alanların sayının isə 10 min 284 nəfər artaraq 116 min 540 nəfərə çatdırılması hədəflənir. Gələn il güzəştli kateqoriyaya aid olan 19 min 200 nəfər tələbənin təhsil və təqaüd xərcləri üçün 38 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur.

Kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi ilə bağlı tədbirlərin maliyyə təminatı üçün növbəti ilin dövlət büdcəsində 1 milyard 110 milyon manat vəsait ayrılacaq. Kənd təsərrüfatına ayrılacaq vəsaitin 45,3 faizi və yaxud 503 milyon manatı ərzaq təhlükəsizliyi tədbirlərinin, o cümlədən fermerlərə subsidiyaların – əkin, məhsul, toxum, heyvan, barama və sair subsidiyaların verilməsi, kənd təsərrüfatı texnikalarının, texnoloji avadanlıqların və suvarma sistemlərinin satış qiymətinə güzəştlərin tətbiqi ilə bağlı xərclərin qarşılanması üçün nəzərdə tutulur. Yerdə qalan vəsaitin 45,7 faizi və yaxud 507 milyon manatı su ehtiyatlarının səmərəli idarə olunması və torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması, 9 faizi, 100 milyon manatı isə baytarlıq və digər kənd təsərrüfatı tədbirləri üçün nəzərdə tutulmuşdur.

2024-cü ildə dövlət büdcəsindən sahibkarlığın inki-

şafına bir sıra maliyyə alətləri vasitəsi ilə dəstək verilməsi, o cümlədən İpoteka və Kredit Zəmanəti Fondunun nizamnamə kapitalının artırılması üçün 87,7 milyon manat, sahibkarlığa və digər iqtisadi fəaliyyətlər üzrə dəstək tədbirləri üçün 349 milyon manat, o cümlədən iqtisadi sektora və sahibkarlığa dəstək 100 milyon manat, işğaldan azad edilmiş ərazilərdə ödəniləcək kommunal xidmətlərə və məcburi dövlət sosial sığorta haqlarına görə maliyyə yardımı 35 milyon manat, sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizə görə subsidiyanın ödənilməsi üçün 12,3 milyon manat, dövlət zəmanəti ilə verilmiş kreditlər üzrə faizlərin subsidiyalaşdırılması və problemli kreditlərin həlli ilə bağlı maliyyə təminatı üçün 1,7 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur.

2024-cü ildə ölkənin enerji, qaz, su təchizatı, nəqliyyat, kommunal, kənd təsərrüfatı, meliorasiya təyinatlı infrastrukturlarının, sosial mədəni təyinatlı obyektlərinin və digər təyinatlı layihələrinin maliyyə təminatı üçün dövlət əsaslı vəsait qoyuluşu xərclərinə 2 milyard 483 milyon manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur. Yeni borclanma siyasətinə uyğun olaraq, gələn il dövlət borclarına xidmətlə bağlı xərclər üçün 1 milyard 973 milyon manat vəsait sərf ediləcəkdir ki, bu da cari illə müqayisədə 790 milyon manat və yaxud 66,8 faiz çoxdur. Azərbaycan Respublikasının 2024-cü il üzrə daxili dövlət borclanmasının yuxarı həddinin 2 milyard 300 milyon manat, xarici dövlət borclanmasının yuxarı həddinin 1 milyard 700 milyon manat və il ərzində veriləcək dövlət zəmanətlərinin məbləğinin yuxarı həddinin 700 milyon manat məbləğində olması təklif olunur.

Yuxarıda göstərildiyi kimi, müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, işğaldan azad edilmiş ərazilərin ye-

nidən qurulması, Qarabağ və Şərqi Zəngəzurun ölkə iqtisadiyyatına reinteqrasiyası, qəbul olunmuş dövlət proqramlarının icrası, sosial müdafiə və sosial təminat, təhsil, səhiyyə sahələri üzrə dövlətin əsas funksiyalarının maliyyə təminatının artan tələbatının ödənilməsi ilə yanaşı, 2024-cü ildə dövlətimizin beynəlxalq aləmdə mövqelərinin təmin edilməsi, beynəlxalq öhdəliklərimizin yerinə yetirilməsi, beynəlxalq fəaliyyətin həyata keçirilməsi, o cümlədən xarici ölkələrə və beynəlxalq təşkilatlara yardımların göstərilməsi məqsədi ilə dövlət büdcəsində müvafiq xərclər nəzərdə tutulmuşdur. Bu səpkidə xarici ölkələrdə, həmçinin üzv olduğumuz beynəlxalq təşkilatların yanında fəaliyyət göstərən, ölkəmizin diplomatik nümayəndəliklərinin xərcləri 7 faizdən çox artırılaraq 198 milyon manata çatdırılıb. Ölkəmizin xaricdəki mədəniyyət mərkəzlərinin və ticarət nümayəndəliklərinin xərcləri üçün 17 milyon manat, xaricdə yaşayan Azərbaycan diasporasına dəstək tədbirləri üçün 14 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub. Ölkəmizin beynəlxalq təşkilatlara üzvlük haqları, səhm kapitalında iştirak etdiyimiz beynəlxalq maliyyə institutları qarşısında öhdəliklərin qarşılanması üçün 32 milyon manat, xarici ölkələrə birbaşa və beynəlxalq təşkilatlar vasitəsi ilə yardımların edilməsi üçün 80 milyon manat, xarici ölkələrdə həmtəsisçisi olduğumuz beynəlxalq investisiya, inkişaf fondlarına iştirak payının maliyyə təminatı üçün 31 milyon manat, beynəlxalq tədbirlərin, ölkə daxilində tədbirlərin keçirilməsi üçün 216 milyon manat vəsait nəzərdə tutulur.

2020-ci ildə dövlət büdcəsinin yerli xərcləri 783 milyon manat həcmində proqnozlaşdırılıb. Həmin xərclərin maliyyə təminatı üçün dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən cəmi 9 milyon manat məbləğində dotasiyanın

ayrılmasına ehtiyac olacaqdır. Bələdiyyə büdcələrinə 6,5 milyon manat məbləğində dotasiyanın və 6 milyon manat məbləğində subvensiyaların ayrılması nəzərdə tutulmuşdur.

Hörmətli millət vəkilləri və iclas iştirakçıları. Təqdim olunan layihə ilə 2024-cü il dövlət büdcəsi xərclərinin 93 faizinin və yaxud 34 milyard 173 milyon manatının dövlət büdcəsinin gəlirləri hesabına maliyyələşdirilməsi nəzərdə tutulur. Gəlirlərlə təmin edilməyən dövlət büdcəsinin kəsiri xərclərin 7 faizi həcmində və yaxud 2 milyard 590 milyon manat məbləğində proqnozlaşdırılmışdır. Dövlət büdcəsinin kəsirini özəlləşdirmədən daxilolmalar, dövlət borclanması, vahid xəzinə hesabının və məqsədli büdcə fondlarının vəsaitinin qalıqları hesabına maliyyələşdirilməsi nəzərdə tutulur. Növbəti ildə dövlət büdcəsinin gəlirləri praktiki olaraq, bərabər səviyyədə, neft və qeyri-neft sektorlarından toplanacaq daxilolmalar hesabına təmin olunur. Qeyri-neft sektorundan proqnozlaşdırılan gəlirlərin 58,2 faizini və yaxud 9 milyard 890 milyon manatını vergi daxilolmaları, 34,7 faizini və yaxud 5 milyard 900 milyon manatını gömrük rüsumları və idxaldan vergi daxilolmaları, 4,9 faizi və yaxud 831 milyon manatını büdcə təşkilatlarının ödənişli xidmətləri üzrə daxilolmalar və 2,2 faizini və yaxud da 388 milyon manatını digər daxilolmalar təşkil edəcəkdir.

Cari ilin müvafiq göstəriciləri ilə müqayisədə qeyri-neft sektoru üzrə vergi daxilolmaları 905 milyon manat və 10,1 faiz, gömrük rüsumları və idxaldan vergi daxilolmaları 172 milyon manat və 3 faiz çox olacaqdır. Büdcə təşkilatlarının ödənişli xidmətləri üzrə daxilolmaları 26 milyon manat və 3 faiz, digər daxilolmalar isə 193 milyon manat və ya 33,2 faiz az olacaqdır.

Dövlət büdcəsinin neft-qaz sektorundan gəlirləri Dövlət

Neft Fondundan dövlət büdcəsinə ediləcək 12 milyard 781 milyon manat məbləğində transfer nəzərə alınmadan, cari ilin müvafiq göstəricisi ilə müqayisədə 1 milyard 619 milyon manat az olmaqla, 4 milyard 384 milyon manat məbləğində proqnozlaşdırılır. 2024-cü ildə Dövlət Neft Şirkətinin dövlət büdcəsinə ödəyəcəyi vergi və divident üzrə daxilolmalar cari illə müqayisədə 408 milyon manat və yaxud 20,4 faiz artımla nəzərdə tutulmaqla 2 milyard 408 milyon manat həcmində proqnozlaşdırılır. Beynəlxalq konsorsiumlar üzrə isə vergi daxilolmaları 1 milyard 975 milyon manat həcmində və cari ilin büdcə göstəricisi ilə müqayisədə 2 milyard 27 milyon manat az gözlənilir. Neft-qaz sektoru üzrə büdcə daxilolmalarının hesablamalarında 1 barel xam neftin qiyməti 60 ABŞ dolları, 1000 kubmetr qazın qiyməti isə 275 ABŞ dolları qəbul edilib.

Ortamüddətli dövr üzrə büdcə-vergi siyasətinin formalaşdırılmasında qlobal və regional geosiyasi gərginlik, qlobal dekarbonlaşma çağırışları, dünya enerji bazarlarında volatilliyin hökm sürməsi, eləcə də təbii qazın qiymətlərinin və ölkədaxili neft hasilatının aşağı enməsi kimi bir sıra xarici və daxili mühit faktorları nəzərə alınmışdır. Sadalanan faktorların təsiri dövlət büdcəsinin neft-qaz sektoru üzrə daxilolmaların, xüsusi ilə də vergi, o cümlədən mənfəət neftinin satışından əldə olunan vergi daxilolmalarının tədricən azalmasını, dövlət və icmal büdcələrinin neft gəlirləri həcminin ildən-ilə daralmasını şərtləndirir. Göstərilənlər nəzərə alınmaqla, növbəti illərdə icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbətinin ardıcıl şəkildə azaldılması və büdcə xərclərinin daha çox qeyri-neft sektorundan daxilolmalar hesabına təmin edilməsi üzrə qəbul edilmiş fiskal siyasətin davam etdirilməsi labüddür. Bununla yanaşı, qeyd olunmalıdır

ki, hazırda dünya enerji bazarlarında mövcud olan əlverişli qiymət konyunkturu fonunda aparıcı beynəlxalq təşkilatlar tərəfindən ehtimal olunan neft qiyməti büdcə göstəricilərinin proqnozlaşdırılması zamanı mühafizəkar prinsiplər əsasında götürülən neft qiymətini xeyli üstələyir. Təbii qaz hasilatının və satışının genişlənməsi, həmçinin qeyri-neft sektorundan daxilolmaların artması, neft hasilatında və neft gəlirlərində gözlənilən azalmanın qismən kompensasiya edilməsi büdcə qaydasının hədəfləri çərçivəsində Dövlət Neft Fondunun aktivlərinin ortamüddətli dövrdə dayanıqlı səviyyədə saxlanılması ilə yanaşı, fonddan dövlət büdcəsinə yönəldilən transferin həcminin artırılmasına imkan yaradır. Bu baxımdan ölkəmizin qarşısında duran hərbi-siyasi və sosial-iqtisadi çağırışların təmin edilməsi, onunla bağlı dövlət və icmal büdcələrində müvafiq maliyyə təminatının yaradılması üçün büdcə qaydasının ortamüddətli, yəni 2024–2027-ci illəri əhatə edən hədəf göstəricilərinin korrektə edilərək daha yumşaq trayektoriyaya yönləndirilməsi zəruri hesab edilmişdir.

Azərbaycan Respublikasının Prezidentinin müvafiq sərəncamları ilə büdcə qaydası üzrə icmal büdcənin qeyri-neft baza kəsirinin, qeyri-neft ÜDM-ə hədəf göstəricisinin yuxarı həddi 2024-cü il üçün 24 faiz, 2027-ci ilin sonuna isə 17,5 faiz səviyyəsində müəyyən edilmiş, dövlət borcunun ÜDM-ə nisbətinin hədəf göstəricisi mövcud 20 faizdən 30-dək genişləndirilmişdir. Büdcə qaydasının hədəf göstəricilərində edilmiş dəyişikliklər ölkəmizin dövlət quruculuğu və sosial-iqtisadi inkişafının yeni mərhələsi üzrə vəzifələrin yerinə yetirilməsini dəstəkləyir. Buna rəğmən, bu dəyişikliklərin qeyri-neft baza kəsirinin mərhələli şəkildə azaldılmasına, dövlət borcunun, eləcə də Dövlət Neft Fondunun aktivlərinin səviyyəsi üzrə hədəf-

lərə nail olunmasına, son nəticədə fiskal dayanıqlığın və makroiqtisadi sabitliyin təmin edilməsi məqsədlərinə xələl gətirməyəcəyi qənaətindəyik.

Hörmətli millət vəkilləri, indi isə 2024-cü ilin icmal büdcənin əsas göstəricilərinin qısa xülasəsini diqqətinizə çatdırmaq istərdim. Növbəti il üçün icmal büdcənin gəlirləri 38 milyard 998 milyon manat, xərcləri 42 milyon 376 milyon manat, kəsiri isə 3 milyard 379 milyon manat həcmində proqnozlaşdırılır. 2024-cü il üçün Dövlət Neft Fondunun büdcəsinin gəlirləri 12 milyard 73 milyon manat, xərcləri isə 12 milyard 862 milyon manat təşkil edəcəkdir. Dövlət Sosial Müdafiə Fondunun büdcəsi 6 milyard 920 milyon manat, cari illə müqayisədə 652 milyon manat çox, İcbari tibbi sığorta fondunun büdcəsi 2 milyard 811 milyon manat, cari illə müqayisədə 418 milyon manat, 17,5 faiz çox. İşsizlikdən sığorta fondunun büdcəsi 238 milyon manat və cari illə müqayisədə 20 milyon manat, 9,3 faiz çox olacaqdır.

Naxçıvan Muxtar Respublikasının büdcəsinin xərcləri 516 milyon manat və cari illə müqayisədə 89 milyon manat və ya 14,7 faiz az proqnozlaşdırılır. Naxçıvan Muxtar Respublikasının büdcəsində nəzərdə tutulmuş bir sıra təşkilat və tədbirlərin maliyyələşdirilməsinin növbəti ildən dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərinə keçməsi ilə əlaqədar buna uyğun olaraq, onun büdcəsi azalmışdır. Əlavə edim ki, 2024-cü ilin dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərində "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin icrası üçün 249 milyon manat məbləğində məqsədli vəsait nəzərdə tutulmuşdur.

Hörmətli millət vəkilləri, iclas iştirakçıları, 2024-cü il

üçün dövlət və icmal büdcələrinin layihələri ölkəmizin qədəm qoyduğu yeni inkişaf mərhələsi və qarşımızda duran çağırışlar nəzərə alınmaqla tərtib olunmuşdur. Bu layihələrin qəbul olunması Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin prioritet hədəf kimi müəyyən etdiyi ölkəmizin müdafiə qabiliyyətinin gücləndirilməsini, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışı təmin edəcək, sürətli bərpa və yenidənqurma işlərinin davam etdirilməsi, iqtisadi inkişafın stimullaşdırılması üzrə tədbirlərin həyata keçirilməsi, əhalinin sosial müdafiəsinin təmin edilməsi və dövlətin əsas vəzifə və funksiyalarının həyata keçirilməsi üçün maliyyə təminatı yaradacaqdır. Bunları nəzərə alaraq, hörmətli millət vəkillərini təqdim olunmuş 2024-cü il büdcə qanunu və büdcə zərfinə daxil edilmiş digər qanunvericilik aktlarını dəstəkləməyə çağırıram. Diqqətinizə görə təşəkkürümü bildirirəm.

**Sədrlik edən.** Çox sağ olun, Samir müəllim. İndi isə Azərbaycan Respublikasının iqtisadiyyat naziri hörmətli Mikayıl Cabbarova söz verilir. Mikayıl müəllim, buyurun.

**M.Cabbarov,** *Azərbaycan Respublikasının iqtisadiyyat naziri.*

Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli deputatlar və hökumət üzvləri, xanımlar və cənablar. Bu gün Milli Məclisdə 2024-cü il və sonrakı 3 ilin dövlət büdcəsi layihəsi müzakirə olunur və builki müzakirə tamamilə fərqli qlobal və regional geosiyasi reallıqlar şəraitində baş verir. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan öz ərazi bütövlüyünü tam olaraq təmin etmiş və bu, ölkənin gələcək sosial-iqtisadi inkişafına çoxsaylı yeni imkanlar açan böyük bir tarixi hadisədir. Qlobal geosiyasi eskalasiyanın və geoiq-

tisadi fraqmentasiyanın güclənməsi səbəbindən son dərəcə mürəkkəb qlobal iqtisadi fonda Azərbaycanda iqtisadiyyatın dayanıqlı inkişafı davam etdirilir, cənab Prezident tərəfindən müəyyən edilmiş strateji inkişaf kursu bütün istiqamətlərdə uğurla həyata keçirilir. Ölkədə həyata keçirilən yeni nəsil islahatlar və iqtisadiyyatın şaxələndirilməsi sahəsində görülən irimiqyaslı işlər, işğaldan azad olunmuş ərazilərin bərpası və reinteqrasiyası orta və uzunmüddətli dövrdə dayanıqlı və keyfiyyətli iqtisadi inkişafın təməllərini daha da gücləndirməkdədir. Cari ilin 9 ayında neft-qaz sektorunda real ÜDM-in 1,5 faiz azalmasına baxmayaraq, qeyri-neft-qaz sektorunda iqtisadi artımın 3 faiz təşkil etməsi ümumi iqtisadi artıma müsbət təsir etmişdir. Bir sahə istisna olmaqla, qeyri-neft iqtisadiyyatında, bütün digər sahələrdə artım qeydə alınıbdır. Belə ki, qeyri-neft-qaz sənayesi 6,3, tikinti sektoru 12,5, informasiya və rabitə sektoru 14,7, turizm sektoru 26, kənd təsərrüfatı 3, ticarət sektoru isə 3,3 faiz bənd artmışdır. Əsas kapitala investisiya qoyuluşlarının real artım tempinin 21 faizi, o cümlədən qeyri-neft-qaz sektorunda 23 faizi ötməsi iqtisadi artıma və məşğulluğa müsbət təsir etmişdir. Burada işğaldan azad edilmiş ərazilərin bərpası üzrə həyata keçirilən sərmayələr mühüm amillərdən biridir.

Neft və qazın dünya bazar qiymətlərinin ötən illə müqayisədə aşağı düşməsinə baxmayaraq, xarici ticarət balansında böyük həcmli profisit müşahidə olunmaqdadır və cari ilin 10 ayında ixrac 29 milyard dolları ötmüş, ticarət balansının profisiti 15 milyard ABŞ dolları təşkil etmişdir. Qeyri-neft-qaz sektorunun ixracı isə 11 faizdən çox artaraq 2,7 milyard ABŞ dollarını ötmüşdür. Emal olunmuş kənd təsərrüfatı məhsulları çıxılmaqla, qeyri-neft sənaye məhsullarının qeyri-neft-qaz ixracında payı 68

faizə çatmaqdadır. Cari ilin 9 ayında qeyri-neft-qaz sənaye məhsullarının ixracında sənaye zonalarının payı 23 faizə çatmışdır.

Son aylarda qlobal ərzaq bazarlarında qiymətlərin, ticarət tərəfdaşı olan ölkələrdə inflyasiyanın nisbətən səngiməyə başlaması, hökumət tərəfindən antiinflyasiya tədbirlərinin həyata keçirilməsi inflyasiyanın tədricən yavaşlamasına imkan vermişdir. Nəticədə 2023-cü ilin 9 ayında inflyasiya 10,9 faiz təşkil etmişdir. İqtisadi artımın davam etməsi və şəffaflaşma şəraitində cari ilin 10 ayında dövlət büdcəsinə 14,6 milyard manat vergi daxilolmaları təmin edilmiş, proqnozdan əlavə 1,1 milyard manata yaxın vergi toplanmışdır. Qeyri-neft-qaz sektoru üzrə dövlət büdcəsində 8,4 milyard manat vergi daxilolmaları təmin edilmiş, proqnozdan əlavə 550 milyon manat vergi toplanmışdır. Sektor üzrə daxilolmalar ötən ilin eyni dövrünə nisbətən 19 faizdən çox artmışdır. Qeyd edim ki, cari ilin 9 ayında dövlət büdcəsinin gəlirlərindən qeyri-neft-qaz gəlirlərinin xüsusi çəkisi 59,5 faiz təşkil etmişdir. Cari ilin 10 ayında qeyri-neft sektorunun özəl bölməsi üzrə vergi daxilolmaları 23 faizədək artmış, özəl bölmənin qeyri-neft-qaz vergi daxilolmalarında payı 76 faizi ötmüşdür. Cari ildə əldə olunmuş fiskal nəticələr Dövlət Neft Fondundan büdcəyə nəzərdə tutulmuş transferlərin həcminə qənaət etməyə imkan verir ki, bu da fondun aktivlərinin proqnozdan daha yüksək artımını təmin edir.

Vergi daxilolmaları ilə yanaşı, sosial sığorta yığımları üzrə də yüksək artım dinamikası müşahidə olunur. Cari ilin 10 ayında məcburi dövlət sosial sığortası üzrə daxilolmalar 4,2 milyard manat təşkil etmiş, proqnozdan əlavə 351 milyon manat vəsait toplanmışdır. Daxilolmalar ötən ilin eyni dövrü ilə  müqayisədə 14 faizdən çox artmışdır.

Sosial sığorta üzrə yığmaların əhəmiyyətli artması və bununla yanaşı, sahəvi qurum tərəfindən sosial sferada həyata keçirilən islahatlar Dövlət Sosial Müdafiə Fondu üzrə böyük həcmdə sərbəst vəsaitlərin yaranmasına imkan vermiş və bu vəsaitlərin idarə edilməsi mexanizmi artıq yaradılmışdır. Bu vəsaitlər isə yaxın gələcəkdə iqtisadiyyatda uzun pulların mühüm mənbələrindən biridir. İşsizlikdən sığorta üzrə daxilolmalar 149 milyon manat təşkil etmiş, ötən ilin eyni dövrü ilə müqayisədə 16 faizədək artmışdır.

Burada mən vacib bir məqamı diqqətinizə çatdırmaq istərdim. Belə ki, cənab Prezidentin təşəbbüsünə uyğun olaraq, əmək bazarının leqallaşdırılması məqsədi ilə əmək haqqı üzrə islahatlar uğurla həyata keçirilməkdə davam edir. Nəticədə qeyri-neft-qaz özəl sektorda 350 minədək yeni əmək müqavilələri bağlanmışdır ki, bu da pandemiya ili də daxil olmaqla islahat başlayan dövrdən ildə orta hesabla təxminən 70 min yeni rəsmi iş yerinin qeydə alınması deməkdir. Bu, əmək bazarını tərk edən işçilərin sayını üstələyir və son tarixə qeyri-neft-qaz özəl sektorunun əmək müqavilələrində payı 50 faizə çatmaqdadır. Cari ildə sektorda əmək müqavilələrin sayı dövlət sektorunun göstəricisini üstələməyə başlamışdır və son tarixə bu 38 mindən çox say təşkil edir.

Bundan sonra əsas vəzifəmiz yaranan yeni iş yerlərinin kəmiyyəti ilə yanaşı, onların keyfiyyətinə diqqət verməkdir. Çünki şaxələnmə siyasətinin nəticəsi olaraq iqtisadiyyatın strukturunun getdikcə mürəkkəbləşməsi və daha yüksək əlavə dəyərə malik sahələrin inkişafı iş yerlərinin keyfiyyətinə dair tələbləri artır ki, bu da öz növbəsində həm orta aylıq əmək haqqına, həm peşə hazırlığına, həm də təhsil və miqrasiya siyasətinə öz təsirini göstərir.

Qısa olaraq cari ildə ölkə iqtisadiyyatında həyata keçirilən bəzi struktur islahatları və onların nəticələri barədə də məlumat vermək istərdim. Belə ki, 2023-cü ilin 10 ayında 208 müəssisə və obyekt, 9 açıq səhmdar cəmiyyətinin səhmləri və 91 dövlət mülkiyyətində olan torpaq sahəsi özəlləşdirilmişdir. Özəlləşdirilmədən dövlət büdcəsinə 104 milyon manata yaxın vəsait daxil olmuş və 10 aylıq proqnoz 116 faizdən çox icra edilmişdir.

Cənab Prezidentin müvafiq sərəncamına əsasən 8 iri dövlət müəssisəsinin restrukturizasiyası və sağlamlaşdırılması, onların fəaliyyət səmərəliliyinin artırılması, özəl investisiyaların cəlb edilməsi məqsədi ilə həmin müəssisələrdə dövlətin iştirak paylarının azaldılması, bununla yanaşı, müvafiq sahələrdə liberallaşdırma və inhisarsızlaşdırma imkanlarının nəzərdən keçirilməsinə dair təkliflərin hazırlanması istiqamətində də tədbirlər həyata keçirilir. Bununla əlaqədar nüfuzlu beynəlxalq məsləhətçi şirkətlər də cəlb edilmişdir. İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanmış, hökumət tərəfindən təqdim edilmiş və möhtərəm cənab Prezident tərəfindən dəstəklənmiş azad və sağlam rəqabətin təmin olunmasının ümumi əsaslarını, bu sahədə dövlət nəzarətini və tənzimlənməni, bazar subyektlərinin hüquqlarını və vəzifələrini, habelə rəqabət qanunvericiliyinin pozulmasına görə məsuliyyəti müəyyən edən Rəqabət Məcəlləsinin yekun layihəsinə Milli Məclisdə baxılır. Fürsətdən istifadə edərək, mən, hörmətli xanım sədr, Sizə və deputatlara bu vacib sənədin konstruktiv müzakirəsinə görə bir daha təşəkkürümü bildirirəm.

Bundan əlavə, ötən ilin sonlarında qəbul edilmiş "Dövlət-özəl tərəfdaşlığı haqqında" Qanundan irəli gələrək investisiya layihələrinin idarə olunması və bu layihələr üzrə investorların cəlb edilməsi məqsədi ilə İqtisadiyyat

Nazirliyi tərəfindən institusional çərçivənin yaradılmasına və real investisiya təklifləri üzrə müzakirələrə başlanılmışdır.

Dövlət satınalmaları sahəsində şəffaflığın artırılması, o cümlədən bütün satınalmaların dövlət satınalmalarının vahid internet portalı vasitəsi ilə keçirilməsini təmin edən "Dövlət satınalmaları haqqında" imzalanmış yeni Qanunun 2024-cü il 1 yanvar tarixindən tətbiqinə başlanacaq. Dövlət satınalmalarında şəffaflığın gücləndirilməsi sahəsində tədbirlər davam etdirilir və təkcə bir faktı qeyd edim ki, cari ilin 10 ayında keçirilmiş satınalmalarda mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payı 90 faizi ötmüşdür.

Nazirlik tərəfindən hazırlanmış təkliflərə əsasən dövlət başçısının müvafiq fərmanı ilə investisiya təşviqi mexanizmi təkmilləşdirilmişdir. Dəyişikliklərə əsasən investisiya təşviqi sənədi 2023-cü ilin 1 yanvar tarixindən 3 il müddətinə sənaye məhəllələri, aqroparklar, turizm və rekreasiya zonaları və müvafiq ərazilərdə həyata keçirilən layihələrə, habelə dövlət başçısı tərəfindən müəyyən edilən istiqamətlər üzrə strateji layihələrə verilir. Hazırda qeyri-neft-qaz sektorda strateji layihələr üzrə istiqamətlərin müəyyən olunması ilə bağlı işlər aparılır. Əsas vəzifəmiz iqtisadiyyatda yüksək əlavə dəyər yaradan və başlıca olaraq özəl sektorda cəmləşmiş fəaliyyət sahələrində təşviq və yeni stimullaşdırma alətlərinin geniş tətbiqini təmin etməkdir.

Qarşımızda duran digər mühüm vəzifə, bildiyiniz kimi, dövlət şirkətlərinin fəaliyyətini yenidən qurmaqla onların fəaliyyətinin səmərəsini artırmaq və dövlət büdcəsinə divident ödənişi ənənəsini aşılamaqdır ki, bu da artıq tədricən dövlət büdcəsində öz əksini tapmaqdadır. Bu, 3 il bundan öncə Azərbaycan İnvestisiya Holdinqinin yaradıl-

ması ilə iri dövlət şirkətlərinin fəaliyyətində və maliyyə nəticələrində əldə olunmuş köklü dəyişikliklərlə bağlıdır. Təsadüfi deyil ki, 2022-ci ildə Holdinqə daxil olan 12 portfel şirkətindən artıq 8-i divident ödəmək qabiliyyətinə malikdir. Həmin şirkətlərin 2022-ci ildə cəmi əməliyyat mənfəətliyi 15 milyard manatı keçmişdir. Bu göstərici 2020-ci ilə qədər 4-5 milyard manat ətrafında olubdur.

Qeyd edim ki, 2024-cü ilin dövlət büdcəsində artıq SOCAR üzrə əhəmiyyətli həcmdə divident ödənişi nəzərdə tutulmuşdur. Analoji şəkildə, növbəti illərdə digər dövlət şirkətləri üzrə də divident siyasətinin hazırlanmasını vacib hesab edirik və hörmətli Tahir müəllimin səsləndirdiyi fikirlərə qoşuluruq. Hörmətli cənab Baş nazirin rəhbərliyi ilə Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasında bu istiqamətdə fəaliyyətlər həyata keçirilir. Onu da qeyd etmək vacibdir ki, metodoloji olaraq ödənilən vergilərlə dividentlər arasında fərqin tanınması olduqca vacibdir. Bunlar iqtisadi mahiyyətinə görə fərqli təbiətə malikdir.

Bununla yanaşı, əsas vəzifələrdən biri də bir sıra təbii inhisar subyektlərinin öz mənfəətlərini artırmaq üçün bazarda hökmran mövqeyindən sui-istifadə hallarının qarşısının alınmasıdır. Sahibkarlığa dəstək tədbirləri də davam etdirilir. Cari ilin 10 ayında sahibkarların ümumi dəyəri 294 milyon manatdan çox, 2,4 mindən artıq layihəsinə 127 milyon manatadək güzəştli kredit verilmişdir. Cari ildə verilmiş kreditlərin məbləğ üzrə 97 faizi mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payına düşür. Cari il ərzində yerli istehsalın maya dəyərindən aşağı salınması ixrac potensialının və istehsal olunan malların xarici bazarlarda rəqabət qabiliyyətinin artırılması məqsədi ilə yerli istehsalı olmayan və istehsal prosesində istifadə olunan

300-ə yaxın aralıq mallar idxal gömrük rüsumlarından azad edilmişdir. Ölkənin əsas ticarət tərəfdaşlarından olan Türkiyə ilə preferensial ticarət sazişinin əhatə dairəsi genişlənməkdədir.

Dövlət başçısının 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı" qəbul olunmuş və bundan irəli gələrək təfsilati tədbirlər planı təsdiq edilmişdir. Dövlət proqramı üzrə bir sıra mühüm layihələrin icrasına başlanılıb ki, bu da bölgədə rifahın yüksəlməsinə, biznes fəaliyyətinin genişlənməsinə münbit şərait yaradacaq. Misal olaraq, cari ilin sentyabrında təməli qoyulmuş İğdır-Naxçıvan qaz kəməri Naxçıvanın qaz təchizatının şaxələndirilməsinə imkan verməklə onun bir mənbədən asılılığını aradan qaldırmış olacaqdır. Bir faktı da qeyd edim ki, cari ilin 10 ayında ötən ilin eyni dövrü ilə müqayisədə Naxçıvan Muxtar Respublikası üzrə vergi daxilolmalarının 32 faizdən çox artması qeydə alınmışdır ki, bu da bölgənin yüksək inkişaf potensialından xəbər verir.

İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan rezidentlər üçün idxal olunan texnika, texnoloji avadanlıq və qurğular, xammal və materialların ƏDV və gömrük rüsumlarından azad edilməsi, sahibkarlıq subyektlərinin mənfəət, torpaq, əmlak və sadələşdirilmiş vergidən azad edilməsi sahəsində Vergi Məcəlləsində dəyişikliklər edilmiş, habelə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmət tarifləri üzrə müvafiq güzəştlərin tətbiqi ilə bağlı işlərə start verilmişdir. İşğaldan azad edilmiş ərazilərdə sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi proqramı çərçivəsində sahibkarlara verilən kreditlərin 90 faizədək hissəsinin dövlət zəmanəti ilə təmin olunması, faizlərin isə 10

faiz bəndinin subsidiyalaşdırılması nəzərdə tutulur. Bu ərazilərdə yerli və xarici investorlar üçün əlverişli biznes mühitinin formalaşdırılması üçün Ağdam rayonunda 190 hektar sahədə Ağdam Sənaye Parkı, Cəbrayılda isə 200 hektar ərazidə "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılmışdır. Bu günə qədər Ağdam Sənaye Parkında ümumi layihə dəyəri 104 milyon ABŞ dolları olan 19 müəssisə rezident, 6 müəssisə isə qeyri-rezident kimi qeydiyyata alınmışdır və bu layihələr hesabına 1600-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur. "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında ümumi layihə dəyəri 19,2 milyon ABŞ dolları olan 5 müəssisə rezident, 1 müəssisə isə qeyri-rezident kimi qeydiyyata alınmışdır. Bu sənaye parkında 420-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur.

2022-ci ildə və 2023-cü ilin 10 ayında Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın, Kəlbəcər, Ağdam və Füzuli rayonlarında, ümumilikdə, 771 min hektar ərazidə elektron kadastr uçotu və yer quruluşu işləri, 594 min hektar ərazidə torpaq tədqiqatı işləri, 424 min hektar ərazidə geobotaniki tədqiqat işləri yekunlaşmış, müvafiq məlumatlar torpaqların elektron kadastrı uçotu sisteminə inteqrasiya edilmişdir. Bu işlər həmin ərazilərdə torpaq ehtiyatlarının səmərəli idarə edilməsi və istifadə olunması, kənd təsərrüfatlarının inkişaf potensialının səmərəli reallaşdırılması və məhsuldarlığın artırılması üçün mühüm əhəmiyyət kəsb edir.

İndi isə icazənizlə, qısa olaraq 2024-cü il və növbəti 3 il üzrə büdcə paketinin əhatə etdiyi sosial-iqtisadi inkişaf proqnozları barədə məlumat vermək istərdim. İlk növbədə qeyd edim ki, proqnozlar 2022–2026-cı illərə dair sosial-iqtisadi inkişaf Strategiyası ilə müəyyən olunmuş hədəfləri əsas götürməklə, habelə son qlobal meyillər nəzərə alın-

maqla hazırlanmışdır. Qeyd edim ki, 2022–2026-cı illər üzrə qəbul edilmiş sosial-iqtisadi inkişaf Strategiyası çərçivəsində həyata keçirilməyə başlanmış bir çox islahatlar ölkə iqtisadiyyatında gələcək iqtisadi artım üçün yeni fundamentlərin formalaşmasına yönəlmişdir. Bu yeni təməl şərtlər cari strateji dövrün sonuna tam formalaşandan sonra növbəti strateji dövrlərdə daha yüksək iqtisadi artım templərini əldə etməyə imkan verəcək.

Keçid dövründə isə başlıca vəzifəmiz qeyri-neft-qaz sektorunda iqtisadi artım templəri üzrə dünya iqtisadiyyatının artım templərindən ən azı geri qalmamaqdır. Düzdür, neft-qaz sektorunda gözlənilən və hələ ki, qaçılmaz görünən hasilat göstəriciləri iqtisadi artımın ümumi mənzərəsinə öz təsirini göstərəcək. Lakin onu da qeyd edim ki, regionda baş verən son proseslər, o cümlədən ölkəmizin beynəlxalq nəqliyyat tranziti və kommunikasiya qovşağında yerləşməsinin yaratdığı yeni imkanlar iqtisadi artımın sürətlənməsi üçün real amildir. Bu amilin tam miqyasda reallaşması iqtisadi artım dinamikasına əlavə güclü təkan verə bilər. Məhz buna görə bu imkanların reallaşdırılması istiqamətində cənab Prezidentin müəyyən etdiyi yeni vəzifələrə uyğun olaraq, hökumət tərəfindən sosial-iqtisadi inkişaf strategiyası ilə yanaşı, digər əlahiddə tədbirlər də həyata keçirilir.

Beləliklə, proqnozlar 3 ssenaridə–baza, optimist və pessimist ssenarilərdə hazırlanaraq büdcə tərtibi prosesində risklərin qiymətləndirilməsi üçün istifadə edilmişdir. Büdcə zərfində əksini tapan makroiqtisadi proqnozlar baza ssenarisini ehtiva edir və həmin proqnozlarda dövlət büdcəsində olduğu kimi, neftin qiyməti konservativ 60 ABŞ dolları səviyyəsində götürülüb. Ortamüddətli dövrdə neft hasilatının 2022-ci ilin hasilat səviyyəsindən aşağı olacağı

gözlənilir. Bu da neft hasilatında əsas xüsusi çəkiyə malik Azəri–Çıraq–Günəşli yatağı üzrə hasilatın azalma fazasına keçməsi ilə əlaqədardır. Əmtəəlik qaz hasilatının 2025-ci ildə pik həddə çatacağı və proqnozlaşdırılan dövrdə 36 milyard kubmetrdən yüksək olacağı gözlənilir. Qeyd olunan amillər nəzərə alınaraq neft-qaz sektoru üzrə ÜDM-in növbəti ildə 1,7 faiz, 2024–2027-ci illərdə isə orta illik hesabla 1,8 faiz azalacağı proqnozlaşdırılır.

Baza ssenaridə ÜDM-in 2024-cü ildə 2,4 faiz, 2024–2027-ci illərdə isə orta illik hesabla 2,9 faiz, qeyri-neft-qaz ÜDM-in növbəti ildə 4,6 faiz, 2024–2027-ci illərdə isə orta illik hesabla 4,8 faiz artacağı proqnozlaşdırılır. Təqdim olunan baza proqnozlarına əsasən qeyri-neft-qaz sektorunun ÜDM-də payı 2027-ci ildə 78 faizi ötəcək.

Dünya ərzaq bazarlarında qiymətlərin nisbətən aşağı düşəcəyi proqnozları və digər amillər nəzərə alınmaqla, orta illik inflyasiyanın cari ildə 9,5 faiz, 2024-cü ildə 5,3 faiz, 2025–2027-ci illərdə isə 4-5 faiz intervalında olacağı proqnozlaşdırılır. Neft-qaz sektorunda proqnozlaşdırılan hasilat və neft qiymətləri nəzərə alınmaqla, tədiyyə balansının cari hesab profisitinin ÜDM-ə nisbətinin 2024-cü ildə 6,2 faiz, 2025–2027-ci illərdə isə orta hesabla 3 faizdən bir qədər yuxarı olacağı proqnozlaşdırılmışdır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Mikayıl müəllim. Hörmətli həmkarlar, indi isə Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin sədri hörmətli Taleh Kazımova söz verilir. Taleh müəllim, buyurun.

**T.Kazımov,** *Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin sədri.*

Hörmətli xanım sədr, hörməti cənab Baş nazir, hörmətli deputatlar, hökumət üzvləri, media nümayəndələri! Hər

birinizi salamlayıram. Bu il Milli Məclisdə büdcə müzakirələri möhtərəm Prezident cənab İlham Əliyevin 20 illik prezidentlik fəaliyyətinin qeyd olunduğu dövrə təsadüf edir. Möhtərəm Prezident cənab İlham Əliyevin bu illər ərzində həyata keçirdiyi uğurlu fəaliyyət kursu Azərbaycanı siyasi, iqtisadi və hərbi arenada ən qüdrətli dövlətlərdən birinə çevirmişdir. Ulu Öndər Heydər Əliyevin zəngin irsinin layiqli davamçısı olan Prezident İlham Əliyev yüksək liderlik məharəti, siyasi əzmi, xalqımıza və vətənimizə sədaqəti ilə sonsuz inam və etibar qazanmışdır. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında doğma torpaqlarımız işğaldan azad edilmiş, ölkəmizin suverenliyi bərpa edilmiş, böyük Zəfərə imza atılmışdır. Sentyabr ayında həyata keçirilən lokal antiterror əməliyyatı cənab Prezidentin bir daha həm ölkədə, həm də regionda sülhün və əmin-amanlığın təminatçısı olduğunu vurğulamışdır.

Son 20 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın iqtisadi gücünü artıran və dayanıqlı inkişafını təmin edən həm lokal, həm də regional səviyyədə geniş miqyaslı layihələr həyata keçirmişdir. Sözsüz ki, bu layihələr sosial-iqtisadi inkişafın sürətləndirilməsinə və bütövlükdə, xalqımızın rifahının yüksəldilməsinə xidmət edəcəkdir. İcazənizlə, büdcə layihəsinə münasibət bildirməzdən öncə 2023-cü ilin ötən dövrü üzrə qlobal və daxili iqtisadi mühitdə və maliyyə bazarlarında baş verən proseslər barədə danışmaq istərdim.

2023-cü ildə qlobal iqtisadi artım zəif olaraq qalmaqdadır. Bunun səbəblərini iki qrupa ayırmaq olar. Birinci qrup amillərin təsirləri qalıcı olmaqla qlobal iqtisadi artımın uzunmüddətli trendinə azaldıcı təsir göstərir. Bu amillərə geosiyasi münaqişə və geoiqtisadi parçalanmalar və kəskin iqlim anomaliyaları aiddir.

İkinci qrupa isə sklik təsirlərə malik amillər daxildir. Bu amillər arasında qlobal maliyyə şəraitinin sərtləşdirilməsi və yüksək borc mühitində fiskal stimulların dayandırılmasını qeyd etmək olar. Əlavə olaraq qeyd edim ki, inkişaf etməkdə olan ölkələrə maliyyə axınlarının kəskin azalması qlobal iqtisadi artıma mənfi təsir göstərir. Ümumilikdə, 2024-cü illə bağlı gözləntilər pessimistdir. Beynəlxalq Valyuta Fondunun proqnozlarına əsasən 2023-cü ildə qlobal iqtisadi artımın 3 faizə enəcəyi proqnozlaşdırılır. Xatırladım ki, 2022-ci ildə bu göstərici 3,5 faiz idi, 2024-cü ildə isə 2,9 faiz olacağı proqnozlaşdırılır. Bu isə öncəki proqnozlardan 0,1 bənd azdır.

Qlobal iqtisadi artım templərinin zəiflədiyi bir şəraitdə inflyasiya proqnozlarının artımı qlobal mühitlə bağlı qeyri-müəyyənlikləri artırır. Həmin beynəlxalq maliyyə institutunun oktyabr proqnozlarına əsasən 2023-cü ildə inflyasiyanın 6,9 faiz, 2024-cü ildə isə 5,8 faiz olacağı proqnozlaşdırılır. Müvafiq olaraq, iyul proqnozları ilə müqayisə etsək, iyul ayında 6,8 və 5,2 faiz proqnozlaşdırılır. Proqnozlar qlobal inflyasiyanın 2020-ci illə müqayisədə səngiyəcəyini göstərsə də, inflyasiya təzyiqlərinin qalıcılığı ilə bağlı narahatlıqlar qalmaqdadır.

Həmkarım, iqtisadiyyat naziri Mikayıl müəllim ölkəmizin iqtisadi artımı barədə kifayət qədər qeyd etdi. Mən daha çox Mərkəzi Bankın proqnozları ilə bağlı fikirlərimi sizinlə bölüşmək istərdim. Bizim hesabımızla 2023-cü ilə iqtisadi artımın 1-1,5 faiz aralığında, yəni 1,3 faiz olacağı proqnozlaşdırılır. 2024-cü ildə 3,3 faiz, 2025-ci ildə isə 3,2 faiz proqnozlaşdırılır.

Qeyri-neft-qaz ÜDM-ə gəldikdə isə, bizim oktyabr proqnozlarımıza əsasən 2023-cü ildə 2,8 faiz, 2024-cü ildə 5,4 faiz, 2025-ci ildə isə 5,1 faiz olacağı proqnozlaşdırılır.

Qlobal iqtisadi artım templərinin aşağı olmasına baxmayaraq, cari ilin ötən dövründə xarici şərait bizim tədiyyə balansı baxımından əlverişli olmuşdur. 6 ayda bizim cari əməliyyat balansında ümumi daxili məhsulun 14,5 faizlik profisiti 5,2 milyard ABŞ dolları olmuşdur. Bizim proqnozlarımıza əsasən bu ilin sonuna kimi cari əməliyyat balansının profisiti 10 milyard ABŞ dollarına çatacaq. 9 ayda xarici ticarət balansında müsbət saldo olmuşdur və 13,9 milyard ABŞ dolları olmuşdur. Müsbət saldonun əsas mənbəyi xüsusi ilə qlobal enerji qiymətlərinin yüksək olduğu şəraitdir. Həmçinin onu qeyd etmək istəyirəm ki, bizim qeyri-neft ixracımız da 15 faiz artmışdır. Bu da, sözsüz ki, xarici ticarət balansımıza müsbət təsir edir.

Bizim 2024-cü il proqnozlarımız onu göstərir ki, cari əməliyyat balansı gələn il 8,5 milyard ABŞ dolları olacaq, 2025-ci ildə isə 7 milyard ABŞ dolları proqnozlaşdırılır. Bu il oktyabrın sonuna bizim valyuta ehtiyatlarımız 66 milyard ABŞ dolları səviyyəsinə qalxmışdır. Bu isə 13,4 faiz artım deməkdir. Mərkəzi Bankın ehtiyatları isə 16,8 faiz artaraq 10,5 milyard ABŞ dolları təşkil etmişdir.

Mühüm bir məqamı diqqətinizə çatdırmaq istəyirəm. 10 ayda Mərkəzi Bankın keçirdiyi valyuta hərraclarının 100-dən 99-da təklif tələbi üstələmişdir. Bu dövrdə valyuta bazarında məzənnə sabitliyini təmin etmək məqsədi ilə Mərkəzi Bank bazarda alışyönlü müdaxilələr həyata keçirmişdir. Bu müdaxilələr sayəsində Mərkəzi Bankın ehtiyatları 1 milyard 248 milyon ABŞ dolları artmışdır.

İllik inflyasiyaya mən toxunmaq istərdim. 25 aylıq fasilədən sonra bizim illik inflyasiyamız hədəf diapazonuna daxil olmuşdur. 2022-ci ilin sentyabrındakı 15,6 faiz pik səviyyədən bu ilin sentyabr ayında 3 dəfə azalaraq 5,1 faizə enmişdir. Burada ərzaq məhsulları üzrə artım 4,5

faiz, qeyri-ərzaq məhsulları 5,9 faiz, xidmətlər üzrə 5,4 faiz olmuşdur. Bizim illik baza inflyasiyamız 5,2 faizdir.

Qeyd etmək istərdim ki, 1-ci rübdən başlayaraq inflyasiyamız tədricən azalmaqdadır. İllik inflyasiyaya həm xarici, həm də daxili amillər təsir edir. Dünya əmtəə qiymətlərinin, beynəlxalq yükdaşıma xərclərinin, həmçinin ticarət tərəfdaşlarında orta çəkili inflyasiyanın azalması və nominal effektiv məzənnənin möhkəmlənməsi inflyasiyaya azaldıcı təsir göstərmişdir. Dünya Bankının hesabatına görə ötən ilin oktyabr ayına nəzarən dünya əmtəə qiymətləri illik əsasda 16,2 faiz azalmışdır. Ticarət tərəfdaşlarının orta çəkili inflyasiyasına baxdıqda son pik səviyyədən, keçən ilin oktyabr ayında 22,3 faizdən bu ilin sentyabr ayında 14,9 faizə düşmüşdür. Bu da, sözsüz ki, inflyasiyaya təsir göstərir. 10 ayda bizim nominal effektiv məzənnəmiz 21,6 faiz bahalaşmışdır. Sözsüz ki, bu da inflyasiya idxalına azaldıcı təsir göstərir.

Pul siyasəti ilə bağlı qeyd etmək istərdim ki, hesabat dövründə Mərkəzi Bank səlahiyyətləri çərçivəsində inflyasiyanı məhdudlaşdırmağa çalışmış, pul siyasətinin əməliyyat çərçivəsinin təkmilləşdirilməsi üzrə bir sıra tədbirlər görmüşdür. Mərkəzi Bank sektorda mövcud izafi likvidliyi özünün sərəncamında olan pul siyasəti alətləri ilə sterilizasiya etmişdir. Ümumilikdə, tətbiq olunan yeni pul siyasətinə görə sterilizasiya portfelinin həcmi 3,9 milyard manat artaraq 6,4 milyard manata çatmışdır.

Böyük nailiyyət kimi onu da qeyd etmək istərdim ki, ilk dəfə banklararası bazar yaranmışdır. Keçən ildən bizim də hədəfimiz bu idi. Banklararası repo faizləri artıq Mərkəzi Bankın faiz dəhlizi daxilində hərəkət edir. Bu o deməkdir ki, banklararası qısamüddətli pul bazarında faizlər ilk dəfə olaraq faiz dəhlizinin dəyişməsinə reaksiya ver-

məyə başlamışdır. Bu da faiz dərəcəsinin, bizim uçot dərəcəsinin transmissiyası üçün çox vacibdir.

Mərkəzi Bankın maliyyə sabitliyi siyasəti və nəzarət tədbirləri maliyyə sektorunun stabil fəaliyyətinə və ödənişlərin fasiləsizliyinə yönəldilmişdir. Bank sektorunun dayanıqlığı diqqətdə saxlanılır. Hazırda sektorda kapital mövqeyi minimum tələbi 2 dəfəyədək üstələyir. Bu dövrdə sahibkarların maliyyəyə çıxışının genişləndirilməsi diqqətdə saxlanılır. Ümumiyyətlə, kredit portfelimiz 9 ayda 14 faiz artmışdır, biznes kreditləri isə 11 faiz artmışdır. Bizim biznes kreditləri ümumi kredit portfelinin 54 faizini təşkil edir. Valyutada kreditlərin payı 19 faizə enmişdir. Bu da tarixi minimumdur. Kredit portfelinin keyfiyyəti qənaətbəxşdir və qeyri-işlək kredit faktoru 3,5 faiz səviyyəsinə düşmüşdür. Bank sektoruna və manata inam artmışdır. Cari ildə əhalinin milli valyutada əmanətləri 15,6 faiz və ya 1,1 milyard manat artaraq 8 milyard manat təşkil etmişdir.

Məlumat üçün Mərkəzi Bankı narahat edən bir məqamı qeyd etmək istərdim ki, ümumi əmanətlərin payında 1 iləşdək əmanətlər 81 faiz təşkil edir. Bu isə o deməkdir, bizim banklarımızın uzunmüddətli manatları kifayət qədər deyil ki, aktiv biznes kreditləri versinlər. İkinci narahatedici məqam odur ki, əmanəti 30 min manatadək olan əmanətçilərin sayı ümumi sayda 73 faiz təşkil edir. Bu o deməkdir ki, əhali 30 minədək əmanətləri yerləşdirir. Biz fevral ayından burada azalma müşahidə edirik. Ümidvarıq ki, Vergi Məcəlləsində verdiyimiz təklif layihəsində təqdim olunan mexanizmlər bu problemi qismən aradan qaldıra bilər.

Diqqətinizi dedollarlaşmaya cəlb etmək istərdim. Burada da proses müsbət cəhətdən davam edir. Fiziki şəxslərin

xarici valyutada əmanətlərinin payı 4,1 faiz bənd azalaraq 35,1 faizə enmişdir. Hüquqi şəxslərin xarici valyutada depozitlərinin payı isə 10,8 faiz bənd azalaraq 42 faiz təşkil etmişdir.

Sığorta haqlarına və ödənişlərə gəldikdə, son 9 ayda ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 28 faiz və 26 faiz artmışdır. Məbləğ ifadəsində desək, haqlar 937 milyon manat artmışdır, ödənişlər isə 400 milyon manat təşkil etmişdir. Kapital bazarlarına gəldikdə, 9 ayda, ümumilikdə, korporativ qiymətli kağızlar üzrə ticarət həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 66,1 faiz artaraq 1 milyard 733 milyon manata çatmışdır.

Ödənişlər siyasətimizin əsas istiqamətlərindən biri ölkədə nağdsız ödənişlərin artırılmasıdır. 9 ayda ötən ilin eyni dövrü ilə müqayisədə ödəniş kartları ilə aparılan ölkədaxili nağdsız əməliyyatların həcmi 2 dəfə artaraq 33,2 milyard manata çatmışdır. Nağdsız dövriyyənin payı 12 faiz bənd artaraq 54 faizə çatmışdır.

"Mərkəzi Bank haqqında" Qanunda edilmiş dəyişikliyə əsasən Mərkəzi Banka ödəniş sistemləri iştirakçılarının arasında tətbiq edilən xidmət haqqı tariflərini intercens, yəni yuxarı həddini müəyyən etmək hüququ verilmişdir. Hörmətli millət vəkillərinin və real sektorun təklifləri nəzərə alınaraq, Mərkəzi Bankın İdarə Heyəti tərəfindən 2023-cü il oktyabrın 25-dən intercensin yuxarı həddi orta hesabla 36 faiz aşağı salınmışdır.

2024-cü ilin büdcə layihəsinə gəldikdə, mən bir neçə məqama toxunmaq istəyirəm. 2024-cü il və ortamüddətli dövrdə təqdim edilən makroiqtisadi çərçivə qarşıda duran əsas vəzifələrə cavab verir. Buraya sosial rifahın gücləndirilməsi, iqtisadi inkişafın dəstəklənməsi, müdafiə sahəsinin gücləndirilməsi və azad olunmuş ərazilərin bərpası

daxildir. Mərkəzi Bank növbəti ilin büdcəsinin fiskal qayda çərçivəsində tərtibini, xərclərin konservativ götürülməsini müsbət qiymətləndirir. Bu, uzunmüddətli fiskal dayanıqlılıq baxımından mühümdür. Neft və qaz gəlirlərinin həcmi və büdcənin xarici valyutada gözlənilən gəlirləri 2024-cü ildə də valyuta bazarında sabitliyi dəstəkləyəcəkdir. İnflyasiya təzyiqlərini də nəzərə almaqla, Mərkəzi Bank büdcə kəsirinin minimallaşdırılmasının və qeyri-emissiya mənbələri ilə ötürülməsinin tərəfdarıdır. Bu baxımdan 2023-cü ilin dürüstləşdirilmiş büdcəsi ilə müqayisədə 2024-cü ildə büdcə kəsirinin azaldılmasını və əsasən, daxili borclanma hesabına maliyyələşdirilməsini müsbət dəyərləndiririk. Hesab edirik ki, daxili borclanma maliyyə bazarlarının dərinləşdirilməsini dəstəkləyir.

Növbəti ildə də büdcənin valyuta təklifinə təsiri ilə bağlı Mərkəzi Bank və Maliyyə Nazirliyi arasında koordinasiya işləri davam etdiriləcək. Məqsəd valyuta bazarında tarazlığın və bank sektorunda likvidliyin effektiv tənzimlənməsidir.

Narahatedici məqamlardan biri də valyuta təklifi tələbi üstələdiyi halda Mərkəzi Bankın valyuta bazarına alış-yönümlü müdaxiləsidir. Müdaxilə baş verirsə, pul təklifi arta bilər və gələcək inflyasiyanın artımının qarşısını almaq üçün Mərkəzi Bankın sterilizasiya əməliyyatlarının genişləndirilməsini zəruri edəcəkdir. Bu isə, özünüz də başa düşürsünüz ki, Mərkəzi Bankın xərclərinin artımı deməkdir.

İndi isə 2024-cü ilin pul siyasətinin əsas istiqamətləri barədə qısa məlumat vermək istərdim. 2024-cü ildə pul siyasəti inflyasiyanın müəyyən edilmiş dəhliz daxilində formalaşdırılmasına yönəldiləcəkdir. Pul siyasətinin əməliyyat çərçivəsinin təkmilləşdirilməsi davam etdirilə-

cək. Mərkəzi Bankın oktyabr ayının proqnozlarına əsasən 2024-cü ildə illik inflyasiyanın 2023-cü ildəki illik inflyasiyamızdan 4,3 faiz aşağı olacağı proqnozlaşdırılır. 2024-cü ildə illik inflyasiyanın 5,3 faiz, 2025-ci ildə isə 3,4 faiz olacağı proqnozlaşdırılır. Bununla belə, qiymət sabitliyi ilə bağlı bir sıra risklər mövcuddur. Növbəti ildə də xarici faktorlar, dünya bazarında qiymətlərin dinamikası, tərəfdaşlarda inflyasiya prosesləri və iqtisadi aktivlik ölkədəki inflyasiyaya təsir göstərəcəkdir. Məcmu tələbin izafi genişlənməsi, qiymətləri dövlət tərəfindən tənzimlənən məhsulların bahalaşması və inflyasiya gözləntilərinin artması isə qiymət sabitliyi üçün daxili risk mənbəyidir.

Digər bir mühüm çağırış, bayaq qeyd etdiyimi kimi, pul-kredit təklifinin genişlənməsi ilə bağlıdır ki, bu da cari ildə reallaşa bilər. Cari ilin qalan dövründə valyuta təklifi tələbi üstələdiyi halda, Mərkəzi Bankın valyuta bazarına alışyönlü müdaxiləsi daha da arta bilər. Bu isə pul təklifinin ikirəqəmli, təxminən 20 faizədək artmasına səbəb olacaq. Pul bazasının artımı isə növbəti illər üzrə inflyasiyaya artıcı təsir potensialına malikdir.

2024-cü ildə pul siyasətinin ötürücülüyündə məzənnə kanalı başlıca rol oynayacaqdır. Növbəti ildə də pul siyasəti və likvidivliyin idarə olunması çərçivəsinin təkmilləşdirilməsi, banklararası pul bazarının inkişaf etdirilməsi və qısamüddətli faizlərin orta və uzunmüddətli faizlərə təsirlərinin gücləndirilməsi istiqamətində islahatları davam etdirməyi planlaşdırırıq.

Məzənnə siyasəti yürüdərkən manatın nominal effektiv məzənnəsinin inflyasiya idxalının məhdudlaşdırılmasındakı rolu nəzərə alınacaqdır. Növbəti ildə də faiz dəhlizi parametrlərinin monetar şəraitinin məcmu tələbə təsir göstərəcəyi gözlənilir. Çünki faiz dəhlizi maliyyə bazar-

larının müxtəlif seqmentlərinə təsir göstərir. Faiz dəhlizi parametrlərinə dair qərarlar inflyasiyanın xarici və daxili amillər üzrə risk balansının dəyişimi və yenilənmiş makroiqtisadi proqnozlar, habelə valyuta bazarında gedən proseslər nəzərə alınmaqla qəbul ediləcəkdir.

Ortamüddətli dövrdə, yəni 2-3 il ərzində inflyasiya proqnozlarının hədəf diapazonuna daxil olması monetar şəraitin əlavə yumşaldılmasına imkan verəcəkdir. Faiz dəhlizinə dair qərarlar həm də məzənnə sabitliyinə xidmət edəcəkdir.

Mərkəzi Bank sektorda likvidliyin idarə edilməsində məcburi ehtiyatlardan, daimi imkan alətlərindən və açıq bazar əməliyyatlarından istifadə edəcəkdir. Bu alətlərdən istifadə edərək əlavə olaraq likvidliyin konsentrasiyasının azalmasını nəzərdə tutacağıq.

Ortamüddətli dövrdə inflyasiya üzrə müəyyən edilmiş hədəfə nail olunması makroiqtisadi siyasət institutları arasında koordinasiyadan da asılı olacaqdır. İndiyə qədər olduğu kimi, bundan sonra da makroiqtisadi koordinasiyanın təmin edilməsində İqtisadi Şura mühüm rol oynayacaqdır. Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında" və "İnflyasiya və qiymətlər üzrə monitorinqin gücləndirilməsi istiqamətində əlavə tədbirlər barədə" sərəncamlarında nəzərdə tutulmuş tədbirlərin icrası növbəti ildə də inflyasiyaya azaldıcı təsir göstərəcəkdir. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Taleh müəllim. İndi isə mən sözü Azərbaycan Respublikası Hesablama Palatasının sədri hörmətli Vüqar Gülməmmədova verirəm. Vüqar müəllim, buyurun.

**V.Gülməmmədov,** *Azərbaycan Respublikası Hesablama Palatasının sədri.*

Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli millət vəkilləri, hörmətli mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri, iclas iştirakçıları. Məlum olduğu kimi, 2024-cü ilin dövlət büdcəsinin layihələndirilməsi dövrü bir sıra tarixi hadisələrlə – Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan Ordusu tərəfindən keçirilən növbəti uğurlu əməliyyatlarla, suverenliyimizin bərpası ilə yadda qalmışdır.

2024-cü ilin dövlət büdcəsinin layihəsinə Hesablama Palatası tərəfindən rəyin hazırlanması və Milli Məclisə təqdim olunması da bu şanlı dövrə təsadüf etmişdir. Rəyin hazırlanması zamanı aidiyyəti dövlət orqanları ilə qarşılıqlı əməkdaşlıq əsasında təqdim olunan məlumatlar və konstruktiv müzakirələr millət vəkillərinə daha dolğun rəyin təqdim edilməsinə şərait yaratmışdır. Rəyin tərtibində büdcə sənədləşməsinə və dövlət orqanlarının məlumatlarına istinad edilmiş və qabaqcıl təcrübə diqqətdə saxlanmışdır. Eyni zamanda, beynəlxalq audit standartlarını tətbiq edərək məhdud əminliklə mövqeyimizi əks etdirmək üçün proqnoz maliyyə məlumatlarının yoxlanması zamanı 3 istiqamətdə daha yetərli sübutların toplanmasına çalışmışıq. Çıxışımda bu istiqamətlər üzrə bəzi məqamlara toxunmağa çalışacağam.

İlk olaraq proqnoz maliyyə məlumatlarının əsasını təşkil edən fərziyyələrin əsaslı olması ilə bağlıdır. Məlum olduğu kimi, dövlət büdcəsinin parametrləri bir sıra fərziyyələrə və sosial-iqtisadi inkişafa əsaslanaraq proqnoz edilir. 2024-cü ilin dövlət büdcəsi ilə birlikdə təqdim olunmuş məlumatlara əsasən növbəti il ölkə iqtisadiyyatında makroiqtisadi çərçivənin əlverişli olacağı, iqtisadi artım,

məqbul inflyasiya, profisitli tədiyyə balansı və sabit məzənnənin olacağı nəzərdə tutulmuşdur. Eyni zamanda, baza kimi istifadə olunan makroiqtisadi göstəricilərin proqnozlaşdırılmasında "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın strateji məqsədlər üzrə hədəfləri nəzərə alınmışdır. Aparılan qiymətləndirmələr baza ssenari və əsas şərtlər yerinə yetiriləcəyi təqdirdə, makroiqtisadi çərçivənin reallaşacağını deməyə imkan verir.

İkinci istiqamət proqnoz maliyyə məlumatlarının adekvat şəkildə açıqlanması ilə bağlıdır. 2024-cü ilin dövlət büdcəsi haqqında qanun layihəsi 17 maddədən ibarət tərtib olunmuşdur. Qanun layihəsində gəlir və xərclərin ümumi məbləği, mənbələri və istiqamətləri, eləcə də onların müxtəlif təsnifləşmə meyarları əsasında bölgüsü, həmçinin kəsir və borclanmaya dair parametrlər də əks olunmuşdur. Aparılan qiymətləndirmələr göstərir ki, qanun layihəsi "Büdcə sistemi haqqında" Qanunun 16-cı maddəsindəki əsas göstəriciləri tam əhatə edir. Eyni zamanda, Hesablama Palatası tərəfindən bəzi maddələrlə bağlı dəqiqləşmələr də təklif edilmişdir.

2024-cü ilin dövlət büdcəsinin layihəsi ilə birlikdə təqdim olunan sənədlərdə bir sıra yeniliklər tətbiq edilmiş, keyfiyyətin artırılması istiqamətində addımlar atılmış, Hesablama Palatasının tövsiyələri nəzərə alınmışdır. İlk dəfə olaraq, məqsədli proqram və tədbirlərə dair ayrıca sənəd büdcə sənədləşməsinə daxil edilmişdir. Proqramlıqla bağlı məlumatlar, əsasən, maliyyə xarakterli olmuşdur. Proqramlığa dair qabaqcıl təcrübədə maliyyə xarakterli göstəricilərlə yanaşı, qeyri-maliyyə xarakterli məlumatlar da yer alır. Eyni zamanda, bildirmək istəyirəm ki, dövlət proqramlarının maliyyə təminatı hər bir icraçı qurumun

ayrıca xərcində göstərilmir. Hesab edirik ki, sahə nazirlikləri üzrə proqramlıqla bağlı xərclərin uçot və hesabatlılığının gücləndirilməsinə, eyni zamanda, proqramlar üzrə xərclərin büdcələşməsi meyarlarına dair metodoloji bazanın da təkmilləşməsinə zərurət mövcuddur.

Dayanıqlı inkişaf məqsədlərinin maliyyələşməsi istiqamətində görülmüş tədbirləri və əvvəlki dövr üzrə çağırışların ortamüddətli dövrdə aktuallığına dair məlumatların verilməsini, fiskal risklərlə bağlı əvvəlki illərə nisbətən qiymətləndirmələrin aparılmasını müsbət addımlara aid edə bilərik. Bu sahədə aparılan hesablamalara əsasən 2022-ci ilin icmal büdcə xərclərinin 82 faizi dayanıqlı inkişaf məqsədlərinin maliyyələşməsi ilə əlaqəli olmuşdur. Lakin büdcə sənədləşməsində proqnozlaşdırılan dövr üçün aidiyyəti məlumatlara rast gəlinmir. Bu sahədə işlərin davam etdirilməsini, ölkənin ən vacib strateji sənədlərinin tədbirlərinin dayanıqlı inkişaf məqsədləri ilə büdcə işarələnməsinə uyğun proqnoz məlumatların da zərfdə əks etdirilməsini təklif edirik.

Ölkəmizin ərazi bütövlüyünün tam bərpa edilməsi ilə Cənubi Qafqaz regionunda yeni iqtisadi və siyasi konfiqurasiya yaranmışdır. Yeni reallıqlar müstəvisində iqtisadiyyatın şaxələndirilməsi və investisiyaların cəlb olunmasında vergi sisteminin əhəmiyyətini nəzərə alaraq, son illər hər növbəti il üçün vergi qanunvericiliyinə geniş həcmli əlavə və dəyişikliklər qəbul edilmişdir. Növbəti ilin proqnoz göstəriciləri nəzərə alınmaqla, ardıcıl 4 il ərzində vergi və gömrük sahəsində verilmiş güzəşt və azadolmalar, dövlət büdcəsinə hesablanmayan məbləğlərin illər üzrə artaraq 30 milyard manata yüksəlməsi şəraitində həmin vəsaitlərin, vətəndaşların və vergi ödəyicilərinin sərəncamda qalması qeyri-neft-qaz sektorunda

ümumi daxili məhsulun həcmlərinin artım tempinin müsbət dinamika ilə inkişaf etməsinə töhfə verir. Bu baxımdan güzəşt və azadolmaların səmərəliliyinin, o cümlədən iqtisadiyyatda yaradılan əlavə dəyərə təsirinin qiymətləndirilməsinə dair məlumatların da büdcə zərfində öz əksini tapmasını məqsədəuyğun hesab edirik. Bütövlükdə, son illər ərzində sənədləşmənin adekvat şəkildə açıqlanması ilə bağlı addımlarda sürətlənmə hiss olunur.

Beynəlxalq reytinqlərdə irəliləmə ilə bağlı hədəflərimiz də diqqətə alınmaqla, bu sahədə işlərin davam etdirilməsinin vacibliyi qənaətindəyik. Bu məqsədlə, eyni zamanda, "Büdcə sistemi haqqında" Qanunun özündə də dəyişikliklərə zərurətin olduğunu qeyd etmək istəyirəm. Bunlardan bəziləri ilə bağlı tövsiyələrimiz sizlərə təqdim etdiyimiz rəyə daxil edilmişdir.

Üçüncü istiqamət proqnoz maliyyə məlumatlarının fərziyyələr əsasında hesablandığına və ötən dövr üzrə maliyyə hesabatına uyğunluğuna dair. Layihəyə rəylərin verilməsi zamanı ali audit orqanlarının xüsusi əhəmiyyət verdiyi məqamlardan biri də fiskal çərçivəyə əməl olunmanın qiymətləndirilməsidir. Bu baxımdan rəydə büdcə qaydasına uyğunluğu qiymətləndirmişik. Büdcə siyasətinin həyata keçirilməsi üçün makrofiskal çərçivəni xarakterizə edən büdcə qaydasının hər iki hədəfi 2024-cü ilin proqnozlarında gözlənilmişdir. Aparılan qiymətləndirmələr göstərir ki, büdcə qaydasına riayətedilmə bir sıra faktorların kəsirə artıcı təsirləri şəraitində təmin olunmuşdur. Belə ki, əsas borc ödənişlərinin xərc komponentinə yenidən qaytarılması, məqsədli büdcə fondlarının qalıq vəsaitinin gəlir komponentindən çıxarılaraq kəsirin maliyyələşdirilməsi, neft sektoru üzrə dividentlərin neft gəlirlərinə aid edilməsi baza kəsirinə azaldıcı təsir etmişdir. Hədəf-

lərə əhəmiyyətli, müsbətyönlü töhfəni isə iki amil, qeyri-neft gəlirlərinin və qeyri-neft ÜDM-in artımı ötürülmüşdür. Dövlət Vergi Xidməti və Dövlət Gömrük Komitəsi xətti ilə toplanan daxilolmaların proqnozlaşmasında yeni yanaşmadan istifadə olunmuşdur. Aparılan qiymətləndirmələr göstərir ki, proqnozlaşmış göstəricilər, əsasən, metodologiyaya uyğundur. Qeyd edim ki, metodologiyanın retrospektiv qaydada əvvəlki illərə tətbiqi də daxilolmaların məbləğində əhəmiyyətli fərqlərin olmadığını göstərir. Təhlillərimiz baza ssenari ilə proqnoz göstəriciləri dəyişməyəcəyi şəraitdə gəlirlərin icrasında risklərin olmayacağını deməyə əsas verir.

2024-cü ildə dövlət büdcəsinin xərclərinin cari ilə nisbətən, demək olar ki, dəyişməyəcəyi proqnozlaşdırılmışdır. Vahid büdcə təsnifatına edilən dəyişikliklər və bəzi xərclərin uçotu üzrə dəqiqləşmələr 2024-cü ilin iqtisadi təsnifatının bölmələrinin proqnozlaşmasında və büdcədəki payına əhəmiyyətli təsir etmişdir. Cari xərclərin artımı fonunda əsaslı xərclərin azalacağı proqnozlaşdırılmışdır. Aparılan təhlillər təbii resursla zəngin dövlətlər üçün makrofiskal diaqnostikada istifadə edilən qeyri-resurs gəlirlərinin cari xərclərə nisbətən artdığını göstərir. Belə ki, cari xərclərin dövlət büdcəsinin qeyri-neft-qaz gəlirləri hesabına təmin olunma səviyyəsinin 73,2 faizdən 75,2 faizədək artması proqnozlaşdırılmışdır.

2024-cü ilin büdcə kəsiri 2,6 milyard manat olmaqla cari illə müqayisədə az proqnozlaşdırılmışdır. Məlumatlara əsasən kəsrin örtülməsi üçün daha çox borclanmadan istifadə ediləcəyi nəzərdə tutulur. Dövlət borcuna xidmət xərclərində növbəti ildə 790,1 milyon manat artım nəzərdə tutulmuşdur. Aparılan təhlillər bunun əsas hissəsinin borcun uçotu ilə bağlı yanaşmanın dəyişməsi ilə əlaqəli

olduğunu göstərir. Belə ki, cari ildən fərqli olaraq, zəmanətli kreditlərin ödənişləri, – bu, təqribən 222,8 milyon, – layihədən çıxarılmış, xarici dövlət borcunun əsas ödənişləri isə xərcə daxil edilmişdir. Bu da təqribən 850 milyon manatdır. Bununla bərabər, daxili maliyyə bazarında yerləşdirilən dövlət istiqrazları üzrə faiz xərcləri əvvəlki ilə nisbətən 235 milyon manat artırılmışdır.

Hörmətli millət vəkilləri, bugünkü iclasda mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin iştirak etdiyini nəzərə alaraq, dövlət maliyyəçiliyinin idarə edilməsi üzrə bəzi məqamları və bu istiqamətdə Hesablama Palatasının tövsiyələrini qeyd etmək istəyərdim. İlk olaraq, təşkilatlar üzrə planlaşma işinin keyfiyyətinə diqqətin artırılmasını təklif edirik. Təşkilatlar üzrə planlaşmanın, daha keyfiyyətli yanaşmanın olmaması icra prosesində dəyişikliklərin, o cümlədən yerdəyişmələrin artımına, satınalma prosedurlarının müvafiq qaydada aparılmamasına və büdcə intizamının aşağı olmasına səbəb olur. Bu baxımdan nəticə əsaslı büdcə islahatının genişləndirilməsi dövlət maliyyəsinin idarə edilməsi sahəsində gündəmdə olan əsas məsələlərdəndir. Büdcə layihəsindən göründüyü kimi, yeni büdcə modelinin proqnozlaşdırılan xərclərinin ümumi büdcədə payı 16,4 faiz nəzərdə tutulmuşdur. Aparılan təhlillər göstərir ki, yeni büdcə modelinin keçirildiyi dövr üçün gözlənilən nəticələrə tam nail olunmamışdır. Hesab edirik ki, bu islahata sadə şəkildə tədbirlərin maliyyələşməsinə imkan verən model kimi baxılmamalıdır. Sahə nazirlikləri bu islahatın fəlsəfəsini daha dərindən öyrənməyə çalışmalı, vəsaitlərin hədəflərlə uzlaşmasının təmin edilməsi sahəsində çağırışlara adekvat reaksiya verməlidirlər. Ümumiyyətlə, nəticə əsaslı büdcənin həm hüquqi bazası üzrə işlərin sürətləndirilməsini, həm də büdcə təqviminin

yenilənməsini vacib hesab edirik.

Məlum olduğu kimi, növbəti ilin əvvəlindən satınalmalarla bağlı yeni qanun qüvvəyə minəcəkdir. Hazırkı "Dövlət satınalmaları haqqında" Qanun ilin sonuna kimi 22 il qüvvədə olmuşdur. Bu illər ərzində 110-dan çox dəyişiklik, o cümlədən 75-dən çox mahiyyəti üzrə dəyişiklik edilmişdir. Lakin qüvvədə olan qanun və onun tətbiqi ilə bağlı mexanizmlər son 3 il qismən istisna olmaqla, dayanıqlı meyarların müəyyən edilməsi və ümumiyyətlə, təşkilatın fəaliyyətinin nəticəliyinin artırılmasında gözlənilən əhəmiyyətli rola malik olmadı. Satınalmanın son məqsədi vəzifələri yerinə yetirərkən təşkilata dəyər əlavə etməkdir. Satınalma fəaliyyəti təşkilatın işinin yerinə yetirilməsi üçün lazımi məlumatları əldə etməklə gündəlik olaraq təşkilatın mandatlarını dəstəkləyir. 2024-cü ilin büdcəsi növbəti ildən yeni qanunun tələbləri əsasında istifadə ediləcəkdir. Hesab edirik ki, yeni qanunun qüvvəyə minməsi ilə büdcə vəsaitindən istifadə edən qurumlar növbəti ildən satınalma ilə bağlı yeni siyasət müəyyən etməlidir. Planlaşma işlərinə vaxtında başlamalı və qanunun tələblərinə daha ciddi riayət etməlidirlər.

Dövlət sektorunun təşkilatları üzrə maliyyə hesabatlarının müvafiq çərçivələrə uyğun tərtibi üçün görülən işlər də gücləndirilməlidir. Qurum səviyyəsində konsolidasiya edilmiş maliyyə hesabatları üzrə ilk dəfə apardığımız auditlər bu sahədə problemlərin olduğunu göstərir. Problemlər həm hüquqi bazadan, həm də peşəkar potensial boşluqların olmasından irəli gəlir. Bu baxımdan müvafiq hüquqi bazanın təkmilləşməsi, mühasibat uçotunun, eləcə də maliyyə hesabatlılığının unifikasiyasını və cari monitorinqini təmin edəcək rəqəmsallaşma prosesinin sürətləndirilməsini, həmçinin dövlət qurumlarında daxili audit

funksiyasının yaradılması və inkişaf etdirilməsi üzrə tədbirlərin də gücləndirilməsini məqsədəuyğun hesab edirik.

Hörmətli millət vəkilləri, çıxışımın sonunda komitə iclaslarında Hesablama Palatasının rəyinə göstərdikləri diqqətə görə hörmətli millət vəkillərinə minnətdarlığımı bildirmək istəyirəm. Hesablama Palatası tərəfindən rəyin oxunaqlığının artırılması üçün rəy üzrə 24 səhifədən ibarət xülasə hazırlanmışdır. Rəyin və xülasənin plenar müzakirələrdə də faydalı olacağına ümid edirik. Rəydə dövlət büdcəsinin gəlirləri, xərcləri və dövlət büdcəsinin kəsiri ilə bağlı qeyd olunmuş məqamları nəzərə almaqla, Azərbaycan Respublikasının 2024-cü ilin dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsinə baxılmasını tövsiyə edirik. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Vüqar müəllim. Hörmətli həmkarlar, məruzələri dinlədik, indi isə biz müzakirələrə keçirik. Xahiş edirəm, yazılın. Buyurun. Fasilədən öncə bir nəfər çıxış edə biləcək. Elşən Musayev. Buyurun.

**E.Musayev.** Təşəkkür edirəm, xanım sədr. Hər kəsi salamlayıram və birbaşa fikirlərimə keçid almaq istəyirəm. İlk öncə, burada Tahir müəllim də qeyd elədi, hörmətli Sahibə xanım, mən Sizə minnətdarlığımı bildirirəm. Çünki artıq üçüncü ildir ki, partiya sədrləri İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasına dəvət olunur, fikirlərimizi bölüşürük və bizim üçün, həqiqətən də, fikirlərimizi söyləmək üçün geniş şərait yaradılır.

Mən komitə iclaslarında fikirlərimi bildirmişəm, çıxış eləmişəm. Ona görə orada qeyd elədiyim xüsusi məqamlara qayıtmaq istəmirəm. Amma onların, sadəcə, birini qeyd eləyəcəm. Mən xaricdəki səfirliklərimizdə və diplomatik qurumlarda mühafizənin artırılması ilə bağlı məsələni vurğulamışdım. Çox hörmətli Samir müəllim də əsaslı,

arqumentli bir cavab verdi və dedi ki, biz həm də digər, o ikinci dövlətin maraqlarını, mövqeyini də gözləməliyik. Yəqin ki, bunları nəzərə alacaqlar. Amma mən bu məsələdə bir az fərqli tərəfi düşünürəm. Çünki həmin səfirliklər bizim ərazilərimizdir və biz onun mühafizəsini necə təşkil edəcəyik, o da bizim şəxsi işimiz olmalıdır. Hətta mən keçən dəfə də büdcə müzakirələrində bu məsələni xüsusi qaldırmışdım. Sanki ürəyimə damıbmış kimi, bunu söyləmişdim, bir neçə gündən, təxminən 18-19 gündən sonra İrandakı səfirliyimizdə məlum hadisə baş verdi. Ona görə, düşünürəm ki, xüsusən məsələyə qayıtmalıyıq və bunu nəzərimizdə saxlamalıyıq.

İkinci bir məsələ, bunu komitə iclasında deməmişəm, amma hörmətli həmkarlarımdan biri həmin fikri söyləyib. Təhsilimizlə bağlı. Peşə ixtisaslarını biz xüsusi bir şəkildə təşviq eləməliyik. Ölkədə bu qədər hüquqşünas olmaz, bu qədər iqtisadçı olmaz, həqiqətən də, bu qədər diplomat olmaz. Bəzən biz o işsizlik problemindən danışırıq. Amma ondan daha böyük problem, vakant yerlərə ixtisasların düz gəlməməsidir.

Yeri gəlmişkən, mən elə bu kontekstdə Dövlət Məşğulluq Agentliyinin rəhbəri Mustafa müəllimə çox böyük minnətdarlığımı bildirirəm. Çünki hakimiyyətin qanunverici qolu ilə ən yaxşı işləyən məmurlardan biri odur. Biz onu gecə saat 2-də, 3-də belə tapıb sözümüzü deyə bilirik. Amma onların, belə deyək, səlahiyyətində olmayan məsələlər də var. Onlar da hamını işlə təmin edə bilmirlər. Çünki dediyim kimi, bu ixtisaslar düz gəlmir.

Üçüncü qeyd etmək istədiyim məsələ xaricdə təhsil proqramı ilə bağlıdır. Bu layihə çox effektiv layihədir. Bu gün elə məmur elitasında cəmləşən insanların, elə nazirlərimizin də çoxu məhz həmin proqramla oxuyublar və o

proqramın bir tərəfi onda yaxşıdır ki, onun şərtləri var, mütləq geri qayıtmalıdırlar, öz dövlətində işləməlidirlər. Nə qədər bu əhatə, bu çərçivə genişlənsə, məncə, ölkəmiz üçün o qədər də faydalı olar.

Ən sonda, bir məsələyə toxunmaq istəyirəm. Burada hörmətli Baş nazir də iştirak edir. Eyni zamanda, onun müavinləri. Xüsusən onların burada olmasını nəzərə alaraq, söyləmək istəyirəm. Azərbaycan cəmiyyətində, əlalxüsus da son vaxtlar məşhur bir qəhrəman simvolu, Natiq Qasımovun adı məşhurlaşıb. Onun haqqında, demək olar ki, film də çəkilib, bir çox söhbətlər də gedir. Mən çox arzulayardım ki, onun adı əbədiləşdirilsin. Çünki bu insan sona qədər düşmənin qarşısında sınmayıb və Azərbaycanın üçrəngli bayrağını son nəfəsinə qədər əlində saxlayıb. Hesab edirəm ki, bu addım atılsa, bu gün dövlətimizin yürütdüyü vətənpərvər və milli siyasətə böyük töhfə vermiş olarıq. Büdcə layihəsinə müsbət səsimi verəcəm. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun, Elşən müəllim.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Nəyə görə 5 dəqiqə təklif edirsiniz, illər boyu indiyə qədər  büdcə müzakirələri 10 dəqiqədən başlayıb. Xeyr. 10 dəqiqəyə qədər olacaq. Kim istəyir 3 dəqiqə, kim istəyir 5 dəqiqə, 6 dəqiqə çıxış eləsin. İndi isə saat 3-ə qədər fasilədir. Sağ olun.

## *(FASİLƏDƏN SONRA)*

**Sədrlik edən.** Hörmətli həmkarlar, iclasımıza davam edirik. Növbəti çıxış. Musa Quliyev. Musa müəllim, buyurun.

**M.Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli hökumət üzvləri, hör-

mətli millət vəkilləri, media nümayəndələri. 2024-cü ilin büdcə layihəsi ilə bağlı çox maraqlı təqdimatları dinlədik. Bizə verilən büdcə sənədləri və dinlədiyimiz ətraflı, geniş şərhə və analizə əsaslanan təqdimatlar bir daha göstərir ki, gələn ilin büdcəsi dünyada gedən maliyyə, iqtisadi proseslər, hərbi, siyasi vəziyyət Azərbaycan reallıqları və qarşıya qoyulan hədəflər düzgün müəyyənləşdirilməklə hazırlanmış və gələcək perspektivlərə xidmət edən çox vacib büdcə-maliyyə sənədidir.

Təqdimatlarda da qeyd olunduğu kimi, gələn ilin büdcəsi çox mühüm bir dövrdə hazırlanıbdır. Həqiqətən də, içərisində yaşadığımız 2023-cü il Azərbaycanın müstəqillik tarixində ən şərəfli, ən şanlı və şöhrətli bir ildir və tariximizə də uğurlar ili kimi daxil olacaqdır. Bu il biz məhz Ümummilli Lider, Azərbaycan dövlətinin banisi və qurucusu Heydər Əliyevin 100 illik yubileyini xalqımızın böyük sevgisi və təntənə ilə qeyd edirik. Cənab Prezidentin 20 il ərzində görülən möhtəşəm tarixi uğurları xatırlayırıq, qeyd edirik. Eyni zamanda, 2023-cü ildə biz suverenliyimizi təmin etmişik, ərazi bütövlüyümüzü bərpa etmişik. Böyük fəxarət hissi ilə deyə bilərik ki, gələn ilin büdcəsi məhz Zəfər ilində hazırlanmış bir zəfər büdcəsidir. Zəfər bayramı günündə də cənab Prezidentin iştirakı ilə Xankəndidə keçirilən möhtəşəm hərbi parad Azərbaycanın qüdrətini və ədalətini dünyaya bir daha nümayiş etdirmiş oldu.

Əlbəttə, 2024-cü ilin büdcə sənədi doğru hədəflərə yönəlmiş prioritetlər əsasında hazırlanmış bir maliyyə-iqtisadi sənəddir. Düşüncəmə görə, bu büdcə çox doğru olaraq əsas 3 istiqamət prioritet götürməklə hazırlanıbdır. Birinci istiqamət, şübhəsiz, müdafiə və təhlükəsizlik xərclərinin istiqamətidir ki, bu xərclərə büdcənin təxminən 25

faizi yönəlir. Bizim təhlükəsizliyimizin və müdafiə qüdrətimizin gələn il daha da möhtəşəm olacağına təminat verəcəkdir.

İndiyə qədər işğaldan azad olmuş Şərqi Zəngəzurun və Qarabağın bərpasına 12 milyard manata qədər vəsait xərclənibdir. Olduqca böyük tarixi işlər görülür. Gələn il də bu məqsədlə Böyük Qayıdışın reallaşdırılması üçün büdcədən 4 milyard manat vəsaitin ayrılması da təqdirəlayiqdir. Qısa müddət ərzində burada bizim 140 minə yaxın soydaşımızın köçməsinə dəstək ola biləcək bir istiqamətdir.

Şübhəsiz ki, büdcədə sosial xərclərin artırılmasını da qeyd etməliyik. Təqdir edirik və cənab Prezidentin daxili siyasətində sosial siyasətin həmişə prioritet istiqamət olduğunu xalqımız da, hökumətimiz də, Milli Məclisimiz də həmişə qeyd edir. Büdcə xərclərinin 43 faizinin bu istiqamətə yönəlməsini də biz təqdirəlayiq hesab edirik. Gələn ilin büdcə layihəsindən göründüyü kimi, aparılan doğru sosial-iqtisadi siyasət sayəsində gələn il də bizim ümumi daxili məhsulumuzda 3,4 faiz, qeyri-neft sektorunda 4,6 faiz artım gözlənilir.

Mən, eyni zamanda, onu yaxşı bir rəqəm hesab edirəm, bu il bizdə 2 ildən çox davam edən inflyasiya artıq, demək olar ki, tamamilə tənzimlənmiş bir vəziyyətə gəlib düşdü və ilin sonuna biz yəqin birrəqəmli inflyasiyanın şahidi olacağıq. Gələn il isə hökumət, deyərdim, daha iddialı proqnoz irəli sürüb ki, 5,3 faiz inflyasiyanın olacağı gözlənilir, bu da artan əmək haqlarının, pensiya, təqaüd və digər təminatların fonunda insanlarımızın sosial cəhətdən rifah halının daha da güclənməsinə səbəb olacaqdır.

Eyni zamanda, onu da vurğulamaq istəyirəm ki, bizim sosial sahəni təmsil edən deputatları daha çox maraqlan-

dıran və narahat edən ərzaq  inflyasiyasıdır. Arzu edərdik ki, gələn ilin içərisində ərzaq inflyasiyası birrəqəmli həddə düşsün ki, sosial təminatına daha çox diqqət yetirdiyimiz insanların maddi vəziyyətləri yaxşılaşmış olsun.

Fürsətdən istifadə edərək, bir neçə təkliflərimi vermək istəyirəm. Bizim hərbçilərimiz, onların reabilitasiyası, sosial adaptasiyası üçün olduqca böyük işlər görülür. Bu istiqamətdə xərclər ayrılır. Amma hərbi xidmətdən tərxis olunan hərbçilərin, o cümlədən döyüşçülərimizin, qazilərimizin ixtisaslaşmış reabilitasiya mərkəzinə ehtiyacı var. Onların həm psixoloji adaptasiyası, həm də tibbi bərpası üçün  ayrıca bir psixoloji yardım mərkəzinin açılması olduqca vacibdir. Hökumətin müvafiq qurumlarından xahiş edərdim, bu məsələni diqqət mərkəzində saxlasınlar.

İdman sağlamlığın rəmzidir, rəhnidir deyirlər. Son illərdə cənab Prezidentin apardığı siyasətdə idman sağlamlıq mərkəzlərinin tikilməsi, bu istiqamətdə gənclərin həm asudə vaxtlarını rahat keçirmələri, həm də sağlamlıqlarının bərpa olunması və gələcəkdə böyük idmançıların yetişdirilməsi üçün uşaq idmanına ciddi ehtiyac var. Amma mən təklif edərdim, büdcədə müəyyən şəraitlər yaradılsın ki, uşaqların güzəştlərlə özəl idman salonlarına daxil olmaq imkanları olsun, yaxud 20, 50 faizi, nə qədər hissəsi isə dövlət büdcəsindən maliyyələşsə, uşaqlar üçün çox böyük kömək olardı.

Qələbəmiz tarixi bir qələbədir, böyük bir zəfərdir. Hesab edirəm ki, bunu kinoxronika vasitəsi ilə böyük, belə deyərdim, irihəcmli çoxseriyalı bədii filmlərlə tarixə və gələcək nəsillərə ötürməliyik. Bundan ötrü də mən hesab edirəm, müvafiq addımlar atılmalıdır və büdcədən müəyyən dəstək olsa, yaxşı olardı.

Çıxışımın sonunda isə, – mən bunu bizim komitə

iclaslarında da söyləmişdim, – Gəncədəki Heydər Əliyev Mərkəzinin təmiri ilə bağlı xahişim olacaqdır. Bu mərkəz Bakıdakı Heydər Əliyev Mərkəzindən sonra respublikanın ən böyük mərkəzidir və çox da gözəl arxitekturaya malik, eyni zamanda, böyük bir parkın içərisində yerləşən bir mərkəzdir. Amma onun həm saxlanılması, həm də təmiri və qorunması üçün maliyyə mənbəyi faktiki olaraq yoxdur. Ona görə, xahiş edərdim ki, Mədəniyyət Nazirliyinin xətti ilə imkanı varsa, bunun təmirinə vəsait ayırsınlar, yoxdursa, büdcədə bu imkanlar nəzərə alınsın.

Büdcəmiz, əlbəttə, olduqca real bir büdcədir. Gələn il xalqımızın sosial rifah halına daha yaxşı xidmət edəcək bir büdcədir. Büdcə layihəsinin lehinə səs verəcəyəm, deputat həmkarlarımı da büdcənin lehinə səs verməyə dəvət edirəm.

Son olaraq, başda cənab Prezident İlham Əliyev olmaqla, hökumətimizə və parlamentimizə büdcənin icrasında uğurlar arzu edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Fatma Yıldırım. Buyurun, Fatma xanım.

**F.Yıldırım.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli millət vəkilləri, hörmətli hökumət nümayəndələri. Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin siyasi iradəsinin ifadəsi olaraq həyata keçirilən genişmiqyaslı islahatların sistemli şəkildə davam etdirilməsi hər bir sahənin dinamik inkişafında özünü göstərməkdədir. Bu məqsədyönlü siyasət sayəsində ölkəmiz sosial və iqtisadi infrastruktur quruculuğunda, özəl sektorun inkişafında, sənayeləşmədə, aqrar sektorun istehsal və ixrac imkanlarının genişləndirilməsində, əhalinin rifah halının yaxşılaşdırılmasında böyük uğurlara imza atıb.

Möhtərəm Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfər və lokal antiterror tədbirlərinin uğurlu nəticəsi 30 ildən artıq Ermənistanın işğal altında saxladığı ərazilərimizin qapılarını Böyük Qayıdışa tam açmışdır. Biz Azərbaycan xalqı olaraq 2023-cü ildə "Heydər Əliyev İli"ndə cənab Prezident İlham Əliyevin dövlət başçısı seçilməsinin 20-ci ildönümündə dövlətçilik tariximizə qızıl hərflərlə yazılan mühüm hadisələr yaşadıq. Bu ilin aprel ayında bütün beynəlxalq təzyiqlərə rəğmən, Ermənistanla şərti dövlət sərhədində Laçın nəzarət-buraxılış məntəqəsi yaradıldı. Sentyabr ayında lokal antiterror tədbirləri nəticəsində dövlət suverenliyimizin tam təmin olunduğu Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə, yəni bütün doğma Qarabağımızda üçrəngli bayrağımızın dalğalanmasından sonsuz dərəcədə qürur duyuruq. Əlbəttə ki, bundan sonra da dövlətimizin əsas milli hədəfləri Qarabağı dirçəltmək, dağıdılmış şəhərlərimizi, infrastrukturu bərpa edərək Böyük Qayıdışı təmin etməkdir. Son 3 ildə reallaşdırılan layihələr onu deməyə əsas verir ki, döyüş meydanında düşməni diz çökdürərək kapitulyasiyaya məruz qoyan qalib Azərbaycan bərpa və quruculuq işlərini qısa müddətdə və yüksək səviyyədə həyata keçirmək əzmindədir.

Bildiyiniz kimi, ötən il Zəngilanın Ağalı kəndi Böyük Qayıdışın ilk müjdəsi oldu. Bu il isə keçmiş məcburi köçkünlərimiz Tərtərin Talış kəndinə, Laçın və Füzuli şəhərlərinə böyük sevinc və qürur hissləri keçirərək qayıtmışdırlar. Müsbət haldır ki, gələn ilin dövlət büdcəsində də Böyük Qayıdışa dair mühüm tədbirlər üçün prioritet xərclər nəzərdə tutulmuşdur.

Eyni zamanda, növbəti ilin büdcəsində hərbi və mü-

dafiə sənayesi üçün xərclərin artırılması da çox önəmlidir. Qarabağ münaqişəsi başa çatsa da, Ermənistan bölgədə sülhə qarşı qeyri-konstruktiv mövqeyini davam etdirməkdədir. Belə bir şəraitdə ölkəmizin müdafiə xərclərinin artırılması, diqqətdə saxlanılması tamamilə məqsədəuyğundur və doğrudur.

Ümumilikdə, hesab edirəm ki, ölkəmizdə həyata keçirilən uğurlu iqtisadi, maliyyə siyasəti dövlət büdcəsi xərclərinin maliyyə təminatına əsaslı imkanlar yaradır. Eyni zamanda, Hesablama Palatasının gələn ilin dövlət büdcəsi ilə bağlı rəyini, tövsiyələrini və müvafiq təkliflərini də müsbət qiymətləndirirəm.

Hörmətli həmkarlar, hörmətli hökumət üzvləri. İşğaldan azad olunmuş ərazilərimizin bərpası ilə yanaşı, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramı da uğurla icra edilir. Bu inkişaf təmsil etdiyim Bərdə rayonunda da özünü göstərir. Lakin bununla belə, rayonda bir sıra sahələrdə işlərin sürətləndirilməsinə ehtiyac var. Həmçinin həllini gözləyən problemlər də var ki, fürsətdən istifadə edərək, onları hökumət üzvlərinin diqqətinə çatdırmaq istəyirəm.

İlk öncə, bildirmək istəyirəm ki, çoxsaylı seçicilərimin istəklərini nəzərə alaraq, Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və TƏBİB nümayəndələrinin iştirakı ilə oktyabr ayında Bərdədə keçirdiyimiz görüşdə seçicilərimiz tərəfindən rayonda yeni xəstəxana binasının tikintisinin vacib olduğu diqqətə çatdırıldı. Belə ki, rayonda bir sıra tibb müəssisələrinin bu xəstəxanaya köçürülməsi, eləcə də 200 min nəfərdən artıq Bərdə rayon əhalisi ilə yanaşı, qonşu rayonların sakinlərinin Bərdə xəstəxanasına müraciəti nəticəsində xəstəxanada yaranmış sıxlıq, həmçinin maddi-texniki bazanın zəif olması tam

standartlara cavab verəcək tibb xidmətlərini təşkil etməyə imkan vermir. Bu da vətəndaşların şikayətlənməsi ilə nəticələnir. Səhiyyə standartlarına cavab verən yeni xəstəxananın tikilərək Bərdə əhalisinin istifadəsinə verilməsi qaldırılan problemin həllinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərəcəkdir.

Seçicilərim tərəfindən qaldırılan məsələlərdən biri də elektrik enerjisi infrastrukturunun yenidən qurulması ilə bağlıdır. Rayonumuzda bu problem çox qabarıq şəkildə özünü göstərməkdədir və vətəndaşların bu istiqamətdə şikayətləri olduqca çoxdur. Təmsil etdiyim 93 saylı Bərdə şəhər seçki dairəsi üzrə Həsənqaya, Mirasəfli, Mirzəxan, Həsənli, Köbərkənd, Hacıbəyli, Kafarlı, İkinci Nazırlı, Cicimli, Mollagüllər, Qaraqoyunlu, Kürdborakı, Birinci Qazaxlar kəndlərində elektrik xətlərinin kabelləşməsinə çox böyük ehtiyac vardır.

Həlli vacib olan məsələlərdən biri də suvarma və içməli su problemidir. Belə ki, rayonun Sərhad Zöhrabbəyov küçəsi, İkinci Nazırlı, Mirzalıbəyli, Həsənli, Mirzəxan, Cəyirli, Qarağacı, Kürdborakı, Samux kəndlərinin içməli və suvarma su təminatının yaxşılaşdırılması vətəndaşlar tərəfindən ən çox müraciət edilən məsələlərdən biridir. Hökumətdən növbəti ilin büdcəsində seçicilərimin qaldırdıqları bu vacib problemlərin imkan daxilində nəzərə alınmasını xahiş edirəm.

Hörmətli millət vəkilləri, ümumilikdə, 2024-cü ilin büdcəsinin mütərəqqi olduğunu qeyd etmək istəyirəm. Sənədin hazırlanmasında əməyi keçən hər kəsə təşəkkür edirəm. Mən qanun layihəsinin lehinə səs verəcəyəm və həmkarlarımı da lehinə səs verməyə çağırıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Elşad Mirbəşir oğlu. Buyurun.

**E.Mirbəşir oğlu.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, əziz həmkarlar. Qürur hissi ilə qeyd etmək lazımdır ki, müstəqillik tariximizdə ilk dəfə ərazi bütövlüyünü təmin etmiş dövlətimizin büdcəsini biz müzakirə etməkdəyik. Həqiqətən də, bu tarixi yol kifayət qədər şərəflidir. Müşahidələr əsasında onu da qeyd edə bilərik ki, büdcə sisteminin hər il daha da dayanıqlı olduğunu görməkdəyik. Bu da qarşıya qoyduğumuz milli prioritetlərə səmərəli çatmağa imkan verir.

Hər şeydən öncə, diqqətçəkən məqam ondan ibarətdir ki, hər ötən il Azərbaycan Respublikasının dövlət büdcəsində dövlətimizin sosial xarakteri daha da gücləndirilir. 2024-cü ilin büdcəsində də sosial xarakterli xərclərin həcminin 5,1 faiz artması bir daha ona dəlalət edir ki, bütün istiqamətlərdə həyata keçirilən fəaliyyətin mərkəzində məhz Azərbaycan vətəndaşı amili dayanmaqdadır. Cənab Prezidentin də qeyd etdiyi kimi, bütün istiqamətlərdə siyasətin mərkəzi elementini, mərkəzi məqsədini məhz Azərbaycan vətəndaşının sosial-iqtisadi rifahının təmin olunması təşkil etməkdədir ki, biz hər il dövlət büdcəsinin müzakirələri zamanı xərclərin təyinatını müzakirə edərkən onun şahidi oluruq.

Ayrıca olaraq nəzərə almaq lazımdır ki, ölkəmiz Cənubi Qafqaz regionunda yeni təhlükəsizlik şəraiti formalaşdırıbdır. Cənubi Qafqaz regionunda məhz Azərbaycan Prezidentinin strateji baxışları, Azərbaycan dövlətinin və xalqının iradəsi ilə formalaşan yeni geosiyasi konfiqurasiyada iqtisadi münasibətlərə və iqtisadi layihələrin həyata keçirilməsinə tamam fərqli bir yanaşmanı tələb etməkdədir. Azərbaycan məhz bu reallıqlara da söykə-

nərək öz fəaliyyət strategiyasını müəyyənləşdirməkdədir.

Azərbaycan Respublikasının müdafiə xərclərinin, həm də milli təhlükəsizliyinin təmin olunması istiqamətində xərclərin də davamlı olaraq artırıldığını biz müşahidə edirik. Təqdirəlayiq hal, əsasən, ondan ibarətdir ki, hər il, xüsusi ilə də son illərdə bu, daha aydın müşahidə olunmaqdadır. Müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatların aparılması istiqamətinə də diqqət yetirilir. Bu məqsədlə 5 milyon manatdan artıq vəsait nəzərdə tutulubdur ki, bu da gələcəkdə həm müdafiə sisteminin daha səmərəli qurulmasına, həm də milli təhlükəsizlik problemlərinin daha effektiv həll olunmasına imkan yaradacaqdır.

Hörmətli xanım sədr, 2 təklifimi də səsləndirmək istərdim. Qeyd etdiyim kimi, dövlət büdcəsi sistemi kifayət qədər dayanıqlıdır, eyni zamanda, Azərbaycanın iqtisadi inkişafı da davamlıdır və proqnozlaşdırılandır. Gələcəklə bağlı aydın təsəvvürlərə malikik. Biz “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” çərçivəsində, “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” istiqamətində atacağımız addımları bilirik. Ona görə də təklif edərdim, təbii ki, bu, mümkündürsə, plan dövrü üçün gələn illərin də büdcəsi haqqında bir təsəvvür olsun. Çox təqdirəlayiq haldır ki, artıq oktyabr ayının ortasında Milli Məclisin rəsmi saytında büdcə layihəsi yerləşdirilmişdi. Qanunla tanış olmaq imkanı mövcud idi. Bu, çox yaxşı təcrübədir. Hesab edirəm ki, gələcək illərlə bağlı da məhz ən azından layihə səviyyəsində ilkin təsəvvürlərin formalaşdırılması baxımından büdcə ilə bağlı məlumatların olması gələcək daha effektiv addımlar üçün əsas yaradardı.

Qısaca olaraq, işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən bərpa-quruculuq işləri ilə də bağlı onu

vurğulamaq istərdim ki, ilkin proqnozlar həmin ərazilərə 2030-cu ilə qədər təxminən 50-55 milyard manat, – bəzən isə daha yüksək rəqəmlər səsləndirilməkdədir, – vəsaitin xərclənəcəyi nəzərdə tutulmaqdadır. Təbii ki, bu, dövlət büdcəsinin imkanları xaricindədir və kifayət qədər yük hesab oluna bilər. Ona görə də, düşünürəm ki, bəlkə gələcək üçün işğaldan azad olunmuş ərazilərin ayrıca olaraq inkişaf strategiyası hazırlansın və bu inkişaf strategiyası çərçivəsində kənar mənbələrdən də vəsaitlərin cəlb olunması istiqamətində addımlar atılsın.

Ümumilikdə isə, hesab edirəm ki, dövlət büdcəsi milli prioritetlərimizin uğurla həyata keçirilməsi baxımından kifayət qədər səmərəlidir və bu, Azərbaycanın dayanıqlı inkişafı istiqamətində növbəti addımlarımızı atmağa imkan verəcək. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Əli Məsimli. Əli müəllim, buyurun.

**Ə.Məsimli.** Çox sağ olun. Hörmətli sədr, hörmətli Baş nazir, hökumət nümayəndələri, deputat həmkarlarım, media nümayəndələri. Hamını salamlayıram.

2024-cü ilin büdcəsi, hesab edirik ki, çox mükəmməl hazırlanıb və çoxvariantlı ssenari əsasında hazırlanması manevr imkanlarını genişləndirir. Baza üzrə neftin qiyməti 60 dollar olanda ümumi daxili məhsulun 2,4 faiz artması nəzərdə tutulur. Eyni zamanda, manatın sabit qalacağı şəraitdə reallaşdırılması nəzərdə tutulur. Bu nöqteyi-nəzərdən büdcə müsbət qiymətləndirilir.

Büdcə iqtisadiyyatın güzgüsü olmaqla yanaşı, həm də fiskal və pul siyasətinin tərkib hissəsi olmaqla, iqtisadiyyatın dövlət tənzimlənməsinin ən mühüm alətlərindəndir. Büdcənin həmin rolu nə dərəcədə dolğun şəkildə gerçəkləşdirməsi xeyli dərəcədə onun əsas funksiyalarının nə

dərəcədə həyata keçirilməsindən asılıdır. Burada yeni yaradılmış dəyərin optimal bölgüsü, iqtisadiyyatın tənzimlənməsi və inkişafına təkan verilməsi, dövlətin sosial siyasətinin maliyyə təminatı, dövlətin mərkəzləşdirilmiş pul vəsaitindən istifadənin məqsədyönlüyü üzərində nəzarət kimi çox vacib funksiyalardan hansı dərəcədə istifadə edilməsi mühüm əhəmiyyət kəsb edir. Əgər analiz aparsaq, görərik ki, sadaladığımız həmin istiqamətlər məhz 2024-cü ilin büdcəsi hazırlanan zaman nəzərə alınıb. Ona görə, bu nöqteyi-nəzərdən də büdcəni biz müsbət qiymətləndiririk. Eyni zamanda, Hesablama Palatasının dərin təhlili əsasında verdiyi rəyi də müsbət qiymətləndiririk.

Bununla yanaşı, növbəti illərdə nəzərə alınmasını vacib hesab etdiyimiz bir sıra məqamlara baxmaq istəyirik. Azərbaycan iqtisadiyyatı neft bumu dövründə dünyanın orta artım tempi ilə müqayisədə ortalama 4-5 dəfə, bəzi illərdə isə 7-9 dəfə yüksək templərlə artırdı. İndi Azərbaycanın artım tempi dünyanın orta artım tempinin altında formalaşmağa başlayıb. Yəni yavaşımış iqtisadi artım trayektoriyasına keçir. Hesab edirik ki, Azərbaycanın yetərincə potensialı var ki, yavaşımış iqtisadi artım trayektoriyasından sürətlənmiş iqtisadi artım trayektoriyasına keçsin və dərin təhlillər aparılsa, indi deyəcəyim rəqəmə, hesab edirəm, tamamilə nail olmaq mümkündür. Azərbaycan üçün sağlam artım tempi 5 faizdir. Azərbaycanda həmin 5 faizə nail olmaq olar. Buna nail olmaqdan ötrü islahatları dərinləşdirməklə, hesab edirəm ki, bir sıra istiqamətlərdə ciddi addımların atılması vacibdir.

İlk növbədə innovasiya inkişaf modelinə keçilməsi prosesi sürətlənməlidir. Ona görə ki, bir rəqəm deməyim kifayətdir. Azərbaycan sənayesində innovasiyalı yeni məhsulun xüsusi çəkisi bütün sənaye məhsulunun 0,05

faizinə bərabərdir, 0,1 faiz deyil. Bu rəqəmi fikirləşmək üçün zəngin material verir ki, biz təkcə Bakıda, Abşeronda deyil, regionlarda da innovasiyalı inkişaf yolu ilə gedib, insan kapitalının inkişafına daha çox sərmayə qoymaqla həmin istədiyimiz, hədəflənmiş sağlam 5 faiz artıma nail ola bilərik.

Eyni zamanda, həmin artıma nail olmaqla yanaşı, bizim torpaqlarımız işğaldan azad olunandan sonra qarşımızda yeni vəzifələr var. Xeyli dərəcədə maliyyə vəsaiti tələb edir. Ona görə də büdcənin növbəti illərdə artımı indiki kimi gəlirlərdə 0,8 faiz, xərclərdə 0,4 faiz deyil, ümumi daxili məhsulun artım tempi ilə sinxronlaşmasını vacib hesab edirik. Əgər xərclərin səmərəliliyini artırmaqdan söhbət gedirsə, ilk növbədə gəlir, əlimizdə vəsait olmalıdır ki, onun xərclənməsində səmərəlilikdən danışmaq mümkün olsun. Bu nöqteyi-nəzərdən həm səmərəliliyin artırılması istiqamətində çox vacib addımların atılması, həm də nəticə əsaslı büdcəyə keçidin sürətləndirilməsi istiqamətində lazımi işlərin görülməsi çox vacibdir.

2024-cü ilin büdcəsində dediyim haradasa 0,4 faiz gəlir artımı fonunda onun prioritet istiqamətlərində, o cümlədən sosial xərclərində nəzərə çarpan dərəcədə artım var. Məsələn, sosial blokda 7 faizə qədər, əməyin ödənilməsində 5 faizə qədər. Biz bunu çox müsbət qiymətləndiririk ki, burada xeyli dərəcədə mütərəqqi addımlar atılıb. Amma bu, məsələnin bir tərəfidir.

Azərbaycanda inflyasiya hesablanan zaman 500-dən artıq məhsul götürülür. 450-500 manat maaşı olan adam, təbii ki, o qədər məhsul ala bilməz. O, əsas, çoxişlənən məhsulları alır. Çoxişlənən məhsulların qiyməti isə, məndə olan rəqəmlərə görə, keçən ilin avqustu ilə müqayisədə bu ilin avqustunda ortalama 20 faizə qədər artıb.

Baxmayaraq ki, əsas məhsulların qiyməti haradasa 15 faiz göstərilib. Bu nöqteyi-nəzərdən yönəldilmiş həmin 1 milyard manatlıq sosial vəsaitdən və əmək haqqına yönəldilmiş 510 milyon manatlıq vəsaitdən insanların öz güzəranının yaxşılaşdırılması istiqamətində istifadə etməsi üçün biz monopoliyaya qarşı mübarizənin gücləndirilməsini vacib hesab edirik. Ona görə ki, əgər monopoliyaya qarşı mübarizə gücləndirilməsə, effektiv rəqabət mühiti yaradılmasa, gələn ilin büdcəsində nəzərdə tutulan 1 milyard vəsaiti süni qiymət artımının yeminə çevirmək üçün qiyməti süni surətdə 2 faiz artırmaq kifayətdir. 510 milyon manatlıq əməyin ödənilməsi xərclərinin də yenə süni qiymət artımının yeminə çevrilməsi üçün inflyasiyanı süni surətdə 1 faiz artırmaq kifayətdir. Bu rəqəmlər açıq formada göstərir, vəsait ayırmaqla yanaşı, o vəsaitin birbaşa əhalinin güzəranının yaxşılaşdırılmasına yönəldilməsi istiqamətində addımlar atmaq da çox vacibdir ki, əhalinin güzəranının yaxşılaşmasına xidmət etsin.

Bax, bundan ötrü biz regionların potensialından istifadəni gücləndirməliyik. Təkcə o rəqəmi demək kifayətdir ki, Azərbaycan sənayesinin 90 faizdən çoxu Bakı və Abşeronda yerləşir. Hesab edirik ki, regionlarda daha innovativ xarakter daşıyan, perspektivli iş yerlərinin açılması istiqamətində addımların atılması çox vacibdir. Başqa rəqəmləri də deyəndə görəcəyik ki, bura vəsait qoymaq həddən artıq vacib bir məsələdir.

Bizdə 18 milyard manata qədər sərmayə qoyulur. Onun yalnız 2,3 faizi kənd təsərrüfatına, 1,6 faizi qida istehsalına, 0,3 faizi isə toxuculuq və geyimə yönəldilir. Bu rəqəmlər açıq formada göstərir ki, məsələn, həmin 18 milyard manat vəsaitin çox demirəm, 10 faizinin, 1,8 milyardının şəffaflıq, güclü nəzarət şəraitində yerlərdə kiçik

və orta biznesin inkişafına yönəldilməsi istiqamətində addımların atılması, hesab edirik, qısa müddət ərzində regionların da qalxmasına, işğaldan azad olunmuş ərazilər səviyyəsində Azərbaycanın digər sahələrində də inteqrasiyanın güclənməsinə və sosial proseslərin tənzimlənməsi ilə əhalinin güzəranının yaxşılaşdırılması istiqamətində addımların potensialımız səviyyəsinə qaldırılmasına imkan verər. Azərbaycanın buna gücü çatar, potensialı var. Ona görə ki, əgər biz intellektual müharibə yolu ilə möhtəşəm qələbə çala və burada rəqabət qabiliyyətini göstərə bilmişiksə, deməli, iqtisadiyyatda, elmdə, təhsildə, digər sahələrdə də rəqabət qabiliyyətli ola və dediyim həmin hədəflərə nail ola bilərik.

Büdcəni bir daha müsbət qiymətləndirirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov.** Təşəkkür edirəm. Hörmətli sədr, cənab Baş nazir, əziz həmkarlar, hörmətli hökumət üzvləri və qonaqlar. Müasir dövrdə beynəlxalq münasibətlər müstəvisində ikili və riyakar standartların hökm sürməsi, təəssüf ki, artıq sıradan bir hal kimi qəbul edilir. Müasir beynəlxalq hüququn prinsipləri möhtərəm Prezidentin təbiri ilə desək: "özünü "beynəlxalq ictimaiyyət" adlandıran bir neçə dövlətin maraqlarına xidmət edən elastik elementə çevrilib. Ərazi bütövlüyü, sərhəd toxunulmazlığı kimi prinsiplər selektiv yanaşmalardan asılı qalıb".

Hər kəs şahiddir ki, 30 il işğal və təcavüzə məruz qalarkən Qarabağ və Şərqi Zəngəzurda insanlıq adına nə varsa – infrastruktur, mədəni-tarixi irs, hətta qəbir daşlarına qədər məhv edilib talanarkən müəyyən istisnalarla, heç kim səsimizə səs vermədi. Harada idi o donor təşkilatları? Harada idi bu gün bölgəmizdə "insan haqlarına",

“siyasi məhbus” tandeminə, rəngli inqilablara milyonlar xərcləməyə hazır olan qlobal təsisatlar? Yaxud bu gün Qarabağda, Şərqi Zəngəzurda Ermənistanın törətdiyi ekoloji, mədəni və humanitar fəlakətin nəticələrini aradan qaldırarkən, Livan ölçüdə bir ərazini minalardan təmizləyərkən kim bizim üçün bir manatından keçir? Bütün işləri bu gün Azərbaycan öz büdcəsi hesabına, öz imkanları ilə görür. Əksinə, işğal dövründə, soyqırımlar yaşananda, Gəncə, Bərdə, Tərtərdə dinc insanlar kasetli bombalarla atəşə tutulanda, susan həmin o beynəlxalq ictimaiyyət bu gün utanmazcasına bizi ittiham etməyə çalışırlar.

Təbii ki, cənab İlham Əliyev hər kəsin layiq olduğu və başa düşdüyü dildə cavabını verir. Nəticədə bütün maneələrə rəğmən, məhz müzəffər Ali Baş Komandanın qətiyyəti hesabına artıq ərazi bütövlüyümüz, sərhəd toxunulmazlığımız və bütün ölkə üzrə konstitusion quruluşumuz bərpa olunub. Bütün bunlar ciddi maliyyə imkanı, müstəqil və güclü siyasi iradə tələb edir. Bu mənada 2024-cü il dövlət büdcəsi haqqında layihə həmin gücün, iradənin tərəddüdsüz olaraq uğurlu inikası hesab edilə bilər.

Unutmayaq ki, biz stabil, siyasi və iqtisadi təlatümlərdən kənar bir bölgədə yaşamırıq. Maraqların kəsişdiyi qaynar bir coğrafiyada yerləşirik. Bütün bunlara rəğmən, məhz cənab İlham Əliyev daim bizim əsas problemimizə çevrilən bu coğrafi mövqeni tariximizdə ilk dəfə geostrateji üstünlüyə və kapitala çevirməklə Azərbaycanı pandemiya, qlobal iqtisadi böhran və müharibələrdən qalib çıxarıb. Bu gün əminliklə deyə bilərik ki, Azərbaycan regionda təhlükəsizlik adasıdır.

Bildiyiniz kimi, biz konstitusion 6 niyyət ifadə etmişik və onlardan biri, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq, hamının layiqli həyat səviyyəsini təmin etmək

bizim 6 əsas hədəfimizdən biridir. Sağlam və dayanıqlı iqtisadi artım, tarazlı inkişaf, hər bir vətəndaşın öz həyatında bu inkişafı hiss etməsi bizim qarşıdakı 6 il üzrə əsas ümdə hədəflərimizdən biridir.

Ən azı VI çağırış parlamentin müzakirəsinə təqdim olunan büdcə zərflərini müqayisə etdikdə aşkar görünür ki, cənab İlham Əliyevin rəhbərliyi altında iqtisadi inkişafdan qaynaqlanan yüksək maliyyə imkanları makroiqtisadi sabitlik və artıma mühüm töhfə verməklə bizi hədəflərimizə bir az da yaxınlaşdırır. Əminliklə deyə bilərik ki, tarixin heç bir dövründə biz konstitusion niyyətlərimizi bu qədər realizə edə bilməmişik. Bu mənada cari büdcə layihəsinin müzakirəsində fərqli fikirlər nə qədər qiymətli olsa da, hər hansı müstəvidə tənqid və irada lüzum görünmür. Unutmayaq ki, cənab İlham Əliyev heç kimin təsəvvür etmədiyi reallıqları gerçəyə çevirib və bu gün artıq müzakirə etdiyimiz büdcə zərfində aktiv Xankəndi qrafasını görür, praktiki olaraq bütün Azərbaycanı əhatələyən büdcəni qəbul edirik. Bu baxımdan büdcə layihəsi qalibiyyətimizin nəticəsi hesab olunmalı və dəstəklənməlidir.

Çıxışın bu hissəsində hüquq mühafizə fəaliyyətinə, məhkəmə hakimiyyəti və prokurorluq sahələrinə aid edilən digər fəaliyyətlərə xüsusi fokuslanmaq istərdim. Bu sferaya ayrılan vəsaitin ümumi həcminin artırılması büdcə zərfində reallığa kifayət qədər effektiv rakursdan baxıldığını göstərir. Eyni zamanda, qəbul etməliyik ki, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi və ədalət mühakiməsinin səmərəli fəaliyyəti üçün güclü və nüfuzlu vəkillik təsisatının böyük əhəmiyyəti vardır. Bildiyiniz kimi, məhz bu prizmadan yanaşaraq, möhtərəm cənab Prezidentin qanunvericilik təşəbbüsü ilə bu il Mülki Prosessual Məcəl-

lədə edilən dəyişikliklə dövlət hesabına hüquqi yardımın dairəsi genişlənib. Bilirsiniz ki, hazırda dövlət hesabına işlərdə vəkilə hər iş saatı üçün 6 manat olmaqla, bir iş üzrə orta hesabla 115 manat civarında ödəniş olunur ki, həmin məbləğin də 30 faizə yaxını vergi, sığorta və digər xərclərə məruz qalır. Çox təşəkkür edirik ki, cənab Prezident bu məsələyə müdaxilə edərək bu il 26 iyul fərmanı ilə Nazirlər Kabinetinə dövlət hesabına hüquqi yardıma görə məbləğin dəyişdirilməsi zərurətinin öyrənilməsini tapşırmışdır. Vəkillər Kollegiyası da təhlil apararaq vəkilə ödənilən haqqın 20 manat məbləğində müəyyən edilməsini təklif edib. Bu, Ədliyyə Nazirliyi tərəfindən də məqbul sayılmışdır. Eyni zamanda, Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də məsələ işçi qaydada araşdırılıb.

Müqayisə üçün nəzərinizə çatdırım ki, Türkiyədə işlərin xüsusiyyəti və işəbaxılma mərhələlərinə uyğun olaraq, bu məbləğ 90, Rusiyada isə 30 manatdan başlanır və artaraq dəyişir. Əlbəttə, lokal, yerli reallıqları biz nəzərə almalıyıq. Bu, vacibdir və bu mənada təklif olunan 20 manat rəqəminin məqbul olması şübhə doğurmur. Bu mənada, hörmətli cənab Baş nazir, Sizdən komitəmiz adından məsələnin həlli üçün köməyinizi xahiş edirik.

Sonda, təmsil etdiyim Biləsuvar üzrə isə diqqətinizə çatdırmaq istədiyim əsas məsələ, bizim ənənəvi problemimiz su qıtlığı məsələsidir. Təbii ki, bu, bütün dünyanı ağuşuna alan problemdir. Aydındır ki, məsələ hökumətin diqqətindədir, sadəcə, indiki məqamda quraqlıq və su çatışmazlığı ucbatından ciddi ziyana düşmüş fermerlərlə bağlı müəyyən addımların atılmasını sizdən xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Jalə Əhmədova. Buyurun.

**J.Əhmədova.** Hörmətli xanım sədr, hörmətli Baş nazir, hörmətli həmkarlar, hökumət və media nümayəndələri. Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsini müsbət dəyərləndirirəm. 2024-cü il dövlət büdcəsi xərclərinin 15 milyard 773 milyon manatının sosialyönümlü xərclərin maliyyələşdirilməsinə yönəlməsini isə xüsusi vurğulamaq istəyirəm. Sosial xərclərin cari ilin göstəriciləri ilə müqayisədə 1 milyard 34,5 milyon manat artması insanların maddi rifah halının daha da yaxşılaşdırılmasına xidmət edəcəkdir. Bu da bir daha göstərir ki, xalqın rifahının yaxşılaşdırılması məsələsi dövlətimiz üçün prioritetdir və daim dövlət başçımızın diqqət mərkəzindədir.

Hər birimizə məlumdur ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yenidənqurma, tikinti, bərpa işləri, genişmiqyaslı infrastruktur layihələri həyata keçirilir. Lakin infrastruktur layihələri təkcə Qarabağda, Şərqi Zəngəzurda deyil, bütün ölkə üzrə aparılır. Vətəndaşlarımızın öz dədə-baba torpaqlarında tam məskunlaşması üçün Böyük Qayıdış proqramı ardıcıllıqla və uğurla aparılır. Qarabağda cənab Prezidentin şəxsən iştirakı ilə 30-dan çox yaşayış məntəqəsinin təməli qoyulub. Eyni zamanda, Heydər Əliyev Fondu tərəfindən Qarabağ bölgəsində məscidlər yenidən inşa edilir və ya əsaslı şəkildə bərpa olunur.

Ölkəmizdə həyata keçirilən bütün bu möhtəşəm işlər, təbii olaraq, Azərbaycan Respublikası Prezidentinin uzaqgörən və müdrik siyasətinin təcəssümüdür. Noyabrın 8-də Xankəndi şəhərində tarixi Zəfərimizin üçüncü ildönümünə həsr edilmiş hərbi parad dünya ictimaiyyəti tərəfindən böyük maraqla izlənildi və onlar bir daha "Qarabağ Azərbaycandır!" reallığının şahidi oldular. Hərbi paradda müzəffər Ali Baş Komandan İlham Əliyevin və ailə üzv-

lərinin iştirak etməsi isə cənab Prezidentin qalib sərkərdə, qətiyyətli və uzaqgörən dövlət başçısı olduğunu bütün dünyaya bəyan etmiş oldu.

Mənə verilən vaxtdan istifadə edərək Salyan rayonunda mövcud olan işsizlik probleminə də bir daha toxunmaq istəyirəm. Təbii ki, problemin aradan qaldırılması üçün bütün imkanlardan istifadə edilir, mövcud variantlar araşdırılır, imkan daxilində müvafiq tədbirlər görülür. Mən məsələnin həllini Salyan rayonunda özəlləşdirilmiş müəssisələrin fəaliyyətinin bərpasında görürəm. Həmin müəssisələrin fəaliyyəti bərpa olunarsa, bu, həm insanların sosial rifah halının daha da yaxşılaşmasına, həm də işsizliyə töhfə olardı.

Onu da qeyd edim ki, həmin müəssisələrin özəlləşdirildikdən sonra fəaliyyətsiz qalması nəticəsində Salyan rayonunda işsizlik daha da artmışdır. Mən hökumət nümayəndələrindən həmin müəssisələrin fəaliyyətinin bərpa edilməsi məsələsinin nəzərə alınmasını xahiş edirəm.

Çıxışımın sonunda seçicilərimin və öz adımdan cənab Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya və bütün hökumət nümayəndələrinə təşəkkür etmək istəyirəm. Yaşanan pandemiya dövrünün, müharibə dövrünün, müharibədən sonra yenidənqurma dövrünün çətinliklərinə baxmayaraq, bu günə qədər Salyan rayonu ilə bağlı etdiyim bütün müraciətlər, demək olar ki, müsbət həll olunmuşdur. Minnətdaram, diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Müşfiq Məmmədli. Buyurun.

**M.Məmmədli.** Hörmətli xanım sədr, hörmətli Baş nazir, hökumət üzvləri, hörmətli millət vəkilləri. Dünya iqtisadiyyatındakı meyllər və qlobal kataklizmlər fonunda 2024-cü il dövlət büdcəsi ölkə Prezidentinin nə qədər

uğurlu iqtisadi siyasət yürütdüyünün parlaq sübutudur. Çox diqqətəlayiq bir haldır ki, dövlət büdcəsinə yönəldilən vəsaitlərin artımında qeyri-neft sektorunun rolu xeyli artmışdır. Səhiyyə xərclərini 1 milyard 871,3 milyon manat, büdcə xərclərinin 5,1 faiz olması, səhiyyə xərclərinin son iki ildə 34 faiz artması dövlətimizin bu sahəyə necə qayğı ilə yanaşmasının bir göstəricisidir. İcbari tibbi sığortanın tətbiq ilə ölkə səhiyyəsinin maliyyələşməsində müasir yanaşmaların tətbiqi, səhiyyə sahəsinin inkişafına əhəmiyyətli dərəcədə təsir etmişdir. Səhiyyə xərclərinin 73,5 faizinin və ya 1 milyard 376 milyon manatının əhalinin icbari tibbi sığortalanmasına yönəlməsi bu sahənin prioritet olmasının sübutudur. Əslində, sosial dövlət modelinin bəyanatlarda deyil, əməldə bir sübutudur. Məhz bu diqqət və qayğının nəticəsidir ki, bu il İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin gördüyü tədbirlər sayəsində xidmətlər zərfinin əhatə dairəsi genişlənmiş və zərfdəki xidmətlərə görə müvafiq ödəmələrin həcmi artmışdır. Ancaq tibb müəssisələrində gedən proseslərlə bağlı Hesablama Palatasının auditlərinin analizindən göründüyü kimi, burada da bəzi korrektələrə, daha fərqli idarəetmə həllərinə ehtiyac vardır.

Digər sahələrdə olduğu kimi, səhiyyədə TƏBİB-in tabeliyində yaradılmış publik hüquqi şəxslərin hələ də büdcə təşkilatları kimi fəaliyyət göstərdiyinin şahidi oluruq. Regionlarda publik hüquqi şəxslər şəklində fəaliyyət göstərən tibb müəssisələri bəzən çevik, korporativ idarəetmə modellərini tətbiq etmədiklərinə görə hələ də dotasiya ilə fəaliyyət göstərirlər. Bu barədə Hesablama Palatasının apardığı audit nəticəsində dotasiya həcminin 70 faiz olduğu aşkar olunmuşdur. Bu publik hüquqi şəxslərdə ən gəlirli sahələr, laborator və diaqnostika fəaliyyəti autsor-

sinqə verilir. Əslində, bu, şərti, natamam autsorsinqdir. Çünki tibb işçilərinin maaşı, kommunal xidmətlər dövlət müəssisələri tərəfindən ödənilir. Daşınmaz əmlak və bəzi avadanlıqlar dövlət tibb müəssisələrinə məxsusdur. Lakin tibb müəssisələrinin üzərində iqtisadi yükə çevrilən camaşırxana, qida təminatı və mühafizə kimi xidmətlərin hələ də tibb müəssisələrinin kadr təminatında qalması bəzən suallar doğurur. Bu proseslərdə də hörmətli nazirimiz Mikayıl Cabbarovun qeyd etdiyi kimi, "Dövlət-özəl tərəfdaşlığı haqqında" çox mükəmməl bir Qanunun tələblərinə uyğun hərəkət edildikdə çox mühüm irəliləyiş əldə etmək olar.

Publik hüquqi şəxslər şəklində fəaliyyət göstərən tibb mərkəzlərində idarəetmə və qeyri-tibb mütəxəssislərinin həm sayının artması, həm yüksək maaşlar verilməsi, həm də bəzən həkimlərə verilən bonusların gizlədilməsi bu müəssisələrdə rentabelliyin aşağı düşməsinə və müəssisələr üçün əsas gəlir gətirən tibb personalının özəl sektora yönəlməsinə gətirib çıxarır. Bəzi hallarda idarəetmə personalının maaşının yüksək, lakin real gəlir gətirən xəstəxanaların baş həkimlərinin maaşının ondan nisbətən aşağı olması iqtisadi səmərəlilik prinsiplərinə uyğun gəlmir.

İkinci bir misal, İcbari tibbi sığorta fondunda əvvəlki illərdə fondun istifadə olunmamış vəsaiti 2023-cü ildə 215 milyon, 2024-cü ildə isə 450 milyon manat olmuşdur. Bu vəsaitlərin idarə olunmasından 31 milyon manat gəlirin əldə edilməsi nəzərdə tutulur. Əgər bu 450 milyon vəsait laboratoriyaların qurulmasına sərf olunsa, TƏBİB tərəfindən şərti autsorsinqə verilmiş bütün diaqnostik laboratoriyalar avadanlıqla təmin olunar və bir il ərzində maya dəyərini çıxararaq publik hüquqi şəxslərə gəlir gətirərdi.

Səhiyyə idarəetməsi və tibbi xidmət standartlarının hazırlanmasında Səhiyyə Nazirliyinin rolu artırılmalıdır.

Səhiyyə Nazirliyinin ölkə paytaxtı ilə yanaşı, regionlarda fəaliyyət göstərən müəssisələrinin publik hüquqi şəxslərə çevrilməsi mühüm əhəmiyyət kəsb edir. Beləliklə, İcbari tibbi sığorta fondunda toplanan kifayət qədər böyük vəsaitə bütün qurumların eyni dərəcədə əlçatanlığının təmin edilməsi, əhaliyə rəqabətli, keyfiyyətli tibbi xidmətin göstərilməsi ilə nəticələnərdi. Bu vəsaitlərə çıxışa bəzən süni əngəllərin yaradılması Azərbaycan Dövlət Tibb Universitetinin klinikalarının, demək olar ki, fəaliyyətsiz qalmasına və tibb kadrlarının hazırlanmasında bir qədər problemlər yaranmasına səbəb olur. Burada ciddi nəzarət və şəffaflığın olması həm də İcbari tibbi sığorta fondunun büdcəsində nəzərdə tutulmuş 260 milyon vəsaitin səmərəli istifadəsinə gətirib çıxarardı. Tam əminik ki, tibb müəssisələrinin akkreditasiyası və Səhiyyə Nazirliyinin əsasnamələrinə olunan dəyişikliklərlə bağlı cənab Prezidentin fərmanı inqilabi dəyişikliklərə səbəb olacaqdır.

2024-cü ilin dövlət büdcəsində səhiyyəyə ayrılan vəsaitlər İcbari tibbi sığorta fondunda olan məbləğlərlə birgə cəmi 3 milyard 307 milyon manat vəsait edir. Bu da müstəqillik dövrünün rekord səhiyyə büdcəsidir. İnanırıq ki, səhiyyədə fəaliyyət göstərən qurumların ölkə rəhbərinin strateji kursuna uyğun olaraq, birgə, koordinasiyalı çalışması və işə vicdanlı münasibəti səhiyyəmizin inkişafını daha da yüksək səviyyələrə çatdıracaqdır.

Çıxışımın sonunda büdcənin hazırlanmasında fəaliyyət göstərmiş hər bir şəxsə minnətdarlığımı bildirirəm və çıxışıma şərait yaratdığınıza görə Sizə öz təşəkkürümü bildirirəm.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov. Buyurun.

**S.Novruzov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli Baş nazir, hörmətli hökumət üzvləri, qonaqlar,

hörmətli Milli Məclisin deputatları, mətbuat nümayəndələri. Mən də həmkarlarım kimi, büdcə layihəsini dəstəkləyirəm, ona səs verəcəyəm. Büdcə layihəsi çox geniş şəkildə müzakirə olunub, hərtərəfli şəkildə bütün komitələrdə müzakirədən sonra təqdim olunubdur. Qeyd etmək istərdim ki, büdcə layihəsi cənab Prezident tərəfindən ölkəmizdə həyata keçirilən iqtisadi, siyasi, sosial, hərbi, beynəlxalq və digər siyasətin bariz nümunəsidir və bunlar orada öz əksini tapır. Dünyada və ətrafımızda baş verən müharibələri, qırğınları gördüyümüz bir vaxtda Azərbaycan bir stabillik adası kimi öz dövlət büdcəsini müzakirə edir. Bizimlə iqtisadi əməkdaşlıqda olan ölkələrin bəzilərinə indi embarqo tətbiq olunur, bəzilərində müharibələr gedir, çoxlu sayda insanlar tələf olur, evlər dağıdılır. Azərbaycan Ali Baş Komandanın rəhbərliyi altında öz ərazi bütövlüyünü təmin edibdir və öz bütöv ərazisinin dövlət büdcəsini müzakirə edir. Dövlət büdcəsini biz əgər iki istiqamətə bölsək, birinci istiqamət qlobal məsələlərə həsr olunmuş sahədir. Burada təhlükəsizlik, müdafiə, işğaldan azad olunan yerlərin bərpası, insanların ora qayıtması və sosial məsələlərdir ki, bu da geniş şəkildə öz əksini tapıbdır və hər bir sahədə ciddi artımlar var.

İkinci hissəsi isə digər cari məsələlərdir ki, büdcə layihəsində onların hər birində də biz nəzərə çarpacaq dərəcədə artımları görürük.

Qeyd etmək istərdim, Regional məsələlər komitəsi olaraq, sevindirici haldır ki, bu büdcə layihəsində bizim rayonlarımızın 7-sini çıxmaq şərti ilə yerdə qalanların hər biri özü öz büdcəsini təmin edir, dövlət büdcəsindən hər hansı bir vəsait almır. Bu 7 rayona daxil olanların 6-sı işğaldan azad olunmuş rayon, biri isə dağ rayon olan Yardımlı rayonudur ki, gələcəkdə bu da özünün büdcəsini tam

təmin edəcəkdir. Həmçinin əlavə stimul yaradılır ki, büdcədən əlavə toplanılmış vəsaitin 50 faizi də regionlarda qalsın ki, orada abadlıq, quruculuq işləri, yeni sosial layihələr, digər məsələlərə bu vəsaitlər sərf olunsun, bu da rayonların, regionların inkişaf etməsinə böyük təkan verəcəkdir və gələcəkdə rəqabət mühiti yaradacaqdır. Məhz Prezidentimizin dediyi kimi, regionlar onunla götürüləcək ki, ora investisiya cəlb olunması hansı dərəcədədir, hansı investisiyalar nə qədər miqdarda cəlb olunubdur, nə qədər yeni iş yerləri açılıbdır, nə qədər yeni müəssisələr açılıbdır. Bununla artıq o rayonun iş mexanizmi müəyyən olunacaqdır. O baxımdan da bu, çox təqdirəlayiq bir haldır.

Həmçinin bələdiyyələrə verilən subsidiyalar, subvensiyalar artırılıbdır və hesab edirəm, buna da bir nəzarət mexanizmi gücləndirilməlidir ki, o verilən subsidiyaları və subvensiyaları məhz hər hansı sosial layihələrə, yəni nəyin isə tikilib gəlir gətirməsinə sərf etsinlər. Yoxsa, əmək haqqına, nəqliyyat vasitəsinə, mebelə sərf olunmasın. O baxımdan da, hesab edirəm ki, bələdiyyələrdə də bu məsələlər öz əksini tapmalıdır.

Bir neçə məsələ, bu gün cəmiyyəti düşündürən ciddi məsələlərdir ki, o da insanların regionlara qayıtması və regionlarda iş ilə təmin olunması, regionlardakı fəaliyyətidir. Birinci növbədə, biz komitədə büdcə müzakirəsində də qeyd etdik ki, ipoteka kreditlərinin əlçatanlığı təmin olunmalıdır. Rayonlarla şəhər arasında fərq olmalıdır, müddət fərqi olmalıdır, miqdar fərqi olmalıdır, əmək haqqı fərqi də nəzərə alınmalıdır ki, orada işləyən insanlar bu ipotekanı ala bilsin, ev alsın və orada qalsın, yaşasın. Daha məcbur olmasın ki, Bakıya gəlsin, Bakıda ipoteka alsın.

İkinci bir tərəfdən, ipotekada elə bir sistem yaradılıbdır ki, bu gün ancaq dövlət qulluğunda çalışan, yaxud daimi

əmək haqqı alan insanlar ipoteka ala bilir. Bizim kifayət qədər, bax, götürək, elektrik çilingəri, bənna, rəngsaz, bərbər, pinəçi, saatsaz, digərləri var ki, özəl sahədə çalışırlar, pul qazanırlar. Bunların ipoteka almaq imkanları yoxdur. Əgər bunlara bu şərait yaradılacaqsa, onlar yerlərdə qalıb öz müəssisələrini açacaqlar. Birinci, VÖEN alıb vergi ödəyəcəklər, ikincisi, Dövlət Sosial Müdafiə Fondunda qeydiyyatdan keçəcəklər, öz gəlirlərini də gizlətməyəcəklər. Artıq bir sistemə düşəcək və əhali yerlərdə fəaliyyətə başlayacaq.

Digər bir məsələ, güzəştli mənzillərin tikilməsi. Yenə Bakıda biz güzəştli mənzilləri tikirik. Mikrorayonlar sökülür, onun yerində güzəştli mənzillər tikilir. Bunun 80, 90 faizini regionda tikmək lazımdır. Həm işçi qüvvəsi orada tikintidə iştirak edər, həm güzəştli şəkildə ev alar, həm də orada yaşayar. Artıq orada bir oturaqlıq yaranır. Biz özümüz elə bir ab-hava yaradırıq, bu insanları bura gəlməyə məcbur edirik, sonra da deyirik ki, Bakıda getdikcə əhalinin sayı artır, çətinləşir, digər problemlər yaranır. Bu problemlərin aradan qaldırılması üçün məhz bu addımların atılması, mən hesab edirəm ki, regionların inkişafı üçün daha səmərəlidir.

Cənab Prezident tərəfindən 4 regional layihə həyata keçirilib. Bütün regionlarda infrastruktur yaranıb, 3500 məktəb, 700-dən artıq xəstəxana, diaqnostika mərkəzi, 40-dan artıq olimpiya kompleksi, mədəniyyət evləri, – indi burada qeyd olundu, – Heydər Əliyev sarayları, gənclər evləri tikilibdir. Bunların hamısını istifadəyə vermək, orada tədbirləri, bu işləri həyata keçirmək və insanların oraya gəlməsini, iştirak etməsini təmin etmək olar. Ona görə, mən hesab edirəm, bu güzəştli mənzillərin böyük hissəsinin tikintisi orada həyata keçirilməlidir və insanlara da

imkan yaradılmalıdır ki, o güzəştli mənzillərdən istifadə etsinlər.

Qeydiyyatsız evlərlə bağlı. Cənab Prezident bir neçə dəfə tapşırıq verib ki, qeydiyyatsız evlər qeydiyyata alınsın. Elə adam var ki, orada artıq nəvəsini ya gəlin köçürüb, ya evləndirib, gəlin gətirib. Bu adamın evi indiyə qədər qeydiyyatsızdır. 50, 60, 70 il bunların müddəti var. İndi kim deməlidir bunu? BMT qətnamə çıxarmalıdır ki, bu evləri qeydiyyata alın? Tapşırıq verilibdir, bu tapşırığı yerinə yetirin də. Burada həm bələdiyyələrə vergi yığılacaqdır, – bu qeydiyyatsız evlərin sayı 1 milyona çatır, – yığılan müxtəlif vergilər, həm də kommunal vergilər və sair dövlət büdcəsinə daxil olacaqdır. Ona görə də, hesab edirəm ki, bunların hamısı qeydiyyata alınmalıdır. Vətəndaşa sənəd verin də. Əksinə nə edirlər? Vətəndaşı qeydiyyatdan çıxarırlar, vətəndaşı dövlətdən narazı salırlar ki, sənə şəxsiyyət vəsiqəsi vermirik, bu ev qeyri-qanuni tikilibdir. 30 il orada yaşayıb, indi ona şəxsiyyət vəsiqəsini təqdim etmirlər. Ona görə, güman edirəm, bu məsələ öz həllini tapmalıdır.

Təhsil, səhiyyə sahəsində. İnsanları regionlara göndərmək lazımdır. Qeyd etdim, diaqnostika mərkəzləri var, ən yaxşı aparatlar alınıbdır. 5 il gedib regionda işləməlidir, nəyə görə xəstəsini regiondan bura gətirməlidir? Əməliyyat keçirməlidir, yerində bunu həll edir və vətəndaşın da üzərinə o qədər xərc düşmür. İndi onsuz bunlar sığorta ilə həyata keçirilir, o cümlədən də yerlərdə onlar kifayət qədər əmək haqqı alacaqlar. Ezamiyyətlərini də, əmək haqlarını da artırsınlar. Müəllimlərə, yerlərdə çatışmayan müəllimlərə də artıq pul versinlər. Yazıçıları, şairləri də göndərsinlər, təkcə elə onlar cənab Prezidentə məktub yazıb ev istəmək, ondan sonra götürək ki, nəvə-nəticəsini işə

düzəltmək deyil, eyni zamanda, regionlara gedib insanların qarşısında dövlətin siyasətini, azərbaycançılığı təbliğ etməlidirlər. Digər məsələləri təbliğ etməlidirlər. Bunların hər biri bu insanların qarşısında çıxış etməlidir. İnsanlar tək TikTok-un, başqa-başqa kanalların öhdəsinə qalmamalıdır. Mən hesab edirəm ki, bu da təmin olunmalıdır.

Son olaraq, qeyd etmək istəyirəm, həmişə müharibə veteranlarının müavinətləri barədə məsələ qaldırmışıq. Bundan xaricdə və daxildə olan antimilli qüvvələr, vətən xainləri sui-istifadə edirlər. Cənab Baş nazir, bu məsələyə nə isə bir əncam çəkilməlidir ki, müharibə veteranlarının 80 manatlıq müavinəti artırılsın. İndi sosial sahə ilə bağlı müzakirələrdə biz fikirlərimizi deyəcəyik. Amma ümumilikdə, hesab edirəm ki, bu məsələyə də diqqət yetirilməlidir.

Büdcəyə səs verəcəyəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Kamran Bayramov. Buyurun.

**K.Bayramov**. Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hökumət üzvləri. Müzakirəmizə təqdim olunmuş 2024-cü il dövlət büdcəsinin layihəsi əsas hədəfləri əhatə edir, dolğun və mükəmməl bir sənəd olmaqla, bugünkü reallığın diktə etdiyi bir çox məsələləri həllinə yönəlir. Bu xüsusda sənədə əsasən işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulmasının, ölkənin müdafiə potensialının gücləndirilməsinin və eyni zamanda, əhalinin sosial müdafiəsinin və sosial təminatının gücləndirilməsinin ölkə rəhbərliyinin xüsusi diqqətində olması tərəfimizdən birmənalı olaraq dəstəklənilir. Təbii ki, mən büdcə layihəsinə səs verəcəyəm və həmkarlarımı da səs verməyə dəvət edirəm.

Qeyd etmək istədiyim məsələlərdən biri bələdiyyələrin maliyyələşdirilməsi və onların maliyyə imkanlarının ar-

tırılması ilə bağlıdır. Bu məsələləri qaldırmağa məni vadar edən səbəb isə gələn il bələdiyyə seçkilərinin keçirilməsidir. Çünki növbəti bələdiyyə seçkilərində əhalinin iştirakını stimullaşdıran amillərdən biri də məhz bələdiyyələrin dayanıqlı maliyyəyə malik olmasıdır. Sevindirici haldır ki, dövlət büdcəsi layihəsində bələdiyyələrə veriləcək dotasiyaların həcmində artım müşahidə olunur. Buna görə də Maliyyə Nazirliyinə təşəkkürümü bildirmək istərdim. Eyni zamanda, bu gün bələdiyyələrin maliyyə baxımından inkişafını əngəlləyən çətinliklər də mövcuddur və həmin çətinliklərin kökündə də, əsasən, iki məsələ durur. Sənədsiz evlərin sənədləşdirilməsi və bələdiyyə torpaqları üzərində mülkiyyət sənədlərinin və xəritələrin hazırlanması proseslərinin ləngiməsi.

Bildiyiniz kimi, hazırda ölkə üzrə 100 minlərcə sənədsiz ev mövcuddur. Hələ 2011-ci ilin mart ayında cənab Prezident rəsmi icazə olmadan tikilmiş evlərin sənədləşdirilməsi ilə bağlı hökumətə xüsusi tapşırıq vermişdir və onun icrası istiqamətində də müəyyən işlər görülmüşdür. Belə ki, “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Qanunda 2015-ci ildə edilmiş dəyişikliklə sənədsiz evlərin qeydiyyatı asanlaşdırılıb, cənab Prezidentin 2015-ci və 2019-cu illərdə imzaladığı müvafiq fərmanlara əsasən 200 minə yaxın fərdi yaşayış evi və mənzil sənədləşdirilib. Ötən ilin aprel ayında isə cənab Prezidentin imzaladığı fərmanlara əsasən əvvəllər hüquq müəyyənedici sənəd hesab olunmayan bir sıra sənədlər hüquqların qeydiyyatı üçün əsaslar sırasına daxil edilib. Təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat nəticəsində məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin əvəzinə dövlət vəsaiti hesabına inşa edilmiş yeni yaşayış evlərinin və çoxmənzilli yaşayış binalarının mənzillərinin sənədləş-

dirilməsi nəzərdə tutulub. Bu fərmanların icrası, şübhəsiz ki, ölkədə sənədsiz evlərin sayının azaldılmasına xidmət etməkdədir.

Eyni zamanda, 2019-cu ildən etibarən İqtisadiyyat Nazirliyi tərəfindən sənədsiz tikililərin inventarlaşdırılması həyata keçirilib və pandemiyanın başlandığı dövrədək ölkədə 200 minə yaxın sənədsiz ev və mənzil inventarlaşdırılıb. Lakin təəssüf ki, pandemiya ucbatından və digər səbəblərdən inventarlaşma prosesi ləngimişdir. Qeyd etmək lazımdır ki, eyni ləngimə bələdiyyə torpaqları üzərində mülkiyyət sənədlərinin və xəritələrin hazırlanması prosesində də yaşanır. Düşünürəm ki, hər iki prosesin canlandırılması bir çox problemlərin həllinə səbəb olacaq. Həm vətəndaşların əmlakları üzərində sərəncam vermək hüququnu təmin edəcək, həm ölkənin daşınmaz əmlak bazarını canlandıracaq, həm bələdiyyələrin yığdığı fiziki şəxslərin torpaq və əmlak vergiləri üzrə vergitutma bazasını genişləndirəcək, həm də yerli büdcələrə və dövlət büdcəsinə daxil olan vəsaitlərin həcmini əhəmiyyətli dərəcədə artıracaqdır. Bununla əlaqədar, sənədsiz evlərin sənədləşdirilməsi və bələdiyyə torpaqları üzərində mülkiyyət sənədlərinin, xəritələrin hazırlanması işinin sürətləndirilməsi məqsədi ilə 2024-cü il dövlət büdcəsində İqtisadiyyat Nazirliyinə ayrılması nəzərdə tutulan vəsaitin artırılmasını təklif etmək istərdim.

Bununla yanaşı, hökumət üzvlərinin iştirakından istifadə edərək onların diqqətini təmsil etdiyim Şəmkir və Daşkəsən rayonlarında yaşayan əhalini narahat edən və görüşlərimizdə mütəmadi olaraq qaldırılan problemlərdən birinə cəlb etmək istərdim. Bu da qaz təchizatı ilə bağlıdır. Əslində, həmin rayonlarda əksər yaşayış məntəqələri qazla təmin olunub, lakin həmin məntəqələrdə yeni yaşayış

məhəllələri və massivləri salınıb və bu günə qədər də qazla təmin edilməyib. Məsələn, Şəmkir rayonu üzrə Kür qəsəbəsində, Abbaslı, Aşağı Seyfəli, Düzqışlaq, Xuluf, Keçili, Könüllü, Səməd Vurğun, Qapanlı, Mahmudlu, Təzəkənd, Yeni yol, Yeniabad kəndlərində salınmış yeni yaşayış massivlərində 3200-dən çox insanın yaşadığı təxminən 850 ev təsərrüfatının qazlaşdırılmasına böyük ehtiyac vardır. Bununla əlaqədar, qeyd edilən ev təsərrüfatlarının qazla təmin edilməsi işinin həyata keçirilməsi üçün dövlət büdcəsinin tərkibində olan müvafiq investisiya xərclərinin artırılması məsələsinə baxılmasını da xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa. Buyurun.

**F.Mustafa**. Hörmətli xanım sədr, hörmətli Baş nazir, hörmətli hökumət üzvləri, millət vəkilləri, qonaqlar, media nümayəndələri. Bu büdcə layihəsi çox ciddi tarixi bir dövrdə müzakirəyə çıxarılıb və onun xeyli çətinlikləri də etiraf olunmalıdır. Birinci çətinliyi ondan ibarətdir ki, qanunvericilikdə 15 sentyabradək büdcə layihəsinin, icmal büdcənin göstəricilərinin Milli Məclisin orqanı olan Hesablama Palatasına təqdim olunması nəzərdə tutulurdu və 5 gün sonra bu büdcə layihəsində kifayət qədər təsir göstərə biləcək hadisə baş verdi. Azərbaycan torpaqları tam şəkildə işğaldan azad olundu və bu işğaldan azad olunmuş bölgələrə qayıdışla bağlı yeni situasiya ortaya çıxdı. Bunu tənzimləmək olduqca çətin idi. Ona görə də bu büdcə layihəsini hazırlayanlar, həqiqətən də, çox böyük, möhtəşəm bir iş görüblər. Ona görə onların hamısına təşəkkürümü bildirmək istəyirəm.

İkinci, büdcə layihəsində iki mühüm sənəd "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-

iqtisadi inkişaf Strategiyası"na bu layihənin uyğunlaşdırılması çox çətin bir proses idi və layihədə bunun da həll olunduğunu görürük. Nəhayət, ən vacib məsələ, nəticə əsaslı büdcə modelinin əsas prinsiplərinin və bir çox parametrlərinin büdcə layihəsində əks olunması xeyli çətinliklər yaratsa da, hər halda bu istiqamətdə də müəyyən işlərin görülməsi təqdirəlayiqdir. Amma, bütövlükdə, biz büdcə layihəsinin həm də önümüzdəki ildə çox ciddi prosesləri əhatə edəcəyini düşündüyümüzə görə, bir sıra təklif, tənqid və iradların da bildirilməsini vacib hesab edirik. Çünki bunların diqqətə alınması ümumi işimizin faydasına ola bilərdi.

Bu büdcə layihəsində publik hüquqi şəxslərlə bağlı məqamlar çox geniş verilibdir. 52 publik hüquqi şəxsə 534 milyon manat vəsait ayrılıb və bu, sevindiricidir ki, publik hüquqi şəxslərə ayrılan subsidiyaların çoxu azaldılıbdır. Müəyyən mənada qrant və digər ödənişlərlə əvəz olunubdur. Amma mən də o prinsiplə razıyam ki, publik hüquqi şəxslərin və dövlət müəssisələrindən ayrılan vəsaitin icrasının xəzinadarlığın müşayiəti ilə həyata keçirilməsi olduqca vacibdir. Bu, nəzarət mexanizmini gücləndirər. Çünki biz publik hüquqi şəxs yaradandan sonra, 3 il, 5 il, 10 il keçir, yenə də onu subsidiya ilə təmin eləyirik və bu vəsaitin də əksər hissəsi onun əmək haqqı fonduna və başqa, bəzən də lüzumsuz xərclərinə gedir. Konkret funksional fəaliyyətinin həyata keçirilməsində müəyyən problemlər yaradır.

Bizim özəlləşmə ilə bağlı burada çox hörmətli iqtisadiyyat nazirimiz Mikayıl müəllim qeyd elədi, 104 milyon manat büdcəyə vəsait daxil olub. Fikrimcə, bu potensialı biz genişləndirmək imkanına sahibik. Burada da qeyd olundu, qanunsuz tikililər adı ilə, əslində, Azər-

baycanda mövcud olan xeyli qanuni tikinti var. Yəni qanuni tikinti odur ki, qaz çəkilib, elektrik verilir və üstəlik vergi ödəyicisidir. Amma tikinti qanunsuz sayılır. 20 ildir, 30 ildir, biz bu potensialı niyə səmərəli istifadə eləmirik? Həm büdcəyə pul gələcək, həm də vətəndaş qanuni şərtlərdə çalışmağa başlayacaq, iqtisadi həyat dirçələcəkdir. Diqqət eləyirsinizsə, ölkə Prezidenti 2023-cü il iyunun 14-də "Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərman imzaladı. Prezident özü artıq görür ki, məhz bu qeyri-yaşayış sahələrinin çoxunda istehsal prosesi, iqtisadi fəaliyyət həyata keçirilir. Amma bunun qanuni fəaliyyətinin olmaması ölkə iqtisadiyyatında həm də gizli iqtisadiyyatın bir az da stimullaşmasına gətirib çıxarır. Ona görə də bu istiqamətdə, məncə, işləri sürətləndirmək lazımdır. On minlərcə belə obyekt var və bunları mütləq özəlləşdirmək, bunların sahiblərinə qanuni istifadə üçün şərait yaratmaq vacibdir. Bu, çox mühüm məsələlərdən biridir.

Bölgələrdə problemləri çözmək lazımdır. Bölgələrə qayıdış məsələsi çox önəmli, prioritet məsələlərdən biridir. Siz təsəvvür edin ki, burada gənclər evlərinin saxlanmasına 5,5 milyon vəsait ayrılıb. Amma içini doldura bilmədiyimiz bir çox obyektlər var ki, bunlara yenidən baxılmalıdır. Biz bunların təyinatını ya dəyişməliyik, ya da hansısa bir mədəni infrastruktur kimi, bölgələrdə işlək bir vəziyyətə gəlməsini təmin eləməliyik. Baxın, idman obyektlərinin təmiri və başqa məsələlərə, məncə, vəsait xeyli artırılmalıdır. Diqqət eləyirsinizsə, Bakıda çox sayda futbol meydançaları var, dam örtüyü yoxdur. Dam örtüyü olmayan meydançaların böyük əksəriyyəti Bakının iqliminə görə tam, tez bir vaxtda sıradan çıxır və onların

təmiri məsələsində də vəsait azlığına görə hansısa bir şəkildə bir irəliləyiş əldə eləmək olmur. Bu məsələ də ciddi narahat edir. Baxın, ölkədə son vaxtlar basketbol xeyli inkişaf elədi. Amma basketbol meydançası tapmaq mümkün deyil. Örtülü meydançaların sayının çoxalması, məktəblərin həyətində bu meydançaların məcburi salınması məsələsini mütləq həll etmək lazımdır.

Mədəniyyət sahəsində. Ötən dəfə komitələrdə, Sahibə xanım, Sizə də təşəkkür edirəm ki, çox yaxşı şərait yaratdınız, həm siyasi partiya təmsilçiləri, həm də başqa profil komitələrin üzvləri kimi fikirlərimizi geniş səsləndirdik. Kino Agentliyi ilə bağlı. Orada da demişdim, publik hüquqi şəxsə 10,5 milyon pul ayrılıb. Bu, mədəniyyət sahəsində və ölkənin təbliğində ən vacib istiqamətlərdən biridir. Mən nəyi təklif eləmək istəyirəm. Biz kitab sənayesində bunu etdik. Əlavə dəyər vergisini ortadan qaldırdıq. Bu günlərdə IX beynəlxalq kitab sərgisi keçirildi. İnanın ki, kitaba maraq, kitab sahəsində canlanma o qədər sevindirici oldu ki, bunun təsiri birinci növbədə həmin yüngülləşdirmə ilə bağlı idi. Kino sahəsində də, hətta kommersiya filmlərinə belə əlavə dəyər vergisini ortadan qaldırmaq lazımdır. Bu, qaldırılsa, bu sahədə daha böyük stimullaşma olacaq. Çünki 10 milyona, əslində, böyük filmlər də çəkmək olmur. Dünya kino sənayesi sahəsi ilə müqayisədə, diqqət eləsəniz, bu, əslində, böyük bir vəsait deyil. Amma heç olmasa, əlavə dəyər vergisindən azad etmək bu sahədə imkanları kifayət qədər artıra bilər.

Digər bir məsələ, bizdə bölgələrə qatarların işləməməsi ilə bağlı məsələdir. Tez-tez şikayətlər gəlir. XXI əsrdə biz qatar, dəmir yolu məsələsini çözə bilməmişik. Yəni istər Zaqatala, istər Qəbələ, istərsə də Gəncə və başqa yerlərə intensiv sürətli dəmiryolu xətlərinin olmaması müəyyən

problemlər yaradır və bu məsələ həm də tıxacın qabağının alınması üçün olduqca vacibdir. Bu da həllini tapmalıdır.

Bizdə Bakı və Şamaxı istisna olmaqla, digər 66 şəhər və rayonlar üzrə, gəlirlərin artımı nəzərdə tutulur və nəticədə də öz xərcini yerli gəlirlər hesabına təmin edə bilməyən rayonların sayı azalaraq yeddiyə, yerli gəlir və xərclər tənzimləmək üçün mərkəzləşmiş xərclərdən ayrılan vəsaitin məbləği isə 9,3 milyon manata enir. Bu, təbii ki, belədir. Amma rayonlarda real vəziyyət başqadır. İstehsal müəssisələri işləmir və işsizlik kifayət qədər yüksək səviyyədədir. Məşğulluq sistemi bizdə bu işsizliyin yükünü götürə bilmir. Bu məsələyə də diqqət ayrılmalıdır.

Gələn il, doğrudan da, bələdiyyə seçkiləri keçirilir. Məncə, iqtisadiyyatımızın dirçəlməsi üçün ən əsas çıxış yollarından biri dövlətin yükünün bələdiyyələrə dövr edilməsidir. Nəhayət, biz 2024-cü ildən bələdiyyəni canlı bir quruma çevirməliyik. Bu, olduqca vacibdir. Bələdiyyə ölü vəziyyətdə olanda, onun sənədləri tanınmayanda, onun hansısa bir şəkildə iqtisadi proseslərə qoşula bilməməsi yerli xidmətlərdə böyük  sıxıntılar yaradır.

Sonuncu, çox vacib bir məsələyə toxunmaq istəyirəm. Bunu komitələrdə də qaldırdım. Naxçıvan Muxtar Respublikası ilə bağlı. Hələ ki yol açılmayıbsa, orada işsizlik və müəyyən insanların sosial durumu yaxşılaşmayıbsa, qaz və elektrik tariflərini Azərbaycanın digər regionları ilə müqayisədə aşağı salmaq lazımdır. Nə vaxt yol açılar, nə vaxt ora ayrılan vəsaitlər əhalinin həyatına təsir eləyər, onda bu məsələyə yenidən qayıtmaq olar. Amma bu məsələ üzərində mütləq düşünmək lazımdır. Çünki artıq Qarabağ məsələsi çözüləndən sonra bizim bir sıxıntılı bölgəmiz Naxçıvan qalır. Yəni buradakı insanların ora qayıdış məsələsini təmin etməyimiz vacibdir. Çünki sabah

orada yollar açılandan, infrastruktur qurulandan sonra, bir canlanma olmalıdır, insanlar orada məskunlaşmalıdırlar ki, artıq bizim üçün strateji əhəmiyyət daşıyan bir bölgə rolunu davam etdirməlidir. Bir neçə ölkə ilə sərhədi var və müəyyən problemlərin həlli, azad iqtisadi zonanın salınması və başqa perspektivlər də, təbii ki, orada nəzərdə tutulacaqdır. O baxımdan da bu məsələyə, məncə, təcili əncam çəkmək lazımdır. Çünki əhalinin böyük əksəriyyətinin, həqiqətən də, qaz və elektrik xərclərini ödəməyə imkanı yoxdur. Hələ təyyarə xərcləri. Siz təsəvvür edin, Lənkərandan bura avtobusla rahat gəlmək olar. Amma buradan Naxçıvana ancaq təyyarə yolu var və ona görə bunu nəzərə almaq vacibdir. Büdcə layihəsini dəstəkləyirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Azər Badamov. Buyurun.

**A.Badamov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli hökumət üzvləri və həmkarlar. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti iqtisadi və siyasi müstəqilliyə nail olmaqla böyük Zəfəri və ərazilərinin suverenliyini təmin etdi. Müzakirə etdiyimiz dövlət büdcəsi layihəsi də ərazilərində suverenliyini təmin etmiş Azərbaycanın inkişafına hesablanmışdır. Bu gün büdcəmizin qarşısında daha böyük vəzifələr dayanır. Üç il əvvəl işğaldan azad olunmuş ərazilərimizin 20 faizini əhatə edən torpaqlar yenidən dirçəlir və ölkənin ümumi iqtisadiyyatına reinteqrasiya olunur. Son 3 ildə dövlət büdcəsindən işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpasına ayrılmış 12 milyard manatla meqa layihələr icra etməklə, Böyük Qayıdışa uğurla başlaya bilmişik. Gələn ildə də işğaldan azad olunmuş ərazilərin inkişafına 4 milyard manatın ayrılmasının nəzərdə tutulması 2022–2026-cı illəri əhatə edən Böyük

Qayıdışa dair dövlət proqramının reallaşmasını sürətləndirəcəkdir. Bununla yanaşı, regionların sosial-iqtisadi inkişafı dövlət proqramları da uğurla davam etdirilməklə, ölkəmizin bütün regionlarının tarazlı inkişafı təmin olunur.

Müzakirə etdiyimiz dövlət büdcəsinin 2024-cü ildə ölkəmizin sosial-iqtisadi inkişafını, müdafiə qabiliyyətinin artırılmasını və iqtisadi siyasətin uğurla davam etdirilməsini təmin edəcəyini hesab edirəm.

Hörmətli həmkarlar, 2024-cü ilin dövlət büdcəsi layihəsini yüksək dəyərləndirməklə yanaşı, təmsil olunduğum rayonda həll olunmalı vacib 2 məsələni də hökumət üzvlərinin diqqətinə çatdırmaq istəyirəm. Birinci məsələ elektrik şəbəkəsinin yenidən qurulması ilə bağlıdır. Qusar rayonunun elektrik şəbəkəsi 1950-ci illərdə tikildiyindən bu günün tələblərinə cavab vermir. Yaşayış məntəqələri böyüdüyündən çox yerdə əhalini dayanıqlı elektriklə təmin etməyə transformatorların gücü çatmır. Həm də dirəklər çürüdüyündən, havaların dəyişməsindən xətlərdə tez-tez qəzalar baş verir. Şəbəkəni ayıran açarların xətlərdə az olması təmir işləri aparılanda bir kəndi ayırmaq üçün böyük bir əraziyə elektrikin verilməsinin dayandırılmasına səbəb olur. İşıqların tez-tez sönməsi əhalinin istifadə etdiyi məişət texnikasını sıradan çıxarır və şikayətlərin çoxalmasına səbəb olur. Qeyd etmək istəyirəm ki, rayonun 90 yaşayış məntəqəsindən 15-də elektrik şəbəkəsinin yenidən qurulması ilə bağlı işlər qismən aparılsa da, 75 yaşayış məntəqəsinin dayanıqlı elektrik enerjisi ilə təmin edilməsində böyük çətinliklər mövcuddur.

Digər bir məsələ isə uzunluğu 11 kilometr olan Quxruba–Şirvanlı yolu ilə bağlıdır. Qeyd etmək istəyirəm ki, bu yol, iki gömrük məntəqəsini birləşdirən Samur–Xanoba yolunun tikintisi zamanı ağır yük avtomobilləri

vasitəsi ilə tikinti materialları daşındığından yararsız hala düşmüşdür. Gömrük məntəqələrini birləşdirən Samur–Xanoba yolu yenidən qurulduğu halda, bu yolun tikintisi üçün istifadə olunaraq yararsız hala düşmüş Quxroba–Şirvanlı yolunun yenidən qurulması həyata keçirilməyib. Halbuki Quxroba–Şirvanlı yolu 18 kəndin, 10 mindən çox insanın istifadəsindədir və Şirvanlı sərhəd keçid məntəqəsini birləşdirən strateji əhəmiyyətli yoldur.

Görüşlərimiz zamanı seçicilərimin çox qaldırdığı bu iki məsələnin həll olunması çox vacibdir və dövlət büdcəsinin imkanları daxilində kömək etmələrini xahiş edirəm.

Sonda, qeyd etmək istəyirəm ki, cənab Prezidentin rəhbərliyi altında hökumətin apardığı iqtisadi siyasətin 2024-cü ildə də uğurlu olacağına inanırıq və fəaliyyətində uğurlar arzulayıram. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Elman Nəsirov. Buyurun.

**E.Nəsirov.** Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli hökumət üzvləri, hörmətli həmkarlar və media nümayəndələri. Bu gün biz 2024-cü ilin dövlət büdcəsini müzakirə edirik. Həm iqtisadiyyat naziri hörmətli Mikayıl Cabbarovun çıxışında, həm hörmətli maliyyə nazirimiz Samir Şərifovun çıxışında, həm də digər dövlət rəsmilərinin çıxışlarında bir həqiqət isbatlandı ki, bugünkü büdcəmiz, daha doğrusu, 2024-cü ilin büdcəsi də zəfər büdcəsidir. Lakin bu büdcənin həm 2022-ci ilin, həm də 2023-cü ilin büdcəsindən əsas fərqi ondan ibarətdir ki, ərazi bütövlüyü və suverenliyi tam və qəti şəkildə təmin edilmiş dövlətin büdcəsidir. Biz özümüz də bu baxımdan tarixi anlar yaşayırıq ki, belə bir büdcəni müzakirə edir və onu təsdiqləmək istəyirik.

Heç kəsə sirr deyildir, büdcə müzakirələri zamanı insanlarımızı ən çox düşündürən məsələ odur ki, görəsən, bu

ilin büdcəsində onların sosial rifahı ilə bağlı məsələlər necə həllini tapıb, onların təhlükəsizlik məsələləri necə tənzimlənəcək? Eyni zamanda, hər birimizin göz bəbəyimiz olan Qarabağın bərpası prosesi necə gedəcək? Onun maliyyə təminatı necə olacaq? Bax, bu suallar insanlarımızı ən çox narahat edən məsələlərdir və bu gün tam inamla söyləmək olar ki, bütün bu suallara 2024-cü ilin dövlət büdcəsində müsbət cavab verilir.

Cənab Prezidentin sözləridir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun sosial rifahı dayanır. Bu, bir həqiqətdir və builki büdcəyə baxdıqda da bu fakt özünü bariz şəkildə nümayiş etdirir. 2024-cü ilin büdcəsində insanların sosial rifahı üçün 15,8 milyard manat, yəni 2023-cü illə müqayisədə düz 7 faiz artıq vəsait ayrılıb. Bu, bütün büdcəmizin 42,9 faizini, yəni 43 faizini təşkil edir. Müqayisə üçün, 2 il öncə 2021-ci ildə isə bu, təxminən 32 faiz idi. Yəni 2 il ərzində insanların sosial rifahı naminə büdcədən ayrılan vəsaitin həcmi 11 faiz artıb. Hesab edirəm ki, bu, insanlarımızı məmnun eləyən məsələlərdən biridir.

Əsas məsələlərdən biri təhlükəsizlik məsələsidir. Düzdür, 2024-cü ilin büdcəsində bu məqsəd, təhlükəsizlik, müdafiə məsələləri üçün 6,4 milyard manat ayrılıb. Bunu da anlayırıq, 2023-cü illə müqayisədə bu, 6 faiz artım deməkdir. Bizim təhlükəsizlik və müdafiə məsələlərimiz üçün təxminən 366,2 milyon manat əlavə vəsait ayrılıb. Ancaq motivlər bəllidir, bu gün Avropa parlamentariləri gəlib Ermənistanda separatçı rejimin tör-töküntüləri ilə əlahiddə görüş keçirirlər və Qarabağdan könüllü getmiş ermənilərin Qarabağa qayıdışı ilə bağlı beynəlxalq zəmanət və ya status tələb edirlər. Əgər Fransa dövləti Ermənistanı silahlandırmaq məsələsini gündəmə gətirir və

bu istiqamətdə addımlar atırsa, belə olan reallıqda, hesab edirəm ki, revanşizmin Ermənistanda yenidən dirçəlməsi və inkişafı fonunda bizim hərbi və müdafiə büdcəmizin artırılması məntiqidir və əgər mümkün olsa, – mən komitə iclasında da hörmətli Samir müəllimdən xahiş eləmişdim, – bizim müdafiə büdcəmiz 6 faiz yox, hətta 10 faiz artırılsın. Müqayisə üçün, Ermənistanın hərbi büdcəsi, – təbii ki, bizimlə müzakirə olunmaz, cırtdan bir ölkənin büdcəsidir, – amma hər halda, onlar 10 faiz artırıb. Hesab edirəm ki, 6 faizin 10 faizə qaldırılması məqsədəmüvafiq olardı.

Nəhayət, Qarabağın bərpası ilə bağlı məsələlər. İndiyə qədər Qarabağın bərpasına təxminən 7 milyard dollar vəsait ayrılıb. 2024-cü ilin büdcəsində daha 2,4 milyard vəsaitin ayrılması nəzərdə tutulub və bu proses uğurla getməkdədir. Bunu fəxarət hissi ilə qeyd etmək lazımdır ki, bəli, builki 2024-cü ilin büdcəsində də bu məqsəd üçün kifayət qədər əsaslı vəsait ayrılıb. Yəni 4 milyard manatdan söhbət gedir. Mən dollar ekvivalentində dedim, 2,4 milyard dollar. Bu da kifayət qədər böyük rəqəmdir. Hesab edirəm ki, bizim büdcəmiz imkan verəcək ki, strateji əhəmiyyətli bu məsələnin də müsbət həllinə nail olaq.

Nəhayət, həmişə olduğu kimi, büdcə müzakirələrində hörmətli cənab Baş nazirin iştirakı və digər bizim müvafiq nazirliklərin rəhbərlərinin iştirakından istifadə edib təmsil etdiyim Cəlilabad rayonunun bəzi problemlərini də səsləndirmək istərdim.

Hörmətli bizim elm və təhsil naziri Emin Əmrullayevin burada iştirakından istifadə edib, söyləmək istərdim ki, cənab nazir, seçicilərimizin xahişidir. Onlarla görüşdə dönə-dönə xahiş ediblər ki, Cəlilabad rayonunun 127 məktəb binasının 14-ü qəzalı vəziyyətdədir. 18-i istismara yararsız vəziyyətdədir və 16 məktəbin isə əsaslı təmirə ehtiyacı

var. Cəlilabadın 13 kəndində isə, ümumiyyətlə, məktəb binası yoxdur. Cəlilabadın 118 kəndinin 111-də uşaq bağçası və körpələr evi yoxdur. Cəmi 7 uşaq bağçası və körpələr evi var. Hesab edirəm ki, bu məsələlər çox ciddi məsələlərdir.

Cəlilabad rayonunun Təzəkənd kəndi və Üçtəpə kəndlərində orta məktəb binalarının əsaslı təmiri bizim 2023-cü ilə qədərki dövlət proqramına salınmışdı və bu gün seçicilərimiz də məndən soruşurlar ki, bəs, il başa çatır, Təzəkəndə və Üçtəpə kəndlərində məktəblərin əsaslı təmiri ilə bağlı heç bir iş görülməyib. Fürsətdən istifadə edib, mən bu məsələləri də cənab nazirin diqqətinə çatdırıram.

Hesab edirəm ki,  bu gün bu məsələ çox ciddi məsələdir. Mən hörmətli kənd təsərrüfatı nazirimizin də büdcə müzakirələrində iştirakı faktından istifadə edib, səsləndirmək istəyirəm. Cənab nazir, bu fikirlər Cəlilabadda olan seçicilərimizin mövqeyidir. Rayonun 24 kəndində pay torpaqları üzrə hüquq müəyyənedici sənədlər bu günə kimi vətəndaşlara verilməyib. Eyni zamanda, Cəlilabad rayonu üzrə 23 min 492 nəfər torpaq payçısı dövlət tərəfindən verilən subsidiyalardan və güzəştli qiymətlərlə satılan mineral gübrələrdən istifadə etmək imkanına malik deyil. Hər görüşümüzdə onlar bu məsələni qaldırırlar. Mən fürsətdən istifadə edib, həm cənab Baş nazirin, eyni zamanda, kənd təsərrüfatı nazirinin və digər nazirlərin nəzərinə çatdırıram ki, xeyli işlər görülüb. Rayonun sosial problemlərinin, infrastruktur problemlərinin həlli istiqamətində xeyli ciddi işlər görülüb. Amma eyni zamanda, sadaladığım bu məsələlər də onları narahat edir. Fürsətdən istifadə edib, bu məsələləri qaldırdım.

Çıxışımın sonunu müsbət tonlarla bitirmək istəyirəm. Cəlilabad rayonunda bu il ərzində 10 kəndin  işıq şəbəkə-

sinin, elektrik təsərrüfatının əsaslı şəkildə yenidən qurulması həyata keçirilib. 10 kənddə bu proses artıq yekunlaşıb. Bu baxımdan seçicilərimiz "Azərişığ"ın fəaliyyətindən razıdırlar. Eyni zamanda, "Azərişığ"ın rəhbərləri ilə söhbətlərimizin gedişatında onlar söz veriblər ki, 2024-cü ildə də bu istiqamətdə müxtəlif kəndlərdə elektrik şəbəkəsinin yenidən qurulması, kabelləşməsi prosesinə öz töhfələrini verəcəklər. Bu baxımdan seçicilərimin də təşəkkürünü "Azərişığ"a və onun rəhbərliyinə çatdırmaq istəyirəm.

Bu dövlət büdcəsinin lehinə səs verəcəyəm. Hesab edirəm ki, bu büdcə 2024-cü ildə də Azərbaycanın bütün istiqamətlər üzrə inkişafını təmin edə biləcək bir büdcə olacaq. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Səməd Seyidov. Buyurun.

**S.Seyidov.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli hökumət üzvləri, həmkarlar, media nümayəndələri. Bu gün biz canlı tarix yaşayırıq. Sözün əsl mənasında, yeni Azərbaycanın tarixinin yeni parlaq səhifələrini biz hər gün canlı şəkildə müşahidə edirik. Təqdim olunan büdcə həmin o tarixin gözəl bir hissəsidir, vacib bir hissəsidir, əhəmiyyətli bir hissəsidir. Ona görə ki, güclü iqtisadiyyatımız olmasaydı, güclü odumuz olmasaydı, iradəmiz, xalqımızın iqtidarla birliyi olmasaydı, yəqin bu gün bu şanlı tarix haqqında, sadəcə, danışardıq. Ancaq bu gün biz bunun şahidiyik, bu gün bu reallığın içərisindəyik, bu yeni reallığın içərisindəyik.

Təbii, belə gözəl günlərdə büdcənin müzakirəsi həddindən artıq vacibdir. Ona görə ki, bu reallığı təmin etmək lazımdır. Onu elə bir səviyyəyə yüksəltmək lazımdır ki, bu, əbədi olsun. Büdcə bir elmi sənəd kimi bunu bu gün bizə konkret olaraq göstərir. Niyə mən bu sözü istifadə etdim? Ona görə ki, beynəlxalq məsələlərlə məşğul olan

bir şəxs kimi, büdcəni təhlil edərək görürəm ki, bütün sahələrə məntiqli, düzgün və araşdırmalar, təcrübələr əsasında maliyyələr ayrılmışdır. Misal üçün, bizim sahə.

Birincisi, onu qeyd etmək istəyirəm, – burada hörmətli maliyyə nazirimiz Samir müəllimi qeyd etdi, – cari ildən başlayaraq xarici fəaliyyətin və bizim səfirliklərin saxlanılması prinsipləri tamamilə dəyişdirilib. Özü də, ancaq vəsait yüksəlməyib, sadəcə, hansısa bir artım olmayıb. Elmi, beynəlxalq təcrübəyə əsaslanan prinsiplər əsasında tətbiq olunub. Bu bizə imkan yaradıb ki, bizim 84, həm səfirliklərimiz, həm də nümayəndəliklərimiz yeni prinsiplərlə fəaliyyətə başlasınlar. Bu öz-özlüyündə çox vacib və əhəmiyyətli bir məsələdir.

Büdcənin içərisində olan artım, o cümlədən bu gün həmkarlar tərəfindən qaldırılmış təhlükəsizlik məsələsini də həll etmək imkanı yaradır. Əminəm ki, bu məsələlər də öz həllini tapacaqdır. Ona görə ki, bu, çox vacib və əhəmiyyətli məsələdir. Heç kim üçün sirr deyil ki, bu gün darmadağın olmuş Ermənistan ordusu heç bir potensiala malik deyil. Ancaq Ermənistan bu gün bizə başqa bir müharibəni – diplomatik müharibəni elan edib. Ona görə bu müharibədə də biz qalib gələcəyik, mütləq qalib gələcəyik. Ona görə ki, haqq bizim tərəfimizdədir, güc bizim tərəfimizdədir və elmi yanaşma bizim tərəfimizdədir. Bu nöqteyi-nəzərdən, hesab edirəm ki, büdcədə əks olunan rəqəmlər tamamilə düzgündür və öz içərisində bir inkişaf dinamikasını ehtiva edir.

Əziz həmkarlar, bu gün Azərbaycan yalnız öz problemlərini həll etmir. Bu gün Azərbaycan dünyanın problemlərini həll etmək iqtidarında olan bir məmləkətə çevrilib. Sevindirici hal ondan ibarətdir ki, büdcənin içərisində beynəlxalq fəaliyyətlə bağlı bu rəqəm də öz əksini tapıb.

Büdcədə 80 milyona yaxın pul konkret olaraq Azərbaycanın beynəlxalq səviyyədə görəcəyi tədbirlərə aiddir. Bu öz-özlüyündə tamamilə yeni bir mərhələdir. Ona görə, biz başa düşürük ki, sadəcə, Azərbaycanın içərisində fəaliyyət göstərməklə yanaşı, o cümlədən xaricdə də Azərbaycan həqiqətlərini, azərbaycançılığı, Azərbaycan fəlsəfəsini sürətlə, iradə ilə, yüksək səviyyədə enerji ilə həyata keçirmək lazımdır.

Bu gün həmin büdcədə diasporaya ayrılan pul, bu gün büdcənin içərisində tədbirlərin təşkil olunmasına xeyli vəsait ayrılır. Əlbəttə, hər kəs istərdi ki, daha çox ayrılsın. Amma ən əsası dinamikadır, ildən-ilə artırılır və bu gün büdcənin içərisində gördüyümüz rəqəm onu birbaşa bizə göstərir.

Əziz dostlar, biz təbii, Beynəlxalq əlaqələr və parlamentlərarası münasibətlər komitəsində bu büdcəni müzakirə edərək onun lehinə öz münasibətimizi bildirdik və bunu dəstəkləyəcəyik. Bir də həmkarlarımızı büdcənin içərisində olan rəqəmləri təhlil edərək, xahiş edirəm, ona diqqət yetirsinlər ki, bu, doğrudan da, fərqli bir mühitdə qəbul olunacaq büdcədir. Tam şəkildə suverenliyini, müstəqilliyini bərpa etmiş Azərbaycan büdcəsidir. Bizim başımızın üstündə bu xəritə var. Tam, hər bir kvadratmetrinə indi Azərbaycanın özü məsuliyyət daşıyır. Bu, tarixi bir hadisədir və tarixi hadisənin içərisində də belə tarixi sənədə biz, təbii, dəstək verəcəyik.

Əziz dostlar, siz bilirsiniz ki, mən Azərbaycanın Qərb rayonundan, Qərb qapıları adlanan Qazaxdan millət vəkili seçilmişəm. Qazaxda gözəl dəyişikliklər, islahatlar bu gün göz qabağındadır. İşıq, gözəl yol çəkilib. Mən hökumət üzvlərinin burada iştirakından istifadə edərək, onlara təşəkkürümü bildirmək istəyirəm. Doğrudan da, sözün əsl

mənasında, – indi biz tez-tez tənqid edirik, – Avropa standartlarından da yüksək yol tikilib. Burada qeyd olundu, qatar birbaşa Ağstafaya gedir və o qatardan biz özümüz də istifadə edirik. Gəncəyə də gedir, Ağstafaya da gedir. Ağstafa da Qazaxın yanındadır. Deməli, birbaşa Qazaxa gedir.

**Yerdən.** *(Eşidilmir.)*

**S.Seyidov.** Tovuzda da dayanır, tamamilə düz deyirsiniz.

Ancaq bununla yanaşı, bəzi problemlər də var. O problemlər içərisində, hesab edirəm ki, bir strateji problem haqqında da mən danışmaq istəyirəm. Ona görə ki, cənab Prezident də bu haqda xeyli söhbət açmışdır və sərəncamlar imzalanıb, yeni qurumlar yaradılıb. Su məsələsi. Özü də suyun azlıq etməsi ilə bağlı deyil, bəlkə də əksinə. Bizim rayon ilk rayondur ki, Kür çayı axır. Hər dəfə orada Kür çayı daşır. Başqa rayonlara lazım olan su orada daşır. Onun sahillərini mütləq möhkəmləndirmək lazımdır. Bu işi biz dövlət tərəfindən həyata keçirsək, su həm Qazaxa, həm də bütün başqa rayonlara ən yüksək səviyyədə çatdırılacaq. Bu bir.

İkincisi, arxlar. Onlar mütləq betonla üzlənməlidir. Ona görə ki, su itkisi var. Bu gün su strateji materialdır, su bu gün strategiyadır. Bu nöqteyi-nəzərdən hökumətdən mən xahiş edirəm ki, bu məsələlərə çox ciddi fikir versinlər.

Bir də bir məsələ. Şəhidlərimizə və qazilərimizə xüsusi diqqət haqqında burada artıq danışıldı. Hesab edirəm ki, hökumət tərəfindən məhz rayonlarda, – ona görə ki, cənab Prezident şəhid ailələrinə, qazilərə evlərin verilməsi ilə bağlı böyük işlər görür, – ancaq məhz rayonun içərisində şəhid ailələri üçün evlərin tikilməsi məsələsi də dövlət tərəfindən diqqətdə olsa, çox gözəl olardı.

Ümumiyyətlə, əziz dostlar, bu büdcə mütləq dəstəklən-

məlidir. Yeni Azərbaycanın, artıq Zəfərə nail olmuş Azərbaycanın büdcəsi mütləq bu parlamentdə dəstəklənməlidir. Biz və mən bu büdcəyə öz müsbət münasibətimizi bildirəcəyik. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Şahin İsmayılov. Buyurun.

**Ş.İsmayılov.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, əziz həmkarlar və hökumət üzvləri. Mən də müzakirə etdiyimiz büdcə layihəsi haqqında, təbii ki, xoş sözlər söyləmək fikrindəyəm. Çünki həm komitədə müzakirə vaxtı, həm burada aidiyyəti nazirliklərin rəhbərlərinin təqdimatında büdcənin strukturu, onun istiqaməti və hədəfləri hər birimizə, düşünürəm ki, aydın oldu. Bu başdan söyləməliyəm ki, mən də büdcənin lehinə səs verəcəyəm.

Mən də məndən öncə çıxış edən həmkarlarımın fikirlərinə qoşularaq büdcənin mahiyyət və mənəvi baxımdan böyük dəyər ehtiva etməsini söyləmək istəyirəm. Düşünürəm ki, biz bunu nə qədər təkrar-təkrar söyləsək də bu, tariximizin o mərhələsidir ki, biz uzun illər bunu gözləmişik və Azərbaycan büdcəsi bu gün suveren Azərbaycanın bütün suveren ərazilərini əhatə edir. Əminik ki, Azərbaycan növbəti illərdə daha böyük uğurlar əldə edəcək və biz büdcənin dinamikasından da, Azərbaycanın inkişafından da, Azərbaycanın qlobal şəkildə uğurlarından da danışacağıq. Çünki Azərbaycan dövlətinin rəhbəri Azərbaycan üçün nəyi necə, vaxtında etməyi yaxşı bilir və bu əminlik hər bir Azərbaycan vətəndaşının qəlbindədir.

Düşünürəm ki, Azərbaycan dövləti növbəti bir mərhələyə qədəm qoymuşdur və bu mərhələdə hər bir vətəndaşımızın, o cümlədən gənclərin də üzərinə xüsusi bir rol düşüb. Cəmiyyətdə yeniliklərə tez uyğunlaşan, o cümlədən cəmiyyətin inkişafına xüsusi təkan verə biləcək qüvvə

məhz gənclərdir. Azərbaycan gəncləri Vətən müharibəsində, antiterror əməliyyatları vaxtı öz vətənpərvərlik mövqelərini kifayət qədər yaxşı göstərdilər. Azərbaycançılıq məfkurəsində yetişən gənclik son damla qanına qədər müzəffər Ali Baş Komandanın ətrafında birləşdi və vətən uğrunda sona qədər döyüşdülər.

Növbəti mərhələdə də Azərbaycan gənclərinin üzərinə xüsusi bir missiya düşür. Artıq burada qeyd olunduğu kimi, biz qələbə çalmışıq, amma düşmənlərimiz sakitləşməyiblər, mübarizə və müharibə başqa cəbhələrdə davam edir və gənclərimiz buna hazırlıqlı olmalıdırlar.

Bundan öncəki illərdə Azərbaycan gəncliyi ilə bağlı bir neçə dəfə müxtəlif illəri əhatə edən dövlət proqramları qəbul olunmuşdur. Həmin dövlət proqramında bir sıra xüsusi məqamlar olmuşdu ki, onlar Azərbaycan gənclərinin hərtərəfli inkişafına təkan vermişdir. Düşünürəm ki, növbəti mərhələ üçün də Azərbaycan gəncliyinə aid dövlət proqramının qəbul olunması çox yaxşı olardı. Çünki dövlət proqramı qəbul olunduqda, həmin proqrama uyğun olaraq, bir sıra layihələr icra olunur və bu layihələr həm gənclərin inkişafına müsbət təsir göstərir, həm də gəncliyin qarşısında duran məsələlərin həll olunmasında müsbət fayda verir. Növbəti illər üçün bu proqramın qəbul olunması, bütövlükdə, Azərbaycanın uğurlu gənclər siyasətinin davamı və təbii ki, gənclərimizin də inkişafına yaxşı töhfə vermiş olardı.

Elə dövlət proqramından söz düşmüşkən, ötən dövrdə "Azərbaycan gəncliyi 2011–2015-ci illərdə Dövlət Proqramı" qəbul olunan zaman orada tələbələr üçün xüsusi endirimləri nəzərdə tutan bir tələbə kartı layihəsi var idi. Həmin layihə vaxtında icra olundu və həmin dövr üçün, düşünürəm ki, kifayət qədər uğurlu layihə oldu. Artıq

növbəti mərhələdə tələbələrə endirimləri ehtiva edən növbəti bir mərhələ üçün bu layihənin icra olunması da yaxşı olardı. Nəzərə alsaq ki, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi son dövrlər bir sıra sahələrdə əvvəllər problem kimi görünən bəzi istiqamətlərdə müasir dövrə uyğun olaraq, operativ həllər tətbiq etmişdi və bu tətbiqlər həm gənclər, həm də digər vətəndaşlarımız tərəfindən müsbət qəbul olunmuşdu. Bu sahələrdə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, təbii ki, Gənclər və İdman Nazirliyi ilə birgə əməkdaşlığı bizim tələbələr üçün endirimli kartların yeni bir mərhələsinin qəbul və istifadə olunmasına yaxşı töhfə vermiş olardı. Nəzərə alsaq ki, bu kartlar artıq uzun müddətdir dünyanın bir sıra ölkələrində, o cümlədən Avropada da geniş tətbiq olunur. Onu da qeyd etmək lazımdır ki, Azərbaycanda yeni yaradılacaq və yaxud yeni mərhələsinə qədəm qoyulacaq tələbə kartları Avropadakı alternativlərinə inteqrasiya oluna bilər və bizim buradakı tələbələrimiz həm də beynəlxalq endirim şəbəkəsinə qoşula bilərlər.

Mən fürsətdən istifadə edib, növbəti il üçün bizim gənclər və idman siyasətinin büdcəsinin artırıldığına görə hökumətə dərin təşəkkürümü bildirirəm. Cənab Prezident hər zaman gənclər və idman siyasətini diqqətdə saxlayır. Nəzərə alsaq ki, növbəti il bizim üçün idman sahəsində olduqca maraqlı olacaq. O baxımdan ki, olimpiada ilidir. Biz əminik ki, Azərbaycan idmançıları, həmişə olduğu kimi, növbəti il də Azərbaycan Bayrağını ucalara qaldıracaqlar.

Sonda, seçildiyim Beyləqanla bağlı bir məsələyə də toxunmaq istəyirəm. Fürsətdən istifadə edib, hörmətli cənab Baş nazirə təşəkkürümü bildirmək istəyirəm. Bizim o vaxt burada qaldırdığımız Kəbirli kəndində məktəb məsələsi

var idi. Bu məsələyə operativ şəkildə hökumət tərəfindən reaksiya göstərildi və həmin kənddə artıq məktəb binası tikilib. Məlumat üçün nəzərinizə çatdırmaq istəyirəm ki, Kəbirli Azərbaycanda ən çox şəhid verən kənddir.

Növbəti mərhələdə bizim hökumətin fəaliyyətinə uğurlar arzulayıram. Bir daha büdcənin lehinə səs verəcəyimi bildirirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sahib Alıyev. Buyurun.

**S.Alıyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir və hökumət üzvləri, dəyərli həmkarlar. Şükürlər olsun ki, bu gün qarşımızda son 30 ildə hamımızın həsrətlə gözlədiyimiz bir büdcə layihəsi var.

Büdcədə yeni xərc istiqamətləri yarananda onu tərtib edənlər üçün bunun nə demək olduğunu az-çox bilirik. Amma əminəm ki, Xankəndi başda olmaqla üzərində dövlətimizin suverenliyi tam təmin edilən bölgələrdə təhlükəsizliyin təmini və digər məsələlər üçün vəsait tələb olunması bu büdcənin üzərində işləyənlərdə qayğıdan çox qürur hissi yaradıb.

Anadan olmasının 100 illiyini qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyev siyasətinin uğurla davamı, onun yoluna, vəsiyyətinə sədaqətin nəticəsində məhz belə bir reallıqla üzləşdik. Ona görə də həm Ulu Öndərimizi, həm də lokal antiterror tədbirləri zamanı və daha öncə vətən yolunda canlarından keçən şəhidlərimizi minnətdarlıqla anır, bu qüruru bizə yaşatdığına görə müzəffər Ali Baş Komandanımıza buradan bir daha öz təşəkkürümü çatdırır, qazilərimizə can sağlığı diləyirəm.

Bununla yanaşı, çox təəssüflə bildirirəm ki, Ermənistan son 3 ildə baş verənlərdən düzgün nəticə çıxarana qətiyyən bənzəmir və Azərbaycana qarşı yenə də düşmənçilik siyasəti yeritməkdədir. Üstəlik, bu regionda gərgin-

liyin qalmasında maraqlı olan Fransa kimi bəzi yırtıcı dövlətlər də hər fürsətdə hayları revanşizmə həvəsləndirir, hətta onlarla birgə bizə qarşı açıq hibrid savaşı aparırlar. Belə bir vəziyyətdə büdcə xərclərinin təqribən üçdə birinin sülhün təmininə, bizə düşmən kəsilənlər üzərində qələbəmizin möhkəmləndirilməsinə və dayanıqlılığına yönləndirilməsi, fikrimcə, reallığın düzgün dəyərləndirilməsidir. Burada söhbət silahlı qüvvələrin gücləndirilməsinə və təhlükəsizlik məsələlərinə, müdafiə təyinatlı layihələrlə tədbirlərə, eyni zamanda da, işğaldan qurtarılan torpaqlarda aparılan quruculuq işlərinə ayrılacaq üst-üstə 13,4 milyard manat vəsaitdən gedir.

Mən burada bir məsələyə toxunmaq istərdim. Biz Qarabağda və Şərqi Zəngəzurda “ağıllı” yaşayış məskənləri salırıq ki, bu, həm də “ağıllı” idarəçilik və iqtisadiyyat deməkdir. “Ağıllı” iqtisadiyyatın ən önəmli indikatoru isə innovasiyadır. Qabaqcıl ölkələrdə hətta xidmət sektorunda şirkətlərin də yarıdan çoxu innovasiyaya üstünlük verənlərdir. İstehsalda isə bu göstərici 80 faizin üzərindədir.

Fəqət sirr deyil ki, yumşaq desək, biz innovasiyaya çox da meylli olanlardan sayılmırıq və iqitsadi göstəricilərdən də bu, açıq-aydın görünür. Bilmək istərdim ki, hökumət bu yöndə əsaslı dönüş haqda nə düşünür, Azərbaycan iqtisadiyyatına süni intellektin sistemli cəlbi və onun maliyyə təminatı nə yerdədir?

Bu büdcə layihəsində diqqətimi cəlb edən müsbət dəyişikliklərdən biri də onun 51,2 faizinin proqramlar üzrə tərtibi və bölüşdürülməmiş xərclərin 30 faiz azaldılmasıdır. Aydındır ki, xərclərin proqramlar üzrə ayrılması olmadan səmərəli və nəticəyönümlü büdcədən danışmaq nonsensdir. Bölünməmiş xərclərin faizinin azaldılmasına gəldikdə, təbii ki, bu, ilk növbədə şəffaflığın artırılması deməkdir.

Şəffaflıqdan söz düşmüşkən, Hesablama Palatasının 2022-ci ildə apardığı 28 auditin 26-da dövlət satınalmaları ilə bağlı pozuntu üzə çıxarılmışdı. Bellə hallara son qoyulmasının ən təsirli yolu isə güclü maliyyə nəzarətindən də çox, büdcənin düzgün tərtibindən keçir. Beynəlxalq təcrübə göstərir ki, dövlət sifarişləri üzrə xidmət siyahısının konkretləşdirilməsi, bu prosesin tam elektronlaşdırılması sözügedən sahədə neqativ halları minimuma endirir.

Hesablama Palatasının tövsiyyələrində büdcənin daha şəffaflaşdırılması üçün publik hüquqi şəxslərə və dövlət müəssisələrinə ayrılan vəsaitin icrasının xəzinədarlığın nəzarəti altında həyata keçirilməsi, tam proqramlar üzrə büdcələşməyə dair meyarların hazırlanması və proqramlığın vahid yanaşma əsasında tərtibi kimi tövsiyyələr də yer alıb ki, bunlara da əməl edilsə, heç də pis olmazdı.

Sonda, diqqətinizi təmsil etdiyim Tərtərin bəzi problemlərinə yönəltmək istərdim ki, onların başında bir neçə məktəblə bağçanın təhsil və tərbiyə üçün yaramamaları gəlir. Bu yay seçicilərlə görüş çərçivəsində baş çəkdiyim Dəmirçilərdə, İsmayılbəylidə, Səhləbadda, Cəmillidə, Qaraağacıda mənə növbəti dəfə məktəblərinin acınacaqlı durumunu xatırlatdılar. İmkan çərçivəsində gələn il bununla bağlı tədbirlər görülməsini, kəskin su qıtlığı ilə üzləşən rayonda yeni quyuların qazılması ilə yanaşı, o sıradan Eloğlu kəndində, Köçərlidə, Azad Qaraqoyunluda, Süsənlidə və digərlərində böyük su itkisinin qarşısını almaq üçün nə qədər mümkündürsə, bir o qədər kanalların tez betonlaşdırılmasını və tam şəkildə pilot suvarma sisteminə keçirilməsi üçün maliyyə ayrılmasını xahiş edirəm. Diqqətinizə görə təşəkkürlər!

**Sədrlik edən.** Sağ olun. Səttar Möhbalıyev. Buyurun, Səttar müəllim.

**S.Möhbalıyev**. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hökumət üzvləri, millət vəkilləri və media nümayəndələri. Bu gün müzakirəmizə təqdim olunan 2024-cü il üzrə dövlət büdcəsinin layihəsi və büdcə zərfinə daxil edilmiş sənədlər ilk dəfə olaraq ərazi bütövlüyünü tam bərpa etmiş Azərbaycanın növbəti ildə sosial-iqtisadi inkişafını müəyyənləşdirir və onun əsas prioritetləri quruculuq, əhalinin rifahının yüksəldilməsi və təhlükəsizliyin təmin olunmasıdır. Öncə bildirmək istəyirəm ki, büdcə zərfi "Dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununun tələbləri nəzərə alınmaqla hazırlanmışdır və hökumətin müasir dövrün çağırışlarına cavab olaraq hazırladığı sosial-iqtisadi tədbirlərin maliyyələşdirilməsini təmin etməlidir. Növbəti ildə dövlət büdcəsinin gəlirlərinin 2023-cü illə müqayisədə 282,5 milyon manat artırılaraq 34,2 milyard manata, xərclərin isə 138,2 milyon manat artırılaraq 36,8 milyard manata çatdırılması bunun əyani sübutudur.

Önəmlidir ki, dövlət büdcəsinin neft sektorundan asılılığının zəiflədilməsi, qeyri-neft sektorunun inkişafı və diversifikasiyası siyasəti növbəti ilin dövlət büdcəsində də öz əksini tapmışdır. Belə ki, büdcə gəlirlərində neft sektorlarından daxilolmaların 775,7 milyon manat, yaxud 4,3 faiz azaldılması, qeyri-neft sektorundan daxilolmaların isə təqribən 1,1 milyard manata yaxın, 6,6 faiz çoxaldılması nəzərdə tutulmuşdur. Dövlət büdcəsinin bu parametrləri ölkədə sahibkarlıq fəaliyyətinin inkişafı üçün imkanların genişləndirilməsini, yeni stimulların yaradılmasını, büdcə, vergi siyasətinin, əmək münasibətlərinin təkmilləşdirilməsini labüdləşdirir. Vergi Məcəlləsində və digər qanunlarda təklif olunan dəyişikliklər də maliyyə axınlarının şəffaflığının artırılmasına, onlar üzərində dövlət nəzarəti-

nin gücləndirilməsinə xidmət edir. Bu dəyişikliklər sahibkarlıq fəaliyyətinin təşviqinə, vergi inzibatçılığının təkmilləşdirilməsinə, güzəşt və azadolmaların müasir dövrün tələblərinə uyğunlaşdırılmasına yönəlmişdir.

Dövlət büdcəsinin xərcləri istiqamətləri növbəti ildə də hökumətin sosial-iqtisadi sahədə atacağı addımları əks etdirən güzgüsüdür. Xərclərin strukturuna baxdıqda görünür ki, əvvəlki illərdə olduğu kimi, növbəti ildə də əsas hədəflər əhalinin rifah səviyyəsinin yüksəldilməsi, investisiyaların stimullaşdırılması, insan kapitalının inkişafı, ölkənin təhlükəsizliyinin təmin olunmasıdır. Belə ki, növbəti ilin büdcəsində sosialyönümlü xərclərin məbləği əvvəlki illə müqayisədə 7 faiz, təhsil xərcləri 3,2 faiz, elm xərcləri 1,5 faiz səhiyyə xərcləri 3,7 faiz, sosial müdafiə və sosial təminat xərcləri 5,2 faiz, mədəniyyət-incəsənət, informasiya xərcləri 4,3 faiz artırılmışdır. Müdafiə və milli təhlükəsizlik xərcləri də artırılmışdır. İşğaldan azad olunmuş ərazilərdə quruculuq, Böyük Qayıdış proqramının həyata keçirilməsi məqsədi ilə dövlət büdcəsinin ümumi xərclərinin 33,1 faizi, yaxud 12, 2 milyard manatı əsaslı xərclərin maliyyələşdirilməsi üçün ayrılmışdır. Bu proqramlar həm ərazilərdə şəhər və kəndlərin yenidən qurulması, müasir infrastrukturun yaradılması, həm də mədəni, tarixi abidələrin bərpasına sərf olunacaq. Sadaladığım rəqəmlər göstərir ki, 2024-cü ilin dövlət büdcəsi ölkəmizin gələcək inkişafı üçün etibarlı təminat yaradır.

Növbəti il üzrə ümumi daxili məhsulun məbləğinin baza ssenarisi üzrə 2,4 faiz artırılaraq 118,4 milyard manata çatdırılması, orta illik inflyasiyanın isə cari illə müqayisədə 4,2 bənd azaldılaraq 5,3 səviyyəsinə endirilməsi proqnozlaşdırılır. Dünyada baş verən geosiyasi təlatümləri, dünyanın əksər dövlətlərində bu göstəricilərin

daha pessimist ssenari üzrə nəzərdə tutulduğunu nəzərə alsaq, bu artımı məqbul hesab etmək olar. Təbii ki, bu hədəflərə nail olunması Azərbaycan hökuməti qarşısında mühüm vəzifələr qoyur. Hesab edirəm ki, iqtisadi qurumlar bu vəzifələri yüksək səviyyədə yerinə yetirəcəkdir.

Mən çıxışımın sonunda, – bayaq burada hörmətli millət vəkilləri çıxış elədilər, – doğrudan da, bütün dünyada, bilirsiniz, qlobal istiləşmə gedir, su problemləri yaranır və mən məsuliyyətlə deyə bilərəm ki, ən çətin vəziyyət Naxçıvanda su problemidir. Həm içməli su, həm də suvarma suları. Sizin nəzərinizə çatdırım ki, mən özüm yaşadığım kənddə, bizim evdən aşağı 12 xətdən güclü su gəlirdi, yəni kəndin 80 faizi həm içməli su, həm də suvarma suyu kimi o sulardan istifadə edirdi. İndi orada bir damcı şeh də qalmayıb.

İkinci, quyular quruyub. Yonca əkirlər, suvarma suyunda problem olduğuna görə gəlib şikayət edirlər. Yəni bu su problemi həll olunmalıdır. Mən düşünürəm ki, ölkə Prezidenti tərəfindən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı” qəbul olunub və bu proqram nəticəsində bu qaldırdığım məsələlər öz əksini tapacaqdır. Ancaq bayaq da qeyd elədim, hələ Naxçıvan blokadadadır. Dəmir yolu açılmayıb, quru yollar yox. Yəni bu dövr ərzində, dəmir yolunun açılmasına qədər Naxçıvana əlavə güzəştli vəsait ayrılmalıdır. Dotasiya verilməlidir.

Mən sizin nəzərinizə çatdırım ki, orada indi işsizlik problemləri var. Yəni orada böyük islahatlar aparılır. Həm büdcəyə əlavə gəlirlər gəlir, bayaq da iqtisadi inkişaf naziri çıxış edəndə dedi ki, vergi gəlirləri 32 faiz artıb. Gömrükdən gələn rüsumlar artıb, ancaq bütün bunlara baxmayaraq, mən yenə deyirəm, bu gün də orada su problemi bir nömrəli problem kimi qalır. Ona görə də mən

burada iqtisadi qurumların rəhbərlərindən xahiş edirəm ki, bunları nəzərə alsınlar.

Çıxışımın sonunda, mən bu büdcənin hazırlanmsında əməyi olan bütün iqtisadi qurumların işçilərinə öz təşəkkürümü bildirirəm və büdcənin qəbul olunmasına səs verəcəyəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Ceyhun Məmmədov.

**C.Məmmədov**. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli deputatlar, hörmətli hökumət üzvləri. Bu gün müstəqil və güclü Azərbaycan yeni inkişaf mərhələsinə daxil olub. Bu gün  Azərbaycan tarixdə heç zaman olmadığı qədər  güclü və müstəqildir. Bu gün hər birimiz azərbaycanlı olmağın qürurunu yaşayırıq.  Azərbaycan bütün bu uğurlara Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin  böyük müdriklik və uzaqgörənliklə davam etdirdiyi siyasət nəticəsində nail olub.

Bu gün yenidən öz əbədi və əzəli sahibinə qayıdan Qarabağ yenidən dirçəlir. İşğaldan azad olunmuş bütün ərazilərdə böyük quruculuq və abadlıq işləri həyata keçirilir. Bu gün artıq Laçın, Füzuli və Zəngilanda insanlarımız öz doğma yurdlarına qayıdıblar. Bu, həm də Azərbaycan dövlətinin gücünün, qüdrətinin, öz vətəndaşına diqqət və qayğısının göstəricisidir. Bu da çox sevindiricidir ki, təkcə Qarabağda deyil, Azərbaycanın hər yerində yeni infrastruktur layihələri uğurla icra olunur. O da  sevindiricidir ki, ötən ilin büdcəsi kimi, bu ilin büdcəsi də zəfər büdcəsidir.

Konkret istiqamətlərə gəldikdə isə, bu ilin dövlət büdcəsində bütün sahələrə, o cümlədən təhsilə ayrılan vəsait artırılıb. Bu sahəyə böyük məbləğdə vəsaitin ayrılması  dövlətimizin bu sahəyə xüsusi diqqət və qayğısının göstəricisidir. Bütün bunlarla yanaşı, bir neçə məsələni qeyd etmək istəyirəm.

Birinci, ali təhsil müəssisələrinin adambaşına maliyyə-

ləşməsi sisteminə yenidən baxılması. Çünki bu gün vəziyyət ondan ibarətdir ki, universitetlər fəaliyyətlərini təhsil haqqı əsasında qurur, bu da belə olduğu halda universitetlərin daha çox tələbə sayını artırmaq barədə düşünməsinə aparıb çıxarır.

İkinci, məktəblərin təmiri məsələsi. Son illər cənab Prezidentin, eləcə də Mehriban xanımın bilavasitə diqqət və qayğısı ilə ölkəmizdə bir çox yeni məktəblər inşa və təmir olunub. Ancaq bu gün 800 məktəb təmirsiz vəziyyətdədir. Əlbəttə, ən qısa müddətə bunların təmir edilməsi mümkün deyil. Amma mən düşünürəm ki, biz bu prosesin 10 ilə deyil, daha qısa müddətə yekunlaşdırılmasına nail ola bilərik.

Üçüncü, bəzi bölgələrdə, xüsusi ilə Bakıda çox ciddi məktəb sıxlığı var. Bu da təhsilin keyfiyyətinə çox ciddi təsir göstərir. Bu məsələnin həlli istiqamətində də tədbirlərin sürətləndirilməsinə ehtiyac var.

Dördüncü, ali təhsil müəssisələrində, elmi müəssisələrdə, o cümlədən Akademiya sistemində çalışan insanların maaşının artırılmasının nəzərdən keçirilməsinə ehtiyac var. Eyni zamanda, qeyd etmək lazımdır ki, ali təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də addımların atılmasına, yeni laboratoriyaların yaradılmasına ehtiyac var. Eyni zamanda, universitetlərin tədqiqat yönümlü fəaliyyətinin dəstəklənməsi üçün də əlavə maliyyə vəsaitinə ehtiyac var.

Beşinci, məscidlərin fəaliyyətinə gəldikdə isə bu gün dövlətimiz din xadimlərinə böyük maddi dəstək göstərir. Bununla yanaşı, bir məsələni də qeyd etmək istəyirəm, – mən bunu komitə iclasında da qeyd etmişdim, – bu gün din xadimlərinə 700 manat civarında dəstək göstərilir, amma onların kommunal, təmizlik və digər xərclərinin ödənilməsi nəzərdə tutulmur.

Altıncı, digər bir məsələyə gəldikdə, bu gün məcburi köçkünlərlə bağlı cənab Prezidentin bilavasitə diqqəti ilə çox böyük işlər görülür və insanlarımız öz doğma yurdlarına qayıdır. Bu gün əsas diqqət işğaldan azad olunmuş ərazilərədir. Ancaq burada bir neçə məsələni qeyd etmək istəyirəm. Təəssüf ki, bu gün vaxtında salınmış şəhərciklərdə yaradılmış bağça və səhiyyə məntəqələri fəaliyyət göstərmir və insanlar bizdən bunu soruşurlar.

Digər bir məsələ isə evlə təmin olunma məsələsidir, mən düşünürəm ki, bu gün, əlbəttə, biz insanların ora qayıtması istiqamətində addımlarımızı atırıq. Amma bu gün müəyyən evlər ki var, dövlət onu tikibdir, çox ağır şəraitdə yaşayan insanlarımıza bu evlərin verilməsi nəzərdən keçirilə bilər, onsuz da, gələcəkdə onlar bu evləri boşaldacaqlar. Burada digər bir məsələ isə, məcburi köçkünlərin hansı ki, VÖEN-i var, adlarına evlər var, onların müavinətlərinin dayandırılması ilə bağlı müəyyən addımlar atılır və bu da çoxlu sayda bizə müraciətə səbəb olur.

Yeddinci, sonuncu məsələyə gəldikdə isə bu gün təəssüflə qeyd etmək lazımdır ki, Azərbaycan televiziyasının efirlərini milli-mənəvi dəyərlərimizə zidd şou verilişləri bəzəyir. Düşünürəm ki, bu gün bizim qarşımızda duran ən önəmli məsələlərdən biri daha çox maarifləndirici və qələbəmizin möhkəmləndirilməsinə, milli-mənəvi dəyərlərimizin gücləndirilməsinə yönəlmiş verilişlərə ehtiyac var və bu cür verilişlərin maliyyələşdirilməsi mexanizmləri barədə də düşünməyə ehtiyac var. Büdcə layihəsini dəstəkləyirəm. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Bu gün axırıncı çıxış. Fəzail Ağamalı. Buyurun.

**F.Ağamalı**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli Baş nazir, hökumət üzvləri, həmkarlar və media

təmsilçiləri. Bir neçə gün öncə erməni faşizminin üzərində tarixi qələbəmizin 3 ilini böyük coşqu ilə qeyd etdik. Qürur hissi ilə müzəffər Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyevin Xankəndidə keçirilən qələbə paradını da izlədik. Yeri gəlmişkən, qələbələrimizə əhəmiyyətli töhfələr verən Prezident Administrasiyasının bütün əməkdaşlarının, hörmətli Baş nazir Əli Əsədovun Aparatının, bütövlükdə, hökumətimizin rolu danılmazdır və onlar ən yüksək alqışa layiqdirlər.

Hökumətimiz artıq 3 ildir ki, qalib dövlətin büdcəsini yüksək peşəkarlıqla hazırlayıb müzakirəyə təqdim edir. Əvvəlki illərdə olduğu kimi, 2023-cü ildə də büdcə proqnozu uğurla yerinə yetirilmiş, dövlət proqramlarına fasilə verilmədən, iqtisadiyyatın dinamik inkişafı təmin olunmaqla, əhalinin sosial vəziyyətinin yüksəlməsinə xüsusi diqqət yetirməklə, işğaldan azad edilmiş torpaqlarımızda geniş quruculuq və bərpa işləri aparılmaqla, ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyin güclənməsinə xüsusi əhəmiyyət verilməklə yanaşı, dövlətimizin valyuta ehtiyatını 66 milyard Amerika Birləşmiş Ştatları dollarına çatdırılması Azərbaycanın möcüzəsidir. Məsuliyyətli, etibarlı, ləyaqətli, güclü Azərbaycan dövlət modelidir və dünyanı heyrətə gətirən bu möcüzənin müəllifi cənab Prezident İlham Əliyevdir.

Nailiyyətlərimiz göz önündədir. Cənab Prezidentin formalaşdırdığı və idarə etdiyi peşəkar komanda digər istiqamətlərdə olduğu kimi, iqtisadi və sosial sahədə də qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirməkdə, ölkəmizin qüdrətini artırmaqdadır. Növbəti il ciddi çağırışlarla önümüzdədir. Dünyada baş verən silahlı toqquşmalar və onların doğurduğu iqtisadi və maliyyə kataklizmləri hökumətimizi daha gərgin çalışmağa səfərbər edəcəkdir. Biz iqtisadi və maliyyə gücümüzü artırmaqla, bir tərəfdən,

müdafiə qabiliyyətimizi və təhlükəsizliyi gücləndirməliyik, digər tərəfdən, cəmiyyətin immunitetini möhkəmləndirmək üçün ölkədə sosial durumun sabitliyini davam etdirməli, başqa tərəfdən isə, işğaldan azad olunan ərazilərimizdə bərpa və quruculuq işlərinin intensivliyini artırmalıyıq. Tam əminəm ki, son 5 ilin mürəkkəb sınaqlarından uğurla çıxan, pandemiyanın, erməni işğalına qarşı gərgin mübarizənin doğurduğu ağır situasiyalarda bütün çətinlikləri aradan qaldırmağı bacaran və dövlətimizə ciddi töhfələr verən hökumətimiz 2024-cü ildə də nəzərdə tutulan bütün proqnozları peşəkarlıqla yerinə yetirəcəkdir.

Təqdim edilən büdcə layihəsi mükəmməl hazırlanıb və bütün çağırışları özündə ehtiva edir və etiraf edim ki, ciddi xarakter daşıyan tənqidi yanaşmalara ehtiyac duyulmur. Bir sıra təkliflərimi vermək istəyərdim.

Biz ermənilər üzərində qələbəni əldə etmişik. Bu qələbənin nailiyyətlərini davam etdirmək və erməniləri bütün bəşəri səviyyədə, dünya səviyyəsində susdurmaq üçün fəaliyyətimizi davam etdirməliyik. İndi Azərbaycanın faktiki olaraq, ermənilərə, dünya erməniliyinə və onlara bərabər olanlara qarşı mübarizənin, müharibənin müstəvisi dəyişilmişdir. Onlar bütün istiqamətlərdə Azərbaycana qarşı informasiya müharibəsinin içərisində yer alıblar və bu, geniş, intensiv xarakter daşıyır. Bu baxımdan bizim döyüş cəbhəmizin coğrafiyası, təbii, genişdir və fəaliyyətimizi daha səmərəli qorumaq üçün düşünürəm ki, beynəlxalq fəaliyyətə ayrılan vəsaitin artırılmasına ciddi ehtiyac olur və xüsusi olaraq, lobbiçilik fəaliyyəti genişlənməlidir, buna xüsusi diqqət yetirilməlidir.

İkinci, xırda və orta sahibkarlığın inkişafını stimullaşdırmaqda onlara tətbiq olunan vergilərin yüngülləşdirilməsi və kreditlərin əlçatanlığını təmin edən faiz dərəcə-

lərinin aşağı həddə salınması müsbət rol oynayardı. Bu baxımdan kreditlərin verilməsinin davamlılığını və əlçatanlığını təmin etmək üçün Dövlət Neft Fondundan Mərkəzi Banka sərbəst vəsaitin ayrılması və həmin vəsaitin aşağı faizlə kommersiya banklarına verilməsi kredit faizlərinin aşağı salınmasına ciddi təsir göstərərdi.

Növbəti. Zəruri ərzaq məhsullarına və dərmanlara tətbiq edilən əlavə dəyər vergisi ya ləğv edilməli, ya da onun səviyyəsi əhəmiyyətli dərəcədə aşağı salınmalıdır. Bu, aztəminatlı vətəndaşlarımıza böyük dəstək olardı.

Ərazi bütövlüyümüz və suverenliyimizin təmin olunmasında əldə etdiyimiz qələbənin yüksək əhvali-ruhiyyəsi, təbii olaraq, növbəti illərdə tədricən zəifləyəcək və cəmiyyətimiz yeni çağırışlarla üz-üzə gələcəkdir. Bu, yeni iş yerlərinin və həyat şəraitinin daha da yaxşılaşdırılması kimi yanaşmalarla müşahidə olunacaqdır. Hökumətimiz buna hazır olmalı və qabaqlayıcı tədbirləri həyata keçirməlidir.

Məşğulluqla bağlı burada fikirlər söylənildi. Yeni iş yerlərinin açılmasına ciddi ehtiyac var və bu baxımdan, düşünürəm ki, həm regionlarda, həm də Azərbaycanın ayrı-ayrı şəhərlərində tikinti sektorunun aktivləşməsinə ciddi ehtiyac duyulur. Eyni zamanda, regionlarda, seçildiyim Salyan rayonunda emal müəssisələrinin, yüngül sənayenin, fermer təsərrüfatlarının inkişafı, düşünürəm ki, problemlərin həllinə müsbət təsir göstərərdi.

Sonda, diqqətinizə görə təşəkkürümü bildirirəm, cənab Prezident başda olmaqla, hökumət üzvlərinə yeni-yeni uğurlar diləyirəm, Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, iclasımız başa çatdı, sabah işimizə davam edəcəyik. Sağ olun.

**ALTINCI ÇAĞIRIŞ
AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
XIV SESSİYASI İCLASININ**

# PROTOKOLU № 149

*Milli Məclisin iclas salonu.
14 noyabr 2023-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 99 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
| İştirak edir | 95 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Əli Əsədov**, Azərbaycan Respublikasının Baş naziri.

**Yaqub Eyyubov**, Azərbaycan Respublikası Baş nazirinin birinci müavini.

**Şahin Mustafayev**, Azərbaycan Respublikası Baş nazirinin müavini.

**Əli Əhmədov**, Azərbaycan Respublikası Baş nazirinin müavini.

**Samir Şərifov**, Azərbaycan Respublikasının maliyyə naziri.

**Sahil Babayev**, Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri.

**Məcnun Məmmədov**, Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri.

**Rəşad Nəbiyev**, Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri.

**Fərid Qayıbov**, Azərbaycan Respublikasının gənclər və idman naziri.

**Muxtar Babayev**, Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri.

**Rövşən Rzayev**, Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri.

**Səbuhi Məmmədov**, Naxçıvan Muxtar Respublikasının Baş naziri.

**Şahin Bağırov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri.

**Bahar Muradova**, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri.

**Mübariz Qurbanlı**, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri.

**Qoşqar Təhməzli**, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri.

**Fuad Nağıyev**, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri.

**Anar Quliyev**, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri.

**Sahib Ələkbərov**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini.

**İdris İsayev**, Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini.

**Rasim İsmayılov**, Azərbaycan Respublikası səhiyyə nazirinin müavini.

**Samir Məmmədov**, Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini.

**Ragim Lətifov**, Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini.

**Fərid Cəfərov**, Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini.

**Fərhad Hacıyev**, Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini.

**Valeh Hacıyev**, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini.

**Yusif Yusifov**, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini.

**Zəkiyyə Mustafayeva**, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi sədrinin müavini.

**İsrafil Məmmədov**, Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru.

**Rəşad Orucov**, Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyəti sədrinin birinci müavini.

**Fikrət Şirinov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin şöbə müdiri.

**Cavid Məmmədov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin şöbə müdiri.

**Elşad İsgəndərov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin sektor müdiri.

**İlkin Vəliyev**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti rəisinin müavini.

**Elşən Rəhimli**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin idarə rəisi.

**Elvin Camalov**, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin şöbə müdiri.

**Natiq Məmmədov**, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin sektor müdiri.

**Anar Kərimov**, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini.

**Himalay Məmişov**, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun İdarə Heyətinin sədri.

**Mustafa Abbasbəyli**, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi İdarə Heyətinin sədri.

**Sadiq Əliyev**, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun şöbə müdiri.

**Vüqar Gülməmmədov**, Azərbaycan Respublikası Hesablama Palatasının sədri.

**Nəsir Sadıqov**, Azərbaycan Respublikası Hesablama Palatası sədrinin müavini.

**Samir Seyidəhmədli**, Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəsinin müavini.

**Bəxtiyar Əsgərov**, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi nümayəndəliyinin rəhbəri.

**Rüfət Məmmədov**, Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbəri.

**Ələsgər Ələsgərov**, Azərbaycan Respublikası Baş nazirinin Katibliyinin rəisi.

**Azər Əmiraslanov**, Azərbaycan Respublikası Nazirlər Kabinetinin İqtisadiyyat şöbəsinin müdiri.

**Fəxri İsmayılov**, Azərbaycan Respublikası Baş nazirinin köməkçisi.

**İbrahim Məmmədov**, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri.

**Elman Rüstəmov**, Azərbaycan Respublikası Baş nazirinin müşaviri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

2. Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

3. İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

4. Azərbaycan Respublikasında 2024-cü il üçün yaşayış minimumu haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

5. Azərbaycan Respublikasında 2024-cü il üçün ehtiyac meyarının həddi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

6. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

7. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

8. "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

9. "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

10. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

11. “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

12. “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

13. Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.

14. Azərbaycan Respublikası Hesablama Palatasının 2024-cü il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.

15. “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Türkiyə Respublikasının Kahramanmaraş vilayətində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzinin tikilməsi haqqında Əməkdaşlıq Sazişi”nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Gündəliyə yeni məsələ əlavə edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**1. Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Qasımlı, Kamal Cəfərov, Hikmət Məmmədov, Səbinə Xasayeva, Sadiq Qurbanov, Zahid Oruc, Elnur Allahverdiyev, Aqiyə Naxçıvanlı, Mahir Abbaszadə, Qüdrət Həsənquliyev, Vahid Əhmədov, Anar İsgəndərov, Əziz Ələkbərov, İqbal Məmmədov, Etibar Əliyev, Aydın Hüseynov, Əhliman Əmiraslanov, Vüqar İskəndərov, Məlahət İbrahimqızı, Eldar Quliyev, Emin Hacıyev, Aydın Mirzəzadə, Tahir Kərimli, Əminə Ağazadə, Jalə Əliyeva, Razi Nurullayev, Ziyafət Əsgərov, Sabir Rüstəmxanlı, Eldar İbrahimov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.01 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**2. Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Tahir Mirkişili, Anar Kərimov, Siyavuş Novruzov, Azay Quliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.42 dəq.) |
| Lehinə | 83 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**3. İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.43 dəq.) |
| Lehinə | 84 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**4. Azərbaycan Respublikasında 2024-cü il üçün yaşayış minimumu haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Musa Quliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.45 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**5. Azərbaycan Respublikasında 2024-cü il üçün ehtiyac meyarının həddi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Tahir Mirkişili

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.47 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**6. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.55 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

**7. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Tahir Mirkişili

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.56 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*14 noyabr 2023-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Hörmətli cənab Baş nazir, hörmətli hökumət üzvləri, hörmətli deputatlar, media nümayəndələri. Sizin hamınızı xoş gördük.

Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
|---|---|
| İştirak edir | 95 |
| Yetərsay | 83 |

Yetərsay var, iclasa başlaya bilərik.

Hörmətli həmkarlar, möhtərəm cənab Prezidentin məktubu ilə Milli Məclisə yeni bir qanun layihəsi də daxil olub. Xahiş edirəm, bu layihə də əlavə edilməklə gündəliyə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Gündəlik qəbul edildi, çox sağ olun.

Hörmətli həmkarlar, biz gündəliyin 1-ci məsələsinin – 2024-cü il dövlət büdcəsi haqqında qanun layihəsinin müzakirəsinə davam edirik. Mən siyahı üzrə yazılanlara söz verəcəyəm. Fərid müəllim, siyahı var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Musa Qasımlı. Musa müəllim, buyurun.

**M.Qasımlı**. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hökumət üzvləri, millət vəkilləri. İlk növbədə, cənab Baş nazirimiz Əli müəllim Əsədova, hökumət üzvlərinə hörmət və ehtiramımı bildirirəm. Cənab Prezidentimiz İlham Əliyev tərəfindən təqdim olunmuş 2024-cü ilin dövlət büdcəsi layihəsi ölkəmizin inkişafının bütün istiqamətlərini özündə əks etdirdiyi üçün lehinə səs verəcəyəm.

Biz ilk dəfə olaraq dövlət büdcəmizi bütün ərazilərimizin işğaldan azad edildiyi, 1991-ci ildən sonra ilk dəfə olaraq dövlət sərhədlərimizin üzərində nəzarətin qurulduğu, suverenliyimizin tam bərqərar edildiyi bir şəraitdə müzakirə etdiyimizdən, millətimizin tarixində böyük, qürurverici hadisədir. Büdcə layihəsi göstərir ki, ölkəmizdə planlaşdırma və proqnozlaşdırma uğurlu şəkildə aparılır. Dövlət başçımızın qarşıdakı ildə müəyyənləşdirdiyi strategiyanı yerinə yetirməyə imkan verir. Layihədəki bir neçə məsələ barədə mülahizələrimi bildirmək istəyirəm.

Bütün mahiyyəti, məqsədləri və ruhu baxımından bu layihə sülhün qorunmasını və dinc quruculuğu nəzərdə tutduğundan, müstəqillik tariximizdə bir ilkdir. Ona görə

də bu büdcəni sülh, dinc quruculuq və yeni inkişaf mərhələsinin başlanğıcı büdcəsi də adlandırmaq olar. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında dirçəliş işləri bizim milli dövlət məsələmiz, yaxın illər üçün milli ideyamız olduğundan, bütün diqqətimizin quruculuğa yönəldilməsi və vətəndaşlarımızın dədə-baba torpaqlarına qayıdışının planlı şəkildə, tezliklə təmin edilməsi tarixi vəzifədir. Bir neçə ildən sonra 140 min nəfər vətəndaşımızın doğma yurd yerlərinə qayıtması, yaradılacaq infrastruktur və iş yerləri ölkəmizin iqtisadi gücünə əlavə güc qatacaqdır.

Gələn il dövlət büdcəsindən maliyyələşdirilməyən rayonların sayının artması hökumətimizin cənab Prezidentimizin müəyyənləşdirdiyi vəzifələri düzgün yerinə yetirdiyini göstərir. Büdcədən maliyyələşən rayonların asılılığının aradan qaldırılmasından ötrü bəlli planların işlənib hazırlanmasına ehtiyac olduğuna inandığımdan, seçildiyim 72 saylı Yardımlı-Masallı seçki dairəsi seçicilərinin istəklərini hökumətimizin diqqətinə çatdırmaq istəyirəm.

Yardımlı rayonu əhalisinin bir qismi su sarıdan korluq çəkdiyindən, Qaraqaya və ya Dağ Üzü kəndlərində hər iki tərəfi sıldırım qayalıqlar olan çaylardan birində bənd tikilməsi su probleminin birdəfəlik həll edilməsinə və kənd təsərrüfatının inkişafına kömək etməzdimi?

Seçicilərimizin digər bir xahişi kəndlərin təbii qazla təmin olunmasıdır. Adları artıq hökumətin sənədlərinə salınmış və planlaşdırılmış kəndlərə təbii qaz xəttinin çəkilməsi meşələrin qırılmasının qarşısını almazdımı? Rayonun kəndlərində ən müasir məktəblər tikilsə də, insanların şəhərə gəlməsi nəticəsində şagirdlərin sayı azalır. Məktəblərin bağlanması təhlükəsi yarandığından, iş yerlərinin açılmasına ehtiyac vardır. Masallı və Yardımlını birləşdirən Viləş çayının üstündəki körpü neçə illərdir qəzalı

vəziyyətdədir. Hətta bu barədə müvafiq qurumlar bir lövhə də asıblar. Ancaq indiyədək körpü bərpa edilmir və ya tikilmir. Körpü uçarsa, Yardımlı ilə Masallı arasında əlaqə kəsiləcək. Bu məsələyə diqqət yetirməyi hökumətimizdən xahiş edirəm.

Əvvəlki illərlə müqayisədə təhsil və elmə ayrılan xərclərin artırılması dövlətimizin siyasətinin aydın olduğunu göstərir. Xüsusən gələn il dövlət büdcəsi hesabına təhsil alanların sayının artması cənab Prezidentimizin təhsilin hamı üçün əlçatan olmasına yönəlmiş siyasətinin konkret təzahürüdür və hesab edirəm ki, mediamız bu məsələni əhaliyə geniş çatdırmalıdır. Alim əməyinin qiymətləndirilməsində sağlam rəqabətə gətirən tədbirlərin görülməsi faydalı olmazdımı? Elmi dərəcəsi, elmi adı, eyni stajı olan alimlər üçün bərabər maaş müəyyənləşdirilir, bundan sonra konkret standartlar qoyulur. Məsələn, xarici ölkələrdə yüksək indeksli jurnallarda məqalələrin çapı, beynəlxalq konfranslarda məruzələrin edilməsi, nəşr edilən kitablar və sair. Onlara uyğun da maaşlara əlavələr verilir. Bu qaydanın tətbiqi elmimizin xaricə daha yaxşı çıxmasına, universitetlərimizin beynəlxalq reytinq cədvəllərində yer tutmasına kömək edən vasitələrdən biri olmazdımı?

Sonda hökumətimizə uğurlar arzulayıram. Layihənin lehinə səs verəcəyəm. Dövlətimizə və millətimizə xeyirli, uğurlu olsun. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Musa müəllim. Kamal Cəfərov. Buyurun.

**K.Cəfərov.** Çox sağ olun. Hörmətli xanım sədr, cənab Baş nazir və hökumət üzvləri! 2024-cü il üzrə dövlət büdcəsinə əlavə bir təklifim yoxdur. Ona görə yox ki, təmsil etdiyim Sabirabad rayonunun problemləri və ehtiyacları bitib. Əksinə, Sabirabadın ehtiyacları dünən də olub, bu

gün də var və əminəm ki, gələcəkdə də olacaq. Bu ehtiyacların müzakirəsi üçün hökumət üzvləri ilə işçi qaydada səmərəli əməkdaşlığımız var. Məsələlər də öz həllini mərhələli formada tapır.

Əziz həmkarlar, Azərbaycan Prezidenti İlham Əliyevin müstəsna liderliyi, cəsarəti və qətiyyəti nəticəsində bu günlərdə Azərbaycan dövləti tarixinin ən qüdrətli və qürurlu dövrünü yaşayır. Ərazi bütövlüyümüz, suverenliyimiz bərpa olunub və Azərbaycan bütövləşib. Bütöv Azərbaycan büdcəsinin strateji xətləri də ölkəmizin mərhələcə yeni və qüdrətli başlanğıcın astanasında olduğunu göstərir. Bilirsiniz, hazırda dünya mürəkkəb zamanlardan keçir. Dünyanın müxtəlif yerlərində münaqişələr hərbi fazaya keçid edir. Qlobal iqtisadi problemlər, iqlim dəyişikliyi və ərzaq çatışmazlığı kimi təhdidlər artmaqdadır. Belə bir mürəkkəb zamanda Azərbaycanın 2024-cü il üzrə büdcəsi, həqiqətən, müstəsnadır. Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyasının təntənəsidir. Bunu deməyə çox əsasımız var. O cümlədən mənim də. Misal üçün, tarixdə ilk dəfə olaraq 2024-cü il üzrə dövlət büdcəsinin gəlirlərinin yarısından bir qədər çoxu qeyri-neft sektorundan daxilolmaların hesabına formalaşır. Neft ölkəsi olan Azərbaycanın büdcəsinin gəlirlərinin 50,2 faizinin qeyri-neft sektorunun hesabına formalaşması son illərdə ölkəmizdə maliyyə sektorunda nizam-intizamın möhkəmlənməsinin, vergi və gömrük orqanlarında həyata keçirilən islahatların və şəffaflığın nəticəsidir. Bu, Azərbaycanın yeni sənaye modelinə uğurla keçidinin göstəricisidir.

Yenə tarixdə ilk dəfə olaraq sosialyönlü xərclər real rəqəmlərlə ifadədə ən yüksək həddədir. Belə ki, 2024-cü il üzrə sosialyönlü xərclər dövlət büdcəsinin 42,9 faizini təşkil edir. Bu, kifayət qədər böyük rəqəmdir, real rəqəm-

lərdə ifadədə rekord həddədir. Özünü sosial dövlət elan edən bir çox inkişaf etmiş dövlətlərin büdcəsində sosial-yönlü xərclərə bu dərəcədə yer verilmir. Hələ nəzərə alsaq ki, Azərbaycan büdcəsinin əsaslı xərclərinin mühüm hissəsini işğaldan azad edilmiş ərazilərin bərpası və müdafiə potensialının gücləndirilməsi təşkil edir.

Burada da mühüm hesab etdiyim bir məsələyə toxunmaq istəyirəm. Çünki işğaldan azad edilmiş ərazilərin bərpası bəzən ictimai rəydə yeni evlərin tikilməsi kimi qavranılır. Ancaq reallıqda bu xərclər həmin ərazilərin Azərbaycan iqtisadiyyatına reinteqrasiyası məqsədi daşıyır. Yəni bu xərclər Azərbaycan iqtisadiyyatının inkişafı üçün yeni imkanlar yaradır. Bu, elə həm də Azərbaycan iqtisadiyyatına, Azərbaycanın gələcəyinə qoyulan investisiyadır. Vaxtında məhz bu cür həyata keçirilən siyasətin nəticəsidir ki, 2024-cü ildə Azərbaycan Respublikasının şəhər və rayonlarının 58-i xərcləri dövlət büdcəsindən maliyyə yardımı almadan öz gəlirləri hesabına təmin edəcəkdir. Maliyyə yardımı alacaq qalan 7 rayon işğaldan azad edilmiş ərazilərdir.

İkincisi, işğaldan azad edilmiş ərazilərin bərpası Azərbaycanın bütün rayonlarında həyata keçirilən infrastruktur layihələri ilə vəhdət təşkil edir. İnkişaf Azərbaycanın hər bir nöqtəsində davam edir.

Əziz həmkarlar, 2024-cü il dövlət büdcəsinin mahiyyəti və əhəmiyyəti mürəkkəb dünyanın yeni çağırışları ilə səsləşir. Azərbaycan daim bu prinsipial xətlə inkişaf edəcək. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hikmət Məmmədov. Hikmət müəllim, buyurun.

**H.Məmmədov.** Hörmətli xanım sədr, hörmətli Baş nazir, hörmətli millət vəkilləri, hökumət üzvləri. Hamınızı

salamlayıram. Doğrudan da, qürurvericidir ki, biz tariximizdə ilk dəfədir, Azərbaycanın ərazisinin hər qarışında tətbiq olunacaq və hər qarışı üçün xərclənəcək büdcəni müzakirə edirik. Düz 100 il bundan əvvəl, 1923-cü ildə Azərbaycan ərazisində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmaqla Azərbaycanın ərazisində etnik separatçılıq üçün bir mənbə yaradıldı və onun elə maliyyələşdirilməsi də Azərbaycanın büdcəsi hesabına oldu. Ötən illər ərzində gördük ki, hələ sovet dövründən Qarabağa ayrılan büdcəmiz də, sən demə, uzun illər ideoloji baxımdan zəhərlənmiş və Azərbaycan dövlətçiliyinə qarşı çıxan Azərbaycan vətəndaşlarının rifahı üçün xərclənibdir. Tarixin müqayisəli kontekstində bir də bugünkü büdcəmizin müzakirəsinə diqqət yetirdikdə görəcəyik ki, artıq məhz bu büdcəmizdən sonra Qarabağda, Xankəndidə xərclənən pullar məhz Azərbaycan dövlətinin iqtisadi inkişafına, mədəni inkişafına, humanitar inkişafına gətirib çıxaracaqdır. Ona görə də bu münasibətlə, mən düşünürəm ki, bir daha hamımızı təbrik edə bilərik.

Sevindirici haldır ki, – mən Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi sədrinin müavini kimi çox sevinirəm, – ötən illə müqayisədə müdafiə xərclərimiz, təhlükəsizlik xərclərimiz yenə artıbdır. Nəzərə almaq lazımdır ki, Ermənistan kapitulyasiya aktına imza atsa da, amma yenə silahlanır. Elə bu günlərdə Fransadan, Hindistandan müxtəlif müdafiə və hətta hücum silahlarının Ermənistana ötürüldüyünün şahidi oluruq. Ona görə də, mən düşünürəm ki, büdcəmizdə nəzərdə tutulan bu artım məhz hər bir Azərbaycan vətəndaşının təhlükəsizliyi baxımından əhəmiyyətlidir və təqdir edilməlidir.

İkinci məsələ sosial xərclərdir. Sosial xərclər ötən illə müqayisədə təqribən 7 faiz artıbdır. Ancaq çox təəssüf ki,

mən müdafiə və təhlükəsizlik məsələləri ilə bağlı dediyim fikirləri sosial məsələlərlə bağlı deyə bilməyəcəyəm. Çünki biz bəzən sosial dövlət fəlsəfəsini yanlış anlayırıq və elə ictimai rəydə də sosial dövlət bir qədər yanlış assosiasiya olunur. Bizə elə gəlir ki, sosial dövlət odur ki, heç kəs işləməyəcəkdir, dövlət də vətəndaşların bütün sosial xərclərini ödəyəcəkdir və hamımız elə oturub sosial dövlət olduğumuza görə büdcədən ayrılan pulu alacağıq. Bax, ictimai rəydə formalaşmış bu ümumi fikri dəyişmək üçün, mənə elə gəlir ki, biz daha çox iş yerləri açmaqla bu sosial xərcləri azalda bilərik. Yəni iqtisadi münasibətlərimizə yeni keyfiyyət dəyişiklikləri etməliyik ki, dövlətdən sosial yardım uman vətəndaşlarımızın sayı azalsın. Beləliklə, artıq biz büdcədə ciddi bir məbləği sosial xərclərə yönəltmiş olmayaq. Bunun yollarını da, mən elə fikirləşirəm ki, müxtəlif vasitələrlə etmək olar. Bunlardan biri vergi və bank kreditləri ilə bağlı vətəndaşlara xidmətin diferensiallaşdırılması ola bilər. Mən də düşünürəm ki, Bakı şəhərində tıxac problemi, Bakı şəhərinin demoqrafik problemi, əhali sıxlığı probleminin həlli üçün də bu, yaxşı bir vasitə ola bilər. Məsələn, rayonların bank kreditlərini Bakıya yaxınlığına görə bir kriteriya müəyyənləşdirib, Bakıdan uzaqlaşdıqca bank krediti faizlərini aşağı düşürmək olar. Eyni zamanda da, vergi ödəyicilərinə həmin güzəştləri eyni şəkildə tətbiq etmək olar ki, rayonlarımızda iqtisadi inkişaf üçün zəmin yaradaq və beləliklə, bir dəfəyə bir neçə problemi həll etmiş olaq.

Ayrıca mənim diqqətimi çəkən bir məsələ elm və təhsil xərcləri oldu. Mən düşünürəm ki, bu da çox vacibdir. Çünki uzunmüddətli perspektivdə elmimizin, təhsilimizin inkişafı, əslində, Azərbaycanın gələcəyini təyin edir. Azərbaycan Prezidenti çıxışlarından birində qeyd etdi ki, bizi

Qarabağa qaytaran tarixi yaddaşımız oldu. Doğrudan da, belədir. Ancaq indi Qərbi Azərbaycana qayıdış məsələsinin də aktuallaşdığı bir vaxtda tariximizin öyrənilməsi və öyrədilməsi çox mühüm əhəmiyyət kəsb edir. Məsələn, mən bu yaxınlarda bir tədqiqat apararkən bəlli oldu ki, Herodotun tarix kitabı 1961-ci ildə Moskvada çap olunubdur. Orada Qafqazla bağlı, sarmatlarla bağlı, savromatlarla bağlı olan məsələlərin hamısı çıxarılıbdır. Yəni biz tariximizi öyrənərkən orijinal dildən tərcümədə oxumuruq. Sonra mən başqa bir mənbə tapdım. 1882-ci ildə Kişinyovda əski kiril əlifbası ilə çap olunan tarix kitabında bunların hamısı var. Demək, sonradan sovet ideologiyasının təsiri altında bizimlə bağlı olan tarixi məsələləri çıxarıblar. Ona görə də mən nəyi demək istəyirəm? Elmin inkişafına pul ayırırıq, çox yaxşı, amma burada bir hesabatlılıq varmı? Nəyə görə biz, bax, bu pulların hesabına qısa müddətdə yaxşı kadrlar yetişdirib, bizimlə bağlı olan tarixi mənbələri orijinal dildən tərcümə etməyək? Məsələn, nəyə görə biz Herodotu ruscadan tərcümədə oxumalıyıq? Niyə latın dilindən oxumuruq? Niyə oradan tərcümə etmirik? Hesabatlılıq deyəndə mən bunları nəzərdə tuturam. Belə olmasa, biz öz tariximizi öyrənə bilməyəcəyik və bu tarixlə bağlı mübahisələrdə həmişə uduzacağıq.

Ermənilər sistemli şəkildə Azərbaycan tarixini saxtalaşdırdılar, xüsusən Azərbaycanın xristian dövrü tarixini saxtalaşdırırlar. Bu faktdır, bizim əcdadlarımız xristianlığı qəbul ediblər. Azərbaycanda yaradılan bu xristian mirası bizim xristian qıpçaq əcdadlarımızın mirasıdır. Oradakı dili hələ də tapıb öyrənə bilməmişik, görəsən, onlar hansı dildə ibadət edirdilər xristianlığa və yaxud da necə danışırdılar. Həmin abidələr üzərindəki simvollar tədqiq

olunmayıbdır. Bunları niyə tədqiq etmirik? Bu yaxınlarda mən Qubada Təngaltı kəndində əski runik əlifbasına uyğun olan bir əlifbada yazılmış daş nümunələri gördüm. Sonra Tarix İnstitutundan maraqlandım ki, bizdə belə yazılar Naxçıvanda da var. Bunu oxuyan mütəxəssis varmı? Dedi yox. Nəyə görə bizdə belə mütəxəssis yoxdur? Bəs, cənab Prezident elmin inkişafına bu qədər pul ayırır. Əgər biz bu gün də bunları öyrənib, öz tariximizi öyrənməyəcəyiksə, başqa xalqlarla elmi mübahisədə uda bilməyəcəyiksə, bəs, onda bu pullar nəyə görə xərclənir və nə üçün xərclənir? Ona görə də mən düşünürəm ki, elm və təhsil məsələsində daha diqqətli olmalıyıq. Çünki bu, Azərbaycanın gələcəyidir.

Təhsil. Son dövrlərdə Azərbaycanda təhsilə çox ciddi məbləğdə pullar ayrılır. Təhsilin inkişafı, təhsil sahəsində islahatların aparılması üçün Azərbaycan Prezidenti hər cür tədbirlər görür və doğrudan da, etiraf etmək lazımdır ki, çox ciddi də uğurlar əldə edirik. Amma məsələnin başqa tərəfi var. Bu gün dil bilmək Azərbaycanda savadlılığın göstəricisinə çevrilibdir. Kim gedir, – mən o proqramların adını çəkmək istəmirəm, – o proqramlarla müəyyən bir bal toplayırsa... Artıq ona da, o proqramı təqdim edən ölkələrə də inam o qədər itib ki. Gedib Gürcüstanda imtahan veririk, çünki orada da, görünür, çox neqativ hallar baş veribdir. Beləliklə, sizin ingilis dilini bilməyiniz sizin savadlılıq göstəricinizə çevrilir. İngilis dilini bildiyinizə görə gedib harada isə xaricdə bir diplom da ala bilirsiniz və nəticə etibarı ilə Azərbaycanı gələcəkdə idarə edən kadrlar bunlardan ibarət olacaqdır. Azərbaycanın tarixini, mədəniyyətini, folklorunu bilmədən, nağıllarını, dastanlarını bilmədən siz Azərbaycanı necə idarə edəcəksiniz? Azərbaycan xalqının milli psixologiyası, bax,

bunların altındadır, milli mentalitetimizin, milli mədəniyyətimizin subkomponentləri bunlardır. Yaxşı, indi biz bilirik ki, uşaqlar orta məktəbdən, dərsdən yayınırlar, gedirlər dil öyrənməyə və bu da olur savadlılıq göstəricisi və bununla da məsələ bitir. İnsanla nə tariximiz, nə də mədəniyyətimizlə bağlı ünsiyyətə girə bilmirlər.

Bax, burada ikinci məsələyə mən toxunmaq istəyirəm. O da bununla əlaqədardır. Bu nədən ibarətdir? Milli aristokratiyanın yetişdirilməsi. Sadəcə, dil bilən şəxslərdən ibarət biz aristokrat yetişdirə bilərikmi? Mənə elə gəlir ki, yetişdirə bilmərik. Ona görə burada da bir hesabatlılıq olmalıdır. Mən düşünürəm ki, gələcəkdə bu məsələlər də nəzərə alınmalıdır.

Başqa bir məsələ. Hazırda vətəndaşlarımızın təhlükəsizliyi ilə bağlı  çox mühüm işlər görülür. Yeni tikilən yüksək mərtəbəli binalara elektrik, qaz çəkilmir. Hesab edirəm, bu, çox doğrudur. Amma burada bir məsələ yaddan çıxarılır ki, əgər qaz çəkilmirsə, həmin vətəndaşlara elektrik güzəştli qiymətlə satılmalıdır, çünki onlar qazdan istifadə etmirlər. Yəni bunu da tamamlamaq lazımdır.

Ayrı bir məsələ. Əlbəttə, bəlli oldu ki, ötən müddət ərzində qaz və elektrik enerjisinə tətbiq olunan kvotalar o qədər də büdcəmizə bir gəlir gətirmədi. Tam əksinə, vətəndaşlarımızda bir narahatlıq yaratdı. Nəzərə alaraq ki, çox az bir məbləğdir. Mən düşünürəm ki, qüdrətli Azərbaycanın, inkişaf etmiş Azərbaycanın bu kvotanı da qaldırması gələn büdcəmizdə nəzərə alına bilər. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Səbinə Xasayeva, buyurun.

**S.Xasayeva.** Hörmətli xanım sədr, dəyərli hökumət üzvləri, deputat həmkarlarım və media nümayəndələri. Müzakirələrdə çıxış edən digər həmkarlarım kimi, mən də

dövlət büdcəsi layihəsini müsbət qiymətləndirirəm və dəstəkləyirəm.

2024-cü il üçün dövlət büdcəsinin gəlirləri 34 milyard 173 milyon manat proqnozlaşdırılır ki, bu da 2023-cü ilin proqnozu ilə müqayisədə 282 milyon manat və ya 0,8 faiz, 2022-ci ilin büdcəsi ilə müqayisədə 11,4 faiz çoxdur. Bu da onu deməyə əsas verir ki, əvvəlki illərdə olduğu kimi, 2024-cü ildə də qarşıda duran məqsədlərin öhdəsindən tam gəlmək mümkün olacaqdır.

2024-cü ilin dövlət büdcəsi layihəsində də işğaldan azad olunmuş ərazilərdə şəhər və kəndlərin yenidən qurulması, bərpası, həmin ərazilərdə müasir infrastrukturların yaradılması ilə Böyük Qayıdışın ən qısa zamanda təmin edilməsini reallaşdırmaq prioritet məsələlərdəndir. Belə ki, önümüzdəki ilin dövlət büdcəsi layihəsində Böyük Qayıdışa dair 1-ci dövlət proqramının icrası üçün 4 milyard manat ayrılması proqnozlaşdırılır.

2024-cü ilin dövlət büdcəsi sosialyönümlü büdcədir. Gələn ilin dövlət büdcəsinin sosialyönümlü xərcləri 2023-cü illə müqayisədə 7 faiz çoxdur. 2020-ci illə müqayisədə isə bu xərclər 1,6 dəfə artmışdır. 2024-cü ilin büdcə layihəsi göstərir ki, sosial müdafiə xərcləri ilbəil daha da artırılır, bu da ölkə Prezidenti cənab İlham Əliyevin sosial sahəyə olan diqqət və qayğısının göstəricisidir.

Azərbaycan Respublikasının təhsil sisteminin daha da təkmilləşdirilməsini, inkişafını və biliklərə əsaslanan iqtisadiyyata keçidin yeni təhsil modelinə uyğunlaşmasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin müxtəlif vaxtlarda bu sahə ilə bağlı sərəncamları, xüsusən də "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulmuş islahatların və tədbirlərin həyata keçirilməsi məqsədi

ilə təhsil xərcləri 2024-cü ilin büdcə layihəsində 2023-cü illə müqayisədə 3,2 faiz çox proqnozlaşdırılmışdır. Növbəti ilin dövlət büdcəsi layihəsində təhsil xərclərinin daha da artırılması sevindiricidir. Lakin eyni zamanda, bir məqama da diqqəti yönəltmək istərdim.

2024-cü ilin dövlət büdcəsi xərclərində, xüsusən Bakı şəhərində və onun ətraf qəsəbələrində əhali sıxlığını nəzərə alaraq, yeni məktəb və uşaq bağçalarının, eyni zamanda, mövcud məktəblərdə və uşaq bağçalarında əlavə tədris korpuslarının tikintisi üçün ayrılan maliyyə vəsaitinin daha da artırılması səmərəli olardı. Belə ki, günümüzün aktual məsələlərindən olan təhsilin keyfiyyətinə ciddi təsir edən amillərdən biri kimi, şagird sıxlığı probleminin aradan qaldırılmasına mühüm təsir göstərəcəkdir.

Nəzərə alsaq ki, son illərdə, xüsusən paytaxt Bakıda əhalinin sürətli artımı ilə məktəblərin tikintisi zamanı nəzərdə tutulan şagird sayı uyğun gəlmir, bu səbəbdən bəzi məktəblərdə dərslər bir neçə növbədə keçilir. İnanıram ki, önümüzdəki illərdə bu məsələnin həlli ilə bağlı mühüm işlər görüləcəkdir.

Eyni zamanda, qeyd etmək istərdim ki, son zamanlar təhsilin mühüm bir hissəsini təşkil edən peşə təhsilinin inkişafına xüsusi diqqət yetirilir. Lakin hesab edirəm ki, müasir standartlara cavab verəcək, dövrümüzün tələblərinə uyğun peşələrin tədris edilməsinə şərait yaradan yeni peşə məktəblərinin inşasına və ya mövcud peşə məktəblərinin müasir standartlara uyğunlaşdırılmasına diqqətin və maliyyə vəsaitinin daha da artırılması yaxın gələcəkdə peşə təhsili üzrə ciddi nailiyyətlər qazanılmasına səbəb olacaqdır.

Növbəti ilin büdcə layihəsində yerli özünüidarəetmə orqanlarının gəlir və xərclərini tənzimləmək məqsədi ilə 6,5

milyon manat dotasiya ayrılması nəzərdə tutulmuşdur ki, bu da 2023-cü illə müqayisədə bir milyon manat çoxdur.

Bununla yanaşı, vurğulamaq lazımdır ki, bələdiyyələrin büdcələri əsas etibarı ilə öz gəlirləri ilə formalaşır. Hər birimizə məlum olduğu kimi, bələdiyyələr öz büdcələrini formalaşdırmaq məqsədi ilə müxtəlif bələdiyyə müəssisələri yarada bilərlər. Lakin onu da etiraf etmək lazımdır ki, xüsusən az gəlirli, kiçik bələdiyyələrdə belə bir fəaliyyətə başlamaq bir sıra hallarda onların məhdud maliyyə imkanlarına görə mümkün olmur. Bunun üçün pilot layihələr olaraq, xüsusi ilə az gəlirli bələdiyyələrin nəzdində müxtəlif bələdiyyə müəssisələrinin yaradılması məqsədi ilə dövlət tərəfindən ilkin mərhələdə yardımlar edilməsi məqsədəuyğun olardı. Beləliklə, belə bələdiyyələrdə davamlı gəlir mənbələrinin yaradılmasına şərait yaranar, eyni zamanda, gələcəkdə digər bələdiyyələr də bu təcrübədən istifadə edərək öz gəlirlərini artırar, sakinlərə daha keyfiyyətli xidmətlər göstərə bilərlər.

Yerli özünüidarəetmə orqanları öz gəlirlərini qanunun icazə verdiyi formada artırmaq üçün mənbələr yarada bilsələr, gələcəkdə dövlət tərəfindən ayrılan dotasiyaya ehtiyac hiss etmədən üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə qadir ola bilərlər. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Sadiq Qurbanov. Buyurun.

**S.Qurbanov.** Dəyərli Sahibə xanım, həmkarlarım, hörmətli Baş nazir və hökumət üzvləri. Müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında tərəqqi yolunda inamla addımlayan dövlətimiz hazırda iqtisadi, sosial, siyasi və mədəni inkişafının tarixi dönüş mərhələsini, intibah dövrünü yaşayır. Azərbaycanda iqtisadiyyatın modernləşdirilməsi, inno-

vativ inkişafı, rəqabət qabiliyyətinin artması ilk növbədə iqtisadi artıma istiqamətlənsə də, əslində, əsas məqsəd hər bir insanın həyat şəraitinin yaxşılaşması və gələcək nəsillərin normal rifah şəraitinin təmin edilməsidir. Bütün dünya kimi, Azərbaycan da yeni çağırışlara – iqtisadiyyatın modernləşdirilməsi, "yaşıl iqtisadiyyat"ın inkişafının zəruriliyinə adekvat cavab verməlidir.

Ətraf mühitin mühafizəsi sahəsində müşahidə olunan meyillər – iqlim dəyişikliyi, qlobal istiləşmə, su ehtiyatlarının məhdudluğu və sair kimi strateji məsələlərin köklü həlli istiqamətində fəaliyyətin daha da təkmilləşdirilməsi zərurəti yaranmışdır. Ümumiyyətlə, ətraf mühitin mühafizəsi sahəsində fəaliyyətləri bir neçə qrupa bölmək olar. Bunlardan da birincisi, tullantıların çoxalması, daşınması və utilizasiyası problemidir. Respublikanın bir çox şəhər və rayonlarının kənarlarında primitiv tullantı poliqonları yaranmışdır ki, bu da ətraf mühiti və torpağı çirkləndirməklə yanaşı, insanların sağlamlığı üçün təhlükə yarada biləcək xəstəlik mənbələri kimi çıxış edir.

Təklif ondan ibarətdir ki, Bakı şəhərində olduğu kimi, respublikanın digər iri sənaye şəhərlərində müasir texnologiyaya əsaslanan tullantılardan elektrik enerjisi və digər məhsullar istehsal edə bilən tullantıların qəbulu və utilizasiyası sisteminin təşkil edilməsi məqsədi ilə büdcədən vəsait ayrılsın.

İkinci, işğaldan azad edilmiş ərazilərdə daxili su ehtiyatlarının, günəş, külək, geotermal enerji mənbələri üçün böyük potensialın olması, Azərbaycanın "yaşıl enerji" sahəsinə üstünlük verməsini nəzərə alaraq, bu sahədə kadr hazırlığının artırılmasını nəzərdə saxlamaq əsas məqsədlərdən biri olmalıdır.

Bəli, burada həmkarlarımın dünən də, bu gün də dedik-

ləri su ehtiyatlarının tükənən sərvət olduğunun nəzərə alınması əsas, vacib şərtlərdən biridir. Su ehtiyatlarının səmərəli idarə olunması, bildiyimiz kimi, BMT-nin dayanıqlı inkişaf məqsədlərinin əsas qayəsini təşkil edir. SENDAI Çərçivə Programına, Paris sazişi kimi beynəlxalq müqavilələrə daxil edilmişdir. Eyni zamanda, Dünya İqtisadi Forumu ardıcıl 3 ildir ki, su böhranını ilk 3 vacib qlobal risklər siyahısına daxil edir. Azərbaycanda da su resurslarından istifadənin səmərəliliyini təmin etməyə ehtiyac var. Suvarma kanallarının 70 faizi torpaq məcralıdır və bu da su itkisinə gətirib çıxarır.

Eyni zamanda, bilirsiniz ki, Kür və Araz çayları ətrafında yaşayan əhalinin içməli su ilə təmin olunması üçün modul tipli su qurğuları quraşdırılıb. Artıq bunlarda müəyyən problemlər var, həm də bu modul, təmizləyici qurğular müvəqqətidir. Bunun daimi olması üçün artıq müəyyən işlərin görülməsinə ehtiyac var.

Başqa bir problemi diqqətinizə çatdırmaq istərdim. Bu, eyni zamanda, ərzaq təhlükəsizliyi məsələsidir. Hazırda ölkədə istehsal olunan balıq mənşəli məhsullarla özünü təminetmə səviyyəsi çox aşağıdır. Belə ki, ölkədə adambaşına düşən orta illik balıq və balıq məhsulları istehsalı 2014-cü ildə 7,2 kiloqram, hazırda isə 7,4 kiloqrama çatmışdır ki, dünya üzrə bu göstərici 20,5, Avropada isə 24 kiloqramdır. Düzdür, son 15 ildə ölkədə ovlanmış və yetişdirilmiş balıq istehsalı 5 dəfəyədək artsa da, hələ də ölkədə istehlak olunan balıq məhsullarının həcminin 1 faizini təşkil edir.

Dövlət Statistika Komitəsinin məlumatlarına görə, 2000-ci ildə 12 balıq yetişdirmə müəssisəsi var idisə, artıq bunların sayı 7 ədəddir. Bunun da 3-ü aktiv fəaliyyət göstərir. Bir müqayisə də aparsaq, illik istehsal gücü 15

milyon olan Xıllı nərə balıqartırma zavodu 2022-ci ildə cəmi 2 milyondan bir az artıq nərə cinsi yetişdirərək su hövzələrinə buraxmışdır ki, bu da 2003-cü illə müqayisədə 37,3 dəfə azdır. Həmçinin əvvəlki illərdə olduğu kimi, istehsal fəaliyyəti dayandırılmış özəlləşdirməyə açıq balıqartırma zavodlarının özəlləşdirilməsi prosesinin gecikdirilməsinin də büdcəyə bir yük olduğunu nəzərinizə çatdırmaq istəyirəm.

Təklif bundan ibarətdir ki, akvakultura sahəsinin beynəlxalq tələblərə uyğunlaşdırılması üçün bu sahəyə diqqət ayrılması, investorların cəlb edilməsinə şərait yaradılmasının təmin edilməsinə zərurət var.

Başqa bir məsələ. Hacıqabul gölü ilə bağlı məsələni parlamentdə bir daha səsləndirmək istəyirəm. Hacıqabul gölü ilə bağlı problem hər birinizə məlumdur. Göl 10 illərdir ki, qurumaqda davam edir. Əslində, yaranan xoşagəlməz vəziyyətin Şirvan şəhərinin və Hacıqabul rayonunun, ümumilikdə, ölkəmizin ekoloji vəziyyətinə təsiri danılmazdır. Məlumat üçün deyim ki, Hacıqabul gölünün ekoloji vəziyyəti ilə bağlı məsələ Milli Məclisin müvafiq komitəsinin iş planına daxil edilmişdir. Hacıqabul gölünə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Şirvan şəhər İcra Hakimiyyətinin, həmçinin Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin yerli nümayəndələrinin iştirakı ilə baxış keçirilib, monitorinqlər aparılmış, gölün su ilə doldurulması mümkün olan hissəsi müəyyən edilmiş, araşdırılan işlərin nəticəsi isə ümidverici olmuşdur. Qonşu ölkələrdə, o cümlədən Urmiya gölünün qurumasının fəsadlarının ekosistemə vurduğu zərərin son nəticələrini nəzərə almaqla, cənab Baş nazir, Hacıqabul gölünün bərpa edilməsinə köməklik göstərilməsini Sizdən xahiş edirəm.

Sonda, demək istəyirəm ki, büdcə zərfində əsas məqsəd

ölkənin başlıca maliyyə planı ilə iqtisadiyyatın sahələri arasında bağlılığı göstərmək, büdcə və vergi siyasətinin sosial-iqtisadi inkişafa təsir göstərməsi üçün onun iqtisadi göstəricilərinin kompleks təhlil olunmasıdır. Hökumətin bu məqsədin öhdəsindən layiqincə gəldiyini düşünürəm, təbrik edirəm və 2024-cü il üçün hazırlanmış dövlət büdcəsini məqbul hesab edirəm.

Eyni zamanda, Hesablama Palatası dövlət büdcəsi və dövlət büdcəsinin icrası haqqında qanun layihələrinə rəy verməklə büdcə xərclərinin istifadə olunmasının səmərəliyinin qiymətləndirilməsinə şərait yaratmalıdır. Hesablama Palatası da bu işin öhdəsindən layiqincə gəlib. Onlara da ayrıca təşəkkür edirəm. Büdcənin Azərbaycanımızın inkişafına yeni töhfələr verəcəyinə inanıram.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın davamlı inkişafı, Qarabağ regionunun bərpası ilə bağlı bizi böyük işlər gözləyir. Bu işlərdə, eyni zamanda, Ali Baş Komandanın rəhbərliyi altında yeni-yeni zəfərlər qazanmaq üçün hər kəsi fəal olmağa dəvət edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc. Buyurun.

**Z.Oruc.** Hörmətli sədr, hörmətli Baş nazir, hörmətli Məclis və hökumət üzvləri. Sadə Azərbaycan vətəndaşından soruşsaq, 2024-cü ilin dövlət büdcəsinin bir prinsiplə – Vətən müharibəsində qalib gələn xalqı, ordunu və dövlətin özünü gücləndirmək, qələbəni qorumaq və möhkəmləndirmək əsasında hazırlanmasına səs verəcək. Prezident İlham Əliyevin ölkəmizdə və dünyada yüksək nüfuzu istənilən hökumət üçün bütün təbii sərvətlərdən daha güclü resursdur və biz hamılıqla çalışmalıyıq ki, millətimizin Zəfərdən sonrakı yüksək gözləntiləri reallaşsın, dövlət başçısının xarizması, beynəlxalq nüfuzu və çevik xarici

siyasəti daxildə uğurların davamına, problemlərin həllinə yönəlsin. İqtisadiyyatın gücləndirilməsini silahlı qüvvələrlə müqayisə etsək, təkcə ordumuzda deyil, bütün sənaye sahələri və qeyri-neft sektoru da 5-ci nəsil texnologiyaları ilə təchiz olunsun, belə demək mümkündürsə, "Bayraktar"ları, "LORA"ları iqtisadiyyata gətirmək mümkün olsun.

Ölkəmizin sənaye potensialının böyük olmasına rəğmən, ixracda 3-4 faiz təşkil edirsə, dövlətin investisiya yatırdığı onlarca müəssisə bağlanırsa, hökumət onların problemlərini açıq platformalarda, respublika müşavirələrində müzakirəyə çıxara, ölkəmizi xaricdən yüzlərcə məhsulun idxalından xilas edə bilər. Vətəndaşlarımızı kütləvi xırda ticarətin cəngindən almağın tək yolu budur. İnşaat meydanlarımız qonşu ölkələrin basqısı altındadır. O cümlədən kənd təsərrüfatında emal sənayesini güclü qura bilsəydik, süfrələrimizi, sağlamlığımızı hibrid məhsullar işğal etməzdi.

Məlumat üçün, OECD ölkələrində aqrar məhsulun 75 faizi emal olunur. Bizdə bu rəqəm 15 faizdir. İndi Qərbin hər addımda suçladığı Stalinin qürurla 1928–1933-cü illərdə Sovet ağır sənayesinin 2,5 dəfə, çuqundan polada, metal dəzgahlarından avtomobilə qədər görünməmiş həddə, 25000 faiz yüksəlməsini, "biz sənaye ölkəsinə çevrildik" deməsini parlaq nümunə kimi xatırlamalıyıq.

İdeologiyasını və 5 illik planlarını bir kənara qoymaq olar, lakin Azərbaycanın bütün sahələrdə 44 günlük Zəfər təhsili, səhiyyəsi, kənd təsərrüfatı planlarına ehtiyacı var. Son 30 ildə millətimiz "Qarabağ boyda dərdimiz var" – deyirdi. İndi xalqın gündəliyi dəyişib, digər məsələlər önə keçib. Ona görə də hökumətin 1-ci hədəfində qabaqcıl texnologiyalı sənaye ölkəsinə çevrilmək olduğuna inanırıq.

Səhhətində problemlərə baxmayaraq, Ulu Öndər

Heydər Əliyev 2002-ci ilin 22 aprelində 500 sahibkarla 7 saatdan artıq görüşüb demişdi ki, məqsədi milli istehsalı və nəhəng sənayeni yenidən, müasir texnologiya ilə bərpa etməkdir.

Bəli, Azərbaycan Qarabağın döyüş meydanında Ermənistana qalib gəlib. Lakin erməni ideologiyası, kilsəsi, diasporası bütün dünyada əleyhimizə daha amansız iş aparır. Bütün millətlərdən fərqli olaraq, ermənilər qalib gələndə deyil, məğlub olanda güclənirlər.

İlham Əliyevin qarşıdakı 20 illik prezidentlik dövrü "azərbaycanlı köçkün" terminini tarixə qovuşdurmaq və rifah dövlətinə çevrilmək təşkil edəcəkdir. Bəli, müstəqillik tarixində ilk dəfə büdcə qanunu da bütövləşib və biz bütün dünyaya göstərməliyik ki, ermənilərdən fərqli olaraq, Qarabağda qurucu millətik.

Qayıdışa xərclənən və Xankəndi daxil, bir vaxtlar ermənilərin istismarında olan resursların Azərbaycanın iqtisadi dövriyyəsinə qaytarılması təkcə ÜDM-i deyil, bütün vətəndaşlarımızın qaçqınlıq və köçkünlükdən qalan ağır humanitar və mənəvi mirasının da üzərindən xətt çəkəcək, əmək, mədəniyyət və ictimai münasibətlərinə yeni keyfiyyətlər gətirəcək.

Buna görə də 2024-cü ilin əsas hadisəsi Ermənistanla sülh müqaviləsi və təkcə İran və Zəngəzurdan deyil, bütün kommunikasiyaların açılması olacaqdır. O zaman ölkəmizin nəqliyyat-logistika sistemi Türkiyə, Çin, İran və Rusiya ilə ayaqlaşa biləcəkmi? Söhbət təkcə Bakıdan Qarsa gedən yolun Zəngəzurla müqayisədə 220 km çoxluğunda deyil, məsafənin qısalması indinin özündə beynəlxalq statuslu daşıma şirkətlərinin azlığı, tariflər, bütün növ nəqliyyat parkının vəziyyəti və mütəxəssis çatışmazlığı fonunda bizi narahat etməlidir. Əks halda, yolların açılmasından

daha çox xarici kompaniyalar qazanacaq. Əlbəttə, dövlətimizin sülh savaşını da udmasını heç bir iqtisadi gəlirlə ölçmək olmaz. Bununla belə, biznes strukturlarımızı Ermənistanın Türkiyə və Azərbaycanla bütün kommunikasiyaların açılması perspektivi ilə tanış etməli və hazırlamalıyıq.

Azərbaycanda demoqrafik dinamikaya 2024-cü ilin büdcəsi necə təsir edəcək? Buna diqqətinizi yönəltmək istəyirəm. 4 il əvvəl 2019-cu il yanvarın 29-da dövlət proqramının yekunlarına həsr olunan konfransda ölkə rəhbəri dedi. Sitat: "Əhali nə qədər çox olarsa, ölkəmiz o qədər sürətlə inkişaf edər". Bu bəyanat ailə institutunun qorunması və inkişafı, milli genofondumuzun gələcəyi, ordumuzun əsas nüvəsi olan gənclərlə qürur duyan dövlət başçısını göstərdi. Lakin bu günlərdə bir xarici ekspertin "Ermənistanda doğum səviyyəsi artır, Azərbaycanda azalır" sərlövhəli müsahibəsi geniş rezonans doğurub. Əlbəttə, demoqrafiya məsələsinin də siyasiləşdirildiyi bəllidir. Ona görə də əhali artımını da qələbə amili sayması ölkəmizə qətiyyən irad tutula bilməz. Lakin son 100 illik tarixdə ilk dəfə Azərbaycanda doğum əmsalı azalmağa meyillənib.

Ermənistanda isə, əksinə, son 3 ildə hər qadına düşən doğum əmsalı parametrinə görə onlar digər ölkələri qabaqlayırlar. Gürcüstanda Patriarx İlyanın 2-ci və 3-cü uşaqları özünün xaç suyuna salacağını elan etməsi çoxlarına qəribə görünə bilər, doğum səviyyəsi artıb. Azərbaycanda 20 il əvvəl, 2002-ci ildə ən az doğum səviyyəsi olub, cəmi 100 min uşaq. Ermənistanda daha az, 32 min olub. 3-ün birə nisbəti qədər. Xatırladaq ki, 1950-ci ildə bu, ikinin birə nisbəti idi.

Ekspertlərin fikrincə, Ermənistanda körpə bumu analıq

kapitalının məbləğinin artması ilə əlaqəli olub. Çünki 3-cü uşaq üçün 2,5 min dollar, dördüncü və sonrakı uşaq üçün 4 min dollar ödənilir. Ona görə də Ermənistanın demoqrafik artımı dövlətin demokratik iqtisadi inkişaf siyasəti ilə bağlaması və Azərbaycanda əhalinin sayı azalarsa, onların məğlubiyyətə düçar olduğu Qarabağı tam məskunlaşdıra bilməmə sindromunu bizə yönəltməsinin və bu cür təbliğatın qarşısını almalıyıq.

Qələbə tarixini yazan ölkəmizdə əhalinin demoqrafik dinamikasının düzgün statistik bazasının yaradılması çox önəmlidir. Məlumat üçün, ölkəmizdə 2022-ci ildə ana bətnlərində məhv etdiyimiz uşaqların sayı 58 mindir, 15 min 65 nikahdan 6 min 920-si, təxminən yarısı boşanma ilə nəticələnib. Əhalinin hər min nəfərinə düşən nikahların sayı azalaraq 5,6-dan 4,5-ə düşüb. Boşanmaların sayı isə 1,5-dən 2,1-ə çatıb. Belə mənfi tendensiyanın qarşısının alınması üçün mütləq dövlət proqramına ehtiyac duyulur. Ona görə də Qarabağa və azad torpaqlara qayıdan, orada daimi yaşayan ailələrin 3-cü uşaq siyasətini stimullaşdıran dövlət proqramına ciddi ehtiyac duyulur.

Yekun olaraq, mən də büdcəmizi zəfər büdcəsi, zəfər ölkəsi, zəfər vətəndaşı adlandırıram. O təkliflərə, fikirlərə qoşuluram. Hesab edirəm ki, bu mövqelər də qələbəmizin möhkəmlənməsinə xidmət edir. Ona görə də sənədə səs verəcəyəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Zahid müəllim. Ancaq bir şey də, düşünürəm, əlavə etmək lazımdır ki, məcburi köçkünlərin insan hüquqları da bərpa olunub. Büdcədə bu var. Əsas məsələ də budur. Elnur Allahverdiyev. Buyurun.

**E.Allahverdiyev.** Hörmətli xanım sədr, hörmətli Baş nazir, dəyərli həmkarlarım, hörmətli hökumət üzvləri və media. Milli Məclisin komitələrində aparılan ənənəvi

büdcə müzakirələrində biz 2023-cü ilin 9 ayında bütün makroiqtisadi göstəricilərdə artım müşahidə olunduğunu gördük. Bu tendensiyanın 2024-cü ildə də davam edəcəyi bizi sevindirməyə bilməz. Rəqəmlərdən hamımızın xəbəri var. Sadəcə, nümunə üçün, qeyri-neft sektorunda ümumi daxili məhsulun artımı 2023-cü ildə 3 faiz olubsa, proqnoza görə 2024-cü ildə 6 faiz olacaq. İdxal olunan inflyasiya səviyyəsinin idarə olunan hala gətirilməsi və ilin sonuna kimi 9,5 faiz olacağının proqnozlaşdırılması bugünkü qeyri-sabit dünya reallığında olduqca müsbət haldır.

Hökumətin atdığı addımlar və əldə etdiyi nəticələr bir çox qonşu ölkələrlə müqayisədə daha uğurludur. Müdafiə sənayesi sahəsinə ayrılan vəsaitlər, Böyük Qayıdışın təmin edilməsi üzrə ayrılan 4 milyard və sair.

Bu il müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qalib ordumuz bütün ərazimiz boyunca suverenliyimizi təmin etdi. Bizim hamımızı təkrarən təbrik edirəm. Azərbaycan ərazisində 30 il ərzində kök salmış separatizmə son qoyuldu. Beləliklə, işğaldan azad olunmuş ərazilərimizin milli iqtisadiyyatımıza reinteqrasiyası özünü istehsal sferasında göstərəcək. Bu isə iqtisadi potensialımıza əlavə güc qatacaq. Eyni zamanda, evəşiyinə dönən əhalinin yerlərdə yaradılmış yeni məşğuliyyət sahələrinə cəlb olunmaları məşğulluğa da müsbət təsir edəcək.

Mən ötən illərdəki müzakirələrdə də bu məqamın üzərində xüsusi dayanmışam. Qeyri-neft sektoru üzrə gəlirlərin yarıdan çoxunun vergi ödəmələri hesabına təmin edilməsi ölkədə aparılan vergi islahatlarının özünü doğrultduğunun bariz göstəricisidir. Bu il bu göstəricinin qeyri-neft sektoru gəlirlərindəki payı 58 faiz təşkil edir. Bütün bunlar iqtisadiyyatın böyüməsi deməkdir. Həm

şəffaflaşma, həm vergi mədəniyyətinin yüksəlməsidir, həm də onu göstərir ki, belə yüksək nəticəyə nail olmaq məcburetmə vasitələri olmadan da mümkündür.

2024-cü ildə dövlət büdcəsi xərclərinin 43 faizi və ya 16 milyard manata yaxın hissəsi sosial yönümlü xərclər olacaq. Komitələrdə müzakirələrdə demişəm və indi də təkrar etmək istəyirəm. Təfərrüata varmadan, cari ildə parlamentin qəbul etdiyi yeni qanunlar və mövcud qanunlara dəyişikliklərin bir çoxu 2024-cü ilin yanvar ayının 1-dən qüvvəyə minəcək ki, bu da bir çox sahələr üzrə öz müsbət effektini göstərəcəkdir.

Vergi və gömrük güzəştlərinin tətbiqi stimulverici effekt yaradacaq. Sahibkarlıq fəaliyyəti sahəsində vergi güzəştlərinin tətbiqi, bir sıra sahələrdə əmlak və torpaq vergisi üzrə müddətli azadolunma, əmlak vergisi üzrə vergi təşviqinin verilməsi həyata keçiriləcək. Sosial xarakterli güzəştlər vasitəsi ilə əhalinin vergi yükünün azaldılması baş verəcək.

Kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi kimi strateji istiqamətlərin üzərində dayanmaq istəyirəm. Vəsait ayrılıb və çox doğru, ələlxüsus da suvarma sistemi ilə bağlı. Ölkəmiz aqrar potensialı yüksək olan ölkədir. Əhalinin ərzaq məhsulları ilə təminatının daxili istehsal hesabına ödənilməsi olduqca əhəmiyyətli məsələdir. Məsələn, kənd təsərrüfatı məhsullarının istehsalının tək işğaldan azad olunmuş torpaqlar hesabına 8-10 faiz artacağı gözlənilir. Bu baxımdan, kənd təsərrüfatının daha da inkişaf etdirilməsinə diqqət artırılmalıdır. Ölkə hüdudlarından kənara baxsaq, bütün dünyada aqrar problemlər, ərzaq təhlükəsizliyi sahəsindəki vəziyyət qeyri-sabit və seysmikdir. Təkcə Rusiya–Ukrayna müharibəsinin bu sahədəki qlobal çətinliklərə təsirini görmək kifayətdir. Bu mənada Kənd

Təsərrüfatı Nazirliyinin üzərinə çox fəal işlər düşür. Əlbəttə, bu günə qədər işlər görülüb və irəliləyişlər var, bu gün də işlər görülür. Sadəcə, daha da çox işləmək lazımdır.

Çıxışımın sonunda, fikrimcə, kifayət qədər önəmli məqama toxunmaq istəyirəm. Biz, qeyd olunduğu kimi, ərazi bütövlüyümüzü bərpa etmişik və işğalçını ölkəmizdən qovmuşuq. Müharibə bitib. Ancaq hərbi əməliyyatlar sona çatsa da, təbliğat və diplomatik mübarizə davam etməlidir. Biz görürük ki, Ermənistanın rəsmi şəxsləri acı kapitulyasiyaya baxmayaraq, hələ də müxtəlif beynəlxalq platformalarda bizə qarşı təxribatlara, qarayaxmalara yol verirlər və dövlətimizin imicini hər yolla ləkələmək istəyirlər. Biz bu həmlələrə sinə gərməliyik. Ermənistanı döyüş meydanında olduğu kimi, bu müstəvidə də üstələməliyik. Təbii ki, bütün bunlar hücum diplomatiyası və xarici ölkələrdəki diasporumuz, səfirliklərimiz vasitəsi ilə edilməlidir. Bütün bunlar əlavə xərclər tələb edir. Ancaq ortada milli maraqlar və dövlətimizin reputasiyası varsa, düşünürəm ki, bu istiqamətə yönələcək əlavə vəsaitin tapılması, təbii, maddi imkanlarımız nəzərə alınmaqla, müşkül məsələ olmamalıdır. Fikrimcə, hökumətimiz bu mənbələr üzərində işləyə bilər. Biz heç bir platformada xalqımızın əldə etdiyi bu tarixi qələbənin üzərinə kölgə salınması cəhdlərinə imkan verə bilmərik və verməyəcəyik.

Layihəyə səs verəcəyəm və həmkarlarımı dəstək verməyə dəvət edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Aqiyə Naxçıvanlı. Buyurun, Aqiyə xanım.

**A.Naxçıvanlı.** Çox sağ olun, Sahibə xanım. Hörmətli Sahibə xanım, hörmətli Baş nazir, hörmətli həmkarlarım və hökumət nümayəndələri. Büdcə zərfi və qanun layihəsi ilə əlaqədar təqdimat, həmişə olduğu kimi, yüksək səviy-

yədə hazırlanmışdır. Büdcə zərfi ilə tanış olduqda görürük ki, büdcə, həmişə olduğu kimi, sosial yönümlüdür.

Cənab Prezident İlham Əliyevin rəhbərliyi altında quruculuq işləri, ardıcıl iqtisadi islahatlar, irimiqyaslı və böyük maliyyə tutumlu layihələr həyata keçirilir. Xüsusi ilə nəzərə alsaq ki, işğaldan azad olunmuş ərazilərdə abadlıq, quruculuq işlərinin planlaşdırılması və Vətən müharibəsində şəhid olanların ailələrinin, qazilərin və digər iştirakçıların sosial vəziyyətinin yaxşılaşdırılması məsələsi də dövlət büdcə xərclərində öz təsirini göstərəcəkdir. İnsan kapitalının formalaşdırılması, elm və təhsil sahəsində aparılan islahatlardan və qoyulan investisiyalardan asılı olması baxımından, gələn ilin dövlət büdcəsində elm və təhsilə ayrılan vəsaitin əvvəlki illərə nisbətən artırılması təqdirəlayiq haldır.

Mən komitə iclasında bir neçə təklifimi vermişdim. Bu gün hökumət üzvlərinin burada olmasını nəzərə alaraq, deputatı olduğum ərazi üzrə bir neçə məsələni qaldırmaq istəyirəm.

Birinci, aktual məsələ qaz çəkilişi ilə bağlıdır. Belə ki, Oğuzun 8, Qəbələnin 7 kəndinin qazlaşmasında problemlər hələ də qalmaqdadır. Artıq soyuqlar düşür. Seçicilərlə görüşümdə sakinlər evlərini qızdırmaq üçün yanacaq tapa bilmədiklərindən, qışda vəziyyətlərinin acınacaqlı olduğundan gileylənirlər. Meşələrdən odun çox az limitlə verilir. Verilən odun qışdan çıxmağa kifayət etmir. Bu rayonlarda qış çox sərt keçir. Siz bunu bilirsiniz. Bu nüansı mütləq nəzərə almaq lazımdır. Çünki meşələrimiz qanunsuz qırılır, insanlar çıxılmaz vəziyyətdə olduqlarından bu yolu seçirlər. Belə davam edərsə, bu rayonların meşələri məhv olmaq üzrədir.

Mən "Azəriqaz"ın rəhbərliyinə səslənirəm və xahiş edi-

rəm ki, Oğuz və Qəbələnin ucqar kəndlərinin qazlaşma məsələsini diqqətdə saxlasınlar, tezliklə həlli üçün yardımçı olsunlar.

İkinci vacib məsələ Oğuz rayonunun əksər kənd körpələr evi, uşaq bağçalarında olan vəziyyətdir. Oğuzda bir çox kəndlərdə, belə ki, Calut kənd körpələr evi-uşaq bağçası 1969-cu ildə yerli inşaat materialları əsasında tikilmiş, köhnə və uyğunlaşdırılmış, tədris üçün yararsız binada fəaliyyət göstərirdi. 2015-ci ildə regionda baş vermiş güclü zəlzələ nəticəsində qəzalı vəziyyətə düşmüşdür və hazırda uşaqların təlim-tərbiyəsi üçün kənddə uyğunlaşdırılmış bina yoxdur.

Həmin vəziyyət Böyük Söyüdlü kənd körpələr evi-uşaq bağçasında da var. Rayonun Xaçmaz kənd 3 nömrəli, Sincan, Bucaq, Muxas, Yaqublu, Qumlaq, Şirvanlı, Xalxal kənd uşaq bağçalarında da uzun illər əsaslı təmir işləri aparılmadığından binalar yararsız vəziyyətdədir. Uşaqlarımızın təlim-tərbiyəsinin əsası elə bağçalarda qoyulur. Bunu nəzərə almağınızı xahiş edirəm.

Oğuzda iş yerlərin açılmasına ciddi ehtiyac vardır. İşsizlikdən gənclər kəndləri tərk edirlər. Gənclərimizi bir yerə toplamaq, fikir mübadiləsi aparmaq, layihələr hazırlamaq üçün bir məkan belə yoxdur. Hər il yüksək bal toplayaraq müxtəlif ali məktəblərə daxil olan xeyli sayda Oğuz gənci görüşlərimdə dəfələrcə bu məsələni qaldırırlar.

Göründüyü kimi, qaldırdığım məsələlər həllini gözləyir. Əlaqədar təşkilatlardan bu məsələlərə diqqət yetirməyi xahiş edirəm. Bütövlükdə, mən də büdcəni mükəmməl, əhatəli hazırlanmış sənəd hesab edirəm və ona səs verəcəyəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Mahir Abbaszadə. Buyurun.

**M.Abbaszadə.** Çox sağ olun, xanım sədr. Hörmətli millət vəkilləri, hörmətli Baş nazir, hörmətli hökumət üzvləri. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin və suverenliyinin Azərbaycanın bütün ərazisində təmin olunması ili, həm də Azərbaycan Respublikasının dövlət büdcəsinin qəbul edilməsi ili bizim həyatımızda tarixi hadisədir. Biz etiraf etməliyik ki, istər İkinci Qarabağ müharibəsində müharibənin qələbə ilə başa çatması, istər sərhəd-keçid məntəqəsinin qurulması, istərsə də antiterror tədbirlərinin həyata keçirilməsi özlüyündə həm də iqtisadi və maliyyə təminatı tələb edirdi ki, indiyə qədər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə qurulmuş iqtisadiyyatda əldə etdiyimiz uğurlar bunu təmin edə bildi.

Dünyada baş verən hərbi-siyasi hadisələrə, eyni zamanda, inflyasiyanın sürətlə artmasına, nəqliyyat dəhlizlərinin dağıdılmasına, iqtisadi zəncirlərin qırılmasına baxmayaraq, Azərbaycan iqtisadiyyatı inkişaf etməkdədir. Məhz 2024-cü ilin dövlət büdcəsinin yüksək səviyyədə hazırlanması göstərir ki, biz 2024-cü ildə ölkəmizdə iqtisadi islahatların həyata keçirilməsini təmin edə biləcəyik.

2024-cü ildə ümumi daxili məhsulda təxminən 5 faiz artıma baxmayaraq, inflyasiyanın 5,3 faiz proqnozlaşdırılması göstərir ki, Azərbaycan hökuməti 2024-cü ildə də əhalinin real gəlirlərinin qorunması ilə bağlı ciddi addımlar atacaqdır. Azərbaycan Respublikasının dövlət büdcəsinin sosial təminatının yaxşılaşdırılması, sosial islahatların həyata keçirilməsi sadiqliyi bu il də dövlət büdcəsində özünü göstərməkdədir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və ölkənin Birinci vitse-prezidenti Mehriban

xanım Əliyevanın ölkəmizdə indiyə qədər apardığı sosial siyasət 2024-cü ildə də qorunacaqdır. Belə ki, dövlət büdcəsində təxminən sosial islahatların həyata keçirilməsi ilə bağlı 47 faiz xərclərin nəzərdə tutulması göstərir ki, 2024-cü ildə hər xərcləyəcəyimiz 100 manatın təxminən 47 manatı sosial islahatların həyata keçirilməsi üçün nəzərdə tutulmuşdur.

Böyük Qayıdış proqramının həyata keçirilməsi bu il də yenə dövlət büdcəsinin əsas xərc maddələrindən biridir. Baxmayaraq ki, indiyə qədər dövlət Böyük Qayıdış proqramının həyata keçirilməsi ilə bağlı təxminən 11 milyard manata qədər vəsait xərcləmişdir. Amma bu il də 4 milyard manat vəsaitin nəzərdə tutulması uzun illər bu ərazilərdən məcburi köçkün düşmüş, möhtərəm cənab Prezidentin qeyd etdiyi kimi, ağır sosial-psixoloji vəziyyətdə yaşamış keçmiş məcburi köçkünlərin öz ata-baba yurdlarına qayıdaraq daimi yaşaması ilə bağlı ümidlərini bir az da artırmaqda davam edir.

Onu da qeyd etmək lazımdır ki, dövlət büdcəsinin tərtibatı zamanı ötən illərdə Azərbaycan Respublikasının Hesablama Palatasının verdiyi rəylərin də nəzərə alınması bir daha göstərir ki, qanunverici orqanla icraedici orqan arasındakı bu düz münasibət sonunda büdcənin yüksək səviyyədə tərtib edilməsinə gətirib çıxarır.

İki məsələyə diqqətinizi xüsusi ilə cəlb etmək istəyirəm. Birinci məsələ bu il dövlət payı olan müəssisələrdə dövlət büdcəsindən olan transferlərin, vəsaitlərin artırılması ilə bağlıdır. Builki dövlət büdcəsində dövlət payı olan açıq səhmdar cəmiyyətlərdən, publik hüquqi şəxslərdən yalnız ikisinin mənfəətlərinin və dividendlərinin dövlət payında olan hissəsi dövlət büdcəsinə köçürülmüşdür. Mən təklif edərdim ki, növbəti illərdə də dövlətin payı

olan təşkilatlarda olan dividendlərin köçürülməsi sisteminə yenidən baxılsın və bu vəsaitlərin dövlət büdcəsinə köçürülməsi təmin edilsin.

İkinci məsələ isə, məndən əvvəl çıxış edən həmkarlarımın fikirlərini bir az da genişləndirmək istəyirəm. Biz döyüş meydanında düşməni kapitulyasiya aktını imzalamağa məcbur etmişik, torpaqları işğaldan tamamilə azad etmişik. Amma bizim siyasi mübarizəmiz, diplomatik mübarizəmiz, xarici ölkələrdəki mübarizəmiz bu gün hələ də davam etməkdədir. Ölkə rəhbəri cənab İlham Əliyevin qeyd etdiyi kimi, görünür ki, bizim qələbəmizi hələ də həzm edə bilməyən dövlətlər və bəzi beynəlxalq təşkilatlar var. Ona görə bu təşkilatların qarşısında mübarizə aparmaq, mənə elə gəlir ki, orada yaşayan diaspor təşkilatlarının inkişaf etdirilməsini vacib edir və indiyə qədər diaspor komitəsinin bu istiqamətdə gördüyü işlər məqbul sayılır. Hesab edirəm ki, dövlət büdcəsindən diaspor komitəsinin fəaliyyəti üçün nəzərdə tutulmuş vəsaitlərin artırılması bizim bu mübarizəmizin maliyyə təminatının gücləndirilməsinə öz müsbət töhfəsini verəcəkdir.

Mən, bütövlükdə, dövlət büdcəsini bugünkü Azərbaycan iqtisadi və maliyyə reallıqlarını özündə əks etdirdiyi üçün müsbət hesab edirəm. Hökumətə 2024-cü ildə uğurlar arzu edirəm. Hörmətli millət vəkillərimizdən qanunu dəstəkləmələrini xahiş edirəm. Çox sağ olun, diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun. Mən bir şeyi də əlavə edim. Deyirsiniz, diplomatik işi daha da yaxşılaşdırmaq və sair. Büdcədə bunlar hamısı var. Ancaq bu işi aparmaq üçün bizim gələcəkdə diplomatlarımız ingilis dilini bilməlidir, fransız dilini bilməlidir, ümumiyyətcə, xarici dil bilməlidir. Bunu hamı yaxşı yadında saxlasın. Qüdrət

Həsənquliyev. Buyurun, Qüdrət müəllim.

**Q.Həsənquliyev.** Hörmətli sədr, qonaqlar, həmkarlar. 2024-cü ilin dövlət büdcəsinin müzakirəsi dövlət müstəqilliyimizi bərpa etdiyimiz dövrdən ilk dəfədir ki, Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunduğu əlamətdar bir tarixə təsadüf edir. Buna görə Prezident başda olmaqla hökumət və bütün dövlət hakimiyyət orqanları, Silahlı Qüvvələrimiz ən xoş sözlərə layiqdir. Amma büdcə zərfi ilə və Hesablama Palatasının rəyi ilə tanış olanda təəssüf hissi ilə müşahidə edirik ki, 10 milyon əhalisi olan ölkəmiz üçün 34 milyard 173 milyon manat gəlirləri olan büdcə olduqca kiçikdir. Onun da 12 milyard 781 milyonu Dövlət Neft Fondundan transferdir. 2023-cü ildə ümumi daxili məhsul real ifadədə cəmi 0,5 faiz artıb. Sanki durğunluq dövrünə qədəm qoymuşuq. Hasilatın pay bölgüsü sazişləri üzrə mənfəət vergisi hasilatın gündəlik 22 min barel azalması səbəbindən 2024-cü il üçün 1 milyard 975 milyon manat proqnozlaşdırılır ki, bu da cari illə müqayisədə 2 dəfə azdır.

Dövlət Neft Fondundan transferlər çıxılarsa, dövlət büdcəsinin gəlirləri 2022-ci illə müqayisədə 6 faiz, 2023-cü illə müqayisədə 3,4 faiz azdır. 2024-cü ilin büdcəsindəki 282,5 milyon artım Dövlət Neft Fondundan transferlər hesabınadır.

İqtisadiyyatımızın neft gəlirlərindən asılılığına son qoymaqla büdcə gəlirlərini əhəmiyyətli ölçüdə artıra bilmək üçün ciddi islahatlar həyata keçirilməlidir. Biz hamımız hansısa sahələrə daha çox vəsait ayrılmasını təklif edirik. Amma çox təəssüf ki, büdcəmizi həcminin bizim qədər 10 milyon əhalisi olan, amma büdcə gəlirləri bizdən ən azı 3 dəfə artıq olan Avropa ölkələrinin büdcəsinə necə yaxınlaşdırmaq barədə az təklif verilir.

Halbuki qiymətləri qaldıranda Avropa ölkələrindəki vəziyyətə çox istinad olunur. Bunun üçün elə Avropa ölkələrinin yolu ilə getməliyik. Sürətli iqtisadi inkişafımızın qarşısında ən böyük maneə qanunların aliliyinin tam təmin olunmamasıdır. Buna ən bariz nümunə işğaldan azad olunmuş ərazilərdə tenderlər keçirilmədən milyardlarla manat vəsaitin xərclənməsidir.

İnkişaf, sabitlik və rifah istəyiriksə, Konstitusiyaya uyğun olaraq, dövlət bizneslə məşğul olmamalı, iqtisadiyyatda yalnız tənzimləyici rol oynamalıdır. İnhisarçılığa və proteksionizmə son qoyulmalıdır, rəqabət mühiti formalaşdırılmalıdır. Dövlət müəssisələri, xəstəxanalar, xidmət sahələri özəlləşdirilməlidir. Korrupsiyaya qarşı effektli mübarizə təşkil etmək üçün məhkəmə-hüquq islahatları dərinləşdirilməlidir. Qanunların aliliyi təmin edilməsə, İqtisadiyyat Nazirliyinin səyləri ciddi nəticələr verməyəcək. Sabit Vergi Məcəlləsi olmalıdır. Son 3 ildə Vergi Məcəlləsində neçə dəyişiklik etmişik? Say-hesab itib. Vergi dərəcələri, rüsumlar, ödəmələr Konstitusiyaya uyğun olaraq, qanunla müəyyən olunmalıdır. Hər bir nazirlik özü üçün xidmət haqqı müəyyən edə bilməz. Xidmətə görə büdcədən maaş alırlar. Sahibkar ən azı 5 il müddətində gəlir-çıxarını proqnozlaşdıra bilməlidir. Qanunları tez-tez dəyişməklə hansı isə vergi güzəştlərini müəyyən edib, sonra ləğv etməklə iqtisadi inkişafa töhfə vermək olmaz. Mülkiyyətə və hüquqlara təminat verən güclü məhkəmə hakimiyyəti yaratmadan, müasir texnologiya cəlb etməklə sənayeni inkişaf etdirmədən ciddi uğurlara imza atmaq mümkün deyil. Biz tezliklə Ümumdünya Ticarət Təşkilatına və regional iqtisadi birliklərə qoşulmalıyıq. Xarici investorlar Azərbaycana gəlməkdən qorxmamalıdırlar.

Büdcəyə əlavə vəsait cəlb edə biləcəyimiz sahələrdən biri tikinti sektorudur. Bakı Şəhər İcra Hakimiyyəti başçısının keçən il səsləndirdiyi rəqəmlərə əsaslansaq, yalnız Bakı şəhərində minə qədər qəzalı bina var. Amma sahibsiz sahibkarlar yaşayış binaları tikmək üçün yer tapa bilmədiklərindən, xarici ölkələrə üz tuturlar. Deputatı olduğum Xətai rayonunda da qəzalı binalar az deyil. Bu barədə sakinlərin xahişi ilə müvafiq dövlət orqanlarına müraciət etmişəm. Kimlərsə həmin yerləri götürüb, amma illərdir ki, tikintiyə başlamır. Görünür, işləri çoxdur, yavaş-yavaş tikir, bu yolla qiymətlərin aşağı düşməsinə də imkan vermirlər. Nəzərə almırlar ki, insanların həyatı təhlükə altındadır və nə qədər insan mənzil şəraitini yaxşılaşdırmaq, yaxud özlərinə, övladlarına mənzil almaq istəyir.

Eldar Əzizov mətbuata demişdi ki, biz yeni binaların tikintisinə ilkin olaraq kritik vəziyyətdə olan qəzalı binalardan başlamalıyıq. Amma real həyatda başqa mənzərənin şahidi oluruq. 28 ildir ölkənin ictimai-siyasi həyatında fəal iştirak edən qeyri-hökumət təşkilatı AVCİYA-nın prezidenti keçmiş deputat həmkarımız Elxan Süleymanov, o şəxs ki, AŞPA-da aktiv fəaliyyətinə görə Azərbaycana qarşı aparılan qarayaxma, şər-böhtan kampaniyasının qurbanlarından biri olub. Həmin dövrdə Milan məhkəməsinin hökmü ilə 4 il azadlıqdan məhrumetmə cəzasına məhkum olunub. Amma şər kampaniyası səngiyən kimi, elə həmin məhkəmə tərəfindən də bəraət verilib. O mənə və bir çox dövlət rəsmilərinə sənədlər təqdim etməklə şikayət edir ki, AVCİYA-nın Nəsimi rayonunda xüsusi mülkiyyətdə olan ofisi ətrafda yerləşən yaşayış və qeyri-yaşayış binaları ilə birlikdə bələdiyyə torpağında yerləşsə də, həmin binaların yerləşdiyi 1,55 hektar ərazi Bakı Şəhər İcra Hakimiyyətinin sərəncamı ilə çoxmərtəbəli yeni binaların tikintisi

üçün "İnvest M. Construction" şirkətinə ayrılıb. Sököntüyə məruz qalan həmin binaların heç biri qəzalı vəziyyətdə deyildir. Sadəcə, şəhərin həmin ərazisində mənzillər müqayisədə daha baha qiymətə satılır. Bakı Şəhər İcra Hakimiyyətinin "İnvest M. Construction" şirkəti ilə imzaladığı müqavilədə real vəziyyət tam təhrif olunaraq göstərilir ki, ərazidə ağac və yaşıllıq, tikinti və qurğular, təbiət, tarixi və mədəniyyət abidələri yoxdur. Halbuki Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təqdim etdiyi sənəddə ərazidə 174 ağac olduğu qeyd olunur. Ərazidə "Buzlaq" adlanan tarixi kümbəz artıq tikinti şirkəti tərəfindən sökülüb. Ərazidə 10-dan artıq bina və tikili var. Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin tikinti işlərinə başlanması barədə razılığı olmadığı halda, keçən həftə sonu, gecə ikən AVCİYA-nın binasının 30-40 santimetrliyindən başlayaraq yeni binanın özülünün qazıntısına başlanılıb və AVCİYA-nın binasına gedən yol və kommunikasiya xətləri dağıdılıb. Kanalizasiya suları özülə dolaraq ofisin binasını qəzalı vəziyyətə salır. Hazırda məhkəmə qərarı olsa da, ofisə gedən yol bərpa olunmur.

Hörmətli hökumət üzvləri, bu qanunsuzluqlara son qoymalıyıq. Gələcəkdə belə halların təkrarlanmaması üçün ciddi qərarlar qəbul olunmalıdır. Bu sahədə islahatlar aparılmalı, tikintiyə icazə verilmək səlahiyyəti seçkili orqan olan bələdiyyələrə verilməlidir. Bütün sivil dünyada bu belədir. Tikinti üçün müraciətlər və cavablar onlayn qaydada ictimaiyyət üçün açıq olmalıdır. Bələdiyyələrə həm də öz təşəbbüsü ilə tikinti üçün yerlərin sənədlərini paket halında hazırlayıb hərraclarda tikinti şirkətlərinə satmaq səlahiyyəti verilməlidir. Nəhayət, Bakı şəhər bələ-

diyyəsi də yaradılmalıdır.

Toxunmaq istədiyim başqa bir məsələ elm və təhsilə ayrılan vəsaitin azlığı ilə bağlıdır. Xüsusi ilə elmə 228 milyon 776 min manatın ayrılması olduqca azdır. Elm və təhsil sahəsində də ciddi islahatlara ehtiyac var. Orta məktəblərin buraxılış imtahanlarının nəticələri əsasında ali məktəblərə qəbul həyata keçirilməli, repetitorluğa son qoyulmalı, Konstitusiyaya uyğun olaraq, orta təhsilin pulsuz olması təmin edilməlidir. Elə vəziyyət yaradılıb ki, heç kim repetitora pul ödəmədən ali məktəblərə qəbul ola bilmir. Bu isə ailələr üçün ağır maliyyə yüküdür. Universitetlərin, peşə məktəblərinin, kolleclərin əksəriyyəti özəlləşdirilməli, imkansız ailələrin uşaqları dövlət hesabına təhsil almalı, təhsil kreditləri faizsiz və hər kəs üçün əlçatan olmalıdır. Ali Attestasiya Komissiyası və Elmlər Akademiyası əməkdaşlarının, orta məktəb müəllimlərinin əmək haqqı əhəmiyyətli səviyyədə artırılmalıdır. Elm və təhsili inkişaf etdirmədən ölkəmiz inkişaf etmiş ölkələr sırasına çıxa bilməyəcək.

Sonda, hökuməti vətəndaş cəmiyyəti quruculuğuna da xüsusi diqqət yetirməyə, mediaya, qeyri-hökumət təşkilatlarına və siyasi partiyalara dövlət dəstəyini artırmağa, ölkəmizi inkişafın yeni mərhələsinə çıxaracaq köklü islahatlar aparmağa çağırıram. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Vahid Əhmədov. Buyurun.

**V.Əhmədov.** Çox sağ olun. Hörmətli Sahibə xanım, hörmətli cənab Baş nazir, millət vəkilləri, hökumət üzvləri, mətbuat! Dünyada gedən qlobal iqtisadi şoklara baxmayaraq, cari ilin yanvar-sentyabr aylarında Azərbaycan iqtisadiyyatında makroiqtisadi stabillik qorunub saxlanılmış, iqtisadi artım təmin edilmiş, inflyasiya planımızdan aşağı ticarət balansında müsbət saldo yaranmışdır. Dövlət

büdcəsinin gəlirlərinə nəzər yetirdikdə, qeyri-neft sektorunun payı 51 faiz, neft sektorunun payı isə 49 faiz olmuşdur. Azərbaycan hökumətinin, xüsusən də İqtisadiyyat Nazirliyinin əsas hədəflərindən biri olan qeyri-neft sektorunun inkişafında irəliləyişə nail olunmuşdur. Ümumi daxili məhsulun tərkibində də qeyri-neft sektorunun payının 4,6 faiz artaraq 84,2 milyard manat, yəni 71,1 faiz olacağı proqnozlaşdırılır. Proqnozlarda 2023-cü və 2024-cü illərdə inflyasiya səviyyəsinin müvafiq olaraq 9,5 faiz və 5,3 faiz olacağı göstərilir. İqtisadiyyat Nazirliyi və Mərkəzi Bank tərəfindən həyata keçirilən fiskal humanitar siyasətin əlaqələndirilməsi prosesi uğurla davam etdiyi halda buna nail olmaq mümkündür. Həm də 2024-cü ildə cəmiyyəti çox narahat edən qiymət siyasətində də müəyyən bir stabillik yaşanmış olardı.

2024-cü il büdcə ili üçün prioritet sayılan, əsasən, müdafiə və milli təhlükəsizlik xərcləri 9,3 milyard manat, dövlət büdcəsinin 25,5 faizi, sosial yönümlü xərclər 15,7 milyard manat, dövlət büdcəsinin 43 faizi və əsaslı xərclər 12,1 milyard manat, dövlət büdcəsinin 35,1 faizi nəzərdə tutulur. Əsaslı xərclərin tərkibində diqqətçəkən məqam işğaldan azad olunmuş ərazilərin bərpası üçün 4 milyard manatın ayrılmasıdır.

2024-cü ilin dövlət büdcəsində təhsil xərcləri 3,2 faiz artımla nəzərdə tutulmuşdur. Dövlət sifarişi ilə dövlət hesabına kadr hazırlığı üzrə təhsilalanların sayının 10 min 600 nəfər, o cümlədən təqaüd alanların sayının 10 min 284 nəfər artırılması diqqət çəkir. Diqqətçəkən məqamlardan biri də 2024-cü ilin dövlət büdcəsində icbari tibbi sığorta xərclərinin 112 milyon manat artırılaraq 1,37 milyard manat təşkil etməsidir.

2024-cü ilin dövlət büdcəsi postmüharibə dövrünün

büdcəsidir. Torpaqlarımız işğaldan azad edildikdən sonra qarşıda duran məsələləri həll etməkdən ötrü hələ xeyli müddət böyük maliyyə vəsaitləri tələb olunacaq. Eyni zamanda, iqtisadi inkişafın davamlılığını təmin etmək və sosial problemin həllini sürətləndirməkdən ötrü tələb olunan vəsaitin həcmi də ildən-ilə artır. Ona görə də qarşıdakı illərdə islahatları dərinləşdirmək, onunla büdcə gəlirlərinin artırılmasının əlavə mənbələrinin işə salınmasını təmin etməklə, eləcə də büdcə vəsaitindən istifadənin səmərəliliyini artırmaqla nəticə əsaslı büdcə sisteminə daha əhatəli keçməyin nəzərə alınmasını vacib hesab edirik. Nəzərə alsaq ki, vergilərdən daxilolmalar və Dövlət Neft Fondundan transferlərin maksimuma, 12,8 milyard manata çatdığı bir şəraitdə belə 2024-cü ilin dövlət büdcəsinin gəlirlərinin artımı təxminən 1 faizə bərabərdir. Deməli, belə qənaətə gəlmək olar ki, 2024-cü ilin dövlət büdcəsinin gəlir və xərclərinin dinamikası sahəsində yaranmış vəziyyət büdcə gəlirlərinin formalaşmasında gərgin mərhələnin başlaması barədə çox ciddi siqnal verir. Ona görə də Dövlət Neft Fondunun vəsaitlərindən həddindən artıq istifadəni məhdudlaşdıran büdcə qaydalarının tətbiq olunduğu bir şəraitdə, qarşıdakı çox həlledici olan bir neçə il ərzində islahatları dərinləşdirməklə iqtisadi artım templərində büdcə xərclərinin səmərəliliyinin artmasına nail olmaq lazımdır.

2024-cü ilin dövlət büdcəsində orta aylıq əmək haqqı 980 manat, orta aylıq pensiya 483 manat nəzərdə tutulur. Amma əhalinin əksəriyyətinin həm aylıq əmək haqqı, həm də pensiyaları bu məbləğlərdən kifayət qədər aşağıdır. Ona görə də hökumətin antiinflyasiya tədbirləri ilə yanaşı, həm də inhisarçılığa və ondan törənən qiymət manipulyasiyalarına qarşı daha da təsirli və nəticəli tədbirlər

görülməsini, o cümlədən bu il Rəqabət Məcəlləsinin tezliklə işə salınmasını vacib hesab edirik. Operativ surətdə tədbirlər görülməlidir ki, ərzaq inflyasiyasının davam etməsinin, aztəminatlı, aşağı gəlirli əhalinin güzəranına mənfi təsiri azaltmaq, qiymət manipulyasiyaları və süni qiymət artımına yol verilməsinin qarşısının alınması mümkün olsun.

2024-cü ilin dövlət büdcəsində məqsədli proqramlar layihəsinin həcmi 5,8 milyard manat təşkil edir. Belə hesab edirəm ki, ümumiyyətlə, büdcənin proqramlar əsasında tərtib edilməsi vacib məqamdır. Maliyyə Nazirliyi bunu nəzərə alaraq, 2024-cü ilin dövlət büdcəsində bu rəqəmi təxminən 50 faizə çatdırmışdır. Amma bunun üzərində yenə də işləmək,  mən hesab edirəm ki, böyük əhəmiyyət kəsb edir. Çünki dövlət büdcəsinin proqramlar əsasında tərtib edilməsi büdcənin həm şəffaflığı, həm də hesabatlılığı üçün böyük əhəmiyyət kəsb edir.

Bölgələrdə iş yerinin açılması məsələsinə toxunmaq istəyirəm. Bu məsələ barədə həmkarlarım xeyli danışdılar. Amma Quba-Xaçmaz iqtisadi rayonu ilə əlaqədar emal müəssisələrinin  yaradılmasına çox böyük ehtiyac var. Bu bölgədə 500 minə yaxın əhali yaşayır, cəmi 2 emal müəssisəsi var. İnsanlar hasil etdiyi məhsulu faktiki olaraq emal edə bilmirlər. Bu məsələ ilə əlaqədar bir neçə dəfə müraciətimiz olsa da, mən hesab edirəm ki, məsələ yetərincə nəzərə alınmayıb. Ona görə də qeyri-neft sektorunun inkişafı ilə əlaqədar yerlərdə, bölgələrdə iş yerlərinin açılması hökumət üçün prioritet sahə elan olunmalıdır. O cümlədən işğaldan azad olunmuş ərazilərdə, – düzdür, böyük sənaye parklarının yaradılmasına start verilib, – hərbi sənaye müəssisələrinin filiallarının tikilməsini də məqbul hesab edərdim. Müharibədən öncə həmin ərazi-

lərdə belə müəssisələr fəaliyyət göstərirdi.

Hökumətdən bir xahişim də müharibə veteranlarına, – burada qeyd olundu, – verilən 80 manat müavinət məsələsinə yenidən baxılmalıdır. Bu, çox vacib məsələdir. Bununla əlaqədar müraciətlər kifayət qədərdir. Yəni mən xahiş edərdim ki, hökumət bu məsələyə baxsın. Həm də hərbçilərin xidmət stajının 20 ildən 25 ilə qaldırılması ilə əlaqədar qəbul etdiyimiz qərarın yalnız qanun qəbul ediləndən sonrakı şəxslərə şamil edilməsi yaxşı olardı.

2023-cü ildə cənab Prezidentin fərmanı ilə ölkənin ərzaq buğdası ilə təmin edilməsi üçün dövlət büdcəsindən 200 milyon manat vəsait ayrılmışdır. 2024-cü ilin dövlət büdcəsində də bu məqsəd üçün 60 milyon manat, o cümlədən ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün 502 milyon manat vəsait nəzərdə tutulmuşdur. Ayrılan vəsaitin düzgün xərclənməsi ərzaq bazarında qiymətlərə öz müsbət təsirini göstərməli və bu sahədə idxaldan asılılığı azaltmalıdır. Çünki idxalın da 2023-cü ilə nisbətən 2024-cü ildə 8,3 faiz artaraq 16,1 milyard manata çatacağı proqnozlaşdırılır.

Kənd təsərrüfatından söhbət düşmüşkən, burada su məsələsinə mən toxunmaq istəyirəm. Düzdür, suyun qıtlığı ilə əlaqədar müəyyən fikirlər səsləndi, amma su məsələsində əsas problem suyun paylanması prinsipinin düzgün həyata keçirilməməsidir. Ona görə də mən xahiş edərdim ki, Azərbaycan hökuməti suyun paylanması prinsipləri uğrunda müəyyən qərarlar işləyib hazırlasın.

Səhmləri əsasən dövlətdə olan dövlət şirkətlərinin özəlləşdirilməsi tədricən həyata keçirilməli, həmin şirkətlərə dövlət büdcəsindən vəsaitin azaldılmasına və gələcəkdə özünü maliyyələşdirməsinə nail olunmalıdır. Belə şirkətlər Azərbaycanda kifayət qədərdir.

Bir məsələyə də toxunmaq istəyirəm. Bakı-Quba yolu ilə əlaqədar olaraq mən Azərbaycanın dövlət başçısı cənab İlham Əliyevə, o cümlədən cənab Baş nazirə öz dərin minnətdarlığımı bildirirəm ki, Bakıdan Qubaya gedən yolun bir hissəsi, yəni bir istiqaməti təmir olunub, istifadəyə verilib, minnətdaram. Amma ikinci hissəsi təmir olunmayıb. İkinci, yəni Bakıdan Qubaya gedən yol təmir olunmayıb. Bunun böyük bir təmirə ehtiyacı var. Xahiş edərdim ki, bunu dövlət büdcəsində nəzərə alsınlar.

İkinci bir məsələ. Ödənişli yol istifadəyə verilib. Ödənişli yollarda kifayət qədər böyük tariflər qoyulub. Harada isə, misal üçün, biz 50 kilometrdən başlayırıq ödənişli yola girməyə və Xaçmaza qədər harada isə 10 manata yaxın ödəniş etmək lazımdır. Yaxşı olardı ki, o məbləğə baxılsın. Mən axırıncı 10 gündə bəlkə 3-4 dəfə Qubada olmuşam, o yolda faktiki olaraq maşın yoxdur. Həmin yoldan yalnız beynəlxalq yük daşıyan maşınlar istifadə edirlər. Ona görə də tarif məsələsinə baxmağı mən zəruri hesab edirəm.

Sonda, mən Hesablama Palatasının rəyini çox yüksək qiymətləndirirəm və Azərbaycan hökumətinə tövsiyə edərdim ki, Hesablama Palatasının rəyini gələcək işlərində nəzərə alsınlar. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Anar İsgəndərov. Buyurun.

**A.İsgəndərov**. Hörmətli xanım sədr, hörmətli Baş nazir, Milli Məclisin deputatları, hökumət üzvləri, media nümayəndələri. Azərbaycan öz tarixində ilk dəfə parlament səviyyəsində büdcə müzakirəsini 1918–1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə keçirmişdir. O zaman büdcənin formalaşması üçün yeganə gəlir sahəsi xam neft idi. Doğrudur, sonradan qonşu dövlətlərin müdaxiləsinin nəticəsi olaraq 1920-ci ilin aprelində

müstəqil Azərbaycan dövləti süquta uğradı və 70 il ərzində parlament səviyyəsində, bugünkü səviyyədə büdcə müzakirəsi keçirilir, komitələrdə müzakirələr keçirilir, Azərbaycan xalqı onu görə bilmədi. Sovet dönəmində yalnız Ali Sovetin sessiyasında büdcə müzakirələri, – mənim baxdığım arxiv sənədlərində, – ən çoxu 2 saat yarım keçirilirdi. Nə üçün? Büdcə mərkəzdən verilirdi, həmin büdcə də təsdiq olunurdu. Azərbaycan yenidən öz dövlət müstəqilliyini bərpa etdikdən sonra 1918–1920-ci illərin ənənələri bərpa olundu. Bu nədən  ibarətdir?

Biz iki gündür ki, büdcə müzakirə edirik. Ona qədər isə komitələrdə, demək olar, elə bir problem yoxdur ki, o, müzakirə olmasın. Bütün bunlar onu göstərir ki, bugünkü Azərbaycan, müstəqil Azərbaycan öz büdcəsinin sahibidir və gəliri nə qədər olmalıdır, çıxarı nə qədər olmalıdır, hansı sahədən hansı sahəyə nə qədər büdcə qoyulmalıdır, o məlumdur. Məlum olduğu kimi, 2024-cü ilin büdcəsi tarixi bir ildə müzakirə olunur. Bu il "Heydər Əliyev İli"dir, həm də bu il Azərbaycan öz tarixində ilk dəfə olaraq bütövləşdi. Yəni Azərbaycan Bayrağı bu gün onun hər bir şəhərində dalğalanır. 30 il ərzində biz bu Azərbaycan üçün vuruşurduq, müstəqil Azərbaycan üçün. Xoşbəxtlikdən Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan öz istəyinə çatdı və 100 il bundan əvvəl, 1923-cü ildə yaradılan Dağlıq Qarabağ Muxtar qurumu düz 100 ildən sonra, 2023-cü ilin sentyabrın 20-də tarixin arxivinə getdi.

Mən, əlbəttə ki, bununla, bu büdcənin uğuru ilə yanaşı, bir neçə qeydi də hökumət üzvlərinin burada olmasından istifadə edərək bölüşmək istəyirəm. Hamınıza məlumdur ki, Lənkəranda Xanbulançay, Masallıda isə Viləş Su Anbarının tikintisi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. 1991-ci ildə Viləş Su Anbarının birinci qolu

istifadəyə verildi və onlarca kənd bu sudan istifadə edir. Amma bir həqiqəti sizinlə bölüşmək istəyirəm ki, təmsil etdiyim rayonun elə kəndi var ki, içməli suyu pulla alır. Bütün bunların qarşısını almaq üçün, təbii ki, hökumət və hökumətin Baş nazirinin birinci müavininin iştirakı ilə Masallıda mən də Məşhur müəllimlə, yəni həmkarımla o iclasda iştirak etmişik. Viləş Su Anbarının ikinci qolunun tikintisi ilə bağlı işlər gedir və mənə belə gəlir ki, bu iş nə qədər sürətləndirilsə, bu, təbii, təkcə seçicinin arzusu, istəyi deyil. Amma bugünkü gündə harada isə içməli suyu yay aylarında almaq, doğrudan da, çətindir. Mən əminəm ki, hökumət bunu nəzərə alacaq və tezliklə Viləş Su Anbarının ikinci qolunun tikintisinə başlanacaq.

Mən də bu büdcəni zəfər dövlətinin, Zəfər qazanmış bir xalqın büdcəsi hesab edirəm və büdcəyə səs verəcəyəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Əziz Ələkbərov. Buyurun.

**Ə.Ələkbərov**. Hörmətli xanım sədr, hörmətli Baş nazir, hörmətli millət vəkilləri, hökumət üzvləri, media nümayəndələri. Bugünkü büdcə müzakirəsində çıxış etmək hər cəhətdən qürurvericidir. Təkcə ona görə yox ki, biz həm sahədə, həm də masada düşmənə qalib gəlmiş bir dövlətin büdcəsini müzakirə edirik. Təkcə ona görə yox ki, biz ərazi bütövlüyü tam təmin olunmuş bir ölkənin dövlət büdcəsini müzakirə edirik. Həm də ona görə ki, biz mükəmməl idarəetmə sisteminə malik bir dövlətin büdcəsini müzakirə eləyirik. Bu baxımdan Milli Məclisin müzakirəsinə təqdim edilən büdcə layihəsi kifayət qədər mükəmməldir, Azərbaycanın bütün sahələr üzrə inkişafını təmin edəcək gücdədir və mən də onun qəbuluna səs verəcəm.

Hörmətli həmkarlar, bildiyiniz kimi, 2022-ci il dekabrın

24-də cənab Prezidentin tövsiyəsi ilə Azərbaycanın Qarabağ müharibəsindən sonrakı dövr üçün yeni strateji xəttini ehtiva edən Qərbi Azərbaycana Qayıdış Konsepsiyası qəbul olunub və Qərbi Azərbaycan İcması tərəfindən addım-addım həyata keçirilir. Sevindiricidir ki, artıq bu ümummilli məsələyə nəinki bütün Azərbaycan əhalisi, həm də bütün dünya azərbaycanlıları qoşulub. Fürsətdən istifadə edib, bu sahədə fəallıq göstərən bütün dövlət və qeyri-dövlət qurumlarına, xüsusi ilə Heydər Əliyev Fonduna öz dərin təşəkkürümü bildirirəm.

Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının icrasına xüsusi töhfə verən qurumlardan biri də Milli Məclisdir. Milli Məclisdə məsələnin müxtəlif aspektləri ilə bağlı dörd dəfə geniş dinləmə keçirilib. Hörmətli xanım sədr, məsələyə bu qədər həssas münasibət göstərdiyinizə görə şəxsən Sizə və deputat həmkarlarıma icmamız adından bir daha təşəkkür edirəm.

İndi isə təmsil etdiyim Saatlı rayonunun bəzi problemlərini hökumət üzvlərinin diqqətinə çatdırmağı özümə borc bilirəm. Bunu təkcə adamların sosial vəziyyətini yaxşılaşdırmaq üçün etmirəm, həm də bu problemləri illərdir həll eləməyən bəzi məmurların insanların tənə və qınaq obyekti olmaması üçün edirəm. Yadınızda olar, düz bir il bundan əvvəl yeni ilin büdcə müzakirəsində bu tribunadan təmsil etdiyim Saatlı rayonunun qaz problemini qaldırdım və bildirdim ki, Saatlı rayonunun hər dörd kəndindən birində mavi qaz yoxdur. Yəni bu kəndlərə qaz çəkilişi həyata keçirilməyib və onu da xatırlatdım, dövlət başçısı 2011-ci il may ayının 5-də Saatlı rayonuna səfəri zamanı tapşırıq verib ki, 2012-ci ilin sonuna qədər Saatlı rayonunda qazlaşdırma 100 faiz olmalıdır. Mən bu çıxışı edəndə artıq noyabr ayının ikinci yarısı idi və çıxışımın

sonunda onu da xatırlatdım ki, artıq qış qapını kəsib. Həmin kəndlər, təəssüf ki, bu qışı da qazsız keçirməli olacaqlar. Təklif etdim ki, heç olmasa, müvafiq qurumlar həmin kəndlərin əhalisinin təcili olaraq ucuz qiymətə alternativ yanacaqla təmin olunması barədə fikirləşsinlər. Bilirsiniz, nəticəsi nə oldu? Mən güman edirdim ki, sərt çıxış etmişəm, yəqin, bu çıxışdan sonra kimlərsə narahat olacaq, zəng edib nə isə bir izahat verəcək. Amma təsəvvür edin ki, Mirzə Ələkbər Sabir demişkən, atılan toplara heç diksinən də olmadı. İndi bu çıxışımdan sonra bir nəticə hasil olacaq, ya yox, bunu da zaman göstərəcək.

Toxunmaq istədiyim ikinci məsələ elm sahəsi ilə bağlıdır. Maraqlıdır, hər il büdcəmizdə elmin inkişafına xeyli vəsait ayrılır. Amma bu vəsaitin nə qədəri birbaşa alimə çatır? Təsəvvür edin, Milli Elmlər Akademiyasında elmi işçi vəzifəsində çalışan gənc bir alim onuncu dərəcə ilə 420 manat 62 qəpik, on birinci dərəcə ilə 431 manat 4 qəpik, on ikinci dərəcə ilə 453 manat 2 qəpik təmiz maaş alır. Böyük elmi işçi isə on üçüncü dərəcə ilə 464 manat 80 qəpik, on dördüncü dərəcə ilə 483 manat 52 qəpik maaş alır. Halbuki 2023-cü ilin yanvar-iyul ayları üçün ölkədə nominal orta aylıq əmək haqqı 925,3 manat, paytaxtda isə orta aylıq nominal əmək haqqı 1179,8 manat təşkil edir. Yəni paytaxtda yaşayan alim buradakı orta aylıq əmək haqqının üçdə biri qədər maaş alır. Doğrudanmı, biz bu maaşla gənclərimizi elmə gətirmək istəyirik, doğrudanmı, güman eləyirik ki, bu qədər maaşla alim elmlə məşğul olacaq?

Bir məsələyə də diqqəti çəkmək istəyirəm. Əvvəl fəlsəfə doktoru elmi dərəcəsi əməkdar fəxri adı ilə, elmlər doktoru elmi dərəcəsi isə xalq fəxri adı ilə bərabər tutulub. Hər biri müvafiq olaraq, 60 və 100 manat əlavə alırdı.

Sonra əməkdar və xalq fəxri adları artırılaraq, müvafiq olaraq, 90-150, daha sonra 150-200 manat oldu. Amma alimlərə verilən dərəcə pulu elə 60, 100 manat kimi də qaldı. Yəni fəlsəfə doktoruna hər günü üçün 2 çörək, elmlər doktoruna isə 3 çörək pulu verilir. Bəlkə bu, doğrudan da, alimə verilən elmi dərəcə pulu yox, elə çörək puludur? Elə hesab edirəm ki, elmimiz və alimlərimiz bu münasibətə layiq deyil. Əgər elmimizin inkişafını istəyiriksə, bütün bu məsələlərə yenidən baxılmalıdır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. İqbal Məmmədov. İqbal müəllim, sualınız, təklifiniz var. Buyurun.

**İ.Məmmədov**. Təşəkkür edirəm, xanım sədr. Mən də deputat həmkarlarımın büdcə layihəsi haqqında söylədikləri müsbət fikirlərə qoşuluram və büdcə layihəsinə səs verəcəm.

Hörmətli xanım sədr, mən də çıxışa yazılmışdım, ancaq bilirəm ki, mənə vaxt olmayacaq. Onunla əlaqədar, seçicilərimin Lerik rayonunun futbol meydançası ilə bağlı xahişini hökumətə çatdırmaq istəyirəm. Lerik rayonunun futbol komandası cənub regionu üzrə yeganə komandadır ki, ikinci divizionda rayonumuzu təmsil edir. Buna baxmayaraq, rayonumuzda olan futbol meydançası bərbad vəziyyətdədir və təmirə ehtiyacı var. Xahiş edərdim ki, futbolumuzun inkişafı ilə əlaqədar, gənclərimizin idmanla məşğul olması üçün Lerik rayonunun futbol meydançasının təmirinə büdcədən vəsait ayrılsın. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Bir dəqiqədən çox olmadı. Etibar Əliyev. Etibar müəllim, buyurun.

**E.Əliyev**. Hörmətli Sahibə xanım, hörmətli Baş nazir, hörmətli deputatlar. Büdcəyə iqtisadçı alimlərin, dövlət

qulluqçularının, böyük şirkətlərin sahiblərinin, müstəqil iqtisadçı ekspertlərin yanaşmaları fərqlidir. Bu təbiidir. Dünya ölkələrinin ümumi daxili məhsulunu hesablayırlar, neftin qiymətini proqnozlaşdırırlar, banklara tövsiyələr verirlər, Gini əmsalını hesablayırlar. İnflyasiyanı proqnozlaşdırırlar və bir çox hallarda qüsurlu mübahisələr də aparırlar. İqtisadiyyatın bu səviyyəsi makroiqtisadiyyat adlanır. Dünyada 15 il bundan öncə baş verən maliyyə böhranından sonra iqtisadçılar əvvəlki illər kimi, proqnozlara çox etibar etmirlər. Xüsusi ilə iqtisadiyyat üzrə Nobel mükafatı laureatı Pol Kruqman göstərdi ki, heç bir iqtisadçı 2008-ci ilin dünya iqtisadi böhranını hesablaya bilməmişdir. Eyni zamanda, bir çox tənqidçilər göstərdilər ki, sərt riyazi hesablamalar aparmaqla böhranı daha da azdırıbmışlar. Bazarın rasionallığının insanların emosional reaksiyasından, davranışından asılılığını sübut edən iqtisadçı da Nobel mükafatı aldı.

İqtisadiyyatın başqa bir sahəsi də var ki, birbaşa bizim yaşayışımıza aiddir. Mikroiqtisadiyyat insanların, kompaniyaların, bütün cəmiyyətin seçimi haqqında elmdir. Mikroiqtisadiyyat üzrə mütəxəssislər də adəti üzrə bizim necə qərar qəbul etməyimizdən danışırlar. Mikroiqtisadiyyat sahəsində son elmi debatlar ona görə başladı ki, diskussiyalarda koqnitiv və sosial psixoloqlar da söz sahibi oldular və davranış iqtisadiyyatı üzrə mütəxəssislər insanlara düzgün seçim etməyə köməklik göstərməyə başladılar. Bu gün təkcə bizdə deyil, dünyanın əksər ölkələrində kölgə iqtisadiyyatı, bəzən büdcə vəsaitlərinin səmərəsiz xərclənməsi, səhv kredit siyasəti, korrupsiya sırf davranış məsələləridir.

Ulu Öndərimiz unudulmaz Heydər Əliyevin bir aforizmi millətimizin gələcəyinə baxışını müəyyənləşdirib.

“Təhsil millətin gələcəyidir”. Biz qara qızılımızı insan kapitalına çevirməyi qarşımıza məqsəd qoymuşuq. Böyük qələbəmiz də insan kapitalını gücləndirməlidir. Bunun üçün elm və təhsilin sürətli inkişafına nail olmalıyıq. Kim təhsildən və elmdən uzun müddətdə nəticə gözləyirsə, o, islahatın əleyhinədir, islahatın düşmənidir. Biz 32 ildir müstəqil dövlətik. Bu, azmı zamandır? Büdcə layihəsi ilə tanışlıqdan görürük ki, təhsilə və elmə ayrılan vəsait bu il də artırılır və bunu dəstəkləyirik. Təhsil xərcləri üçün ayrılmış vəsaitin 2 milyard 372 milyon manatı və ya 51,2 faizi ümumi təhsil xərclərini təşkil edir. “Kölgə təhsili”, repetitorluq da ilbəil artmaqda davam edir. Təhsil tədqiqatçıları Bark Breyn və Çeyd Likinz 30-dan çox ölkədə bu istiqamətdə tədqiqatlar aparıblar. Azərbaycanda yuxarı sinif şagirdlərinin 93 faizi bu xidmətdən istifadə edir. İbtidai təhsil pilləsində təhsil alan uşaqlar da, bütövlükdə, repetitor təhsilinə cəlb olunublar. Hər valideynin övladının təhsilinə illik xərclədiyi pul dövlətin bir şagirdinə xərclədiyi vəsaitdən 3-4 dəfə çoxdur. Əlbəttə ki, məktəb öz funksiyasını layiqincə yerinə yetirə bilsəydi, bu vəsait şagirdlərin geyiminə və qidalanmasına xərclənərdi və daha sağlam nəsil yetişmiş olardı.

Uşaqların dərsdən yayınma halları gələcəyimiz üçün böyük fəsadlara səbəb olacaq. Biz hər dəfə bunu deyirik, lakin nəticə yoxdur. Cari tədris ilində bütün ixtisas qrupları üzrə abituriyentlərin təxminən 50 faizi 50 bal toplayıb. Bunun adı var, bu, funksional savadsızlıqdır. Yuxarı sinif şagirdlərinin dərslərə davamiyyəti ən yaxşı halda 40 faizdir. Diaqnostik qiymətləndirmə, sertifikasiya imtahanları nəticəsində əməkhaqqı artımları və büdcədən ilbəil artan vəsaitin nəticəsi beləmi olmalıdır?

Dördüncü sənaye inqilabının texnologiyalarının işlən-

məsi üçün Silikon Vadisinə ehtiyac var və peşə məktəblərinin birinin nəzdində bunun yaradılması həm də tədris və təcrübə mərkəzi kimi də yararlı ola bilər. Biz dördüncü sənaye inqilabı dövründə yaşayırıq. Lakin peşə təhsilinin kurikulumları və dərslikləri ikinci sənaye inqilabının dövrünü ehtiva edir.

Nəticə əsaslı büdcəyə keçid hələlik inkişafa zəmin yarada bilmir. Ölkədə məktəbəqədər təhsilin əhatə dairəsi 1693 uşaq bağçası və körpələr evində 25 faizdir və inkişaf etmiş dünya ilə müqayisədə bu, çox aşağı göstəricidir. Bu, ölkə üzrə göstəricidir. Rayonların əksəriyyətində vəziyyət daha acınacaqlıdır, əhatə dairəsi 7-8 faizdir. Niyə statistika orqanları rayonlar üzrə məktəbəqədər təhsilin əhatə səviyyəsini açıqlamır? Niyə dövlət büdcəsindən ayrılan vəsaitlərin məktəbəqədər təhsil və orta təhsil üzrə rayonlar üzrə bölgüsü açıqlanmır? Bəlkə, ayrılan vəsaitin 80 faizi elə Bakıya aiddir? Qeyd edim ki, məktəbəhazırlıq məktəbəqədər təhsil demək deyil. 2024-cü ilin dövlət büdcəsində bağçaların ərzaq təminatı xərclərində 20 faizdən çox azalma var. Sual edirəm, səbəb nədir? Axı, bizim mentalitetdə uşaqların qidalanması tərbiyə və təhsil qədər önəmlidir.

Bu ilin büdcəsində icma əsaslı məktəbəqədər təhsilə 12 milyon manat vəsait nəzərdə tutulub. Mənbə, 2024-cü ilin icmal və dövlət büdcələri üzrə layihələrin təqdimatı, səhifə 22. Bunun kimi faydasız və məzmunsuz layihə yoxdur. Bunun əvəzinə regionlarda uşaq bağçaları tikmək olmazdımı? İcma və layihə adı ilə uşaqlara tərbiyə və təhsil vermək qeyri-mümkündür. Həmçinin də qrant layihələri vasitəsi ilə. Əlimizdə olan vəsaiti rasional xərcləmirik və sonra da sahələr üzrə geriləmələri təhlil edirik.

Elm və Təhsil Nazirliyi elmi infrastrukturun idarə edilməsində geniş səlahiyyətlər qazandı. Bu baxımdan indiki

büdcə müzakirələrində belə bir sualın cavabı aydın olmalıdır ki, bu struktur islahatları elmin maliyyələşməsində, elm xərclərinin nəticəliliyinin və səmərəliliyinin yüksəldilməsində hansı dəyişikliklərə səbəb olacaq və bu dəyişikliklər hansı mexanizmlər sahəsində mümkün olacaq? Elmə ayrılan vəsaitin müqabilində elm təkcə sosial funksiya yerinə yetirməkdə davam etməməlidir. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda ölkədə tədqiqat potensialı yüksək olan iki universitetin bazasında iki tədqiqat universitetinin yaradılması nəzərdə tutulur. 3 universitetimizin reytinqdə 800-cü yerə çıxmasını hədəf seçmişik. Bunun özü də qeyri-müəyyən hədəfdir. Bunlar çox böyük maliyyə vəsaiti tələb edir. Ancaq universitetlərin maliyyə müstəqilliyi varmı? Əlbəttə ki, xeyr. Bu işlərin 2026-cı ilə qədər baş tutması gözlənilən deyil. "Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 10 fevral tarixli 2020 nömrəli Fərmanı ilə ali təhsil müəssisələri maliyyə muxtariyyəti alıblar. Elm və Təhsil Nazirliyi isə dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin, habelə tabeliyində olan təhsil müəssisələrinin göstərdiyi ödənişli təhsil xidmətlərindən və tabeliyində olan digər qurumların gördüyü işlərdən, göstərdiyi xidmətlərdən əldə olunan gəlirlərin sərəncamçısı olaraq maliyyə vəsaitini bölüşdürür, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, nazirliyin işçilərinin vəzifə maaşlarını, əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir. Budur ali təhsil müəssisələrinin müstəqilliyi.

Ali Attestasiya Komissiyasının ləğvi məsələsi də gündəlikdə durmalıdır. Biz 2005-ci ildən Bolonya Bəyan-

namәsinә qoşulmuşuq. Bu qurumun mövcudluğu bәyannamә ilә daban-dabana ziddir vә düşünürәm ki, bu barәdә dә fikirlәşmәyin vaxtı gәlib çatmışdır.

Builki büdcә layihәsindә Azәrbaycan Milli Ensiklopediyası Elmi Mәrkәzi üçün proqnozlaşdırılan vәsait hesabına Ensiklopediyanın növbәti cildlәrinin nәşri ilә bağlı işlәrin hәyata keçirilmәsi nәzәrdә tutulur. Tәәssüflәr olsun ki, Ensiklopediyanın cildlәrinin çapı çox lәng gedir. Hörmәtli xanım sәdr, 2004-cü ildәn indiyә kimi cәmi 8 cild çapdan çıxıb. Ensiklopediyanın cildlәrinin satışının gәlir gәtirmәmәsi xeyli suallar doğurur. Mәn bu işi yaxşı bildiyimdәn deyirәm, dünyada elә Ensiklopediyalar var ki, gәlirlәrinin bir hissәsini dәrsliklәrin çapına yönәldirlәr. Kitab mağazalarında Ensiklopediyanın cildlәrinin qalmasının әsas sәbәbi tәbliğat işinin zәif olması ilә bağlıdır. Qiymәt vә tiraj da heç dә aşağı deyil. 25 min cild hәr nüsxәnin, hәr bir cildin qiymәti dә 50 manat. Kitabları isә kitab mağazasında toz basıb.

Başqa bir mәsәlә, insanlar gecә yatıb, sabah açıldıqda bütün bәlәdiyyә ofislәrinin qapısını qıfıllanmış görsәlәr, onların hәyatında heç nә dәyişmәyәcәk. Çox sadә sәbәbә görә, bәlәdiyyәlәr insanlara xidmәt göstәrmәk, yerli sosial-iqtisadi problemlәrini hәll etmәk üçün real, müstәsna, hәmçinin zәruri sәlahiyyәtlәrә malik deyillәr. Bu, nә vaxta qәdәr davam edәcәk? Kim bilirsә, bunu söylәsin. Tәşәkkür edirәm. Sağ olun.

**Sәdrlik edәn.** Sağ olun, Etibar müәllim. Yaxşı ki, vaxtı 10 dәqiqә etmişik, 15 dәqiqә etmәmişik. Sizin sözünüzdәn elә çıxır ki, ümumiyyәtlә, tәhsil yoxdur. Heç olmasa, bir-iki kәlmә o tikilәn mәktәblәr haqqında, uğurlar haqqında deyin. Özünüz yaxşı bilirsiniz, tәhsildәn gәlәn adamsınız, tәhsildә olan islahatlar 1 ilin, 2 ilin içindә nәticә vermir.

Ən azı 5-6, 7-8 il lazımdır. Ən azı deyirəm. Aydın Hüseynov. Buyurun.

**A.Hüseynov**. Çox hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hökumət üzvləri, millət vəkilləri, media nümayəndələri. Cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin müəllifi olduğu mükəmməl inkişaf modeli əsasında ölkəmiz tamam inamla addımlayaraq, siyasi-iqtisadi, sosial uğurlarının miqyasını daha da genişləndirib. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin polad iradəsi, yenilməz sərkərdə məharəti ilə bütün ərazilərində suverenliyini tam bərpa etmiş Azərbaycan özünün qürurverici, şərəfli, tarixi inkişaf mərhələsinə qədəm qoyub. Bu tarixi günlərin sevincini bizə bəxş edən möhtərəm Ali Baş Komandanımız cənab İlham Əliyevə dərin minnətdarlığımızı ifadə etmək istərdim.

Cənab Prezidentin 20 illik rəhbərliyi dövründə Azərbaycan bütün sahələrdə olduğu kimi, mükəmməl iqtisadi modeli ilə yüksək inkişaf yolu keçmişdir. Belə ki, 2003-cü, 2023-cü illərdə ümumi daxili məhsul 14,8 dəfə, dövlət büdcəsinin gəlirləri 25,2 dəfə, eyni zamanda, dövlət büdcəsinin xərcləri 27 dəfə artmışdır. Xüsusi ilə xatırlatmaq istəyərdim ki, Azərbaycanın hərbi müdafiə xərcləri 2003-cü ildə əgər 150 milyon manat idisə, hazırda 5,3 milyard manat təşkil edir. Bu, bir daha cənab Prezidentimizin hərbi, təhlükəsizlik sisteminə daha böyük önəm verməsinin bariz nümunəsidir.

Bu gün də dövlət başçısı tərəfindən həyata keçirilən genişmiqyaslı islahatlar maliyyə dayanıqlığının güclənməsini və xalqımızın rifahının yüksəlməsini təmin etməkdədir. İndi müzakirə etdiyimiz 2024-cü ilin dövlət büdcəsi də məhz bu prioritetlərə söykənir və hədəfləri özündə ehtiva edir. Ümumən, büdcə nə deməkdir? Büdcə dövlətin

üzərinə düşən vəzifələrin yerinə yetirilməsi üçün pul vəsaitlərinin yığılması və onun istifadə olunmasıdır. Cənab Prezident İlham Əliyev dövlət vəzifələrini xalqın ümumi istəyinin, arzularının səviyyəsində və milli maraqlar səviyyəsində artıq müəyyənləşdiribdir. Bu milli maraqlar nədən ibarətdir? Milli maraqlarımız bizim ordumuzun daha da güclənməsi, ata-baba yurdundan didərgin düşən soydaşlarımızın tez bir zamanda möhtərəm Prezidentimizin, Ali Baş Komandanımızın polad iradəsi ilə işğaldan azad olunmuş ata-baba yurdlarına qayıtmalarıdır. Bizim digər prioritetlərimiz sosial sahələrdir. Bütün bu prioritetlər, bütün bu istiqamətlər mövcud dövlət büdcəsində öz əksini tapıbdır.

Digər tərəfdən, dövlət büdcəsinin tərtib olunması, onun geniş ictimaiyyətə çatdırılması istiqamətində də möhkəm bir institut formalaşıb. Bu institutlar Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, eləcə də Hesablama Palatasıdır. Yəni bax, bu üç institut dövlət büdcəsinin gəlirlərinin formalaşması, xərclərin yüksək dərəcədə həyata keçirilməsi, eləcə də bu xərclərə nəzarətin həyata keçirilməsini təmin edir. Digər tərəfdən isə, ictimaiyyətə çatdırılması. Geniş auditoriyalarda dövlət büdcəsinin mahiyyəti etibarı ilə, xanım sədr, məhz birbaşa Sizin təşəbbüsünüzlə Azərbaycan Respublikasının parlamentində müzakirələrin keçirilməsi, ictimai dinləmələrin aparılması, bax, bu da büdcəmizin ictimaiyyətə çatdırılması istiqamətində görülən ən böyük işlərdən biridir ki, bu gün geniş ictimaiyyət büdcəmiz barədə tam məlumatlıdır. Bu isə bir daha büdcənin mahiyyətinə və milli maraqlarımıza söykənən istiqamətdə xərclərin aparılmasına insanların dəstəyi deməkdir. Çünki biz seçicilərlə görüşəndə, əgər əvvəlki illərdə seçicilər digər problemləri qabardır-

dılarsa, bu il, ümumən, prioritet sahələrə, qeyd etdiyimiz kimi, müdafiə xərclərimizin artmasına, Qarabağda dirçəlişin, quruculuğun həyata keçirilməsinə vəsaitlərin artırılmasını ifadə edirlər.

Mən fürsətdən istifadə edib, cənab Baş nazirimizin burada iştirakından hörmət əlaməti ilə istifadə edib, bir məsələ ilə bağlı fikrimi səsləndirmək istərdim. Əlbəttə, dövlət büdcəsində əsaslı xərclərin olması elə məşğulluğun başqa bir formada qəbul olunması deməkdir. Buna görə də biz satınalmalarla bağlı yeni qanun qəbul etdik. Bu satınalmalar prosesinin həyata keçirilməsində, deməli, bu prosedurlarda iş yerlərinin önəmli olması, yəni dövlət sifarişləri əsasında həyata keçirilən xərclərdə podratçı təşkilatlara digər üstünlüklərlə yanaşı, orada kim iş yerlərini daha çox yarada və həmin vəsaitlər hesabına daha çox işçi cəlb edə bilirsə, mən hesab edirəm ki, podratçılara daha çox üstünlük verilməsi.

Digər məsələ isə, Qaradağ rayonu ilə bağlı mən bayaq seçicilərimizin fikrini qeyd etdim. Sadəcə olaraq, bir fikri ifadə etmək istərdim ki, Sanqaçal yolunun üstündə, keçmiş "İpək yolu" üzərində yerləşən abidə var, Karvansaray abidəsi. Bu, tarixi bir abidədir. Demək olar ki, baxımsızlıqdan həmin abidənin artıq aşınması gedir. Həmin abidənin Mədəniyyət Nazirliyi tərəfindən maliyyələşdirilməsi və bərpa olunması istiqamətində işlərin görülməsi hər birimizin ürəyincə olar.

Bütövlükdə, büdcəmizi yüksək qiymətləndirirəm, praqmatik büdcədir, bugünkü reallığı və iqtisadi çağırışlarımızı özündə ehtiva edən büdcədir. Təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli deputatlar, mən istəyərdim, indi sözü Səhiyyə komitəsinin sədri bizim hörmətli akademikimiz Əhliman müəllimə verim. Çünki

müxtəlif istiqamətlər haqqında söhbət getdi, ancaq səhiyyə haqqında hələ söhbət getməyib. Əhliman müəllim, buyurun.

**Ə.Əmiraslanov.** Çox təşəkkür edirəm, Sahibə xanım. Çox hörmətli Sahibə xanım, çox hörmətli Əli müəllim, hörmətli nazirlər, hökumət nümayəndələri və həmkarlar, media mənsubları. Milli Məclisə təqdim olunan 2024-cü ilin büdcə zərfi ilə tanış olduqda görürük ki, ötən illərdə olduğu kimi, növbəti ilin zəfər büdcəsi də sosial yönümlüdür. Növbəti ilin büdcəsində sosial xərclər cari illə müqayisədə 7 faiz artaraq bu xərclərin xüsusi çəkisi 43 faizə çatdırılmışdır. Bu, bir daha göstərir ki, sosial sahə ölkə Prezidenti cənab İlham Əliyevin siyasətinin prioritet istiqamətlərindəndir. Sosial sahələrin – səhiyyə, elm və təhsil də daxil olmaqla bütün istiqamətləri üzrə vəsait qoyuluşunda artım müşahidə olunur.

Növbəti ilin büdcəsində ilk dəfə olaraq səhiyyə xərcləri 1,9 milyard manata çatdırılaraq xüsusi çəkisi 5,1 faiz təşkil edəcəkdir. Bu da son dərəcə təqdirəlayiq bir haldır. Səhiyyə büdcəsindəki artım əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin yüksəlməsinə xidmət edəcəkdir. Növbəti ilin büdcəsində İcbari tibbi sığorta fondunun vəsaitləri də təsirli dərəcədə artırılaraq 2,8 milyard manata çatdırılır. Bu vəsaitin 48,9 faizi səhiyyə büdcəsindən yönəldilmişdir. İcbari tibbi sığorta fondunun vəsaitinin artması fondun xidmətlər zərfinin daha da genişlənməsinə və bununla da əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin yüksəlməsinə imkan yaradacaqdır. Məlum olduğu kimi, son illər icbari tibbi sığorta ölkəmizdə uğurla həyata keçirilir, xidmətlər zərfi günbəgün genişlənir, xüsusi ilə böyük maliyyə tutumlu əməliyyatların – qaraciyər, böyrək və sümük iliyi transplantasiyası, o cümlədən mürəkkəb ürək əməliyyatlarının icbari tibbi sığorta ilə əhatə olunması təqdirəlayiq

haldır. İcbari tibbi sığortadan əhalinin məmnunluğu günbəgün artır.

Hörmətli həmkarlar, onkoloji xidmət üçün 2024-cü il büdcəsində nəzərdə tutulmuş 50 milyon manat vəsait çox azdır. Mən dəfələrcə müxtəlif səviyyələrdə onkoloji xidmətin də icbari tibbi sığorta ilə əhatə olunması məsələsini qaldırmışam. Şükürlər olsun ki, onkoloji xidmətin icbari tibbi sığorta ilə əhatə olunması istiqamətində artıq müsbət addımlar atılmağa başlanıb. Ümid etmək olar ki, yaxın vaxtlarda bu məsələ öz müsbət həllini tapacaqdır. İcbari tibbi sığorta fondunun vəsaitlərində müşahidə olunan artım ümidlərimizi daha da artırır.

Hörmətli həmkarlar, xüsusi ilə qeyd etmək istərdim ki, işğaldan azad edilmiş ərazilərdə yeni səhiyyə strukturlarının yaradılması və tibbi xidmətlərin təşkili məqsədi ilə investisiya vəsaitlərinin bu istiqamətə yönəldilməsi də böyük əhəmiyyət kəsb edərdi. Məlumdur ki, ölkəmizdə səhiyyə üzrə 18 dövlət proqramı həyata keçirilir. Bu proqramlar səhiyyənin ən ağır və çətin sahələrini – şəkərli diabet, vərəm, onkologiya, dağınıq skleroz, irsi qan xəstəlikləri, xroniki böyrək çatışmazlığı kimi patologiyaları da əhatə edir. Bu proqramların icrasına növbəti il üçün büdcədə 265 milyon manat nəzərdə tutulur. Bu vəsait müvafiq proqramların adekvat həyata keçirilməsi üçün çox azdır. İcbari tibbi sığorta fondunun vəsaitinin dinamik olaraq artımını nəzərə alaraq, səhiyyə üzrə dövlət proqramlarının da icbari tibbi sığortaya cəlb olunması məqsədəmüvafiq olardı.

Mən də hesab edirəm ki, 2024-cü ilin büdcə zərfi böyük peşəkarlıqla hazırlanmışdır. Büdcə layihəsinin hazırlanmasında əməyi keçən hər kəsə təşəkkürümü bildirirəm. Mən də 2024-cü il büdcə layihəsinə səs verəcəyəm. Diq-

qətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Əhliman müəllim. İndi isə Vüqar İskəndərov. Buyurun.

**V.İskəndərov**. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli həmkarlarım və hökumət üzvləri. Çox qürurlu və şərəfli günlər yaşayırıq. Düşünürük ki, gələcək nəsillər bu dövrün, zəmanənin müasirlərinə qibtə edəcəklər. Biz, həqiqətən də, 2024-cü ilin dövlət büdcəsini, sözün əsl mənasında, zəfər büdcəsi adlandırırıq və hər birimiz qürurla və şərəflə onun müzakirəsində iştirak eləyirik. Detallarla bağlı komitə iclasında fikirlərimi bildirmişəm və verdiyim 3 təkliflə bağlı hörmətli maliyyə nazirimiz Samir Şərifova aparılan müzakirələrdə operativ reaksiyasına görə də təşəkkür edirəm. Biz orada bir çox məsələləri yerində müzakirə etdik və ona görə artıq o fikirləri burada səsləndirmirəm. Düşünürəm ki, qısa çıxış eləyib digər həmkarlarımıza da vaxt ayırsaq, çox yaxşı olar.

Hörmətli xanım sədr, konkret 3 təklif vermək istəyirəm. Birinci məsələ çox aktualdır, bu, avtomobillərin utilizasiyası ilə bağlıdır. Bununla bağlı ölkəmizdə istismar olunan avtomobillərin 80 faizindən çoxunun istehsal tarixi 10 ili ötüb. Ümumilikdə isə, ölkəmizdə hər iyirmi avtomobildən biri istismara həddindən artıq yararsız vəziyyətdədir. Bununla bağlı məlumatım var ki, gələn ilin sentyabr ayından məsələ həllini tapmağa başlayacaq və bunun üçün bir neçə yaxşı nümunə, Rusiya nümunəsi var ki, orada bu məsələni həll etdilər. Düşünürəm ki, burada çox ədalətli həll üçün mexanizmə diqqətlə baxılmalıdır, çünki böyük bir insan kütləsini əhatə edir. Düşünürəm ki, hökumət bununla bağlı daha səmərəli mexanizmin hazırlanmasına diqqəti artırmalıdır.

İkinci məsələ buna bağlı məsələdir. Bilirik ki, Bakı şə-

hərində hazırda hamıya toxunan məsələ var, o da şəhərin mərkəzində tıxaclarla bağlıdır. Hər birimiz bu məsələyə reaksiya veririk, fikirlər söyləyirik. Amma düşünürəm ki, həll yolları barədə çox deyilib, bəlkə də onlardan biri şəhərin mərkəzi hissəsində bir çox dövlət obyektlərinin, əsasən də, universitetlərin olmasıdır, onların bu tıxacın yaranmasında səbəbkar olması hər birimizə bəllidir. Zaman-zaman bununla bağlı fikirlər söylənilib. Düşünürəm ki, gələn ilin büdcəsində biz buna baxa bilərik ki, mərhələli şəkildə həmin universitetlərin şəhərin kənarına köçürülməsini təmin edək. Bu, bir az həmin yükün azaldılmasına kömək etmiş olar.

Üçüncü, təmsil etdiyim Şəki şəhəri ilə bağlıdır. İki il öncə də hörmətli Baş nazirin iştirak etməsindən istifadə edərək fikir söyləmişdim. Pedaqoji Universitetin Şəki filialı uzun illərdir ki, əvvəl BDU-nun, indi də Pedaqoji Universitetin filialı kimi fəaliyyət göstərir. Şəki o bölgənin mərkəzi şəhəridir və tarixən də özünün təhsil ənənələri var. Hazırkı Şəki filialı həm professor-müəllim heyəti ilə, həm də digər tərəfləri ilə müstəqil universitet olmağa, demək olar ki, tam hazırdır. Cənab Baş nazirdən, hökumətdən xahiş edərdim ki, gələcəkdə bu məsələyə baxılması çox vacibdir. Bu, seçicilərimin bir çoxunun, əsasən, ziyalılarımızın xahişidir. Bunu nəzərinizə çatdırdım. Mən də zəfər büdcəsinə səs verəcəm. Diqqətiniz üçün çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Məlahət İbrahimqızı. Məlahət xanım, buyurun.

**M.İbrahimqızı**. Çox sağ olun, xanım sədr. Hörmətli xanım sədr, hörmətli Baş nazir, hörmətli hökumət üzvləri, media mənsubları. Mən də məndən öncə çıxış edənlərin bütün arzu və diləklərinə qoşularaq, bir neçə gün bundan

öncə xalqımızın çox əzəmətli bir bayramının təntənə ilə qeyd olunduğu 8 noyabr Zəfər bayramı, eyni zamanda, Xankəndidə keçirilən suverenlik hərbi paradı münasibəti ilə hamınızı təbrik edirəm. Biz bu Zəfərin sevincini hələ çox əsrlər bundan sonra da yaşayacağıq. Çünki xalqımıza elə bir tükənməz sevinc bəxş olunub ki, əslində, bu Zəfər bayramını biz Azərbaycan xalqının milli birlik, milli ləyaqət, milli qürur bayramı, onların təntənəsi bayramı kimi də qeyd edəcəyik. Sözsüz ki, Azərbaycan xalqı bu gün bu əlamətdar, tarixi hadisələrin şahidi kimi, biz də, gələcək nəsillər də belə bir möhtəşəm, belə bir müqəddəs bayramı bizə yaşatdıqlarına, xalqımıza bəxş etdiklərinə görə müzəffər Ali Baş Komandanımıza, onun sarsılmaz iradə ilə rəhbərlik etdiyi şanlı milli ordumuza, əziz şəhidlərimizə və qəhrəman qazilərimizin rəşadətinə və şücaətinə borcluyuq və gələcəkdə də bu belə olacaqdır.

Möhtərəm qonaqlar, mən də büdcəmiz haqqında həmkarlarımın dediyi fikirlərə qoşuluram. Biz 3 ildir ki, zəfər büdcəsini müzakirə edirik. Lakin builki, daha doğrusu, 2024-cü ilin büdcəsinin əvvəlki iki ilin büdcəsindən fərqi ondadır ki, biz bu büdcə layihəsində Xankəndinin adını görürük. Biz bu büdcədə Xocalının adını gördükcə, təbii ki, göz yaşlarımızı belə saxlaya bilmirik. Xocavənd, Ağdərə və digər rayonların adını gördükcə... Bizdən öncəki nəsillər əsrlər boyu, on illər boyu bunu arzuladılar, amma görə bilmədilər. Biz buna görə bir daha möhtərəm Prezidentimizə təşəkkür edirik, ona minnətdarıq. Bu, həqiqətən də, möhtərəm Prezidentimizin xalqımızın çox tarixi və müdrik bir atalar sözünü gerçəkləşdirməsi – "qisas qiyamətə qalmaz" müdrik atalar sözünün reallaşmasıdır. Mən də, təbii ki, bu büdcə layihəsinə səs verəcəyəm. Amma seçicilərimin də təşəkkürünü, fikirlərini çatdırmaq istərdim.

Təmsil etdiyimiz bölgənin seçiciləri bir daha təşəkkür edirlər ki, yenə də müdafiə və təhlükəsizlik məsələləri, yenə də Qarabağın dirçəlişi və quruculuğu, Böyük Qayıdışın reallaşması, Azərbaycan və Azərbaycan xalqının hər bir nümayəndəsi üçün çox həssas məsələ olan sosial problemlərin həlli, şəhidlərimizin, qazilərimizin, veteranlarımızın, hərbi qulluqçularımızın sosial probleminin həlli bu büdcədə öz əksini tapıbdır. Fürsətdən istifadə edərək, ən kiçik sosial problemi belə diqqətdən qaçırmayan möhtərəm Birinci vitse-prezidentimiz Mehriban xanıma da təşəkkür edərdim.

Mən hökumət üzvlərinin burada iştirakından istifadə edərək, təkliflərimi səsləndirmək istərdim. Birinci, təmsil etdiyim Nəsimi rayonunun mikrorayonlarında istilikxanaların problemi bu günə qədər də həll olunmamış qalır. Birinci mikrorayondan beşinci mikrorayona qədər soyuq ayları hərə öz imkanı hesabına, birtəhər yola verir. Amma bir daha xahiş edərdim ki, şəhərin mərkəzi rayonu olan Nəsimi rayonunda istilik sisteminin yenidən qurulmasına, heç olmasa, gələcəkdə, 2025-ci ilin büdcəsində diqqət verilsin. Nəsimi rayonu, qeyd etdiyim kimi, şəhərin mərkəzi rayonlarındandır. Elə məktəblər var ki, orada 100 faiz artıq şagird təhsil alır. Siniflərdə normadan 2 dəfə, bəzən 3 dəfə artıq şagirdlər olur. Nəsimi rayonunun məktəblərində yeni korpusların tikilməsini xahiş edərdim.

Hörmətli Baş nazirin burada olmasından istifadə edərək demək istərdim ki, şəhid ailələri minnətdardırlar, onların övladlarının adının əbədiləşdirilməsi ilə bağlı ölkəmizdə ardıcıl olaraq işlər həyata keçirilir. Lakin çox təəssüf ki, şəhərin küçələrinə bəzən şəhidin ancaq adını, soyadını verirlər, bəzi hallarda eləcə "şəhid" sözü yazılır. Şəhid anaları, şəhid valideynləri xahiş edirlər ki, onların övladları-

nın da adı, soyadı yazılan lövhələrə "şəhid" sözü əlavə olunsun. Çünki biz bu şəhidlərin adlarını bu gün bilirik, amma 50 il, 100 il keçəcək, onların kim olduğu gələcək nəsillərdə bir az çətinlik yaradacaq.

Nəhayət, bölgələrlə bağlı. Bütün dünyada olduğu kimi, periferiyadan mərkəzə miqrasiya, əhalinin sürətli axını baş verir. Azərbaycanda da, təbii ki, bu proseslər gedir. Azərbaycan dünyadan ayrı deyil. Bir tərəfdən, möhtərəm Prezidentimizin rəhbərliyi ilə həm Qarabağda, həm də Azərbaycanın bütün bölgələrində çox böyük quruculuq işləri görülür. Ən ucqar bölgələrdə belə, olimpiya kompleksləri, gənclər mərkəzi və digər sosial infrastruktur obyektləri tikildiyi halda, onlardan bir sıra hallarda yenə də səmərəli istifadə edilmədiyinə görə istər-istəməz, təbii olaraq, axın mərkəzə doğru gələcək.

Mənim də təklifim, – səhv eləmirəmsə, bayaq, məndən öncə Vüqar müəllim də toxundu, – Bakının bir az sıxıntıdan, sıxlıqdan yüngülləşməsi ilə bağlıdır. Həm yollardakı tıxaclar azalardı, həm də dünya praktikasında da var, məsələn, Almaniyada. Erlangendə 150 min əhali, iki universitet var, Braunşveyqdə 100 min əhali var, Almaniyanın ən məşhur texniki universiteti – Braunşveyq Texniki Universiteti yerləşir. Nədən Şəmkirdə, Qazaxda, – Qazaxda, təbii ki var, – bizim digər böyük şəhərlərdə, Cəlilabadda universitet, heç olmasa, ilk olaraq universitetin filialı və yataqxanaları olmasın? Bu həm də gənclərin o yerlərdə məskunlaşması ilə gələcəkdə bölgələrdə gənclərin azalmasının da qarşısını almış olar.

Nəhayət, mən son olaraq təyinat məsələsini demək istəyirəm. Bu məsələdə təyinatın da çox önəmli rolu var. Ən azı dövlət ödənişi ilə təhsil alan gənclərimizin nədən təyinatı olmasın? Türkiyədə hətta tibb təhsili alan həkimləri

ən ucqar bölgələrə, Hakkariyə, Siirtə, Diyarbəkirə göndərirlər, 3 il, 4 il, 5 il oxuyurlar və eləcə də bütün sahələrdə. Müəllimlər, tibb işçiləri, bütün sahələrdə universiteti dövlət ödənişi ilə oxuyan məzunlar sovet dövründə olduğu kimi, bölgələrdə müəyyən müddət işləyirlər. Mən hesab edirəm ki, gələcəkdə hökumət üzvləri, xüsusi ilə də Təhsil Nazirliyinin nümayəndəsi bunu, necə deyərlər, perspektiv planlarında qeyd edə bilərlər.

Bir daha təşəkkür edirəm. Belə dolğun, mükəmməl zəfər büdcəsinə mən də səs verəcəyəm. Həmkarlarımı da səs verməyə dəvət edirəm. Çox sağ olun, xanım sədr.

**Sədrlik edən.** Çox sağ olun, Məlahət xanım. Hörmətli həmkarlar, saat 3-dək fasilə elan olunur. Sağ olun.

***(FASİLƏDƏN SONRA)***

**Sədrlik edən.** Hörmətli həmkarlar, işimizə davam edirik. Eldar Quliyev. Eldar müəllim, buyurun.

**E.Quliyev.** Hörmətli xanım sədr, hörmətli deputatlar və hökumət üzvləri! Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu 2020-ci ildə 44 günlük müharibədə  və bu il sentyabr ayının 19-da  24 saatdan da az vaxt ərzində əməliyyatı başa çatdıraraq respublikamızın bütün ərazisini işğaldan azad etdi. Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına Böyük Qayıdış başlamışdır. Bu ərazilərdə ölkə Prezidentinin təşəbbüsü ilə "ağıllı şəhər", "ağıllı kənd", "yaşıl enerji" və digər müasir layihələr həyata keçirilir.

Bizə fərəh verən bir məsələ də var ki, ilk dəfə olaraq Xankəndi cənab Prezident tərəfindən işğaldan azad olunaraq orada bizim üçrəngli bayrağımız asıldı. Bununla

bərabər, fərəhlə və qürurla demək istərdim ki, – yəqin, bizim bütün deputat həmkarlarımız da bizi dəstəkləyəcəklər, – ilk dəfə olaraq 2024-cü ilin büdcəsində Xankəndinin inkişafı ilə əlaqədar ayrıca vəsait ayrılıb.

Gələn il də bu istiqamətdə işlər davam etdiriləcək və bunun üçün dövlət büdcəsindən 4 milyard manat vəsaitin ayrılması nəzərdə tutulur. Hazırda bu ərazilərdə aparılan işlər onu deməyə əsas verir ki, yaxın vaxtlarda məcburi köçkünlər öz ata-baba yurdlarına qayıdıb, daha əlverişli şəraitdə yaşayıb fəaliyyət göstərəcəklər. Bu bölgə isə Azərbaycan iqtisadiyyatına öz layiqli töhfəsini verəcəkdir.

Bildiyiniz kimi, dövlət büdcəsinin gəlir və xərclərinin formalaşması ölkədə istehsal olunan ümumi daxili məhsulun səviyyəsindən çox asılıdır. Hazırda dünya qlobal siyasətində baş verən geosiyasi gərginliyin və qarşıdurmaların olması iqtisadiyyatda qeyri-müəyyənlik yaratmaqla iqtisadi artımın səviyyəsinin zəifləməsinə səbəb olur. Buna baxmayaraq, Azərbaycan Respublikasında uzun müddətdir aparılan düşünülmüş iqtisadi siyasət sayəsində ölkəmizdə gələn il gözlənilən ümumi daxili məhsul istehsalının artımı dövlət büdcəsinin gəlir və xərclərinin də artımına səbəb olacaqdır.

Onu da demək istərdim ki, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində aparılan tədbirlər öz bəhrəsini vermişdir. Belə ki, gələn ilin dövlət büdcəsinin gəlirlərində qeyri-neft sektorunun payı neft sektorunun payını üstələyir. Bu da iqtisadiyyatın bütün sahələrində uğurlu nəticələrin əldə edilməsi ilə əlaqədardır. Məhz buna görə də qeyri-neft sektorunun iqtisadi inkişafı dövlət büdcəsinin gəlirlərində Dövlət Neft Fondundan transfertin xüsusi çəkisinin aşağı düşməsinə səbəb olmuşdur.

Bununla yanaşı, bəzi məsələləri hökumətin nəzərinə

çatdırmaq istərdim. Əlbəttə, məktəblərlə əlaqədar çox sözlər deyilib. Ona görə mən də onu təkrarlamaq istəmirəm.

Amma deputatı olduğum seçki dairəsinin əhatə etdiyi Maştağa, Zabrat, Nardaran və Bilgəh qəsəbələrində daxili yollarda təmir işlərinin aparılmasına və qəsəbələrin içməli su ilə təmin olunmasına 2024-cü ilin dövlət büdcəsindən vəsaitin ayrılması həmin ərazidə əhalinin rahatlığını təmin edərdi. Habelə, Maştağa və digər qəsəbələrdə yerləşən ətraf yaşayış məntəqələrinin 150 mindən çox əhalisinə xidmət edən təcili yardım stansiyasının cəmi 3 nasaz maşını var ki, bu da tələbatı ödəyə bilmir. Ona görə də Səhiyyə Nazirliyi və TƏBİB-dən xahiş edirəm ki, bizə 2 yeni təcili yardım maşını verilməsinə baxılsın və köhnə maşınların təmirinə köməklik göstərsinlər.

Uzun müddətdir ki, Maştağa qəsəbəsindəki istifadəsiz qalmış kinoteatr binası və Zabrat qəsəbəsindəki mədəniyyət evinin binasının təmirə də böyük ehtiyacı vardır. Bu məsələlərə də baxılmasını hökumətdən xahiş edirəm.

Mən qanun layihəsinə səs verəcəyəm və onun qəbul olunmasına səs vermələrini bizim deputat yoldaşlardan da xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Emin Hacıyev. Buyurun.

**E.Hacıyev**. Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri, deputatlar və media nümayəndələri! 2024-cü ilin dövlət büdcəsi suverenliyini tam bərpa etmiş Azərbaycanımızın bütün ərazisini əhatə etməsi baxımından qürur doğurur. Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində dövlət büdcəsinin gəlirləri davamlı olaraq artırılır. 2024-cü ilin dövlət büdcəsi də ölkəmizin müdafiə qabiliyyətinin gücləndirilməsi, sərhədlərin qorunması, işğaldan azad olunan ərazilərimizin bərpası, əhalinin sosial təminatının yüksəldilməsi

kimi prioritet istiqamətlərdə dövlət siyasətini həyata keçirmək üçün mühüm maliyyə bazası yaradacaq.

Mən fürsətdən istifadə edərək, deputatı olduğum Sumqayıt şəhəri ilə bağlı bəzi məsələlərə diqqəti yönəltmək istəyirəm. İlk öncə qeyd edim ki, ölkədə geniş vüsət alan islahatların müsbət nəticəsi Sumqayıtın sosial-iqtisadi həyatında da özünü göstərir. Lakin məlumdur ki, yeni imkanlar yeni çağırışlar yaradır. Onu da deyim ki, üzvü olduğum Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə yerlərdə seçicilərimizlə keçirdiyimiz görüşlərdə bizə çoxsaylı müraciətlər daxil olur. Qaldırılan məsələlərdən biri Sumqayıt şəhərində istiliyin təmin edilmədiyi yaşayış binalarında istilik təchizatı sistemlərinin bərpası və yenidən qurulması, yeni qazanxanaların tikilməsi ilə bağlıdır. Qarşıdan qış mövsümü gəlir, amma təəssüf ki, bu məsələ hələ də öz həllini tapmayıb və sumqayıtlılar üçün maddi sıxıntı yaradır.

Mən, demək olar ki, hər il dövlət büdcəsinin müzakirəsi zamanı Sumqayıt şəhərinin istilik təchizatı sisteminin yenidən qurulmasına maliyyə ayrılması ilə bağlı hökumətə müraciət edirəm. Nazirlər Kabinetinin 2020-ci ildə fəaliyyəti haqqında hesabatının Milli Məclisdə müzakirəsi zamanı irəli sürülmüş təklif və tövsiyələrin icrası barədə məlumatda bizim qaldırdığımız məsələ də yer alıb. Orada qeyd olunub ki, növbəti illərin investisiya proqramının tərtibi zamanı qeyd olunan məsələyə imkan çərçivəsində dövlət büdcəsində baxılacaq. Xahiş edirəm, Sumqayıtda istiliklə təmin edilməyən yaşayış binalarında və sosial obyektlərdə istilik təchizatı sisteminin qurulmasına 2024-cü ilin dövlət büdcəsindən müvafiq maliyyə vəsaitinin ayrılması təmin edilsin. Nəzərə alsaq ki, "Azəristiliktəchizat"ın zərərinin örtülməsi üçün növbəti ilin dövlət büdcəsindən

46,5 milyon manat ayrılacaq, bu da cari il ilə müqayisədə 5,5 faiz çoxdur. Sumqayıt şəhərində istilik probleminin yoluna qoyulmasının diqqətdə saxlanılması məqsədəuyğun olardı.

Daha bir məsələ, Sumqayıt şəhərinin sərnişin nəqliyyatında olan problemlər idarəetmə keyfiyyətinin aşağı olması, avtobus və sürücü qıtlığı, şəhərin müxtəlif istiqamətlərinə marşrut xətlərinin olmaması ilə bağlıdır. Xüsusi ilə Sumqayıt Kimya Sənaye Parkının ərazisindəki müəssisələrə marşrut xətləri çox azdır. Axşamlar həmin ərazilərdə avtobuslar, demək olar ki, işləmir. İnsanlar işə gedib-gəlməkdə böyük əziyyət çəkirlər. Paytaxtda olduğu kimi, ölkəmizin mühüm sənaye şəhəri olan Sumqayıtda da sərnişin nəqliyyatı sisteminin müasir standartlara uyğun qurulmasına böyük ehtiyac var.

Digər bir məsələ, Sumqayıtın şəhər mərkəzində çoxmərtəbəli binaların zirzəmilərində olan antisanitar vəziyyət, burada toplanmış tullantı sularıdır. Problemin həlli üçün həmin yaşayış binaları əsaslı təmir edilməli və kanalizasiya şəbəkə xətləri yenilənməlidir. Kanalizasiya problemi şəhərin Yaşıl dərə yaşayış məntəqəsində özünü ciddi şəkildə göstərir. Eyni problem Hacı Zeynalabdin Tağıyev, Əliağa Vahid küçəsi, Corat qəsəbəsində də yaşanır. Ümumiyyətlə, Sumqayıt sənaye şəhəri olduğundan, burada ekologiyanın qorunmasına lazımi diqqət göstərilməsi xüsusi ilə vacibdir. Məişət tullantılarının daşınmasındakı problemlər və boşluqlar bu məsələdə də təxirəsalınmaz addımlar atılmasını zəruri edir. Bu baxımdan Sumqayıta yaxın ərazilərdə məişət tullantılarının emalı zavodunun qurulmasını təklif edirəm. Hesab edirəm ki, emaldan alınan elektrik enerjisinin Sumqayıtdakı sənaye müəssisələrində satışını təşkil etmək olar. Düzgün investisiya dəyər-

ləndirilməsi göstərir ki, Balaxanı bərk məişət tullantılarının çeşidlənməsi zavodunun tikintisi ilə müqayisədə hazırda yeni texnologiyalar hesabına daha aşağı investisiya ilə Sumqayıtda belə müəssisə qurula bilər. Sumqayıt və ətraf qəsəbələrin, ümumilikdə, 1 milyona yaxın sakinin məişət tullantılarını emal etmək olar. Bu, məişət tullantılarının şəhərdən kənara daşınmasındakı xərclər və çətinliklər fonunda daha rentabelli ola bilər. Bu gün inkişaf etmiş ölkələrdə heç bir tullantının emalsız qalmadığını nəzərə alsaq, Sumqayıtda da belə təcrübənin tətbiqi faydalı və ölkəmizin "yaşıl enerji"yə keçid siyasətinə uyğun olar. Azərbaycan alternativ enerji istehsalı ilə yanaşı, zəngin ixrac potensialına malikdir. Cənab Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan yaxın gələcəkdə "yaşıl" və hidrogen enerjisinin ixracatçısına çevriləcək.

Xahiş edərdim, Sumqayıtla bağlı bu məsələlər diqqət mərkəzində saxlanılardı. Bütün bu problemlərin həlli ilə bağlı istənilən müzakirələrdə iştirak etməyə, prosesə töhfə verməyə hər zaman hazırıq. Ümumilikdə, qanun layihəsini dəstəkləyirəm və səs verəcəyəm. Deputat həmkarlarımı da bu qanun layihəsinə səs verməyə dəvət edirəm. Diqqətinizə görə minnətdarlığımı bildirirəm.

**Sədrlik edən.** Sağ olun. Aydın Mirzəzadə. Buyurun.

**A.Mirzəzadə.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri, hörmətli deputat həmkarlarım. Bizə təqdim edilmiş 2024-cü ilin büdcə layihəsi ilə tanışlıq onu optimal, günün problemlərinin həllinə hazır olan bir sənəd kimi qiymətləndirməyə əsas verir. Qarşımızda çox böyük məsələlər var, onların içərisində prioritet məsələlər var. Prioritet məsələlərdən biri ordu quruculuğu məsələsinin həmişə diqqətdə saxlanmasıdır. Baxmayaraq ki, müharibə bitib, baxmayaraq ki, Azərbaycan öz ərazi

bütövlüyünü təmin edib, amma bununla belə, gördüyümüz kimi, Fransa, hətta regiondan uzaq olan Hindistan qonşu Ermənistanı silahlandırmaqda davam edirlər. Bu onu göstərir ki, Azərbaycan həmişə özünün ərazi bütövlüyünə ola biləcək hər hansı bir qəsdin qarşısını almağa hazır olmalıdır.

Eyni zamanda, qarşımızda işğaldan azad olunan torpaqlarda bərpa işlərinin aparılması, keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması, regionda sosial-iqtisadi inkişaf məsələləri kimi ciddi məsələlər durur və layihə ilə tanışlıq göstərdi ki, bunların hər birinin həlli üçün çox ciddi işlər görülməsi planlaşdırılır. Hökumət ciddi şəkildə ikirəqəmli inflyasiyanın birrəqəmli inflyasiyaya endirilməsi üçün ciddi addımlar atır. Manatımız stabil olaraq qalır. Yəni qiymətlərin artmaması üçün daxili istehsala çox ciddi diqqət edilir. Bunlar hamısı diqqəti çəkən məsələlərdir.

Məndən əvvəl çıxış edən həmkarlarım bir çox ciddi məsələləri qaldırdılar. Onların bir qismini mən də qaldırmaq istəyirdim. Ancaq bununla belə, onların səsləndirildiyini və hökumətin onları diqqətə aldığını nəzərə alaraq, bir daha təkrarlamaq istəmirəm. Ancaq seçildiyim Mingəçevir üçün çox ciddi olan bir problemi səsləndirmək və bu məsələnin həllinə hökumətin xüsusi diqqət etməsini istəyirəm. Bu məsələ tək Mingəçevir üçün deyil, eyni zamanda, qismən Bakı və Azərbaycanın digər regionları üçün də problematikdir.

İş burasındadır ki, sovet dönəmində Azərbaycanda fəaliyyət göstərən iri zavod və fabriklərin hamısının yataqxanası var idi. Müstəqillik qazandıqdan sonra bu müəssisələrin bir hissəsi fəaliyyətini dayandırdı, bir hissəsi özəlləşdirildi, ancaq həmin yataqxanalar problemi indiyə

qədər problem olaraq qalır. Yəni onlar yerli icra hakimiyyətinin balansına verilib. Ancaq həmin binaların sökülərək həmin ailələrin yeni evlərə köçürülməsi icra hakimiyyətinin imkanında olan məsələ deyil. Bakı şəhərində bu problem asan həll olunur. Evtikmə şirkətləri həmin yataqxanaları alaraq yerində müasir evlər tikirlər və sakinləri mənzillə təmin edirlər. Amma çox təəssüf ki, regionlara hələ də evtikmə şirkətləri böyük həvəs göstərmirlər. Bu baxımdan yataqxanalarda iki, bəzən üç nəsil bir otaqda, 4-5 nəfərin yaşadığı şəraitdə yaşamaqda davam edir. Təsəvvür edin ki, bir mərtəbədə 20-50 ailənin bir neçə sanitar qovşağı, iki qaz plitəsi, bir hamamı var. Yəni gənc nəsil belə bir şəraitdə böyüyür. İndi, düzdür, onları qınamaq olmaz, başqa şəraitləri yoxdur. Həmin ailələrdən bəziləri ev alaraq oranı tərk edirlər, amma yaşadıqları məkanı başqasına satırlar, problem ağır olaraq qalır. Həmin yataqxanaların dövlət hesabına sökülərək yerində ancaq həmin yataqxanalarda yaşayan ailələr üçün sosial evlər tikilməsini və boşalan sahədə məktəblər, uşaq bağçaları salınmasını, yaxud evtikmə şirkətlərinə artıq hazır ərazi kimi verilməsini təklif edirəm.

Sadəcə, statistika üçün bildirim ki, Mingəçevir şəhərində 11 belə yataqxana var və bu yataqxanalarda minlərcə ailə yaşayır və bu minlərcə ailənin yaşayış şəraiti sadaladığım kimi, heç də ürəkaçan deyil. Bu, problemdir, bu problemi nə yerli icra hakimiyyətləri, nə də hansı isə bir nazirlik və yaxud hansı isə bir evtikmə şirkəti həll edəsi deyil. Buna konseptual yanaşmaq lazımdır, hökumətin xüsusi bir proqramı olmalıdır. Həmin yataqxanaların sökülərək yerində sosial evlərin tikilməsi və ancaq həmin yataqxanalarda yaşayanlara sosial evlərin verilməsi məsələsinə dair hökumətin xüsusi bir qərar qəbul etməsini

təklif edirəm. Layihəni bəyənirəm və səs verəcəyəm.

**Sədrlik edən.** Çox sağ olun. Tahir Kərimli. Buyurun.

**T.Kərimli**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, hörmətli qonaqlar. Real vəziyyətdə edilən məruzələri mən məqbul hesab edirəm. Eyni zamanda, burada çox dəyərli çıxışlar oldu, onları da təkrar etmək istəmirəm və bir sıra məsələləri komitə iclasında qaldırmışam. Sadəcə olaraq, istərdim, müəyyən xatırlatmalar edəm. Cənab Prezident tərəfindən hərbçilərin əmək haqqının 20 faiz artırılması çox məmnunluq doğurur. Bu yaxınlarda qaldırdığımz və arzu etdiyimiz Ağsu su anbarının, nəhayət, yaxın vaxtlarda tikintisinə başlanacağı haqqında xəbər də bizdə məmnunluq doğurur. Mən arzu edirəm, zəlzələdən zərər çəkmiş insanların evlərinin bərpası üçün də vəsait ayrılsın. Çünki bizim regionda, Şamaxı, İsmayıllı, Ağsudan, bu ərazilərdən seçilmiş deputatlara müraciətlərin ən çoxu məhz bundan ibarətdir. Eyni zamanda, əlbəttə, mən arzulayıram ki, Ağsu dolayları və Quba–Şamaxı yolunun çəkilməsi də, nəhayət, mümkün olsun. Bu, regionda hədsiz dərəcədə iqtisadi fallıq yaradardı, çox gözəl bir vəziyyət yaranmış olardı. Amma bəzi məsələləri təklif etmək istərdim. Misal, deyək ki, – keçən dəfə də demişdim, – pilotların pensiyası ilə bağlı. Əvvəllər, 2022-ci ilə kimi var idi, 5400 uçuş saatı olan pilotlar pensiyaya rahat şəkildə çıxırdılar. Onlar zərərli sahədə çalışırlar, radiasiya ilə üzləşirlər, demək olar ki, həmişə risk altında olurlar, hava, iqlim dəyişməsi, qorxu və sair. Belə olan halda biz dəyişiklik etdik ki, yox, bunların 25 il də stajı olmalıdır, 50 yaşdan yuxarı olmalıdır. Hər il də tibbi yoxlamaları keçirilir. O tibbi yoxlamalardan keçəndə də görürsən, qalır, heç 50 yaşa çatmamış, halbuki onlar yüksək dərəcədə pensiya fonduna pul ödəməli idilər. Mən

istərdim ki, bu, əvvəlki vəziyyətə qaytarılsın, elə bir yüksək pul da deyildi.

Mənim "Reklam haqqında" Qanundan çox narazılığım var. Misal üçün, çox mötəbər mənbələrə, Eyyub Hüseynova istinad etmək istərdim. Misal, televiziyada verirlər ki, uşaq bezlərinə təşəkkür edirəm. Bax, bu, nə deməkdir? Yaxud bəziləri deyər ki, bunun iqtisadiyyatla, büdcə ilə nə bağlılığı var? Misal, izah edim. Təsəvvür edin ki, mağazalara girən kimi siqaretlər üstümüzə gəlir. Biz proqram qəbul etdik, qanunda dəyişiklik etdik və nəticədə tütün məmulatlarının satışı 10 faiz azalmaq yerinə, hətta qəlyanı da ora əlavə etdik. Heç bir fayda vermədi. Nədir buna səbəb? Çünki "Reklam haqqında" Qanunda biz yazırıq ki, reklam olunan məhsul deyil, onu istehsal edən şirkət reklam oluna bilməz. O da qoyur siqareti ki, qanunda qadağa yoxdursa, məhsulu qoyuram, nəinki uzunömürlülüyə təsir edir, belə zərərli məsələlər ortaya çıxır.

Eyni zamanda, mən bir məsələni də demək istərdim. Bilirsinizmi, biz hamımız, mən özümü də bura qatıram, hökumət üzvləri, deputatlarımız gedib insanlarla görüşlər keçiririk və yaxud deyirik ki, onları qəbul edirik, tez də qayıdırıq. Ay Allah, tez qayıdaq. Niyə? Çünki özümüzü qoruyuruq, özümüzü istəyirik. Cənab Prezidentin tələbi olmağına baxmayaraq ki, hər bir insanın, cəmiyyətin, xalqın arzusunu yerinə yetirin, onlarla təmasda olun. Özü də dəfələrcə görüşlərdə olur. Biz qaçırıq. Niyə qaçırıq? Yenə də deyirəm, çünki özümüzü qoruyuruq. Çünki bizim hər birimizin içində pisliklə, zalımlıqla bərabər, yaxşılıq hissi də, mərhəmət hissi də var. Qorxuruq, o, o yana. Qorxuruq ki, qarşımızda o camaat ki, cavanları xaricə qaçıb, özləri zəlil vəziyyətində, əhalinin 80 faizi ancaq nənəsinin-babasının pensiyalarını gözləyir, iş yerləri yox, nə

bilim, xəstəsini müalicə elətdirə bilmir, qızını ərə verə bilmir, oğlunu evləndirə bilmir, bir yaxşı iş tapmır, gecə-gündüz deyir "Ay Allah, mənə bir dolanışıq qismət elə", onların ağrısı ürəyimizə keçər, ona görə. Çünki bir çoxlarımız, valideynlərimiz, özümüz, ailələrimiz vaxtı ilə bu şəraitdə yaşamışıq. Biz özümüzü qoruyuruq. Bəs, xalqımız? Bəs, bu gün zəfər qazanan Prezidentimizə, Mehriban xanıma bizim regionda nə qədər camaat duaçıdır, o ayrılan vəsaitlə nə qədər evlər bərpa olunub. Bəs, biz indi orta pillə əhali, bu xalq üçün nə edirik? Olmalıdır 10 faiz, 15 faiz imkanlı əhali, bir də kasıb əhali, ara boşluq. Biz də camaatdan qaçaq, onların varlanması üçün bir tədbir görməyək? Ona görə də mən istəyirəm ki, bu məsələlər sürətlə həll olunsun. Ümumiyyətlə, hesab edirəm ki, misal, cənnət qoxulu şəhidlərimizin ailələri, qazilərimiz, veteranlarımız üçün, mənə elə gəlir, bütün nazirliklərin kurasiyalarından yığıb ayrıca bir komitə, xidmət yaratmaq lazımdır ki, bunların dərdi-səri ilə birdəfəlik məşğul olsun. Yaxud deyək ki...

**Yerdən.** *(Eşidilmir.)*

**T.Kərimli.** 5 dəqiqə? Çox çıxış etmək istəyirdim. Təşəkkür edirəm, vaxtınızı almayım.

**Sədrlik edən.** Tahir müəllim, çıxış edin, Sizin sözünüzü kimdir kəsən? Buyurun. Ancaq niyə deyirsiniz ki, qaçırlar? Kim qaçır? Deputat xalqdan qaçır? Buyurun. Sizin vaxtınız qurtarmayıb. Buyurun.

**T.Kərimli**. Təşəkkür edirəm, xanım sədr. Mən özümü deyirəm, hesab edirəm, bir çoxumuz elədir.

**Sədrlik edən.** Onda tək halda deyin, cəm halda deməyin. Burada bu qədər deputat oturub.

**T.Kərimli**. Qaçanlarımız var, məmurlarımız gedib görüşür, gəlir. Mən demirəm, hamısı belədir. Xeyirxahlıq da

edirlər, camaatın qayğısına qalanlar da var. Onların maddi təminatı ilə məşğul olanlar da var. Amma çox vaxt belə situasiyanı, – bu camaatın içində oluruq, – biz görürük. Ona görə də, mən hesab edirəm, misal üçün, deyək ki, bizim zonada, iqtisadiyyatı artırmaqdan ötrü biz ancaq elə Şamaxıya, İsmayıllıya, Şəkiyə, Qəbələyə restorana yeyib-içməyə getməliyik? Bunlar tarixi yerlərdir. Orada Qəbələ qədim şəhəri var, bizim Şirvanşahların, 43 Şirvanşah olub, onların birinin qəbrinin yerini bilirikmi? Gedib bir qəbrin türbəsini tikin orada, sarayını tikin orada, camaat getsin, baxsın. Orada Xəlvətiyədəki türbəni, cənab Prezident Mehriban xanımla gedib ziyarət etdi, onu bərpa etmək lazımdır, camaat görsün. Ağsu xaraba şəhəri və digərləri var. Yəni camaat maraqlansın, tariximizi bilək, onun əsasında inkişaf edək.

Ümumiyyətlə, bir də mən arzulayıram, öz regionumla bağlı dəfələrcə deyirəm, mənə ən çox təsir edən cəhətlərdən biri nədir? Bax, dəfələrcə sosial şəbəkələrdə də, hər yerdə deyirlər ki, nə xeyri var, çıxışının nə xeyri var? Hökumət seçki sistemi haqqında qanuna əsasən hesabatını təqdim edir və biz də Milli Məclisin Daxili Nizamnaməsinə uyğun olaraq, müzakirə edirik və qəbul edirik. Hamısında var ki, izahlar olmalıdır, biz müəyyən təkliflər veririk, müəyyən sözlər deyirik, amma heç bir izah yoxdur. Buna da izah olmalıdır, axı. Məsələn, mən indi təzədən məsələyə qayıtmaq istəmirdim. Ağsu dolayları ilə bağlı mən az qala onuncu dəfədir çıxış edirəm. Hər dəfə də mənə deyirlər ki, gələn il olacaq, gələn il olacaq. Olmur axı. Bir desinlər, niyə olmur. Məsələn, neçə dəfə bizə şikayətlənirlər. Təşəkkür edirəm ki, misal üçün, Hikmət müəllim, Ramil Həsən və digərləri qaz limitləri ilə bağlı burada çıxışlar etdilər. Çünki tək olanda düşürlər üstünə

ki, elə bilirlər, iraq olsun, biz hökumətimizi istəmirik, xalqımızı istəmirik, qərəzliyik və sair. Bunlara da yardım lazımdır, camaat üçün baxmaq lazımdır.

80 manatdan danışıldı. Sənədsiz evlərin sənədləşməsindən danışıldı. Bunlar xalqımızın dərdidir. Biz öz dövlətimizin başçısına, özümüzün gözəl zəfər dövlətimizə layiq olmalıyıq, hamımız çalışmalıyıq. Hər birimiz öz işimizə vicdanla yanaşsaq, onda dövlətimiz də irəli gedər, millətimiz də bizdən razı qalar. Xalqımız çox yaxşı xalqdır. Xalqımız o xalqdır ki, İkinci Dünya müharibəsindən sonra adi, ən balaca bir çörəyə, suya qane olurdu. Çünki bilirdi ki, varlı da, kasıb da eyni cür dolanır. Ancaq indi olmasın ki, biz özümüz üçün şərait yaradaq, düzəldək, amma camaatımız çətinlik içərisində yaşasın. Ona görə də bu məsələni qaldırmaqda özümü haqlı hesab edirəm.

Bundan başqa, istəyirəm öz regionumla, yəni Ağsu ilə bağlı da məsələləri qoyam. Misal üçün, böyük yaşayış məntəqələri var. Ağsunun Gəgəli kəndinin 5 minə qədər əhalisi var. Padar kəndi, Ərəbuşağı kəndi var. İllərlə məsələ qalır, bunların yolları çəkilmir. Halbuki bir neçə kilometrdir. Bu yollar niyə çəkilmir? Bu qədər camaat narazı qalır. Məktəblər, 9 ildir mən seçilmişəm, 9 ildə hər dəfə deyirəm Daşdəmirbəyli, İlxıçı, 2 nömrəli və sair, adlarını çəkmək istəmirəm, hamısında məktəblər təmirsizdir. Belə şey olmaz axı. Bunları təmir etmək, vəsait tapmaq lazımdır, nə bilim, dövlətdən başqa xeyirxah insanlarımızı cəlb etmək lazımdır ki, müəyyən işlər görsünlər. Su problemləri olduqca çətindir, bütün regionlarda var, bizdə də var. O cümlədən bunu demək istərdim. Bir sözlə, bütün bunlara baxmayaraq, hesab edirəm ki, inşallah, büdcəni qəbul edəcəyik.

Ümumiyyətlə, sonuncu bir məsələni də deyim, əsas o

məsələnin üstündə duracaqdım. Kim istəməz ki, innovasiya ilə, elmin inkişafı ilə, texnologiyanın inkişafı ilə ölkə inkişaf etsin. Hər kəs istəyər. Etmədik də, etmədik. Zəhmət çəkin onda, 50 min budkanı ləğv etdik, 50 min ailə ac qaldı. Taksiləri indi ləğv edirik, 50 min taksi ailəsi ac qalır. Xalq Xəzər dənizində 10 min qayıqla balıq tuturdu, dedik yox, ancaq iri gəmilər olacaq, qayıqlar olmaz. Millət balıqsız qaldı, kürüsüz qaldı. Xahiş edirəm, indi bu camaata, əksinə, imkan yaradaq, üstünə mütərəqqi vergi qoyaq, qoy bunları etsin, dükan, mağazalar açsın, getsin, restoran olmasa da, balaca yeməkxana açsın, düzəltsin. Bunlara imkan verilsin ki, xırda təsərrüfatla məşğul olsunlar, həm öz ailələrini saxlasınlar, həm də büdcəyə ödəniş etsinlər, dövlətimizdən də çox razı qalsınlar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Mən ancaq düşünürdüm ki, Siz siyasi partiyanın rəhbəri kimi, büdcə haqqında daha dəyərli sözlər deyəsiniz. Xankəndinin büdcəsi haqqında danışasınız, tək belə yox. Əminə Ağazadə. Buyurun.

**Ə.Ağazadə**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Həmkarlarımızın çıxışlarına şərh vermək mənim fikrimdə deyildi. Amma mən öz adımdan, parlamentdə qazandığım təcrübəyə istinad edərək onu deyə bilərəm ki, bugünkü gün, – yəni bu bizim cəmiyyətimiz üçün də tam aydındır, – deputatdan çox xalq arasında olan bir məmur biz görmürük. Yəni cənab Prezidentin 10 mart tarixində bizim VI çağırışın deputatları qarşısında çıxışındakı tövsiyələri rəhbər tutaraq, xalqın arasında mütəmadi görüşlər keçiririk və hər zaman da biz bunu edəcəyik.

Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri. 2024-cü ilin dövlət büdcəsi regionda yaranan yeni reallıqlar nəzərə alınmaqla, güclü milli iqtisadi resurslara söykənərək Azər-

baycanın gələcək sosial-iqtisadi inkişafı üçün zəmin yaradır. Növbəti ilin dövlət büdcəsində ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, azad edilmiş ərazilərimizə Böyük Qayıdışa dair dövlət proqramlarında müəyyən edilmiş mühüm tədbirlərin icrası, eyni zamanda, əhalinin sosial rifah halının gücləndirilməsi kimi mühüm vəzifələr durur və bu məsələlərin həlli istiqamətində Nazirlər Kabinetinə uğurlar diləyirəm.

Fürsətdən istifadə edərək, təmsil etdiyim Kürdəmir rayonu üzrə həlli vacib olan sosial-iqtisadi məsələləri hökumət üzvlərinin diqqətinə çatdırmaq istərdim. İlk növbədə təhsillə bağlı. Son illərdə Kürdəmir rayonunda bir neçə müasir məktəb binası tikilmiş, məktəblərdə tədris və təlim səviyyəsi xeyli yüksəlmişdir. Ancaq təəssüflər olsun ki, rayon ərazisində əsaslı təmirə və tikintisinə zəruri ehtiyac duyulan qəzalı və istismara az yararlı məktəb binaları hələ də mövcuddur. Onlardan rayonun Sovla, Pirili, Çöhranlı tam orta məktəblərinin tikintisinə ciddi ehtiyac vardır. "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın Tədbirlər Planına uyğun olaraq, Kürdəmir rayonunun Sovla kəndində yeni məktəb binasının tikintisi nəzərdə tutulmuşdur. Lakin indiyədək bu istiqamətdə hər hansı bir iş aparılmamışdır. Kənd məktəbinin binasının qəzalı vəziyyətdə olmasını nəzərə alaraq, tikinti işlərinin daha tez müddətdə başlanmasına ciddi ehtiyac olduğunu diqqətə çatdırmaq istərdim. Həmçinin Kürdəmir rayon Uşaq İncəsənət Məktəbinin mövcud binası 1953-cü ildə inşa edilmişdir. Məktəb binası hazırda qəzalı vəziyyətdədir. Qeyd etməliyəm ki, 2021-ci ilin dövlət büdcəsində binanın təmiri nəzərdə tutulsa da, əsaslı və ya cari təmir işlərinin aparılması heç də faydalı olmamışdır. Belə ki, bina tam

yararsız vəziyyətdədir və mütəxəssislərin fikrincə, dövlət büdcəsinə qənaət məqsədi ilə məktəb üçün yeni binanın tikilməsi daha məqsədəmüvafiq olardı.

Digər məsələ, rayon üçün ayrılmış pul vəsaitidir. “Kürdəmir şəhərində 8 nömrəli körpələr evi-uşaq bağçası üçün yeni binanın tikintisi və şəhər infrastrukturunun yeniləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 fevral tarixli Sərəncamına əsasən Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Kürdəmir rayon İcra Hakimiyyətinə şəhərin 8 küçəsində əsaslı yenidənqurma işlərinin aparılması üçün 1,5 milyon manat, şəhərin 8 nömrəli körpələr evi-uşaq bağçasının 100 yerlik yeni binasının tikintisi üçün də 1,5 milyon manat vəsait ayrılmışdır. Lakin həmin dövrdə bu tədbirlərin icrası maliyyə ilinin sonuna tam təmin edilmədiyindən “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən həmin vəsait vahid xəzinə hesabına köçürülmüşdür. Qeyd edim ki, rayon mərkəzində aparılacaq işlərlə əlaqədar olaraq bütün layihə sənədləri işlənilmiş, satınalma müqavilələri bağlanmış və bu məqsədlə dövlət büdcə vəsaitinin müəyyən hissəsi də xərclənmişdir. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 fevral tarixli 1812 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitin qalan hissəsinin 2024-cü ilin xərclərinə aid edilməsini xahiş edirəm.

Sonuncu məsələ, rayonumuzun ən ağrılı məsələlərindən, problemlərindən biridir. Bu, Kürdəmir şəhərinin kanalizasiyası ilə bağlıdır. Deməli, Kürdəmir şəhərinin mövcud kanalizasiya xətləri 1972–1975-ci illərdə beton borularla çəkilmişdir. Hazırda həmin beton borular aşınaraq istismara tam yararsız hala düşmüşdür. İçməli su xətləri-

nin çəkilişi ölkə Prezidentinin sərəncamı ilə 2011-ci ildən tam həyata keçirilsə də, kanalizasiya xətlərinin çəkilişi 2014-cü ildən yarımçıq qalmışdır. Layihə üzrə nəzərdə tutulan müəyyən işlər də görülmüşdür. Lakin qeyd etdiyim kimi, yarımçıq qalmışdır. Bu yarımçıq işlərin tamamlanmasının, rayon əhalisinin rifah halının yüksəldilməsində mühüm addım ola biləcək layihənin yekunlaşdırılmasının vacibliyini hökumət üzvlərinin diqqətinə çatdırmağı özümə borc bilirəm. Dövlət büdcəsi haqqında qanun layihəsini dəstəkləyirəm və hökumət üzvlərinə uğurlar arzulayıram. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Jalə Əliyeva. Buyurun.

**J.Əliyeva**. Təşəkkür edirəm. Ötən həftə ölkə və xalq olaraq qeyd etdiyimiz əzəmətli Zəfər Günü Azərbaycan tarixinin ən parlaq səhifəsidir. Biz eyni zamanda, Bayraq Gününü, Konstitusiya Gününü qeyd etdik. Azərbaycanlı olmağın sevincini bir daha yaşadıq. Bu günlərin hər birinin arxasında Azərbaycan dövlətinin sarsılmazlığı dayanır.

Bu parlaq günlərin əsasını qoyan Ulu Öndər Heydər Əliyevi doğumunun 100-cü ildönümündə bir daha rəhmətlə anır, ata vəsiyyətinə əməl edən, uğurlarımızın, zəfərlərimizin müəllifi olan müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyev başda olmaqla hər birinizi təbrik edir, şəhidlərimizin ruhu qarşısında ehtiramla baş əyirik.

Müzakirə etməkdə olduğumuz 2024-cü ilin dövlət büdcəsi layihəsi də böyük uğurlarımızın, zəfərlərimizin davamı kimi qiymətləndirilməlidir. Bəli, biz dörd ildir ki, qalib Azərbaycanın zəfər büdcəsini müzakirə edirik. Builki büdcə zərfini isə ötən 3 ildən fərqləndirən cəhət onun bütöv Azərbaycanın büdcəsi – Xankəndili, Xocalılı zəfər büdcəsi olmasıdır.

Mən bu layihəyə birmənalı olaraq səs verəcəyəm və

eyni zamanda, bəzi mülahizə və təkliflərimi hökumət üzvlərinin diqqətinə çatdırmaq istəyirəm.

İlk növbədə, həyat qaynağı olan su haqqında danışmaq istəyirəm. Ümumiyyətlə, bu problem, demək olar ki, bütün deputatların, xüsusi ilə Aran zonalarını təmsil edən deputatların, həmçinin mənim də çıxışlarımda mütəmadi yer alır. Əkin sahələrinin vaxtında suvarılması məhsuldarlığın artması və kəndlinin həyat şəraitinin yaxşılaşması deməkdir. Əkinini suvara bilməyən kəndli ailəsini dolandırmaq üçün iş yeri axtarmağa başlayır. Kənd yerlərində işlə təminin nə qədər çətin olduğunu hər birimiz bilirik.

Ona görə də su probleminin müəyyən ölçüdə həll edilməsi özlüyündə bir çox problemləri həll etmiş olardı. Ölkədə həm təsərrüfat təyinatlı, həm də içməli su qıtlığının aradan qaldırılması üçün böyük layihələrin hazırlandığı məlumumuzdur. Lakin həmin layihələr reallaşana qədər büdcədən bu sahəyə, xüsusi ilə Aran zonalarına cari maliyyə vəsaitinin ayrılması vacibdir.

Söhbət işsizlikdən düşmüşkən, bir məsələyə də toxunmaq istəyirəm. Rayonlarda iş yerlərinin açılmasına ehtiyac var. Hər bir rayonun iqtisadi, coğrafi, sosial özəllikləri, kənd təsərrüfatının istehsal sahələrini nəzərə alaraq, həmin rayona xas xüsusi iqtisadi proqramların hazırlanması, profil müəssisələrin açılması vacibdir. Bu, həm də regionların daha mükəmməl və sürətli inkişafına səbəb ola bilər.

Digər tərəfdən, rayonlarda dövlət qurumlarının regionlaşdırılması səbəbi ilə artıq yerli səviyyədə, icra hakimiyyətləri və yerli orqanlar tərəfindən iş təmini imkanları sıfıra enib. Bu da müəyyən pərakəndəlik və çətinliklər yaradır. İş axtaran şəxs yaşadığı rayonla regionlaşmış müəssisənin rayondan 100 kilometrlərcə uzaq məsafədə yerləşən baş idarəsi arasında, belə demək mümkündürsə, yol

ölçür və bu gediş-gəlişlər çox vaxt nəticəsiz qalır.

Toxunacağım digər əhəmiyyətli məsələ təhsillə, konkret olaraq yeni məktəblərin tikintisi ilə bağlıdır. Məlumdur ki, ölkəmizdə çox yüksək standartlı məktəblər tikilir, təmir edilir. Lakin öz növbəsini gözləyən məktəblərimiz də çoxdur. Təqribi, hər rayonumuzda hər il orta hesabla bir məktəb inşa və ya təmir edilir. Tikiləcək məktəblərin sayının artırılması və təmir-tikinti işlərinin sürətləndirilməsi, ümumilikdə, təhsilin səviyyəsinə, sağlam təməlli gələcəyin təmininə də böyük ölçüdə təsir göstərən bir məsələdir. Bu amilin də nəzərə alınmasını xahiş edirik.

Bir neçə kəlmə ilə gənclər və idman sahəsi ilə bağlı fikirlərimi bildirmək istəyirəm. Yeniyetmə və gənclərin idman hazırlığının gücləndirilməsi ölkəmizdə prioritet bir sahədir. Bu sahəyə dövlət böyük diqqət ayırır. Lakin bununla belə, hələ də rayonlarda təmirsiz vəziyyətdə olan idman meydançaları var. Məsələn, mənim deputatı olduğum Zərdab rayonunda mərkəzi idman meydançası son dəfə bundan 18 il əvvəl, bizim təşəbbüsümüz və iştirakımızla cari təmir edilmişdir. Uzun illərdən bəri həmin idman meydançasının əsaslı təmiri maliyyə çatışmazlığı səbəbi ilə növbə gözləyir. Ötən il rayonda daxili imkanlarla mini futbol meydançası inşa edildi. Lakin bu dəfə də həmin meydançanın yaşıl örtüyünün əldə edilməsinə köməklik göstərmələri üçün Gənclər və İdman Nazirliyinə etdiyimiz müraciət yenə maliyyə vəsaitinin çatışmaması ucbatından müsbət həllini tapmadı. Ona görə də bu kimi hətta ən elementar məsələlərin belə həllində çətinliklərin yaranmaması üçün bu sahəyə ünvanlı vəsaitlərin ayrılması məqsədəuyğun olardı. Builki büdcədən bu sahədə təmir-bərpa işlərinə 11 milyon vəsait ayrılması nəzərdə tutulub. Təmir və bərpa ediləcək idman kompleksləri və meydançalarının

siyahısına deputatı olduğum Zərdab rayonunda, bir az əvvəl qeyd etdiyim kimi, 18 ildir növbəsini gözləyən şəhər mərkəzi idman meydançasının da daxil edilməsini xahiş edirik.

Bir neçə kəlmə ilə mədəniyyət sahəsi ilə bağlı fikirlərimi bildirmək istəyirəm. Mədəniyyət naziri hörmətli Adil Kərimli ilə də bu günlərdə çox məhsuldar görüşümüzdən aldığım yüksək təəssüratla demək istəyirəm ki, mədəniyyət öz-özlüyündə bir strategiyadır və bu sahənin hər gün dəyişən dünya tələbləri səviyyəsində inkişaf etdirilməsi, dünyada tanıdılması, daha effektli layihələrin hazırlanması üçün daha çox vəsaitə ehtiyac var. O cümlədən kino sənayesinə, bu sahəyə ildə, sadəcə, 11 milyon vəsait ayırmaqla dünya film yaradıcılığı səviyyəsinə çatdırmaq olmaz. Effektli sənət əsəri, uğurlu yaradıcılıq işi istəyiriksə, gerçəklərimizi sənətin dili ilə dünya arenasına çıxarmaq istəyiriksə, istedadların üzə çıxarılması, peşəkarların hazırlanması, bu sahədə təhsilin dünya standartlarına yüksəldilməsi və ümumiyyətlə, Azərbaycan mədəniyyətinin bütün spektrlərinin dünyanın baxış bucağından daha aydın görünə bilməsi üçün bu sahəyə, sadəcə, sənət baxımından deyil, həm də milli strategiya baxımından yanaşmaq vacibdir.

Sonda, bir daha bu mükəmməl layihənin hazırlanmasında əməyi keçən bütün hökumət üzvlərinə təşəkkür edir və layihəni dəstəklədiyimi bildirirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Razi Nurullayev. Buyurun.

**R.Nurullayev**. Hörmətli xanım sədr, hörmətli deputatlar, hökumət üzvləri və media nümayəndələri! Fərqli fikir demək, tənqid etmək, bəzən çılpaq həqiqəti demək çətindir. Çünki dövlətçiliyi nəzərə almalı olursan, rəhbərliyi pis vəziyyətdə qoymamalısan və həm də qərəzli görünməməlisən. Çalışıram ki, bu incə məqamları nəzər-

dən qaçırmayım. Həm parlament rəhbərliyinə, həm də Baş nazir Əli müəllimə dərin hörmətim var. Hökumət üzvlərinə zəhmətləri üçün də çox böyük təşəkkür edirəm. Doğrudan da, hər birinizə hörmətim sonsuzdur. Deyəcəklərim onun üçündür ki, sizlərdən, sadəcə, kömək gözləyirəm, dövlətimi sevirəm və istəyirəm, zəfər çalan ordu, xalq ləyaqətli yaşasın. Xalqı, ordunu qələbəyə aparan Prezidentin başı daim uca olsun. Yeri gəlmişkən, mən cənab Prezidentə bu Zəfərə görə, Azərbaycan üçün etdiklərinə görə də dərin təşəkkürümü bildirirəm.

Hörmətli Sahibə xanım, bir sıra dövlət qurumlarında müavinlik institutu işləmir. Müavinlərin konkret vəzifələri var və qanunla da, daxili nizamnamə ilə də tənzimlənir. Niyə işlək deyil? Əgər müavin də gedib hər xırda məsələni qurumun birinci şəxsi ilə razılaşdırırsa, o zaman tərəzi pozulur. Siyasi və yüklü məsələləri etməsi vacibdir və bunu qəbul edirik. Elə qurumlar var ki, orada müavinlik institutu formal xarakter daşıyır. Rəhbər səlahiyyətləri və sahələri köməkçiləri və özünə yaxın adamlar arasında qeyri-rəsmi olaraq bölür. Bu yolverilməzdir. Adlar çəksəm, bəlkə də burada aləm bir-birinə dəyər. Ona görə etmirəm, amma mən ayrılıqda bölüşə bilərəm. Amma deyim ki, az qala 60 faiz dövlət qurumu bu mexanizmlə işləyir. Biz, şükür Allaha, güclü dövlət qurmuşuq. Dövlətin mexanizmi olmalıdır və gərək saat kimi işləsin. Dövlət qurumu MMC deyil, adında "dövlət" sözü var və bir çox dövlət qurumlarımız, şükür Allaha ki, saat mexanizmi kimi də işləyir. Elə biri də parlament və bir çox dövlət qurumlarına mən təşəkkür edirəm. Doğrudan da, gözəl işləyirlər.

İkincisi, vəzifəli şəxslər qurumun adındakı "dövlət" sözünü nəzarət və monitorinq kimi başa düşürlər. İnanın

ki, hörmətli Sahibə xanım, bəzi dövlət idarələrinə imkan verilsə, hamısı istintaq idarəsi yaradar. İmkan verilsə, bir qurum içində onlarca nəzarət və monitorinq mexanizmi yaradarlar ki, ancaq vətəndaşı, sahibkarı tutub gətirib məhşər ayağına çəksinlər. Vallah, imkan verilsə, nəzarətə də nəzarət yaradarlar. Bu qədər çək-çevir, nəzarət, monitorinq, sorğu-sual, süründürməçilik, qanuna xor baxmaq, öz mənafeyini dövlətin və xalqın mənafeyindən üstün tutmaq, qoçuluq meyilləri, özbaşınalıq kimi hallar xalqı narazı salır. Belə olmaz axı. Düşünmürlər ki, dövlət orqanı yalnız nəzarət və nəzarətə nəzarət deyil, həm də kömək etməlidir, dəstək olmalıdır, əlindən tutmalı, lazımdırsa, başına tumar da çəkməlidir. Axı, heç kim məcburi vəzifəyə qoyulmur. Hamı özü can atır, tanış tapır, xahiş etdirir, yalvarır, bəlkə də bəziləri gedib mollaya dua da yazdırır, Quran açdırır ki, vəzifəyə getsin. Bu, hər kəsin könüllü seçimidir. Eyni zamanda, biz deputatlar da könüllü olaraq bir seçim edib burada otururuq. Getdin, o zaman xalqa xidmət elə. Yaxşı, özünə də xidmət et, amma vətəndaşları da incitmə.

Xanım sədr, mən bir neçə məsələni də demək istəyirəm. Bağça və məktəb tikintisi üçün qaydaların dəyişilməsini və istisna halların tətbiq edilməsini xahiş edirəm. Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 saylı qərarı olub. Bu qərara görə standartlar müəyyənləşdirilib. Artıq ancaq belə çıxır ki, daha böyük pullarla məktəblər və bağçalar tikilə bilər. Sağ olsun Heydər Əliyev Fondu, dövlət, yəni bağçalar, məktəblər tikilir, narazılıq yoxdur. Amma, ümumilikdə, neçə il lazımdır ki, biz bu təminatı hər bir kənddə və qəsəbədə edə bilək? Bunun üçün də, düşünürəm, müəyyən istisna halları olmalıdır ki, ianələr, qrantlar, başqa bir dövlətin köməyi vasitəsi ilə müəyyən

bağçalar və məktəblər də tikilsin.

Mən bir dəfə demişdim, adi mənim deputatı seçildiyim və doğulub böyüdüyüm Xəlifəli kəndində uşaq bağçasını tikdirə bilmirik. Çünki Elm və Təhsil Nazirliyi haqlı olaraq Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 saylı qərarına istinad edir. Bunun dəyişdirilməsini və nəzərə alınmasını xahiş edərdim.

Bir neçə məsələni də deyim və yekunlaşdırım. İmişlinin 5 kəndi qazlaşdırılır. Mən buna görə hökumətə, "Azəriqaz"a təşəkkür edirəm. İndi 5 kəndi qalıb, onun üçün də Kür üzərindən estakada tikilməlidir ki, bu da xərc tələb edir. Mən hökumətin bunu nəzərə almasını istərdim.

Keçən dəfə dediyim kimi, bir məsələ də, poliklinika və vərəm dispanseri çox ağır vəziyyətdədir. Poliklinika tikilməli, vərəm dispanseri isə təmir olunmalıdır. İmişli böyük bir şəhərə çevrilib və doğrudan da, buna çox böyük ehtiyac yaranıb.

Bir də məişət tullantılarının emalı zavodu ilə bağlı məsələ qaldırmaq istəyirəm. Hər bir rayonda bunu tikmək mümkün deyil. Amma Aran zonasında – İmişli, Beyləqan, Biləsuvar, Kürdəmir, Saatlı və Sabirabadda bir yerdə məişət tullantıları zavodunun tikilməsi ekoloji fəlakətin qarşısının alınmasında bir rol ala bilərdi.

Sonuncu məsələni isə sona saxladım, çünki vacib məsələdir. Xanım sədr, icazənizlə, bunu demək istəyirəm. Reklam haqqında, hörmətli Tahir müəllim də bu barədə dedi. Mən Dövlət Reklam Agentliyinin yarıtmaz və özbaşına bir qurum olduğunu bildirmək istəyirəm. Onlar iş adamlarını, vətəndaşları bezdirir, ziyana salır və kömək etmir. Düşünür ki, işi ancaq qadağa və süründürməçilikdir. Səhifəsində də yazılıb ki, "innovasiya axtarır, müraciət edənlərə qucaq açır, startaplar axtarır". Xeyr, qucaq açmır.

Onlar nəyi var, incidir və süründürür. Reklam haqqında olan boşluqdan öz çıxarları üçün istifadə edirlər. Dövlət Reklam Agentliyinin rəhbəri dövlət qurumunu MMC kimi idarə edir və mən buna əminəm və faktları da təqdim edəcəyəm. Orada təkbaşına idarəçilik sistemi yaradıb. Startap təşəbbüsləri, innovativ reklam ideyalarını boğur, çünki şəxsi maraqları var. Əməlli-başlı monopoliya yaradıb. Reklam bazarına baxın, biabırçılıqdır. Baxın, bütün cəhətlərdən bərbad işləyir. Belə bir şəxsin dövlət qurumunun başında dayanması narazılığın artmasına səbəb olur.

Mən partiya sədri, millət vəkili kimi, Dövlət Reklam Agentliyinin rəhbərliyi barədə ölçü götürülməsini istəyirəm. Ölkənin reklam bazarını özünə yaxın adamlar arasında bölüb və bunun dayandırılmasını istəyirəm. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun. Razi müəllim, Siz çıxışınızı onunla başladınız ki, rəhbərliyi pis vəziyyətdə qoymaq istəmirəm. Hansı rəhbərliyi? Bizi, sədarəti? İndiyədək kimsə, bir adam Sizə bir söz deyib ki, tənqid etməyin? Tənqiddən tənqidə fərq var. Tənqid üçün tənqid, o, tənqid deyil. Bu, birincisi. İkincisi də, heç narahat olmayın, Siz istəsəniz də rəhbərliyi pis vəziyyətdə qoya bilməzsiniz.

Siz burada büdcə haqqında bir söz dediniz? Bu boyda büdcə haqqında Siz niyə deməyə bir söz tapmadınız? Hörmətli Tahir müəllimə dediyim kimi, Xankəndi büdcəsi haqqında niyə demədiniz? Niyə bir söz tapıb deyə bilmədiniz? Sonra da deyirsiniz ki, xanım sədr müdaxilə edir. Müdaxilə etməyim, bəs nə edim? Biri deyir ki, biz camaatdan qaçırıq. Nə zaman biz camaatdan qaçırıq? Altıncı çağırışda deputatlar camaatla, xalqla bir yerdə olan qədər, bundan əvvəl nə vaxt olub? Niyə məni bunu deməyə məcbur edirsiniz?

Sizə isə, hörmətli Razi müəllim, mən tövsiyə edirəm, Siz çıxışlarınızın stilistikasına baxasınız. Qoçuluq və sair. Siz nazirlikləri, dövlət qurumlarını nədə ittiham edirsiniz? Qoçuluqda? Danışanda bir fikirləşin.

Ziyafət müəllim, sözünüz var, sualınız var. Buyurun.

**Z.Əsgərov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri, hörmətli həmkarlar. Hörmətli xanım sədr, mənim bir replikam var, icazənizlə, mən çıxış etməyəcəyəm. Sadəcə, hörmətli həmkarlarımın nəzərinə bir məsələni çatdırmaq istəyirəm, əlbəttə, hamıya aid deyil bu.

Hörmətli həmkarlar, bir şeyi nəzərə alaq ki, biz hökumətin hesabatını dinləmirik. Biz dövlət büdcəsini müzakirə edirik. Bir.

Bir də dövlət büdcəsini birinci oxunuşda müzakirə edirik. Amma mən baxıram, bir çox deputat həmkarlarımız artıq ikinci, üçüncü oxunuşun tələblərindən danışırlar. Halbuki biz birinci oxunuşda dövlət büdcəsi haqqında qanun layihəsinin konsepsiyasını və fəlsəfəsini müzakirə etməliyik. Mənim fikrimcə, buna nələr daxildir?

1. Dövlət büdcəsi haqqında qanun layihəsi "Büdcə sistemi haqqında" Qanunun tələblərinə uyğun hazırlanıbmı? Hesab edirəm ki, uyğun hazırlanıb.

2. Dövlət büdcəsinin gəlir və xərcləri, büdcə layihəsi beynəlxalq konyunktur və çağırışlar nəzərə alınaraqmı hazırlanıb? Bəli, hesab edirəm ki, nəzərə alınaraq hazırlanıb.

Burada deputatların əksəriyyəti sudur, yoldur, məktəbdir, xəstəxanadır, bunlardan danışırlar. Bilirsiniz, bunlardan danışmaq olar, amma bunun üçün bizdə dövlətin, möhtərəm Prezidentin sərəncamı ilə təsdiq olunmuş sosial-iqtisadi inkişaf proqramları var. Bu məsələlər hamısı orada nəzərdə tutulub. Gəlin, birinci oxunuşun tələblərinə

əməl edək və bu qanun layihəsinin fəlsəfəsini və konsepsiyasını müzakirə edək. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən 2 nəfərə söz verəcəyəm. Mən baxıram, siyasi partiyaların rəhbərlərindən biri də yazılıb, Sabir Rüstəmxanlı. Sabir müəllimə söz verəcəyəm. Mən bizim ağsaqqallarımızdan olan Eldar İbrahimova söz verəcəyəm. Sabir müəllim, mən birinci sözü Sizə verirəm. Buyurun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Ondan sonra səsə qoyacağam, bəli.

**S.Rüstəmxanlı.** Hörmətli Sahibə xanım, hörmətli hökumət üzvləri və millət vəkilləri. Müzakirəyə təqdim olunan büdcə Azərbaycan üçün son dərəcə əlamətdar bir dövrdə müzakirə olunur. Biz torpaqlarımızın işğaldan azad olunmasının xoşbəxtliyini yaşayırıq və bu, ölkəyə yeni bir ruh, yeni bir hava gətirib. Bu xoş ovqatla yanaşanda, şübhəsiz, insan bir sıra neqativ hallara göz yumur. Belə də olmalıdır. Bu boyda işin qabağında xırda qüsurlar heç müzakirə olunmaz. Biz istəyirik ki, bu Zəfər havası, əslində, ölkədə uzun müddət yaşasın. Məncə, bu, büdcədə, əsasən, öz əksini tapıb. Hökumət 2024–2027-ci illər büdcəsi üçün aktual və son dərəcə mühüm çağırışları seçib, bunları sistemləşdirib. Bu, ölkənin müdafiə qabiliyyətinin güclənməsidir, 2030-cu illərə qədər iqtisadi inkişafla bağlı milli prioritetlərin müəyyənləşdirilməsidir, Qarabağ və Şərqi Zəngəzurun inkişafıdır, regional və qlobal geosiyasi gərginliyin nəzərə alınmasıdır, inflyasiyanın qarşısının alınmasıdır və sair. Bunlar çox mühüm sahələrdir və büdcədə bunlar nəzərə alınır. Bu məni sevindirir.

Lakin böyük Zəfər havası və büdcədəki bu geniş baxış yalnız o zaman razılıq doğurar ki, büdcə böyük ədalət mühitində, qanunvericiliyin, övladları bu qələbə uğrunda

savaşmış insanların haqlarının və hüquqlarının qorunduğu, onlara hörmət şəraitində həyata keçirilsin. Məncə, biz ilk növbədə bu barədə düşünməliyik.

Razılıqla qeyd etmək istəyirəm ki, mənim seçildiyim Neftçala rayonunda əvvəlki illərdə qaldırdığımız bəzi məsələlər, problemlər öz həllini tapıb. Kürün şoranlaşmasının qarşısı alınıb. Şəhərə və bir neçə kəndə içməli su verilib. Əsas kəndlərin yolları çəkilib və çəkilməkdə davam edir. Şəhərin kanalizasiya şəbəkəsi tikilir və mənə elə gəlir, gələn ilin büdcəsində nəzərə alınmalıdır, bura vəsait ayrılmalıdır ki, bu iş bitsin. Mən bütün bu işlərə görə Baş nazirə, bu işlərə birbaşa nəzarət edən, bu işlərlə məşğul olan Şahin Mustafayevə və əlaqədar qurumların başçılarına öz minnətdarlığımı bildirmək istəyirəm.

Lakin Neftçala əhalisinin əsas ehtiyacı hələ aradan qalxmayıb. Bu da yeni iş sahələrinə olan ehtiyacdır. Bəzən simvolik xarakter daşıyan yardımlarla və müvəqqəti iş yerləri ilə əhalinin ehtiyacını ödəmək çətindir. İnsanlar sosial yardımla yanaşı, iş istəyirlər, normal iş. Ələbaxımlıq sağlam, güclü insanları sındırır. Onlara öz peşələrinə və fiziki, intellektual qabiliyyətlərinə uyğun iş lazımdır. Bütün rayonlarımız üçün bu problem var.

Neftçalanın həll olunmamış problemlərindən biri də təxminən 15-ə yaxın kənddə hələ də qazın olmamasıdır. Qaz çıxarılan bir rayonda bu paradoks adama ağır gəlir.

Müzakirə zamanı həmkarlarım hamımızın narahat olduğu bir sıra məsələlərə toxundular. Mən təkrar etmək istəmirəm. 2024-cü ilin büdcəsi müdafiə gücümüzün gücləndirilməsi və Böyük Qayıdış büdcəsidir. Mən istərdim, əlbəttə, bu il bütün dövlət idarələri, bizim vəzifə sahibləri, hamısı Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanın qəhrəmanlıq ruhu ilə, çalışqanlığı ilə bir da-

ha sevinsinlər və ən azı, onu təkrar etsinlər.

Bizim böyük bir qayıdış proqramı var. Amma mən istərdim ki, nə qədər bunu demək çətin olsa da, ikinci bir qayıdış proqramı da olsun. O da Azərbaycanın ucqar rayonlarından iş axtara-axtara ehtiyac, çörək dalınca Bakıya, şəhərlərə üz tutmuş insanların yenidən öz yurdlarına qayıtmağına şərait yaransın. Bu da böyük bir qayıdışdır və buna çox böyük ehtiyac var. İnsanlar, hamı nə qədər gəlib Bakıya yığışacaq? Bu proqramı, məncə, dövlət düşünməlidir, nəzərə almalıdır. Ucqar rayonlarımızda həyat olub, yaşayıblar, işləyiblər, qazanıblar. Niyə bizim onları bərpa etmək imkanımız yoxdur?

Burada Azərbaycanda doğulan uşaqların azlığından söhbət getdi. Neçə illərdir Azərbaycanda qəribə cəmiyyətlər, qurumlar fəaliyyət göstərir. Məsələn, ailə nizamlanması, uşaq pulunun kəsilməsi – bütün bunlar, mənə elə gəlir ki, ayrıca bir proqramdır. Elə bu proqram, xüsusi ilə xarici ölkələrdən, kimliyi bəlli olmayan, mənbəyi bəlli olmayan donor təşkilatlarından alınan pullarla Azərbaycanda bu təbliğatları aparanlar yəqin elə ona xidmət edirlər ki, bizim analarımız bir uşaq doğsunlar və onu da hansı yolla doğsunlar, ona süd də verməsinlər və gələcək nəsil necə olacaq, bunu da düşünmək çox çətindir. Mən bu məsələnin təfərrüatına girmək istəmirəm. Amma bu, məncə, çox ciddi problemdir.

Bahalaşma və qiymətlərin artırılması şəraitində kommunal xərclərə qoyulan limitlər çox ciddi problemdir. Bu elə oyuncaq bir işdir. Adam çaşıb qalır. Bu, nə deməkdir? Bunu, qiyməti birdəfəlik müəyyənləşdirirsən. Qiymət budur, ona uyğun da hər dəfə görək ayın axırında ailənin, deyək, nə qədər xərci çıxır.

Şuşada keçirilən mədəniyyət günləri Azərbaycanın

təbliğatı, Azərbaycan mədəniyyətinin tanıdılması, tariximizin tanıdılması üçün çox böyük bir iş oldu. Mən hesab edirəm, bu davam etdirilir və etdiriləcək. Amma bununla yanaşı, Türk Dövlətləri Təşkilatının başçıları bir araya gələndə bu əsrin türk əsri olacağını bəyan ediblər. Türk əsri olmaq üçün Azərbaycan konkret olaraq nə iş görməlidir və bu büdcədə biz nəyi nəzərdə tutmuşuq, mən istərdim, bu, görünsün. Yəni dövlət başçıları yığılıb danışırlar, amma əgər o dövlətlərin aşağı qurumları ona uyğun proqramlar hazırlamırsa, bunun bir xeyri olmaz.

Nəhayət, son olaraq mən bir məsələni də deyim. Bəlkə də bu müzakirələrin fonunda bir az qəribə səslənir. Amma bu Bakının coğrafi mühiti, yüklənməsi tələb edir ki, bir sıra müəssisələr, universitetlər, bəzi nazirliklər Xankəndiyə köçürülsün, bizim şəhərimizdir, Ağdama köçürülsün. Bəlkə burada deyildi, mən eşitmədim. Biz dəniz sahilində yerləşsək də, dəniz adaları üzümüzə bağlıdır. Neçə illərdir baxırıq, gözümüzün qabağında qaranlıq bir tarixə bürünmüş Nargin adası var. Niyə biz onu abadlaşdırıb camaatın üzünə açmırıq ki, Bakı buxtasının neftli havasından bir az dəniz havasına çıxsınlar, nəfəsləri genişlənsin.

Mən büdcəmizi, yəni ildən-ilə artan bu büdcəni uğurlu büdcə hesab edirəm və xeyirli, uğurlu olsun deyirəm.

**Sədrlik edən.** Sağ olun. Sonuncu çıxış. Eldar İbrahimov. Eldar müəllim, buyurun.

**E.İbrahimov.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli Baş nazirin müavinləri, hökumət üzvləri və hörmətli deputat həmkarlarım. Qanunvericiliyə uyğun olaraq, hər ilin noyabr ayında Milli Məclisdə növbəti ilin dövlət büdcəsinin geniş müzakirəsi aparılır. Əvvəlki illərdən fərqli olaraq, bu il biz hamımız bu müzakirələrə böyük fərəh hissi ilə qoşuluruq. Məhz bu il Azərbaycanın şanlı

ordusu müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müdrik rəhbərliyi sayəsində 30 ildən çox erməni işğalında olan 20 faiz torpaqlarımızın hamısını 44 günlük Vətən müharibəsində və bu ilin sentyabr ayında cəmi 24 saat ərzində azad edərək ölkəmizin beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmişdir.

Bu qələbənin zirvəsində isə hörmətli Prezidentimizin Xankəndi şəhərində üçrəngli bayrağımızı ucaltması və möhtəşəm hərbi paradın keçirilməsi və bu gün artıq Xankəndiyə büdcədən ayrılan vəsait dayanır. Artıq Azərbaycan Respublikasının hər bir vətəndaşı böyük qürurla deyə bilər ki, mən azad, suveren və qalib ölkənin vətəndaşıyam. Buna görə də hər birimiz ilk növbədə respublikamızın Prezidenti cənab İlham Əliyevə və igid əsgər və zabitlərimizə minnətdarlığımızı bildirir, şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə can sağlığı diləyirik.

2024-cü ilin dövlət büdcəsinin xərclərinə diqqət yetirdikdə, xərclərin daha çox sosialyönümlü olmasının və ölkəmizin müdafiə qabiliyyətinin daha da möhkəmlənməsinə yönəldiyinin şahidi oluruq. Belə ki, dövlət büdcəsinin sosialyönlü xərcləri ümumi xərclərin 42,8 faizini təşkil etməklə cari illə müqayisədə 1 milyard 35 milyon manat və ya 7 faiz çoxdur. Bu da cənab Prezidentin dediyi kimi, ölkəmizdə aparılan siyasətin mərkəzində insan amilinin dayandığını bir daha sübut edir.

Digər ən vacib məsələ, ərazilərimizi işğaldan azad etsək də, Ermənistanda revanşist qüvvələrin baş qaldırması, müstəqillikdən sonra qazandığımız möhtəşəm uğurları gözü götürməyən bəzi bəd qüvvələrin əsassız iddiaları ölkəmizdə ordu quruculuğuna daim diqqət yetirməyi zəruri edir. Bu mənada müdafiə və milli təhlükəsizlik məsə-

lələrinə gələn il və sonrakı illərdə dövlət büdcəsindən daha çox vəsaitin ayrılması təqdirəlayiq haldır.

Müzakirə etdiyimiz qanun layihəsində diqqəti cəlb edən məqamlardan biri də işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işlərinin sürətləndirilməsi və həmin ərazilərə Böyük Qayıdışın təmin edilməsidir. Bu məqsədlə 2024-cü ilin dövlət büdcəsindən haqlı olaraq 4 milyard manat vəsaitin ayrılması nəzərdə tutulur. Bu vəsaitin bir hissəsi, şübhəsiz ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında torpaq sahələrinin minalardan təmizlənərək əkin dövriyyəsinə daxil edilməsinə sərf ediləcək və bu bölgə respublikamızın iqtisadiyyatına öz töhfəsini verəcəkdir.

Əsas məsələlərdən biri də ölkə əhalisinin ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Uzun illərdir ki, davamlı olaraq ərzaq təhlükəsizliyinin bazası olan kənd təsərrüfatının inkişafına dövlət büdcəsindən subsidiyalar ayrılır və müxtəlif güzəştlər həyata keçirilir. Yaxşı haldır ki, 2024-cü ilin dövlət büdcəsində bu sahəyə 1 milyard manatdan çox vəsaitin ayrılması nəzərdə tutulub.

Bununla yanaşı, bir vacib məsələni də hörmətli hökumət üzvlərinin nəzərinə çatdırmaq istəyirəm. Hesablamalar göstərir ki, respublikamızda milyonlarla manat dəyərində kənd təsərrüfatı məhsulları istehsal prosesindən başlayaraq, son istehlak prosesi də daxil olmaqla itkiyə gedir. Bunun qarşısını almaq üçün istehsal prosesində müasir texnika və texnologiyalardan istifadə etmək çox vacibdir. Düzdür, bu istiqamətdə ölkəmizdə ardıcıl olaraq müvafiq tədbirlər görülür. Lakin hazırda kiçik fermer təsərrüfatlarının üstünlük təşkil etməsi bu işin genişlənməsinə əngəl törətdiyindən, kənd təsərrüfatı kooperativlərinin yaradılmasında dövlət dəstəyinə ehtiyac vardır. Digər bir tədbir

isə kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin yaradılmasını genişləndirməkdir.

Naxçıvandan seçilən deputat kimi, muxtar respublikaya göstərilən diqqət və qayğıya görə hörmətli Prezidentimiz cənab İlham Əliyevə və hörmətli hökumət üzvlərinə öz təşəkkürümü bildirirəm. Onu da qeyd etmək lazımdır ki, bölgəyə dövlət büdcəsindən ayrılan dotasiyalar öz bəhrəsini verməkdədir. Belə ki, əgər cari ildə büdcə gəlirləri və xərclərinin 25,2 faizi, yerli gəlirlərin 74,8 faizi dotasiya hesabına ödənilirsə, gələn il bu göstəricilər 33,5 və 66,5 faiz səviyyəsində olacaqdır. Yəni dotasiyanın xüsusi çəkisi azalır və yerli gəlirlər çoxalır. Bu da onu göstərir ki, yaxın illərdə Naxçıvan Muxtar Respublikası büdcə xərclərini yerli gəlirlər hesabına tam ödəyəcəkdir.

Qanun layihəsi "Büdcə sistemi haqqında" Qanuna uyğun olaraq hazırlanmışdır və mən layihəni dəstəkləyirəm və həmkarlarımı da səs verməyə çağırıram. Hökumətimizə isə  bu şərəfli yolda uğurlar arzu edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, hörmətli Eldar müəllim. Hörmətli həmkarlar, mən düşünürəm ki, dövlət büdcəsinin layihəsi kifayət qədər müzakirə olundu. Sizə məlumat verim ki, 65 nəfər  hörmətli həmkar, hörmətli deputat yazılmışdı. Onlardan 45 nəfəri çıxış etdi. 2 nəfərin isə sual və təklifi oldu. Kim çıxış edə bilməyibsə, mən xahiş edirəm, həmişə olduğu kimi, təkrar edirəm, həmişə olduğu kimi, siz çıxışlarınızı yazılı surətdə katibliyə verin. Sizin suallarınız, təklifləriniz hamısı müvafiq qurumlara çatdırılacaq. Biz bunu birinci dəfə etmirik, artıq  23-cü ildir, neçənci ildir, biz bunu edirik.

İndi isə mən xahiş edirəm, Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında qanun layihəsinin

birinci oxunuşda qəbul edilməsinə münasibət bildirin. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.01 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz növbəti məsələlərə keçirik. Qeyd edim ki, gündəliyin 2-ci məsələsi Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında qanun layihəsidir. Gündəliyin 3-cü məsələsi isə İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında qanun layihəsidir. Hər iki məsələ sosial müdafiə sahəsi ilə bağlıdır. Odur ki, mən təklif edirəm, Əmək və sosial siyasət komitəsinin sədri hörmətli Musa Quliyev qanun layihələrinə dair ümumi bir məlumat versin. Biz müzakirəni də birgə aparacağıq, səsverməni isə, həmişə olduğu kimi, ayrılıqda keçirəcəyik. Musa müəllim, buyurun.

**M.Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hökumət üzvləri və mətbuat təmsilçiləri. Cənab Prezident İlham Əliyevin rəhbərliyi altında müasir Azərbaycan dövləti öz tarixinin ən şərəfli, ən qüdrətli dövrünü yaşayır. İndi ərazi bütövlüyümüz və suverenliyimiz tam təmin olunmuşdur. Azad Qarabağda və Şərqi Zəngəzurda nəhəng infrastruk-

tur layihələri icra olunur, həyat yenidən canlanır.

Cənab Prezidentin tapşırığı ilə 2018-ci ildən başlanan dərin sosial islahatlar uğurla davam etməkdədir. Bu vaxta qədər 6,8 milyard manat illik büdcəsi olan 4 islahat zərfi qəbul olunub və həyata keçirilir. Ötən 5 il ərzində ölkəmizin sosial müdafiə sistemi xeyli təkmilləşmiş və güclənmişdir. Aparılan islahatlar nəticəsində 2018–2023-cü illər ərzində orta aylıq əmək haqqı 70 faiz, minimum əmək haqqı 2,7 dəfə, minimum pensiya 2,5 dəfə, orta aylıq pensiya 2,1 dəfə, sosial müavinətlər və təqaüdlər üzrə xərclər 5 dəfə, median əmək haqqı 2,1 dəfə, əmək haqqı fondu 2,6 dəfə artmış, ehtiyac meyarı yaşayış minimumuna çatdırılmışdır.

Müzakirənizə təqdim olunan 2024-cü il üzrə Dövlət Sosial Müdafiə Fondunun büdcəsi haqqında qanun layihəsi də sosial ədalət və sosial rifah prinsiplərinə xidmət edən ali niyyəti rəhbər tutaraq tərtib edilmişdir.

Fondun 2024-cü il üçün gəlirləri və xərcləri bərabər olmaqla 6 milyard 919,9 milyon manat proqnozlaşdırılır. Bu, cari ilin büdcəsinə nisbətən 651,9 milyon manat və ya 10,4 faiz çoxdur. Fondun gəlirlərinin 5 milyard 288,1 milyon manatının, yaxud 76,4 faizinin məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar hesabına formalaşması nəzərdə tutulur. Məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların 64 faizi qeyri-büdcə sektorunun, 36 faizi isə büdcədən maliyyələşən təşkilatların hesabına təmin ediləcəkdir.

Orta aylıq əmək haqqının cari ilin sonuna 930 manat təşkil edəcəyi proqnozlaşdırılır ki, bu da gələn ildə pensiyaların orta hesabla 11 faiz artırılmasını təmin etməyə imkan yaradacaqdır.

2024-cü ildə fondun büdcəsinin balanslaşdırılması

məqsədi ilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait 1 milyard 392 milyon manat proqnozlaşdırılır ki, bu da 2023-cü il üzrə təsdiqlənmiş transfert məbləğindən 75,8 milyon manat və ya 5,2 faiz azdır.

Hörmətli həmkarlar, Dövlət Sosial Müdafiə Fondunun xərclərindən danışarkən, qeyd etmək lazımdır ki, fondun gələn ilə proqnozlaşdırılan ümumi xərclərinin 96,6 faizini və ya 6 milyard 681 milyon 580 min manatını əhaliyə ödənişlər təşkil edəcəkdir. Əhaliyə ödənişlər üzrə xərclərin 6 milyard 500 milyon manatı əmək pensiyalarının, 181,6 milyon manatı isə məcburi dövlət sosial sığorta haqları hesabına verilən müavinətlərin payına düşür. Əhaliyə ödənişlərin 2024-cü il üçün nəzərdə tutulmuş proqnozu 2023-cü ilin təsdiqlənmiş proqnozundan 604 milyon manat, yaxud 10 faiz çoxdur.

Əmək pensiyalarının orta aylıq məbləğinin 2023-cü ildə 436 manat təşkil edəcəyi gözlənilir. 2024-cü ildə isə 483 manat olacağı proqnozlaşdırılır.

Növbəti ildə yaşa görə pensiyanın orta aylıq məbləğinin cari ildəki 466 manatdan 50 manat artaraq 516 manata, əlilliyə görə pensiyanın orta aylıq məbləğinin cari ilin sonuna gözlənilən 367 manatdan 43 manat artaraq 410 manata, ailə başçısını itirməyə görə pensiyanın orta aylıq məbləğinin isə cari ilin sonuna gözlənilən 407 manatdan 47 manat artaraq 454 manata yüksəlməsi proqnozlaşdırılır.

Əvvəlki illərdə olduğu kimi, cari və növbəti illərdə də əvəzetmə əmsalı, yəni orta aylıq pensiya məbləğinin orta aylıq əmək haqqı məbləğinə nisbəti müvafiq olaraq 46,8 faiz və 49,3 faiz olmaqla Avropa Sosial Xartiyasının tələblərinə cavab verəcəkdir.

Növbəti ildə əhaliyə sosial sahədə xidmətlərin təşkili

üzrə nazirliyin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin müştərək maliyyələşdirilməsi, eləcə də pensiya və müavinətlərin əhaliyə çatdırılması və bank əməliyyatlarının aparılması üzrə xidmət haqqı xərcləri ümumilikdə 78,5 milyon manat məbləğində proqnozlaşdırılır.

Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası sosial sahədə 159 xidmətin "bir pəncərə"dən, operativ, şəffaf, innovativ əsasda təqdim olunmasına imkan yaratmışdır. 2019-cu ilin may ayında DOST Agentliyi və bundan sonra 7 DOST mərkəzi açılmışdır. Artıq 1,8 milyon vətəndaşa DOST xidməti göstərilib və vətəndaş məmnunluğu 98,2 faizdir. Bir sıra ölkələr, o cümlədən Avropa ölkələri DOST təcrübəsini öyrənərək tətbiq etməyə başlamışlar.

Hörmətli həmkarlar, "Əmək pensiyaları haqqında" Qanunda edilmiş dəyişikliyə əsasən pensiyaçıların sosial rifahının qorunması məqsədi ilə cənab Prezidentin müvafiq sərəncamı ilə təsis edilmiş əmək pensiyaçılarına ödənilən maddi yardımlar 2023-cü il yanvarın 1-dən etibarən pensiyaların tərkibinə daxil edilərək indeksləşdirilmişdir.

2024-cü ildə məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə, hamiləliyə və doğuma görə, uşağın anadan olmasına görə, 3 yaşına çatanadək uşaqlara qulluğa görə və dəfn üçün müavinətlərin maliyyələşdirilməsinə 181,6 milyon manat vəsait nəzərdə tutulmuşdur ki, bu da cari ilin təsdiqlənmiş proqnozuna nisbətən 6,6 faiz, yaxud 11,2 milyon manat çoxdur.

Bildirmək istəyirəm ki, büdcənin xərclər hissəsində sair xərclər olaraq nəzərdə tutulmuş vəsaitin məbləği Azərbaycan Respublikası Hesablama Palatasının da tövsiyələri

nəzərə alınmaqla, ilk dəfə olaraq Dövlət Sosial Müdafiə Fondunun büdcəsində xərc istiqaməti kimi nəzərdə tutulmuşdur. Qeyd etmək istərdim ki, cari il ərzində fondun investisiya fəaliyyətinin həyata keçirilməsi məqsədi ilə müvafiq normativ hüquqi baza formalaşdırılmış və cari ilin əvvəlinə fondun formalaşmış olan 1 milyard 50 milyon manat sərbəst vəsaitinin investisiyaya yönəldilməsi təmin edilmişdir.

Dövlət Sosial Müdafiə Fondunun fəaliyyəti üzrə iqtisadi fəallığının daha da artırılması, sosial müdafiəyə ehtiyacı olan vətəndaşlarımıza göstərilən xidmətin dairəsinin genişləndirilməsi və keyfiyyətinin yüksəldilməsi məqsədi ilə komitənin təkliflərini hörmətli millət vəkillərinin və hökumət nümayəndələrinin diqqətinə çatdırmaq istərdim.

Həssas qrupdan olan insanların maddi rifah halının yaxşılaşdırılması, həmin şəxsləri inflyasiyanın təsirindən qorumaq, habelə onların tibbi- sosial reabilitasiyasının və sanator-kurort müalicəsinin davamlı və keyfiyyətli təşkil edilməsi məqsədi ilə sosial ödənişlərin mütəmadi artırılması;

Fondun büdcə layihəsinin vahid büdcə təsnifatına uyğun tərtib edilməsi məqsədi ilə vahid büdcə təsnifatının təkmilləşdirilməsi üçün müvafiq tədbirlərin görülməsi;

Pensiya sistemi üzrə sığorta prinsiplərinin, habelə elektron innovativ həllərin tətbiqinin genişləndirilməsi istiqamətində tədbirlərin davam etdirilməsi.

Hörmətli millət vəkilləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən təqdim edilmiş qanun layihəsi ölkə qanunvericiliyinin tələblərinə uyğun hazırlanmaqla sosial və büdcə siyasətinin ümumi məqsədlərinə, Azərbaycan Respublikasının büdcə sisteminin vahidlik və müstəqillik prinsiplərinə müvafiqdir və gələn il pensiya və müavinət alan vətəndaşlarımızın sosial rifa-

hının yaxşılaşması üçün etibarlı təminat yaradacaqdır.

Son olaraq, Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin hazırlanmasında əməyi olan hər kəsə, o cümlədən büdcə layihəsinə dair geniş və ətraflı təhlilə əsaslanan rəy vermiş Hesablama Palatasına komitəmizin minnətdarlığını bildiririk. Təqdim edilən layihəni dəstəkləməyi sizdən xahiş edirəm.

Hörmətli xanım sədr, icazənizlə, Sizin söylədiyiniz kimi, İşsizlikdən sığorta fondunun 2024-cü il büdcə layihəsini də qısa olaraq həmkarlarımın diqqətinə çatdırım.

İşsizlikdən sığorta fondunun 2024-cü il üçün büdcə layihəsi “Büdcə sistemi haqqında” Qanuna və digər qanunvericilik sənədlərinə uyğun hazırlanmışdır. Büdcə layihəsi növbəti il üçün ölkənin iqtisadi və sosial inkişafı, məşğulluq imkanları, demoqrafik vəziyyət və əmək ehtiyatları proqnozlarına əsaslanaraq tərtib edilmişdir.

2024-cü ildə fondun gəlirləri və xərcləri bərabər olmaqla 238 milyon manat nəzərdə tutulur ki, bu da cari ildəkindən 20,3 milyon manat, yaxud 9,3 faiz çoxdur.

İşsizlikdən sığorta fondunun gəlirlərinin 179,98 milyon manatı, yaxud 75,6 faizi işsizlikdən sığorta haqları üzrə yığımın, 57,95 milyon manatı, yaxud 24,4 faizi isə cari ilin sonuna qədər istifadə olunmamış vəsait hesabına formalaşacaqdır. Sığorta haqları üzrə yığımın 74,8 faizi qeyri-büdcə sektorunun payına düşəcəkdir. Gələn il də İşsizlikdən sığorta fondunun xərcləri 13 istiqaməti əhatə edəcəkdir. Xərclərin 30,7 faizi özünüməşğulluq tədbirlərinin, 23,1 faizi məşğulluq xidməti orqanının saxlanmasının, 18,9 faizi sosial sahədə xidmətlərin, əmək haqqının müştərək ödənilməsinin, 14,7 faizi peşə hazırlığı və əlavə təhsilin təşkili xərclərinin maliyyələşməsinə yönəldiləcəkdir.

Gələn il işsizliyə görə sığorta ödənişi almaq hüququ

olan şəxslərin dairəsinin genişlənməsi, o cümlədən torpaq payı olan vətəndaşlara belə hüququn yaradılması, sığorta stajı barədə tələbin yumşaldılması, yeni xitam əsasının yaradılması və sair yeniliklərin tətbiq edilməsi işsizliyə görə sığorta ödənişi xərc maddəsinin dairəsinin 30 faizə qədər artmasını nəzərdə tutur.

Cari il ilə müqayisədə 2024-cü ildə işsizliyə görə sığorta ödənişləri xərclərinin 4 milyon manat, yaxud 26,6 faiz, peşə hazırlığı və əlavə təhsilin təşkili xərclərinin 13 milyon manat, yaxud 37 faiz, sosial iş yerlərində işçilərin əmək haqlarının bir hissəsinin ödənilməsi xərclərinin 2 milyon manat, yaxud 50 faiz artırılması, özünüməşğulluq tədbirlərinin maliyyələşdirilməsi xərclərinin 14,5 milyon manat, yaxud 16,6 faiz azaldılması nəzərdə tutulur. Özünüməşğulluq tədbirlərinin maliyyələşdirilməsi xərclərinin azaldılması peşə hazırlığı və əlavə təhsilin təşkilinə daha çox önəm verilməsi ilə bağlıdır.

Növbəti ildə də özünüməşğulluq layihəsi davam edəcəkdir. Bu proqram çərçivəsində 10 min nəfərin İşsizlikdən sığorta fondunun xərcləri hesabına, daha 6 min nəfərin isə Dünya Bankının layihəsi ilə özünüməşğulluq təlimlərinə cəlb olunması nəzərdə tutulur. Beləliklə, özünüməşğulluq proqramı ilə məşğulluğu təmin olunanların sayı 80 min nəfərə çatacaqdır.

Son olaraq söyləmək istəyirəm ki, İşsizlikdən sığorta fondunun büdcə layihəsi 2024-cü ildə sığorta olunanların itirilmiş əmək haqlarının kompensasiya edilməsinə, özünüməşğulluq, peşə hazırlığı və peşəyönümü tədbirlərinin keçirilməsi, ictimai-sosial işlərin və sair xidmətlərin maliyyələşdirilməsi üçün optimal əsaslar yarada biləcəkdir.

Qanun layihəsini dəstəkləməyinizi xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Musa müəllim, ətraflı məlumata görə çox sağ olun. Hörmətli həmkarlar, bu qanun layihələrinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılıb. Ona görə mən, Tahir müəllim, Sizdən xahiş edirəm, qanun layihələri haqqında komitənin rəyini bildirin. Buyurun.

**T.Mirkişili.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Həmkarım hörmətli Musa müəllim layihə haqqında kifayət qədər məlumat verdi. Bizim rəyimiz, hörmətli xanım sədr, iqtisadi kontekstdədir. Çünki fondun iqtisadi dayanıqlığı, eyni zamanda, dövlət büdcəsi və Dövlət Sosial Müdafiə Fondu arasında olan maliyyə transferlərinin həcmi və imkanları bizi əsas maraqlandıran məsələlərdən biridir.

Hesab edirik ki, Dövlət Sosial Müdafiə Fondunun 2024-cü ildəki büdcəsinin 651,9 milyon manat artması növbəti il ərzində yeni yaradılacaq iş yerlərinin və orta aylıq əmək haqqının artım tempinə uyğundur. Bu cəhətdən düşünürük ki, artımın hesablanması gələn ildəki tempə uyğun hesablanmışdır.

Eyni zamanda, xatırladım ki, 2024-cü ildə dövlət büdcəsindən fondun maliyyə vəsaitinin tarazlığı üçün 1 milyard 392 milyon manat vəsait köçürüləcəkdir ki, bu da 2023-cü ilə nisbətən 75,8 milyon manat az deməkdir. Az transferi fondun gəlirlərinin daha çox artması ilə bağlamaq lazımdır. Düşünürəm ki, bu köçürülən məbləğ də 2024-cü ilin dövlət büdcəsi kontekstində doğru hesablanmışdır.

Eyni zamanda, qeyd etmək istərdim ki, fondun ilin sonuna istifadə olunmamış qalığının böyük bir hissəsinin dövlət qiymətli kağızlarına və digər investisiya alətlərinin investisiya edilməsini də doğru və vacib sayırıq. Çünki bu barədə biz qanunvericilikdə dəyişiklik etmişdik. Bu yeni alətlər növbəti illərdə Dövlət Sosial Müdafiə Fondunun

gəlirlərinin diversifikasiya olunmasına imkan verəcəkdir.

Son olaraq, xatırlatmaq istərdim ki, xüsusi ilə fondun bu gün apardığı işlər nəticəsində ölkədə 2023-cü ilin sonuna minimum pensiyanın minimum əmək haqqına nisbətinin 81,2 faizə, eyni zamanda, orta aylıq pensiyanın orta aylıq əmək haqqına nisbətinin 53 faizə çatmasını, düşünürəm ki, həm maliyyə dayanıqlığı baxımından, həm də ölkədə aparılan sosial siyasətin inkişafı istiqamətində vacib sayırıq.

Hansı işlər görülməlidir, bu barədə də komitə iclasında biz geniş müzakirə etmişik. Həm hörmətli nazirlik nümayəndələri, həm də digər komitə üzvləri ilə bu barədə geniş müzakirə aparmışıq. Birinci oxunuşun şərtlərinə uyğun olaraq, bizim də komitənin bu layihəyə rəyi müsbətdir. Həmkarlarımdan layihəni dəstəkləmələrini xahiş etmək istəyirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. İndi isə mən Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini hörmətli Anar Kərimova söz vermək istəyirəm. Anar müəllim, buyurun.

**A.Kərimov,** *Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini*.

Hörmətli xanım sədr, hörmətli sədr müavinləri, hörmətli millət vəkilləri, hörmətli cənab Baş nazirin müavinləri, media mənsubları, hökumət üzvləri, xanımlar və cənablar.

Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və sosial rifahının yaxşılaşdırılması dövlət başçısı tərəfindən həyata keçirilən siyasətin əsas prioritetlərindəndir. Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il üçün gəlirləri 6 milyard 920 milyon manat nəzərdə tutulur. Bu, 2023-cü ilin proqnoz gəlirlərindən 10 faiz çoxdur. Gəlirlərin 76 faizinin

məcburi dövlət sosial sığorta daxilolmaları üzrə formalaşacağı proqnozlaşdırılır. Bu isə cari ilin göstəricisindən 505 milyon manat çoxdur.

Büdcədən maliyyələşən təşkilatlar üzrə daxilolmalar 1,9 milyard manat, qeyri-büdcə təşkilatları üzrə isə 3 milyard 387 milyon manat nəzərdə tutulur.

Fondun büdcəsinin balanslaşdırılması məqsədi ilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən  ayrılan vəsait 1 milyard 392 milyon manat proqnozlaşdırılır və bu, cari ilin təsdiqlənmiş transferindən 76 milyon manat və ya 5 faiz azdır.

2018-ci illə müqayisədə əhaliyə ödənişlərin ümumi məbləği 18 faizdən çox olmuş, – bilirik ki, transferlərdən gəlirin payı 2017-ci illə müqayisədə 18 faiz azalaraq 20 faizə enmişdir, – biz 2018-ci ilin rəqəmlərinə nəzər yetirsək, 3 milyard 77 milyon manat artmasına baxmayaraq, son 4 ildə büdcəyə təqribən 1 milyon manat qaytarılmışdır.

Növbəti ildə fondun xərcləri 6 milyard 920 milyon manat proqnozlaşdırılır. Bu, cari ilə nisbətən 10 faiz çoxdur. Xərclərin 97 faizi əhaliyə ödənişlərin payına düşür. Bu göstərici 2022-ci illə müqayisədə 1 milyard 600 milyon manat, cari illə müqayisədə isə 604 milyon manat çoxdur. Bu məbləğin 6 milyard yarımı əmək pensiyalarından, 182 milyon manatı müavinət xərclərindən ibarət olacaqdır.

Əmək pensiyalarının maliyyələşdirilməsi üçün ayrılan vəsait 593 milyon manat və ya 10 faiz artımla nəzərdə tutulmuşdur. Pensiyanın nominal məbləğinin tənzimlənməsi üzrə 2018-ci ildən indiyədək  860 milyon manat qənaət əldə olunmuşdur. İndeksasiya əmsalları  tətbiq edildikdə isə bu rəqəm 1 milyard 57 milyon manat təşkil edir.

Növbəti il üçün pensiyanın orta məbləği cari ilin sonuna gözlənilən göstəricidən 10,8 faiz çoxdur. Yaşa görə

pensiyanın orta aylıq məbləğinin isə 516 manat təşkil edəcəyi gözlənilir.

Eyni zamanda, Dövlət Sosial Müdafiə Fondunun əleyhinə qüvvəyə minmiş məhkəmə qərarlarının 2017-ci ilə nisbətən 12 min işdən cari ildə 760 işə enmişdir. Beləliklə, məhkəmə aktları üzrə öhdəliklər 63 milyondan 3 milyona enmişdir.

Fondun fəaliyyət istiqamətləri üzrə 88 xidmətdən 80-i elektronlaşmış və bunun nəticəsində 790 min vətəndaşımız praktik təyinat almışdır. Bu o deməkdir ki, təxminən 800 min şəxs heç bir ünvana yaxınlaşmadan, öz sosial hüquqlarını reallaşdıra bilmişdir. Praktik təyinatların payı ümumi təyinatların təqribən 80 faizini əhatə edir.

Fondun maliyyə əməliyyatlarına nəzarət gücləndirilmiş, fərdi uçot tam şəkildə mərkəzləşdirilmiş və bu proses çərçivəsində benefisiarı müəyyən olmayan 1,3 milyard manat konkret şəxslərin hesablarına işlənilmişdir. Dövlət icbari şəxsi sığortası sahəsində səlahiyyətlər 2022-ci ildən fond tərəfindən icra olunur və ötən il ərzində bu fəaliyyətin fərdi uçot prinsipləri üzərində qurulmasına nail olunmuşdur. 4 min 200-dən çox praktik təyinat aparılmışdır. Yığım hesabında təxminən 29,5 milyon manat qalıq və 3,8 milyon manat sığorta ehtiyatı formalaşdırılmışdır. Vacib məsələ burada ondan ibarətdir ki, həmin vəsaitlərin sosial cəhətdən həssas şəxslərin və şəhid ailələrinin sosial təminatının daha da yaxşılaşdırılmasına sərf edilməsi nəzərdə tutulur. Bu məqsədlə artıq 27 milyon manat vəsait qeyd edilən istiqamət üzrə xərclənməsi üzrə köçürülmüşdür.

Fondun sərbəst vəsaitinin idarə olunan kapitala çevrilməsi, fondun maliyyə imkanlarının genişləndirilməsi məqsədi ilə normativ hüquqi baza yaradılmış və qanunvericiliyin tələblərinə əsasən 1 milyard 50 milyon manat

vəsait investisiyaya yönəldilmişdir. Fondda aparılan islahatlar beynəlxalq təşkilatlar tərəfindən də qiymətləndirilir və fond son 2 il ərzində 19 beynəlxalq sertifikat və mükafatla təltif edilmişdir.

İşsizlikdən sığorta fondunun 2024-cü il üçün büdcə layihəsi ölkənin məşğulluq imkanları, demoqrafik inkişafı, əmək ehtiyatlarının proqnozlarına əsaslanaraq tərtib edilmişdir. Fondun gəlirləri və xərcləri bərabər olmaqla 238 milyon manat nəzərdə tutulub. Bu, cari ildəkindən 20 milyon manat, yaxud 9 faiz çoxdur. Sığorta haqları üzrə yığımın 75 faizi qeyri-büdcə sektorunun payına düşəcəkdir.

Xərclərin 31 faizi özünüməşğulluq tədbirlərinin, 19 faizi sosial sahədə xidmətlərin müştərək maliyyələşməsinə, 15 faizi peşə hazırlığının təşkili xərclərinin maliyyələşdirilməsinə yönəldiləcəkdir.

Bununla yanaşı, məşğulluq xidmətlərinin rəqəmsallaşdırılmasının əsas istiqamətlərindən biri kimi vahid əmək münasibətləri platforması və ölkənin məşğulluq xəritəsi, məşğul şəxslərin ölkə üzrə reyestri, elektron əmək birjası və yarmarkası, ictimai işlər portalı, BACAR innovativ platforması üzrə işlər tamamlanacaqdır.

Bir vacib məqamı da qeyd etmək istərdim ki, gələn il 3 dəfədən çox işsiz şəxs peşə hazırlığına cəlb olunacaqdır. 3500 nəfərə beynəlxalq sertifikatlar veriləcək, Masallı, Quba, Sabirabad, Şəkidə növbəti illər ərzində peşə hazırlığı mərkəzlərinin açılışı nəzərdə tutulub. Çünki dəyərli millət vəkilləri bu məsələni çıxışlarında xüsusi ilə qeyd etmişdilər.

Gələn il işsizliyə görə sığorta ödənişi almaq hüququ olan şəxslərin dairəsi genişlənəcək. Burada bir sıra yeniliklər tətbiq ediləcək və bu, imkan verəcək ki, ödənişlər 30 faiz artsın.

Göstərilənləri nəzərə alaraq, təqdim olunmuş layihələrə səs verməyi sizdən xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Anar müəllim. Hörmətli həmkarlar, qanun layihələrinin müzakirəsinə başlayırıq. Siyavuş Novruzov. Siyavuş müəllim, buyurun.

**S.Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri, hörmətli deputatlar, mətbuat nümayəndələri. Doğrudan da, ölkəmizdə sosial sahədə çox böyük işlər görülübdür və görülməkdə də davam olunur. Müharibə aparan və qələbə çalan bir ölkədə sosial sahədə də işlərin sayı, istiqaməti, əhatə dairəsi çox genişdir. Bu baxımdan da cənab Prezident tərəfindən, Birinci vitse-prezident tərəfindən daim sosial sferaya diqqət və qayğı göstərilir və göstərilməkdə davam olunur. Biz hər gün bunun şahidiyik.

Elə büdcəmizə də baxanda görürük ki, Azərbaycanın dövlət büdcəsi sosial büdcədir. Ümummilli Liderdən bu tərəfə Azərbaycanda sosial ədalət prinsipi həmişə hakim olubdur. Bu sosial ədalət prinsipinə həmişə əməl olunubdur. O baxımdan da, təbii ki, sosial sahəyə diqqət nə qədər göstərilsə də, doğrudan da, sosial sahə ağır sahədir, çətin sahədir. Burada problemlər də, müəyyən çatışmazlıqlar da ortaya çıxır.

Amma nəzər salsaq ki, müharibə aparan, ərazisi 30 ildən artıq işğal altında olan və ərazisini bərpa edən bir ölkədə dərhal bütün bu sahədə insanların maddi təminatının ödənilməsi, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, nəqliyyat vasitələrinin verilməsi... Mən indi statistikaya nəzər saldım, 14 mindən artıq şəhid ailəsinə və əlil olan müharibə veteranlarına, qazilərə mənzillər verilibdir, əslində baxsaq, qısa bir müddət ərzində. Xeyli sayda

maşınlar verilibdir, fərdi evlər tikilibdir. Müəyyən iş yerləri açılır, onlar üçün məşğulluqla bağlı iş sahələri kim ki məşğul olmaq istəyir, o sahədə yaradılır. Bunlar hamısı təqdirəlayiqdir. Bir neçə məsələ var ki, bunların aradan qaldırılması da vacib olan elementlərdən biridir.

Bilirsiniz, bizim qələbəmizin üzərinə bəzi adamlar kölgə salmaq istəyir və kölgə salmaq üçün də müəyyən məsələlərdən istifadə olunur. Bunlardan biri qazilərin əlillik dərəcəsinin alınması ilə bağlıdır. Dəfələrcə qaldırılıb və biz mətbuatdan da, ictimaiyyətdən də görürük, bu, az sayda olan insanlardır, tələb edirlər ki, onlara əlillik dərəcəsi verilsin. Mütəmadi olaraq biri gəlir, şüşə sındırır, biri başqa hərəkətlər edir və sair. Olmaz ki, bir komissiya çağırılsın, ictimaiyyətin nümayəndələri, mətbuat nümayəndələri dəvət olunsun, yoxlanılsın və orada konkret deyilsin ki, buna düşür, ya düşmür və məsələ birdəfəlik həll olunsun. İkinci dəfə o insan daha ortaya çıxmasın.

Yaxud da kimsə döyüşübdür. Döyüşənlər gözəl bilir ki, insan döyüşdə elə xəstəlik tapa bilir ki, onu heç tibb də müəyyən edə bilmir. Elə psixoloji xəstəliklər, elə travmalar var ki, onu müəyyən etmək olmur. İndi 18 yaşı olan adamın yanında insan öldürürlər, baş kəsilir və yaxud da minaya düşür, partlayır. Bu travmanı alır, ola bilər ki, hər yeri salamatdır. Amma artıq bu, travma almış şəxsdir. Ona əlilliyin verilməsi nə böyük bir problemdir ki, verilsin və bu da gedib öz təqaüdünü alsın, pensiyasını alsın və bununla da öz işini davam eləsin.

İkincisi, pensiya təyinatı ilə bağlı da problemlər var. Görürsən ki, o xəstəxanadan bu xəstəxanaya, bu xəstəxanadan o xəstəxanaya atırlar. Yaxud hansısa uzaq bir kənddə yaşayır, deyirlər ki, kompüterə girirsən, kompüterdə yazırsan, pozursan, sosial şəbəkədə tapırsan, gəlib buraya

çıxır, deyirlər, sənədin düz gəlmir və sair. Bu insanları artıq ötüşdürmək lazımdır. Bəli, gözəl DOST mərkəzləri açılıb. Bu məsələlər həllini tapır. Amma bununla yanaşı, mən hesab edirəm, o insanlara fərdi qaydada diqqət göstərmək lazımdır ki, şikayətləri olmasın, bu insanlar da sosial sahədə öz təminatını ödəsin.

Ünvanlı sosial yardımla bağlı. Keçən dəfə də bu məsələyə biz toxunmuşduq. Kifayət qədər insan ünvanlı sosial yardım alır, ünvanlı sosial yardım alanların sayı 300 min nəfərdir. Eləsi var ki, illərlə bu sosial yardımı alır. Birincisi, onun təyinatında da müəyyən qüsurlar var. Əgər kimin adına bir köhnə sovet maşını varsa, yaxud yarım hektar torpağı varsa, buna deyirlər ki, sənə sosial yardım düşmür, sənə sosial yardım vermək olmaz. O torpaqla hələ heç bir məhsul əldə etmək, uzağı taxıl əksə, oradan 200-300 dollarlıq, ya 500 manatlıq taxıl götürə bilər, hələ onun da nə qədər xərci var. Ona görə də bu bunu təmin etmir. Elələri var, ümumiyyətlə, on illərdir ki, sosial yardım alır. Bu da düzgün məsələ deyil. Belə bir misal var, deyir: "Ac adama balıq vermirlər, balıq tutmağı öyrədirlər." Mənə elə gəlir, ünvanlı sosial yardım alanların əgər 1 il, 2 il təminatını ödəyirlərsə, artıq onların hər hansı peşə öyrənməsi və gələcəkdə öz təminatını həll etməsini qurmalıyıq ki, onlar artıq elə o sosial yardımla arxayınlaşıb ömrünü başa vurmaq prinsipi ilə yaşamasınlar, hər hansı bir işin qulpundan yapışsınlar, əkin-biçinlə məşğul olsunlar. O baxımdan da, mən hesab edirəm ki, burada da bu prinsiplər dəyişilməlidir.

Dəfn pulları ilə əlaqədar miqdarın artırılması. Hesab edirəm ki, miqdar artırılmalıdır. İndi verilən dəfn puluna qəbiristanlıqda heç 10 santimetr yer almaq mümkün deyil. Bilirsiniz ki, Bakı şəhəri başqa, kənd rayonları başqa,

kəndlərdə var, yerlər müəyyənləşib, qəbiristanlıqlar var. Bakı şəhərində qəbiristanlıq məsələsi çox ciddi bir problemdir və orada dəfn olunmaq üçün yerin alınması, təmin olunması, aparılması, dəfn olunması onun onda birini həll etmir. Ona görə də bu miqdar, hesab edirəm ki, artırılmalıdır.

Tələb olunan sənədlərin də sayı azaldılmalıdır. Dəfn olunmaq üçün nə qədər arayış tələb edirlər. Dünyasını dəyişib, bunu dəfn edirlər də. Bu baxımdan da bu məsələni də, hesab edirəm ki, nəzərə almaq lazımdır.

Ümumiyyətlə, şəhid ailələridir, Qarabağ qaziləridir, Birinci və İkinci Qarabağ müharibəsi qazilərinin eyniliklə təminatına üstünlük verilməlidir ki, bundan sui-istifadə etməsinlər.

Bu yaxınlarda sosial şəbəkələrdə, – hörmətli həmkarlarımla da bölüşmək istəyirəm, – mənəviyyatdan uzaq bir insan, hansısa bir şair bir şer yazıb ki, şəhid anası niyə dilənir? Azərbaycanda dilənən şəhid anası var? Bu, şəhid anasına hörmətsizlik deyilmi? Şəhid anaları hamının gözünün üstündədir, başının üstündədir. Başda Prezidentimiz olmaqla hər bir vətəndaşımız hörmət-izzətlə yanaşır, diqqətlə yanaşır. Şəhidlərə olan diqqət hər birimizin borcudur. Bu, niyə dilənməlidir? Burada millət vəkilləri oturub, hansının dairəsində hansı şəhid anası dilənir? Bunu da Avropada oturan antimilli qüvvələr bir-biri ilə bölüşüb tirajlayırlar.

Biz gördük ki, şəhid anaları özləri övladlarının cənazəsini aparıb dəfn etdilər. Həyat yoldaşları özləri girdilər həyat yoldaşlarının cənazəsinin altına aparıb dəfn etdilər. Azərbaycanda onlardan 10 dəfə qeyrətli belə qadınlar var, öz həyat yoldaşlarını, övladlarını yola saldı və dedi ki, Vətən uğrunda həlak olub. Qaçıb xaricdə oturub dövlətin əleyhinə, xalqın əleyhinə, millətin əleyhinə, şəhidin əley-

hinə, qazinin əleyhinə təbliğat aparmır, erməniyə dəstək vermir. Bax, budur bizim şəhid analarımız. Ona görə də, mən hesab edirəm, hamılıqla belə şeylərə, bunlara qarşı etirazımızı bildirməliyik. Biz çox hörmətlə və diqqətlə yanaşmalıyıq.

Mən layihələrə səs verəcəyəm, deputat həmkarlarımı da səs verməyə çağırıram. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Təklif var, çıxışlar 5 dəqiqə olsun. Etiraz edən yoxdur?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** 5 dəqiqəyə keçirik. Azay Quliyev. Buyurun.

**A.Quliyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri, dəyərli həmkarlar. Bizim hörmətli komitə sədri Musa müəllim Quliyev sosial paketi ətraflı təqdim etdi. Həqiqətən də, bu, bir daha onu göstərir ki, sosial məsələlər, ümumiyyətlə, əhalinin sosial rifahının yaxşılaşdırılması cənab Prezidentin daim diqqətindədir. Builki büdcədə də onların artımı bir daha göstərir ki, bütün çətinliklərə baxmayaraq, Qarabağda və Şərqi Zəngəzurda görülən böyük quruculuq işlərinin tələb etdiyi böyük məşəqqətlərə baxmayaraq, cənab Prezident həmişə sosial məsələləri prioritet məsələlər sırasında saxlayır. Ona görə də təsadüfi deyil ki, bizim büdcəmizin də böyük bir hissəsi elə bu sahəyə yönəlibdir.

Hörmətli həmkarlar, nəzərə alsaq, vaxtımız çox deyil, mən istərdim ki, bir neçə məsələni diqqətinizə çatdıraq.

Birinci, şəhid ailələri və Qarabağ qazilərinin mənzil təminatında rastlanan çox spesifik bir məsələni qaldırmaq istəyirəm. Əlbəttə, təqdir etmək lazımdır ki, Azərbaycan dünyada bəlkə də çox nadir ölkələrdən biridir, şəhid ailələrinə və qazilərə çox diqqət ayrılır, xüsusi ilə onların

mənzil təminatının yaxşılaşdırılmasında böyük işlər görülüb. Həm hörmətli cənab Prezident, həm də hörmətli Mehriban xanım Əliyeva daim bu sahədə qazilərin və şəhid ailələrinin irəli sürdükləri təklifləri dəstəkləyirlər. Bununla yanaşı, əlbəttə, bəzən görürsən ki, həyatda, praktikada bəzi məsələlər çıxır, bunlara da diqqət ayırmalıyıq.

Məsələn, ipoteka krediti ilə ev almış hər hansı bir şəhid ailəsinin üzvü, yaxud da qazi ona təqdim olunan evin müəyyənləşdirilməsində, sahəsinin müəyyənləşdirilməsində bəzən ipotekanın, yəni qarşılığı ödənilmiş mənzilin sahəsi çıxarılır. Yəni buna deyək ki, 3 otaq verilməlidir. Məhz pulu ilə ödədiyi ipotekalı evinə görə ona 2 otaq verilir. Bəzən görürsən, praktikada bu, problemlər yaradır. Çünki bəzi qazilərimizin və şəhid ailələrinin üzvləri 3 və ya 4 nəfərdir. Ona düşəcək 3 otağın bu səbəbdən biri verilmir. Bu məsələ, mən hesab edirəm ki, diqqətdə saxlanıla bilər və saxlanılmalıdır. Ona görə, xahiş edərdim ki, buna diqqət ayıraq.

İkinci bir məsələ, bu da, mən hesab edirəm ki, bəlkə də çox nadir məsələlərdən biridir, buna mən praktikada rast gəldim. Bir nəfər qazi müraciət etmişdi ki, onun putyovka ilə təmin olunmasına köməklik edim. Bəlli oldu ki, bu, müvafiq dövlət qurumlarında işləmədiyinə görə bizim Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən ona putyovka verilmir. Dövlət qurumlarına müraciət edəndə bəlli oldu ki, VÖEN-i olduğuna görə ona putyovka düşmür. Bilirsiniz, VÖEN məsələsi belədir ki, artıq dünyada VÖEN-i olmayan şəxs yoxdur. Ümumiyyətlə, VÖEN çox adi bir praktika kimidir. VÖEN-ü olmaq o demək deyil, bu, sahibkarlıqla məşğul olur və onun sosial durumu kifayət edir ki, o, gedib putyovka alsın. Ona görə, mən hesab edirəm ki, qanunvericilikdə bu məsələyə də baxmaq lazımdır.

Ümumiyyətlə, şəhid ailələri və qazilər digər kateqoriyada olanlardan fərqlənməlidir və onların ən azı bu cür tələbatları ödənilməlidir.

Üçüncü, vacib məsələlərdən biri ondan ibarətdir ki, şəhid ailələrinə müavinət verilən zaman, əgər şəhidin yoldaşı işləyirsə, onun 8 yaşına çatanadək övladlarının birinə verilən pay kəsilir. Mən bunu seçicilərin biri ilə bağlı yaranan problemlə rastlaşanda gördüm. Deməli, şəhid ailəsinin bir nəfər üzvünün bağçaya işə düzəlmə məsələsi var idi. Ona köməklik etdik. Sonra bir müddətdən sonra bəlli oldu ki, o, bağçadan çıxıbdır. Səbəb də o olub ki, bağçada ona 300 manat maaş verirmişlər və deyiblər, ya sən şəhidlik müavinəti almalısan, ya da bağçadakı aldığın vəsaitdən məhrum olmalısan. Bunlar, ola bilsin, çox böyük deyil. Mən bununla bağlı istərdim ki, bizim qanunvericiliyə də baxılsın və bu məsələlərin bir məqbul həll yolu tapılsın ki, yəni şəhid ailəsinin üzvləri işlə təmin olunan zaman onların övladlarına verilən müavinət tam olaraq ödənilsin.

Sonda isə bir məsələyə toxunmaq istərdim. Bu, məşğulluqla bağlı olan məsələdir. Əlbəttə, məşğulluqla bağlı görülən işlər təqdir edilən istiqamətdədir, müvafiq qurumların atdığı addımlar öz nəticəsini verir. Amma bəzən görürsən ki, elə müraciətlər var, belə deyək, o müraciətlərin qarşılığı lazımi səviyyədə ödənilmir. Mən başa düşürəm ki, indi hər kəs yüksək maaşlı iş tələb edir və məşğulluq idarəsi də bunu qarşılamaqda çətinlik çəkir. Amma bütün bunlara baxmayaraq, çox yaxşı olardı, bu gün edilən müraciətlərin təmin olunması ilə bağlı statistikaya bir aydınlıq gətirilsin və bu istiqamətdə müəyyən işlər görülsün ki, niyə müraciətlər belə az səviyyədə təmin olunur. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Azay müəllim, çox sağ olun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Təklif var, səsə qoyaq. Onda mən məsələləri, qanun layihələrini bir-bir səsə qoyacağam.

İndi isə xahiş edirəm, Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında qanun layihəsinin birinci oxunuşda qəbul edilməsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.42 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İndi isə xahiş edirəm, İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında qanun layihəsinin birinci oxunuşda qəbul edilməsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.48 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin 4-cü məsələsinə ke-

çirik. Bu məsələ Azərbaycan Respublikasında 2024-cü il üçün yaşayış minimumu haqqında qanun layihəsidir. Tahir müəllim, bu sizin komitənizin məsələsidir.

Hörmətli həmkarlar, qanun layihəsinə dair məlumat vermək üçün mən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri hörmətli Tahir Mirkişiliyə söz verirəm. Tahir müəllim, buyurun.

**T.Mirkişili.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, təqdim edilən qanun layihəsində 2024-cü il üçün yaşayış minimumunun ölkə üzrə 246 manatdan 270 manata, əmək qabiliyyətli əhali üçün 261 manatdan 287 manata, pensiyaçılar üçün 199 manatdan 222 manata, uşaqlar üçün isə 220 manatdan 235 manata qaldırılması təklif olunur.

Xatırladım ki, "Yaşayış minimumu haqqında" Qanunun 2-ci maddəsinə görə, yaşayış minimumu əhalinin aztəminatlı təbəqəsinin, eyni zamanda, fiziki şəxslərin gəlirinin və rifahının artması məqsədi ilə istifadə olunur.

Komitənin rəyi müsbətdir, Sizin də səs verməyinizi xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Musa müəllim, sizin də komitənizdə baxılıb. Xahiş edirəm, komitənin rəyini bildirin. Buyurun.

**M.Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Hörmətli komitə sədri həmkarım Tahir Mirkişili ətraflı məlumat verdi. Qanun layihəsi haqqında bizim də komitənin fikri müsbətdir. Hesab edirik ki, yaşayış minimumunun bu şəkildə müəyyən olunması gələn il əhalimizin minimum tələbatlarının ödənilməsinə şərait yaradacaq.

Qanun layihəsini dəstəkləməyi deputat həmkarlarımızdan xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 16.45 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik, 5-ci məsələdir. Bu məsələ də Azərbaycan Respublikasında 2024-cü il üçün ehtiyac meyarının həddi haqqında qanun layihəsidir. Layihəni təqdim etmək üçün, Musa müəllim, mən yenə də Sizə söz verirəm. Buyurun, bu sizin məsələnizdir.

**M.Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədi ilə ehtiyac meyarı 2024-cü ildə cari ildəkinə nisbətən 24 manat və yaxud 21,8 faiz artırılaraq 270 manata çatdırılacaqdır. Bu artım imkan verəcək ki, bizim yoxsul təbəqədən olan vətəndaşlarımızın ünvanlı sosial yardım imkanlarına əlçatanlığını daha da yaxşılaşdırsın. Təxmini hesablamalara görə, bu qanun qüvvəyə minəndən sonra gələn ildən ünvanlı sosial yardım alan hər bir ailəyə 500 manat və daha artıq məbləğdə maddi vəsait daxil olacaqdır.

Mən hesab edirəm ki, bu cür artım əhalimizin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm bir

layihədir və layihəni dəstəkləməyi deputat həmkarlarımızdan xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Məsələyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılıb. Tahir müəllim, Sizin rəyiniz. Buyurun.

**T.Mirkişili.** Hörmətli xanım sədr, bizim komitənin rəyi məqbuldur. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Mən görürəm, heç kim yazılmayıb, çıxış eləyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.47 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələ 6-cı məsələdir. Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Tahir müəllim, yenə də sizdə baxılıb. Xahiş edirəm, məlumat verin.

**T.Mirkişili.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Məlum olduğu kimi, ölkədə aparılan sosial-iqtisadi islahatların davamı olaraq növbəti dövrlərdə də iqtisadiyyatın neftdən asılılığının minimuma endirilməsi, qeyri-neft sektorunun inkişaf etdirilməsi və sahibkarlığın inkişafına əsaslanan rəqabət qabiliyyətli milli iqtisadiyyata çevrilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması məqsədi ilə ardıcıl addımlar atılmaqdadır.

Möhtərəm cənab Prezident tərəfindən təqdim olunmuş Vergi Məcəlləsində dəyişiklik layihəsinə sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi, sosial xarakterli güzəştlər vasitəsi ilə əhalinin vergi yükünün azaldılması, vergi nəzarəti mexanizminin təkmilləşdirilməsi və vergitutma bazasının genişləndirilməsi, vergi inzibatçılığı tədbirlərinin təkmilləşdirilməsi istiqamətləri üzrə dəyişiklikləri əhatə edən müddəalar daxil olmuşdur.

Dəyişikliklər, əsasən, maliyyə, səhiyyə, kənd təsərrüfatı, turizm, nəqliyyat və digər sektorları əhatə edir. Vergi Məcəlləsində 71 əsas maddə, 201 alt maddə üzrə dəyişiklik edilməsi nəzərdə tutulur. Təklif olunan dəyişikliklər nəticəsində dövlət büdcəsinə 121,5 milyon manat gəlir, 79,5 milyon manat itki, ümumilikdə isə, 42 milyon manat büdcə daxilolmaları gözlənilir.

Hörmətli xanım sədr, təklif olunan dəyişiklikləri biz qruplaşdırmışıq və mən istərdim ki, bunları qruplar üzrə təqdim edim.

Birincisi, maliyyə sektoru və kapital bazarları üzrə. Təqdim olunan güzəştlər bunlardan ibarətdir: kredit təşkilatlarının ödənilməyən borcları müqabilində balansa götürdüyü girov əmlaklarının və torpaqların əmlak və torpaq vergilərindən 2 il müddətinə azad edilməsi; ləğvetmə prosesində olan bankların vergi yükünün tənzimlənməsi üçün vergitutma məqsədləri baxımından ehtiyatların yaradılması; dividendlər üzrə ödəmə mənbəyində vergi dərəcəsinin 10 faizdən 5 faizə endirilməsi; dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının, yerli özünüidarəetmə orqanlarının və dövlətin adından yaradılan publik hüquqi şəxslərin dividend gəlirlərinə görə isə, əksinə, vergi azadolmasının ləğv olunması və onlardan 5 faiz

dərəcə ilə vergi tutulması; İcbari Sığorta Bürosunun gəlirlərinin tamamilə mənfəət vergisindən azad edilməsi.

İkincisi, səhiyyə sektoru üzrə. 2024-cü ildə müddəti bitən İcbari tibbi sığorta fondunun vəsaiti hesabına maliyyələşən tibbi xidmətlər üzrə vergi güzəştlərinin vaxtının daha 3 il müddətinə uzadılması, əlavə olaraq, bu güzəştin təsdiq edilən siyahı üzrə ictimai və sosial məqsədlər üçün yaradılmış fondların, – bunlar Qarabağ Dirçəliş Fondu, "YAŞAT" Fondu və Heydər Əliyev Fondudur, – vəsaitləri hesabına tibbi xidmətlərin göstərilməsinə də şamil edilməsi. Tədris bazası kimi fəaliyyət göstərən tibb müəssisələrində tibbi xidmətlərin göstərilməsinin 2024-cü il yanvarın 1-dən 3 il müddətinə əlavə dəyər vergisindən azad edilməsi; səhiyyə müəssisələrində nağdsız qaydada ödənişlərin 50 faizi həcmində dövriyyələrin vergi tutulan dövriyyədən çıxılması ilə əmək tutumlu biznesin vergi yükünün 2024-cü il yanvarın 1-dən 3 il müddətinə optimallaşması.

Üçüncüsü, kənd təsərrüfatı sektoru üzrə. Kənd təsərrüfatı sahəsi üzrə 2024-cü ildə müddəti bitən vergi güzəştlərinin vaxtının daha 3 il müddətinə uzadılması.

Dördüncüsü, turizm sektoru üzrə. Regional turizmin inkişaf etdirilməsi və turizm subyektlərinin sabit vergi xərclərinin optimallaşdırılması məqsədi ilə onların əmlak vergisinin 3 il müddətinə 75 faizə qədər azaldılması.

Beşincisi, nəqliyyat sektoru üzrə. Yükdaşımalar üzrə sadələşdirilmiş vergi rejiminin ləğvi, gəlir və mənfəət vergisinə keçid; nəqliyyat sektorunda biznesin əlavə dəyər vergisinin əvəzləşdirmə imkanlarının yaradılması və eyni zamanda, yükdaşıma sahəsində biznesə süni xərclərin ötürülməsinin qarşısının alınması; yük avtomobillərinin təmiri ilə bağlı təmir xərci normalarının artırılması.

Altıncısı, biznes yükünün optimallaşması üzrə. Nü-

mayəndəlik, mənzil və yemək xərclərinin norma daxilində gəlirdən çıxılan xərclərə aid edilməsi ilə vergi yükünün optimallaşdırılması; vergi ödəyicisinin hesabat ilinin mənfəətinin elm, təhsil, səhiyyə, idman və mədəniyyət sahəsində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatlara, ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara köçürülən və vergidən azad olan hissəsinin 10 faizdən 15 faizə qaldırılması, 2024-cü il yanvarın 1-dən 5 il müddətində; mikro sahibkarlıq subyekti olan fiziki şəxslərin özlərinə görə ödədiyi sosial sığorta haqlarının vergi yolu ilə subsidiyalaşdırılması, ödənilmiş sosial sığorta haqqı məbləğinin 25 faizinin gəlir vergisi və sadələşdirilmiş vergidən çıxılması, 2024-cü il yanvarın 1-dən 3 il müddətinə; vergi borcu olan subyektlərin borc öhdəliklərinə möhlətin verilməsi və idarə edilə bilən olması üçün meyarların hazırlanması.

Yeddincisi, sosial dəstək mexanizmləri üzrə. Fiziki şəxslərin hər bir bankda milli valyutada olan əmanətlər üzrə hesablanan aylıq faiz gəlirlərinin 200 manatadək olan hissəsinin gəlir vergisindən tam azad edilməsi; fiziki şəxslərin hər bir bankda milli valyutada olan depoziti 18 ay və daha artıq müddətə yerləşdirildikdə və depozitin məbləği 18 aydan tez olmayaraq ödənildikdə hesablanan faiz gəlirlərinin tam hissəsinin 3 il müddətinə tam olaraq gəlir vergisindən azad edilməsi; hədiyyələrin və təhsil haqlarını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin gəlir vergisindən azad olunan hissəsinin 1000 manatdan 2500 manata qədər qaldırılması; fiziki şəxs olan istehlakçılar tərəfindən ödənilmiş əlavə dəyər vergisinin qaytarılmasına görə əldə olunan gəlirlərin gəlir vergisindən azad edilməsi; nəhayət, fiziki şəxsin şəxsi istifadəsi üçün idxal etdiyi və aksizdən azad edilən mal-

ların növünün artırılması.

Sonuncusu, kölgə iqtisadiyyatı və vergidən yayınma halları ilə mübarizənin gücləndirilməsi üzrə. Riskli vergi ödəyicisi ilə mübarizə, riskli vergi ödəyiciləri ilə bağlı mövcud mexanizmin təkmilləşdirilməsi, əmtəəsiz əməliyyatları aparan şəxslərə maliyyə sanksiyasının tətbiqi, riskli vergi ödəyicisinin meyarlarının azaldılması və vergi ödəyicisinin riskli vergi ödəyicisi siyahısına daxil edilməsi və siyahıdan çıxarılmasının mexanizminin müəyyən edilməsi; mikro sahibkarlıqdan kiçik sahibkarlıq kateqoriyasına keçidin stimullaşdırılması, habelə məşğulluq yaradan mikro sahibkarlıq subyektlərinə, yəni il üzrə orta aylıq muzdlu işçi sayı 3 nəfərdən az olmayan və həmin işçilərə görə məcburi dövlət sosial sığorta haqlarını ödəyən 75 faiz güzəştli hədəfin tətbiqi, habelə əmtəəsiz əməliyyatlar aparan şəxslərə bu güzəştin tətbiq edilməməsi; alış aktı ilə alınan mallar üzrə xərclərin məhdudlaşdırılması və nəzarət-kassa aparatının qəbzi ilə alınan mallar üzrə xərclərin müəyyən hissəsinin gəlirdən çıxılması və sənədsiz xərclərin gəlirdən çıxılmasının məhdudlaşdırılması.

Beləliklə, Vergi Məcəlləsində təklif edilən dəyişikliklər İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında Mərkəzi Bankın və Dövlət Vergi Xidmətinin nümayəndələrinin iştirakı ilə geniş müzakirə edilmişdir. Komitə üzvlərinin  qanun layihəsi  ilə bağlı bır sıra təklifləri hazırda müzakirə ərəfəsindədir. Növbəti oxunuşda bu barədə bir nəticə əldə etdiyimiz zaman mən məlumat verəcəyəm. Ümumilikdə, qanun layihəsinin konseptual olaraq birinci oxunuşda qəbul edilməsini məqbul hesab edirik. Həmkarlarımdan səs vermələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Ancaq sizin müzakirələriniz davam edir. Əgər çıxış etmək istəyən

yoxdursa, mən səsə qoyuram. Buyurun, qanun layihəsinə birinci oxunuşda münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 16.55 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. 7-ci məsələ Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün mən Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Hüseynli,** *Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. Mülki Məcəllədə təklif olunmuş bu dəyişikliklər geniş olsa da, mahiyyəti çox sadədir. Məqsəd ondan ibarətdir ki, şirkətlər, hüquqi şəxslər arasında əgər biri digərinə borcludursa, borclu olan hüquqi şəxsin səhmlərinə və nizamnamə kapitalındakı məbləğin bir hissəsinə sahib olmaqla bu mübahisə həllini tapsın. Təbii ki, qarşılıqlı razılaşma əsasında. Beləliklə, bir çox şirkətlərin nə ləğvinə, nə də iflasına yol verilməyəcək. Bu təcrübə də müasir beynəlxalq təcrübədə mövcuddur. Biznes mühitinin inkişafına da öz töhfəsini verəcəkdir. Deputatlardan

bu layihəyə səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Tahir müəllim, sizin komitənizdə də baxılıb. Xahiş edirəm, komitənin rəyini bildirin.

**T.Mirkişili.** Hörmətli xanım sədr, hörmətli Əli müəllimin qeyd etdiyi kimi, bu, beynəlxalq aləmdə geniş tətbiq olunan təcrübədir. Bizim də komitənin rəyi müsbətdir. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini birinci oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 16.56 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz iclasımıza sabah davam edəcəyik. Sağ olun.

**ALTINCI ÇAĞIRIŞ**
**AZƏRBAYCAN RESPUBLİKASI**
**MİLLİ MƏCLİSİNİN**
**XIV SESSİYASI İCLASININ**

# PROTOKOLU № 150

*Milli Məclisin iclas salonu.*
*15 noyabr 2023-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 98 deputatı iştirak etmişdir.**

| **Qeydiyyat** | (saat 11.16 dəq.) |
|---|---|
| İştirak edir | 85 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Samir Şərifov**, Azərbaycan Respublikasının maliyyə naziri.

**Anar Quliyev**, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri.

**Fuad Nağıyev**, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri.

**Sahib Ələkbərov**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini.

**Anar Kərimov**, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini.

**İlhamə Qədimova**, Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini.

**Vüqar Kərimov**, Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini.

**Rasim İsmayılov**, Azərbaycan Respublikası səhiyyə nazirinin müavini.

**Ragim Lətifov**, Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini.

**Samir Məmmədov**, Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini.

**Fərhad Hacıyev**, Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini.

**Fərid Cəfərov**, Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini.

**Valeh Hacıyev**, Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini.

**Yusif Yusifov**, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini.

**Zəkiyyə Mustafayeva**, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi sədrinin müavini.

**Fikrət Şirinov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin şöbə müdiri.

**Elşad İsgəndərov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin sektor müdiri.

**Sadiq Əliyev**, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin şöbə müdiri.

**Samir Əhədov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin baş idarə rəisinin müavini.

**Vüqar Gülməmmədov**, Azərbaycan Respublikası Hesablama Palatasının sədri.

**Bəxtiyar Əsgərov**, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi nümayəndəliyinin rəhbəri.

**Azər Əmiraslanov**, Azərbaycan Respublikası Nazirlər Kabinetinin İqtisadiyyat şöbəsinin müdiri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

2. Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

3. İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

4. Azərbaycan Respublikasında 2024-cü il üçün yaşayış minimumu haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

5. Azərbaycan Respublikasında 2024-cü il üçün ehtiyac meyarının həddi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

6. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

7. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

8. "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

9. "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

10. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

11. “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

12. “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

13. Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.

14. Azərbaycan Respublikası Hesablama Palatasının 2024-cü il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.

15. “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Türkiyə Respublikasının Kahramanmaraş vilayətində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzinin tikilməsi haqqında Əməkdaşlıq Sazişi”nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**1. “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

**2. "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.03 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

**3. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Siyavuş Novruzov, Rüfət Quliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.15 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

**4. “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.18 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**5. “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.20 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**6. Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Firudin Hacıyev, Aydın Mirzəzadə, Sabir Rüstəmxanlı, Hikmət Məmmədov

**7. Azərbaycan Respublikası Hesablama Palatasının 2024-cü il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Vüqar Gülməmmədov, Fazil Mustafa

**8. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Türkiyə Respublikasının Kahramanmaraş vilayətində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzinin tikilməsi haqqında Əməkdaşlıq Sazişi"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Fazil Mustafa, Səməd Seyidov, Musa Qasımlı, Hikmət Məmmədov

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.50 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*15 noyabr 2023-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Hörmətli hökumət üzvləri, hörmətli deputatlar, hörmətli media nümayəndələri. Hamınızı xoş gördük. Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 93 |
| Yetərsay | 83 |

Yetərsay var, iclasa başlaya bilərik. Hörmətli həmkarlar, biz iclasımıza davam edirik. Növbəti məsələyə keçirik. 8-ci məsələ. “Nağdsız hesablaşmalar haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Tahir Mirkişiliyə söz vermək istəyirəm.

Tahir müəllim, buyurun.

**T.Mirkişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, qanuna təklif olunan dəyişiklik texniki xarakter daşıyır. Belə ki, bir nəzarət-kassa aparatı çekinin bir əməliyyat sayılmasını özündə ehtiva edir. Komitənin rəyi məqbuldur, dəstəkləməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən yoxdur, ona görə mən məsələni səsə qoyuram. Qanun layihəsinə birinci oxunuşda münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Növbəti 9-cu məsələ "Sığorta fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəni təqdim etmək üçün, Tahir müəllim, mən yenə də Sizə söz vermək istəyirəm. Buyurun.

**T.Mirkişili**. Çox sağ olun, xanım sədr. Hörmətli həmkarlar, qanun layihəsi sığortaçı şirkətlər iflas olduğu halda, onların aktivlərinin bölünməsi növbəliyi ilə bağlıdır. Belə ki, müvafiq qanunun 119-cu maddəsinə əsasən müəyyən edilmiş növbəlik qanunda ayrıca göstərilir. Təklif olunan dəyişiklik ləğv edilən sığortaçının dövlət büdcəsinə və büdcədənkənar dövlət fondlarında ödəməli olduğu vergi və digər məcbur ödənişlərin heç bir müddət

məhdudiyyəti tətbiq edilmədən tam müddətdə ödənməsini özündə ehtiva edir. Komitənin rəyi məqbuldur. Dəstəkləməyinizi xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.03 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələmiz "Banklar haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Tahir müəllim, buyurun, məlumat verin. Sizin məsələnizdir, komitənizdə baxılıb.

**T.Mirkişili**. Çox sağ olun, xanım sədr. Hörmətli həmkarlar, bu qanun layihəsində edilən dəyişiklik də bundan əvvəlki ilə eynidir, bank müflis olduğu halda, onun aktivlərinin heç bir məhdudiyyət tətbiq edilmədən və vaxt məhdudiyyəti olmadan dövlət büdcəsinə olan ödənişlərin tam məbləğdə ödənilməsini özündə ehtiva edir. Komitənin rəyi məqbuldur, bir daha dəstəkləməyinizi xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Siyavuş müəllim yazılıb. Siyavuş Novruzov. Buyurun.

**S.Novruzov**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli deputatlar, hörmətli hökumət nümayəndələri. “Banklar haqqında” Qanuna mən də səs verəcəyəm. Amma bir neçə fikrimi bildirmək istəyirəm. Ümumilikdə, Azərbaycan müstəqilliyini əldə etdikdən sonra ölkəmizdə bank sistemi yarananda təxminən 300-ə yaxın özəl bank fəaliyyət göstərirdi. Təbii ki, bank sistemi tədricən təkmilləşdi və nizamnamə kapitalının artması ilə əlaqədar olaraq bir sıra banklar sıradan çıxdı, bir sıra banklar qanuni fəaliyyət göstərmədiyinə görə ləğv olundu, vətəndaşlara borclu olduqlarına görə ləğv olunanlar da oldu və bunlar tədricən azaldı. Bu gün Azərbaycanda dövlət bankından başqa, demək olar ki, 40-a yaxın özəl bank fəaliyyət göstərir.

Dünyada əsas cəhətlərdən biri bank sisteminin həm yerli filiallarının, həm də ümumiyyətlə, özəl bank sisteminin olmasıdır ki, burada çox sayda vətəndaşla birbaşa ünsiyyət qurulsun və qarşılıqlı rəqabət yaransın. Yəni bir bank vətəndaşa, məsələn, faizlə kredit verirsə, başqası fərqli faizlə kredit verməklə rəqabət yarada bilər. Yaxud da ki, bir bank vətəndaşdan depoziti bir faizin bir hissəsi ilə götürürsə, digəri başqa hissə ilə götürür. Mən hesab edirəm, bu da nəzərə alınmalıdır.

Bu gün vətəndaşlarımızın orta və kiçik sahibkarlıqla məşğul olması üçün ala biləcəkləri kreditlərin faizi, doğrudan da, yüksəkdir. 14 faizdən başlayır. Düzdür, keçmişdə daha yuxarı idi, bu, tədricən təkmilləşibdir, mərhələ-mərhələ aşağı salınıbdır. Amma bu gün vətəndaş bankdan illik 14 faizlə kredit götürüb, hər hansı bir təsərrüfatla, yaxud da bizneslə məşğul olsa, bunu qaytarmaq çətin məsələdir. Yəqin ki, vətəndaş da kiçik və orta sahibkarlıqla məşğul olsa, külli miqdarda vəsait götürə bilmir. O, 40-50 min civarında götürə bilər. Bunu da qaytarmaq üçün elə ancaq

faizə işləməlidir, qalan şeylər isə tamamilə qıraqda qalır.

Ona görə hesab edirəm ki, burada birinci məsələ bankların faiz dərəcəsinin aşağı salınması olmalıdır. Düzdür, bizdə güzəştli kreditlər var, dövlət tərəfindən kənd təsərrüfatına, ayrı-ayrı sahələrə 3-7 faiz arasında verilir. Amma digər vətəndaşlar üçün də əlçatan olmalıdır ki, onlar bu kreditləri ala bilsinlər, heç olmasa, öz fərdi təsərrüfatlarını qurub, həm ərzaq təhlükəsizliyinə xidmət göstərsinlər, eyni zamanda, hər hansı bir gəlir əldə eləsinlər, regionlarımızda iş yerləri açılsın və kiçik biznes və orta sahibkarlıq inkişaf eləsin, rayonlara investisiyalar daxil olsun. Dünən də müzakirələrimizdə qeyd elədik ki, investisiyaların daxil olması vacib şərtlərdəndir.

İkincisi, bankların xarici banklarla əməkdaşlığı məsələsidir. Demək olar ki, bizdə bankların xarici banklarla əməkdaşlığı sıfır səviyyəsindədir. Keçmişdə Almaniyanın başqa-başqa banklarından 3-5 faizə vəsaitlər alınırdı, o da vətəndaşa verilirdi. Burada həm bank qazanırdı, həm də vətəndaşa verilən faizlər aşağı düşürdü. Amma bu gün artıq bunlar da sıradan çıxıbdır, az bir sahədədir.

Üçüncü məsələ. Mən yenə puldəyişmə məntəqələrinin sayının artırılması məsələsinə qayıdıram. Şənbə, bazar, bayram günləri bunların işləməsi məsələsi. Hamısı banklarda, yaxud da bank filialının  içərisində yerləşir. Vətəndaşlar məcbur qalırlar ki, bazar günləri şəhərdə belə bir yer axtarsınlar. Kənd rayonlarında isə artıq qara bazar fəaliyyət göstərir. Yəni artıq müəyyən bazarların içərisində, müəyyən avtobus dayanacaqlarında pullar əldə dəyişilir. Yəni bundan da dövlətə hər hansı bir xeyir gəlmir. O baxımdan da mən hesab edirəm ki, bunların sayının artırılması, müasir qurulması... Təbii ki, orada şəxsiyyət vəsiqəsi yoxlanılır. Şəxsiyyət vəsiqəsinə əsasən pul dəyişilir.

Bunun sayı artırılsın. Həm iş yeridir, insanlar otursun, işləsinlər, həm də digər məsələlər öz həllini tapsın. Mən hesab edirəm ki, qanun layihəsinə səs verəcəyik. Amma gələcəkdə bu məsələlərdə bank sistemi, – ölkənin qan-damar sistemidir, – tam şəkildə öz əksini tapmalıdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Rüfət Quliyev. Buyurun.

**R.Quliyev.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli millət vəkilləri, hörmətli dövlət qurumlarının nümayəndələri, hörmətli jurnalistlər. Mən komitə iclasında çıxışımda da qeyd elədim. Təbii ki, mən bu layihəyə səs verəcəyəm. Amma mən komitə iclasında da çıxış eləyəndə elə bu bank faizləri ilə əlaqədar qeyd elədim. Hörmətli Siyavuş müəllimin dedikləri ilə razıyam. Burada bir məqam var. Bizim sahibkarlar üçün xüsusi fond var ki, onlara aşağı faizlərlə kreditlər ayrılır. Mənim aldığım məlumata görə, təxminən 5-5,5 faizdir. Amma burada maraqlı bir məqam var. Deməli, bunlar bu kreditləri ancaq istehsalata, yaxud da sırf kənd təsərrüfatına ayırırlar.

Bu gün Azərbaycanda yeni yaranan şirkətlər var. Onlar nə istehsalatla, nə də ki, kənd təsərrüfatı ilə məşğuldur. Amma bu şirkətlərin rolu gündən-günə artır və onlar dünyada ən tanınmış şirkətlərə çevriliblər. Bunlar brend daşıyan şirkətlərdir. Bunların funksiyası nədən ibarətdir? Bunlar öz vəsaitinə xüsusi brend yaradırlar. Bilirsiniz ki, artıq Azərbaycanda tanınmış milli brendlər var. Onlar artıq xaricdə də tanınıb, qəbul olunub. Bu şirkətlər öz vəsaitləri hesabına kənd təsərrüfatı məhsulu alırlar. Zavodlara, fabriklərə aparırlar, emal eləyirlər və qablaşdırırlar, sifariş verirlər. Öz brendlərinin adı altında bu malı istər daxili bazara göndərir, istərsə də daha çox xarici bazara ixrac edirlər. Mən sizə deyim, həqiqət ondan ibarətdir ki, kənd

təsərrüfatına kifayət qədər fikir verilmişdir.

Aldığımız məlumatlara görə, bu, əsasən, meyvələrə aiddir. Kənd təsərrüfatında çox məhsul var. Amma onları vaxtında sata bilmirlər, problemlərlə üzləşirlər. Məsələn, mövsüm qiyməti çox ucuz olur, onlara sərf eləmir. Digər tərəfdən, Azərbaycanda onlarca emal müəssisəsi açılıb. Özü də bunu möhtərəm cənab Prezident də qeyd eləmişdi. Amma bunlar cəmi 35-45 faiz gücünə işləyirlər və bunlara da sifarişlər lazımdır. Mən qayıdıram bu brend şirkətlərinə. Brend şirkətləri bu işi görür, yəni məhsulu alır, verir, sifarişini verir, öz markası adında məhsul istehsal edir və təbii ki, onun keyfiyyətinə nəzarət edir. Amma bunlara xüsusi bir şərait yaradılmalıdır, bunlar inkişaf eləməlidirlər, bunlar qabağa getməlidirlər. Ona görə ki, bunlar həm kənd təsərrüfatında yaranan problemləri həll edirlər, həm də bizim müasir tipli tikilmiş emal zavodlarını tam güclə işlədə bilərlər. Əfsuslar olsun ki, bunlara xüsusi kreditlər ayrılmır. Çünki onların fəaliyyətinə həmin məsələ şamil olunmur.

Düzdür, bu fond kifayət qədər böyük işlər görür, köməklik edir. Amma görürsünüz, burada bizə elə bir şirkət, şirkətlər lazımdır, onlar o malları istehsal edib, xarici bazara, daxili bazara çıxara bilsin. Azərbaycanın özündə kifayət qədər belə şirkət var ki, məhsulları daxili bazara da, xaricə də çıxarırlar. Amma  bunlarda deməli, maliyyə qıtlığı var. Onların imkanı çatmır ki, həm o məhsulu alsınlar, həm emal eləsinlər, həm xaricə çıxartsınlar, həm də öz milli brendlərini təbliğ, təşviq eləsinlər. Burada AZPROMO-nun da, KOBİA-nın da kifayət qədər köməyi var. Bunlar hamısı göz qabağındadır. Amma maliyyə dəstəyi olmasa, bu şirkətlərin işi yubanacaq. Ona görə mən təklif edərdim, komitə iclasında da bunu qeyd elədim,

imkan olsa, dövlət strukturları bu sahibkarlıq fonduna şərait yaratsınlar ki, bu şirkətlərə həmin 5-6 faizlə kreditlər ayrılsın. Mənə elə gəlir ki, bu, böyük bir təkan olacaq və bir çox problemləri də həll edəcək. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Çıxışlar başa çatdı. Mən məsələni səsə qoyuram. Hörmətli həmkarlar, xahiş edirəm, "Banklar haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin birinci oxunuşda qəbul edilməsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.15 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. 11-ci məsələ "Sosial sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Musa Quliyevə söz verirəm. Musa müəllim, buyurun.

**M.Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. "Sosial sığorta haqqında" Qanuna təklif edilən dəyişikliklər texnologiyalar parkının rezidenti, onun podratçısı və podratçı ilə birbaşa müqavilə bağlamış subpodratçı,

habelə bu şəxslər tərəfindən həmin fəaliyyət məqsədi ilə cəlb edilən fiziki şəxslərin sosial sığorta haqlarının ödənişində seçim imkanlarının genişləndirilməsi və dürüstləşdirilməsi məqsədi daşıyır. Belə ki, mövcud qanuna görə, yuxarıda adlarını qeyd elədiyim şəxslər 2023-cü il yanvarın 1-dən 10 il müddətinə məcburi dövlət sosial sığorta haqqını öz seçimlərindən asılı olaraq minimum aylıq əmək haqqı məbləğinin dörd misli miqdarında və yaxud da bu qanunun 14.3-cü və 14.4-cü maddələrinə uyğun olaraq, ödəyə bilərlər və öz seçimləri barədə sığorta edənə hər il yanvarın 15-nə qədər yazılı məlumat verməlidirlər. Amma bu hüquq yanvarın 15-dən sonra yarandığı halda isə, məsələnin həlli ilə bağlı çoxlu suallar ortaya çıxır. Çünki qanunda olan boşluqlar bu imkanı həmin şəxslərə yaratmır. Təklif edilən dəyişiklik ondan ibarətdir ki, həmin şəxslərin seçim hüququ yanvarın 15-dən sonra da yarandığı halda, həmin seçim hüququ yaranan ayın 15-nə qədər, yaxud növbəti ayın 15-nə qədər yazılı şəkildə sığorta edənə bu barədə məlumat verməlidir və öz seçim hüququnu reallaşdırmalıdır.

Digər bir dəyişiklik isə burada yalnız əmək müqaviləsi bağlamış fiziki şəxslərə bu hüququn şamil olunmasıdır. Yəni mülki hüquqi müqavilə əsasında işləyənlərə də əvvəl boşluq olduğuna görə bu, şamil olunurdu. Qeyd olunan dəyişiklik, əlbəttə, texnologiyalar parkının rezidenti və onunla bağlı fəaliyyət göstərən şəxslərin sosial sığorta imkanlarını genişləndirmək və hüququnu artırmaq məqsədi daşıyır. Xahiş edirəm, qanun layihəsinə birinci oxunuşda dəstək verəsiniz. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Çıxış etmək istəyən yoxdur. Ona görə hörmətli həmkarlar, qanun layihəsinə səs verməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.18 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim növbəti məsələmiz “Gömrük tarifi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. 12-ci məsələmizdir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün, Tahir müəllim, buyurun, söz Sizindir.

**T.Mirkişili**. Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, qanun layihəsi “Gömrük taarifi haqqında” Qanunun Gömrük rüsumlarından azadedilmə haqqında olan 20-ci maddəsinə 6 yeni maddənin əlavə edilməsini özündə ehtiva edir. Məhz bu maddələrə görə, mal və xammalın avadanlıqların idxalını dəstəkləmək məqsədi ilə müvafiq qurumlar, Mərkəzi  Bank hasilatın pay bölgüsü haqqında sazişlərdə Azərbaycan Respublikasını təmsil edən hüquqi şəxslər və sair tərəfindən bir sıra malların idxalının, eləcə də müəyyən məqsədlər üçün onlara humanitar yardımın göstərilməsi, müdafiə təyinatlı məmulatların yaradılması və istehsal və sair üçün malların idxalının gömrük rüsumlarından azad edilməsi məqsədi ilə hazırlanmışdır. Komitənin rəyi məqbuldur, sizdən də dəstəkləməyinizi xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Tahir müəllim, çox sağ olun. Çıxış etmək istəyən yoxdur. Mən məsələni səsə qoyuram. Hörmətli həmkarlar, xahiş edirəm, "Gömrük taarifi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə birinci oxunuşda münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.20 dəq.) |
|---|---:|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti iki məsələsi Milli Məclisin qərar layihələridirlər. Bu layihələr Milli Məclisin və Hesablama Palatasının xərclər smetaları ilə bağlıdır. Qeyd edim ki, biz bu qərar layihələrini müzakirə edəcəyik, amma bu gün qəbul etməyəcəyik. Çünki büdcə zərfi sənədləri üçüncü oxunuşda qəbul edilərkən onlarla birlikdə qəbul edəcəyik. Beləliklə, hörmətli həmkarlar, biz gündəliyin 13-cü məsələsinə keçirik və bu məsələ Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il üçün xərclər smetası haqqında qərar layihəsidir. Məsələyə dair məlumat vermək üçün mən Milli Məclisin İşlər müdiri hörmətli Firudin Hacıyevə söz verirəm. Firudin müəllim, buyurun.

**F.Hacıyev,** *Milli Məclisin İşlər müdiri.*

Təşəkkür edirəm, xanım sədr. Hörmətli sədr, hörmətli deputatlar! Bildiyiniz kimi, Azərbaycan Respublikası Mil-

li Məclisinin Daxili Nizamnaməsinin 52-ci maddəsinə əsasən Milli Məclisin xərclər smetası növbəti ilin dövlət büdcəsinə baxılarkən təsdiq edilir. Gələn il üçün tərtib olunmuş xərclər smetasının layihəsi sizə təqdim edilmişdir. Milli Məclisin və onun Aparatının 2024-cü il üçün xərclər smetasının layihəsi qanunvericilikdə nəzərdə tutulan qaydaya uyğun olaraq, ştat cədvəlləri, inzibati binaların mühəndis qurğularına xidmət göstərən təşkilatlarla bağlanmış müqavilələr və proqnozlar əsasında tərtib edilmişdir.

Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində Milli Məclisin və onun Aparatının saxlanılması üçün 50 milyon 919 min 10 manat vəsait nəzərdə tutulmuşdur. Bildirmək istəyirəm ki, xərclər smetasının ümumi dəyərinin 75,12 faizini əmək haqqı fondu və əmək haqqı ilə əlaqədar ayırmalar təşkil edir.

Nəzərinizə çatdırmaq istəyirəm ki, Milli Məclisin deputatlarının, Aparatın və İşlər İdarəsinin əməkdaşlarının xidməti otaqları, həmişə olduğu kimi, kompüter dəstləri və tələb olunan digər ləvazimatlarla təmin edilmişdir. Bu işlər mütəmadi olaraq bu gün də davam etdirilir.

2023-cü ildə Azərbaycan parlamentinə xarici ölkələrdən gələn qonaqların və Milli Məclisin deputatlarının xarici səfərlərinin, eləcə də ölkədaxili ezamiyyələrin sayı əvvəlki illə müqayisədə xeyli artmışdır. Bundan başqa, 2023-cü ildə Azərbaycan Respublikası Milli Məclisinin təşkilatçılığı ilə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin ikinci iclası və bir sıra digər beynəlxalq səviyyəli tədbirlər keçirilmişdir.

2023-cü il üçün Milli Məclisin xərclər smetasında əksər maddələr üzrə işlərin və xidmətlərin satın alınması "Dövlət satınalmaları haqqında" Qanunun müvafiq maddəsi

tətbiq edilməklə tender və sorğu yolu ilə həyata keçirilmişdir.

2023-cü ilin xərclər smetasında nəzərdə tutulmuş vəsait hesabına Milli Məclisin avtoparkının maddi-texniki bazasının yaxşılaşdırılması məqsədi ilə müxtəlif növ avtomobillər alınaraq  istismara verilmişdir.

"Elektron sənəd dövriyyəsi", "Elektron kadr və maliyyə uçotu" dövlət informasiya sistemlərinin yaradılması ilə əlaqədar tender satınalma predmeti vasitəsi ilə həyata keçirilən işlər 2023-cü ilin sonuna kimi davam etdiriləcəkdir. Eyni zamanda, Milli Məclisdə "Elektron sənəd dövriyyəsi", "Elektron kadr uçotu" və "Əmək haqqı" proqramı təminatlarının tətbiqi üçün server avadanlıqları alınaraq quraşdırılmışdır. Bundan başqa, Milli Məclisin plenar iclas zalının texniki təminatı üçün 2006-cı və 2009-cu illərdə quraşdırılmış elektron səsvermə sistemi üçün bir sıra ehtiyat hissələri alınmışdır. 2024-cü ildə inzibati binada yerləşən server avadanlığının işlək formada saxlanılması və inteqrasiya işlərinin aparılması məqsədi ilə tələb olunan avadanlıqların və onlar üçün proqram təminatlarının alınması nəzərdə tutulur.

Bundan başqa, elektrik yarımstansiyalarında yenidənqurma işlərinin aparılması və istismara yararsız hala düşmüş elektrik avadanlıqlarının yenisi ilə əvəz edilməsi, server otaqlarında və iclas salonlarında elektron səsvermə sistemlərini idarə etmək üçün ayrılmış xüsusi otaqlarda quraşdırılmış DATA mərkəzdə yenidənqurma işlərinin aparılması tələb olunur.

Nəzərinizə çatdırmaq istəyirəm ki, Milli Məclisin inzibati binalarında, iclas salonlarında, həyətyanı sahəsində, maşın zalında və avtoparkında mütəmadi olaraq cari təmir işləri bu gün də davam etdirilməkdədir.

Hörmətli sədr, hörmətli deputatlar! 2024-cü ilin dövlət büdcəsində Milli Məclis üçün nəzərdə tutulmuş xərclər smetasına dair əlavə açıqlamaya ehtiyac olduğu təqdirdə suallarınıza cavab verməyə hazıram. Sizdən Milli Məclisin 2024-cü il üçün xərclər smetası layihəsinin təsdiq edilməsinə səs verməyinizi xahiş edirəm. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun, Firudin müəllim. Yazılanlar var. Aydın Mirzəzadə. Aydın müəllim, buyurun

**A.Mirzəzadə**. Təşəkkür edirəm, xanım sədr. Xərclər smetası haqqında layihəni bəyənirəm. Ona dair hər hansı bir əlavəm yoxdur. Sadəcə, fürsətdən istifadə edərək mən Milli Məclis Aparatına öz təşəkkürümü bildirmək istəyirəm. Fəaliyyətimizin həyata keçirilməsi üçün məsələyə dair müraciət etmək istəmirəm. İstər bu hüquqi yardım məsələsi, istərsə də texniki bir problemin həlli olsun, biz həmişə Milli Məclis Aparatı ilə İşlər İdarəsindən kömək görmüşük. Yəni bu iş belə təşkil olunduğuna görə Milli Məclis Aparatı və İşlər İdarəsi işçilərinə bizə həmişə kömək etdiklərinə, yanımızda olduqlarına görə öz təşəkkürümü bildirmək istəyirəm.

**Sədrlik edən.** Çox sağ olun, Aydın müəllim. Sabir Rüstəmxanlı. Sabir müəllim, buyurun.

**S.Rüstəmxanlı**. Təşəkkür edirəm, hörmətli sədr. Milli Məclisin İşlər İdarəsinin fəaliyyəti, doğrudan da, yüksək qiymətləndirilməlidir. İllər uzunu mən bunu öz təcrübəmdə müşahidə etmişəm. Deputatlarla bağlı bütün problemlərin həllinə operativ müdaxilə edirlər, kömək etməyə çalışırlar. Bu, çox müsbət bir haldır. Bu məsələ, ümumiyyətlə, Milli Məclis Aparatının işi bütün millət vəkillərinin, Milli Məclis üzvlərinin hamısına aid olan məsələdir. Amma Milli Məclisin deputatlarının başqa qayğıları da

var. Bunu başqa iclaslarda, yığıncaqlarda demək mümkün deyil. Bu Məclisdə mən onun bir neçəsini dilə gətirmək istəyirəm.

Əvvəllər millət vəkilləri diplomatik pasportla, yaxud hər hansı şəkildə xarici ölkələrə gedəndə öz ailə üzvlərini yanlarında apara bilirdilər və sonda onlar olmadan da onların övladı və ya həyat yoldaşı VIP salondan istifadə edə bilirdi. Binanın hər yerində belədir. Hətta millət vəkili olub, sonra millət vəkili olmayan, əvvəl nazir olub, indi nazir olmayanlar o xidmətdən istifadə edirlər. Yəni VIP salonundan onlar da, ailələr də istifadə edirdilər. İndi bizdə qayda belədir, özün gedirsənsə, istifadə edə bilərsən, özün getmirsənsə, sənin ailə üzvlərin oradan gedə bilməz. Bu nə qanundur, mən başa düşmürəm. Necə münasibət-dir? Əksinə, sən getmirsən və istəyirsən ki, sənin ailə üzvlərin oradan... Millət vəkillərinə yüz cür münasibət var. Yəni o, insanların arasına qarışır. Başa düşürəm, müəyyən problemlər çıxa bilər və sair. Mən bunu nəzərə çatdırmaq istəyirəm. Həm də ki, VIP salonuna alış-veriş adamı, ticarət adamı, kimlərinsə vəzifə sahiblərinin qohumları sərbəst gedib gəlirlər. Amma millət vəkillərinin bundan istifadə etmək imkanları yoxdur.  Niyə belədir? Bu cür ögey münasibət niyə olmalıdır? Mən istəyirəm ki, bu məsələ bizim əlaqədar orqanların qarşısında qaldırılsın.

Bir dəfə də demişdim. Bizim millət vəkilinin vaxtı bitir, sonra diplomatik pasportu təqdim edir. Bu da heç yerdə yoxdur. Diplomat, millət vəkili bir dəfə seçilir və sonrakı fəaliyyətində də onun gördüyü işlərin çoxu elə dövlətin maraqları içindədir. Gedir, diplomatik fəaliyyətlə məşğul olur, müəyyən ölkələrə vizasız getmək imkanları olur. O, başqa nə işlə məşğul olur ki? Yəni tələm-tələsik pasportlar geri verilməldir. Deyək ki, yaşamısan, müəyyən bir yaşa

gəlmisən, bir təcrübən var, xidmətin var. Amma bunların heç biri nəzərə alınmadan hökmən qaytarılmalıdır.

Bundan başqa, mən bizim pansionatda qalıram. Təxminən 30 ildir, nazir olduğum vaxtdan orada qalıram. İkiotaqlı bir mənzilim var. Mənim bütün yazı-pozu işlərim ora ilə bağlıdır, sakit bir yerdir, oranın havası təmizdir və sair. Amma mən orada biznesmen kimi qalıram. Mən başa düşmürəm, mən biznesmenəm? Hətta Milli Məclisin komitə sədrləri, hökumət işçiləri güzəştli şəkildə qalır, amma millət vəkili, ondan daha az maaş alan adam, məsələn, mən orada qalmağa məcburam. Başqa imkanım yoxdur, amma mən biznesmen kimi qalıram. Məndən biznes müqavilələri ilə, biznes uçotu ilə belə illik pul alırlar. Bu harada görülüb? Nəyə görə? Nəyə görə bir millət vəkilinə belə yanaşılmalıdır? Mən xahiş edirəm, bu məsələdə Nazirlər Kabinetinin işçiləri, başqa strukturların işçiləri normal qiymətlə qalırlar, bizdən iki və üç dəfə artıq pul tələb olunur. Mən bunların hamısına millət vəkilinin statusunun aşağı salınması kimi baxıram. Millət vəkilinin və Milli Məclisin statusu aşağı salına bilməz. Bu, dövlətin içində, Azərbaycanın dövlət müstəqilliyində xüsusi xidməti olan bir orqandır. Millət vəkilləri də ən ağır yükü daşıyırlar. Millətlə üz-üzə, camaatın şikayətlərini qəbul edirlər, gərgin, əsəbidirlər. Bu 30 ildə biz nələr çəkmişik, bunu hamı bilir. Amma gedirsən, deyilir ki, sən biznesmensən. Elə şey olarmı? Xahiş edirəm, şübhəsiz, bunu Milli Məclis həll edə bilməz, amma bu, əlaqədar təşkilatlarla müzakirə olunmalıdır. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hikmət Məmmədov. Buyurun.

**H.Məmmədov**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli Hökumət üzvləri! Hamınızı salamlayıram. Azərbaycan Respublikası Milli Məclisinin və onun

Aparatının 2024-cü il üçün xərclər smetası ilə bağlı xərclərin qəbul ediləcəyi ilə əlaqədar layihəyə səs verəcəyəm. Ancaq məsələ ondadır ki, hazırda parlamentin fəaliyyəti də yeni bir keyfiyyət mərhələsinə daxil olubdur. Bu, dünyada və ölkəmizdə baş verən islahatlarla bağlıdır və parlamentin fəaliyyətində parlament diplomatiyası daha çox önə çıxır. Azərbaycan xalqının milli maraqlarının məhz parlament fəaliyyəti üzərindən təmsil olunması üçün, qorunması üçün çoxsaylı tədbirlər, çoxsaylı səfərlər həyata keçirilir. Ona görə düşünürəm ki, bu yeni keyfiyyət statusunda Mili Məclisin həm Aparatının, həm də Milli Məclisin digər texniki xərclərinin artırılmasına bir qədər daha çox ehtiyac var.

Burada hörmətli Firudin müəllim sadaladı. Doğrudan da, yarımstansiyaların dəyişdirilməsi, texniki xidmətlər keyfiyyətinin yaxşılaşdırılması kimi məsələlər... Amma bizim hər gün istifadə etdiyimiz texniki avadanlıqlar var. Hörmətli Samir müəllim, onlardan biri bizim önümüzdədir – bu kompüterlər. Biz, əlbəttə ki, əlavə maliyyə xərclərindən yayınmaq üçün daha kağız vasitələrindən istifadə etmirik, bu, çox yaxşı bir ənənədir. Elektron vasitələrlə gündəlik, qanun layihələri təqdim olunur. Amma çox təəssüf ki, önümüzdəki bu kompüterlərdən istifadə edən zaman çətinliklər yaranır. Məsələn, mən indi təqdim olunan bu layihəni açmaq üçün bir neçə dəfə buradakı "düymələri" tıkladım və nəhayət, aça bildim və sair. Ona görə mən düşünürəm ki, heç gələn ildən sonrakı büdcəyə qoymadan elə indi maliyyə nazirliyinin daxili imkanları hesabına, ya bilmirəm, hansı isə bir formada Milli Məclisin büdcəsinə  önümüzdə olan kompüterlər daha funksional, daha keyfiyyətli kompüterlərlə də əvəz olunması məsələsi də bu maliyyə sənədində öz əksini tapsın. Diq-

qətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Hikmət müəllim. Onların hamısı bizim planımızda var. İndi Firudin müəllim Sizə dedi, yoxsa yox...

Çox sağ olun, hörmətli həmkarlar. Qərar layihəsi ilə bağlı kimsə daha çıxış etmək istəmir. Təşəkkür edirəm. Dediyim kimi, biz səsverməni sonra keçirəcəyik. İndi isə 14-cü məsələyə keçirik. Bu, Azərbaycan Respublikası Hesablama Palatasının 2024-cü il üçün xərclər smetası haqqında qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün mən palatanın sədri hörmətli Vüqar Gülməmmədova söz verirəm. Vüqar müəllim, buyurun.

**V.Gülməmmədov,** *Azərbaycan Respublikası Hesablama Palatasının sədri.*

Təşəkkür edirəm, Sahibə xanım. Hörmətli millət vəkilləri, Azərbaycan Respublikasının Hesablama Palatasının 2024-cü il üçün ümumi xərcləri 11 milyon 424 min 588 manat müəyyən edilib. Bu xərc cari ildən – 2023-cü ildən 798,6 min manat və yaxud 8 faiz artıqdır. Bunun əsas səbəbi Naxçıvan Muxtar Respublikası üzrə Hesablama Palatasının idarəsinin növbəti ildən mərkəzləşmiş xərclərdən, yəni palatanın ümumi xərclərindən maliyyəşməsi ilə bağlıdır. Ümumi 11,4 milyonluq növbəti il üçün xərclər smetasının təqribən 91 faizi əmək haqqı xərcləridir. 98,5 faizi cari, 1,5 faizi əsaslı xərclərdir.

Hörmətli millət vəkilləri, sizlərə təqdim olunan Hesablama Palatasının xərclər smetası onun növbəti ildə fəaliyyətinin daha səmərəli təşkil edilməsinə və beynəlxalq əməkdaşlığın genişləndirilməsinə və ən nəhayət, nəzarət tədbirlərinin aparılması üçün kifayət qədərdir. Hörmətli millət vəkillərindən bu xərclər smetasını dəstəkləməyi xahiş edirəm. Minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən var. Fazil Mustafa. Buyurun.

**F.Mustafa**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli millət vəkilləri, mən qısaca bir məsələyə münasibət bildirmək istəyirəm. Milli Məclislə Hesablama Palatası arasında əvvəlki illərdən fərqli olaraq çox yaxşı mənada münasibətlər sistemi qurulubdur. Son 3 ildə, mən uzun illərdir, parlamentdə Hesablama Palatasının rəylərini, demək olar ki, sona qədər oxuyub, araşdırıb baxdığıma görə deyirəm. Millət vəkillərinə kömək edən, millət vəkillərinin bu büdcə layihəsinin izahı baxımından faydalana bildiyi çox ciddi sənədlər hazırlanır. Xüsusilə Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən sığorta fondunun bu layihələrdə büdcə layihəsi ilə bağlı çox önəmli təkliflər verilir. Hətta mən hesab edirəm ki, Hesablama Palatasının rəyi bazasında çox ciddi islahatlarkeçirmə potensialı, imkanları var. Bu da onu göstərir ki, çox sağlam kadr bazasına malikdir.

Eyni zamanda, orada, xüsusi ilə mədəniyyət problemi ilə və başqa məsələlərlə bağlı bir neçə dinləmələrdə olmuşam. Həm bu sahədə olan problemlərin, nöqsanların, həm də qanunvericilikdə zəruri olan hansı isə təkliflərin peşəkarcasına hazırlanması istiqamətində xeyli tövsiyələr təqdim olunub. O baxımdan mən istərdim ki, bu Hesablama Palatasının ekspert bazasının genişlənməsi istiqamətində imkanlar bir az artırılsın. Yəni bunlar müxtəlif sahələrdə komitələrə də böyük köməklik göstərə bilərlər. Çünki ayrılan vəsaitlərin hansı istiqamətdə xərclənməsi, daha vacib prioritetlərin seçilməsi baxımından olduqca vacibdir. Açığı, bu qurumun bu cür peşəkar fəaliyyət göstərməsinin Milli Məclisin özünün də fəaliyyətində deputatların keyfiyyətcə daha səmərəli bilgi almasına köməklik

etdiyini vurğulamaq istərdim. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Fazil müəllim. Hörmətli həmkarlar, dediyim kimi, bu məsələyə də biz sonra səs verəcəyik.

İndi isə biz 15-ci məsələyə keçirik və bu məsələ də Azərbaycan–Türkiyə qardaşlığının və dostluğunun növbəti nümunəsi olan bir sənəddir. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Türkiyə Respublikasının Kahramanmaraş vilayətində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzinin tikilməsi haqqında Əməkdaşlıq Sazişi"nin təsdiq edilməsi barədə qanun layihəsi diqqətinizə təqdim edilir. Hörmətli həmkarlar, mən onu da qeyd edim ki, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən qanun layihəsi bir oxunuşda baxılıb qəbul ediləcək. Məsələyə dair məlumat vermək üçün mən Mədəniyyət komitəsinin sədr müavini Fazil Mustafaya söz verirəm. Fazil müəllim, buyurun, bu sizin komitənizin məsələsidir.

**F.Mustafa,** *Milli Məclisin Mədəniyyət komitəsi sədrinin müavini.*

Sağ olun, hörmətli xanım sədr. Bu məsələ, bütövlükdə, Azərbaycan dövləti ilə Türkiyə Cümhuriyyəti arasında olan qardaşlıq prinsiplərinə əsaslanan və bizim ölkə Prezidentinin də Türkiyədə səfərdə olduğu müddətdə bir qardaşlıq köməyi olaraq təklif etdiyi məsələ ətrafında hazırlanıbdır. Azərbaycan tərəfinin bu saziş əsasında çox ciddi 100 milyon civarında bir məbləğ sərf edərək burada yenidənqurma işlərinin həyata keçirilməsini təmin etməsi nəzərdə tutulub. Burada həm də müxtəlif binaların, ibtidai məktəblərin, uşaq bağçalarının, mədəniyyət mərkəzlərinin tikilməsi, eyni zamanda, orada zəruri olan digər infras-

truktur problemlərinin həllinə yönələn vəsaitdən söhbət gedir.

Bu sazış birinci növbədə bizim Türkiyə ilə münasibətlərimizin ən ciddi mərhələsini ifadə edir. Ona görə də hesab edirəm ki, bu bizim qarşılıqsız bir-birimizə kömək etmək, qardaşlıq borcumuzu yerinə yetirmək sənədi kimi qiymətləndirilməlidir. Bizim komitədə də müzakirə olunub və birmənalı şəkildə bütün komitə üzvləri tərəfindən dəstəklənibdir. Millət vəkillərindən də xahiş edirəm ki, bu sazişin təsdiq olunmasını səsvermə ilə təmin etsinlər. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, səsə qoymazdan əvvəl biz ikinci bir komitənin rəyini də dinləməliyik. Bu qanun layihəsinə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılıb. Mən komitənin sədri hörmətli Səməd Seyidova söz vermək istəyirəm. Xahiş edirəm, komitənin rəyini bildirin, Səməd müəllim.

**S.Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, xanım sədr. Hörmətli həmkarlar, Fazil müəllim bu qanun layihəsi ilə bağlı artıq ətraflı məlumat verdi. Mən, sadəcə, əlavə etmək istəyirəm ki, həmin qanun layihəsi 2 il müddətinə bağlanmışdır. Ehtiyac yaransa, 1 il də uzadıla bilər. Bu müddət heç də elə-belə müəyyən olunmayıb. Bu müddət ərzində artıq sadalanan məktəblər, mədəniyyət mərkəzləri, bağçalar və sair infrastruktur layihələrinin hamısı ən yüksək səviyyədə həyata keçiriləcək.

Bir məqamı da xüsusi qeyd etmək istəyirəm. Bu yardım Azərbaycan ilə Türkiyə arasında ən yüksək əlaqələrin göstəricisi olmaqla yanaşı, sənəd səviyyəsində, hüquqi müstəvidə bir ölkənin o biri ölkəyə, qardaş ölkəyə yardım

göstərməsidir. Burada böyük bir məntiq var. Bu yardım bu sənədsiz də göstərilə bilər. Ancaq bu sənəd bu gün bütün dünyaya nümayiş etdirir ki, Azərbaycan–Türkiyə münasibətləri hansı səviyyədədir, türk dünyası hansı səviyyədədir. Ona görə bunun yardımla yanaşı, türk dünyasına böyük bir təsiri var, böyük bir əhəmiyyəti var və nümunəvi bir sənəd kimi qəbul olunmalıdır. Ona görə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi yekdilliklə buna səs vermişdir və həmkarlardan eyni səsverməni xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Səsə qoymaq təklifi var. Hamı bununla razıdır? Təkid edənlər, israr edənlər var. 2 nəfəri görürəm. Musa Qasımlı və Hikmət müəllim Məmmədov. 2 nəfərə söz verəcəyəm, sonra səsə qoyacağam. Musa müəllim, buyurun.

**M.Qasımlı.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Komitə sədrimiz Səməd müəllim və Fazil müəllim də gözəl bir təqdimat etdilər. Orada belə bir cümlə keçdi: “Bu bizim yardımımızın rəsmi sənəd səviyyəsində əksini tapmasıdır”. Hesab edirəm ki, doğrudan da, bir neçə cümlə söyləmək lazımdır. Bu sənəd təkcə bu günümüz deyil, gələcəyimiz baxımından da əhəmiyyətlidir. Bilirsiniz ki, zəlzələ olanda Heydər Əliyev Fondu xətti ilə, ictimaiyyətimiz, müxtəlif qurumlarımız qardaş Türkiyəyə yardım etdilər. İndi isə bu sənəddə yaşayış binaları, uşaq bağçası, mədəniyyət mərkəzi və əslində, bir şəhər tikilir. Amma hansı şəraitdə tikilir? O şəraitə diqqət yetirmək, həm bu günümüz, həm də gələcək nəsillərdən ötrü əhəmiyyətlidir.

Azərbaycan torpaqlarını, Şərqi Zəngəzuru, Qarabağı işğaldan azad etdi və bu gün təkbaşına öz maliyyəsi hesabına öz ərazilərini dirçəldir. Belə bir şəraitdə Azərbaycanın

qardaş ölkəyə yardım etməsi, orada bir şəhər tikməsi sadə bir məsələ deyil. Sadəcə səsvermə ilə olan bir məsələ deyil. Hesab edirəm ki, bu vurğulanmalıdır, sənədlərə düşməlidir və bu, gələcək nəsillər üçün də çox əhəmiyyətlidir.

Azərbaycan özü təkbaşına torpaqlarını dirçəldərək, tikərək, eyni zamanda, qardaş ölkəyə təbii fəlakətdən zərər çəkmiş qardaşlarımıza, bacılarımıza şəhər tikir. Bu, tarixi əhəmiyyətli bir işdir. Təbii ki, o şəhərin adının qoyulması qardaş ölkənin daxili işidir. Amma hesab edirəm ki, yeni tikilən şəhərin Azərbaycanla bağlı hər hansı bir formada adının olması gələcək nəsillər üçün də çox böyük əhəmiyyət daşıyardı. Minnətdaram, layihəyə səs verəcəyəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Mən baxıram ki, Etibar müəllimlə Fatma xanım siyahıdan çıxmadılar. Təkid kimi başa düşmək lazımdır, yoxsa, Etibar müəllim? Mən dedim, tək Hikmət müəllimə söz verəcəyəm. Hikmət müəllim, buyurun.

**H.Məmmədov.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Məni məzur tutun, çünki müzakirə etdiyimiz sənəd tarixi sənəddir. Bu sənəd, sadəcə, qardaş ölkədə nə isə tikmək hadisəsi deyil, evlər, binalar, bağçalar tikmək hadisəsi deyil, bu sənəd Azərbaycan xalqının qardaş Türkiyə vətəndaşlarının hər birinin üzərində Azərbaycan sevgisinə heykəl qoymaq sənədidir. Bu sənəd, Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, “Türkiyənin gücü bizim gücümüzdür” fəlsəfəsinin, Türkiyə–Azərbaycan münasibətlərinin göstəricisidir. Azərbaycan Prezidentinin Milli Məclisə göndərdiyi bu sənəd Türkiyə–Azərbaycan münasibətlərinin bundan sonrakı yüzilliklərdə olan əlaqələrinə də yatırım, investisiya qoymaq sənədidir. Ona görə mən düşünürəm ki, bu sənədlə bağlı hər birimiz

öz fikirlərimizi bildirməliyik.

Məsələ ondadır ki, biz əsrlər boyu İsmayıl bəy Qaspıralının fikirləri ilə, arzu etdiyi ideologiyalarla tanış olduq, bunu öyrənməyə, həyata keçirməyə çalışdıq. İsmayıl bəy Qaspıralı deyirdi: "İşdə, fikirdə, əməldə birlik". Əli bəy Hüseynzadə bunu deyirdi, Ziya Gökalp bunu deyirdi. Biz nə qədər xoşbəxt insanlarıq ki, bu böyük mütəfəkkirlərimizin arzuladıqları gerçəklikləri yaşayırıq. Bu, sadəcə, Türkiyə–Azərbaycan münasibətləri kontekstində qiymətləndiriləcək bir sənəd deyil. Bu, hazırda Azərbaycan Prezidentinin siyasi memarlığı ilə qurulan Türk Dövlətləri Təşkilatının gələcəyi baxımından aktualdır.

Bu gün Özbəkistan Azərbaycanda məktəb tikir. Qardaş Qazaxıstan Azərbaycanda mədəniyyət mərkəzi tikir. Azərbaycan Türkiyədə şəhər tikir. Yəni bu, illər boyu əcdadlarımızın arzuladığı, görmək istədiyi gələcəkdir ki, biz bunu yaşayırıq. Nəyi yaşadığımızın fərqində olmalıyıq. Ona görə də mən düşünürəm ki, qəbul edilən bu sənəd həm də Türkiyə–Azərbaycan münasibətlərinin gələcəyi baxımından çox mühüm, vacib, strateji bir sənəddir. Onun maliyyə tutumu çox da ola bilər, az da ola bilər. Hərçənd biz bilirik ki, çox böyük maliyyə tutumu da var. Amma bundan asılı olmayaraq, bu sənəd həm də Şuşa bəyannaməsinin, Türkiyə və Azərbaycanın ortaq gələcək təməllərinə qoyulan komponentlərdən biridir. Ona görə də mən bu sənədə səs verəcəyəm və bu sənədin qəbul olunmasını Azərbaycan parlamentinin fəaliyyətinin və mühüm hadisələrdən biri kimi qiymətləndirirəm.

Əsrin əvvəllərində qardaş Türkiyə Cümhuriyyəti qurulan zaman Nəriman Nərimanovun, Azərbaycan xalqının nümayəndələrinin qardaş Türkiyədə cümhuriyyətin qurulması üçün göndərdiyi yardımlar bu gün Türkiyədə də,

Azərbaycanda da xatırlanır və əsrlər boyu da xatırlanacaqdır. Ona görə də bu sənədi, sadəcə, texniki sənəd kimi üstündən keçib qəbul etmək olmaz.

Bu sənəd də Azərbaycan parlamentinin şərəfli səhifələrindən biridir. Biz bunu qəbul edirik. Əsrlər boyu türk xalqları tərəfindən, Azərbaycan xalqı tərəfindən bu sənəd xatırlanacaqdır. Əsrlər sonra deyəcəklər ki, Azərbaycan parlamenti qardaş ölkədə baş verən fəlakət zamanı, bax, belə bir qərar qəbul edibdir. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Hikmət müəllim, çox sağ olun. Təklif oldu ki, səsə qoyaq. Mən düşünürəm, bütün parlamentin istəyi bu sənədə səs verilməsində özünü büruzə verir.

İkincisi də, mən xatırladım ki, hörmətli həmkarlar, bu, investisiya layihəsi deyil və bu tikilənlər, qurğular və sair qardaş ölkəyə əvəzsiz veriləcək.

Hörmətli həmkarlar, mən məsələni səsə qoyuram. Xahiş edirəm, qanun layihəsinə səs verin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.50 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, bununla da bizim iclasımız başa çatdı. Mən hamıya minnətdarlığımı bildirirəm. Növbəti iclasın vaxtı haqqında sizə əlavə məlumat veriləcək. Sağ olun.

# ALTINCI ÇAĞIRIŞ AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN XIV SESSİYASI İCLASININ

# PROTOKOLU № 151

*Milli Məclisin iclas salonu.*
*21 noyabr 2023-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 101 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.07 dəq.) |
| İştirak edir | 97 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Şahin Mustafayev**, Azərbaycan Respublikası Baş nazirinin müavini.

**Əli Əhmədov**, Azərbaycan Respublikası Baş nazirinin müavini.

**Samir Şərifov**, Azərbaycan Respublikasının maliyyə naziri.

**Emin Əmrullayev**, Azərbaycan Respublikasının elm və təhsil naziri.

**Muxtar Babayev**, Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri.

**Vüqar Mustafayev**, Azərbaycan Respublikasının müdafiə sənayesi naziri.

**Adil Kərimli**, Azərbaycan Respublikasının mədəniyyət naziri.

**Şahin Bağırov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri.

**Qoşqar Təhməzli**, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri.

**Anar Quliyev**, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri.

**Zaur Əliyev**, Azərbaycan Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri.

**Sahib Ələkbərov**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini.

**Anar Əliyev**, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini.

**Rasim İsmayılov**, Azərbaycan Respublikası səhiyyə nazirinin müavini.

**Cavid Qurbanov**, Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini.

**İlhamə Qədimova**, Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini.

**Fərhad Hacıyev**, Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini.

**İdris İsayev**, Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini.

**Rauf Hacıyev**, Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini.

**Mehman Baxışov**, Azərbaycan Respublikası müdafiə sənayesi nazirinin müavini.

**Fərid Cəfərov**, Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini.

**Ragim Lətifov**, Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini.

**Natiq Şirinov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini.

**Rauf Səlimov**, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini.

**Valeh Hacıyev**, Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini.

**Zəkiyyə Mustafayeva**, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi sədrinin müavini.

**Azadə Hüseynova**, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini.

**İsrafil Məmmədov**, Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru.

**Rəşad Orucov**, Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyəti sədrinin birinci müavini.

**Vüqar Gülməmmədov**, Azərbaycan Respublikası Hesablama Palatasının sədri.

**Bəxtiyar Əsgərov**, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi nümayəndəliyinin rəhbəri.

**Fazil Fərəcov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin şöbə müdiri.

**Fikrət Şirinov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin şöbə müdiri.

**İlkin Vəliyev**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti rəisinin müavini.

**Nicat İmanov**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin baş idarə rəisi.

**Yalçın Əzizov**, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin şöbə müdiri.

**Himalay Məmişov**, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun İdarə Heyətinin sədri.

**Mustafa Abbasbəyli**, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri.

**Sadiq Əliyev**, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin şöbə müdiri.

**Faiq Orucov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin idarə rəisi.

**Samir Əhədov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin baş idarə rəisinin müavini.

**Azər Əmiraslanov**, Azərbaycan Respublikası Nazirlər Kabinetinin İqtisadiyyat şöbəsinin müdiri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. ABŞ Senatının “2023-cü il erməniləri müdafiə aktı” ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı.
2. Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
3. Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
4. İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
5. Azərbaycan Respublikasında 2024-cü il üçün yaşayış minimumu haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
6. Azərbaycan Respublikasında 2024-cü il üçün ehtiyac meyarının həddi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

7. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

8. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

9. "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

10. "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

11. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

12. "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

13. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

14. "Azərbaycan Respublikası Hökuməti ilə Ruanda Respublikası Hökuməti arasında diplomatik və xidməti pasport sahiblərinin viza tələbindən azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

15. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

16. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq

edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

17. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

18. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

19. "Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahılarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

20. "Güclü təsir edən maddələr və onların külli miqdarının, habelə zəhərli maddələrin siyahılarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

21. "Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında prekursorlardan istifadə məqsədi ilə törədilən əməllərlə əlaqədar həmin prekursorların xeyli və külli miqdarının Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

| | |
|---|---|
| **Təklif:** Gündəlik qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.07 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**1. ABŞ Senatının "2023-cü il ermənilərі müdafiə aktı" ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Ziyafət Əsgərov, Səməd Seyidov, Tural Gəncəliyev, Zahid Oruc, Siyavuş Novruzov, Elman Nəsirov, Sahib Alıyev, Musa Qasımlı, Fəzail Ağamalı, Kamilə Əliyeva

| | |
|---|---|
| **Təklif:** Qərar qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

**2. Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Vüqar Bayramov, Azay Quliyev, İltizam Yusifov, Siyavuş Novruzov, Sabir Hacıyev, Samir Şərifov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4–6-cı maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** 7–9-cu maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** 10–12-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** 13–15-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** 16-cı və 17-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**3. Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Tahir Mirkişili, Vüqar Bayramov, Etibar Əliyev, Siyavuş Novruzov, Vahid Əhmədov, Soltan Məmmədov, Elşən Musayev, Rüfət Quliyev, Anar Əliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 15.08 dəq.) |
| Lehinə | 84 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 15.42 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4–6-cı maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 15.42 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 15.43 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**4. İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 15.08 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 15.43 dəq.) |
| Lehinə | 90 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4-cü və 5-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.43 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.44 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**5. Azərbaycan Respublikasında 2024-cü il üçün yaşayış minimumu haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Musa Quliyev, Etibar Əliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.45 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.47 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.47 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.48 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**6. Azərbaycan Respublikasında 2024-cü il üçün ehtiyac meyarının həddi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Tahir Mirkişili, Aydın Hüseynov, Vüqar Bayramov, Əli Məsimli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.58 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.58 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.58 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.59 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**7. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Rəşad Mahmudov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.05 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.08 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.08 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.08 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.09 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**8. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Tahir Mirkişili

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.10 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.11 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.11 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.11 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**9. "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barə-**

**də Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.12 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.13 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.13 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.13 dəq.) |
|---|---|
| Lehinə | 89 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**10. "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.14 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.15 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.15 dəq.) |
|---|---|
| Lehinə | 86 |

Əleyhinə 0
Bitərəf 0
Səs vermədi 0
İştirak edir 86
Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin
**Səsvermənin nəticələri** (saat 16.15 dəq.)
Lehinə 89
Əleyhinə 0
Bitərəf 0
Səs vermədi 0
İştirak edir 89
Nəticə: Qəbul edildi

**11. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin
**Səsvermənin nəticələri** (saat 16.16 dəq.)
Lehinə 92
Əleyhinə 0
Bitərəf 0
Səs vermədi 0
İştirak edir 92
Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin
**Səsvermənin nəticələri** (saat 16.17 dəq.)
Lehinə 88
Əleyhinə 0

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.17 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.17 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**12. "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.19 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.19 dəq.) |
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.20 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.20 dəq.) |
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

**13. “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.21 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.21 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.22 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.22 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

**14. "Azərbaycan Respublikası Hökuməti ilə Ruanda Respublikası Hökuməti arasında diplomatik və xidməti pasport sahiblərinin viza tələbindən azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.25 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

**15. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.26 dəq.) |
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

**16. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 16.27 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

**17. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əminə Ağazadə

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 16.29 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

**18. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.30 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

**19. "Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahılarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.30 dəq.) |
| Lehinə | 83 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |

Nəticə: Qəbul edildi

**20. “Güclü təsir edən maddələr və onların külli miqdarının, habelə zəhərli maddələrin siyahılarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.30 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**21. “Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında prekursorlardan istifadə məqsədi ilə törədilən əməllərlə əlaqədar həmin prekursorların xeyli və külli miqdarının Siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.31 dəq.) |
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*21 noyabr 2023-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Hörmətli hökumət üzvləri, hörmətli deputatlar və media nümayəndələri, hamınızı xoş gördük. Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.07 dəq.) |
| İştirak edir | 97 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var. İclasa başlaya bilərik. Gündəlik sizə paylanıb, hamınızda var. Xahiş edirəm, gündəliyə də münasibət bildirin. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.07 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |

İştirak edir 96
Nəticə: Qəbul edildi

Çox sağ olun, gündəlik qəbul edildi. Hörmətli həmkarlar, bu gün biz 21 məsələni müzakirə etməliyik. Gündəliyin 1-ci məsələsi Milli Məclisin bəyanatıdır.

Hörmətli həmkarlar! Bildiyiniz kimi, Azərbaycan 2020-ci ildə öz torpaqlarını Ermənistanın işğalından azad etdikdən sonra Ermənistanla beynəlxalq hüquq prinsiplərinə əsaslanan sülh müqaviləsi imzalamaq təşəbbüsü ilə çıxış etmişdir. Lakin Qarabağı sözdə Azərbaycan ərazisi kimi tanıyan Ermənistan, təəssüf ki, bu üç il ərzində siyasi və hərbi təxribatlarla məşğul olmuşdur. Belə ki, Ermənistan öz silahlı qüvvələrini Azərbaycanın Qarabağ bölgəsindən çıxarmamış, əksinə, həmin ərazilərə silah, sursat və hərbi qulluqçuların daşınmasını davam etdirmişdir. Ermənistan işğal dövründə basdırdığı və sayı milyondan çox olan minalarla yanaşı, işğaldan azad edilmiş əraziləri də minalamaqda davam etmişdir. Həmçinin Ermənistan rəhbərliyinin ərazilərimizdəki qanunsuz marionet strukturuna "təbrik mesajları" və bu qeyri-qanuni qurumun qondarma "prezident seçkiləri" Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün növbəti dəfə aşkar şəkildə pozulması idi.

2023-cü il sentyabrın 19-da isə Ermənistan silahlı qüvvələrinin işğaldan azad edilmiş torpaqlarımıza qəsdən yerləşdirdiyi minaların partlaması nəticəsində 6 mülki şəxs və polis əməkdaşı həlak olmuşdur. Bundan sonra sentyabrın 19-20-də lokal antiterror tədbirləri həyata keçirilmişdir. Bu antiterror tədbirləri Azərbaycanın öz Konstitusiya quruluşunu bərpa etmək və qanunsuz silahlı birləşmələri zərərsizləşdirmək məqsədini daşımışdır. 23 saat ərzində həyata keçirilən antiterror tədbirləri nəticəsində

Ermənistanın Qarabağdakı ordusu tam tərk-silah edilmiş, Azərbaycan Qarabağdakı qanunsuz separatçı rejimə son qoyaraq beynəlxalq səviyyədə tanınmış ərazisi üzərində suverenliyini tam bərpa etmişdir. Xüsusilə vurğulamaq lazımdır ki, antiterror tədbirləri zamanı Azərbaycan beynəlxalq humanitar hüquqa tam uyğun hərəkət etmişdir.

Hörmətli həmkarlar! Bu gün Azərbaycanın gündəliyi münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanmasıdır. Təəssüf ki, Ermənistan sülh naminə çalışmaq əvəzinə, hələ də Azərbaycana qarşı yalan və əsassız ittihamlar əsasında beynəlxalq ictimaiyyəti çaşdırmağa çalışır. Azərbaycana qarşı kampaniyada bütün imkan və platformalardan istifadə etməkdə davam edir. Çox təəssüf ki, son dövrdə bu məsələ ilə əlaqədar Azərbaycana qarşı bir sıra qeyri-obyektiv və ədalətsiz qətnamələr qəbul edilmişdir. Bildiyiniz kimi, bir sənəd də noyabrın 15-də Amerika Birləşmiş Ştatlarının Senatı tərəfindən qəbul edilmişdir. Bu, "2023-cü il erməniləri müdafiə aktı" adlanan bir sənəddir. Elə həmin gün Nümayəndələr Palatasının Xarici işlər komitəsinin Avropa üzrə alt komitəsində məlum dinləmələr də keçirilmişdir.

Senatın aktında bölgədən könüllü getmiş erməni sakinlərin zorla köçürüldüyü iddia edilir. Bu, BMT-nin, Beynəlxalq Qırmızı Xaç Komitəsinin, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının və digər beynəlxalq təşkilatların rəylərinə tamamilə ziddir.

Hörmətli həmkarlar, bu gün bizim gündəliyimizə uyğun olaraq, bu məsələ müzakirə olunacaq. Xahiş edirəm, kim çıxış etmək istəyirsə, yazılsın. Mən indi sözü Ziyafət Əsgərova verirəm. Ziyafət müəllim, buyurun.

**Z.Əsgərov.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar. Hörmətli xanım sədr, Sizin qeyd etdi-

yiniz kimi, artıq bizə məlumdur ki, bu il noyabr ayının 15-də ABŞ Senatında absurd bir teatr tamaşası baş tutub. Bu teatr tamaşasında Azərbaycana qarşı çox qərəzli, heç bir əsası olmayan bir sənəd qəbul olunub. Bilirsiniz ki, 1992-ci ilin oktyabr ayında Azərbaycana "Azadlığa Dəstək Aktı"na 907-ci düzəliş tətbiq olunmuşdu. Bu akt o vaxt qəbul olundu ki, 1992-ci ilin fevral ayında artıq Xocalı soyqırımı baş vermişdi. İndi təsəvvür edin, Azərbaycan işğala məruz qalmış bir ölkədir, Ermənistan dövlət səviyyəsində azərbaycanlılara qarşı soyqırımı siyasəti həyata keçirir, 1992-ci ilin oktyabr ayında isə 907-ci düzəliş qəbul olunur və orada qeyd edilir ki, bu sənəd Azərbaycana tətbiq olunmayacaq, yəni Azərbaycana yardım göstərilməyəcək. 1993-cü ildə BMT 4 qətnamə qəbul elədi. Həmin 4 qətnamədə göstərilir ki, Ermənistan heç bir şərt olmadan qoşunlarını işğal olunmuş Azərbaycan ərazilərindən çıxarmalıdır. Sual olunur ki, burada məntiq haradadır? Bir tərəfdən, 1992-ci ildə 907-ci düzəlişi onunla əsaslandırdınız ki, o vaxtkı Dağlıq Qarabağ Azərbaycan tərəfindən işğal olunub. BMT-nin 4 qətnaməsində isə göstərilir ki, Azərbaycanın torpaqları dərhal erməni işğalından azad olunmalıdır.

2001-ci il sentyabrın 11-də Amerika Birləşmiş Ştatlarında terror aktı baş verəndə bizim hamımızın yaxşı yadındadır, Ulu Öndərimiz dərhal bəyanat verdi və dedi ki, terrora qarşı mübarizədə biz Amerika dövlətinin yanındayıq. Çünki terrorun nə olduğunu biz daha yaxşı bilirdik. O vaxta qədər ərazimizdə Ermənistan dövlət səviyyəsində onlarca terror aktı törətmişdi. Artıq Xocalı soyqırımı baş vermişdi. Azərbaycan nəinki Amerikanın yanında olduğunu bəyan etdi, eyni zamanda, öz hava məkanını Amerika təyyarələri üçün açdı.

Mən, əlbəttə, Minsk qrupunun həmsədri kimi Amerikanın fəaliyyətindən danışmaq istəmirəm. Burada 30 ilə yaxın bir müddət ərzində Minsk qrupunun üzvləri oyunlardan çıxdılar ki, bu məsələni uzatsınlar, həll olunmasın. Bu hamımıza məlumdur. Amma qəribəsi budur ki, Amerika Birləşmiş Ştatları rəsmiləri həmişə deyirlər ki, Azərbaycan bizim strateji tərəfdaşımızdır. Yaxşı, strateji tərəfdaşa qarşı belə hərəkət eləyərlərmi? Bu nə oyundur? Bu nə məntiqsizlikdir? Əgər siz sözdə Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyiniz halda, Azərbaycanın haqq işində 4 qətnamənin icrasını yerinə yetirə bilmədinizsə və Azərbaycan bu məsələni öz gücü hesabına həll etdisə, siz bundan niyə əndişələnirsiniz? Bu sizin borcunuzdur. Amerika Birləşmiş Ştatları, Rusiya, Fransa Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının daimi üzvləridir, bu 4 qətnaməni siz qəbul eləmisiniz və bunun icrasına da siz əməl eləməli idiniz.

Əgər Azərbaycan öz ərazisini işğaldan azad eləyirsə... İşğal olunmuş ərazilərdə biz artıq gördük, nələr baş verib. Genosid, ekosid, kultrosid, insanlıq əleyhinə, nə bilim, müxtəlif cinayətlər. Bütün cinayətlər baş verib. Belə olan bir vəziyyətdə Ermənistana nə sanksiya tətbiq olundu, nə də təzyiqlər oldu. Əksinə, təzyiqlər bizə qarşı gəldi. Niyə? Biz öz ərazimizi işğaldan azad eləmişik. Nə eləməliydik? Azad eləməli deyildik? Azərbaycan bu gün Cənubi Qafqazın ən güclü dövlətidir. Azərbaycan inkişaf eləməsin? Olmaz, çünki sən müsəlman dövlətisən. Çünki sən Türkiyə ilə Şuşa müqaviləsini bağlamısan.

Şuşa müqaviləsi imzalanandan sonra artıq bir çoxlarının Qərbdə, – mən Qərb deyəndə Amerika Birləşmiş Ştatlarını və Avropanı nəzərdə tuturam, – yuxusuna haram qatıldı. Niyə siz bu müqaviləni imzalayırsınız? Zəngəzur

dəhlizini əlinizə keçirmək istəyirsiniz. Halbuki Zəngəzur dəhlizi birinci növbədə Ermənistanın özünə xeyir olan bir dəhlizdir. İkincisi, Avropa özü bunu müdafiə eləyirdi. Elə ki, sülh müqaviləsinin bağlanması məsələsi ortaya çıxdı, Azərbaycanın möhtərəm Prezidenti 5 prinsipdən ibarət təşəbbüsü irəli sürdü. Bəli, əvvəllər Ermənistan buna loyal yanaşmağa başladı, amma sonradan tamamilə sözdə "hə", əməldə isə sülh müqaviləsinin imzalanması prosesini uzatmağa başladı.

Sonradan məlum oldu ki, bu siqnallar, yəni sülh müqaviləsini imzalamamaq siqnalı Vaşinqtondan gəlib, Fransanı qabağa verdilər. Bilirsiniz ki, Fransanın Milli Assambleyası da  Azərbaycana qarşı bir bəyanat qəbul eləmişdi. Bir sıra hallarda Amerika Birləşmiş Ştatları görünməmək üçün Fransanı qabağa verir. Amma gördü ki, Fransada Makron da bir iş görən deyil, yəni Orta Asiyaya gəldi, Qazaxıstana, Özbəkistana getdi, əliboş qayıtdı. İndi artıq özü başlayıb.

Azərbaycandan nə istəyirsiniz? Axı, bu qədər ədalətsiz, bu qədər ikiüzlü, bu qədər riyakar siyasət olmaz. İndi biz neyləməliyik? Biz beynəlxalq hüququn bərabərhüquqlu subyektləriyik, siz isə güclü dövlətsiniz. Biz görmüşük ki, güclü dövlət ədalətin yanında olar, beynəlxalq hüququn yanında olar. Siz beynəlxalq hüququ məşğuliyyətə, bizim üçün isə məhdudiyyətə çevirmisiniz. Biz deyirik ki, siz beynəlxalq hüquqa görə Ermənistanı niyə cəzalandırmamısınız? Cəzalandırın, ona sanksiya tətbiq edin. Çünki Ermənistan bizə milyardlarca ziyan vurubdur, insanlarımızı qırıbdır. Baxın, biz 44 gün legitim müharibə apardıq. Biz müharibəni kişi kimi apardıq, heç bir mülki vətəndaşın burnu da qanamadı. Biz sentyabrda antiterror tədbirlərini çox legitim apardıq. Heç bir vətəndaşın burnu qa-

namadı, heç bir mülki obyektə ziyan dəymədi.

Sahibə xanım, tamamilə düz qeyd eləyirsiniz. Bu sentyabr hadisələri ilə əlaqədar Birləşmiş Millətlər Təşkilatı nümayəndələri iki dəfə Qarabağda oldular. Missiya iki dəfə Qarabağda oldu. Onlar dedilər ki, burada heç bir etnik təmizləmədən söhbət gedə bilməz. Qırmızı Xaç Cəmiyyəti, eyni zamanda, oktyabrın əvvəlində Amerika Birləşmiş Ştatları Departamenti də bəyanat verdi ki, orada heç bir etnik təmizləmədən söhbət gedə bilməz. İndi nə üçün belə bir qərar qəbul olunur? Qərar qəbul olunur, ona görə ki, – mən açıq demək istəyirəm, bu mənim subyektiv fikrimdir, – Azərbaycanın müstəqilliyini qəbul eləyə bilmirlər, Azərbaycan Prezidentinin müstəqil siyasət aparmasını qəbul eləyə bilmirlər, Azərbaycanın 44 günlük müharibədə qələbəsini həzm edə bilmirlər və azərbaycanlılar haqqında bunlarda artıq o qədər islamofobiya, nifrət formalaşıb, bunlar, ümumiyyətlə, müsəlman dövlətlərinin dirçəlməsinin əleyhinədir.

Yaxşı, heç bir dövlət, heç bir vətəndaş, heç bir insan öz dinini və milliyyətini özü seçmir. Mən Azərbaycanda doğulmuşam, müsəlman doğulmuşam. Bu mənim günahımdır? O biri yəhudi, digəri xristian doğulub, bu onların günahıdır? Beynəlxalq hüquq da ona görədir ki, bu nizamı bir yerə yığsın və bütün dövlətlər sülh şəraitində yaşasınlar. Mən artıq Ermənistanın cinayətləri haqqında qeyd elədim. Heç bir dövlət bu 30 il ərzində Ermənistana heç bir sanksiya, heç bir cəza tətbiq eləmədi. Əksinə, belə təzyiqlərə biz məruz qalırıq.

Hörmətli xanım sədr, mənim vaxtım qurtarır, mən bir məsələni qeyd eləmək istəyirəm. Hörmətli həmkarlarım da bu məsələni eşitsinlər və görsünlər ki, bu gün Qərb nə ilə yaşayır. Hörmətli Siyavuş müəllim mənim sözlərimi təs-

diq eləyər. 2010-cu ildə biz Berlində NATO-nun Parlament Assambleyasında idik. Biz gedəndə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həmişə fikrimizi söyləyirdik və deyirdik ki, bu ədalətsizliyə son qoyulmalıdır. Bizə deyirdilər ki, NATO bu işlə məşğul olmur, bu işlə Minsk qrupu məşğuldur. Məlum oldu ki, Minsk qrupu da bu işlə heç məşğul olmur. Assambleyanın prezidenti ilə bizim təxminən əlli dəqiqəyə yaxın söhbətimiz oldu. Bütün fikirlərimizi hörmətli deputat yoldaşlarımızla bir yerdə ortaya qoyduq. Dedik, axı, beynəlxalq hüquq hara baxır? Bu beynəlxalq hüquq ona görədir ki, bu məsələyə münasibət bildirsin. BMT-nin üzvü olan bir dövlətin ərazisi qonşu Ermənistan tərəfindən işğal olunub, siz heç bir münasibət bildirmirsiniz. Hanı beynəlxalq hüquq? Bilirsiniz, o mənə nə dedi? Dedi ki, mən eşitmişəm, siz universitetin professorusunuz. Beynəlxalq hüquq kitablarda olur, onu tələbələrinizə deyərsiniz. Budur onların münasibəti. Biz nə eləməliydik? Durub gözləməliydik ki, beynəlxalq hüquq nə vaxt işləyəcək? Beynəlxalq hüquq işləmir. Bunlara lazım olanda işləyir. Ona görə mən bu absurd tamaşanın nəticəsi olaraq Senat tərəfindən qəbul olunmuş belə bir sənədi, aktı rədd edirəm, qınayıram. Hesab edirəm ki, bu, Azərbaycana qarşı ikiüzlü siyasətdir, riyakar siyasət...

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, 5 dəqiqəyə keçəcəyik. Ancaq mən istəyirəm, indi hörmətli Səməd müəllimə söz verim. Səməd müəllim həm Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədridir, həm də Azərbaycan-ABŞ işçi qrupunun rəhbəridir. Səməd müəllim, xahiş edirəm, sənəd haqqında bir məlumat verin. Buyurun.

**S.Seyidov.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Əslində, Sahibə xanım və Ziyafət müəllim məsələlər haqqında bizə ətraflı və geniş, dolğun məlumatları çatdırdılar. Mən də bir neçə məsələni xüsusi qeyd eləmək istəyirəm. Sanki bizə qarşı iki cəbhədə müharibə aparılırdı. Cəbhələrdən biri birbaşa təcavüzlə, birbaşa separatçılıqla məşğul olan cinayətkarlardır. Biz onlara qalib gəldik. Ancaq ikinci cəbhə də açılmışdır. O ikinci cəbhə bizim ruhumuza, ədalətə inamımıza, gələcək baxışlarımıza sanki təcavüz eləyib. Bu nöqteyi-nəzərdən, – Ziyafət müəllim də çox düzgün qeyd etdi, – 1992-ci ildə Azərbaycana 907-ci düzəlişin tətbiq olunması ədalətsizlik rəmzinə çevrilən bir məsələ kimi Azərbaycan xalqı tərəfindən qiymətləndirilmişdir. Ədalətsizlik rəmzi. Ona görə ki, ermənilər bizim torpaqlarımızı işğal etdilər, ancaq sanksiyaları bizə qarşı tətbiq etdilər. Çox təəssüflər olsun ki, Qərb Azərbaycan həqiqətlərini, reallığı görmək istəmədi.

Burada qeyd olundu, 2001-ci ildə Amerika Birləşmiş Ştatları özü terrora qarşı mübarizəni başlayanda Azərbaycana müraciət etdi. Azərbaycan birinci kömək əlini uzatdı. Öz sərhədlərini, öz logistikasını, öz hava məkanını açmışdı. Amerika Birləşmiş Ştatları məhz bu imkanlardan istifadə edərək faktiki 2002-ci ildən 907-ci düzəlişi tətbiq etmirdi. Amerika özü tətbiq etmirdi. Ancaq görünür, həmin bu münasibətlərdə Amerika Birləşmiş Ştatları üçün qırmızı bir xətt var idi. O qırmızı xətt də Azərbaycanın tam şəkildə öz ərazisinə nəzarəti və öz suverenliyini ən yüksək səviyyədə bərpa etməsi idi.

Siz tamamilə haqlı qeyd etdiniz. Noyabrın 15-də həm Nümayəndələr Palatasında, həm də Amerika Birləşmiş Ştatlarının Senatında "S 3000" adı altında bir akt qəbul

olundu. O aktın qəbul olunması çox maraqlıdır. Ona görə ki, faktiki Ermənistanın müdafiəsi aktı öz içərisində Azərbaycanı sanksiyalar altına salmaq fəlsəfəsini daşıyır. Bir anlığa düşünün. Ermənistanın müdafiəsi Azərbaycana qarşı sanksiyalardan keçirmiş. Ona görə bu nöqteyi-nəzərdən hər bir azərbaycanlının şüurunda ədalətsizlik rəmzi olan 907-ci düzəlişi yenidən dirçəltmək, onu gündəmə gətirmək faktiki ikili standartları yenidən tətbiq etmək deməkdir. Özü də bilirsiniz ki, Senatda bu akt qəbul olunandan sonra Nümayəndələr Palatasına ötürülməlidir. Nümayəndələr Palatasında bu akt təsdiq olunsa, sonra Prezident Baydenin imzasına gedəcək və Prezident Bayden bunu imzalasa, faktiki Azərbaycan–Amerika münasibətlərinə ciddi zərbə vurulacaq.

Ancaq bu dəfə fərqli bir Azərbaycan var. 1992-ci ilin Azərbaycanı deyil, güclü, müstəqil, öz torpaqlarını azad etmiş, öz müstəqil siyasətini aparan, regionda ən yüksək səviyyədə nüfuza malik olan, türk dünyasının ən güclü nümayəndələrindən biri olan Azərbaycandır. Bu dəfə zərbə Amerika Birləşmiş Ştatlarının özünə dəyəcək. Ona görə ki, bu layihədə faktiki olaraq Amerika Birləşmiş Ştatları enerji təhlükəsizliyi ilə bağlı Azərbaycanda aparılan işlərdən məhrum qalacaq. Ona görə ki, bu dəfə terrora qarşı mübarizədə iştirak edən Amerika kənarda qalacaq. Ona görə ki, bu gün kütləvi qırğın silahlarının geniş yayılması ilə bağlı burada iştirak edən proqramlardan Amerika Birləşmiş Ştatları kənarda qalacaq. Faktiki Amerika bu sənədi qəbul edəndən sonra özü-özünü regiondan təcrid edəcək. Amerika Birləşmiş Ştatları Azərbaycana böyük bir miqdarla dəstək göstərmirdi. Misal üçün, 2023-cü ildə cəmi 9 milyon yarım ABŞ dolları bu proqramlara sərf olunubdur. Ancaq bu pulla, bu müdaxilə ilə Amerika

Birləşmiş Ştatlarının mövcudluğu burada təmin olunurdu. İndi sual olunur: kimə qarşıdır bu?

Ziyafət müəllim çox gözəl qeyd etdi. Amerika Birləşmiş Ştatlarında, təbii, erməni diasporu var. Ancaq əsas məsələ bu deyil. 2024-cü ildə seçkilər keçiriləcək. Ancaq bu da ən əsas məsələ deyil. Əsas məsələ Azərbaycanın müstəqil siyasət aparması və regionda Amerika Birləşmiş Ştatlarının maraqlarını Ermənistanın destruktiv fəaliyyətinə göz yumaraq Azərbaycanın hesabına həll etməkdir. Bir anlığa düşünün. 3 il ərzində Azərbaycan Ermənistandan faktiki Zəngəzur dəhlizinin müqaviləyə əsasən açılmasını tələb etmişdir. Ermənistan buna razılıq vermirdi. Azərbaycan müstəqil, yenə də müstəqil şəkildə ikinci varianta, yəni İrandan həmin dəhlizin açılması ilə bağlı təşəbbüslərə başladı. Amerika Birləşmiş Ştatları həmin dəhlizin İrandan keçməsinə dərhal etiraz bildirdi. Faktiki Amerika Birləşmiş Ştatları Ermənistana etiraz bildirməli idi. Bildirməli idi ki, niyə sən 3 il ərzində sülh müqaviləsinə yanaşmada konkret olaraq özünü destruktiv göstərirsən? Ancaq bunu etmədi. Əksinə, Azərbaycana qarşı bu təşəbbüsləri, bu aktları tətbiq etməyə başladı.

Hörmətli həmkarlar, vaxtınızı çox almaq fikrində deyiləm, bütün bunlar son dərəcə biabırçı və olduqca mənasız görünür. Çünki güclü, müstəqil Azərbaycan öz yolu ilə gedəcək, çünki türk dünyasının inkişafını və yeni geosiyasi varlığın qarşısını heç kim ala bilməyəcək. Ancaq Amerika Birləşmiş Ştatları öz səyləri ilə həm Cənubi Qafqazda, həm də türk dünyasında ən etibarlı və sabit tərəfdaşını itirəcək. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Səməd müəllim. İndi isə söz Tural Gəncəliyevə verilir. Tural müəllim, buyurun. 5 dəqiqə. Buyurun.

**T.Gəncəliyev**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli deputatlar və hökumət üzvləri! Amerika Birləşmiş Ştatlarının ölkəmizlə, regionla bağlı son zamanlar bədxah, xoş olmayan addımları özünü gündən-günə büruzə verir. ABŞ Senatının "2023-cü il ermənilərі müdafiə aktı" adı altında Azərbaycana qarşı yenidən 907-ci düzəlişin tətbiqini gündəmə gətirməsi ABŞ-ın ikiüzlü və riyakar siyasətinin göstəricisidir. Həmkarlarımız çox gözəl qeyd etdilər. 1992-ci ildə Azərbaycan Ermənistanın təcavüzünə, hərbi işğalına məruz qaldığı bir dövrdə, Xocalı soyqırımı törədildiyi zaman, Şuşa şəhəri, Laçın şəhəri və digər şəhərlərimiz, qəsəbələrimiz işğal edildiyi zaman ABŞ tərəfindən belə bir 907-ci düzəliş irəli sürülmüşdü. Sonradan Amerika öz səhvini anlamışdı və 2001-ci ildə terrorla mübarizədə Azərbaycanın köməyinə möhtac olduğuna görə 907-ci düzəlişin qüvvəsini dayandırmışdı. Ancaq ABŞ tərəfi yenidən səhv addım atır. Amma mən əminəm ki, onlar öz səhvlərini bir daha başa düşəcəklər və biz gələcəkdə ABŞ tərəfinin bu qərarını yenidən geri götürdüyünün şahidi olacağıq.

Ümumiyyətlə, ABŞ Senatında keçirilən dinləmələr, ABŞ dövlət katibinin köməkçisi Ceyms O'Brayn tərəfindən səsləndirilən absurd fikirlər xüsusilə də bu günlərdə BMT-nin ən ali məhkəmə qurumu olan Beynəlxalq Ədalət Məhkəməsinin "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyası çərçivəsində Ermənistanın Azərbaycana qarşı işi üzrə Beynəlxalq Ədalət Məhkəməsinin verdiyi qərar kontekstində də çox gülünc görünür. Bildiyiniz kimi, Beynəlxalq Ədalət Məhkəməsi məlum konvensiya çərçivəsində Ermənistanın iddialarını rədd etdi. İndi ABŞ Senatı, həmçinin ABŞ dövlət katibinin rəsmisi Azərbaycana qarşı absurd fikirlər səsləndirir.

Guya Qarabağdan insanların zorla köçürüldüyünü qeyd edir. Bütün bunlar, həqiqətən də, ABŞ-ın regionla bağlı, ölkəmizlə bağlı iç üzünü, mahiyyətini göstərmiş olur. Beləliklə, biz indi əmin oluruq ki, 30 il ərzində ATƏT-in Minsk qrupuna həmsədrlik edən ABŞ, Fransa kimi ölkələrin əsas marağı, məqsədi məhz elə bizim torpaqlarımızın işğal altında qalmasını təmin etməkdən ibarət olub və indi onlar iç üzlərini göstərirlər.

Ümumiyyətlə, ABŞ nəinki Cənubi Qafqazda, həm də dünyanın müxtəlif regionlarında ən destruktiv, xaos yaradan bir güc kimi tanınır. Bildiyiniz kimi, dünyada ən böyük hərbi büdcəyə malik ABŞ-dır və ildən-ilə hərbi büdcəsinin həcmini artırır. ABŞ İkinci Dünya müharibəsindən sonra dünyanın müxtəlif bölgələrinə, ölkələrə ən çox təcavüz edən ölkədir. Vyetnamdan başlayaraq 2001-ci ildə Əfqanıstan, 2003-cü il İraq, Suriya, Yaxın Şərq və digər ölkələr... Bütün bunlar göstərir ki, Amerika tərəfi dünyanın müxtəlif ölkələrində öz milli maraqlarını, öz qırmızı xətlərini qoruyan ölkələrə qarşı dözülməz bir siyasət yürüdür. Xatırlayırsınızsa, 2003-cü ildə Amerikanın keçmiş dövlət katibi Kolin Pauel BMT-nin Təhlükəsizlik Şurasında pensilin şüşəsinə oxşayan bir predmeti çıxarıb guya İraqda bioloji silah tapıldığını iddia etmişdi və sonradan gedib İraq dövlətini darmadağın etmişdilər. İraq dövləti indiyə qədər iflasa uğramış bir şəkildədir. Yaxud 2001-ci ildə Əfqanıstanda başladılan qanunsuz müharibə. İndiyə qədər Əfqanıstan ölkəsi, orada yaşayan insanlar rəzil vəziyyətdədirlər. ABŞ 20 il sonra Əfqanıstanı gözümüzün qarşısında necə tərk etdisə, hamımız bunun şahidi olduq. ABŞ-ın ölkəni sonuncu tərk edən təyyarələrinin qanadlarından, mühərriklərindən sallanan, Amerika təlimatçılarının öyrətdiyi adamlar... Onların hansı

gündə olduğunu biz gördük.

Amerika Birləşmiş Ştatları regionda qardaş Türkiyəyə qarşı destruktiv siyasətini neçə illər həyata keçirir. FETÖ terror təşkilatı, Suriya və İraq ərazisində PKK, YPG kimi kommunist terrorçuların maliyyələşdirilməsi, bir neçə il bundan öncə Türkiyədə dövlət çevrilişi cəhdi, hazırda İsrail–Fələstin münaqişəsi kontekstində ABŞ-ın destruktiv fəaliyyəti. ABŞ ən böyük hərbi aviadaşıyıcılarını Yaxın Şərqə, Aralıq dənizinin sahillərinə nəyə görə yığır? Nəyə görə Kipr adasının Yunanıstan tərəfində olan hissəsi tamamilə hərbi zonaya çevrilmişdir? Eyni zamanda, Yunanıstanda olan hərbi bazalarını gücləndirmişdir. Biz görürük ki, bunlar hamısı regiona qarşı, Türkiyəyə qarşı dözülməz bir siyasətin nəticəsidir. Mən əminəm ki, ABŞ-ın bu hərəkətləri cavabsız qalmayacaq, region ölkələri olaraq biz buna qarşı mətin, əzmlə dayanacağıq. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, biz bəyanat qəbul etməliyik və bəyanatın mətnini hazırlamaq üçün də komissiya yaratmalıyıq. Mən təklif edirəm, elə burada çıxış edənlər, bizim hörmətli həmkarlarımız – Ziyafət Əsgərov komissiyanın sədri, komissiyanın üzvləri isə hörmətli Səməd Seyidov, Tural Gəncəliyev, Qüdrət Həsənquliyev, Tamam Cəfərova və Kamilə Əliyeva olsunlar. Başqa fikir yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda komissiya işə başlaya bilər. Fərid müəllim, xahiş edirəm, komissiyanın üzvləri ilə bir yerdə olun. Hazır olanda xəbər verin, buyurun.

İndi isə Zahid Oruca söz verilir. Zahid müəllim, buyurun.

**Z.Oruc**. Hörmətli xanım sədr. Amerika Senatının 15 noyabr tarixli qərarı XXI əsrdə xalqımızın qazandığı Zə-

fərin əzilən bütün millətlərə nümunə olacağı qorxusundan irəli gəlir. Tarix təkrar olunur. Düz 34 il əvvəl, 1989-cu il noyabrın 19-da Amerika Konqresi Qarabağda əhalinin 80 faizinin ermənilər olduğunu, keçirilən referendumun əhalinin iradəsini ifadə etdiyini vurğulayaraq Sovet Ermənistanına yardım, SSRİ rəhbərliyi ilə Qarabağın taleyinin ayrılıqda həllinə dair qətnamə çıxarmışdı. Üstündən iki ay sonra ata Buş 20 yanvar faciəsini alqışladı. Göründüyü kimi, 15 noyabr dinləmə və qərarları köhnə kursun davamıdır.

Ulu Öndər Heydər Əliyev 907-ci düzəlişə qarşı uzun illər savaşarkən demişdi: "Pulunuzu istəmirik, lakin haqsız qərarınız bizi mənəvi cəhətdən əzir". Gerçəkdən, hökm kimi sözlərdir. İndi 1992-ci ildəki məğlub deyil, qalib xalqa qarşı cəza istəyirlər. Bayden Administrasiyası 20 sentyabrdan sonra Azərbaycanla münasibətlərin pisləşdiyini deyir və guya bizi sülhə gətirirlər. "Dağlıq Qarabağın gələcəyi" adlı dinləmə keçirənlər separatizmin ideoloqları və ünvanıdırlar. Vaxtı ilə Vudro Vilsonun qərarı və Arbitraj məhkəməsinin aktları nə idisə, indi Senatın siyasi addımları da odur.

Gerçəkdənmi, Ağ Ev Azərbaycan Xankəndini azad edəndən sonra fikrini dəyişib? Əsla yox. 44 günlük müharibənin qəfil başlanmasından xəbər tutmayan Mərkəzi Kəşfiyyat İdarəsi bir dövlətin qələbəsini və Cənubi Qafqazdakı geosiyasi inqilabın Qərbi, Avroatlantik dövlətləri regiondan çıxarmasını qəbul edə bilmir. Son 3 ildə Ermənistan–Azərbaycan sülh danışıqlarını zəbt etmək, Avropa Birliyinin əli ilə Ermənistana 2,6, Azərbaycana 2 milyard rüşvət planı ilə dövlətlərin mövqelərini satın almağa çalışırlar. ABŞ istəyir ki, müqavilə onların şərtləri ilə Vaşinqtonda imzalansın. Ona görə mediası, USAID kimi onlarca inqilab yayan maliyyə və qeyri-dövlət institutları,

Konqresi ilə Dağlıq Qarabağın gələcəyini Azərbaycandan kənarda axtarır. Son 30 ildə Birləşmiş Ştatlar Ermənistana “Azadlığa Dəstək Aktı” çərçivəsində 3,3 milyard dollar kömək göstərib və beləliklə, işğalı stimullaşdırıb.

ABŞ-ın hərbi yardımları dayandırması Prezident İlham Əliyevi müstəqil siyasətindən daşındırmaq, ölkəmizi antirus koalisiyasına qoşmaq və sülh danışıqlarını Moskvada keçirməkdən imtina planıdır. Beləliklə, Ermənistanın təhlükəsizliyinə ən böyük zərbəni Türkiyə və Azərbaycan deyil, Amerika vurur. Çünki onu öz imperiya oyunlarına alət edir, İrəvanı ayaq altına atır. Amerika silahlarını Ermənistana verəcəyi, NATO qüvvələrinin süngüsü altında erməniləri Xankəndinə qaytarmağa çalışacağı şübhə doğurmur. İrəvanda hərbi təlimlərin məqsədi, göndərilən təlimatçıların planı budur.

Onlar guya Azərbaycanı Zəngəzura hücuma təhrik etdiklərini düşünürlər, lakin dərk etmirlər ki, İlham Əliyev Brüsseldən və Vaşinqtondan idarə olunan, indi ərazi bütövlüyünü itirən rəhbərlərdən deyil. Konqresdə müzakirələr zamanı O’Brayen dedi ki, sülhyaradıcı qüvvələr Xankəndidə qalmasın. Bəli, Qərb dünyası Rusiya ordusunun kiçik bir hissəsinin sülhpərvər olmasını istəmir. Onlara işğalçı rus ordusu obrazı gərəkdir ki, onlardan guya qorunmaq adı ilə qoşunlarını həmin ölkəyə yeritsin. 800 milyard dollarlıq İraq əməliyyatında 654 min, 2 trilyon dollara başa gələn Əfqanıstan müharibəsində 200 minə qədər insan tələfatından sonra Amerika ordusu gəlib Göyçə dağlarında sülhməramlı qüvvə kimi yerləşə biləcək?

Amerikanın Qafqazda hərbi siyasətini ifşa edən Mayk Lourel adlı bir parlamentari O’Brayena deyir ki, “etiraf edin, son 20 ildə Azərbaycanı İran və Rusiyaya qarşı silahlandırmağımız səhv olub, çünki Bakı Moskva və Teh-

ranla yaxşı əlaqələrə malikdir". Deməli, son 20 ildə cəmi 164 milyon dollarlıq hərbi yardım ölkəmizin təhlükəsizliyini və ordusunu möhkəmləndirmək, qələbəyə hazırlamaq üçün deyil, qonşu dövlətlərlə bizi toqquşdurmaq planına xidmət edib. Son 30 ildə Vaşinqton indi DTX təcridxanasında yatan Qarabağ rejiminə 200 milyon dollar ayırmaqla separatizmi maliyyələşdirib. Əvəzində Amerika Birləşmiş Ştatları torpaqlarımızın işğaldan təmizlənməsinə bir qəpik də xərcləməyib, çünki biz silahı başqa dövlətlərdən almışıq.

Biz ermənilərə müraciət edirik. Qoy, onlar görsünlər ki, son 100 ildə Amerika və Fransanın Qafqaza sahib olmaq istəyi nəticəsində Ermənistanda yaşayan əhali qədər Amerikaya, onun üçdə biri qədər Fransaya erməni əhali köçüb və onlar "mühacir millət"ə çevriliblər. Azərbaycan xarici yardımlardan asılı ölkə deyil və Bayden Senatın qərarını imzalasa, o, qorbaçovlaşacaq və Qafqazda qanlı müharibələrin müəllifinə çevriləcək.

İndi əsas sual budur: Biz nə etməliyik? Bütün millətimizlə və daha çox dövlətlərin müttəfiqliyi ilə qələbəmizi qorumaq, Amerikanın çoxqütblü siyasi qüvvələri ilə, prezidentliyə namizədləri ilə intensiv çalışmaq və nəhayət, Türkiyə, Ermənistan və Azərbaycan arasında sərhədləri, kommunikasiyaları açmalıyıq. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov. Buyurun.

**S.Novruzov**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli hökumət üzvləri, hörmətli deputatlar, mətbuat nümayəndələri. Mən də həmkarlarımın dediklərinə qoşuluram. Təbii ki, Senatın bu aktı qəbuledilməzdir. Bu, bir daha təsdiq edir ki, əgər 2000-ci illərə qədər Amerika Birləşmiş Ştatları bu və ya digər insan azadlıqları, mətbuat azadlığı, dini azadlıqlar adı altında pərdələnərək ölkələrin

ərazilərinə müdaxilə edirdisə, onların təbii sərvətlərindən güzəştli istifadə etməyə çalışırdısa, indi artıq bu, açıq şəklə keçib və burada heç bir pərdələnmək əməlləri yoxdur. Vaxtı ilə Amerikanın o fundamental dövlət quruluşunun əleyhinə olaraq istər Vaşinqtonun, istər Cefersonun, istərsə də Linkolnun qurduğu Amerikadan artıq əsər-əlamət yoxdur. İndi Amerika bir imperialist dövlət kimi dünyada ədalətsizliyin təbliğatçısına çevrilibdir və Avropa ölkələrinin bir çoxunun da özünün təzyiqi vasitəsi ilə, xüsusilə Şərqi Avropa ölkələrinin zəif dövlətlərini özünə tabe etməklə başqa-başqa dövlətlərə qarşı bu cür addımlar atmasını tələb edir və bu cür addımlar atır.

Azərbaycanla əlaqədar, burada həmkarlarımız qeyd etdilər ki, ortada heç bir məsələ yoxdur. Əksinə, Azərbaycana qarşı ədalətsiz qərar qəbul olunub. Vaxtı ilə Ümummilli Liderimiz əlində xəritə bütün dünya ölkələrini gəzərək göstərirdi ki, Azərbaycanın ərazisi, Naxçıvan Muxtar Respublikası blokadadadır, biz Ermənistanı blokadaya almamışıq. 907-ci düzəlişin əsas mahiyyəti o idi ki, guya biz Ermənistanı blokadaya almışıq. Əksinə, Ermənistanın hər tərəfə çıxışı var. Azərbaycan, Naxçıvan blokadadadır. Hətta belə deyim, 907-ci düzəlişin aradan qaldırılmasına çox az sayda səs qaldı ki, bu, Amerika Konqrensində ləğv olunsun, lakin baş tutmadı. Yəni bunlar hamısı göstərir ki, biz müzəffər Ali Baş Komandanın rəhbərliyi altında hərbi məsələləri uğurla, Zəfərlə başa çatdırmışıqsa, növbəti müharibələr önümüzdədir. Diplomatik müharibə, bu cür ədalətsizlik müharibəsi, Azərbaycana qarşı, bu cür haqsızlığa qarşı mübarizənin aparılması. Biz bunu həyata keçirməliyik.

Ən acınacaqlı hallardan biri ondan ibarətdir ki, bu cür bəyanatları daxilimizdə olan satqınlar, vətən xainləri də təbliğ etməyə başlayıblar. Antimilli şuranın nümayəndə-

ləri, onun üzvləri indiyə qədər Azərbaycana, Azərbaycan xalqına, dövlətinə etdiyi ədalətsizliklə bağlı Amerikaya qarşı bir kəlmə söz, fikir işlətməyiblər, bir dənə dinləmə keçirilməyibdir. Amma Azərbaycanın əleyhinə Amerikada oturanlar da, buradan qaçıb gedənlər də və buradakılar da əks-təbliğat aparırlar.

Əslində, Azərbaycanın əleyhinə olan məsələlər elə onların dövründə qəbul olunubdur. Yəni AXC–Müsavat dövründə qəbul olunubdur. Heç olmasa, bunu nəzərə almalıdırlar. Heç olmasa, ona qarşı bir abır edib mübarizə aparmalıdırlar. İndi Əli Kərimli, – Azərbaycan kəndlərində bir fikir var, – qırt toyuqlar kimi televiziyanın qarşısında oturub və ayrı-ayrı Avropa dövlətlərinə müsahibələr verməyə başlayıb. Avropanın və Amerikanın bu siyasətini təbliğ edir ki, Azərbaycana nə qədər xeyri var, bu, Azərbaycanda demokratiyanın inkişafına xeyir edəcək. Azərbaycanın ərazi bütövlüyü əleyhinə iş aparılır. Azərbaycanda yalandan iş aparılır ki, azərbaycanlılar erməniləri etnik təmizləməyə məruz qoyublar. Halbuki ermənilər azərbaycanlıları həm Ermənistanın ərazisində, həm də keçmişdə Qarabağın ərazisində etnik təmizləməyə məruz qoyublar. Bunlardan bir kəlmə danışılmır, ancaq Azərbaycan əleyhinə eyni mənbədən olan eyni qüvvələr bu təbliğatı aparırlar. Ona görə də mən hesab edirəm ki, bu gün hamımız cənab Prezidentin apardığı siyasətin arxasında durmalıyıq, təbliğ etməliyik və çox düzgün apardığı bu siyasəti dəstəkləməliyik. Bu cür bəyanatlara kəskin mövqeyimizi bildirməliyik, ortaya qoymalıyıq. Digər dostluq qruplarına da bunların mövqeyi ilə bağlı məktublarımızı göndərməliyik.

**Sədrlik edən.** Sağ olun. Elman Nəsirov. Buyurun.

**E.Nəsirov.** Hörmətli xanım sədr, hökumət üzvləri, hör-

mətli həmkarlar, hörmətli media nümayəndələri. Hamı diqqətlə eşitdi: hörmətli xanım sədr söylədi ki, ABŞ Senatı “2023-cü il ermənilərі müdafiə aktı”nı qəbul edib. Adına baxın: “2023-cü il erməniləri müdafiə aktı”. Düz 31 il bundan öncə, 1992-ci il oktyabr ayının 24-də “Azadlığı Müdafiə Aktı”na 907-ci əlavə olundu. Onun da adı “Azadlığı Müdafiə Aktı”dır. Hiss edirsinizmi? “Erməniləri müdafiə aktı”, “Azadlığı Müdafiə Aktı”. Yəni “erməni” və “azadlıq” sözlərini bizə şüuraltı bir sinonim söz kimi təqdim edirlər.

Eyni zamanda, Amerika Birləşmiş Ştatlarının dövlət katibi Blinken Dövlət Departamentinə tapşırıb ki, çox qısa zaman ərzində Azərbaycanla bağlı, yəni Azərbaycan əleyhinə geniş, ətraflı bir hesabat hazırlasınlar. Konqresmenlər artıq öz işlərini görüb, aktı qəbul ediblər. Yüksək vəzifəli amerikalıların Azərbaycana səfərləri qadağan edilib. Eyni zamanda, bir çox qarşılıqlı proqramların icrası təxirə salınıb. Yəni Amerika Birləşmiş Ştatları bizə qarşı açıq təzyiq kampaniyasına başlayıb.

Sual yaranır ki, nədən Azərbaycana qarşı bu qədər aqressiv bir münasibət icra edilir? Nəzərə alaq ki, Azərbaycan dövləti və Amerika Birləşmiş Ştatları strateji müttəfiqdir. Beynəlxalq münasibətlər tarixi ilə məşğul olanlar yaxşı bilirlər, strateji müttəfiqlik münasibətləri o münasibətlərə deyilir ki, dövlətlər fundamental məsələlərdə ortaq mövqedən çıxış edə bilirlər. Bu gün beynəlxalq terrorizmə qarşı, beynəlxalq təhlükəsizliyin təminatı ilə bağlı, enerji təhlükəsizliyi baxımından rəsmi Bakı və Vaşinqtonun mövqeyi tamamilə üst-üstə düşür. Onda bəs nə oldu ki, birdən-birə Amerika Birləşmiş Ştatları Azərbaycana qarşı bu cür təzyiq kampaniyasına başladı?

Əvvəla, qeyd edim ki, beynəlxalq siyasətdə birdən-birə

heç nə olmur. Əslində, bu proses getməkdə idi. Ona görə indi gözlənilməz təsir bağışlayır ki, Vaşinqton indiki məqamı özü üçün sərfəli hesab edir. Hansı anlamda? Cənubi Qafqazda möhkəmlənmək anlamında. Yəqin, Amerika Birləşmiş Ştatlarının siyasi rəhbərliyi və onun qulağına pıçıldayanlar söyləyirlər ki, əsl məqamdır, indi Cənubi Qafqazda möhkəmlənmək üçün unikal şərait yaranıb. Çünki Ermənistan açıq mətnlə Rusiya ilə düşmənçilik siyasəti həyata keçirir və yəqin Ermənistanın KTMT-dən çıxması da baş verəcək. 102-ci hərbi bazanın da çıxarılması reallaşdırıla biləcək. Belə olan vəziyyətdə Ermənistanın mövqeyi bəllidir. Ermənistan artıq Rusiyadan uzaqlaşıb Amerika Birləşmiş Ştatlarının qucağına gəlib. Ancaq yəqin, Vaşinqtonda düşünürlər ki, Cənubi Qafqazda Amerika Birləşmiş Ştatlarının möhkəmlənməsi üçün bu, azdır. Bir dövlətin Amerika Birləşmiş Ştatlarının yanında yer alması azdır. Gürcüstan da prinsip etibarı ilə qərbyönümlü siyasət həyata keçirir. Deməli, Cənubi Qafqazda tam möhkəmlənmək üçün Azərbaycanın da Qərbə istiqamətlənməsi, Azərbaycanın yeritdiyi məlum siyasətdən, cənab İlham Əliyevin, ölkə Prezidentinin müəyyən etdiyi uğurlu, müstəqil xarici siyasətdən imtina etmək lazımdır. Bəs bunu necə edək? Etmək üçün də təsir və təzyiq mexanizmlərini işə salaq.

Hesab edirəm ki, bu prosesdə bir bəhanə, bir də səbəb var. Bəhanə: Amerika Birləşmiş Ştatları və onun kütləvi informasiya vasitələri, eyni zamanda, Dövlət Departamenti, konqresmenlər, senatorlar beynəlxalq ictimai rəyi formalaşdırırlar ki, guya biz Azərbaycan dövləti olaraq Ermənistana hücum etməyə hazırlaşırıq, yaxın zamanlarda Ermənistan torpaqlarını zəbt edəcəyik. Bu illüziyanı yaradırlar. Amma səbəb isə onunla bağlıdır ki, Cənubi

Qafqazda möhkəmlənmək üçün Azərbaycanı da vadar edirlər, biz anti-Rusiya siyasətini həyata keçirək, biz də Ermənistan kimi davranaq. Hesablayırlar, əgər Azərbaycan da Rusiya əleyhinə açıq şəkildə etiraza başlasa, Rusiya ilə münasibətləri korlasa, belə olan vəziyyətdə həm Moskvadan, həm də Tehrandan təzyiq altında olacaq, iki cəbhədən təzyiq altında olan Azərbaycanın artıq Amerika Birləşmiş Ştatlarına istiqamətlənməsi və onun yanında yer alması sırf zaman məsələsi olacaq. Hesab edirəm ki, belə bir xətt seçiblər. Amma bunun heç bir faydası yoxdur. Azərbaycan dövləti güclü dövlətdir, onun güclü lideri var, güclü ordumuz var, xalqımız var, bizdə səfərbər olmuş cəmiyyət var, vətəndaş həmrəyliyi hökm sürür. Bütün bu reallıqlar fonunda Amerika Birləşmiş Ştatlarının bu siyasi oyunbazlığının reallaşma...

**Sədrlik edən.** Sağ olun. Sahib Alıyev. Buyurun.

**S.Alıyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli hökumət üzvləri və həmkarlar. Amerika Birləşmiş Ştatlarının Konqresində noyabrın 15-də baş verənlər, əslində, həmin Konqresdə 1992-ci ildə baş verənlərin təkrarıdır. Xatırladım ki, Azərbaycana qarşı "Azadlığı Müdafiə Aktı"na 907-ci düzəliş edilmişdi. Azərbaycan torpaqlarının bir hissəsi işğal olunarkən, Xocalı soyqırımı baş verərkən belə bir düzəlişin edilməsi təkcə Ermənistana dəstək deyildi, bu həm də o demək idi ki, Amerika Birləşmiş Ştatları 20 Yanvar qətliamı kimi, Azərbaycan torpaqlarının işğalını da, Xocalı soyqırımını da dəstəkləyir.

Beləliklə, biz bu siyasətin yenidən davam etdirildiyini görürük. Onu görürük ki, yırtıcı dövlətlər həmişə hansı siyasəti yeridirlərsə, yenə də eyni xətlə gedirlər. Ona görə də mən buradan Ermənistandakılara səslənmək istəyirəm. Yəqin, dünən onlar diqqət yetirdilər. Azərbaycan Prezi-

dentinin iraqlı həmkarı ilə keçirdiyi birgə mətbuat konfransında səsləndirdiyi fikirlərin 90 faizi məhz Ermənistanın indiyə qədər yeritdiyi təcavüz, eyni zamanda, onun revanşizmə hazırlaşması ilə bağlıdır. Region yeni savaşa sürüklənir və bu, Azərbaycan Prezidentinin Ermənistandakı topluma xəbərdarlığı idi. O toplum bundan öncəki xəbərdarlıqlara məhəl qoymamasının nə ilə nəticələndiyini, o sırada mayın 28-də Laçında edilən xəbərdarlığın sentyabrın 19-da və 20-də necə reallaşdırıldığını unutmamalıdır. Unutmamalıdırlar ki, 2 ay öncə olduğu kimi, yeni qarşıdurmaya gedəcəkləri halda, nə Fransa, nə də digərləri onlara kömək etməyəcəklər.

Xatırladım, Paşinyan, ondan öncəki "varçapet"lər, Serj Sarkisyan özünə xas həyasızlıqla bizim torpaqları qan tökərək ələ keçirdiklərini bildirir və kinayə ilə deyirdi ki, bacarırsınıza, buyurun, geri qaytarın. O, hətta 44 günlük savaşdan sonra belə Qarabağın heç zaman Azərbaycanın tərkibində olmayacağından dəm vururdu. Düz 1 ay sonra indi üçrənglimiz dalğalanan Xankəndi şəhərinin stadionunda bizim iki komandamız futbol yarışı keçirəcəklər. Bu sizə dərs olmadımı? Anlamaq o qədər çətindir? İndi Paşinyanı revanşizmə həvəsləndirənlər məhz Sarkisyanı arxayın salırdılar ki, Azərbaycanı öz torpaqlarını azad etməyə qoymayacaqlar? Qərbdəkilər – Fransası, "sülh fondlarından" Ermənistanın hərbiləşdirilməsinə vəsait ayırmağı planlaşdıran Avropa Birliyi, həmin Avropa Birliyinin get-gedə fransalaşmasının heç də Makronun deyil, özlərinin xidməti olduğunu noyabrın 15-də Konqresdəki dinləmədə rəsmi təmsilçisi Ceyms O'Brayenin dili ilə dedirtdirən ABŞ-si, regionumuzdakı iki böyük hay havadarı bizim önümüzü kəsə bildimi?

Burada o da vurğulanmalıdır ki, cənab İlham Əliyevin

Ermənistanın yeni savaş hazırlığı görməsi haqda dedikləri qarşı tərəfin və ondan geosiyasi alət kimi faydalananların bizimlə bağlı eyni iddialarından fərqli olaraq tam əsaslıdır. Buradan soruşuram: Əgər Ermənistan yenidən Azərbaycanın torpaqlarını ələ keçirməyə hazırlaşmırsa, onda bizim ərazi bütövlüyümüzü dəqiq rəqəmlər göstərməklə tanıdığını deyən Nikol Paşinyanın rəsmi saytında nədən Arsax bölməsi qalır? Niyə özlərini buraxanlar özlərini yenidən prezident, parlament və sair adlandırırlar? Nədən həmin ölkənin Xarici İşlər Nazirliyinin rəsmi saytında Qarabağ azmış kimi, Naxçıvan da hay torpağı kimi təqdim edilir?

Bütün bunların qarşısında həmin Ermənistanı sülhə, bu cür təxribatçı, konstruktiv hallara son qoymağa çağırmaqdansa, onu silahlandırırlar. Təbii ki, bütün bunlar sonda sülhlə nəticələnəcək. Amma Azərbaycan Prezidenti cənab İlham Əliyevin dünən dediyi kimi, "tarixi ədalətə dayanan sülhlə". Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Musa Qasımlı. Buyurun.

**M.Qasımlı.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli hökumət üzvləri. Çox gözəl bilirsiniz ki, Amerika Birləşmiş Ştatları özünün başlıca prinsiplərindən biri kimi ədaləti elan edib. Amma 30 ildə biz Amerika Birləşmiş Ştatlarından özümüzə münasibətdə ədaləti görmədik. 44 günlük müharibədə və lokal xarakterli antiterror tədbirlərində Azərbaycan ədaləti bərpa etdi, beynəlxalq hüququ bərpa etdi. Xeyir şər üzərində, işıq qaranlıq, zülmət üzərində qələbə çaldı. Gözləyirdik ki, Amerika Birləşmiş Ştatları özünün ədalət prinsipinə uyğun olaraq, Azərbaycanın bu qələbəsini təbrik edəcək, amma Amerika Birləşmiş Ştatları öz ənənəsinə sadiq qaldı.

Qəbul edilən akt isə Azərbaycana qarşı düşmənçilik aktı olduğundan qətiyyən qəbul edilə bilməz. Ədalətsizdir,

qərəzlidir və bizim tərəfimizdən, Azərbaycan ictimaiyyəti tərəfindən anındaca cırılıb atılmış kağız parçasıdır. Nə üçün? Çünki bu sənəd Cənubi Qafqazda sülh yaratmır, separatizmi, terrorizmi dəstəkləyir. Ermənilər heç kim qovmayıb, onlar könüllü şəkildə gediblər. Belə bir sənədin qəbul edilməsinin səbəbləri nədir? Başlıca səbəb bundan ibarətdir ki, Azərbaycanın müstəqil xarici siyasət yeritməsini, qonşuları ilə normal dövlətlərarası münasibətlər yaratmasını bu ölkə istəmir. Regionda düşmənçilik yaradıb bu regiona nüfuz etmək istəyir. Təbiidir ki, burada bəlli tərəfkeşlik var. Mən xırdalığa getmək istəmirəm.

Sənədə səs verənlərdən soruşmaq lazımdır: Bu akt Amerika Birləşmiş Ştatlarının elan etdiyi ədalət prinsipinə, arxasında gizləndiyi o prinsipə uyğundur, yoxsa uyğun deyil? Cavab aydındır. Soruşmaq lazımdır: Azərbaycanlılar tarixi torpaqlarından vəhşicəsinə qovulub çöllərdə, çadırlarda, vaqonlarda yaşayarkən, ev-eşiklərini itirdiyi zaman ədalət prinsipi harada idi? Niyə səsinizi çıxarmırdınız? Soruşmaq lazımdır: Ermənistan sizin və dünya birliyinin tanıdığı Azərbaycan ərazilərinə təcavüz edərkən harada idiniz? Niyə səsinizi çıxarmadınız? Soruşmaq lazımdır: Azərbaycan əraziləri 30 il işğal altında qalarkən, tarix və mədəniyyət abidələri yerlə-yeksan edilərkən harada idiniz? Nə üçün Xocalıda törədilən soyqırımı qurbanlarını anmadınız? Nə üçün etiraz etmədiniz?

Hesab edirəm ki, Amerika Birləşmiş Ştatları Senatında buna səs verənlər özlərini erməni mina terroru ilə bir tərəziyə qoymalıdırlar. Onlar tərəzidə eyni gələcəklər. Bu sənəd Amerika Birləşmiş Ştatlarının uzunmüddətli milli dövlət maraqlarına tamamilə ziddir və sonda Amerika Birləşmiş Ştatlarının özünə qarşı yönələcək. Soruşulur: Amerikanın maraqları nədən ibarətdir? Amerikanın maraqları

Azərbaycanla bərabərhüquqlu münasibətlərdən keçir. Bu, ən vacib məsələdir. ABŞ-ın maraqları uydurma, qondarma erməni iddialarından ibarət deyil, Amerikanın maraqları erməni iddialarından qat-qat üstdə olmalıdır. Belə bir şəraitdə soruşulur: bəs bir millət, bir cəmiyyət olaraq bizim davranışımız necə olmalıdır? Biz bir millət, bir cəmiyyət olaraq belə məsələlərdə bir suala cavab verməliyik: qazandığımız qələbə təkcə Ermənistan, dünya erməniliyi üzərində qələbə deyil. Belə sənədlər qəbul ediləcək və bu sənədlərin qəbul edilməsi göstərir ki, Azərbaycan həmin ölkələrin iddiaları üzərində də qələbə qazanıb. Deməli, biz güclü dövlət olmalıyıq, millətimiz daim dövlətimizin yanında olmalıdır, cənab Prezidentin siyasətini birmənalı olaraq müdafiə etməliyik, ərazilərimizi dirçəltməliyik, sakinlərimizi ev-eşiklərinə köçürməliyik və yolumuza davam etməliyik. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fəzail Ağamalı. Buyurun.

**F.Ağamalı.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri, hörmətli həmkarlar, media təmsilçiləri. Amerika Birləşmiş Ştatlarının bu mövqeyi, ədalətsizliyi, haqqımızı tapdalamaq cəhdləri onun dövlət siyasətindən və söykənmiş olduğu ənənələrdən irəli gəlir. Amerika Birləşmiş Ştatları o ölkədir ki, oranın yerli əhalisi olan hindiləri darmadağın edərək, onların hüquqlarını tapdalayaraq, ayaqlar altına ataraq "Amerika" deyilən hegemon bir dövlət yaratmağa nail oldular.

Bu gün dünyada baş verən bütün kataklizmlərin, bütün qarşıdurmaların, bütün faciələrin, müharibələrin müəllifi, təşkilatçısı və icraçısı Amerika Birləşmiş Ştatlarıdır. Amerika Birləşmiş Ştatları dünyada öz məqsədlərinə nail olmaq üçün iki yoldan istifadə edir. Biri hərbi təcavüz, digəri isə "məxməri inqilab"lar. Bunların hər ikisi dünya

xalqlarının hüquqlarının tapdalanmasına, onların faciə içərisində yaşamasına gətirib çıxaran eybəcər bir siyasətin təzahürüdür.

Təbii, Amerika Birləşmiş Ştatları çalışır ki, bütün dünya onlarla razılaşsın. Bu baxımdan Qafqazın açar dövləti olan Azərbaycanın da müstəqil siyasətinə böyük qıcıq göstərir. Bunu qəbul etmək istəmir. Çalışır ki, Azərbaycan vasitəsi ilə, bu ölkədən istifadə etməklə Rusiyaya, İrana qarşı öz məkrli planlarını yerinə yetirsin. Əgər Amerikanın Rusiya ilə, İranla münasibətlərində problemi varsa, özü bunlarla məşğul olsun. Niyə başqa ölkələri, eyni zamanda, Azərbaycanı da buna vadar etməyə çalışır? İndi ən müxtəlif yollarla belə təzyiqlər və təhdidlər göstərir.

Əslində, Ermənistan bu gün özünün yeni faciələrinin astanasındadır. Bir tərəfdən, Fransa, başqa bir tərəfdən, Amerika onu silahlandırmağa çalışır. 30 il Rusiya Ermənistanı təpədən dırnağa qədər silahlandırdı. Nəticə nə oldu? Ermənistan Azərbaycanın silahlı qüvvələri tərəfindən yerlə-yeksan edildi, dövləti çökdürüldü və rəzil bir vəziyyətə düşdü. İndi əgər Ermənistan silahlanma vasitəsi ilə Azərbaycana qarşı yenidən revanşist addımlar atarsa, heç şübhəsiz ki, cənab Prezidentin dediyi kimi, "dəmir yumruq onun başında çatlayacaqdır". Artıq o, bir dövlət kimi yerlə-yeksan olacaq və dövlət kimi sıradan çıxacaqdır. Buna Azərbaycanın imkanları da, gücü də, qüdrəti də çatır.

İndi Amerika Birləşmiş Ştatlarının Azərbaycana qarşı 907-ci düzəlişi yenidən hərəkətə gətirməsi, əslində, Bayden administrasiyasının arzuladığı və ona veriləcək bəhanələrdən biridir. Çünki vaxtı ilə 907-ci düzəlişin müəlliflərindən biri də elə Baydenin özü idi. Bu, simvolikdir. Bu bizə heç nə vermir, sadəcə, Amerika Birləşmiş Ştatla-

rının bizə olan münasibətinin bir ifadəsidir. Azərbaycanın bu cür düzəlişlərə, bu cür köməklərə qətiyyən ehtiyacı yoxdur.

Mən düşünürəm ki, Azərbaycan dövləti başlamış olduğu yola bundan sonra da uğurla davam edəcəkdir. Çünki Azərbaycan dövləti artıq tarixin ən çətin məqamlarında ayağa qalxaraq, xalqına güvənərək qarşıda duran problemləri həll edən bir dövlət kimi dünyada özünü təsdiq etmişdir. Biz bu gün dövlətimizlə bərabər olmalıyıq. Onunla birlikdə bu cür məkrli planlara qarşı qətiyyətli mövqeyimizi ortaya qoymalıyıq.

Sonda, 1990-cı illərdə bəzi deputatlarla bərabər mən də Amerika Birləşmiş Ştatlarında oldum. Bizə Nebraska ştatının və Linkoln şəhərinin fəxri vətəndaşı adını verdilər. Mən bu gün həm Linkoln şəhərinin, həm də Nebraska ştatının fəxri vətəndaşlığından imtina edirəm. Çünki mən Amerika Birləşmiş Ştatlarının ölkəmə qarşı təcavüzünü, eybəcər və iyrənc siyasətini özümdə, hansısa sənəddə bu və ya digər şəkildə ifadə etmək istəmirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən düşünürəm ki, biz məsələni kifayət qədər müzakirə etdik. Elə başa düşürəm ki, bəyanatın mətni də hazırdır. Ziyafət müəllim, hazırdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəyanatı oxumaq üçün mən həmkarımız hörmətli Kamilə Əliyevaya söz verirəm. Kamilə xanım, buyurun.

**K.Əliyeva.** Amerika Birləşmiş Ştatları Senatının "2023-cü il ermənilər müdafiə aktı" ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı.

Azərbaycan Respublikasının Milli Məclisi bu il noya-

brın 15-də ABŞ Senatının “2023-cü il ermənilləri müdafiə aktı”nı qəbul etməsinə qəti etirazını bildirir və ölkəmizi hədəf alan bu hərəkəti şiddətlə qınayır. Bununla birlikdə, Milli Məclis həmin gün ABŞ Nümayəndələr Palatasının Xarici İşlər komitəsinin Avropa üzrə alt komitəsində keçirilmiş dinləmələri, orada  ölkəmiz əleyhinə səslənən çıxışları, ümumiyyətlə, son dövrdə ABŞ dövləti rəsmilərinin Azərbaycana qarşı ifadə etdikləri qərəzli fikirləri iki ölkə arasında strateji münasibətlərə ciddi zərbə kimi qiymətləndirir. Sözügedən aktın qəbul edilməsi və Azərbaycana qarşı irəli sürülən əsassız ittihamlar  regionda sülh və sabitlik yaradılması səylərinə ciddi maneçilik törədir.

Bayden administrasiyasının təhriki ilə anti-Azərbaycan, korrupsiyaçı, islamofob senatorların saxta məlumatları əsasında ABŞ Senatının qəbul etdiyi akt ikili standartların və selektiv yanaşmanın növbəti bariz nümunəsidir. Absurd teatr səhnəsini xatırladan dinləmələr isə ABŞ-ın riyakar siyasətinin yeni bir təzahürüdür.

Ermənistanın Azərbaycana qarşı işğalının genişləndiyi 1992-ci ildə Qarabağda Xocalı soyqırımı ilə yanaşı, Şuşa rayonunun Malıbəyli, Aşağı Quşçular və Yuxarı Quşçular kəndlərində, Xocavənd rayonunun Qaradağlı kəndində, Kəlbəcər rayonunun Ağdaban, Ballıqaya kəndlərində azərbaycanlı əhaliyə qarşı kütləvi qırğın aktları törədilərkən, Şuşa və Laçında etnik təmizləmə aparılarkən ABŞ tərəfi BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi Azərbaycan xalqına qarşı qətliamların qarşısını almağa səy göstərmək əvəzinə, bu ölkənin qanunvericilik orqanı erməni təbliğatının təsiri altında “Azadlığa Dəstək Aktı” adlanan Qanuna 907-ci düzəlişi qəbul etmişdir. Bununla da ABŞ hökumətinin Azərbaycana maliyyə yardımı göstərməsi qadağan olunmuşdur. Keçmiş SSRİ respublikaları

arasında Azərbaycan yeganə ölkə idi ki, onun əleyhinə bu cür qərar qəbul edilmişdi. Nəticə etibarı ilə ABŞ-ın təcavüzkar Ermənistana verdiyi maliyyə dəstəyi Azərbaycan torpaqlarının işğalına kömək göstərmişdir.

Məlum olduğu kimi, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 nömrəli qətnamələrdə, eləcə də BMT Baş Məclisinin 2008-ci ildə qəbul etdiyi 62/243 nömrəli qətnamədə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı birmənalı şəkildə təsdiqlənmiş və Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilmişdir. Lakin Amerika Birləşmiş Ştatları özünün də lehinə səs verdiyi bu sənədlərin Ermənistan tərəfindən yerinə yetirilməsi üçün heç bir tədbir görməmiş və bu ölkəyə qarşı hər hansı sanksiya tətbiq etməmişdir. Əksinə, ABŞ Azərbaycanın işğal edilmiş ərazisində Ermənistan tərəfindən yaradılmış qanunsuz separatçı rejimi dəstəkləmiş, ona maliyyə yardımı göstərmiş, rejim nümayəndələrinin ABŞ-a müntəzəm səyahətlərini və ABŞ rəsmiləri ilə görüşlərini təşkil etmişdir. ABŞ-ın bu cür birtərəfli addımları onun uğursuz vasitəçiliyini və Azərbaycan ictimaiyyəti arasında nüfuzunu itirməsi ilə nəticələnmişdir.

Beynəlxalq səviyyədə tanınmış Azərbaycan ərazilərinin 20 faizinin 30 ilə yaxın davam edən işğalının doğurduğu ağrı-acıya, etnik təmizləməyə, Xocalı soyqırımına və digər qətliamlara, 1 milyondan artıq qaçqın və məcburi köçkünün taleyinə, şəhər və kəndlərin yerlə-yeksan edilməsinə, tarixi, mədəni və dini abidələrin dağıdılmasına etinasızlıq göstərən ABŞ tərəfi 2020-ci ilin 44 günlük müharibəsindən sonra təcavüzkar Ermənistana beynəlxalq hüquqa uyğun davranması ilə bağlı heç vaxt çağırış etmədiyi üçün də

məsuliyyət daşıyır. Digər tərəfdən, ABŞ Senatı Azərbaycan ərazisində qalmaqda davam edən Ermənistan Respublikası silahlı qüvvələrinin birləşmələrinə və qanunsuz erməni dəstələrinə qarşı həyata keçirilmiş antiterror tədbirlərindən sonra belə bir aktı qəbul etməklə revanşist qüvvələrə açıq dəstək verir.

"Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin tətbiqinin dayandırılmasını ləğv etməklə ABŞ tərəfi Azərbaycana qarşı 1992-ci ildə yol verdiyi tarixi səhvi, təəssüf ki, yenidən təkrarlayır. Halbuki 2001-ci il 11 sentyabr hücumlarından sonra Azərbaycan ABŞ-ın terrora qarşı mübarizə səylərini dəstəklədiyi zaman 907-ci düzəlişin icrasının müvəqqəti dayandırılması qərarını verən də ABŞ olmuşdur.

Məhz Azərbaycan hava məkanı marşrutlarını və logistika imkanlarını, Şimal Paylayıcı Şəbəkəsini açmaqla ABŞ tərəfinə yardım əlini uzatmışdır. Əfqanıstanda terrorizmə qarşı ABŞ ilə çiyin-çiyinə mübarizə aparan ilk dövlətlərdən biri də Azərbaycan olmuşdur. Eyni zamanda, Azərbaycan Əfqanıstanı tərk edən sonuncu tərəfdaş ölkə idi.

Qondarma "Dağlıq Qarabağ Respublikası" özünü buraxdığını elan etdikdən sonra Amerikanın onu müdafiə etməsi siyasi riyakarlıq olub regionda vəziyyətin yenidən gərginləşməsinə xidmət edir. Sözdə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıyan ABŞ tərəfi məhz ölkəmiz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdikdən sonra Azərbaycana qarşı qeyri-dost addımlarını intensivləşdirməklə ikiüzlü siyasət yeritdiyini ortaya qoymuşdur.

Azərbaycan Respublikası Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan cəmiyyətinə dayanıqlı reinteqrasiyasının təmin edilməsi və Azərbaycan dövlətinin himayəsindən istifadə etmələrinə imkan yaradılması məqsədi ilə bölgədə sosial, humanitar, iqtisadi və infrastruktur

məsələlərinin həlli istiqamətində kompleks tədbirlər həyata keçirir. BMT-nin, Beynəlxalq Qırmızı Xaç Komitəsinin, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının və digər beynəlxalq təşkilatların rəylərinə tamamilə zidd olaraq, bölgədən könüllü getmiş erməni sakinlərin ərazidən zorla köçkün salındığının iddia edilməsi beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədi daşıyır.

Amerikanın son illərdə həyata keçirdiyi xarici siyasət, xüsusən Əfqanıstan və Yaxın Şərq siyasəti tamamilə iflasa uğramışdır. ABŞ-ın Əfqanıstanda apardığı 20 illik qanlı müharibədən sonra məsuliyyəti digərlərinin üzərinə ataraq ölkəni hərc-mərclik içərisində qoyub tərk etməsinin, Əfqanıstanı narkotik bitkilər plantasiyasına çevirməsinin ağır nəticələrini aradan qaldırmaq üçün hələ uzun müddət lazım gələcəkdir. 2003-cü ildə İraqın işğalı nəticəsində milyonlarca iraqlı doğma yurdlarından didərgin düşmüş, yüz minlərcə insan həlak olmuşdur.

Dünyanın müxtəlif regionlarında təşkil etdiyi "rəngli inqilablar" nəticəsində baş verən faciələrə görə ABŞ hələ də cavab verməmişdir. ABŞ-ın hakimiyyət orqanlarında, o cümlədən Konqresində kök salmış islamofob qüvvələrin güclənməsi nəticəsində müxtəlif təşkilatlar, xüsusən USAID humanitar yardım çətiri altında casus şəbəkəsi yaradaraq, müstəqil siyasət yeridən ölkələrdə "rəngli inqilablar" və dövlət çevrilişləri etməyə cəhd göstərməklə ölkələrin daxili işlərinə kobud müdaxilə edirlər.

ABŞ-ın Türkiyədə dövlət çevrilişinə dəstək verməsi, çevriliş cəhdində əsas rol oynayan FETÖ və onun kimi terrorçu təşkilatları himayə edərək özünün əlaltı rejimini yaratmağa səy göstərməsi məlum faktdır. Bu gün İsrail–Fələstin münaqişəsinin alovlanmasında əsas məsuliyyət də məhz ABŞ-ın üzərinə düşür.

Azərbaycan öz milli maraqlarına uyğun olaraq, region ölkələri ilə nəqliyyat dəhlizlərini özü formalaşdırır və bu baxımdan Azərbaycan-İran nəqliyyat dəhlizi Azərbaycanın suveren seçimidir. Region ölkəsi olmayan ABŞ öz addımları və bəyanatları ilə bölgə ölkələrinin nəqliyyat təhlükəsizliyini təmin etmək səylərinə zərbə vurur. ABŞ tərəfinə yaxşı məlumdur ki, Ermənistanın 2020-ci il tarixli Üçtərəfli Bəyanatın 9-cu bəndindən irəli gələn öhdəliklərini yerinə yetirməməsi Azərbaycanı alternativ yolların tikintisi ilə bağlı qərar qəbul etməyə sövq etmişdir. Qonşu dövlətlərlə kommunikasiya xətlərinin çəkilməsi qaydasının razılaşdırılması, o cümlədən Naxçıvan Muxtar Respublikasına marşrutla bağlı İranla müqavilə bağlanması Azərbaycanın suveren hüququdur.

Azərbaycan Respublikasının Milli Məclisi bir daha bəyan edir ki, Azərbaycan həmişə beynəlxalq hüququn norma və prinsipləri əsasında, beynəlxalq öhdəliklərinə uyğun hərəkət edərək öz milli maraqlarına zidd olan bütün mənfi addımları qətiyyətlə və adekvat şəkildə cavablandıracaqdır.

**Sədrlik edən.** Çox sağ olun, Kamilə xanım. Hörmətli həmkarlar, necə baxırsınız? Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda xahiş edirəm, buyurun, bəyanata münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Bəyanat qəbul edildi, çox sağ olun.

Hörmətli həmkarlar, biz işimizə davam edirik. Gündəliyin növbəti 12 məsələsi dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələridir. Onu da deyim ki, bu qanun layihələri ikinci oxunuşda müzakirə ediləcək.

Beləliklə, gündəliyin 2-ci məsələsinə keçirik. Bu məsələ də Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün mən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri hörmətli Tahir Mirkişiliyə söz verirəm. Tahir müəllim, buyurun.

**T.Mirkişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli hökumət üzvləri, dövlət orqanlarının nümayəndələri və media nümayəndələri. Bildirmək istərdim ki, 2024-cü ilin dövlət büdcəsi layihəsinin Milli Məclisin plenar iclasında birinci oxunuşda müzakirəsi zamanı layihə haqqında həm biz, həm də maliyyə və iqtisadiyyat nazirləri, Mərkəzi Bankın İdarə Heyətinin sədri və Hesablama Palatasının sədri tərəfindən ətraflı məlumat verilmiş, müzakirə zamanı 50-yə yaxın deputat çıxış etmişdir.

Çıxış edən deputat həmkarlarım layihəni konseptual olaraq birinci oxunuşda dəstəkləmiş, bir sıra təkliflərlə çıxış etmiş, təqdim olunan makroçərçivənin iqtisadi imkanlarımıza uyğun olduğunu, dövlət qarşısında duran çağırışlara cavab vermək üçün lazımi maliyyə imkanları yaradacağını qeyd etmişlər.

Hörmətli həmkarlar, xatırladım ki, bu gün sizə Maliyyə Nazirliyi tərəfindən 2024–2027-ci illər üzrə ortamüddətli büdcə çərçivəsi haqqında ətraflı material təqdim olunmuşdur. Bu materialda dövlət büdcəsinin xərclərinin funk-

sional təsnifatının, təhsil, kənd təsərrüfatı və ətraf mühitin mühafizəsi bölmələrinə dair xərclərin proqramlar üzrə bölgüsü və “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” üzrə dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitin dayanıqlı iqtisad məqsədlərinə uyğunluğu haqqında bölgüsü də ətraflı təqdim olunmuşdur. Hesab edirəm ki, bu sənəd ortamüddətli xərclər çərçivəsində nəticəəsaslı büdcənin maliyyə siyasətinin qavranmasında ətraflı kömək edəcəkdir.

Qısa olaraq bir daha qeyd etmək istərdim ki, 2024-cü ilin dövlət büdcəsi layihəsində dövlət büdcəsi gəlirləri 2023-cü ilin dövlət büdcəsi gəlirlərindən 282,5 milyon manat çox olaraq 34 milyard 173 milyon manat, xərcləri isə 2023-cü ilin dövlət büdcəsi xərclərindən 138,2 milyon manat artırılaraq 36 milyard 763 milyon manat nəzərdə tutulmuşdur. Dövlət büdcəsinin kəsiri 2 milyard 590 milyon manat həddində proqnozlaşdırılmışdır. Neftin 1 barelinin orta illik qiymətinin 60 dollar olacağı bazası əsasında 2024-cü ilin ümumi daxili məhsulunun real artım tempinin 2,4 faiz, qeyri-neft-qaz ÜDM-in isə real artım tempinin 4,6 faiz, inflyasiyanın orta illik göstəricisinin 5,3 faiz, orta aylıq əmək haqqının isə növbəti ildə 980 manat olacağı planlaşdırılmışdır.

Qeyd edim ki, dövlət büdcəsinin qeyri-neft-qaz sektoru üzrə vergi və gömrük orqanları vasitəsi ilə təmin olunan gəlirlərinin proqnozu cari ilin dövlət büdcəsinin proqnozu ilə müqayisədə 1 milyard 100 milyon manat artırılaraq 15,8 milyard manat nəzərdə tutulmuşdur. Gəlirlərdə, səhmlərdə dövlətin payı olan müəssisələrdən alınan dividendlərdən gələn gəlirlərin 2023-cü ilin proqnozu ilə müqayisədə 237 milyon manat çox olmaqla 558,2 milyon manat planlaşdırılmışdır. Dövlət büdcəsi gəlirlərinin 49,8

faizi qeyri-neft-qaz sektorundan, 50,2 faizi isə neft sektorundan gələn gəlirlər hesabına formalaşacaqdır.

Büdcə layihəsində sosial yönümlü xərclər ümumilikdə 1 milyard 34,5 milyon manat artırılaraq 15 milyard 772,9 milyon manata və ya dövlət büdcəsi xərclərinin 42,9 faizinə çatdırılmışdır.

İşğaldan azad olunmuş ərazilərin bərpası və əhalinin məskunlaşması şəraitinin yaradılması üçün 4 milyard manat vəsaitin ayrılması planlaşdırılır.

Ölkənin müdafiə potensialının gücləndirilməsi və silahlı qüvvələrin maddi-texniki təminatının daha da yaxşılaşdırılması və hüquq mühafizə orqanları üçün ayrılan xərclərin 489,3 milyon manat artırılaraq 9 milyard 377,7 milyon manata, təhsil xərclərinin 142,8 milyon manat artırılaraq 4 milyard 549,9 milyon manata, səhiyyə xərclərinin 66,3 milyon manat artırılaraq 1 milyard 871 milyon manata çatdırılması planlaşdırılır.

Əməyin ödənişi xərcləri 510,1 milyon manat artırılaraq 9 milyard 7,2 milyon manat təşkil edəcəkdir.

Layihədə ərzaq təhlükəsizliyi tədbirləri üçün 502,9 milyon manat, su ehtiyatları və su idarə edilməsi üçün 507,1 milyon manat və məqsədli kənd təsərrüfatı tədbirləri üçün isə 546,2 milyon manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur.

2024-cü il üzrə icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbətinin 22,2 faiz, dövlət borcunun ÜDM-ə nisbətinin isə 14,5 faiz olması planlaşdırılır. Aparılmış təhlillər təqdim olunmuş layihənin büdcə qaydasına uyğun hazırlandığını deməyə əsas verir.

2024-cü ilin dövlət büdcə layihəsinin və büdcə zərfinə daxil olan digər layihələrin ikinci oxunuş üçün komitədə müzakirəsi geniş formada təşkil edilmiş, aidiyyəti dövlət

orqanlarının nümayəndələrinin iştirakı ilə geniş müzakirələr aparılmışdır. Deputatları maraqlandıran suallara və təkliflərə münasibətlər bildirilmiş və müvafiq şərhlər verilmişdir.

Hörmətli həmkarlar, yekun olaraq bildirmək istərdim ki, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin 2024-cü ilin dövlət büdcəsi layihəsinin Milli Məclisin plenar iclasında ikinci oxunuşda müzakirə edilərək qəbul edilməsi üçün rəyi müsbətdir. Hesab edirik ki, 2024-cü ilin dövlət büdcəsi layihəsi dövlətin növbəti ildə ölkəmiz qarşısında duran hədəflərə çatması və yaranacaq çağırışlara cavab verməsi üçün lazımi maliyyə imkanı yaradacaqdır. Layihəni ikinci oxunuşda da dəstəkləməyi sizdən xahiş edirəm. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Hörmətli həmkarlar, bu, ikinci oxunuşdur. Ona görə də biz qanun layihəsini əsas kimi qəbul etməliyik. Xahiş edirəm, qanun layihəsinə əsas kimi münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Biz müzakirələrə keçirik. Hörmətli həmkarlar, 17 nəfər yazılıb. Mən qabaqcadan deyirəm, kim birinci oxunuşun tələblərinə əsasən konseptual çıxış etmək istəyirsə, xahiş edirəm, siyahıdan çıxsın. İkinci oxunuşa uyğun çıxışlar

olacaqsa, qalsınlar. Hamının da nəzərə almasını xahiş edirəm. Sonra heç kim küsməsin. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli qonaqlar, hörmətli həmkarlarım. Mən də ikinci oxunuşun tələblərinə uyğun olaraq, büdcə layihəsi ilə bağlı öz fikirlərimi bölüşmək istərdim. Əvvəla, biz ikinci oxunuşun tələblərinə əsasən büdcəni maddələr üzrə qiymətləndirsək, təbii ki, 2024-cü ildə, bütövlükdə, iqtisadi siyasətin prioritet istiqamətlərinə uyğun olaraq, büdcənin tərtib edilməsi və müzakirəsi həyata keçirilir. O baxımdan mən də büdcə layihəsini dəstəkləyirəm.

Biz büdcəyə maddələr üzrə diqqət yetirsək, işğaldan azad olunmuş ərazilərimizin bərpasına 4 milyard manat vəsait, müdafiə xərcləri üçün 6 milyard 421 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Bu isə o deməkdir ki, bütövlükdə, 2024-cü ildə büdcə xərclərinin 28,3 faizi məhz işğaldan azad olunmuş ərazilərimizin bərpası, yenidənqurulması və eləcə də Azərbaycanın müdafiə qabiliyyətinin daha da gücləndirilməsinə xidmət edəcək, ayrılacaq. Bu da bizim iqtisadi siyasətdə prioritet istiqamətlərimizə uyğundur.

Eyni zamanda, biz büdcə layihəsinin maddələr üzrə qiymətləndirilməsini həyata keçirsək, bütövlükdə, büdcənin gəlirlərinin 50,2 faizi neft sektorunun, digər hissəsi isə qeyri-neft sektorunun payına düşür. Maddələr üzrə təhlil göstərir ki, 2024-cü ildə də büdcə gəlirlərində neft sektorunun payı qeyri-neft sektoruna nisbətən daha üstündür. Həmçinin biz büdcə layihəsində Dövlət Neft Fondunun transferlərinə diqqət yetirsək, neft sektorundan daxilolmaların 74,5 faizi məhz Dövlət Neft Fondunun payına düşəcək. Bu isə ondan xəbər verir ki, büdcə gəlirlərinin formalaşmasında Dövlət Neft Fondunun payı yüksək olaraq

qalmaqdadır. Bu, eyni zamanda, növbəti illər üçün büdcə maddələrində və büdcə xərclərində qeyri-neft sektorunun payının artırılması ilə bağlı yeni bir prioritet müəyyənləşdirir.

2024-cü ilin büdcə layihəsində qeyri-neft gəlirlərimiz cari xərclərimizi tam ödəmir. Biz maddələr üzrə qeyri-neft gəlirlərimizə diqqət yetirsək, qeyri-neft gəlirlərimiz 17 milyard 764 milyon manatdır. Cari xərclərimiz isə 22 milyard 622 milyon manatdır. Hətta biz qeyri-neft sektoru ilə yanaşı, vergi orqanlarına neft sektorlarından daxilolmaları nəzərə alsaq, növbəti ildə məhz bu maddə üzrə 4 milyard 3 milyon manat vəsaitin cəlb edilməsi nəzərdə tutulur. Bu vəsait də, bütövlükdə, 21 milyard 547 milyon manatdır ki, bu da cari xərclərimizi tam olaraq ödəmir. O baxımdan cari xərclərimizdəki artım tempinə uyğun olaraq, qeyri-neft sektorundan daxilolmaların artırılması və optimallaşdırılması çox vacibdir.

Digər maddə Dövlət Neft Fondundan daxilolmalarla bağlıdır. Belə ki, 2024-cü ildə 12 milyard 781 milyon manat vəsaitin Dövlət Neft Fondundan dövlət büdcəsinə transfer edilməsi nəzərdə tutulur. Bu, əvvəlki ilə nisbətən 8,9 faiz çoxdur. Düşünürəm ki, Dövlət Neft Fondundan dövlət büdcəsinə transferlərin optimallaşdırılması və bu kontekstdən büdcə gəlirlərinin dayanıqlığının artırılması çox vacibdir.

Büdcə layihəsində digər bir istiqamət, maddə publik hüquqi şəxslərə ayrılan vəsaitin həcminin artırılması ilə bağlıdır. Növbəti il bu rəqəm 20,2 faiz artırılacaq, 534 milyon manat vəsait bu istiqamətə yönəldiləcək. Amma bu maddə üzrə artımlarla yanaşı, həmin maddə üzrə ayırmaların, xüsusən əvvəlki illərdə səmərəliliyin ölçülməsi və bu istiqamətdə məhz hesabatın hazırlanması məqsədəuyğundur.

Çox vacib maddələrdən biri elm xərcləridir ki, bu da 228 milyon manatdır. 776 min manat vəsaitin ayrılması nəzərdə tutulur. Yenə də elm xərclərinin ümumi daxili məhsuldakı payı birrəqəmli deyil. Nəzərə alaq ki, dünya ölkələrində ÜDM-dəki pay ortalama 2,2 faizdir. Ona görə də bu istiqamətə də daha çox vəsaitin ayrılması və bütövlükdə, elm xərclərinin dəstəklənməsi vacibdir.

Sonuncu məqam məhz büdcə layihəsində xüsusən də güzəşt və azadolmaların hesablanması ilə bağlıdır. 7 milyard 630 milyon manatlıq güzəşt və azadolmalar qiymətləndirilir. Bu qiymətləndirilmənin yenidən aparılması... Əgər kifayət qədər böyük məbləğdirsə, onda mexanizmin dəyişməsi və əslində, subsidiya və digər mexanizmdən istifadə edilməsi məqsədəuyğun olardı. Bütövlükdə, ikinci oxunuşun tələblərinə uyğun olaraq hazırlanan qanun layihəsini dəstəkləyirəm və bu büdcə layihəsinin qəbulu növbəti ilin iqtisadi prioritetlərinə uyğundur. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Azay Quliyev. Buyurun.

**A.Quliyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri, hörmətli həmkarlar. İkinci oxunuş üçün təqdim olunan büdcə zərfi haqqında birinci oxunuşda kifayət qədər fikir bildirildi. İndi ikinci oxunuşun tələblərinə uyğun olaraq müzakirələrə başlamışıq. Biz büdcəmizi bir cümlə ilə xarakterizə etsək, deyə bilərik ki, 2024-cü ilin büdcəsi Azərbaycanın həm Vətən müharibəsində, həm də sentyabrın 20-də əldə etdiyi tarixi qələbənin daha da möhkəmləndirilməsi və qarşısında duran bütün milli və strateji vəzifələrin həyata keçirilməsi üçün kifayət qədər hazırlıqlı bir büdcədir. Bu vəzifənin icrası üçün qarşıya qoyulan vəzifələri bütövlükdə həyata keçirmək üçün, hesab edirəm ki, kifayət edəcək maliyyə təminatıdır. Ayrı-ayrı maddələrə gəldikdə isə, əlbəttə ki, burada bir neçə

istiqamətdə təkliflərimi səsləndirmək istəyirəm. Ümumiyyətlə, təkliflər çoxdur. Amma nəzərə almalıyıq ki, bütün təklifləri də hazırda qarşılamaq mümkün deyildir. Mən əminəm, hökumət üzvləri də çalışırlar ki, deputatların qaldırdığı məsələlərə daha həssas yanaşsınlar. Bununla yanaşı, bir sıra vacib məsələlərin burada qeyd edilməsinə ehtiyac var.

Birinci. Hörmətli hökumət üzvləri, bilirsiniz ki, mən bir neçə dəfə seçicilərimin xahişi ilə 6-cı mikrorayonda 5 ildir fəaliyyəti dayandırılan 27 saylı poliklinikanın yenidən tikilib istismara verilməsi ilə bağlı məsələ qaldırmışdım. Təqdirəlayiq haldır ki, artıq bu istiqamətdə müəyyən işlər başlanılıbdır. Artıq poliklinikanın layihələndirilməsi prosesi başa çatıbdır. Mən fürsətdən istifadə edib həm bizim hörmətli səhiyyə nazirinə, həm maliyyə nazirinə, həm də iqtisadiyyat nazirinə təşəkkür etmək istəyirəm ki, bu prosesi artıq başlayıblar. Eyni zamanda, istəyərdim ki, poliklinikanın tikintisini məhz prioritet layihələr siyahısına daxil etsinlər. Nəzərə almaq lazımdır ki, 6-cı mikrorayonda 30 mindən çox sakin poliklinikanın tikintisini və istismara verilməsini səbirsizliklə gözləyirlər.

Digər məsələ. Biz dəfələrlə bu haqda danışmışıq. Bələdiyyələrin maliyyə təminatı ilə bağlı məsələlər bu Məclisdə qaldırılıbdır. Bu gün biz artıq bilirik ki, bu istiqamətdə müəyyən artımlar da var, bələdiyyələrə 12,5 milyon manat dotasiyalar nəzərdə tutulur. Ancaq bilirsiniz ki, bu dotasiyalar heç də məsələnin tam olaraq həlli demək deyil. Ona görə də yaxşı olardı ki, biz bu prosesə fərqli bir rakursdan yanaşaq. Ümumiyyətlə, bələdiyyələrin bu gün bütün dünyada mövcud olan vergiyığma və maliyyə mənbələrinin müxtəlif vergilərdən toplanması praktikasına yenidən qayıdaq. Mən xüsusilə təklif edərdim

ki, fiziki şəxslərə məxsus avtomobil vergisi, bələdiyyə mülkiyyətində olan torpaqlarda, binalarda və digər obyektlərdə küçə reklamından əldə olunan gəlirlər və yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi bələdiyyələrə verilsin. Əgər belə bir maliyyə mənbəyi formalaşarsa, əlbəttə ki, bələdiyyələrin də fəaliyyəti doğru istiqamətdə qoruna bilər və bu gün bütün əhalinin gözlədiyi və haqq etdiyi vacib xidmət daha səmərəli şəkildə həyata keçirilə bilər.

Bir məsələyə də toxunmaq istərdim. Bu, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təhsildən yayınma, məişət zorakılığı və erkən nigah problemlərinin daha çox yaşandığı, narkomaniyanın daha çox yayıldığı rayonlarda yerli şöbələrin yaradılması ilə bağlı ayrılan vəsaitə dair təkliflərlə bağlıdır. Bu təklif nədən ibarətdir? Bilirsiniz ki, bu gün bir çox hallarda qeyd etdiyimiz problemlərlə üzləşirik. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin məhz həmin həssas rayonlarda şöbələrinin olmaması digər qurumlarla yanaşı, bu problemin həllinə müdaxilə imkanlarını məhdudlaşdırır. Bir misal çəkmək istəyirəm. 2022-ci ildə narkotik maddələrin qanunsuz dövriyyəsi üzrə cinayət törətmiş 8677 nəfərin 6748-i işləməyən və heç bir təhsili olmayan şəxslər olubdur. Bu, bir daha göstərir ki, aidiyyəti qurumlar bu məsələdə daha çox aktiv olmalıdırlar. Ona görə də dövlət komitəsinin institusional imkanlarını daha da genişləndirmək üçün quruma ayrılan 7,1 milyon manat vəsaitə baxıla bilər. Dediyimiz istiqamətlərdə və rayonlarda yeni filialların yaradılması məsələsi nəzərdən keçirilə bilər. Diqqətinizə görə təşəkkür edirəm. Hesab edirəm ki, büdcə ikinci oxunuşa tam hazırdır və deputat həmkarlarımı da səs verməyə çağırıram. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. İltizam Yusifov. Buyurun.

**İ.Yusifov**. Çox sağ olun, hörmətli Sahibə xanım. Hörmətli deputat həmkarlarım, hökumət üzvləri və media təmsilçiləri. Xalqın birliyi və müzəffər Ali Baş Komandan, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə Zəfərini təmin edən Azərbaycan öz inkişafını, iqtisadi yüksəlişini illərdir ki, davam etdirir. Bu minvalla 2024-cü ilin dövlət büdcəsi bizim müstəqilliyimizin ən böyük büdcəsidir. Büdcə layihəsində bütün sahələr üzrə artım, o cümlədən Böyük Qayıdışla bağlı azad olunmuş torpaqlarda bərpa-quruculuq işlərinin maliyyələşdirilməsinin davam etdirilməsi də nəzərdə tutulmuşdur. Bu gün dünyadakı narahat geosiyasi vəziyyət, müharibə ocaqlarının eskalasiyası, gözlənilən qeyri-stabil geosiyasi şəraitdə ölkəmizin təhlükəsizliyi və müdafiə qabiliyyətinin artırılmasına ayrılan xərclər isə Azərbaycan xalqının, Azərbaycan dövlətinin sülh şəraitində firavan yaşayışı və inkişafına xidmət edəcək addımlardır. Müasir reallıqlar kontekstində ölkəmizin həyata keçirdiyi meqalayihələr, o cümlədən infrastruktur və nəqliyyat sektorunda əldə etdiyi nailiyyətlər, bütövlükdə, nəinki region ölkələr, o cümlədən dünya dövlətləri üçün böyük əhəmiyyət kəsb edir. Bu sahədə böyük işlər görürlər. Lakin görüləcək işlər çoxdur.

Mən nəqliyyat sektoruna toxunacam. Nəqliyyat sektorunda müasir çağırışlara, o cümlədən milli prioritetlərə uyğun olaraq, ölkə daxilində artıq ekoloji təmiz nəqliyyat vasitələrini istər yükdaşımada, istərsə də müntəzəm sərnişindaşımada istifadə etməyin vaxtıdır. Bu gün dəmir yolu xəttinin bütün şəhər və rayonları, o cümlədən iri istehsal müəssisələrini əhatə etməsinə baxmayaraq, ölkə daxilində bütün yüklərin əksər hissəsi avtomobil nəqliyyatı ilə daşınır və burada dəmir yolunun payı yükdaşımada 1 faizin üstündə, sərnişindaşımada isə 1 faizin altındadır.

Bu da büdcə hesabına qurulan yol infrastrukturunun vaxtından əvvəl sıradan çıxmasına, yollarda qəzalar və insan həyatının itirilməsinə və ən əsası atmosfer havasının çirklənməsinə səbəb olur.

Burada deyildi ki, müasir sürət qatarı artıq Ağstafaya, Tovuza gedir. Mən hesab edirəm ki, biz artıq digər istiqamətlərdə də sürət qatarını açmalı və sonradan, misal üçün, Şirvan istiqamətində, Sabirabad, Saatlı, İmişli və Şərqi Şəngəzur istiqamətlərində bunu genişləndirməliyik. Bu, regionlardan Bakıya, əks istiqamətdə gündəlik iş üçün gedən insanların, o cümlədən tələbələrin asan gediş-gəlişini təmin edə bilər. Bu, bir çox sosial problemlərin həllidir, o cümlədən Bakıda tıxacların qarşısını ala bilər.

Nəqliyyatla bağlı deyim ki, bölgələrdə standartlara, müasir tələblərə uyğun olmayan ictimai nəqliyyat sistemi fəaliyyət göstərir. Yaxın vaxtlarda biz nəqliyyat sahəsində qanunvericilik bazasını təkmilləşdiririk və hesab edirəm ki, bu sahədə də qayda-qanun yaratmağın vaxtıdır.

Digər bir məsələ təhsillə bağlıdır. Gələn il təhsil xərcləri cari ilə nisbətən 3,2 faiz artırılır. Bundan əlavə, məktəbəqədər təhsil müəssisələrində uşaqların sağlam qidalanması üçün nəzərdə tutulan xərclər də artırılır. 4,1 faiz. Lakin hesab edirəm ki, biz artıq məktəblərdə də qidalanmanı birbaşa dövlət nəzarətinə götürməliyik. Bu yaxınlarda məktəblilərin dönərdən kütləvi zəhərlənməsinin şahidi olduq və bu, cəmiyyətdə, sosial şəbəkələrdə böyük müzakirələrə səbəb oldu. Belə ki, kiçikyaşlı şagirdlər, o cümlədən də imkansız ailələrin uşaqları mütləq dövlət hesabına isti yeməklə təmin olunmalıdır. Bunu biz icbari tibbi sığorta kimi pilot layihəsi formatında bir neçə rayon və şəhərlərdə başlayıb, sonradan ölkənin bütün məktəblərinə tətbiq edə bilərik.

Burada çıxış edən həmkarlarım bölgələrdə iş yerlərinin açılmasının vacibliyini vurğuladılar. Bəli, bu, lazımdır. Mən də razıyam. Lakin hesab edirəm ki, regionlarda, əsasən də, pay torpaqları olan, kənd təsərrüfatı profilli rayonlarda iş yerlərinin açılması fabrik və zavodların tikilməsi kimi deyil. Büdcə zərfində "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na uyğun olaraq, fərdlərin özünüməşğulluğunun, ev təsərrüfatlarının inkişafına çalışaraq, əsasən, yerli xarakterə uyğun ənənəvi istehsalı və sənətkarlığı inkişaf etdirmək lazımdır.

2024-cü il dövlət büdcəsinin gəlirləri təsnifatında – büdcə zərfi ilə bağlı 3-cü kitabda qida təhlükəsizliyi xidmətindən daxilolmalar sıfır manatı göstərir. Mən hesab edirəm ki, bu sahədə işlər görülməlidir. Ev təsərrüfatlarının və fərdi fərdlərin bazara səmərəli çıxışını təmin etmək üçün yerlərdə, hətta kəndlərdə də kiçik laboratoriyalar səviyyəsində işlər qurulmalı, fəaliyyət göstərilməlidir ki...

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov. Buyurun.

**S.Novruzov**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli hökumət üzvləri, hörmətli deputatlar, mətbuat nümayəndələri. İlk növbədə fürsətdən istifadə eləyərək qeyd etmək istərdim ki, bu gün Yeni Azərbaycan Partiyasının yaranmasının 31-ci ildönümüdür və bu münasibətlə mən Prezidentimiz, partiyanın sədri başda olmaqla bütün partiya üzvlərini ürəkdən təbrik edirəm. 31 il bundan əvvəl Ümummilli Liderimizin rəhbərliyi altında Naxçıvan Muxtar Respublikasında keçirilən konfransda Yeni Azərbaycan Partiyası təsis olundu və qısa zamanda bütün Azərbaycanda bu təsisat fəaliyyət göstərdi. Bugünkü müstəqil, azad, demokratik dövlətin qurulmasında, ərazi bütövlüyünü tam təmin etmiş güclü bir Azərbaycan olmasında və

bu cür büdcənin müzakirəsində başda partiyamızın sədri, partiya sədrinin birinci müavini hörmətli Mehriban xanım olmaqla bütün partiya üzvlərinin əvəzsiz xidmətləri var. Mən bir daha onları təbrik edirəm, uğurlar arzulayıram.

Qeyd etmək istərdim ki, büdcə ikinci oxunuşa tam hazır şəkildə təqdim olunubdur. Biz əlavələrə də nəzər saldıq. İkinci oxunuşun tələblərinə uyğun olaraq, mənim bir neçə təklifim var. Birincisi, büdcədə nəzərdə tutulan Prezidentin Ehtiyat Fondunun artırılması. Bilirsiniz ki, büdcə illik nəzərdə tutulur və il ərzində çox müxtəlif hadisələr baş verə bilir. Prezidentimizin regionlara səfərləri olur, regionlarda vətəndaşlar tərəfindən müraciətlər olunur və bu müraciətlərin yerinə yetirilməsi üçün vəsaitlər ayrılır. Ona görə də biz Prezidentin Ehtiyat Fonduna kifayət qədər vəsait ayırmalıyıq ki, cənab Prezident bu vəsaitlərdən istifadə eləyərək o vətəndaşların arzularını, istəklərini tam şəkildə həyata keçirsin.

İkinci məsələ. Hərbçilər, müəllimlər və həkimlərlə əlaqədar bir məsələyə toxunmaq istəyirəm. Orada digər strukturlar da var. Amma əsasən, bu üç istiqaməti nəzərə alaraq onların yaşayış xərclərinin... Hərbiçilər ailələri ilə bir yerdən başqa yerə gedirlər. Orada yaşamaq üçün onlara verilən kirayə pulu bazar qiymətlərinə uyğunlaşdırılmalıdır. Əfsuslar olsun ki, bu gün o qiymətlər çox az miqdardadır, ona görə də bu məbləğin artırılması, mən hesab edirəm, vacibdir. Həm müəllimlər üçün, həm rayonlarda dərs keçən xarici dil müəllimləri üçün, həm də həkimlər üçün. Bu sahəyə də diqqət göstərilməlidir.

Üçüncü məsələ. Biz torpaq islahatı ilə əlaqədar birinci mərhələni başa vurmuşuq. Mən hesab edirəm ki, ikinci mərhələyə başlamaq lazımdır. Torpaqlar verilibdir və biz o vaxt nəzərdə tutmuşduq. Bununla bağlı qanun da qəbul

eləmişdik ki, ayrı-ayrı kooperasiyalar yaradılsın. Bu gün görürük ki, əkin torpaqları sahəsində kim isə öz torpağında ev də tikir, digərləri başqa istiqamətdə istifadə eləyir və kənd təsərrüfatına aid olan torpaqlar öz kateqoriyasından kənara çıxıb. O baxımdan torpaqların birləşməsi və müxtəlif kooperasiyaların yaradılması vacibdir. Çünki pay torpaqlarının 20 faizi yollara çıxır və bu da əkin üçün çox böyük ziyan verir. Mən hesab edirəm ki, bu da vacib məsələlərdən biridir.

Digər bir məsələ mina təmizləyənlərin əmək haqqının artırılmasıdır. Onlar hər gün səhər evdən çıxanda bilmirlər ki, axşam geri qayıdacaqlar, ya yox. Həm Qarabağ ərazisində olanların, həmçinin Fövqəladə Hallar Nazirliyinin tərkibində olan, şəhərdə fəaliyyət göstərən minaaxtaranların əmək haqlarının artırılmasına, mən hesab edirəm ki, diqqət yetirməliyik.

Başqa bir məsələ uşaq evləri ilə bağlıdır. Uşaq evlərini bitirdikdən sonra vətəndaşlar, demək olar ki, taleyin ümidinə buraxılırlar. Bu uşaqlar üçün ya evlər, ya da kampuslar tikilməlidir, onların taleyi ilə bağlı hər hansı bir qərar qəbul edilməlidir ki, onlar məktəbləri bitirdikdən, 17 yaşına çatdıqdan sonra da hər hansı bir nəzarət altında fəaliyyətləri olsun. O baxımdan büdcəyə səs verəcəyəm, həmkarlarımızı da səs verməyə çağırıram. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Səsə qoymağa hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Sabir müəllim, sualınız var idi?

**S.Hacıyev**. Birinci oxunuşda da xeyli adam çıxış elədi. İndi də hamı büdcəni dəstəkləyir. Səsə qoymağı təklif edirəm.

**Sədrlik edən.** Əgər hamı razıdırsa, mən səsə qoyacağam. Hörmətli həmkarlar, səsə qoymazdan öncə mən sözü maliyyə naziri hörmətli Samir Şərifova vermək

istəyirəm. Samir müəllim, buyurun.

**S.Şərifov,** *Azərbaycan Respublikasının maliyyə naziri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. İlk növbədə 2024-cü il dövlət büdcəsi layihəsinin müzakirəsində fəal iştirakınızı təqdir edir və olduqca faydalı hesab edirəm. Ənənəvi olaraq qeyd etmək istərdim ki, hörmətli deputatlarımızın çıxışları zamanı təqdim olunmuş 2024-cü il dövlət büdcəsi layihəsinə və büdcə zərfinə daxil olan digər sənədlərə bilavasitə aid olmayan məsələlər də qaldırılıb. Qeyd etməliyəm ki, bizim əvvəlki illərdəki müzakirələrin ənənəsinə uyğun olaraq, biz həmin məsələləri toplayaraq aidiyyəti dövlət orqanlarında baxılmağa göndəririk. Sonradan isə bu məsələlərə baxılmasının nəticələri barədə vaxtaşırı Milli Məclisə məlumatlar verilir.

Hörmətli deputatlarımız tərəfindən qaldırılan bu məsələlərə ölkəmizin bəzi kəndlərində təbii qaz, su təchizatında olan problemlər də aiddir. Müəyyən yol-nəqliyyat infrastrukturunun yaradılması, yaxud yenidən qurulması, əsaslı təmiri kimi məsələlər, eyni zamanda, bir çox deputat tərəfindən ölkənin regionlarında məktəblərin əsaslı təmiri və ya yenidən qurulması, yeni məktəblərin tikilməsi kimi və digər təhsil infrastrukturunun yaradılması kimi məsələlər də qaldırılmışdır. Bununla bağlı qeyd etmək istərdim ki, bu məsələ ilə bağlı növbəti iclasların birində həmkarım Emin Əmrullayev ətraflı məlumat verəcəkdir.

Eyni zamanda, hörmətli deputatlar tərəfindən elmin maliyyələşməsində yeni modelin yaranması, bununla bağlı əmək haqqı üzrə fərqləndirmələrin tətbiq edilməsi və sair məsələlər qaldırılmışdır. Qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanına uyğun olaraq, hazırda bu sahədə genişmiqyaslı islahatların

həyata keçirilməsi nəzərdə tutulub. Bu barədə də Emin müəllim Əmrullayev əlavə məlumatları hörmətli deputatlarımızın diqqətinə çatdıracaqdır.

Müzakirələrdə deputatlar tərəfindən müəyyən istiqamətlər üzrə vergilərin azaldılması təklifləri də irəli sürülmüşdür. Bu məsələlər olduqca həssasdır. Onların təhlilinə vaxt tələb olunur və hər zaman elə bir qərar qəbul ediləndə biz büdcə gəlirlərinin azalması məsələsini də nəzərdən keçirməliyik. Çünki hər hansı bir verginin azaldılması və hər hansı azadolmaların tətbiq edilməsi müvafiq olaraq büdcə gəlirlərinin azaldılmasına gətirib çıxarır. Bu baxımdan biz həmin azalan gəlirlərin hansı mənbə hesabına bərpa edilməsi, kompensasiya edilməsi məsələlərinə də cavab tapıb təqdim etməliyik. Yaxud da müvafiq həcmdə xərclərin ixtisar edilməsi məsələsinə də baxmalıyıq. Zənnimcə, bu məsələlərə biz məhz bu prizmadan baxmalıyıq. Sözsüz ki, vergi azadolmaları, yaxud azaldılmaları orta və uzunmüddətli ölkə iqtisadiyyatına gətirəcəyi potensial faydalar, yaxud sosial, humanitar aspektləri baxımından da dəyərləndirilməlidir. Hər zaman bunlara nəzərən hökumət tərəfindən Vergi Məcəlləsində müvafiq düzəlişlərin edilməsi təklif edilir.

Qaldırılan digər məsələlər büdcə layihəsinin strukturu ilə bağlıdır. Burada daha çox gəlirlərin və xərclərin optimal balansından söhbət qaldırılmışdı. Qeyd etmək istərdim ki, zənnimizcə, təqdim olunan layihə kifayət qədər balanslı bir layihədir. Sözsüz, mən plenar iclasda çıxışımda qeyd etmişdim ki, Dövlət Neft Fondundan dövlət büdcəsinə edilən transfertin məbləğində müəyyən artımlar var. Lakin bu artımlar bizim əsas fiskal siyasət sənədimizin əsasını təşkil edən büdcə qaydasının hədəflərinə xələl gətirmir.

Çıxışımda da qeyd etdiyim kimi, neft gəlirlərimizin azalması prosesi baş verir. Bu azalma iki faktorla bağlıdır. Bunlardan biri dünyada qlobal dekarbonlaşma meyilləri-dir, digəri isə bizim hazırkı neft yataqlarımızda hasilatın azalması prosesləri gedir. Sözsüz ki, bunlar büdcə gəlir-lərinə mənfi təsir göstərir. Həmin təsirin azaldılması, şüb-həsiz ki, qeyri-neft sektorundan daxilolmaların hesabına kompensasiya edilməlidir. Təqdim olunmuş dövlət büd-cəsi layihəsində ötən illərdəki kimi, qeyri-neft sektorun-dan daxilolmalarımız ildən-ilə artmaqdadır. Gələn il də istisna deyil. Gələn il də əhəmiyyətli artımlar gözlənilir. Lakin neft sektorundan bu artımlar cari ildə neft gəlirləri-nin azaldılmasını tam həcmdə kompensasiya etmir.

Bununla yanaşı, ölkəmizin qarşısında böyük vəzifələr durur. Bu vəzifələr də, əsasən, işğaldan azad edilmiş ərazi-lərin yenidən qurulması, həmin ərazilərin ölkə iqtisadiy-yatına reinteqrasiyası ilə bağlıdır ki, bu məqsədlərə də hər il dövlət büdcəsindən vəsaitin təmin edilməsi strateji baxımdan olduqca vacibdir. Bu baxımdan Dövlət Neft Fondundan bir qədər transfertin artırılması makroiqtisadi sabitliyə xələl gətirməyəcək dərəcədə, zənnimizcə, kifa-yət qədər əsaslıdır. Hesab edirəm ki, bu məsələlər təqdim olunmuş dövlət büdcəsində öz əksini tapmışdır.

Hörmətli deputatlar, qeyd etdiyim kimi, bugünkü iclas-da, eyni zamanda, Milli Məclisin komitə müzakirələrində səslənən fikirlərə, irəli sürülən təkliflərə hökumət orqan-ları tərəfindən yaxından baxılacaq və bununla bağlı sizlərə əlavə məlumat təqdim ediləcəkdir. Bunları nəzərə alaraq hörmətli deputatlarımızı təqdim olunmuş qanun layihəsinə bir daha səs verməyə çağırıram. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Samir müəllim.

Hörmətli həmkarlar, səsverməyə keçməzdən öncə xa-

tırladım ki, çıxış edə bilməyən deputatlar öz çıxışlarını, təkliflərini, həmişə olduğu kimi, katibliyə versinlər. Samir müəllimin də dediyi kimi, biz müvafiq qurumlara çatdırırıq. Fərid müəllim, xahiş edirəm, bunların cavabları da sizdə toplansın.

İndi isə hörmətli həmkarlar, biz ikinci oxunuşa aid səsvermə proseduruna başlayırıq. Qanun layihəsinə əvvəlcə maddələr üzrə, sonra isə bütövlükdə səs verəcəyik. Layihədə 17 maddə var. Mən onları üç-üç səsə qoyacağam.

İndi isə xahiş edirəm, 1-ci, 2-ci və 3-cü maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddələr qəbul edildi.

İndi isə mən 4-cü, 5-ci və 6-cı maddələri səsə qoyacağam. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

7-ci, 8-ci və 9-cu maddələr səsə qoyulur. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə 10-cu, 11-ci və 12-ci maddələrə səs verin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

13-cü, 14-cü və 15-ci maddələrə səs verməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Xahiş edirəm, son 2 maddəyə səs verin. Bunlar 16-cı və 17-ci maddələrdir.

| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bütün maddələr qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, layihəni bütövlükdə səsə qoyacağam. Qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Saat 3-ə qədər fasilə elan edilir. 3-də işimizə davam edəcəyik. Sağ olun.

## *(FASİLƏDƏN SONRA)*

**Sədrlik edən.** Hörmətli həmkarlar, işimizə davam edirik. Biz gündəliyin 3-cü məsələsinə keçirik. Bu məsələ Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında, gündəliyin 4-cü məsələsi isə İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında qanun layihələridir. Musa müəllim, bu məsələlərə sizin komitədə baxılıb. Mən təklif edirəm ki, hörmətli Musa Quliyev hər 2 məsələ haqqında ümumi bir məlumat versin. Müzakirəni birgə apa-

raq, səsverməni isə, həmişə olduğu kimi, ayrılıqda keçirəcəyik. Musa müəllim, buyurun, məlumat verin.

**M.Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli hökumət üzvləri. Hər iki qanun layihəsi haqqında birinci oxunuşda ətraflı məlumat verildiyindən, icazənizlə, əsas məqamları qısa olaraq bir daha sizə xatırladım.

Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il üçün gəlirləri və xərcləri bərabər olmaqla 6 milyard 919,9 milyon manat proqnozlaşdırılır. Bu, cari ilin büdcəsinə nisbətən 651,9 milyon manat və ya 10,4 faiz çoxdur.

Fondun gəlirlərinin 5 milyard 288,1 milyon manatının, yaxud 76,4 faizinin məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar hesabına formalaşması nəzərdə tutulur.

Məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların 64 faizi qeyri-büdcə sektorunun, 36 faizi isə büdcədən maliyyələşən təşkilatların hesabına təmin ediləcəkdir.

2024-cü ildə fondun büdcəsinin balanslaşdırılması məqsədi ilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait 1 milyard 392 milyon manat proqnozlaşdırılır ki, bu da 2023-cü il üzrə təsdiqlənmiş transfert məbləğindən 75,8 milyon manat və ya 5,2 faiz azdır.

Orta aylıq əmək haqqının cari ilin sonuna 930 manat təşkil edəcəyi nəzərdə tutulur. Bu, imkan verəcək ki, gələn il pensiyaların orta hesabla 11 faiz artırılması təmin olunsun. Onu da deyim ki, pensiyaların bütün növlərinin sığorta hissəsi gələn il 11 faizə qədər artırılacaqdır.

Əmək pensiyalarının orta aylıq məbləğinin 2023-cü ildə 436 manat təşkil edəcəyi gözlənilir, 2024-cü ildə isə

483 manat olacağı proqnozlaşdırılır.

2024-cü ildə məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə, hamiləliyə və doğuma görə, uşağın anadan olmasına görə, 3 yaşına çatanadək uşaqlara qulluğa görə və dəfn üçün müavinətlərin maliyyələşdirilməsinə 181,6 milyon manat vəsait nəzərdə tutulmuşdur ki, bu da cari ilin təsdiqlənmiş proqnozuna nisbətən 6,6 faiz, yaxud 11,2 milyon manat çoxdur.

İşsizlikdən sığorta fondunun 2024-cü il üçün büdcə layihəsi haqqında qısa olaraq bildirmək istəyirəm ki, 2024-cü ildə fondun gəlirləri və xərcləri bərabər olmaqla 238 milyon manat nəzərdə tutulur, bu da cari ildəkindən 20,3 milyon manat, yaxud 9,3 faiz çoxdur.

Sığorta haqları üzrə yığımın 74,8 faizi qeyri-büdcə sektorunun payına düşəcəkdir. Gələn il İşsizlikdən sığorta fondunun xərcləri 13 istiqaməti əhatə edəcəkdir.

Hörmətli həmkarlar, hər iki qanun layihəsi ilə bağlı çıxış edən deputat həmkarlarım Siyavuş Novruzov və Azay Quliyev layihələri dəstəkləmiş və dəyərli təkliflərini vermişlər. Komitədə ikinci oxunuşda müzakirə zamanı deputat həmkarlarımızın qaldırdıqları məsələlər müzakirə olunmuş və müvafiq icra hakimiyyəti orqanı tərəfindən hər iki deputat həmkarımıza yazılı olaraq qaldırdıqları məsələ barədə məlumat veriləcəkdir.

Hər iki qanun layihəsinin mətnində heç bir dəyişiklik olmamışdır. Birinci oxunuşda qanun layihələrini dəstəklədiyinizə görə hər birinizə minnətdarlığımızı bildiririk. Komitə xahiş edir ki, ikinci oxunuşda da qanun layihələrini dəstəkləyəsiniz. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Musa müəllim, çox sağ olun. Hörmətli həmkarlar, bizim bu iclasımızda Baş nazirin müavini hör-

mətli Şahin müəllim Mustafayev iştirak edir. Şahin müəllim, Sizi salamlayırıq.

İndi isə, hörmətli həmkarlar, mən qeyd edim ki, qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılıb. Tahir müəllim, xahiş edirəm, komitənin rəyini bildirin. Buyurun.

**T.Mirkişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarım Musa müəllim kifayət qədər məlumat verdi. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin də hər iki layihə barədə rəyi müsbətdir. Həmkarlarımdan layihəni dəstəkləmələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Müzakirəyə keçməzdən əvvəl, hörmətli həmkarlar, ikinci oxunuşdur, qanun layihəsini əsas kimi qəbul etməliyik. Mən onları bir-bir səsə qoyacağam. Dövlət Sosial Müdafiə Fondunun büdcəsi haqqında qanun layihəsinə əsas kimi münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 15.08 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

İndi isə İşsizlikdən sığorta fondunun büdcəsi haqqında qanun layihəsinə əsas kimi münasibət bildirin. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 15.08 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

İndi isə biz müzakirəyə keçirik. Xatırladım ki, ikinci oxunuşdur və 5 dəqiqəyə qədər çıxış imkanı var. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov.** Çox təşəkkür edirəm, xanım sədr. Mən də ikinci oxunuşun tələblərinə uyğun olaraq, maddələrlə bağlı bir neçə məqamı təqdim etmək istərdim.

Əvvəla, Dövlət Sosial Müdafiə Fondunun büdcəsi ilə bağlı fondun gəlirlər hissəsində – 2.1-ci maddədə 5 milyard 288 milyon manat vəsaitin, yəni məcburi dövlət sosial sığorta yığımlarının həyata keçirilməsi proqnozlaşdırılır. Eyni ilə, xərclər hissəsində – 3.1-ci maddədə 6 milyard 919,9 milyon manat vəsaitin məhz əhaliyə ödənişlər formasında xərclənməsi nəzərdə tutulur. Mənim sualım: bu iki maddənin müqayisəsi göstərir ki, Dövlət Sosial Müdafiə Fondunun gəlirləri ilə, yəni 2.1-ci maddə üzrə, Dövlət Sosial Müdafiə Fondunun 2.1-ci maddə üzrə xərcləri arasında  təxminən 1,7 milyard manat fərq var. Yəni bu fərq Dövlət Sosial Müdafiə Fondunun gəlirlərinin dayanıqlılığına necə təsir göstərir? Ümumiyyətlə, bu kontekstdən fondun gəlirlərinin fiskal dayanıqlılığını necə qiymətləndirmək olar?

Fondun büdcəsi ilə bağlı digər məqam fondun gəlirləri, 2.4-cü maddə ilə bağlıdır. Həmin maddəyə əsasən əvvəlki

illərdə istifadə olunmayan vəsaitlərin gəlir kimi istifadə olunması nəzərdə tutulur. Nəzərə alaq ki, fond tərəfindən qalıq vəsaitlərinin bir hissəsi artıq investisiyada yerləşdirilir. 2.4-cü maddə ilə bağlı qeydim ondan ibarətdir ki, fond artıq 2023-cü ildə qalıq vəsaitlərinin yerləşdirilməsini həyata keçirir. Amma nəzərə alsaq ki, vəsaitlərin bir hissəsi növbəti ildə və ya illərdə yerləşdiriləcək və uçot dərəcəsi də 2024-cü ildə azalacaq, bu, qalıq vəsaitlərin yerləşdirilməsindən fondun əldə etdiyi gəlirin növbəti dövrlərdə məbləğinə necə təsir göstərəcək?

İşsizlikdən sığorta fondunun büdcəsi ilə bağlı. Fondun gəlirlər hissəsində – 2.1-ci maddədə fondun haqlardan yığımı 179 milyon 976 min manatdır. Fondun işsizlikdən sığortadan 180 milyon manata yaxın vəsait yığmasına baxmayaraq, onun işsizlikdən sığortaya görə ödədiyi vəsait, yalnız 15 milyon manatdır, yəni 3.1-ci maddə. Yəni fondun məşğul əhalidən 180 milyona yaxın vəsait toplamasına baxmayaraq, iş yerlərini itirən əməkdaşlara cəmi 15 milyon manat vəsait ödəyir. Bu isə ondan xəbər verir ki, işsizlikdən sığorta mexanizminin və qaydaların təkmilləşdirilməsinə ehtiyac var.

3.6-cı maddə üzrə özünüməşğulluq proqramına 73 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub. Sualım ondan ibarətdir ki, özünüməşğulluq proqramının qiymətləndirilməsi aparılıbmı? Kifayət qədər böyük məbləğdə vəsait xərclənib. Amma özünüməşğulluq proqramının həm ümumi daxili məhsuldakı artıma, həm də sahibkarlığın formalaşmasına təsirləri necədir? Bununla bağlı hər hansı bir qiymətləndirmə aparılıbmı? Təbii ki, belə bir qiymətləndirmə aparılıbsa, onun da bölüşdürülməsi məqsədəuyğun olardı.

Nəhayət, 3.9-cu maddədə 55 milyon manat vəsaitin,

fondun gəlirlərinin və ya xərclərinin təxminən dörddə birinin inzibati xərclərə yönəldilməsi nəzərdə tutulub. Yəni bir tərəfdən, fondun işçiyə görə ödədiyi vəsait fondun ümumi xərclərinin cəmi 5 faizidir. Digər tərəfdən isə, saxlama xərclərinə fondun xərclərinin dörddə biri yönəldilir. Təbii ki, bunun da araşdırılmasına və izah edilməsinə ehtiyac var. Çünki bütün hallarda İşsizlikdən sığorta fondunun menecment xərclərinin məhdudlaşdırılmasına və faiz etibarı ilə müəyyən bir limitin müəyyənləşdirilməsinə ehtiyac var ki, fond daha çox aktiv proqramları dəstəkləsin, nəinki idarəetmə xərclərinin fondun gəlirləri hesabına ödənilməsini. Çox təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Etibar Əliyev.

**E.Əliyev.** Hörmətli Sahibə xanım, hörmətli deputatlar və hörmətli qonaqlar. Azərbaycanda əhalinin sosial müdafiəsi rasional təşkil olunduğu üçün ölkəmiz sosial dövlətdir və bu paradiqmanın müəllifi möhtərəm cənab Prezident İlham Əliyevdir.

Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi ilə tanış olmuşam. Düşüncəmə görə, ölkədə pensiya sisteminin, pensiyaçıların vəziyyətinin müstəqil təhlili üçün ətraflı hesabatlılığa ehtiyac var. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin bu cür hesabatlılığın təmin edilməsi sahəsində işləri məni qane etmir. Problemləri, real mənzərəni daha aydın görmək üçün axtarıb tapmalı olduğumuz statistika niyə əlçatan deyil? Məsələn, gələn il orta pensiyanın 483 manata çatacağı həvəslə vurğulanır. Amma niyə vacib göstərici, median pensiya məbləği açıqlanmır? Hansı səbəbdən pensiyaçıların pensiya məbləğinə görə sayı açıq məlumat kimi əlçatan olmamalıdır? Məsələn, nə qədər pensiyaçı minimum pensiya alır? Nə qədər

insan orta pensiya məbləğindən aşağı, nə qədər insan həmin məbləğdən yüksək pensiya alır? Bu sualların cavabı yoxdur. Nəzərə alsaq ki, orta pensiya məbləği bəzən "elitar pensiyaçı" adlanan kiçik qrup insanın yüksək pensiyası hesabına da yüksələ bilir, ona görə median göstərici mütləq açıqlanmalıdır.

Azərbaycanda kiçik bir qrup pensiyaçının pensiyası çox yüksəkdir. Əksəriyyətinin pensiyası isə minimum pensiyaya yaxın bir məbləğdədir. Ona görə də Azərbaycanda orta pensiya yüksək alınır. Median pensiya o deməkdir ki, pensiyaçıların yarısı bu məbləğdən aşağı, yarısı isə yuxarı pensiya alır. Həmin məbləği isə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi hesablamalıdır. Onda biz daha doğru rəqəmləri görə bilərik.

Çox vacib statistikadan biri pensiyaçıların yaş strukturudur. Məsələn, pensiyaçıların sayını 50-55, 55-60, 60-65, 65-70 və 70 yaş üzərindən açıqlamaq vacibdir. Bu halda görmək olar ki, erkən pensiya hüququ olmadan normal yaşda pensiyaya çıxanlar nə qədər uzun müddətə pensiya ala bilir. Çünki nazirliyin həvəslə bəyan etdiyi 12-35 il arası uzun müddət pensiya alanların çox hissəsinin erkən pensiya hüququ alanlara görə olması reallıqdır. Əksi iddia olunursa, nazirlik və Dövlət Sosial Müdafiə Fondu hazırda erkən pensiya hüququ alanların günlük pensiyaçılarda payı ilə bağlı statistikanı açıq saxlamalıdır.

Şəffaflıq və hesabatlılıqdan söz düşmüşkən, Dövlət Sosial Müdafiə Fondunun parlamentə təqdim edilən büdcə strukturunun da dəyişməsinə ehtiyac var. Gəlirlər hissəsində sosial sığorta yığımlarının hansı hissəsinin dövlət sektoru, hansı hissəsinin özəl sektor hesabına formalaşdığı görünmür. Büdcə təşkilatlarının ödəmələri görünür, amma iri dövlət şirkətlərinin töhfəsini biz görə bilmirik. Yaxud

pensiya xərclərinin yaşa, əlilliyə və ailə başçısını itirməyə görə pensiyaçılar arasında bölgüsü verilmir.

Hesablama Palatası Dövlət Neft Fondunun büdcəsinin və dövlət büdcəsinin icrasına rəy verdiyi halda, Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin icrasına rəy vermir. Halbuki həm fondun fəaliyyətinin səmərəliliyini, həm də şəffaflığını qiymətləndirmək baxımından bu rəy olduqca vacib ola bilər. Bu fikir İşsizlikdən sığorta fonduna, İcbari tibbi sığorta fonduna da aiddir.

Nəhayət, yeni meyarlar əsasında son 1 ildə əlilliyin qiymətləndirilməsi məsələsinə toxunmağı vacib sayıram. Proses nə qədər elektronlaşdırılsa da, hələ də prosesdə insan amilinin təsiri çox yüksəkdir. Bir çox hallarda neqativ hallar artır. Məsələn, ən çox narazılıq odur ki, əlilliyin verilməsindən imtinaya görə qəbul edilən qərarlar yetərincə əsaslandırılmır, səbəblər göstərilmir. Sadəcə, müraciətin tələblərə cavab verilmədiyi göstərilir. Bəzi hallarda yerlərdə kadrların peşəkar olmaması insanların xəstəlik tarixçələrinin yanlış doldurulmasına səbəb olur ki, bu, sonrakı mərhələdə fiziki məhdudiyyətli insanlar üçün əlavə problemlər və süründürməçilik yaradır. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov. Buyurun.

**S.Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri, hörmətli deputatlar. Mən də Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında qanun layihəsinə səs verəcəyəm və həmkarlarımdan da səs verməyi xahiş edirəm. Birinci müzakirələrdə də biz geniş iştirak etdik, müxtəlif suallar qaldırdıq. Bir neçə məsələ var, istərdim ki, onlara da aydınlıq gətirilsin. Bunlardan biri pensiya yaşı ilə əlaqədardır. Həm deputatlarımızı, həm də cəmiyyətimizi maraqlandıran və narahat

edən məsələlərdən biridir və tez-tez qaldırılır. Biz bunu iki hissəyəböləndə belə çıxır ki, bir hissə pensiya yaşının aşağı olmasından, başqa bir hissə isə yuxarı olmasından şikayətlənir. Bizə kifayət qədər müraciətlər var ki, təhsil sahəsində, səhiyyə sahəsində, elm sahəsində, dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışanlar pensiya yaşının 65 yaş, yaxud da 60 yaş olmasını düzgün hesab etmirlər. Hesab edirlər, insanlar bu yaşda daha da təcrübəli olurlar və daha çox imkanları var ki, cəmiyyətə, dövlətə və sairə xeyir versinlər.

İkinci hissə özəl sektorda çalışanlar və sosial pensiya alanlardır, yəni heç bir yerdə işləməyib, yaşını gözləyib pensiya almağa çalışanlardır. Onlar deyir ki, bu yaş çoxdur, aşağı salınmalıdır ki, onlar dərhal pensiyaya çıxıb pensiya alsınlar. Ona görə mən hesab edirəm, nazirlik tərəfindən də, aidiyyəti komitə tərəfindən də bununla bağlı bir hesabat, statistika verilsin ki, bu insanlar neçə faizdir, digər təbəqəni neçə faiz əhatə edir. Nazirlər Kabinetində 300-ə yaxın ağır sahə var ki, orada çalışanlar müxtəlif yaş kateqoriyalarında pensiyaya çıxırlar. Hərbçilər, hüquq mühafizə, aviasiya sahəsində və sairdə çalışanlar. Müxtəlif yaş kateqoriyalarıdır. Ağır sənaye sahəsində işləyənlər var ki, onlar aşağı yaş həddində pensiya alırlar. Ona görə də hesab edirəm ki, bunlar mərhələli şəkildə verilsə, düzgün olar.

İkinci bir məsələ uşaqlarla bağlıdır. 2 uşaqdan sonra, 5 uşaqdan sonra müəyyən təminatlar nəzərdə tutulur. Mən hesab edirəm ki, bu, mərhələli şəkildə 2-dən sonra başlasa, yəni 3 olanda bir təminat, 4 olanda bir təminat, 5 olanda bir təminat, 6 olanda bir təminat olsa, bu, daha çox həvəsləndirmə yaradar, daha çox düzgün olar. Ümumiyyətlə, 5 uşaq olsun və ondan sonra ona müəyyən təminatlar veriləcəkdir, ailə güzəştlər əldə edəcəkdir. Hesab edirəm ki,

bunlar hissə-hissə olsa, daha yaxşı olar.

Üçüncü məsələ. Bizdə "qəhrəman ana" statusu mövcud idi. 10 uşaq olanda "qəhrəman ana" statusu verilirdi. İndi artıq çox az hallarda belə şeyə rast gəlmək olar. Ona görə də hesab edirəm, onun da sayını azaltmaq olar, 7-8-ə salmaq olar ki, 7-8 uşağı olana "qəhrəman ana" statusu verilsin. Doğrudan da, 7-8 uşaq dünyaya gətirmək, sağlam böyütmək, onları cəmiyyətə təqdim etmək bir qəhrəmanlıqdır. O baxımdan bu məsələ də əksini tapmalıdır.

Sosial müavinətlərin verilməsi ilə əlaqədar. Hamımıza bununla bağlı müraciət olunur. Nazirlik hamımıza, komitə sədrlərinə aylıq hesabatlar təqdim edir və biz bunları alırıq. Mən hesab edirəm ki, millət vəkillərinə öz rayonlarından sosial təminat alan şəxslərin siyahısını versələr, daha yaxşı olar. Artıq millət vəkili bilər ki, kim burada sosial müavinət alır. Onun dəqiqliyini də yoxlaya bilər ki, bu adama sosial müavinət düşür, ya düşmür, düzgün verilir və ya verilmir. Vətəndaş dünyasını dəyişibsə, sosial müavinət verilir, ya verilmir. Ona görə də bu siyahılar açıq şəkildə, heç olmasa, hər bir millət vəkilinə dairə üzrə də olmasa, rayon üzrə verilsə, kifayət qədər bu məsələlərin şəffaflığına xidmət etmiş olar. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Vahid Əhmədov. Buyurun.

**V.Əhmədov.** Çox sağ olun, hörmətli Sahibə xanım. Hörmətli millət vəkilləri, biz plenar iclasda da, komitə iclasında da bir sıra məsələlərə toxunmuşduq. Biz istəyirik ki, o məsələlərə aydınlıq gətirilsin, yəni suallarımıza cavab versinlər. Birincisi, müharibə veteranlarının 80 manat müavinəti ilə əlaqədar məsələ. Demək olar ki, bütün millət vəkilləri tərəfindən bu məsələyə toxunulub. Komitə iclasında sədr müavini bizə məlumat verdi ki, bu məsələyə

baxılır. İndi biz məlumat almaq istərdik ki, bu məsələyə necə baxılıb. Həlli istiqamətində hansı isə müsbət addımlar var, ya yoxdur? Bu, insanları maraqlandıran əsas məsələlərdən biridir.

İkinci bir məsələ vakant iş yerləri ilə əlaqədardır. Bölgələrdə hərraca vakant iş yerləri çıxarılır. Amma vakant iş yerlərində ən böyük məbləğ, əmək haqqı 300 manatdan yuxarı deyil. Yəni yüksək məbləğli iş yerləri, ümumiyyətlə, hərraca çıxarılmır. Nəyə görə? Bunun səbəbi nədir? Niyə çıxarılmır? Bizim aldığımız məlumata görə, elə nazirliklər, elə komitələr var ki, orada yüksək əmək haqları ilə boş iş yerləri var. Bu iş yerləri niyə hərraca çıxarılmayıb?

Üçüncü bir məsələ. Biz hər il Dövlət Sosial Müdafiə Fondunun büdcəsini müzakirə edirik, qəbul edirik. Amma bu büdcənin icrası barədə bizdə heç bir məlumat olmur. Yəni biz icrasını müzakirə etmirik. Mən komitə iclasında da dedim. İkinci dəfədir ki, bu məsələlər qayıdır. Dövlət Sosial Müdafiə Fondunun büdcəsi anlayışı "Büdcə sistemi haqqında" Qanunda yoxdur. Qanunda dövlət büdcəsi anlayışı var. Dövlət Sosial Müdafiə Fondunun büdcəsi də onun bir hissəsidir. Ona görə də mən rəhbərlikdən xahiş edirəm ki, Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin icrasına da Milli Məclisin iclasında baxılsın və təsdiq edilsin. Çünki biz bilməliyik ki, ayırdığımız vəsaitlər necə xərclənir, hara xərclənir, düzgün xərclənir və sair.

Digər bir məsələ debitor və kreditor borcları ilə əlaqədardır. İlbəil Dövlət Sosial Müdafiə Fondunun büdcəsində debitor borcları artır. Keçən ilə nisbətən, misal üçün, bu ilin 6 ayında təxminən 17 faiz artıb. Bu nə ilə əlaqədardır? Niyə debitor borcları artır? İlin birinci yarısında təxminən 231 milyon manata yaxın debitor borcları yaranıb. Biz, bir tərəfdən, dövlət büdcəsindən transfer edirik,

1,3 milyarddan bir az da çox, amma digər tərəfdən, debitor borcları, demək olar ki, fond tərəfindən yığılmır. Ona görə bu məsələ də gündəmdə olmalıdır.

Sahibə xanım, mən bir neçə dəfə demişəm, bizim Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə əlaqədar suallarımız kifayət qədərdir, çoxdur. Mən indi bu iclasda o məsələlərin hamısına toxunmaq istəmirəm. Mən bir neçə dəfə rəhbərlikdən xahiş etdim. Biz istəyirik ki, bu nazirliyin rəhbərliyi ilə Milli Məclisdə bir neçə deputat görüşlər keçirsin, biz də məsələləri aydınlaşdıraq, bunu mətbuata çıxarmayaq. Elə məsələlər var ki, bizə sual verirlər, bizdən maraqlanırlar, cavab istəyirlər. Artıq dərəcədə xahiş edirəm ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi ilə, neçə nəfər istəyirlər, gəlsinlər, bizdən də 7-8 iqtisadçı deputat yığışaq, bir sıra məsələlərə aydınlıq gətirək. Bu bizim üçün çox vacibdir. İnandırım ki, bizim aldığımız şikayətlərin əksəriyyəti bu nazirliklə bağlıdır. Mən iki ay – oktyabr, noyabr ayları ərzində 48 şikayət məktubu almışam. Bunların hamısını yığışdırmaq, bunların hamısına cavab vermək qeyri-mümkündür. İnsanlar bəzi məsələləri tələb edilər. Misal üçün, pensiya ilə, ünvanlı sosial yardım ilə, şəhid ailələri ilə, qazilərlə əlaqədar problemlər var. Saymaqla qurtaran deyil, yəni problemlər kifayət qədər çoxdur. Ona görə də biz yığışıb bu problemlərlə bağlı müəyyən bir ümumi məxrəcə gəlməliyik ki, bunlar get-gedə azalsın.

Ümumilikdə, mən Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin qəbulunun tərəfdarıyam. Amma qaldırdığımız suallara, istərdim ki, yoldaşlar cavab versinlər. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Vahid müəllim. Tahir müəllim, mənim yadımdadır ki, sizin komitəniz dinləmələr keçirdi və Sahil Babayev də həmin o dinləmələrdə iştirak etdi.

Əgər yeni bir dinləməyə ehtiyac varsa, onda Tahir müəllim, xahiş edirəm, bununla bağlı müraciət edin, baxaq, hansı məsələlərdir. Onu təşkil etmək olar. Ancaq yaxşı yadımdadır ki, Vahid müəllim, bir neçə dinləmə olub və nazir də həmişə orada da, burada da çıxış edib. Ümumiyyətlə, nazirliyin özü çox fəal olub və müxtəlif məsələlərlə bağlı nazir də, nazir müavinləri də burada iştirak ediblər. Soltan Məmmədov. Buyurun.

**S.Məmmədov**. Çox sağ olun, hörmətli Sahibə xanım. Mən ikinci oxunuşun qaydalarına uyğun olaraq, çox qısa olaraq İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi ilə bağlı bir fikrimi bildirmək istərdim. Bu gün İşsizlikdən sığorta fondu çərçivəsində həyata keçirilən aktiv sosial tədbirlər siyahısında özünüməşğulluq proqramı çox təqdirəlayiqdir. Düşünürəm, bu gün hər bir millət vəkili kimi hamımızı maraqlandıran əsas məsələlərdən biri məhz yerlərdə işlə təmin olunma məsələsidir. Məhz bu gün istər peşə təhsili istiqamətində həyata keçirilən tədbirlər, istər haqqı ödənilən ictimai işlər, istərsə də insanlar üçün yaradılmış tədbirlər, doğrudan da, bizi çox sevindirir. Mən buna görə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə öz minnətdarlığımı bildirmək istərdim.

Eyni zamanda, iki təklifim var. Bunlardan biri məhz insanlar arasında aktiv həyata keçirilən həmin bu özünüməşğulluq proqramı haqqında məlumatlandırmanın gücləndirilməsi üçün icma əsaslı maarifləndirmə tədbirlərinin keçirilməsi çox önəmlidir. Çünki biz təcrübədə bunu artıq yerlərdə həyata keçirmişik və düşünürəm ki, həmin o aktiv sosial tədbirlər siyahısına bunu daxil etmək olar. Həmçinin özünüməşğulluq proqramının məhz uğurunun, onun icra səviyyəsinin uğurluluq dərəcəsinin artırılması üçün, həmin bu insanlar üçün düşünürəm ki, ilk illərdə ən

azı müəyyən güzəştlər, müəyyən stimullaşdırıcı tədbirlər həyata keçirmək olar. Məhz həmin paket çərçivəsində ilk dəfə sahibkarlıqla məşğul olan insanlar üçün müəyyən vergi güzəştləri və ya digər stimullaşdırıcı tədbirlər həmin proqramın uğurluluq dərəcəsini artırmış olardı. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Elşən Musayev. Buyurun.

**E.Musayev**. Təşəkkür edirəm, xanım sədr. Əslində, mənim çıxış etmək fikrim yox idi. Sadəcə, burada səslənən bir neçə fikrə münasibətimi bildirmək üçün çıxışa yazıldım. Birincisi, Dövlət Sosial Müdafiə Fondunun fəaliyyətinə Hesablama Palatası rəy verir.

İkinci məsələ. Burada qeyd olundu ki, rayonlarda vakant yerlərdə ən yüksək maaş 350 manatdır. Qeyd etmək istəyirəm ki, elə ancaq son iki ayda mənə məhz bu məsələ ilə bağlı müraciətlər olub. Ən azı 20 nəfər. Orada təklif olunan ən az maaş 750 manat olub. Yəni bu insanların işini, fəaliyyətini bu şəkildə qınağa almaq olmaz. Mən birinci iclasda da söyləmişdim ki, məşğulluq xidməti və onun rəhbəri bu gün Azərbaycanda ən yüksək səviyyədə fəaliyyət göstərən məmurlardan biridir. Eyni zamanda, nazirliyin özü. Nəzərə almaq lazımdır ki, əvvəlki dönəmlə indiki dönəm arasında çox böyük və ciddi bir fərq var. Sahil Babayev ən azından bu nazirlikdə korrupsiyanın, saxta pensiyaçıların qarşısını alıb. Onun rəhbərlik etdiyi və nazirliyin nəzdində olan bütün qurumlar da xüsusən hakimiyyətin digər qolu olan qanunverici orqanla, bizimlə də kommunikasiyada həddindən artıq fəaldırlar və diqqətlidirlər. Bunu, sadəcə, bildirməyi, söyləməyi özümə borc bildim. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Rüfət Quliyev. Buyurun.

**R.Quliyev.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli

millət vəkilləri, hörmətli dövlət nümayəndələri! Mən çox hörmətli Vahid müəllimin sözünə başqa bir söz demək istəmirəm. İşsizliklə bağlı müəyyən qədər problemlər var. Bunu heç kim inkar etmir. Amma mən sizə səmimi demək istəyirəm ki, müharibə iştirakçılarının, qazilərin, şəhid ailələrinin müraciətləri ilə əlaqədar bütün məsələlər maksimum bir ay, ay yarım içində qanun çərçivəsində həll olunur. Mən şəxsən görməmişəm ki, hansı isə bir dövlət qurumu bu məsələ ilə əlaqədar nə isə "yox" desin, yaxud da kömək etməsin. Ola bilər, bir həftə, on gün içində deyil, ay yarım içində. Mən özümə borc bildim ki, bunu deyim. Amma regionlarda kifayət qədər işsizlik var. Dövlət tərəfindən şərait yaradılır. Amma nəzərə almaq lazımdır ki, yəni rayonun özündə də lap belə 350 manat, 400 manatla bu məsələlər bitmir. Yeni iş yerləri açılmalıdır, bu da sahibkarların təşəbbüsü və dövlətin dəstəyi ilə olmalıdır. Təşəkkür edirəm və layihəyə səs verəcəyəm.

**Sədrlik edən.** Sağ olun. Musa müəllim, sözünüz var? Buyurun.

**M.Quliyev**. Çox sağ olun, hörmətli Sahibə xanım. Vüqar Bayramov istisna olmaqla, hörmətli millət vəkillərimizin heç birinin çıxışı ikinci oxunuşun tələblərinə uyğun deyildi, bunlar birinci oxunuşda da deyilə bilərdi. İki komitənin birgə iclası olubdur, birgə iclasda da bunlar söylənilə bilərdi. Vüqar müəllimin qaldırdığı suallarla bağlı, Vüqar müəllim hər iki komitənin üzvüdür və bir yerdə sualları çözərik. O sualların da cavabını bəlkə hamıdan yaxşı Vüqar müəllimin özü bilir.

Vahid müəllimin dediyi nazirlə görüşmək məsələsi. Birinci oxunuşda, iki komitənin birgə iclasında nazir bir saata yaxın çıxış edib, suallara da cavab verib. Hörmətli Vahid müəllim, Siz də orada idiniz. İndi bu qaldırdığınız

məsələni hansı mətbuat orqanı üçün deyirsinizsə, onu mən bilmirəm. Hansı populyarlıq üçün deyirsinizsə, ona da ehtiyacınız yoxdur, Siz ölkədə kifayət qədər populyar adamsınız. O ki qaldı qaldırdığınız məsələyə, bunların birinci və ikinci oxunuşlara heç bir dəxli yox idi. Yenə də üçüncü oxunuşda bizə komitə və nazirlik tərəfindən də ətraflı məlumat veriləcək.

Bildiyiniz kimi, bu gün Azərbaycanda İslam Əməkdaşlıq Təşkilatı ölkələrinin nazirliklərinin böyük bir tədbiri keçirilir. 26-dan çox nazir, əmək nazirləri iştirak edir. Hörmətli Sahil Babayev o tədbirdə iştirak edir. İndi burada nazir müavini Anar Əliyev də iştirak edir, o da cavab verə bilər. Yaxud da üçüncü oxunuş zamanı hörmətli Sahil müəllim gələr, bu sualların hamısına cavab verə bilər. Yəni burada gizli bir şey yoxdur. Bəziləri deyir ki, statistikanı gizləyirlər. Heç bir gizli şey yoxdur, hamısı da var. Əgər qanun layihələrini, hökumətin təsdiq etdiyi hesabatları və Hesablama Palatasının rəyini ətraflı oxusaydınız, o sualların hamısına cavablar orada var idi. O ki qaldı ümumi problemlərə, qaldırılır, onlar həmişə olubdur, az və ya çox dərəcədə həmişə olacaqdır. Amma dövlətin gördüyü işlə o problemləri bir tərəziyə qoysaq, son illərdə çox böyük işlər görülübdür.

Cənab Prezident 2019-cu ildən bu yana 4 dərin sosial islahatlar paketi qəbul edibdir və hər il dövlət 7 milyard manata qədər təkcə o paketlərin icrasına pul xərcləyir. Yəni təkcə özünüməşğulluq proqramı cəmi 5 il ərzində başlayıbdır və 8000 ailə artıq özünüməşğulluq proqramı çərçivəsində dövlətdən maddi yardım, yaxud da mal-material alıbdır. Artıq biznesmenə çevrilənlər var. Bunları da görmək lazımdır. O ki qaldı median pensiyanın azlığına, çoxluğuna, orada heç bir sirr yoxdur. Sadəcə,

hörmətli Etibar müəllim, o çıxışı kim Sizin üçün yazıbsa, görünür, dəqiq nəzərə almayıb ki, median pensiya haradadır və necə hesablanır. Yəni bunların hamısı var. Gəlin, büdcəmizi təsdiq edək. Bu söhbətlərə də ehtiyac yoxdur. Ehtiyac olarsa da, yenə deyirəm, üçüncü oxunuşda hamısına ətraflı cavablar veriləcəkdir. Sağ olun.

**Sədrlik edən.** Musa müəllim, Sizin dediklərinizlə razıyıq. Sadəcə, Sizə deyim ki, mən Tahir müəllimə, komitənin sədrinə müraciət etdim, əgər hansı isə dinləməyə ehtiyac olsa, həmişə keçirdiyiniz o dinləmələrdən biri də keçiriləcək. Sahil müəllim və nazirliyin işçiləri həmişə bizim iclaslarda və dinləmələrdə çox fəal iştirak ediblər. Sizin də indi dediyinizi təqdim etdiyiniz qanunun bir dəfə də müdafiəsi kimi qəbul edirik.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bir dəqiqə. Səsə qoyulmazdan əvvəl nazir müavini hörmətli Anar Əliyev buradadır. Anar müəllim, çıxış etmək istəyirsinizsə, buyurun, əgər istəmirsinizsə, gələn dəfə Sahil müəllim çıxış edər. Necə istəyirsiniz. Buyurun.

**A.Əliyev**, *Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli deputatlar, fikirlərə görə bəzi məsələlərə çox qısa münasibət bildirmək istəyirəm. Burada İşsizlikdən sığorta fondunun, Dövlət Sosial Müdafiə Fondunun büdcələri ilə bağlı, fiskal dayanıqlılıqla bağlı fikirlər səsləndi. Qeyd etmək istəyirəm ki, son 5 il ərzində həm işsizlikdən sığorta haqlarının, həm də sosial sığorta haqlarının yığımında iki dəfədən çox artım əldə olunub. Misal üçün, biz 2018-ci ildə 2,2 milyard manat sosial sığorta haqqı yığırdıqsa, 2024-cü ilin Dövlət Sosial Müdafiə Fondunun büdcəsində bu məbləğ

artıq 5,2 milyard manatdır. Yəni bu o deməkdir ki, biz Dövlət Sosial Müdafiə Fondunun fiskal dayanıqlılığını xeyli təmin etmişik. Həm də bilirsiniz ki, keçən ildən başlayaraq Dövlət Sosial Müdafiə Fondu özünün investisiya fəaliyyəti ilə məşğul olmağa başlamışdır. Orada da xeyli işlər görülür. Aidiyyəti dövlət orqanlarının nümayəndələrinin iştirakı ilə, Mərkəzi Bankın, Maliyyə Nazirliyinin və İqtisadiyyat Nazirliyinin nümayəndələrindən ibarət xüsusi şura fəaliyyət göstərir və həmin şurada bu məsələlərə geniş şəkildə baxılır.

Digər bir məsələ şəhid ailələri, müharibə əlilləri, veteranları ilə bağlı oldu. Mən burada çox təfsilata varmaq istəmirəm. Biz bu məsələləri yazılı şəkildə cavablandıra bilərik. Musa müəllim də, bəzi deputatlar da bununla bağlı fikirlərini bildirdilər. Sadəcə, hamını əmin etmək istəyirəm ki, bu sahədə olan şəxslərlə, yəni prioritet olaraq bu şəxslərlə işin aparılması bu gün hamımızın borcu olduğu kimi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin də həm vəzifə borcudur, həm də mənəvi borcudur. Şəhid ailəsi üzvləri, müharibə əlilləri, müharibə veteranları – onlar hamısı bizim prioritet istiqamətimizdir və biz bu istiqamətdə ciddi iş aparırıq. Bilirsiniz ki, bu sahədə xeyli proqramlar mövcuddur və bu proqramların icrası da nazirlik tərəfindən təmin olunur. Hörmətli millət vəkillərimizin də bu məsələlərlə bağlı çoxsaylı müraciətləri olur, bu da təbiidir. Çünki onlar da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi kimi əhali ilə təmasdadır, nazirlikdə bütün deputatlarımızın sorğularının, müraciətlərinin hamısına baxılır, hamısı fərdi qaydada araşdırılır və cavablar verilir. Mən bir daha hamını əmin etmək istəyirəm ki, heç bir müraciət diqqətsiz qalmır. Hamısına baxılır və mövcud qanunvericiliyin imkan verdiyi həddə də bütün dəstək

tədbirləri göstərilir. Bilirsiniz ki, proqramlarımız da ildən-ilə artır. Bu, büdcə sənədlərindən də görünür, proqramlarımız, maliyyələşmə ilə bağlı məsələlər genişlənir.

Demək istədiyim bu qədərdir. Görüşlərlə bağlı burada fikirlər səsləndirildi. Biz dəfələrlə görüşmüşük, yenə də bu görüşlərə açığıq. Dövlət Sosial Müdafiə Fondunun məlumatlarını biz hər il Dövlət Statistika Komitəsinə təqdim edirik. Dövlət Statistika Komitəsinin saytında da bu məlumatlar var. Əgər hörmətli deputatlarımızdan bu məlumatlara çıxışla bağlı kiminsə fikirləri varsa, biz böyük məmnuniyyətlə həmin məlumatları həmin şəxslə bölüşməyə hazırıq. Yəni burada heç bir sirr yoxdur. Məqsədimiz, məramımız bu xidmətləri qanunvericilik çərçivəsində tam şəffaf və operativ təqdim etməkdir.

Diqqətinizə görə təşəkkür edirəm. Suallar olsa, açığıq, cavablandıra bilərik. Minnətdaram, çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Anar müəllim. Ancaq mən onu da qeyd edim ki, deputatlar məktublar alırlar, hansı isə suallar olur, ona görə də bu məsələləri qaldırırlar. Xahiş edirəm, bunu da bilin, ancaq eyni zamanda, mən Sizinlə tamamilə razıyam. Hörmətli həmkarlar, məktubların hamısı Milli Məclisdən keçir, elə məktub olmayıb ki, həmin nazirlikdə hansı isə məktub cavabsız qalsın və biz onu bilirik. Mən bununla bağlı bir neçə dəfə demişəm, o statistika da bizdə var. O ki qaldı dediyiniz o təqdimatlara, dinləmələrə, mən düşünürəm ki, əgər bu suallar varsa, Siz hər hansı məlumatı alaraq onu da mənim hörmətli həmkarlarıma təqdim edə bilərsiniz. Çox sağ olun.

Hörmətli həmkarlar, indi isə səsverməyə keçirik. Yenə də xatırladım, biz qanun layihələrinə maddə-maddə və bütövlükdə münasibət bildirməliyik. Dövlət Sosial Müdafiə Fondunun büdcəsi haqqında qanun layihəsində 6

maddə var. Mən onları üç-üç səsə qoyacam. İndi isə xahiş edirəm, bu qanun layihəsindəki 1-ci, 2-ci və 3-cü maddələrə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 15.42 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə mən 4-cü, 5-ci və 6-cı maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 15.42 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr də qəbul edildi.

İndi mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 15.43 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, indi isə biz İşsizlikdən sığorta fondunun büdcəsi haqqında qanun layihəsinə səs verəcəyik. Bu qanun layihəsi 5 maddədən ibarətdir. Mən onların üçünü bir, ikisini də bir səsə qoyacam. İndi isə xahiş edirəm, 1-ci, 2-ci və 3-cü maddələrə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 15.43 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr qəbul edildi. 4-cü və 5-ci maddələrə səs verək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 15.43 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 15.44 dəq.) |
|---|---:|
| Lehinə | 88 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. Hörmətli həmkarlar, 5-ci məsələ Azərbaycan Respublikasında 2024-cü il üçün yaşayış minimumu haqqında qanun layihəsidir. Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Ona görə də, Tahir müəllim, mən yenə də sözü Sizə verirəm. Buyurun.

**T.Mirkişili.** Çox sağ olun, xanım sədr. Hörmətli həmkarlar, qanun layihəsində 2024-cü il üçün ölkədə yaşayış minimumunun 246 manatdan 270 manata, əmək qabiliyyətli əhali üçün 261 manatdan 287 manata, pensiyaçılar üçün 199 manatdan 222 manata, uşaqlar üçün isə 220 manatdan 235 manata qədər artırılması müəyyən edilir. Birinci oxunuşda qanun layihəsi dəstəklənib, ikinci oxunuşda da səs verməyinizi sizdən xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Tahir müəllim, sağ olun. Musa müəllim, sizin komitənizdə baxılıb. Xahiş edirəm, komitənin rəyini bildirin.

**M.Quliyev**. Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli millət vəkilləri, komitənin ikinci oxunuş üçün rəyi müsbətdir və qanun layihəsini ikinci oxunuşda dəstəkləməyinizi xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, biz qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun. İkinci oxunuşdur, qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 15.45 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə Etibar müəllim yazılıb. Etibar müəllim, sualınız var, təklifiniz? 1 dəqiqə. Buyurun.

**E.Əliyev.** Burada Musa Quliyev qeyri-etik bir ifadə işlətdi. Guya mənə kimsə çıxış yazıb. Əslində, deputatın məsləhətçisi ola bilər. Müxtəlif sahələr üzrə deputata məsləhət verə bilərlər. Mən qeyd edim ki, bütün çıxışlarımı özüm yazıram. Bu, qəbahət deyil, ancaq bunu söyləməyin özü savadsızlıq və qərəzlilikdir. Xahiş edirəm, Musa müəllim, bunu nəzərə alasınız. Mən tənqidi fikrimi səsləndirmişəm. Əgər Sizin də arqumentiniz varsa, söyləyin. Mənə kim çıxış yazır, kim çıxış yazmır, mənim məsləhətçim kimdir, kim deyil, bunu mən özüm bilərəm, çıxışı özüm yazmışam. Median anlayışı mürəkkəb anlayış deyil. Bu, Eynşteynin Nisbilik nəzəriyyəsi deyil ki, mən bunu başa düşməyəm. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Hörmətli həmkarlar, xahiş edirəm, deputat etikasını həmişə yadınızda saxlayın.

Çıxış etmək istəyən yoxdur. Biz qanun layihəsinin səsverməsinə keçirik. Maddələr üzrə səs verəcəyik. Qanun

layihəsində iki maddə var. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 15.47 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə mən 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 15.47 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 15.48 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

6-cı məsələ Azərbaycan Respublikasında 2024-cü il üçün ehtiyac meyarının həddi haqqında qanun layihəsidir. Qanun layihəsinə Əmək və sosial siyasət komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün, Musa müəllim, mən Sizə söz verirəm. Buyurun.

**M.Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Həm 2023-cü ildə, həm 2024-cü ildə və inşallah, növbəti illərdə də ehtiyac meyarı yaşayış minimumuna bərabərləşdirilibdir. Bu da sosial müdafiə sahəsində dövlətimizin növbəti bir uğuru kimi qeyd olunmalıdır. Gələn il üçün ehtiyac meyarı 270 manat təşkil edir ki, bu da cari ildəkindən 24 manat, yaxud 21,8 faiz çoxdur. Bu məbləğ imkan verəcək ki, bizim ünvanlı sosial yardım alan aztəminatlı insanlarımız və onların ailələri daha çox dövlət yardımı ilə təmin olunsunlar.

Hörmətli xanım sədr, hörmətli deputat həmkarımız Etibar müəllimin dediyinə, sadəcə, izahat vermək istəyirəm. Etibar müəllim mənim hörmət elədiyim adamlardan biridir. Özü də dedi ki, deputatın məsləhətçisi, köməkçisi ola bilər, onun çıxışlarını yaza bilər. Burada qeyri-etik heç bir ifadə yoxdur. Mən də bəzən öz sahəmizə aid olmayan çıxışlarımı Milli Məclisin şöbəsi ilə, müvafiq ekspertlərlə məsləhətləşirəm və yazıram. Burada qeyri-etik bir ifadə yoxdur. Nəzərə alaq ki, Etibar müəllim iqtisadçı deyil, sosial sahənin adamıdır. Bu ifadədə heç bir qeyri-etiklik yoxdur. Mən, sadəcə, buna aydınlıq gətirmək istəyirəm. Bir də deyirəm, Etibar müəllim bizim dostlarımızdan biridir. Əgər o məni bu gün siyahıdan çıxaracaqsa, bu onun öz işidir. Sağ olun.

**Sədrlik edən.** Əminəm ki, çıxarmaz, Musa müəllim. Çıxarsa da, qoymarıq. Etibar müəllimin hər dəfə nə isə çıxışı olanda mən özüm nəsə deyirəm. Etibar müəllim, küsmürsünüz ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Təbii ki, yox, əlbəttə, yox. Heç küsə də bilməzsiniz, bəli.

Hörmətli həmkarlar, Musa müəllimin komitəsində məsələyə baxılıb. Tahir müəllim, sizdə də baxılıb. Buyurun, Siz də komitənin rəyini bildirin.

**T.Mirkişili**. Hörmətli xanım sədr, bu qanun layihəsi üçün bizim komitənin də rəyi müsbətdir. Həmkarlarımdan dəstəkləməyi xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Aydın müəllim, Siz gah yazılırsınız, gah çıxırsınız. Başa düşmürəm, ikinci dəfə Siz ayrı bir məsələyə də... Mənim hər şey yadımdadır, görürəm. Təsadüfən oldu, yoxsa?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Sual vermək istəyirsiniz, onda niyə çıxırsınız? Yazılmısınız, sualınızı verin. Buyurun.

**A.Hüseynov**. Hər birinizə məlumdur ki, həm Dövlət Sosial Müdafiə Fondunun, həm də İşsizlikdən sığorta fondunun xərclərinin daha çox olması üçün onun gəlir hissəsinin stimullaşdırılması, bu mənbələrin daha da dəqiq proqnozlaşdırılması əsas şərtdir. Mən hesab edirəm ki, bu sahədə Dövlət Vergi Xidmətinin işi müsbətdir. Çünki 2019-cu ildə 2,3 milyard manat toplanırdısa, indi 4,6 milyard manatdır. Bir məsələ ilə bağlı sual vermək istəyirəm. İndi Dövlət Sosial Müdafiə Fondu da öz sərbəst vəsaitlərini banklarda idarəetməyə verəcək. Bu gələn gəlirlər Dövlət Vergi Xidmətinin proqnozuna aiddir, yoxsa onlar bu gəlirləri başqa prosedurlarla öz büdcələrinə cəlb

edəcəklər? Sualım bundan ibarət idi. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Aydın müəllim. Siz İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvüsünüz, düzdür? Bu məsələyə sizin komitənizdə baxılıb? Baxılıb. Eybi yoxdur, sualınızı qəbul elədik. İndi, Vüqar müəllim, Siz də sual verirsiniz. Həmin komitənin üzvü. Maşallah bütün suallarınızı saxlamısınız. Buyurun.

**V.Bayramov**. Hörmətli xanım sədr, mən ehtiyac meyarı ilə bağlı sual vermək istəyirdim. Əslində, mənim sualım Milli Məclisə deyil, bizim əmək və əhalinin sosial müdafiəsi nazirinədir. Artıq 2 ildir, ehtiyac meyarı ilə yaşayış minimumu bərabərləşdirilir. Nazirlik tərəfindən ehtiyac meyarının gələcəkdə ləğvi nəzərdə tutulurmu?

**Sədrlik edən.** Sağ olun. Əli müəllim, buyurun. Əli Məsimli.

**Ə.Məsimli.** Çox sağ olun, hörmətli sədr. Büdcə zərfi müzakirə olunan zaman bizim qaldırdığımız məsələlərin içərisində ehtiyac meyarı məsələsi xüsusi yer tutub. Ona görə ki, bu, bilavasitə əhalinin aztəminatlı təbəqəsi ilə bağlı məsələdir. Biz bunu həmişə iki kontekstdə dəyərləndirmişik. Birinci, məbləğ nöqteyi-nəzərindən, ikinci isə, mahiyyət nöqteyi-nəzərindən. Məbləğ nöqteyi-nəzərindən yanaşanda bizim mövqeyimiz belədir ki, istər minimum əmək haqqı, istər minimum pensiya, istər yaşayış minimumu, istərsə də ehtiyac meyarı olsun, vətəndaşlarımızın minimum ehtiyaclarını belə ödəyə bilmir. Ona görə də ona daim dinamizm verib, heç olmasa, minimum ehtiyacları ödəmə səviyyəsinə qaldırmaq çox vacibdir.

İkinci, meyar ölçü deməkdir. Əgər ehtiyac meyarından söhbət gedirsə, o ölçünün aşağı həddi yaşayış minimumu ola bilər. Əgər ondan əlavə, ehtiyac meyarının bir göstəricisindən də istifadə olunursa, deməli, bu, ünvanlı sosial

yardım şəklində əhaliyə verilən məbləği azaltmaq üçün süni surətdə müəyyən edilən bir göstəricidir. Ona görə də biz həmişə, hətta bu göstəricilər bərabərləşənə qədər də ehtiyac meyarının gündəmdən çıxarılmasının tərəfdarı kimi çıxış eləmişik. Son vaxtlar da biz iki qanun layihəsi hazırladıq. Bu qanun layihələrində biz ehtiyac meyarının çıxarılmasını və onun yaşayış minimumu ilə əvəz edilməsini nəzərdə tuturuq. Bu, sadəcə, mexaniki bir şey deyil. “Yaşayış minimumu haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edilməsi barədə qanun layihəsi, “Ünvanlı sosial yardım haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edilməsi barədə qanun layihələrinin qəbul edilməsi, hesab eləyirik ki, həm ehtiyac meyarının sıradan çıxması, həm də bundan sonra daha əsaslandırılmış, beynəlxalq praktikada tətbiq olunan yaşayış minimumunun həyatımızda da qəbul edilməsi üçün çox vacibdir.

Hörmətli sədr, mən bu məsələdə Milli Məclis Aparatının rəhbəri Fərid müəllimə səylərinə görə çox təşəkkür edirəm. Eyni zamanda, Əmək və sosial siyasət komitəsinin sədri Musa müəllimə də müraciət edirəm ki, Fərid müəllimin göstərdiyi səylərdən o da göstərsin. Həmin qanun layihəsi büdcə zərfinin 6-cı kitabına daxil olsun. Bu da, hesab edirəm ki, Milli Məclisin bütövlükdə büdcə müzakirələrinə verilən çox vacib bir töhfəsi ola bilər.

İkinci məsələ. Əgər biz bunu birləşdiririksə, onda yaşayış minimumu anlayışı önə çıxır, yaşayış minimumu isə minimum istehlak səbəti vasitəsi ilə hesablanır. Hörmətli sədr, minimum istehlak səbəti Nazirlər Kabinetinin 2014-cü il 6 iyun tarixli qərarı ilə təsdiq edilib. Burada ərzaq məhsulları, qeyri-ərzaq məhsulları və xidmətlər var. Hörmətli sədr, pandemiyadan sonra bu sənədə yenidən baxılmasına

ehtiyac var. Məsələn, təkcə ət və ət məhsullarını 32 kq götürmək... Balıq məhsullarında da hələ 7 kq götürülmüşdür, bir az da azaldılıb. Geyimlərdə də təxminən 8 ilə 1 ədəd paltodan söhbət gedir. Hesab eləyirəm ki, bunlar uyğun gələn şeylər deyil. Ona görə də xüsusən indiki dövrün tələblərinə uyğun surətdə xidmət, təhsil, səhiyyə, sosial xidmətlərlə bağlı məsələlərin minimum istehlak səbətinin göstəricilərinə salınmasını xahiş edirəm. Hörmətli sədr, bir dənə rəqəmi desəm, kifayətdir ki, bu minimum istehlak səbətində hər ailəyə internet üçün 1 saat vaxt verilir. Minimum istehlak səbətində ailə üçün 1 saat. Ona görə də hesab edirik ki, əgər, doğrudan da, aztəminatlı təbəqənin güzəranının yaxşılaşdırılması istiqamətində nəzərəçarpan addımlar atmaq istəyiriksə, biz bu gün yaşayış minimumu ilə ehtiyac meyarını birləşdirib 270 manata çatdırmışıq, həmin sadaladığım məqamlar da burada öz əksini tapanda artıq ailələr, həmin aztəminatlı ailələr bu il 535 manat, gələn il 4 nəfərdən ibarətdirsə, təxminən 100 manat daha artıq alacaq. Amma bunu davam elətdirməyi vacib hesab edirik.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, biz hələ qanun layihəsini əsas kimi qəbul etməliyik. Xahiş edirəm, əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 15.58 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Biz indi maddələr üzrə səs verməliyik. Layihədə iki maddə var. 1-ci maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 15.58 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 15.58 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

Qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 15.59 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. 7-ci məsələ Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün, Tahir müəllim, yenə də Sizə söz verirəm. Sizin komitənizdə baxılıb. Buyurun.

**T.Mirkişili**. Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, Vergi Məcəlləsində edilən dəyişikliklər ölkədə sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması, sahibkarlıq fəaliyyətinin təşviq edilməsi, sosial xarakterli güzəştlər vasitəsi ilə əhalinin vergi yükünün azaldılması və vergi nəzarəti mexanizminin təkmilləşdirilməsi məqsədi daşıyır. Qanun layihəsi maliyyə və kapital bazarı üzrə, səhiyyə sektoru, kənd təsərrüfatı sektoru, turizm sektoru, nəqliyyat, biznes yükünün optimallaşdırılması, sosial dəstək mexanizmləri, kölgə iqtisadiyyatı və vergidənyayınma halları ilə mübarizənin gücləndirilməsi məqsədi ilə hazırlanmışdır.

Hörmətli həmkarlar, mən birinci oxunuş zamanı layihə haqqında geniş məlumat vermişdim. Çünki layihədə 200-dən çox dəyişikliyin edilməsi gözlənilir. Kifayət qədər böyük bir layihədir. Sadəcə, qısa olaraq bir neçə əsas məqamı xatırlatmaq istəyərdim. Bu, eyni zamanda, kifayət qədər maraqlı və sosial bir məna daşıyır. Belə ki, qanun layihəsinə görə, yanvarın 1-dən etibarən kredit təşkilatlarının ödənilməyən borclar müqabilində balansa götürdüyü girov əmlakı əmlak və torpaq vergilərindən 2 il müddətinə azad ediləcəkdir. Ölkədə, bütövlükdə, biznes sektorunda dividendlər üzrə ödəmə mənbəyində ödənən vergilərin dərəcəsi 10 faizdən 5 faizə endiriləcəkdir.

Səhiyyə sektoru üzrə tədris bazası kimi fəaliyyət göstərən tibb müəssisələrində tibbi xidmətlərin göstərilməsi,

bütövlükdə, 3 il müddətinə əlavə dəyər vergisindən azad ediləcəkdir.

Səhiyyə məsələlərində əgər vətəndaşlar aldığı xidmətləri nağdsız formada ödəyərlərsə, o zaman həmin xidmətlərin 50 faizi həcmində dövriyyədən vergi azad ediləcəkdir.

Kənd təsərrüfatı üzrə bu ilin yanvarın 1-də müddəti başa çatan bütün vergi güzəştləri 3 il müddətinə yenidən uzadılacaqdır.

Turizm sektorunda bizə ən çox müraciət edilən məsələlərdən biri regionda fəaliyyət göstərən otellərin və turizm obyektlərinin ödədikləri əmlak vergisi 75 faiz 3 il müddətinə azaldılacaqdır. Bildiyiniz kimi, bu məsələ ciddi məsələ idi. Xüsusən də Azərbaycanda turizm sektorunda sezonla işləyən müəssisələrin bununla bağlı həm Milli Məclisə, həm də hökumətə müraciətləri vardır. Düşünürəm ki, bu o istiqamətdə çox böyük bir dəstəkdir.

Biznes yükünün optimallaşdırılması baxımından keçən dövr 2024-cü il yanvarın 1-dən etibarən ictimai fondlara köçürülən vəsaitin vergidən azad olması 10 faizdən 15 faizə qədər artırılacaqdır.

Çox maraqlı məsələlərdən biri, bizə də ən çox müraciət edilən məsələlərdən biri mikrosahibkarlıq subyekti olan fiziki şəxslərin sosial sığorta haqlarının ödənməsi ilə bağlıdır. Bildiyiniz kimi, həmin bu haqlar ölkədə minimum əmək haqqı ilə bağlıdır. Minimum əmək haqqı artdıqca onların da artırılması ilə bağlı müəyyən müraciətlər daxil oldu. Yeni təklif olunan dəyişikliyə görə, bundan sonra onların ödədiyi sosial sığorta haqlarının 25 faizi ödədikləri vergidən çıxılacaqdır.

Eyni zamanda, əhalinin banklarda olan əmanətləri, düşünürəm ki, bu gün əhalinin gəlirlərinin müəyyən hissəsini təmin edir, onların da hər ay aldıqları gəlirin 200 manata

qədər olan hissəsi gəlir vergisindən azad ediləcəkdir. Əgər vətəndaşlar bu əmanətləri 18 ay və daha çox müddət ərzində banklara qoyarlarsa və 18 ay müddətində banklardan əmanətləri geri çəkməzlərsə, onda onların bütün gəlirləri 3 il müddətinə vergidən azad ediləcəkdir.

Bu gün geniş istifadə olunan "ƏDV geri al" kampaniyası çərçivəsində ƏDV-dən vətəndaşlara köçürülən bütün gəlir vergidən azad ediləcək. Bütün bu ödənişlər və azadetmələr, düşünürəm ki, ölkədə həm sahibkarlıq fəaliyyətinin inkişafı baxımından, həm də əhalinin sosial dəstəklənməsi, yəni gəlirlərin daha çox əldə qalması baxımından kifayət qədər əhəmiyyət daşıyır.

Hörmətli xanım sədr, biz komitədə müvafiq dövlət orqanlarının, İqtisadiyyat Nazirliyinin, Dövlət Vergi Xidmətinin əməkdaşları ilə bu məsələni yenidən çox geniş müzakirə etmişik. Düşünürəm ki, müzakirələr bu istiqamətdə hər bir məsələnin daha çox qavranmasına xidmət etmişdir. Həmkarlarımdan ikinci oxunuşda dəstəkləmələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Tahir müəllim, ətraflı məlumata görə çox sağ olun. Mən bir şeyi vurğulamaq istəyirəm. Qanunlar üçüncü oxunuşa çıxandan sonra, Fərid müəllim, bizim "Parlament saatı" verilişimiz var, təklif edirəm ki, orada biz komitə sədrlərini yığıb, belə bir dəyirmi masa ətrafında əsas məsələləri seçicilərə çatdıraq. Bu, bir dəfə olmamalıdır, Fərid müəllim, bir neçə dəfə olmalıdır. Tahir müəllim, fikirləşin, Sizsiniz, Musa müəllimdir. Mən çox istərdim ki, bu büdcə məsələləri ilə bağlı olan qanun layihələri ilə bağlı çoxsaylı müsahibələr verəsiniz. Ən yaxşı da "Parlament saatı"nda. Bizim "Parlament saatı" 1 saata yaxındır, 40 dəqiqədir. Elə onun hamısını bu məsələlərə həsr edək. Çünki bunlar hamısı, bu məlumatlar gərək

seçicilərə düzgün çatdırılsın. Bəlkə onda məktubların da sayı azalar. Çünki çox vaxt elə məktublar olur ki, biz faktiki olaraq suallara cavab verməkdə çətinlik çəkirik. Çünki aşkar olan bir məlumatdır. Ancaq yenə də bunların hamısı məktub kimi, sual kimi bizə gəlir. Bununla bağlı fikirləşmək lazımdır. Tahir müəllim, Musa müəllim, xahiş edirəm, öz təkliflərinizi verin. Adil Vəliyev, sizin şöbəniz, Məhəmməd Bazıqov, sizin şöbəniz, bu məsələləri bir yerdə işləmək lazımdır.

Əsas kimi qəbul etməliyik. Sonra mən Rəşad müəllimə söz verəcəyəm. Qanun layihəsini əsas kimi qəbul edək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.05 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Əsas kimi qəbul edildi.

Mehman müəllim buradadır? Fərid müəllim, Mehman müəllim yoxdur?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Mehman müəllimə də deyin, “Parlament saatı”nda həmin o formata bir dəfə də baxsınlar. İndi isə müzakirəyə keçirik. Rəşad Mahmudov. Rəşad müəllim, buyurun.

**R.Mahmudov.** Çox təşəkkür edirəm. Çox hörmətli xanım sədr, dəyərli millət vəkilləri. Mən də Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının qanun layihəsini dəs-

təkləyirəm. Amma fürsətdən istifadə edərək zaman keçdikcə sanki daha da mürəkkəbləşən bir məqamı diqqətə çatdırmaq istəyirəm. O da nədir? Biz səhiyyə sahəsində, həqiqətən, yenidən yaxşılaşdırmanı burada görürük. Bunların içərisində təhsil verən müəssisələrdə bəzi azadolmalar var. Amma bunlarla yanaşı, son 5 il içərisində vergi sahəsində edilən dəyişikliklərdə məqamlar ortaya çıxır ki, bu, rəqabət prinsipinə problemlər yaradır. Bunlar nədir? Bu gün məhz qanunlarımızda zamanında tövsiyə etdiyimiz səhiyyə müəssisələri yerinə ayrı-ayrı qurumların icbari tibbi sığorta nəzdində olan xəstəxanalara, özəl xəstəxanalara, bələdiyyələrin nəzdində olan tibb müəssisələrinə və sair kimi hadisələrə baxıldığına görə bu gün qurumlar arasında vergi ödəmələrində çox ciddi fərqlər əmələ gəlir. Bu, qarşılıqlı münasibətlərdə ciddi problemlər yaradır. Bununla əlaqədar bəs qədər nümunələr də var. Ona görə mən tövsiyə edirəm ki, əgər uyğun olarsa, gələcəkdə, ümumiyyətlə, ölkədə səhiyyə sahəsində fəaliyyət göstərən bütün qurumların hansı nazirliyə və hansı mənbəyə bağlı olmasından asılı olmayaraq vergi yanaşmaları bərabər olsun. Bu da, əlbəttə ki, daha homojen bir şəkildə inkişafın saxlanılmasına kömək edəcəkdir.

Mən, sadəcə, fürsətdən istifadə edərək bu məqamı diqqətinizə çatdırmaq istədim. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Rəşad müəllim. Daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini maddələr üzrə səsə qoyacağam. Qanun layihəsində 3 maddə var. 1-ci maddəyə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.08 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Xahiş edirəm, 2-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.08 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

3-cü maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.08 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə qanun layihəsinin ikinci oxunuşda qəbul edilməsinə münasibət bildirməyinizi xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 16.09 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs verməmdi | 1 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

İndi isə növbəti məsələyə keçirik. Bu, Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün mən Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Hüseynli,** *Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Bu layihə də öncə məruzə olunmuş Vergi Məcəlləsi kimi çox mütərəqqi bir layihədir. Məqsəd hüquqi şəxslər arasında olan mübahisələrin səhmlərlə və nizamnamə kapitalındakı paylarla dəyişdirilməsi yolu ilə həllidir. Birinci oxunuş zamanı təkliflər daxil olmamışdır. İkinci oxunuşda səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Tahir müəllim, buyurun, komitənin rəyini bildirin.

**T.Mirkişili.** Hörmətli xanım sədr, qanun layihəsi ilə bağlı bizim komitənin də rəyi müsbətdir. Səs verməyinizi xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsini əsas kimi qəbul etməliyik, ikinci oxunuşdur. Buyurun, qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 16.10 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur və mən səsverməyə keçirəm. Maddələr üzrə səs verəcəyik. Qanun layihəsi 2 maddədən ibarətdir. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.11 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

1-ci maddə qəbul edildi, çox sağ olun.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.11 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.11 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik, hörmətli həmkarlar. 9-cu məsələdir, "Nağdsız hesablaşmalar haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Tahir müəllim, mən sözü yenə də Sizə verirəm. Buyurun.

**T.Mirkişili.** Çox sağ olun, hörmətli sədr. Hörmətli həmkarlar, qanun layihəsi pərakəndə satış sahəsində və tibb müəssisələrində bir nəzarət- kassa aparatı çekinin bir əməliyyat sayılmasını ehtiva edir. Hesab və uçot məqsədi ilə hazırlanmışdır. Layihəyə səs verməyinizi sizdən xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Qanun layihəsini əsas kimi qəbul etmək lazımdır. Xahiş edirəm, münasibət bildirin, səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 16.12 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxışa heç kim yazılmayıb. Biz maddələr üzrə səsverməyə keçirik. Qanun layihəsi 2 maddədən ibarətdir. 1-ci maddəyə səs verək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.12 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

1-ci maddə qəbul edildi.

Mən 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.13 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.13 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

10-cu məsələyə keçirik. Bu, "Sığorta fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə yenə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Tahir müəllim, özünüz məlumat verəcəksiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, məlumat verin. Eşidirik sizi.

**T.Mirkişili.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, bildiyiniz kimi, ləğv edilən sığortaçının aktivləri onun kreditorları arasında növbəlilik qaydasında bölüşdürülür. Bu baş verdiyi halda, dövlət büdcəsinə ödənməli olan vergi və digər məcburi ödənişlərin heç bir müddət məhdudiyyəti tətbiq edilmədən tam məbləğdə ödənməsi qanun layihəsində öz əksini tapmışdır. Layihəyə səs verməyinizi xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Tahir müəllim, çox sağ olun. Əsas kimi qəbul etməliyik, hörmətli həmkarlar. Buyurun, qanun layihəsinə əsas kimi səs verin.

| **Səsvermənin nəticələri** | (saat 16.14 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini maddələr üzrə səsə qoyacağam. Qanun layihəsi 2 maddədən ibarətdir. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 16.15 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.15 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

Qanun layihəsini bütövlükdə səsə qoyuram, hörmətli həmkarlar. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.15 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti, 11-ci məsələ "Banklar haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Tahir müəllim, sizin komitənizdə baxılıb, sizin məsələnizdir. Buyurun, məlumat verin.

**T.Mirkişili.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, bu məsələ də bundan öncə təqdim etdiyim məsələ ilə oxşardır. Belə ki, banklar müflis olduğu zaman onların aktivləri satılarkən dövlət büdcəsinə və büdcədənkənar fondlara ödənməli olan məcburi ödənişlərin heç bir növbəlilik gözləmədən, müddət tətbiq etmədən büdcəyə ödənməsini ehtiva edir. Layihəyə səs verməyinizi xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, əsas kimi qəbul etməliyik. Buyurun, qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 16.16 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi. Çıxış etmək istəyən yoxdur. Maddələr üzrə münasibət bildirməliyik. 2 maddədən ibarətdir. Buyurun, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 16.17 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 1-ci maddə qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.17 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.17 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

12-ci məsələ "Sosial sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün, Musa müəllim, Sizdən xahiş edəcəyəm. Buyurun, məlumat verin.

**M.Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. "Sosial sığorta haqqında" Qanuna edilən dəyişikliklər barədə birinci oxunuşda ətraflı məlumat verilibdir. Bir daha xatırlatmaq istəyirəm ki, qanunun 14-cü maddəsinə dəyişiklik təklif edilir. Dəyişikliyin mahiyyəti texnologiyalar parkının rezidenti, onun podratçısı və subpodratçısı və eyni zamanda, onlarla əmək müqaviləsi bağlamış həmin işi görən şəxslərin məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı imkanlarını genişləndirir, hüquqi normativləri dəqiqləşdirir və dürüstləşdirmə xarakteri daşıyır.

Qanun layihəsinin birinci oxunuşdan sonra mətnində dəyişiklik olmayıbdır. İkinci oxunuş üçün qanun layihəsini dəstəkləməyi sizdən xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Əsas kimi qəbul etməliyik, hörmətli həmkarlar. Buyurun, bu qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 16.19 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Əsas kimi qəbul edildi. Çıxışa yazılanlar yoxdur. Maddələr üzrə səsverməyə keçirik. Bu qanun layihəsində də 2 maddə var. 1-ci maddəyə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.19 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

2-ci maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.20 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.20 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

13-cü məsələyə keçirik. "Gömrük tarifi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Tahir müəllim, buyurun, yenə də sözü Sizə verirəm.

**T.Mirkişili.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, bu qanun layihəsi Mərkəzi Bank, hasila-

tın pay bölgüsü haqqında sazişlərdə Azərbaycan Respublikasını təmsil edən hüquqi şəxslər və sair tərəfindən bir sıra malların idxalının, o cümlədən humanitar yardımın göstərilməsi, müdafiə təyinatlı məmulatların yaradılması, istehsalı və sair üzrə malların idxalının gömrük rüsumlarından azad edilməsi məqsədi ilə hazırlanmışdır. Komitənin rəyi məqbuldur. Sizdən də səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsinə əsas kimi münasibət bildirməliyik. Hörmətli həmkarlar, buyurun, mən əsas kimi səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 16.21 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. Mən maddələr üzrə səsverməyə keçirəm. Bu qanun layihəsi də 2 maddədən ibarətdir. Buyurun, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 16.21 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

1-ci maddə qəbul edildi.

İndi isə 2-ci maddəni səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.22 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 16.22 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi. Hörmətli həmkarlar, bununla da büdcə zərfinə daxil olan qanun layihələrinin müzakirəsi başa çatdı. İclasda iştirak etdiklərinə görə mən hökumət üzvlərinə təşəkkürümü bildirirəm. Çox sağ olun.

Hörmətli həmkarlar, biz növbəti məsələlərə keçirik. Bizim işimiz hələ bitməyib. Gündəliyimizdə növbəti, 14-cü məsələ “Azərbaycan Respublikası Hökuməti ilə Ruanda Respublikası Hökuməti arasında diplomatik və xidməti pasport sahiblərinin viza tələbindən azad edilməsi haqqında Saziş”in təsdiq edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, layihə beynəlxalq sənədlə bağlı olduğuna görə müvafiq Konstitusiya qanununun tələbinə əsasən bir

oxunuşda baxılıb qəbul ediləcək. Məsələyə dair məlumat vermək üçün mən Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri hörmətli Səməd Seyidova söz verirəm. Səməd müəllim, buyurun.

**S.Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Azərbaycan Respublikasının 50-yə yaxın Afrika ölkəsi ilə diplomatik əlaqələri mövcuddur. O cümlədən 6 Afrika ölkəsində bizim səfirliklərimiz var. Cənubi Afrika Respublikasında, Efiopiya, Əlcəzair, Misir, Mərakeş və yadınızdadırsa, keçən il biz Keniyada həm səfirlik, həm də nümayəndəlik açdıq. Bununla yanaşı, bir məsələni də qeyd etməliyəm ki, Qoşulmama Hərəkatının sədri kimi biz Afrika ölkələri ilə əlaqələrimizi genişləndirmək istiqamətində böyük işlər görmüşük. Hətta 1 il bundan əvvəl ADA Universitetində keçirilən konfransda Azərbaycan Respublikasının Prezidenti məhz Afrika ölkələri ilə əlaqələrimizin genişləndirilməsinin nə dərəcədə əhəmiyyətli olması ilə bağlı birbaşa öz fikirlərini həmin konfrans iştirakçılarına çatdırmışdır. Bu nöqteyi-nəzərdən Keniya ilə həm sərhəd və yaxın qonşu olan Ruanda ilə əlaqələrimizin genişləndirilməsi və xüsusilə diplomatik və xidməti pasport sahiblərinin vizasız gediş-gəlişinin təmin olunması çox vacib və əhəmiyyətlidir. Komitəmizdə bu məsələ geniş şəkildə müzakirə olunub. Mən həmkarlardan bu qanun layihəsini qəbul etməyi xahiş edərdim. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Səməd müəllim. Çıxış etmək istəyən yoxdur. Mən sazişin təsdiq edilməsi barədə qanun layihəsinə münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.25 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, bizim 7 məsələmiz qalır. Bu məsələlərin hamısı üçüncü oxunuşda olan qanun layihələridir. Gündəliyin 15-ci məsələsi "Dövlət qulluğu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri, Milli Məclis sədrinin birinci müavini hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli xanım sədr. Həm bu layihə ilə, həm də dövlət qulluğu ilə bağlı hörmətli həmkarların təkliflərinə və çıxışlarına münasibət bildirilmişdir. Ona görə üçüncü oxunuşda səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 16.26 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Biz 16-cı məsələyə keçirik. Əli müəllim, xahiş edirəm, bununla əlaqədar məlumat verin.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli xanım sədr. Burada isə "Dövlət qulluğu haqqında" Qanuna edilən dəyişiklik "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə" ilə bağlıdır. Yəni xüsusi dövlət orqanlarında keçid və miqrasiya orqanlarında qulluq keçmə və rütbə dərəcələrinə həsr olunub. Birinci və ikinci oxunuşlarda çıxışlar olmamışdır. Üçüncü oxunuşda səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.27 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin son 5 məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və məzmunca bir-birinə yaxındır. 17-ci məsələ Cinayət Məcəlləsində, 18-ci məsələ "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Qanunda, 19-cu məsələ "Şəxsin cinayət mə-

suliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahılarının təsdiq edilməsi haqqında" Qanunda, 20-ci məsələ "Güclü təsir edən maddələr və onların külli miqdarının, habelə zəhərli maddələrin siyahılarının təsdiq edilməsi haqqında" Qanunda, 21-ci məsələ isə "Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında prekursorlardan istifadə məqsədi ilə törədilən əməllərlə əlaqədar həmin prekursorların xeyli və külli miqdarının Siyahısı"nın təsdiq edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir.

Hörmətli həmkarlar, qanun layihələrinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Komitənin üzvü hörmətli Əminə xanım keçən dəfə də bununla bağlı iki dəfə bizə məlumat vermişdir. Əminə xanım, xahiş edirəm, Siz yenə də məlumat verin.

**Ə.Ağazadə,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Qanun layihələri ilə bağlı birinci və ikinci oxunuşlar zamanı ətraflı məlumat verilmişdir, müzakirələr aparılmışdır. Bu dövrdə komitəmizə heç bir təklif daxil olmadığından olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Əminə xanım, çox sağ olun. Çıxış etmək istəyən yoxdur. Hörmətli həmkarlar, icazənizlə, mən bu layihələri bir-bir səsə qoyacağam. Beləliklə, 17-ci məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.29 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə 18-ci məsələdə olan qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.30 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə 19-cu məsələni səsə qoyuram, buyurun, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.30 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə 20-ci məsələni səsə qoyuram. Buyurun, qanun

layihəsinə üçüncü oxunuşda münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 16.30 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə 21-ci məsələdə olan qanun layihəsinə münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.31 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, iclasımız başa çatdı. Hamıya minnətdarlıq edirəm. Növbəti iclasımızın vaxtı ilə bağlı sizə əlavə məlumat veriləcək.  Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

## *13 noyabr 2023-cü il*

**Əliabbas Salahzadə.** Sizlərin hər birinizi yaşadığımız bu tarixi günlərdə, xüsusən də bayramlarla zəngin noyabr günlərində – Dirçəliş Günü münasibəti ilə təbrik edirəm. Hesab edirəm ki, həm Zəfər, həm də Bayraq Gününü qeyd etmək imkanımız məhz milli mücadiləmizin noyabr günləri ilə bağlıdır. Məhz bu mübarizə nəticəsində 32 il öncə dövlət müstəqilliyimizi bərpa edə bildik. Bu gün XXI əsrin yeganə xalqıyıq ki, cəbhədə, döyüşdə qələbə qazanmışıq. Bu qələbəmizi rəsmiləşdirərək dünyada tanıda bilmişik. Təbiidir ki, bütün bu qələbələrin tək müəllifi müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevdir. Bu qələbəmiz iqtisadi gücümüzün verdiyi əminliyə dayanır və əvvəlki illərdə qazandığımız iqtisadi nailiyyət və tərəqqi qələbəmizi təmin edən başlıca zəminə çevrilmişdir.

Bu gün müzakirəmizə çıxarılan 2024-cü il üzrə dövlət büdcəsi layihəsi ilə tanışlıq zamanı aydın olur ki, hər il olduğu kimi, büdcəmizdə kifayət qədər artımın olması gözlənilir və bu artım təkcə proqnozlara dayanmır, real imkanlarımızın təzahürüdür. O imkanların əldə olunması üçün uzun illər ərzində dövlət və xalq həmrəyliyi ilə böyük işlər görülmüşdür.

Belə ki, təqdim olunmuş layihədə növbəti ilin büdcəsinin gəlirlərinin 34 milyard 173 milyon manat, xərclərinin isə 36 milyard 763 milyon manat olacağı nəzərdə tutulmuşdur. Göründüyü kimi, cari büdcə ilə müqayisədə növbəti il üçün nəzərdə tutulmuş büdcənin arasında kifayət qədər, müsbət mənada fərq, artım vardır. Bu da ölkəmizin iqtisadi yüksəlişinin davamlılığının əsas göstərici-

lərindəndir. Təbiidir ki, bütün bu nailiyyətlər və artıq dayanıqlı hal alan sistemli iqtisadi tərəqqi cənab Prezidentimizin ardıcıl, məqsədyönlü siyasətinin nəticəsidir.

Büdcə layihəsi ilə tanışlıq zamanı aydın olur ki, növbəti ildə də bütün sahələr üzrə vəsait qoyuluşlarında artımlar nəzərdə tutulmuşdur. Təbiidir ki, bu sahələr sırasında başlıca yerləri azad olunmuş ərazilərdə quruculuq işlərinin həyata keçirilməsi, sürətli qayıdışın təmin olunması, ölkəmizin müdafiə qüdrətinin artırılması və təhsilin inkişafına yönəlik xərclər təşkil edir. Büdcə müzakirələri həm ictimaiyyət arasında, həm də parlamentin komitələrində geniş və ciddi müzakirə edilir. İnanıram ki, bu müzakirələr nəticəsində büdcə layihəsinin optimallığı daha da artacaqdır.

Gələn il üçün nəzərdə tutulmuş büdcə layihəsində minimum əməkhaqqı miqdarının builki səviyyədə saxlanılması nəzərdə tutulmuşdur. Təklif edərdim ki, bu miqdar, heç olmazsa, bu il üçün proqnozlaşdırılan inflyasiya dərəcəsi qədər artırılsın.

2024-cü il dövlət büdcəsi layihəsində yaşa görə pensiyanın orta məbləği 516 manatı keçəcək. Yəni təxminən 10 faiz artım olacaq. Bu, təqdirəlayiqdir. Amma bu məbləğin də illik inflyasiya məbləğinə, amma real həcmdə qaldırılmasına diqqət göstərməliyik.

Bu arada qeyd etmək yerinə düşər ki, layihədə dövlət borcunun ÜDM-ə nisbəti 14,5 faiz təşkil edir və bu, büdcə qaydası göstəricisi meyarı baxımından qəbul olunan səviyyədədir.

Digər təklifim, Vətən müharibəsi iştirakçılarının müavinətləri ilə bağlıdır. Hesab edirəm ki, bu gün onlara verilən 80 manat vəsait artıq bazar tələblərinə uyğun deyildir və onun artırılaraq 150-200 manat civarında müəyyənləşdirilməsini təklif edirəm.

Toxunmaq istədiyim digər bir məsələ qaz və elektrik enerjisinin istifadə limiti ilə bağlıdır. Bu limitlərin artırılması və ya tamamilə ortadan qaldırılması bu gün artıq əhalinin bütün sosial təbəqələrinin marağında olan bir məsələdir. Eyni zamanda, bu məsələyə yanaşmada xüsusi diqqət göstərilməli məqam qış aylarının və şaxtalı soyuq günlərin daha çox üstünlük təşkil etdiyi dağ və dağətəyi yaşayış məskənləri ilə əlaqədardır ki, burada əhali son payız və erkən yaz dönəminə qədər elektrik enerjisi və qazdan daha çox istifadə etməyə məcburdur. Eyni zamanda, bu problem Bakı və Bakı ətrafı yaşayış məskənləri üçün də aktualdır və bu məsələ ilə bağlı vətəndaşlar çoxsaylı müraciətlər edir. Ofisimiz tərəfindən edilmiş araşdırmalar bu problemin həlli üçün hökumətin güzəştlərə gedə bilməsinin mümkünlüyünü əsaslandırır.

Xatirimdədir, ötənilki büdcə müzakirələri zamanı bir çox həmkarlarım 2 məsələ üzrə təklif irəli sürmüşdülər. Bunlardan biri – büdcə ilinin dekabrın 31-də deyil, mart ayında başa çatması ilə bağlı təklif idi. Bu təklif aktuallığını saxlayır və onun həyata keçirilməsi maliyyə əməliyyatlarının səmərəliliyinin artırılması baxımından əhəmiyyətlidir. Digər bir məsələ isə artıq ölkəmizdə büdcə məcəlləsinin hazırlanması ilə bağlı idi. Hesab edirəm ki, ölkə qanunvericiliyinin məcəlləşdirilməsi prosesini davam etdirməliyik, bu, çoxsaylı kiçikhəcmli qanunların ortadan qaldırılması və onun əvəzində ayrı-ayrı sahələr üzrə məcəllənin hazırlanması qanunlar üzrə işlək mexanizmlərin hazırlanmasına daha yaxından imkan yaratmış olar.

Təhsillə bağlı büdcədən ayrılan vəsaitlərin artırılması təqdirəlayiqdir. Lakin burada da görünür ki, ayrılan vəsaitin əsas hissəsinin tikinti-quruculuq işlərinə cəlb edilməsi nəzərdə tutulmuşdur. Burada əsas məqam elm və

təhsilin birgə inkişafına nail olmaqdır. Bunun üçün də elm sahəsinə ayrılan vəsait əsaslı şəkildə artırılmalıdır. Bu gün ölkəmizdə fəaliyyət göstərən bir neçə ali təhsil müəssisəsini çıxsaq, əksər ali təhsil müəssisələrinin pedaqoji və xidməti heyətinin əməkdaşlarının əməkhaqlarının ölkə üzrə orta aylıq əməkhaqqından xeyli aşağı olduğunu görürük. Bu gün ali təhsil müəssisələrimiz publik hüquqi şəxslər olduğundan, yalnız dövlət tərəfindən ödənilən ödənişsiz əsaslarla oxuyan tələbələrin və ödənişli əsaslarla oxuyan tələbələrin vəsaiti hesabına ayaqda dururlar ki, bu da onların maliyyə imkanlarını məhdudlaşdırır. Təklif edərdim ki, dövlət tərəfindən bir nəfər tələbə üçün nəzərdə tutulmuş tədris xərcləri artırılsın. Bu kontekstdə universitetlər üzrə ödənişli təhsilin qiymətlərinin artmaması üçün əlavə mexanizmlər hazırlansın və dövlətimiz ayrı-ayrı istiqamətlər üzrə ali təhsil müəssisələrinə dövlət vəsaiti ayırsın.

Hesab edirəm ki, təqdim olunan layihə optimal variantda hazırlanmışdır. Ölkəmizin bugünkü iqtisadi imkanlarını şəffaf şəkildə təzahür etdirir. İcra oluna bilinəndir və onun birinci oxunuşda qəbul edilməsi məqsədəuyğundur. Layihənin lehinə səs verəcəyəm.

## ***14 noyabr 2023-cü il***

**Adil Əliyev.** Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında qanun layihəsi və ondan irəli gələn qanun layihələrinin müzakirələri artıq bir neçə gündür davam edir. Xanım sədr, daha əvvəl də Sizin təşəbbüsünüzlə sözügedən layihələrə millət vəkili həmkarlarımın iştirakı ilə komitələrin birgə iclasında baxılıb. Layihəyə dair Hesablama Palatasının mövqeyi öyrənilib, millət və-

killəri tərəfindən verilmiş rəy və tövsiyələr nəzərə alınmaqla, plenar iclasa tövsiyə edilib.

Ölkəmiz üçün builki büdcə layihəsinin xüsusi önəmi vardır. Builki büdcə layihəsi ərazisini tam bərpa etmiş bütöv Azərbaycan üçün qəbul olunur. Məhz Prezident, müzəffər Ali Baş Komandanın rəhbərlik etdiyi rəşadətli Azərbaycan Ordusunun 19-20 sentyabr tarixində həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri zamanı ölkəmizin ərazisindəki "boz zona" tarixə qovuşmaqla, ölkəmiz suverenliyini bərqərar etdi. Xocalıda, Xankəndidə bayrağımızın ucaldılması, Xankəndi şəhərində keçirilən parad dövlətimizin gücünü bir daha dünyaya nümayiş etdirdi.

Məhz güclü ordunun qurulmasında, döyüş arsenalının müasir silahlarla zənginləşməsində bu sahəyə ayrılan dövlət büdcəsinin xüsusi əhəmiyyəti var.

Eləcə də 2024-cü il dövlət büdcəsində keçən illərdə olduğu kimi, Böyük Qayıdış konsepsiyasının həyata keçirilməsi və əhalinin sosial rifah halının daha da yaxşılaşdırılması kimi iki mühüm məsələ öz aktuallığını qorumaqdadır. Böyük Qayıdış konsepsiyası çərcivəsində dövlətimiz tərəfindən qısa müddətdə böyük layihələr həyata keçirilir, işğaldan azad olunmuş ərazilərdə abadlıq-quruculuq geniş vüsət alıb, nəticədə keçmiş məcburi köçkünlər uzun illərdən sonra yurdlarına geri dönürlər.

Növbəti mühüm məsələ isə əhalinin sosial rifah halının yaxşılaşdırılmasıdır. Xüsusən də həssas təbəqədən olan şəxslərə dövlət tərəfindən ayrılan diqqət və qayğı 2024-cü ildə də uğurla davam edəcəkdir.

Toxunmaq istədiyim aktual məsələlərdən biri də şəhid ailələrinin və qazilərin dövlət tərəfindən evlə təmin olunması ilə bağlıdır. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, onlar Bakı, Sumqayıt, habelə ayrı-ayrı şəhər

və rayonlarda mənzillə təmin olunur, qələbəni bəxş edən şəhidlərimizin ailə üzvlərinə, qazilərimizə yüksək diqqət və qayğı göstərilir.

Ölkəmiz üçün vacib olan məsələlərdən biri də gənclərimizi milli-mənəvi dəyərlərimizə bağlı yetişdirmək, habelə onların təhsil imkanlarıdır. Heydər Əliyev Fondu tərəfindən başladılmış "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində, eləcə də bu sahəyə ayrılmış dövlət büdcəsi hesabına müasir təhsil ocaqlarının qurulması uğurla davam edir. Gənclərimizin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində dövlət hesabına təhsil alması, onlara təqaüdlərin verilməsi gənc nəslin müasir biliklərə yiyələnməsinə xüsusi önəm verəcəkdir.

Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında hazırlanmış layihəni olduqca yüksək qiymətləndirirəm, lehinə səs verirəm.

**Arzu Nağıyev.** 2024-cü ilin dövlət büdcəsi peşəkarcasına hazırlanıb və onu müsbət qiymətləndirirəm. Eyni zamanda, hörmətli xanım sədrə təşəkkür edirəm ki, komitələrdə müvafiq nazirliklərin rəhbərləri və əməkdaşları ilə birlikdə müzakirələrə şərait yaratdı və hər bir deputat öz fikrini bildirdi. Məlumdur ki, büdcə, əsasən, üç istiqamətdə hazırlanıb:

1. Təhlükəsizlik məsələləri.
2. Qarabağa qayıdış.
3. Sosial məsələlərin həlli.

Əsas məqsəd də insanların rifahıdır. Məhz buna görə də layihəyə müsbət səs verəcəm.

Bununla yanaşı, Tovuz və Gədəbəylə bağlı bir sıra məsələləri də hökumət nümayəndələrinə çatdırmaq istəyirəm. İlk növbədə "Azəravtoyol"un rəhbərliyinə və yerli strukturlarına, rayon icra hakimiyyətlərinə ərazimizdə gördük-

ləri işlərə görə təşəkkür edirəm. Daxili yolların çəkilişində isə maliyyə çatışmazlığından problemlər var. Xahiş edirəm, bu məsələdə yardımçı olasınız və maliyyə dəstəyi göstərəsiniz, vəsait ayrılması məsələsinə baxasınız.

Digər vacib məsələ rayonların ərazisində istismar vaxtı çoxdan ötmüş, yararsız hala düşmüş körpülərlə bağlıdır. Əsasən, dağ kəndlərində olan körpülər. Tovuz rayonunda Tovuz çayı üzərində olan Köhnə körpü deyilən yerdə körpü, ümumiyyətlə, dağılıb. Bunun yenidən qurulması, digərlərinin bərpası üçün vəsaitin olmaması böyük problemdir. Çatax–Lazılar–Novo Saratovka avtomobil yolunun tikintisi əvvəllər də tərəfimdən qaldırılıb və investisiya proqramına salınıb, lakin tikintisinə başlanılmayıb və iş getmir. Bu məsələyə diqqət yetirməyinizi xahiş edirəm.

Tovuzda və Gədəbəydə uşaq bağçalarının, yararsız hala düşmüş məktəblərin yenidən tikilməsinə və ya ciddi təmirinə vəsaitlərin ayrılması mühüm məsələdir.

Kənd təsərrüfatının inkişafı  və eyni zamanda, iş yerlərinin açılması üçün hər iki rayonda emal müəssisələrinin açılmasına böyük ehtiyac var. Bu məsələdə bizi dəstəkləmək vacibdir.

Problemli məsələlərdən biri də sığorta olunmayan evlər, obyektlər və ya mənzillərdir. Təbii  fəlakət və ya digər hadisələr baş verdikdə sahibləri məhz sığortası olmadığı üçün müxtəlif instansiyalara müraciət edirlər. Ancaq vəsaitlərin ayrılması mümkün olmur. Bu işdə də bizə yardımçı olmağınızı xahiş edirik.

İçməli su problemi bir sıra kəndlərdə qabarıq şəkildə özünü göstərir. Tovuzun Dondar Quşçu kəndinin içməli su ilə bağlı probleminin aradan qaldırılmasına vəsaitin ayrılması ən yaxın vaxtlarda həllini tapsa, çox yaxşı olardı.

Elektrik dirək və naqillərinin, transformatorların yeniləşdirilməsi məsələsi həll edilir, lakin bir çox kəndlərdə problemlər qalmaqdadır. Misal olaraq, Tovuzun Alakol, Məşədilər və digər kəndlərini qeyd edərdim.

Qazlaşdırma məsələsi mərhələli şəkildə davam etdirilir və tövsiyəmizi nəzərə alaraq, bu il Kirən inzibati ərazi dairəsinə daxil olan 5 kənd və bir sıra digər kəndlər investisiya proqramına salınıb, buna görə də təşəkkür edirəm. Lakin qazlaşma məsələsi, ümumilikdə, problem olaraq qalmaqdadır. Bu məsələnin həlli meşələrin də qırılmasının qarşısını alır.

İnternet problemi hələ də qalmaqdadır, bir sıra şirkətlər bu istiqamətdə işlər görsələr də, keyfiyyət çox aşağıdır. Bir sözlə, görüləsi işlər də çoxdur.

Zəfər büdcəmizin layihəsinə mən də müsbət səs verəcəm, eyni zamanda, onun yerinə yetirilməsində də hökumət üzvlərinə və aidiyyəti qurumlara uğurlar arzulayıram!

**Cəbi Quliyev.** 2023-cü il ölkəmiz üçün tarixi nailiyyətlərlə dolu bir il oldu. Ötən il dövlət başçısının müvafiq sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə ölkəmiz üçün uğurlarla dolu bir il olacağının siqnalı verilmişdir. Suveren ərazimizin 30 ildən sonra tam bərpa edilməsi, ölkəmizin beynəlxalq arenada uğurlar qazanması, iqtisadi-siyasi sabitliyin tam təmin olunması ölkəmiz üçün qarşıdakı uğurların da göstəricisidir.

Bu il Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası üçün də uğurlu illərdən olmuşdur. Bütün uğurların təməlində Naxçıvan əhalisinin böyük sevinclə qarşıladığı, bu ilin əvvəlində ölkə başçısının "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamı daya-

nır. Sərəncam Naxçıvan Muxtar Respublikasının bütün mövcud imkanlarından istifadə etməklə sosial-iqtisadi inkişafa, iqtisadi və sənaye potensialının artırılmasına, ixracyönümlü iqtisadiyyatın yaranmasına və bütün bunların nəticəsində bu bölgədə yaşayan əhalinin sosial rifahının daha da yaxşılaşdırılmasına xidmət edəcək. Naxçıvan Muxtar Respublikasına göstərmiş olduğu bu xüsusi diqqət və qayğıya görə cənab Prezidentə muxtar respublika ictimaiyyəti adından dərin minnətdarlığımı bildirirəm.

Fürsətdən istifadə edib, büdcə layihəsi ilə əlaqədar təmsil etdiyim Ordubad və Culfa rayonu ərazisində olan bir sıra məsələləri diqqətinizə çatdırmaq istəyirəm. Bildiyiniz kimi, Ordubad rayonu özünəməxsus ənənələrini, tarixi quruluşunu qoruyub saxlayan bölgələrimizdəndir. Ordubadın ən məşhur tarixi abidələri sırasında, demək olar ki, bütün kəndlərin mərkəzində hələ də əzəmətlə duran tarixi hamamlar dayanır. Əfsuslar olsun, indi bəzi kəndlərimizdəki həmin tarixi abidələr baxımsızlıqdan dağılmaq üzrədir. Ordubad rayonunun Düylün, Vənənd, Nüsnüs, Əylis və adlarını saya biləcəyim daha bir çox kəndində təcili olaraq o abidələrin nəzarətə götürülməsinə, bərpa işlərinin aparılmasına ehtiyac var. Mümkün olarsa, Mədəniyyət Nazirliyinin bu məsələyə diqqət ayırması oradakı abidələrin gələcək nəsillərə çatdırılması işinə mühüm töhfə verər.

Digər bir məsələ Ordubad və Culfa rayonlarının bəzi kəndləri arasında yol infrastrukturunun yaxşılaşdırılması ilə bağlıdır. Artıq dəfələrcə seçicilərim tərəfindən qaldırılan məsələlərin başında Culfa rayonunun Dizə–Gal–Şurud kəndləri arasında və Ordubad rayonunun Biləv–Tivi–Bist–Nəsirvaz kəndləri arasında olan yolların düzəldilməsi məsələsi dayanır. Həmin kəndlərdə yaşayan əhalimizin xüsusi ilə qış və payız aylarında yol məsələsinə görə ciddi

əziyyət çəkməsinin şahidi oluruq. Bu problemin aradan qaldırılması həmin kəndlərdə yaşayanların həyat şəraitinin yaxşılaşdırılmasına, iqtisadi fəal əhalinin gəlirlərinin artmasına birbaşa təsir edəcəkdir. Mümkün olarsa, gələcəkdə bu məsələnin həll edilməsi üçün büdcədən müvafiq dəstək göstərilsin.

Digər bir məsələ tələbə gənclərimizin çox əziyyət çəkdiyi yataqxana problemi ilə bağlıdır. Ötən illərdə də bu məsələ ilə bağlı fikirlərimizi hökumətin diqqətinə çatdırmışdım. Bu məsələnin həlli tələbə gənclərimizin sosial qayğılarının ciddi mənada azaldılmasına gətirib çıxaracaq. Əgər dövlət büdcəsindən bu məsələ üçün vəsait ayrıla bilmirsə, biz özəl sahibkarlar üçün müxtəlif güzəştlər etməklə bu sahənin inkişafına və tələbə gənclərimizin mənzil şəraitinin yaxşılaşdırılmasına köməklik göstərə bilərik.

Ümumilikdə, 2024-cü il dövlət büdcəsi zərfinə daxil olan sənədlərlə tanış olmuşam. Hər il olduğu kimi, bu il də büdcəmizi sosial büdcə adlandıra bilərik. Sosial xərclərə ayrılan vəsaitin çoxluğu vətəndaşlarımızın sosial rifahının yaxşılaşdırılmasına ünvanlanmışdır.

Sonda, büdcə zərfinin hazırlanmasında iştirak edən bütün dövlət qurumlarına təşəkkür edirəm və büdcə zərfinin lehinə səs verəcəyəm.

**Hicran Hüseynova.** Biz artıq 3 ildir ki, qalib dövlətin büdcə layihəsini müzakirə edirik. Gələn ilin dövlət büdcəsi ölkə həyatında yaranan yeni reallıq və çağırışlara uyğun olaraq hazırlanıb. Hörmətli xanım sədr, minnətdaram ki, Sizin dəstəyiniz ilə Milli Məclisin komitələri ilə dövlət qurumlarının birgə iclasları keçirildi, ətraflı müzakirələr aparıldı. Eyni zamanda, Nazirlər Kabinetinə, dövlət qurumlarının rəhbərlərinə təşəkkür edirəm ki, bizim təklif və suallarımızı diqqətlə dinlədilər, rəy bildirdilər. Məlum-

dur ki, dövlətimiz, bizim hər birimiz üçün işğaldan azad olunmuş ərazilərimizin bərpası, dövlətimizin müdafiəsi və təhlükəsizliyi prioritet məsələdir. Bununla yanaşı, sosial müdafiəyə, daimi qayğıya ehtiyacı olan insanlarımızın, ailələrimizin rifah halı da yaxşılaşdırılmalıdır. Dövlət başçısı İlham Əliyev aztəminatlı və həssas təbəqədən olan insanların sosial müdafiəsinin gücləndirilməsi məsələsini daim diqqətdə saxlayır. 2024-cü ilin dövlət büdcəsinin layihəsində bütün bu istiqamətlər öz əksini tapmışdır. Burada biz dövlət nümayəndələrinin çıxışlarını dinlədik. Bu çıxışlar bizə real olaraq gələcək perspektivləri, strateji planları təsvir etməyə imkan verir. Mən fürsətdən istifadə edib, bir daha büdcə layihəsini hazırlayan Nazirlər Kabinetinə və bütün dövlət qurumlarına təşəkkür edirəm.

Mən həm 41 saylı Sumqayıt 1-ci seçki dairəsi ərazisi üzrə, həm də Ailə, qadın və uşaq məsələləri komitəsi üzrə əsas təkliflərimi birgə iclaslarda səsləndirmişəm. İnanıram ki, bizim qaldırdığımız məsələlər öz real həllini tapacaqdır. Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində mürəkkəb geosiyasi proseslər fonunda ölkənin iqtisadiyyatı inkişaf etmişdir. Bu, büdcədə də öz əksini tapır. Bir çox sahələrdə, o cümlədən ailə, qadın və uşaq məsələləri ilə bağlı büdcədə artım var. Bu isə ailələrin qorunmasına, qadın və uşaqların hüquqlarının müdafiəsinə öz müsbət təsirini göstərir. Biz görürük ki, gələn ilin dövlət büdcəsi sosial yönümlüdür. Ümid edirəm ki, iqtisadi imkanlar çoxaldıqca, sosial sahəyə ayrılan xərclər yenidən nəzərdən keçiriləcəkdir. Eyni zamanda, fürsətdən istifadə edib, bir neçə məsələni diqqətinizə çatdırmaq istərdim:

1. Qazilərin əlilliyinin düzgün qiymətləndirilməsi məsələsi ilə bağlı çox müraciətlər olur. İnsan ciddi travma alıb, bunu hətta əyani şəkildə görmək mümkündür. Bəzi

hallarda əlilliyi təyin edən müvafiq komissiyaların rəyi obyektiv olmur. Bu isə ciddi problemlər yaradır. Həmin insanlara xüsusi, həssas yanaşma olmalıdır.

2. Vətən müharibəsi 3 il bundan əvvəl bitsə də, hələ də müharibə iştirakçılarının psixoloji reabilitasiyaya ehtiyacı var. Onların böyük hissəsi travmasonrası stress pozuntusu halı yaşayır. Bu isə tək insanın sağlamlığına deyil, həm də onun ailə üzvlərinə, ailə mühitinə mənfi təsir edir. Məlumdur ki, müvafiq dövlət qurumları bu işlə məşğul olurlar. Lakin müharibə iştirakçıları, şəhid ailələri, qazilərin bir çoxu bu xidmətdən kənarda qalıb. Bu insanların siyahısı var, onlara yerində xidmət göstərilməlidir.

3. Küçə uşaqları üçün sığınacaqların yaradılması ilə bağlı. Biz bu məsələni dəfələrlə səsləndirmişik. Bu uşaqların yerləşdirilməsi, onlara xidmətlərin göstərilməsi vacibdir. Məlumdur ki, ayrı-ayrı dövlət orqanları bununla məşğul olur. Lakin bu məsələdə kompleks yanaşma prinsipi tətbiq edilməlidir. Bölgələrdə bu sığınacaqlara və xidmətlərə daha çox ehtiyac var. Belə xidmətlər əlçatan olmalıdır.

4. Sonda, seçildiyim 41 saylı Sumqayıt 1-ci seçki dairəsi ərazisində bəzi infrastruktur layihələri ilə bağlı fikir bildirmək istəyirəm. Corat qəsəbəsində kanalizasiya sisteminin çəkilməsinə, uşaqlar üçün oyun meydançasına, piyadalar üçün yolun salınmasına ehtiyac vardır. Eyni zamanda, qəsəbədə gənclərin asudə vaxtının təşkil olunması və insanların mədəni-kütləvi tədbirlər keçirməsi üçün uyğun məkanları yoxdur. Bir Mədəniyyət evi var, o da çox bərbad vəziyyətdədir. Binanın əsaslı təmirə ehtiyacı vardır. Növbəti ilin büdcə xərclərində bu məsələlərin nəzərə alınmasını xahiş edirəm.

Bütövlükdə, mən də büdcəni əhatəli hazırlanmış sənəd

hesab edirəm, ona səs verəcəyəm.

Digər təkliflərim:

1. Sığınacaq və uşaq və ailələrə dəstək mərkəzlərinin sayının artırılması ilə bağlı.

Biz hər zaman məişət zorakılığına, insan alverinə, erkən nikaha məruz qalmış şəxslər, küçə uşaqları, sağlamlıq imkanları məhdud olan və xüsusi qayğıya ehtiyacı olan uşaqlar və onların ailələri ilə sosial, psixoloji və psixo-pedaqoji işin təşkili məsələsini önə çəkirik. Müxtəlif dövlət qurumlarının tabeliyində sosial xidmət müəssisələri, Bakı şəhəri və 12 rayon üzrə uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınması və çətin həyat şəraitində olan uşaqların və ailələrin sosial xidmətlərə çıxışının təmin edilməsi məqsədi ilə günərzi mərkəzləri, 11 uşaq və ailələrə dəstək mərkəzi, eyni zamanda, zorakılığa məruz qalan şəxslər üçün dövlət sığınacağı və akkreditasiya edilmiş qeyri-dövlət yardım mərkəzi var. Onların sayı ildən-ilə artır. Lakin hər bir rayonda bu mərkəzlərə ehtiyac vardır. Bu, həm qadınlar, həm uşaqlar, həm də kişilər üçün həmin xidmətlərin daha əlçatan olması, xidmətlərin daha tez və vaxtında göstərilməsi üçün vacibdir.

2. Səfirliklərin, konsulluqların və daimi nümayəndəliklərin təhlükəsizliyinin qorunması ilə bağlı.

Bizim ədalətli qələbəmizə sevinən qüvvələrlə yanaşı, bizə qarşı olan, daim təhlükə yaradan qüvvələr də var. Son zamanlar müxtəlif ölkələrdə bizim diplomatik nümayəndəliklərimizə edilən hücumlar da bunun əyani təsdiqidir. Bu baxımdan da fəaliyyətdə olan səfirlik, konsulluq və nümayəndəliklərimizin təhlükəsizliyi məsələsi aktuallaşır. Ona görə də gələn ilin büdcə xərcləri sırasında bu məsələnin öz əksini tapması məqsədəmüvafiq olardı.

3. Məktəb və digər təhsil müəssisələrində psixoloq və sosial işçilərin ştat vahidinin artırılması ilə bağlı.

Ailədaxili və sosial mühitdə baş verən hadisələr uşaq və yeniyetmələrin davranışına və psixoloji vəziyyətinə neqativ təsir göstərir. Tez-tez xəbər saytlarında itkin düşən, intihar edən, məktəblərdə bulinqə məruz qalan uşaqlar haqqında məlumatlar verilir. Bu mənada məktəblərdə psixoloji xidmətin göstərilməsi, eyni zamanda, Elm və Təhsil Nazirliyi tərəfindən həyata keçirilən müxtəlif layihələri, ailə və uşaqlara dəstək mərkəzlərinin müsbət valideynlik bacarıqlarının öyrədilməsi ilə bağlı tədbirlərini müsbət qiymətləndirmək olar. Lakin bununla yanaşı, təcrübə də göstərir ki, məktəblərdə psixoloq və sosial işçilərin sayı şagird və tələbələrin sayı ilə nisbətdə çox azdır. Bu isə göstərilən psixoloji xidmətin keyfiyyətinə təsir edir. Buna görə də məktəb və digər təhsil müəssisələrində psixoloq və sosial işçilərin ştat vahidinin artırılmasına ehtiyac vardır. Eyni zamanda, ailə psixoloqu ixtisası üzrə mütəxəssislərin yetişdirilməsi də vacib məsələdir.

4. Aliment fondunun yaradılması ilə bağlı.

Aliment fondunun yaradılması uşaqları müdafiə etməklə yanaşı, dövlətin iqtisadi yükünü azaldır. Belə ki, aliment fondu pensiya fondu kimi təşkil oluna bilər. Fond alimentin vaxtında və tam ödənilməsinə zəmanət verir və vergi orqanları aliment idarəçisindən bu fonda gəliri tutmaq hüququ və öhdəliyi alır; fondun xərcləri gəlirləri üstələdikdə dövlət büdcəsi kəsiri maliyyələşdirməli olacaq. Aliment fondunun formalaşma mənbəyi dövlət büdcəsindən əlavə ödənilməsi vaxtı keçmiş alimenti ödəməyən şəxslərdən günlərə görə alınan cərimələr ola bilər. Bundan əlavə, aliment ödəməkdən yayınan şəxslərin reyestrinin yaradılması təklif edilir. Belə bir reyestrə daxil edilməsi o

demək olacaq ki, davamlı borcunu yerinə yetirməyən şəxsə qarşı gücləndirilmiş tədbirlər görüləcəkdir. Bu, büdcənin yükünü azaldacaq və əlavə gəlir əldə etməsinə səbəb olacaqdır. Aliment fondu ancaq problemli alimentləri əhatə edəcəkdir, bu təsisat işlək mexanizmdir. Uşaqlar valideynlərinin ayrılığının nəticələrini daşımamalı və onların rifahı üçün lazım olan maliyyə vəsaitlərini almalıdırlar. Aliment fondu uşaqların ehtiyaclarının ödənilməsini, aliment öhdəliklərinin icrası mexanizmini təmin edə bilər. Bu fond boşanmış və ya ayrılmış şəxslərin ümumi rifahına töhfə verəcək, gender bərabərliyini təşviq edəcək, yoxsulluq risklərini azaldacaq və uşaq dəstəyinə zəmanət verəcəkdir. Azərbaycan həm də "Uşaqlara görə alimentin tutulması və ailənin saxlanılmasının digər formalarının beynəlxalq qaydası haqqında" Konvensiyanı da təsdiq edib. Bildiyiniz kimi, ölkəmizdə uşaq hüquqlarının müdafiəsi sahəsində güclü qanunvericilik bazası var və qanunvericiliyimiz zamanın tələbinə uyğun olaraq təkmilləşir və inkişaf edir. Düşünürəm ki, bu istiqamətdə də səsləndirilən təkliflər dəyərləndiriləcəkdir.

5.Atalıq məzuniyyətinin ödənişli olması ilə bağlı.

Qanunvericilikdə uşağın dünyaya gəlməsi ilə bağlı atalara 14 təqvim günü müddətinə ödənişsiz məzuniyyət hüququ verilir. Lakin biz görürük ki, təcrübədə heç bir ata bu hüquqdan istifadə etmir. Çünki ödənişsiz məzuniyyət ailə büdcəsinə əlavə təzyiq yaradır. Ata yalnız ailənin, uşağın maddi ehtiyaclarını deyil, həm də mənəvi, psixoloji, sosial, mədəni ehtiyaclarını qarşılamalıdır. Təcrübə göstərir ki, belə bir məzuniyyətin tətbiqi və ataların uşağın qayğısında, təlim-tərbiyəsində iştirakına maneə yaradan gender stereotiplərinin aradan qaldırılması həm ailədaxili münasibətlərə, həm də uşağın şəxsiyyət kimi for-

malaşmasına müsbət təsir göstərir. Son 20 ildə dünyada atalıq məzuniyyətinin tətbiqi 21 faizdən 52 faizə yüksəlmişdir. Buna görə də qanunvericilikdə atalıq məzuniyyətinin ödənişli olması ilə bağlı dəyişikliyin edilməsinə ehtiyac vardır.

**İqbal Məmmədov.** Milli Məclisin müzakirəsinə təqdim olunmuş büdcə zərfinin təhlili onu deməyə əsas verir ki, bu layihə “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hazırlanmışdır və Azərbaycan dövlətinin inkişafını, milli təhlükəsizliyini, onun iqtisadi qüdrətinin daha da möhkəmləndirilməsini, əhalinin rifahının yaxşılaşdırılmasını nəzərdə tutan dövlət siyasətinin həyata keçirilməsinin maliyyə təminatını əhatə edir.

Hökumət və onun müvafiq strukturları ölkənin ali iqtisadi maliyyə sənədi hesab edilən dövlət büdcəsinin layihəsini hazırlayarkən dövlət başçısı İlham Əliyevin Azərbaycan iqtisadiyyatının dinamik inkişafı, ölkənin milli maraqlarının qorunması ilə bağlı tövsiyə və tapşırıqlarını əsas götürmüşlər.

Məlumdur ki, dövlət büdcəsi təkcə dövlətin əsas maliyyə sənədi deyil, o, həm də iqtisadi, hərbi, təhsil, sosial təminat və digər sahələrin idarə olunması və inkişafını təmin edən strateji, hüquqi sənəddir. Hər bir dövlət tərəfindən konkret ideya, proqram və layihələrin icrası və gerçəkləşməsi büdcə vasitəsi ilə təmin edilir. Dövlət büdcəsinin xərc hissəsinə baxdıqda görürük ki, Azərbaycan dövləti yenə əvvəlki ənənəsinə sadiq qalaraq ölkədə sosial müdafiənin gücləndirilməsi, sərhədlərimizdə davamlı təhlükəsizlik və sülhün təmin edilməsi, səhiyyə və təhsil sahəsində aparılan islahatların dəstəklənməsi üçün kifayət qədər maliyyə vəsaitləri ayırmışdır.

2024-cü ilin dövlət büdcəsinin parametrləri, habelə

antiinflyasiya tədbirləri nəzərə alınmaqla hazırlanmış, ölkənin cari il üzrə makroiqtisadi proqnozlarına görə, müsbət istiqamətdə dinamika gözlənilməkdədir. Bütün bunlar göstərir ki, ölkəmizin iqtisadiyyatı inkişaf etməyə davam edir. Bu isə ölkəmizin gələcəyinə böyük ümidlərlə baxmağa, tezliklə məcburi köçkünlərimizin işğaldan azad olunmuş və yenidən müasir şəkildə bərpa olunmuş doğma yurdlarına qayıdacaqlarına əminliyimizi daha da artırır.

Müzakirə etdiyimiz dövlət büdcəsi 2024-cü ildə ölkəmizin sosial-iqtisadi inkişafını təmin etməklə yanaşı, gələcək illərdə də iqtisadiyyatımızın inkişaf dinamikasının qorunub saxlanmasına imkan verəcəkdir.

Büdcə zərfi haqqında hörmətli komitə sədrimiz, hökumət üzvləri kifayət qədər geniş məlumat verdilər. Mən də həmkarlarımın fikirlərinə qoşularaq 2024-cü ilin büdcə zərfində Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun işğaldan azad etdiyi ərazilərin bərpasına, Qarabağın, Şərqi Zəngəzurun yenidən qurulmasına və hərbi gücümüzün artırılmasına böyük maliyyə vəsaitinin yönəldilməsini alqışlayıram və təqdirəlayiq hal kimi qiymətləndirirəm. Büdcə layihəsinə də səs verəcəyəm.

Fürsətdən istifadə edib, hökumət üzvlərindən Lerik rayonunun Piran kəndinin ortasından keçən çayda hər il mütəmadi olaraq payız-yaz aylarında sel təhlükəsi yaradaraq, yaşayış məntəqələrinə və əhaliyə ziyan vuran çayda bir kilometr uzunluğunda sahil mühafizə beton bəndinin tikilməsi üçün gələcəkdə büdcədən vəsait ayrılmasını xahiş edirəm.

**İltizam Yusifov.** Dayanıqlı və davamlı inkişafını Qarabağ Zəfəri ilə möhkəmləndirən Azərbaycan ÜDM istehsalının artımı və dövlət büdcəsinin böyüməsi tendensiyasını illərdir ki, davam etdirir. 2024-cü il üçün dövlət büdcəsi

də bu baxımdan istisna deyil və müstəqillik tariximizin ən böyük həcmli büdcəsidir.

Büdcə layihəsində bütün sahələr üzrə artım, dövlət proqramları, əhalinin sosial rifahının yüksəldilməsinə yönəlmiş tədbirlərin, azad olmuş torpaqlarda bərpa-quruculuq işlərinin maliyyələşdirilməsinin davam etdirilməsi nəzərdə tutulur.

Dünyadakı mövcud geosiyasi şəraitdə ölkənin təhlükəsizliyi və müdafiə qabiliyyətinin yüksəldilməsinə yönəlik xərclərin artırılması isə Azərbaycan xalqının, Azərbaycan dövlətinin dinc quruculuq şəraitində yaşaması və inkişafını təmin edəcək tədbirlərdir.

Dövlət budcəsində əksini tapan xərclər, əsasən də kapital xərcləri uzunmüddətli inkişafı təmin edəcək işlərin məcmusu əsasında müəyyənləşdirilir. Bu baxımdan ölkəmizin inkişafı və onun beynəlxalq arenada rolunun artmasını şərtləndirən sahələrin inkişaf etdirilməsi olduqca vacibdir. Bu sahələr içərisində nəqliyyat sektorunun inkişafı, nəqliyyat infrastrukturunun yenilənməsi daha böyük əhəmiyyət kəsb edir. Bu sahədə artıq böyük işlər görülür. Lakin hesab edirəm ki, artıq müasir dünyada olduğu kimi, bizdə də nəqliyyatda da əsas yeri dəmir yolu tutmalıdır. Ona görə də mən hökumətin diqqətini bu məqama cəlb etmək istəyirəm. Hesab edirəm ki, dəmir yolu ilə ölkədaxili yükdaşımanın və ölkədaxili müntəzəm sərnişin daşımanın həcminin kəskin artırılması olduqca vacibdir. Bu, bir neçə aspektdə əhəmiyyətlidir.

Birinci, belə ki, dəmir yolu ilə ölkə daxilində yükdaşıma büdcə hesabına qurulan yol infrastrukturunun dağıdılmasının qarşısının alınmasına, yollarda təhlükəsizliyə, insan həyatının qorunmasına və ən əsası ekoloji baxımdan atmosfer havasının çirklənməsinin qarşısının alın-

masına xidmət edə bilər.

İkinci, dəmir yolu ilə sərnişin daşıma isə Bakıda tıxacların qarşısının alınmasını, iş üçün gündəlik Bakıya gedən insanların və ən əsası tələbələrin rayonlardan Bakıya asanlıqla gediş-gəlişini təmin edə bilər və tələbələrin kirayələrdən canı qurtarar. Burada deyildi ki, sürət qatarı Ağstafaya, Tovuza gedir. Mən hesab edirəm ki, biz artıq sürət qatarını Şirvan istiqamətində açmalı və sonradan Sabirabad, Saatlı, İmişli və Şərqi Zəngəzur istiqamətində genişləndirməliyik.

Digər bir məsələ təhsillə bağlıdır. Gələn il təhsil xərcləri cari ilə nisbətən 3,2 faiz çoxdur. Bundan əlavə, məktəbəqədər təhsil müəssisələrində 105 min nəfərdən çox uşağın sağlam qidalanmasını təmin etmək üçün nəzərdə tutulan xərclər cari ilə nisbətən 4,1 faiz artırılaraq 128,4 milyon manata çatdırılmışdır. Bu, çox təqdirəlayiq haldır. Lakin bu yaxınlarda cəmiyyətimizdə böyük müzakirələrə səbəb olan bir hadisənin şahidi olduq. Məktəblilərin dönərdən kütləvi zəhərlənməsi baş verdi. Hesab edirəm ki, biz artıq məktəblərdə qidalanmanı birbaşa dövlət nəzarətinə götürməliyik. Belə ki, kiçik yaşlı, o cümlədən imkansız ailələrin uşaqları mütləq dövlət hesabına isti yeməklə təmin olunmalıdırlar. Bunu icbari tibbi sığorta kimi, pilot layihə formatında bir neçə rayon və şəhərdə başlayıb, bir neçə ilə ölkənin bütün məktəblərində tətbiq etmək olar.

Sonda, təmsil etdiyim Şirvan şəhəri ilə bağlı bir neçə məsələyə də təkrar olaraq toxunmaq istəyirəm. Şəhərin ən əsas problemi işsizliklə bağlıdır. Böyük kadr potensialı var, çünki sənaye şəhəridir. Bakı şəhərinə çox yaxındır. Enerji mənbələri, əlverişli logistika və ölkə sənayesinin inkişafı üçün geniş imkanlar var. Şirvan şəhər olduğu üçün insanların pay torpağı yoxdur. Xahiş edirəm, höku-

mət bunu nəzərə alsın.

Əsas problemlərdən biri ictimai nəqliyyatın yox səviyyəsində olmasıdır. Heç bir standarta, müasir tələblərə uyğun olmayan bir nəqliyyat sistemi fəaliyyət göstərir. Yaxın vaxtlarda nəqliyyat sahəsində qanunvericilik bazasını təkmilləşdirdik və hesab edirəm ki, bu sahədə qayda-qanun yaratmağın vaxtıdır. Xahiş edirəm, müvafiq qurumlar bu problemi nəzarətə götürüb həll etsinlər.

Təhsillə bağlı aidiyyəti qurumlara deyirəm, Şirvan şəhərinə köçürün universitetləri, Bakının yükünü yüngülləşdirin. Şirvan müasir şəhərdir, o cümlədən müasir tipli peşə təhsili mərkəzinin açılmasına da böyük ehtiyac vardır.

Şirvan şəhərinin mərkəzi idman meydançası təmirə saxlanılıb, 80 faiz iş görülüb, lakin 15 ildir işlər dayandırılıb. 15 ildir bu işlər tamamlanmır ki, tamamlanmır. Əvəzində görülən işlər də dağılıb gedir. Bir neçə dəfə aidiyyəti qurumların nümayəndələri gəlib baxıb gediblər. İnsanlar artıq futbol komandası da yaradıblar, amma meydança hələ də yoxdur.

Mən aidiyyəti qurumlardan xahiş edirəm ki, bu məsələləri imkan daxilində nəzərə alsınlar.

Ümumilikdə, büdcə layihəsini məqbul hesab edirəm, lehinə səs verəcəm və deputat həmkarlarımı da buna dəvət edirəm.

**Kamaləddin Qafarov.** Son aylarını yaşadığımız 2023-cü il ölkəmizin və xalqımızın həyatında uzun illər, əsrlər boyu unudulmayacaq çox önəmli və möhtəşəm hadisələrlə əlamətdar, yaddaqalan olmuşdur. Azərbaycan son illər iqtisadi və siyasi sahələrdə sıraladığı qələbələrini inam və uğurla davam etdirərək, 2023-cü ildə də istər dinc quruculuq sahəsində, istərsə də ölkəmizin suverenlik və müstəqilliyinin bər-

pa olunması, ərazi bütövlüyünün tam şəkildə təmin olunması sahəsində tarixi uğurlara imza atmışdır.

Uzun illərdir işğal altında qalmış Qarabağın dilbər guşələri birdəfəlik düşmən tapdağından azad edilmiş, bu il oktyabrın 15-də isə əzəli və əbədi şəhərimiz olan Xankəndidə Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm hərbi parad keçirilmişdir.

Hərb meydanında bütün dünyanı heyrətə gətirən uğurlara imza atan Azərbaycan sosial-iqtisadi quruculuq və tərəqqi üzrə də Cənubi Qafqaz regionunun lider ölkəsinə çevrilmişdir. Ötən illər ərzində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən dinamik şəkildə həyata keçirilən iqtisadi siyasət xətti, respublikanın ümumi sosial-iqtisadi inkişaf strategiyası sayəsində ölkəmizdə makroiqtisadi sabitlik təmin edilmişdir. Azərbaycanın maliyyə dayanıqlığı xeyli möhkəmlənmiş, iqtisadi inkişaf sahəsində qarşıya qoyulmuş əsas məqsədlərə nail olmaq üçün əlverişli zəmin yaranmışdır. Bütün bu müsbət tendensiyaların dinamikası 2024-cü ilin dövlət büdcəsi layihəsində öz əksini aydın şəkildə tapmışdır. Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin gəlirləri 34,173 milyard manat, xərcləri 36,763 milyard manat məbləğində nəzərdə tutulur.

Cari ilin ötən 9 ayının iqtisadi təhlili aydın şəkildə göstərir ki, Azərbaycan iqtisadiyyatında yanvar-sentyabr aylarında əlverişli makroiqtisadi meyillər müşahidə olunub, qeyri-neft-qaz sahələri hesabına iqtisadi artım təmin edilib, inflyasiya tempində zəifləmə müşahidə olunub, tədiyyə balansında profisit izlənilib. Sözügedən müddət ərzində ölkədə ümumi daxili məhsul 0,8 faiz, qeyri-neft-qaz ümumi daxili məhsulu 3 faiz artıb, neft-qaz ümumi

daxili məhsulu isə 1,5 faiz azalıb. Bu dövrdə orta illik inflyasiyanın səviyyəsi 10,9 faiz olub. Müsbət haldır ki, ilin sonuna bu göstəricinin 9,5 faiz olacağı proqnozlaşdırılır.

Cari ilin 8 ayı ərzində strateji valyuta ehtiyatlarımız artaraq 67,5 milyard dollara çatıb. Dövlət Neft Fondunun vəsaitlərindən 6,5 milyard manat istifadə etmək proqnozlaşdırılsa da, bu məbləğin yalnız yarısından istifadə edilib. Büdcə xərcləri proqnozla müqayisədə 105,6 faiz icra edilib, 218 milyon manat kəsir qeydə alınıb.

Gələn il sosial yönümlü xərclərin cari ilə nisbətən 1 milyard 35 milyon manat və ya 7 faiz artım olmasının nəzərdə tutulması çox doğru təklifdir və mövcud reallığı tam şəkildə əks etdirir.

Dövlət büdcəsinin digər prioritetləri sırasında təhsil, işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri, müdafiə potensialının gücləndirilməsi və silahlı qüvvələrin maddi-texniki təminatı da vardır.

Gələn il səhiyyənin ehtiyacları üçün təxminən 1,9 milyard manat vəsaitin ayrılması əhalinin sağlamlığının qorunması istiqamətində ciddi addım kimi qiymətləndirilməlidir. Səhiyyə xərcləri çərçivəsində İcbari tibbi sığorta büdcədənkənar fonduna dövlət büdcəsindən köçürmənin 112 milyon manat artırılması da təqdirəlayiq hesab edilməldir.

Bildiyimiz kimi, 2023-cü il ölkəmizdə “Heydər Əliyev İli” elan edilmişdir. Biz müstəqil Azərbaycanın memarı olan Ulu Öndər Heydər Əliyevin 100 illiyini onun siyasətinə, tarixi irsinə böyük ehtiram göstərərək layiqincə qeyd edirik. Hər birimizin Ulu Öndərin xatirəsinə hörməti həm də əməli işlərimizlə ölçülür və hər birimiz öz işimizlə onun ideallarına xidmət etməliyik.

İşğaldan azad olunmuş ərazilərin bərpası və Böyük

Qayıdış planının təmin etdirilməsi də 2024-cü ilin dövlət büdcəsinin layihəsində əsas istiqamətlər kimi müəyyən edilib. Bu ərazilərə Böyük Qayıdışın təmin edilməsi üçün şəhər və kəndlərin yenidən qurulması və bərpası, həmin ərazilərdə müasir infrastrukturların yaradılması məqsədi ilə dövlət büdcəsindən 4 milyard manat vəsaitin nəzərdə tutulması bu regionun iqtisadi və sosial həyata reinteqrasiyasına mühüm töhfə verəcək.

Ölkənin ərzaq təhlükəsizliyinin etibarlı və dayanıqlı təminatı üçün büdcə resurslarının artırılması, aqrar sektorun stimullaşdırılması, kənd təsərrüfatının aparıcı sahələrinin inkişaf etdirilməsi məsələləri də 2024-cü ilin dövlət büdcəsində ciddi şəkildə nəzərə alınıb.

Yeni iş yerlərinin yaradılması, regionların daha intensiv inkişafı, təbii resurslardan səmərəli istifadə sahəsində əlavə tədbirlərin və istiqamətlərin müəyyənləşməsi və digər məsələlərin 2024-cü ilin dövlət büdcəsi layihəsində yer alması bu sənədi daha cəlbedici və irəliyə doğru atılmış çox ciddi bir addım kimi səciyyələndirir. Məhz bütün bu xüsusiyyətlərinə görə 2024-cü il dövlət büdcəsinin layihəsinin konstruktiv təkliflər və düzəlişlər nəzərə alınmaqla təsdiqinin tərəfdarıyam.

**Könül Nurullayeva.** Postmüharibə dövründə böyük vəsaitlərin xərclənməsinə baxmayaraq, bu gün müzakirə etdiyimiz büdcə bir daha dövlətimizin və ölkə iqtisadiyyatının dayanıqlı olduğunu göstərir. Belə ki, 2022-ci ilin əvvəlindən etibarən Rusiya ilə Ukrayna arasında hərbi münaqişənin başlaması ilə Avropa regionunda geosiyasi münasibətlərin gərginləşməsi qlobal iqtisadi mühitə zərər vurmuşdur. Lakin qlobal iqtisadiyyatın üzləşdiyi çətinliklərin təsirlərinə və Böyük Qayıdışın təmin edilməsi üçün sərf olunan resurslara baxmayaraq, 2024-cü il üzrə nəzərdə tutulan

büdcə layihəsi öz artım dinamikasını qorumağı bacarıb.

Bildiyimiz kimi, Azərbaycan vətəndaşlarının rifahının yüksəldilməsi, xüsusi ilə aztəminatlı insanların sosial müdafiəsinin gücləndirilməsi hər zaman ölkə Prezidenti cənab İlham Əliyevin siyasətinin prioritet istiqamətini təşkil etmişdir. Xüsusi olaraq vurğulamaq istərdim ki, 2024-cü ildə sosial yönümlü xərclər cari illə müqayisədə 7 faiz artırılaraq 15 milyard 773 milyon manata çatdırılır.

İndiki dövrdə təhsilə diqqət məsələsi günün əsas tələbləri səviyyəsindədir.Təqdim olunan layihədə növbəti il üzrə təhsil xərcləri 4 milyard 550 milyon manat proqnozlaşdırılmışdır ki, bu da 2023-cü illə müqayisədə 3,2 faiz çoxdur. Tələbə kreditlərinin verilməsi üçün növbəti ilin dövlət büdcəsindən 8 milyon manat vəsaitin ayrılması əhalinin aztəminatlı təbəqəsinin ali təhsilə əlçatanlığının daha da artırılması və ali təhsilin əhatə dairəsini genişləndirməsində mühüm rol oynayacaq. Lakin bu gün gənc tələbələrin üzləşdiyi ən böyük problem onların mənzil şəraitinin, yataqxana probleminin həlli ilə bağlı məsələdir. Bu gün ölkədə yataqxana təsərrüfatının, demək olar ki, heç bir mövcud standartı yoxdur. Düşünürəm ki, bu məsələni həll etmək, minlərcə tələbə gəncimizin yaşayış şəraitini yaxşılaşdırmaq, onların elm və təhsilə bağlılığını gücləndirmək üçün dövlət büdcəsindən bu istiqamətdə hər hansı bir formada vəsaitin ayrılması nəzərdə tutulmalıdır.

2024-cü ilin dövlət büdcəsinin layihəsində sosial müdafiə və sosial təminat xərcləri üçün 4 milyard 542 milyon manat proqnozlaşdırılmışdır ki, bu da 2023-cü illə müqayisədə 226,3 milyon manat və ya 5,2 faiz, 2022-ci ilin icra göstəriciləri ilə müqayisədə isə 1 milyard 77 milyon manat və ya 31,1 faiz çoxdur.

Büdcədə idman və gənclər sahəsinə nəzər yetirsək, 2024-cü il üçün verilən proqnoz 58,5 milyon manat təşkil edir. Bu da dövlətin idman və gənclər sahəsinə xüsusi önəm verməsindən irəli gəlir. Həmçinin hesab edirəm ki, gənclərin məşğulluğunun təminatına yönələn uzunmüddətli proqram və tədbirlərin hazırlanması, icra olunması, xüsusi ilə də regionlarda belə proqramların tətbiqi üçün büdcədən müəyyən maliyyə vəsaitlərinin ayrılması əhalinin rifahının yaxşılaşdırılmasında mühüm rol oynayar.

Əsas önəmli məsələlərdən biri də prioritet sahələrə ayrılan büdcə vəsaitlərinin düzgün, səmərəli və qənaətlə istifadə olunmasının yoxlanılması, büdcə vəsaitlərinin istifadə edilməsi üzrə maliyyə nəzarəti mexanizminin yaradılması və tətbiqidir. Yalnız bu zaman büdcə layihəsi ölkəmizin qarşısında duran bütün vəzifələrin öhdəsindən gəlməyi bacarar.

Mən həmçinin fürsətdən istifadə edərək, həllini vacib hesab etdiyim sosial-iqtisadi məsələlərə də toxunmaq istəyirəm. Keşlə qəsəbəsində yaşayan sakinləri narahat edən, uzun illər müxtəlif səbəblərdən həll edilməmiş əsas problemlərdən biri Keşlə qəsəbəsindən keçən Babək prospekti ilə H.Əliyev prospektini birləşdirən M.Ə.Sabir küçəsinin yenidən qurulması və genişləndirilməsidir.

Aidiyyətı dövlət qurumlarına etdiyim müraciətlər araşdırılaraq, qeyd olunan küçənin yenidən qurulması məqsədəmüvafiq hesab edilmiş və bu haqda İqtisadiyyat Nazirliyinə rəsmi cavablar verilmişdir. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Keşlə qəsəbəsi M.Ə.Sabir küçəsinin  yenidən qurulması və genişləndirilməsi işləri üçün böyük məbləğdə maliyyə vəsaitinin tələb olunacağını nəzərə alaraq, dövlət vəsaitindən səmərəli və qənaətlə istifadənin vacibliyi baxımından mövcud problemin həlli məsə-

ləsini Bakı Nəqliyyat Agentliyi və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təklifləri əsas götürülməklə məqsədəmüvafiq hesab etmişdir.

Keşlə qəsəbəsinin problemlərindən biri də uşaq bağçalarının sayının az olmasıdır. Məlumat üçün bildirim ki, Nizami rayonunun Keşlə qəsəbəsi Bakı şəhərinin ən böyük qəsəbələrindən biri olmaqla rəsmi qeydiyyatda 26 min, qeydiyyatsız isə 50 min vətəndaşımızın yaşadığı qəsəbədir. Hazırda Keşlə qəsəbəsində 309 saylı 100-110 yerlik fəaliyyətdə olan uşaq bağçasının mövcud olmasına baxmayaraq, qəsəbənin tələbatını tam ödəyə bilmir. Nəticə olaraq da sakinlər uzun illərdir bu problemin varlığından əziyyət çəkirlər.

Keşlə qəsəbəsində 1966-cı ildən istifadəyə verilmiş 278 saylı uşaq bağçasının binası qəzalı vəziyyətdə olduğu üçün 2019-cu il oktyabrın 15-dən fəaliyyəti dayandırılmışdır. Qeyd etdiyim kimi, bağça 1966-cı ildən fəaliyyət göstərməsinə baxmayaraq, ötən yarım əsr ərzində əsaslı təmir edilməmiş, eyni zamanda, Ermənistan–Azərbaycan arasında baş verən müharibə səbəbindən bağçada 15 məcburi köçkün ailəsi yerləşmişdir.

Əvvəllər bağçada 12 qrupda 220 nəfərdən çox uşaq olmasına baxmayaraq, son zamanlar şəraitsizlik və məcburi köçkün ailələrinin yerləşməsi bu qrupların sayını 5-ə endirmişdir ki, bu səbəbdən cəmi 100 nəfərə yaxın uşağa təlim-tərbiyə verilirdi. Qeyd olunan problemlə əlaqədar Keşlə sakinlərinin və eyni zamanda, bağça rəhbərliyinin rəsmi müraciəti əsasında tərəfimdən aidiyyəti qurumlara müraciət olunmuş, lakin problem həll edilməmişdir.

Digər həlli vacib problemlərdən biri də vaxtı ilə mövcud olmuş Sənaye Tikinti Nazirliyinin 4 saylı Tikinti trestinə məxsus, Nizami rayonu E.Süleymanov küçəsi 137

və 139 saylı binaların tamamlanaraq başa çatdırılmasıdır. Bildirmək istərdim ki, hər iki binanın inşası tamamlanmamışdır, lakin istismar edilməkdədir. Binalardan birinin 4, digərinin isə 9 mərtəbəsi tikilsə də, çardaqları vurulmamış, liftləri yoxdur, bina yaşamaq üçün çox əlverişsizdir. 30 ildir ki, bu problem maliyyə vəsaiti ayrılmadığından qalmaqdadır.

Nizami rayonunun digər problemi binaların istiliklə təmin edilməsində olan çatışmazlıqlardır. Edilən çoxsaylı şikayətlərin həll edilməsi üçün dəfələrcə "Azəristiliktəchizat" ASC-yə müraciət etməyimə baxmayaraq, bu günədək heç bir binanın istiliklə təminatında yenilik olmamış, hər dəfəsində növbəti illərin investisiya proqramına salınacağı kimi qeyri-müəyyən cavablar verilmişdir.

Verilən məlumata görə Bakı şəhəri üzrə 530 bina mərkəzləşmiş istilik sistemi ilə təmin olunmur ki, onlardan da 47-si mənim seçildiyim dairənin ərazisinə düşür. Bunun müxtəlif obyektiv və subyektiv səbəbləri vardır. Etdiyim sonuncu müraciətlər üzrə cavablardan məlum olmuşdur ki, 2021–2022-ci illər payız-qış mövsümü ərzində Nizami rayonu üzrə "Azəristiliktəchizat" ASC tərəfindən 33 qazanxana istismar edilməklə, 432 yaşayış binası, 23 məktəb, 11 uşaq bağçası, 13 səhiyyə obyekti və 255 digər sosial və təsərrüfat obyekti istiliklə təmin olunmuşdur.

"Azəristiliktəchizat" ASC tərəfindən Nizami rayonunda istiliklə təmin edilməyən yaşayış binaları və sosial obyektlərdə istilik təchizatı sistemlərinin bərpası və yenidən qurulması ilə bağlı zəruri tədbirlərin görülməsi üçün müvafiq investisiya proqramı layihələri hazırlanaraq aidiyyəti üzrə İqtisadiyyat və Maliyyə nazirliklərinə təqdim edilmişdir. İnvestisiya proqramı çərçivəsində Nizami rayonunda 3 yeni qazanxana tikintisi, 12 qazanxananın müasir avadan-

lıqlar quraşdırılmaqla modernləşdirilməsi, 2 istilik məntəqəsinin yenidən qurularaq qazanxanaya çevrilməsi, 149 yaşayış binasının aşağı paylayıcı və binadaxili istilik sistemlərinin yenidən qurularaq istilik təchizatının bərpa olunması nəzərdə tutulmuşdur.

Eyni zamanda, "Azəristiliktəchizat" ASC-nin cavabından məlum olur ki, dövlət büdcəsindən onlara ayrılan vəsait yalnız mövcud qazanxanaların istismar xərclərini ödəmək üçün nəzərdə tutulur. İstilik təchizatı sistemlərinin bərpası, yenidən qurulması və yaxşılaşdırılmasına dair tədbirlərin həyata keçirilməsi üçün ASC-nin malik olduğu yeganə maliyyə mənbəyi dövlət əsaslı vəsait qoyuluşu üzrə infrastruktur layihələr üçün ayrılan vəsaitlər təşkil edir ki, bu məqsədlər üçün "Azəristiliktəchizat" ASC-yə 2016–2023-cü illərdə vəsait ayrılmamışdır.

Hörmətli Əli müəllim, yuxarıda qeyd olunanları nəzərə alaraq, 2024-cü ilin dövlət investisiya xərcləri çərçivəsində Babək prospekti ilə H.Əliyev prospektini birləşdirən M.Ə.Sabir küçəsinin yenidən qurulması, həmçinin Nizami rayonu Keşlə qəsəbəsi, 200-dən çox ailənin yaşadığı P.Fərzəliyev, M.Ağayev küçələrinə kanalizasiya xəttinin çəkilməsi, Nizami rayonu Keşlə qəsəbəsi D.Aslan küçəsi 2 ünvanında yerləşən 278 saylı uşaq bağçasının əsaslı təmir olunması üçün maliyyə vəsaiti ayrılması, E.Süleymanov küçəsi 137 və 139 saylı binaların tamamlanaraq başa çatdırılması, Nizami rayonunda yerləşən binaların istiliklə təmin edilməsi üçün aidiyyəti qurumlara müvafiq maliyyə vəsaitinin ayrılmasına köməklik göstərməyinizi Sizdən xahiş edirəm. Əvvəlcədən təşəkkürümü bildirirəm.

**Malik Həsənov.** Bu gün müzakirəmizə təqdim olunan 2024-cü il üçün büdcə zərfi kifayət qədər əhatəli və ölkəmizin iqtisadi imkanlarına adekvat şəkildə hazırlanmışdır

və qarşımıza qoyduğumuz hədəflərə çatmağa imkan verir. Təqdim olunan layihədən başqa bugünkü plenar iclasda onun təqdimatı peşəkarcasına edilmişdir və bizi maraqlandıran məqamlara aydınlıq gətirilməsi baxımından əhəmiyyətlidir.

Çox diqqətəlayiq haldır ki, son 20 il ərzində ölkəmizin əldə etdiyi iqtisadi nailiyyətlər dövlət büdcəmizin həm mədaxil, həm də məxaric hissəsində artımlarla müşayiət olunur. Bu baxımdan hər növbəti il üçün dövlət büdcəmiz davamlı olaraq rekord büdcə layihəsi hesab oluna bilər.

Təqdim olunmuş büdcə layihəsindən aydın olur ki, dövlət büdcəsindən ayrılan vəsaitin əsaslı hissəsi işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın təmin edilməsi üçün abadlıq, quruculuq işlərinin aparılmasına və regionun iqtisadi və sosial həyata reinteqrasiyasına mühüm töhfə verəcəkdir. Aydın olur ki, növbəti il üçün son 4 il ərzindəki ayırmaları da nəzərə alsaq, qayıdış və quruculuq prosesinə 11 milyard manatdan çox vəsait ayrılmış olacaq.

Səhiyyə xərcləri çərçivəsində İcbari tibbi sığorta büdcədənkənar fonduna dövlət büdcəsindən köçürmənin artırılmasını təqdirəlayiq hal hesab edirəm.

Eyni zamanda, nəzərə almalıyıq ki, bu illər ərzində əsas infrastruktur layihələrinin icrasına böyük həcmdə nail olmuşuq və növbəti il bu istiqamətdə xərclərimiz hiss olunan qədər azalacaqdır. Paralel olaraq nəzərə almalıyıq ki, azad edilmiş ərazilərin resurs imkanlarından istifadə etməyə başlamışıq və bu da bizə əlavə maliyyə imkanları qazandırır. Hesab edirəm ki, azad olunmuş torpaqların potensialından istifadə edən zaman digər regionların ehtiyacları nəzərə alınmalıdır, bu, ilk öncə əhalinin məşğulluq məsələləri ilə bağlıdır.

Digər toxunmaq istədiyim məqam ölkə ərazisinin tu-

rizm imkanlarının dəyərləndirilməsi və ondan səmərəli istifadəsi ilə əlaqədardır. Biz bu potensialdan səmərəli istifadə etməklə həm daxili, həm də xarici turizmi dirçəldə bilərik və bu mənada Laçın, Şuşa şəhərində görülmüş işlər xüsusi ilə qeyd edilməlidir. Qarşıdakı illərdə bu bölgədə tələbə və şagirdlər üçün beynəlxalq düşərgələrin təşkili də mümkündür. Digər tərəfdən, bu gün Bakı şəhərində fəaliyyət göstərən Turizm və Menecment, Mədəniyyət və İncəsənət universitetlərinin infrastruktur imkanları xeyli məhdud, yerləşdiyi ərazi kiçik həcmdə olduğundan, genişlənmə imkanları qeyri-mümkündür. Bu universitetlərin gələcəkdə ya Şuşa, ya da Xankəndi şəhərinə köçürülməsini təklif edərdim.

Növbəti il üçün təhsilə ayrılan xərclərin artırılmasını məqbul hesab edirəm. Amma burada qeyd etmək lazımdır ki, həmin xərclərin böyük hissəsini infrastruktur layihələrinə ayrılan vəsait təşkil edir. Hesab edirəm ki, həmin xərclərin strukturuna və bu sahədə çalışan insanların sosial müdafiəsinin gücləndirilməsi məsələlərinə yenidən baxılmalıdır.

Qeyd edilənləri nəzərə alaraq, hesab edirəm ki, təqdim olunan  büdcə layihəsi ölkəmizin iqtisadi güc və imkanlarına uyğun şəkildə hazırlanmışdır və icra oluna bilir və növbəti il üçün ölkəmizin qüdrətinin daha da artırılmasına imkan yaradır.

**Tamam Cəfərova.** İki gündür ki, Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında qanun layihəsini müzakirə edirik. VI çağırış Azərbaycan Respublikasının Milli Məclisi çox şanslıdır ki, artıq 3-cü ildir zəfər büdcəsini müzakirə edir. Ancaq builki zəfər büdcəsi əvvəlki büdcələrdən fərqlənir. Onunla fərqlənir ki, 3-cü zəfər büdcəsinin hazırlandığı il ölkəmizin bütün ərazisində

Azərbaycanın suverenliyi tam bərpa olunub və bu büdcə layihəsi müstəqil Azərbaycanın tarixində ilk dəfə Azərbaycanın bütün suveren ərazisini əhatə edir. Builki büdcə layihəsi həm də onunla əlamətdardır ki, Ulu Öndər Heydər Əliyevin 100 illiyinə, eləcə də cənab Prezident İlham Əliyevin fəaliyyətinin 20 illiyinə təsadüf edir. Məncə, bu, təsadüfi deyil. Mən düşünürəm ki, bunun bir rəmzi mənası vardır. Azərbaycanın bütün ərazisində suverenliyini tam bərpa etməsi cənab Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü, uzaqgörən siyasətin nəticəsi olmaqla, onun 20 illik fəaliyyətinin zəfər zirvəsidir. Göründüyü kimi, Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında qanun layihəsinin hazırlandığı dövr bu cür mühüm tarixi hadisələrlə əlamətdardır.

Dünən çıxış edən natiqlər, məruzəçilər artıq qeyd elədilər ki, büdcə layihəsi hazırlanarkən beynəlxalq geosiyasi vəziyyət, dünyada baş verən iqtisadi, siyasi kataklizmlər nəzərə alınıb. Bütün bunların fonunda Azərbaycanın dövlət büdcəsinin həcminin artması, davamlı inkişafın təmin olunması dövlətin gücünə dəlalət edir. Büdcə layihəsi haqqında bir neçə məqamı qeyd etmək istəyirəm. Büdcə layihəsinin sosial xarakterli olması xüsusi ilə diqqətçəkən məqamlardandır. Belə ki, 2024-cü ilin dövlət büdcəsinin layihəsində 43 faiz vəsait sosial siyasətin həyata keçirilməsi üçün nəzərdə tutulmuşdur. Bu, Azərbaycan dövlətinin sosial xarakterindən irəli gəlir. Cənab Prezidentin hər zaman dediyi kimi, Azərbaycanda dövlət siyasətinin mərkəzində məhz Azərbaycan vətəndaşı dayanır. Büdcə layihəsində ölkənin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin gücləndirilməsinə, eləcə də Qarabağa qayıdışa ayrılan vəsaitin artırılması da xüsusi ilə təqdirəlayiqdir. Əgər lazım gələrsə, bu vəsaiti daha da

artırmaq lazımdır.

Bütün bunlarla yanaşı, regionların sosial-iqtisadi inkişafı diqqət mərkəzində saxlanılır. Artıq dördüncü dövlət proqramı uğurla həyata keçirilir. Regionların siması günügündən dəyişir, şəhərlə kənd arasında fərq aradan götürülür. Bu uğurlar təmsil etdiyim Şamaxı rayonunda da görünür. Son illərdə rayonda müasir infrastrukturun yaradılması, yolların çəkilməsi, məktəb və uşaq bağçalarının tikintisi sahəsində xeyli işlər görülmüşdür. Bütün bunların məntiqi nəticəsi olaraq Şamaxının siması köklü şəkildə dəyişib, insanların rifah halı daha da yaxşılaşıb. Bütün bunlar regionların inkişafına dövlətin göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. Fürsətdən istifadə edərək, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fonduna Şamaxı rayonunda çoxsaylı bağça və məktəblərin tikilməsinə görə öz adımdan və şamaxılılar adından təşəkkür edirəm.

Bunlarla yanaşı, bəzi problemlər hələ də qalmaqdadır. İstərdim ki, cənab Baş nazirin də burada olmasından istifadə edərək, seçicilərimi narahat edən bəzi məsələləri diqqətinizə çatdırım. Bu haqda komitələrin birgə iclasında çıxış edib bildirmişəm. Hökumət nümayəndələrinin burada olmasından istifadə edərək, bəzi məsələləri bir daha vurğulamaq istəyirəm.

Birinci ən vacib məsələ Şamaxıda su məsələsidir. Mən bilirəm, hökumətin bu barədə məlumatı var. Diqqətinizə görə çox təşəkkür edirəm. May ayında Sizin müavininiz Şahin Mustafayevin rəhbərliyi ilə Şamaxıda su komissiyasının iclası keçirildi. Məsələni araşdırdılar. Aidiyyəti qurumlar rəy verdilər ki, bu məsələnin həlli üçün maliyyə vəsaitinin ayrılmasına etiraz etmirlər. Şamaxı rayonunun su təchizatının yaxşılaşdırılması işlərinin həyata keçiril-

məsi üçün 2024-cü ilin dövlət büdcəsində maliyyə vəsaitinin ayrılması imkanlarına baxılmasını xahiş edirəm.

İkinci ciddi məsələ isə zəlzələdən zərər çəkmiş evlərin təmiri məsələsidir. 2019-cu ildə baş vermiş zəlzələnin fəsadlarının aradan qaldırılması ilə bağlı, bildiyiniz kimi, cənab Prezident tərəfindən imzalanan müvafiq sərəncamlara uyğun olaraq, Şamaxı, Ağsu və İsmayıllı rayonlarında baş verən zəlzələdən sonra əhaliyə dəymiş zərərin böyük hissəsi ötən 5 il ərzində aradan qaldırılmışdır. Əhali cənab Prezidentin bu qayğısını böyük minnətdarlıq hissi ilə qarşılayır. Bu problemin aradan qaldırılması üçün vəsait mərhələli şəkildə ayrılır. Lakin evlərində təmir işləri başlamayan Şamaxı sakinləri bununla bağlı bizə çoxsaylı müraciətlər ünvanlayırlar. Nəzərinizə çatdırım ki, bu gün 450-500 ev təmir gözləyir. Xahiş edirəm ki, bu məsələnin də qısa zamanda həllini tapmasına kömək edəsiniz.

Sonda isə, büdcəni təqdim edən dövlət qurumuna və büdcənin tərtib olunmasında əməyi olan hər kəsə təşəkkür edirəm. Ötən illərdə də olduğu kimi, bu il də büdcəni müfəssəl tərtib edərək bizə təqdim ediblər. Büdcəni dəstəkləyirəm, büdcəyə səs verəcəyəm və həmkarlarımı da səs verməyə dəvət edirəm.

## ***15 noyabr 2023-cü il***

**Fatma Yıldırım.** Müzakirəmizə təqdim olunmuş sənəd Azərbaycan–Türkiyə qardaşlığının növbəti bir nümunəsidir. Bu ilin fevralında qardaş Türkiyədə "əsrin fəlakəti" hesab olunan güclü zəlzələnin baş verməsi Azərbaycan xalqı olaraq hər birimizi çox kədərləndirdi. Zəlzələnin miqyası çox dəhşətli idi, 50 mindən çox insan həyatını itirdi, minlərcə ailə evsiz-eşiksiz qaldı.

Həmin ağır və məsuliyyətli günlərdə Azərbaycan xalqının ürəyi qardaş türk xalqı ilə birgə döyünürdü. Bu hadisəyə ilk reaksiya verən, qardaş ölkənin dərdinə şərik olan Azərbaycan oldu. Dövlətimizin başçısı İlham Əliyev dərhal Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək qardaş ölkədə baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılarla bağlı xəbərin Azərbaycan xalqını çox sarsıtdığını və kədərləndirdiyini bildirdi. Dəhşətli zəlzələnin baş verməsindən dərhal sonra Prezident İlham Əliyevin göstərişinə uyğun olaraq, bütün strukturlar səfərbər edildi. Qardaş ölkəyə yola düşən xilasedici qruplarımız dağıntılar altında qalan insanların xilası üçün böyük fədakarlıq göstərdi. Zəlzələnin baş verməsindən sonra ölkəmizdən zəlzələ zonasına davamlı olaraq xilasedicilər, həkimlər, könüllülər göndərilirdi. Eyni zamanda, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın tapşırığı ilə Heydər Əliyev Fondu tərəfindən qardaş ölkəyə böyük yardımlar göstərildi.

Milli Məclis tərəfindən də zəlzələdən zərərçəkənlər üçün xeyli yardım göndərildi. Bütövlükdə, Azərbaycan xalqı bu işə səfərbər olundu, hər kəs imkanı çatdığı qədər qardaş Türkiyəyə yardım göstərməyə can atırdı. Nəinki paytaxt Bakıda, respublikamızın digər bölgələrində də hər kəs, qoca, qadın, gənc imkanı çatan dəstəyi göstərirdi. Kimi yorğan, kimi döşək, kimi gödəkcə gətirirdi. Kimin imkanı nəyə çatırsa, onu əsirgəmirdi. Azərbaycanın bir çox bölgələri Türkiyədə baş vermiş güclü zəlzələdən zərərçəkənlərə yardım aksiyasına fəal qoşulmuşdu. Qeyri-sabit, qarlı-yağışlı hava şəraitinə baxmayaraq, ölkənin müxtəlif şəhər və rayonlarında yaşayan sakinlər səhər saatlarından etibarən axın-axın təşkil olunan yardım toplama məntəqələrinə gəlir, gətirdikləri əşyaları aidiyyəti üzrə məsul şəxs-

lərə, könüllülərə təhvil verirdilər. Bu anları müşahidə edərkən həm duyğulanmamaq, həm də qürurlanmamaq mümkün deyildi. Əgər bu acı faciənin fəsadlarının aradan qaldırılmasına bir balaca kömək edə bilmişiksə, bunu özümüz üçün şərəf bilirik.

Bu baxımdan, müzakirəmizə təqdim olunmuş sənədə əsasən zəlzələ zamanı böyük dağıntıya məruz qalmış Kahramanmaraşın bərpası üçün Azərbaycan dövlətinin 100 milyon dollar həcmində vəsait ayırması və bərpa prosesində birbaşa iştirakı bir daha əsl qardaşlıq nümunəsidir.

Xatırladım ki, aprel ayında Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin tərkibində bir qrup deputat həmkarımla birlikdə Kahramanmaraşda səfərdə olmuşduq. Ziyarətimiz zamanı zəlzələnin ağır fəsadlarını öz gözlərimizlə gördük. Keçirdiyimiz görüşlərdə Azərbaycanın dəstəyi yüksək qiymətləndirildi, Azərbaycanla Türkiyənin hər zaman bir-birinin yanında olduğu vurğulandı.

Bugünkü münasibətlərimiz böyük öndər Mustafa Kamal Atatürkün dediyi "Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir" və Ümummilli Liderimiz Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" fəlsəfəsinə əsaslanır. Azərbaycanla Türkiyə hər zaman bir-birinin yanındadır. Xalqımız 44 günlük Vətən müharibəsində qardaş Türkiyənin dəstəyini heç vaxt unutmur və unutmayacaq. Türkiyədə baş vermiş güclü zəlzələnin nəticələrinin aradan qaldırılmasında, xilasetmə işlərində dövlətimizin dəstəyi, zəlzələdən zərərçəkmiş insanlara yardım üçün vətəndaşlarımızın fədakarlığı birliyimizin sarsılmazlığını bir daha bütün dünyaya nümayiş etdirdi.

Biz bütün dünyaya bir daha nümayiş etdiririk ki, təkcə dövlətlərarası səviyyədə deyil, toplumlar səviyyəsində də əsl qardaşlıq əlaqələri mövcuddur. Eyni zamanda, Türkiyə

dövlətinin operativ və çevik addımları bir daha göstərdi ki, insan amili Türkiyə hökuməti üçün əsas məsələdir və bu ağır sınaq, eyni zamanda, Türkiyənin gücünü bir daha bütün dünyaya göstərəcək.

Qardaş Türkiyə bu gün dünyada söz sahibi olan dövlətdir. Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə qardaş ölkəmiz daha da güclənib, bu gün dünyada Türkiyə ilə hesablaşmağa məcburdurlar. Əminik ki, böyük Türkiyə baş vermiş zəlzələnin də nəticələrini qısa müddətdə tamamilə aradan qaldıracaq!

## *21 noyabr 2023-cü il*

**Anar Məmmədov.** 2023-cü il, hər şeydən əvvəl, Azərbaycan Respublikasının dövlətçilik və müstəqillik tarixinə möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyümüzün bərpasının ili kimi düşür. 2024-cü ilə Azərbaycan yeni reallıqlar və kifayət qədər vacib əhəmiyyət daşıyan nailiyyətlərlə daxil olur. Sözsüz ki, bizim gələnilki büdcənin hansı qəhrəmanlıqla, hansı böyük məharətlə hazırlandığı hər kəsə məlumdur. Hər il olduğu kimi, 2024-cü ilin büdcəsi də həm sosial, həm də investisiya yönümlüdür. Dünyada gedən geopolitik proseslərə, maliyyə böhranına baxmayaraq, bu büdcə cari ilki kimi də Qarabağın dirçəlişinə və sosial rifaha xidmət edən, hədəflənən bir büdcədir. Dövlət büdcəsində yeni imkanların yaradılması dövlətimizin qüdrətinin göstəricisi olmaqla yanaşı, müdafiə, təhlükəsizlik, işğaldan azad edilmiş ərazilərin bərpası, məcburi köçkünlərin öz yurdlarına qaytarılması istiqamətində işləri daha da sürətlə həyata keçirməyə imkan yaradacaq. Ona görə də hesab edirəm ki, dövlət büdcəsinə edilən dəyişikliklər ölkəmizin qarşıdakı

dövrlə bağlı planlarına, inkişaf məqsədlərinə tam uyğun hazırlanıb.

2024-cü ilin dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün ayrıca vəsaitin nəzərdə tutulması Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf prioritetləri və sosial-iqtisadi siyasət istiqamətləri ilə uzlaşdırılaraq qlobal iqtisadiyyatda gedən prosesləri icmal və dövlət büdcəsinin əsas parametrlərinə ehtimal olunan təsiri nəzərə alınmaqla icra edilmişdir. Eyni zamanda, qeyd etməliyəm ki, 2024-cü il üçün dövlət büdcəsinin icrası Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin müəyyən etdiyi inkişaf və dəstək kursunun ardıcıl surətdə davam etdirilməsi, əsaslı dövlət və sosial vəzifələrinin həyata keçirilməsi, əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması, ölkədə makroiqtisadi sabitliyin qorunması, müdafiə və təhlükəsizlik məsələlərinin həlli və iqtisadiyyatın qorunaraq stimullaşdırılması istiqamətində öz müsbət rolunu oynamışdır.

Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin əsasında Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşının sosial rifahının yüksəldilməsi, sosial layihələrin həyata keçirilməsi, xüsusi ilə həssas təbəqənin problemlərinin həlli istiqamətində büdcənin imkanları daxilində kifayət qədər vəsait nəzərdə tutulub.

Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə təmsil olunduğum 96 saylı Goranboy-Naftalan seçki dairəsi üzrə Goranboy rayonunun Qazançı kəndinə, rayonun 59-cu və 58-ci yaşayış massivlərinə qaz xətti, Dəliməmmədli şəhəri, Borsunlu, Faxralı, Yəhərçi-Qazaxlar, Qaradağlı, Xoylu, Bəşirli, Qarasuçu kəndlərinə, Qazanbulaq qəsəbəsinə su xətti çəkilməsinə görə həm öz adımdan, həm də çoxminli

seçicilərimiz adından dövlət başçısına öz təşəkkürümü bildirmək istərdim.

**Arzu Nağıyev.** ABŞ Senatı Azərbaycana "2023-cü il erməniləri müdafiə aktı" şəklində təqdim etdiyi hərbi yardımı dayandırmaq barədə qərar qəbul edib. Reallıqda bu qərar o deməkdir ki, Amerika prezidenti "Azadlığa Dəstək Aktı"na Azərbaycana hərbi yardımı qadağan edən 907-ci düzəlişdən yan keçə bilməyəcək və 2024–2025-ci illər üçün büdcə ayırmalarından Azərbaycana yardım üçün maliyyə ala bilməyəcək.

Bədnam 907-ci bölmə ilk dəfə 2001-ci ildə 11 sentyabr hücumlarından qısa müddət sonra, ABŞ Əfqanıstanı işğal etmək və Üsamə bin Ladenə sığınacaq verdiyi iddia edilən Talibanı məğlub etmək qərarına gəldikdə dayandırılmışdı. Azərbaycanın hava məkanından istifadə etmədən bunu tam şəkildə etmək mümkün deyildi. ABŞ o zaman Bakıya çox ehtiyac duydu və buna görə də anti-Azərbaycan düzəlişini dondurmaq qərarına gəldi. Yəni burada Azərbaycana rəğbətdən əsər-əlamət yox idi. ABŞ-ın maraqları ön planda idi.

İndi gəlin, baxaq ki, ABŞ-ın Azərbaycana hərbi yardımı, əslində, nə olub, erməni diasporu və ondan qidalanan amerikalı senator və konqresmenlər hər fürsətdə bu yardım haqqında  qışqırırlar. Sahil mühafizəsi üçün patrul qayıqlarından istifadə edildi? Şübhəli "kömək", sizcə, elə deyilmi?

Sualtı hədəf aşkarlama sistemləri, yük maşınları və yolsuzluq avtomobilləri, həmçinin radio rabitəsi, dəniz naviqasiya radarları və avtomatik gəmi identifikasiya sistemləri idi. Sualtı müşahidə təlimləri üçün də vəsait ayrılıb. Bütün bu "hədiyyələr" amerikalıların bizi daim qınadıqları tam hərbi yardıma bərabər deyil. Xüsusilə vurğulayıram

ki, bu yardım çərçivəsində Azərbaycana heç bir öldürücü və ya ciddi silah verilməyib.

Bu çatdırılmalara baxanda dərhal sual yaranır: Onlar nəyə və kimə qarşı nəzərdə tutulmuşdu? Bunun cavabı isə bəllidir: İran. Deyək ki, həmin illərdə Amerika–İran münasibətləri sürətlə pisləşdiyindən Azərbaycan Vaşinqtonun diqqət mərkəzində oldu. Yəni Azərbaycan Ordusunun döyüş qüdrətinin gücləndirilməsindən söhbət getmirdi. Amerikalılara, sadəcə, öz maraqlarını və investisiyalarını qorumaq lazım idi. Ona görə də söhbət, əsasən, kütləvi qırğın silahlarının komponentlərinin İrana idxalının qarşısını almaq üçün nəzərdə tutulan avadanlıq və müxtəlif skanerlərdən gedirdi.

Azərbaycanla Rusiya, İsrail və Türkiyə arasında hərbi-texniki əməkdaşlıq rəqəmlərinə nəzər salaq. Məlumdur ki, Bakı Moskvadan və Təl-Əvivdən hər biri 5 milyard dollara müasir və müasir olmayan silahlar alıb. Türkiyə silahlarının son modelləri bir qədər az qiymətə alınıb. Məhz bu silahlarla Azərbaycan öz ərazilərini azad etdi.

Heç kim düşünməsin ki, Senatın qərarı Azərbaycanın müdafiə qabiliyyətinə zərbə vuracaq. Bu, yanlış fikirdir. ABŞ-ın hərbi yardımı Azərbaycan Ordusu üçün deyil, yuxarıda qeyd olunan səbəblərdən Dövlət Sərhəd Xidməti və gömrük strukturları üçün nəzərdə tutulub. Hazırda Azərbaycan Ordusunun arsenalında olan silahlar kifayət qədərdir. Biz heç kimə hücum etmək fikrində deyilik, lakin müdafiə üçün bu, kifayətdir. Ona görə də Senatın qərarı heç bir halda Azərbaycan Ordusunun bölmələrinin texnika cəhətdən modernləşməsinə təsir etməyəcək.

Azərbaycan xaricdən hərbi yardımdan asılı olan ölkə deyil və indi, şübhəsiz ki, istifadə olunan texnika və texnologiya şəklində paylama materiallarına ehtiyac yoxdur.

Ölkənin öz resursları var. İsrail və Türkiyədə etibarlı müttəfiqləri ilə strateji tərəfdaşlıq əlaqələri inkişaf etdirir. Azərbaycan öz müdafiə qabiliyyətini gücləndirməyə, yerli müdafiə sənayesini uğurla inkişaf etdirməyə diqqət yetirir və regiondankənar qüvvələrin müdaxiləsi olmadan regional sabitliyin tərəfdarıdır.

Təəssüflə qeyd etməliyik ki, ABŞ-da irqçilik və islamofobiya dərin kök ataraq onun dünyada sağlam siyasi xətt yürütməsinə mane olur.

2020-ci il iyulun 22-də Azərbaycanın ABŞ-da Los-Ancelesdəki Baş Konsulluğu qarşısında azərbaycanlılara qarşı kütləvi zorakılıqla müşahidə edilən hadisəyə hələ də rəsmi münasibətinin şahidi olmamışıq.

Bizim üçün məyusedici hallardan biri də odur ki, Fransa BMT Təhlükəsizlik Şurasının daimi üzvü statusundan öz qərəzli, qeyri-obyektiv siyasətini yürütmək üçün sui-istifadə edir, müxtəlif regionlarda geosiyasi intriqalarla məşğul olur, Qərb təşkilatlarını digər dövlətlərə, o cümlədən Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə etməyə cəhdlər edir. Beynəlxalq aləm, xüsusən də Amerika və Qərb 30 ildə bir dəfə də Ermənistanın işğalçılıq siyasətinə etiraz etmədi, ona qarşı sanksiyalar qəbul etmədi, amma beynəlxalq hüquqa hörmət edib icra etdiyinə görə Azərbaycana təzyiq edir. Bu, beynəlxalq hüquqa bir hayqırıdır. Xatırlatmaq istərdim ki, Azərbaycan Respublikası hər zaman bəşəriyyət üçün aktual olan məsələlərə xüsusi diqqət ayırmış, xalqların üzləşdiyi ədalətsizliklərin aradan qaldırılması istiqamətində səmərəli iş aparmışdır. Bütün bunları yenidən təhlil edib doğru nəticəyə gəlinməsinə ehtiyac var.

Ümid edirəm ki, ABŞ Cənubi Qafqazla bağlı siyasətinə yenidən baxacaq, Azərbaycanı regionun lider dövləti kimi

qəbul edəcək, apardığı ədalətli siyasətinə adekvat cavab verəcək.

**Kamilə Əliyeva.** 2024-cü ilin dövlət büdcəsi ilə tanış olduqda ölkəmizin iqtisadi cəhətdən hər il sürətlə, dayanıqlı inkişaf etdiyinin şahidi oluruq. Prezident cənab İlham Əliyevin sosial-iqtisadi strategiyası, müəllifi olduğu beynəlxalq  və daxili layihələrin reallaşdırılması nəticəsində Azərbaycan dünyada iqtisadiyyatı sürətlə inkişaf etdirilən azsaylı ölkələrdən biridir. Son 20 ildə iqtisadiyyatımız 4 dəfədən çox artmışdır ki, bu da dünyada rast gəlinən nadir hadisədir. 2024-cü il dövlət büdcəsinin gəlirlərinin 34 milyard 173 milyon, xərclərinin 36 milyard 763 milyon manat proqnozlaşdırılması ilbəil bu rəqəmlərin artmasını sübut edir. İşğaldan azad edilmiş 10 min kvadrat kilometr ərazidə misli görünməmiş sürətlə şəhər və kəndlərini yenidən quran və bununla yanaşı, bu qədər dövlət büdcəsinə malik olan ölkəmiz bütün dünyada iqtisadi cəhətdən qüdrətli bir dövlət olduğunu sübut edir.

2024-cü il üzrə proqnozlaşdırılan dövlət büdcəsinin gəlirlərinin neft sektoru ilə qeyri-neft sektorunun, demək olar ki, eyni paya sahib olması ölkəmizdə aparılan uğurlu islahatların real göstəricisidir.

Ölkəmizdə güclü iqtisadiyyat quruculuğu üçün lazım olan bütün şərtlər təmin edilib. Ardıcıllıqla aparılan islahatlar,  uğurla reallaşdırılan dövlət proqramları və strateji yol xəritələri iqtisadiyyatımızın inkişafına güclü təkan verib, istehsal imkanlarımızı əhəmiyyətli dərəcədə artırıb. Bunun nəticəsidir ki, artıq respublikamızda bir sıra sənaye və kənd təsərrüfatı məhsullarına olan tələbat tam yerli istehsal hesabına ödənilir, eyni zamanda, Azərbaycanın ixrac imkanları getdikcə genişlənir.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sosial-

iqtisadi inkişafa dair imzaladığı sərəncamlar, Nazirlər Kabinetinin və müvafiq dövlət qurumlarının bu sərəncamdan irəli gələn tapşırıqları dəqiq icra etmələri sayəsində Azərbaycan regionda ən güclü iqtisadiyyata malik bir dövlətə çevrilmişdir.

2024-cü il dövlət büdcəsinin gəlirlərindən sosial müdafiə və sosial təminata 12 faizdən çox vəsait ayrılması dövlət başçımızın Azərbaycan vətəndaşlarının sosial rifahının yaxşılaşdırılmasını hər zaman öndə tutduğunun nümunəsidir. Əmək haqları, pensiyalar, sosial müavinətlərin artımının proqnozlaşdırılan inflyasiya faizlərini üstələməsi hər bir Azərbaycan vətəndaşının inflyasiyadan əziyyət çəkməməsinə hesablanmışdır.

İqtisadiyyatımızın sürətli inkişafına təsir edən amillərdən biri də bütün dövlət qurumlarında, xüsusilə ölkəmizin iqtisadi siyasəti ilə məşğul olan nazirlik və komitələrdə şəffaflığın təmin olunmasıdır. Görülən işlər deməyə əsas verir ki, Nazirlər Kabinetinin rəhbər strukturları Prezident cənab İlham Əliyevin onların qarşısına qoyduğu vəzifələri ləyaqətlə icra edirlər.

Bununla bərabər, seçildiyim Zaqatala və Balakən rayonları ilə əlaqədar bəzi məsələləri nəzərinizə çatdırmaq istərdim. Zaqatala şəhərinin Şimal-qərb massivi adlanan ərazisində 400-ə yaxın ev yerləşir. Burada 4 şəhid ailəsi olmaqla yanaşı, gənc ailələr yaşayır. Lakin qaz xəttinin olmamasından əziyyət çəkirlər. Nəzərə alsaq ki, bu ərazi ana xətdən 1 km məsafədə yerləşir, gənc ailələrin bu problemini nəzarətə götürüb tezliklə qazlaşdırma işinin başlanılması üçün maliyyə vəsaitinin ayrılmasına köməklik göstərməyinizi sizdən xahiş edərdim.

İkinci. Balakən rayonunun İtitala, Kortala, Püştətala kəndləri ərazisindən Katex çayı axır. O çay, demək olar ki,

hər il daşır. Sel gəlir və kəndin sahələrini, yaşayış evlərini pis hala salır və həmin sahələrdə 2-3 il normal əkin, məhsul götürmək olmur, bu da əhaliyə böyük ziyan vurur. Çayın bəzi yerlərinə beton, digər yerlərinə isə torpaq bəndin qurulması üçün maliyyə vəsaitinin ayrılmasına böyük ehtiyac var.

**Malik Həsənov.** Vətən müharibəsində əldə etdiyimiz tarixi Zəfərdən və 19-21 sentyabrda apardığımız lokal antiterror tədbirlərindən sonra dünyada özlərini demokratik mərkəzlərdən hesab edən Fransa və Amerika Birləşmiş Ştatlarının ölkəmizə təzyiq etmək və təsir göstərmək cəhdlərini müşahidə edirik. Həyata keçirilmiş antiterror tədbirlərindən sonra dövlətimizin erməni etnik mənşəli insanlara qarşı göstərdiyi humanist addımları bütün dünya müşahidə etdi. Dövlətimiz az qala hər bir erməninin qarşısına çıxaraq Konstitusiyamızda nəzərdə tutulmuş vəzifə və mükəlləfiyyətləri qəbul edən hər bir erməninin ölkəmizin vətəndaşlığını almaq və bizimlə eyni hüquqi şərtlər və imkanlar altında birgə, bərabər, dinc yaşamaq hüquqlarının olduğunu izah etdi. Lakin tarixə nəzər yetirsək, bu gün dünyanın ən gənc dövlətlərindən olan ABŞ-ın mövcudluğunun bütün dövrlərində Amerika qitəsinin yerli aborigen əhalisinə qarşı həyata keçirdiyi soyqırımı əməlləri, onlar üçün yaradılmış rezervasiyalarda həyata keçirilmiş insanlığa qarşı cinayət aktları, faktları ilə qarşı-qarşıya qalarıq. Ölkəmizdə nə müasir dövrdə, nə də minillik tarixə malik dövlətçilik tarixi boyu hər hansı bir millətə, etnik topluma, müxtəlif dini inanc sahiblərinə qarşı təqib, soyqırımı hallarına yol verilməmişdir. Heç bir ehtiyat yaradılmamışdır. Tarixə daha dərindən nəzər yetirsək və tarixi müqayisə metodundan istifadə etsək, onda görərik ki, bu gün Ermənistan adlandırılan ərazidə yaşa-

yanlar və orada hakimiyyətdə olan insanlar Amerikada da olduğu kimi, buranın köklü əhalisi deyildir. Yəni bu gün ABŞ və daim erməni yönümlü siyasətin tərəfdarı olan Kanada ərazisində qurulmuş dövlətlər buranın yerli əhalisi tərəfindən yaradılmamış, bu dövlətlər də Ermənistan Respublikası kimi soyqırımın və deportasiyanın məhsuludur.

Fransanın sərgilədiyi mövqeyə gəldikdə isə, bu ölkənin Şimali Afrikada və Ön Asiyada apardığı irticaçı siyasət və soyqırımı əməlləri dünya tarixinin ən qara səhifələrindən hesab oluna bilər.

Bir qədər də tarixə nəzər yetirsək, onda Fransanın hələ 1918–1920-ci illərdə də Ararat Respublikasını dəstəkləməsini və bunda başlıca məqsədinin Cənubi Qafqazda üstün mövqe əldə etmək olduğunu görərik.

Bölgəmizdən minlərcə kilometr uzaqda yerləşən ölkələrin bölgədaxili münasibətlərə müdaxilə etmək səyləri qəbuledilməzdir. Bu gün köhnə dünya adlandırdığımız ölkələrin öz köhnəlmiş üsulları ilə bizə təsir etmək imkanları sıfıra yaxındır və ölkəmizin iqtisadi qüdrəti xalq–Ali Baş Komandan birliyi, cənab Prezidentimizin sarsılmaz iradəsi, Türkiyə Cümhuriyyəti və digər qardaş ölkələrin dönməz ruhu, hər gün daha çox artmaqda olan dəstəyi bizə imkan verəcəkdir ki, bu təzyiqləri neytrallaşdıraq.

Cari il noyabrın 15-də ABŞ Konqresinin Nümayəndələr Palatasında həyata keçirilmiş dinləmələr bir daha göstərdi ki, bu ölkənin bizə qarşı mövqeyi əvvəllər dediyimiz ikili standartlar müstəvisində siyasi düşmənçilik istiqamətinə qədər yenilənmiş və inkişaf etmişdir. Təbiidir ki, okeanın o tayında aparılan hər hansı dinləmələrin və alınmış qərarların bizə görə hər hansı bir siyasi, hüquqi qüvvəsi və təsiri yoxdur və bu, əlavə olaraq bizə yandaşlarımızın və müttəfiqlərimizin kim olması suallarına yeni baxış bu-

cağı baxımından aydınlıq gətirir. Çünki okeanın o tayında 31 il öncə Ermənistan təcavüzünə qarşı BMT Təhlükəsizlik Şurası tərəfindən icrası məcburi xarakter alan qərarlar ermənilər tərəfindən nəzərə alınmadığı halda, hər hansı bir ölkənin parlamentində aparılmış dinləmələrin bizim üçün heç bir əhəmiyyəti ola bilməz. Sadəcə olaraq, biz bunları zəhlətökən və səbrimizin dözümlülük dərəcəsinin yoxlanılması üsullarından biri kimi dəyərləndiririk. Bu gün bizə qarşı gəlməyə çalışan dövlətlərin iqtisadi maraqlarının təmini bizim iradəmizdən asılıdır. Buna bizim ölkəmizin yerləşdiyi coğrafi mövqe geniş şəkildə imkanlar yaradır.

Dövlət başçısı tərəfindən aparılmış ardıcıl və çoxillik zəhmət nəticəsində ölkəmiz Şərq və Qərb ticarət yolunun əsas həlqəsinə çevrilmişdir. Bu gün həmin dövlətlərin dəstəklədikləri Ermənistan adlandırılan bölgə siyasi-coğrafi baxımdan dalan dövlətinə çevrilmişdir. Onun imkanları yoxdur ki, Cənubi Qafqazda cərəyan edən siyasi proseslərə təsir göstərsin, onu dəyişə bilsin. Sadaladığım hər iki baxımdan həmin dövlətlərin məqsədlərinə nail olmaq imkanları yoxdur. Sadəcə, bu və ya digər təsir metodu ilə güclü və diqqət edən tərəf olanlar bizlə alver edə biləcəklərini düşünürlər. Təbiidir ki, xalq-dövlət-Prezident-ordu birliyi ilə qarşımıza qoyduğumuz hədəflərə nail olacağıq və bölgənin siyasi mənzərəsi bizim istədiyimiz quruluşda formalaşacaqdır.

**Məzahir Əfəndiyev.** Azərbaycan Respublikasının dövlət büdcəsi başda Maliyyə Nazirliyi olmaqla, hökumət tərəfindən hər il qlobal iqtisadi-siyasi çağırışlar nəzərə alınmaqla tərtib edilir. Həmin büdcənin qəbul olunması, bütövlükdə, Hesablama Palatası tərəfindən tərtib olunan rəy əsasında parlament, o cümlədən millət vəkilləri tərə-

findən həyata keçirilir. Bu baxımdan dövlət qurumlarının dövlət vəsaitinin idarə və istifadə edilməsi sahəsində hesabatlılığın və şəffaflığın artırılması üçün Hesablama Palatasının tərtib etdiyi rəy və hesabatlarda hər bir məqamın nəzərə alınması ölkəmizin də aktiv qoşulduğu Dayanıqlı İnkişaf Məqsədlərinin daha da güclənməsinə stimul verir. Xüsusilə DİM1, DİM2, DİM8 və DİM16 hədəflərinə nail olmaq istiqamətində qurumun nəzarəti əvəzolunmaz təsirə malikdir.

Fəaliyyəti dövlət vəsaitlərinin səmərəli və qənaətli istifadəsinin təmin edilməsi olan bir qurum kimi Hesablama Palatasının Dayanıqlı İnkişaf Məqsədlərinin tətbiqi və maliyyələşdirilməsi ilə bağlı nəzarət tədbirlərini gücləndirməsi DİM-lərin icrasında qabaqcıl olan ölkəmizin inkişafının daha dayanıqlı və innovativ olmasına dəstək olacaqdır.

Qeyd edim ki, Hesablama Palatasının 2021-ci ildə hazırladığı hesabatın əvvəlki illərlə müqayisədə daha təkmil və çoxşaxəli fəaliyyəti əks etdirməsi sevindirici hal idi. Həmin hesabatda həyata keçirilmiş iki audit ilk dəfə olaraq Dayanıqlı İnkişaf Məqsədləri ilə əhatə olunmuşdu. Bu gün artıq DİM-lərin maliyyələşdirilməsi qlobal çağırışların, habelə hökumətin də qarşıya qoyduğu prioritet istiqamətlərdəndir. Bunlara baxmayaraq, 2024-cü il üçün dövlət büdcəsi zərfində DİM-lərin maliyyələşdirilməsinə dair konkret məqamlara rast gəlinməmişdir.

Qeyd edim ki, cari il sentyabrın 18-i və 19-da BMT-nin Baş Assambleyasında keçirilən Qlobal DİM Sammiti çərçivəsində Azərbaycan Respublikası DİM-lərin transformasiyası üzrə milli öhdəliyini təqdim etdi. Lakin Azərbaycan 2030-cu il Gündəliyi və Dayanıqlı İnkişaf Məqsədlərinə çatmaq istiqamətində nəzərəçarpan irəliləyişə nail olsa da,

inkişafla bağlı müəyyən çətinliklər hələ də qalır. Bu, əsasən, maliyyə resurslarına əlçatanlığın kifayət qədər olmaması ilə bağlıdır.

Təsadüfi deyil ki, oktyabrın 24-də Bakıda keçirilən 3-cü DİM Dialoqunun əsas mövzusu DİM-lərə nail olunmasında ali audit qurumlarının rolu və DİM-lərin maliyyələşdirilməsinə həsr olunmuşdu. Noyabrın 15-i və 16-da keçirilən Dayanıqlı İnkişaf üzrə 2-ci Bakı Forumu isə "Davamlı maliyyə və investisiya" mövzusuna həsr olunmuşdu.

Eyni zamanda, dayanıqlı makroiqtisadi sabitliyə xidmət edən səmərəli makroiqtisadi siyasət çərçivəsinin formalaşdırılması, insan kapitalının müasirləşdirilməsi, rəqəmsal iqtisadiyyatın genişləndirilməsi və iqtisadi suverenliyin tam təmin olunması üçün növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair beş milli prioritetin reallaşdırılması nəzərdə tutulub. Bu prioritetlərdən irəli gələrək "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" hazırlanmışdır. Bu strategiyanın reallaşması 2026-cı ilin sonuna ölkə iqtisadiyyatında nəzərəçarpacaq dəyişikliklərə səbəb olacaq. Əlbəttə ki, bu milli prioritetləri, eyni zamanda, "2030 Gündəliyi"ndə nəzərdə tutulan məqsədlərə nail olunmasına əlavə mexanizm kimi dəyərləndirmək olar. Belə ki, bu gün universal sənəddən (DİM) irəli gələn öhdəliklər Azərbaycan Respublikasında milli səviyyədə yerinə yetirilir, ölkəmizdə DİM-lərin lokallaşdırılması və milli prioritetlərə uyğunlaşdırılaraq həyata keçirilməsi işi uğurla davam etdirilir.

**Nəsib Məhəməliyev.** Son illər ərzində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə iqtisadiyyatın davamlı və rəqabət qabiliyyətli inkişafı istiqamətində çoxşaxəli islahatlar həyata keçirilmişdir. Regionların və sahibkarlığın inkişafının təmin edilməsi,

biznes və investisiya mühitinin yaxşılaşdırılması, onların tənzimləyici bazasının təkmilləşdirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun stimullaşdırılması hesabına yüksək nəticələr əldə olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə uyğun olaraq hazırlanmış "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", dövlət büdcəsindən maliyyələşdirilməsi nəzərdə tutulan layihə və tədbirlər uğurla həyata keçirilir.

2021-ci ilin əvvəlindən başlayan pandemiya ilə bağlı tətbiq olunan məhdudlaşdırıcı tədbirlərin qalıcı təsirləri, Rusiya–Ukrayna müharibəsi, Yaxın Şərqdə baş verən hadisələrə baxmayaraq, ölkəmizdə iqtisadi artım müsbət dinamika ilə inkişaf edir. Rusiya ilə Ukrayna arasında olan müharibə, bölgədə yaşanan gərgin vəziyyət daşınma və logistika xərclərinin yüksəlməsinə səbəb olmuşdur. Bütün bunlara baxmayaraq, 2024-cü ildə ölkədə ÜDM-in real ifadədə 2,4 faiz artaraq 118,4 milyard manat, o cümlədən qeyri-neft (qaz) ÜDM-in real ifadədə 4,6 faiz artaraq 84,2 milyard manat təşkil edəcəyi proqnozlaşdırılır. Makroiqtisadi sabitliyin qorunması məqsədi ilə fiskal və monetar siyasətlərin əlaqələndirilməsi milli valyutanın mübadilə məzənnəsinin cari ildəki kimi sabit qalmasını dəstəkləyəcək.

2024-cü il dövlət büdcəsində əsas prioritetlər kimi "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində Böyük Qayıdışa dair Birinci Dövlət Proqramı"nda müəyyən edilən hədəflərin yerinə yetirilməsi, ordumuzun və ölkənin müdafiə qabiliyyətinin daha da gücləndirilməsi, Azərbaycanın gələcək sosial-iqtisadi inkişafının tə-

min edilməsi proqnozlaşdırılıb.

Builki büdcə Azərbaycanda mühüm tarixi hadisələrə təsadüf edir. Ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam təmin edilib. 2024-cü il dövlət büdcəsi Azərbaycanın bütün ərazilərini əhatə edən büdcə olacaq. 2024-cü ilin dövlət büdcəsinin xərcləri 36 milyard 763 milyon manat həcmində nəzərdə tutulub ki, bu da cari ilin yenidən baxılan dövlət büdcəsi xərclərindən 138 milyon manat çoxdur. Gəlirləri isə 34 milyard 173 milyon manat nəzərdə tutulub, bu da əvvəlki illə müqayisədə 283 milyon manat çoxdur.

2024-cü il dövlət büdcəsi layihələşdirildiyi zaman bir çox elementlərə birbaşa təsir edən neftin qiyməti 60 ABŞ dolları nəzərdə tutulmuşdur. 2024-cü ilin dövlət büdcəsi xərclərinin 51,2 faizi və ya 18 milyard 833 milyon manatı məqsədli dövlət proqramlarının və tədbirlərinin maliyyələşdirilməsi üçün nəzərdə tutulub. Dövlət büdcəsi xərclərinin prioritet istiqamətlərindən olan müdafiə və milli təhlükəsizlik xərclərinə 6 milyard 421 milyon manat, Böyük Qayıdışa dair Birinci Dövlət Proqramının icrası üçün 4 milyard manat, sosial-iqtisadi inkişaf üçün nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsinə 1 milyard 509 milyon manat, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına və Dövlət Proqramının icrası üçün 249 milyon manat vəsait nəzərdə tutulub.

Dövlətin apardığı uğurlu sosial-iqtisadi siyasət nəticəsində əhalinin rifahının yaxşılaşdırılması, yoxsulluq səviyyəsinin azaldılması, aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi daim dövlətin nəzarətindədir. 2024-cü ildə əhalinin özünüməşğulluğunun təmin olunması üçün 73 milyon manat vəsait ayrılması proqnozlaşdırılıb ki, bu da 2023-cü ilin təsdiq göstəricisindən 14,5 milyon manat azdır. Bu gün Azərbaycan dövlətinin əsas hədəfi işğaldan

azad edilmiş ərazilərimizi yenidən həyata qaytarmaqdır. Bu istiqamətdə artıq ciddi tədbirlər həyata keçirilməkdədir. Belə ki, həmin ərazilərdə vergi uçotuna alınan və bilavasitə həmin ərazilərdə fəaliyyət göstərən işğaldan azad edilmiş ərazinin rezidentlərinə münasibətdə vergi-gömrük azadolmaları, kommunal və sosial sığorta haqlarının subsidiyalaşdırılması sahəsində mexanizmlər müəyyən edilmişdir.

Ölkəmiz Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu siyasət nəticəsində bir çox ölkələrdən fərqli olaraq büdcə gəlirlərinin, valyuta ehtiyatlarının artması, makroiqtisadi sabitliyin, biznes mühitinin yaxşılaşdırılması, şəffaflığın təmin olunmasını təmin edib.

Mən təmsil etdiyim Balakən rayonunun seçiciləri ilə görüşlər zamanı qaldırılmış məsələləri hökumətin nəzərinə çatdırmaq istəyirəm.

1. "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda Balakən rayonu üzrə həyata keçirilməsi nəzərdə tutulan bəzi tədbirlər icra edilməmişdir.

2. Bakı–Balakən sərnişin qatarının hərəkətinin bərpası.

3. Regionda işsizliyin aradan qaldırılması üçün özünüməşğulluq proqramının genişləndirilməsi və yeni iş yerlərinin yaradılması.

Sadiq Qurbanov. Bu gün Yeni Azərbaycan Partiyasının yaranmasının 31-ci ildönümüdür. Bu gözəl gün münasibəti ilə başda sədrimiz cənab İlham Əliyev və partiyamızın sədr müavini dəyərli Mehriban xanım Əliyeva olmaqla bütün əqidə yoldaşlarımı, o cümlədən bütöv xalqımızı səmimi qəlbdən təbrik edir, gözəl, firavan həyat arzulayıram.

Hər bir xalqın, millətin öz müstəqilliyi və bütövlüyü

uğrunda apardığı şərəfli mübarizələr tarixi var. Azərbaycan xalqı da həmişə müstəqil yaşamaq, taleyinin sahibi olmaq, öz dövlətini qurmaq arzusu ilə yaşamışdır. Çox şükür olsun ki, bu gün ölkəmiz müstəqildir və heç bir dövlətdən asılı deyil. Lakin bunu qəbul etməyən dövlətlər var və onlardan biri də ABŞ dövlətidir. Özünü dünya demokratiyasının beşiyi adlandıran Amerika Birləşmiş Ştatları erməni lobbisinin təşəbbüsü ilə 1992-ci ildə ABŞ Konqresi tərəfindən Azadlığa dəstək haqqında akta əlavə edilən və Azərbaycana ABŞ-ın birbaşa dövlət yardımını qadağan edən bədnam 907-ci düzəlişin heç bir siyasi-hüquqi əsası olmadığı heç kimə sirr deyil. Qəribədir ki, siyasi diskriminasiyanın bariz nümunəsi olan bu qadağa Azərbaycanı iqtisadi və siyasi sabitliyi asanlaşdırmaq üçün ABŞ hökumətindən birbaşa yardım almayan yeganə postsovet dövlətinə çevirmişdir. Bu isə yarıməsrlik soyuq müharibə dövrünün siyasi gerçəklikləri ilə nə qədər bir araya sığmasa da, ABŞ-da erməni lobbisinə nə qədər "sevgi" olduğunun bariz nümunəsidir.

907-ci düzəlişin hansı şəraitdə qəbul edilməsi ilə bağlı siyasi polemika açmadan deyə bilərik ki, 2001-ci il 11 sentyabr hadisələrindən sonra Azərbaycanın beynəlxalq terrorizmlə mübarizədə dəstəyini təmin etmək məqsədi ilə ABŞ Konqresi prezidentə düzəlişin hüquqi qüvvəsini dayandırmaq səlahiyyəti verdi.

Nəhayət, Senat 2001-ci il oktyabrın 24-də akta ABŞ Prezidentinə 907-ci düzəlişdən imtina etmək imkanını təmin edən düzəlişi qəbul etmişdir. Lakin düzəliş ləğv edilməmiş və gələcəkdə istifadə üçün dondurulmuşdur. Otuz ilə yaxın bir müddətdə ATƏT-in həmsədri kimi ABŞ uzun-uzadı mənasız danışıqların davam olunmasında əsas subyektlərdən birinə çevrilmiş status-kvonun saxlanma-

sında maraqlı olmuşdur. Artıq bütün dünya anlamalıdır ki, Azərbaycan üçün 44 günlük Zəfərlə başa çatan müharibədən sonra yeni status-kvo yaranıb. Bundan əvvəlki status-kvo tam fərqli və qəbuledilməz idi. İndiki status-kvonun əsasını isə beynəlxalq hüquq təşkil edir. Ona görə də sülh müqaviləsinin imzalanmasında hansısa maneə olmamalıdır. Bir daha təəssüf hissi ilə qeyd edim ki, müharibə başladığı ilk gündən biz ABŞ-da erməni terroruna dəstəyin nümunələrinə rast gəldik. ABŞ-da türk diplomatlarını şəhid edən erməni qatili Qurgen Yanikyanın şəkilini Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğumuza asmaqla ASALA terrorunun ABŞ-da xortladığının şahidi olduq.

ASALA-nın ruh atası olan Qurgen Yanikyan 1973-cü il yanvarın 27-də türk səfiri Mehmet Baydar və Bahadır Dəmiri Santa-Barbaradakı "Baltimore" otelinə dəvət edərək onları qətlə yetirdi. Bütün bu terrorlara ev sahibliyi eləyən ABŞ heç də cəza məsələsində adekvat davranmadı. Hətta terrora ideoloji dəstək verirdi. Q.Yanikyan sui-qəsddən öncə "California Courier" qəzetinə göndərdiyi 118 səhifəlik məktubunda "Sizlər bu məktubu oxuduğunuzda mən yeni bir savaş növü icad etmiş və gerçəkləşdirmiş olacağam. Öndən mən gedirəm, ermənilər arxamca gəlsin! Erməniləri dərin yuxudan oyandırmanın və türklərlə onların anlayacağı dildən danışmanın vaxtı gəldi. Türk hökuməti ilə heç bir millət münasibət qurmamalı və onların təmsilçiləri yox edilməlidir, artıq geriyə dönüş yoxdur".

Q.Yanikyan məhkəmədə törətdiyi cinayəti etiraf etdi. Heç bir peşmançılıq çəkmədiyini bildirdi. Hətta o, məhkəmədə belə söylədi: "Mən iki insanı yox, iki pisliyi öldürmüşəm. Onlar mənim üçün adam deyildilər".

Özünü demokratiyanın beşiyi adlandıran Amerikada

fəaliyyət göstərən “The Armenian Report”da bu qatil haqqında bir xəbərdə “Erməni siyasi mübarizəsi üçün yeni çağ açan” və “Erməni tarixinin gedişatını dəyişən adam” ifadələrinin işlədilməsi acı təəssüf hissi oyatmaya bilməz.

Q.Yanikyan 1984-cü il yanvarın 31-də səhhətinin həbsdə qalmağa imkan verməməsi səbəbindən əfv edilərək qocalar evinə yerləşdirildi. 1988-ci il fevralın 27-də orada öldü.

Təsəvvür edin, bir terrorçu özünü ölkədə necə rahat hiss etməlidir ki, “demokratiyanın beşiyi”ndə törədəcəyi qətllərlə bağlı mətbuatda yazı vermiş olsun. Bütün bunlar “demokratiyanın beşiyi”ndə baş verib. Terrorçuya münasibət adekvat olmadığı üçün bir neçə ildən sonra ABŞ-da 1982-ci il yanvarın 28-də Türkiyənin Los-Anceles Baş Konsulu Kemal Arıkan, 1982-ci il mayın 5-də isə Türkiyənin Bostondakı fəxri konsulu Orhan Gündüz silahlı basqın nəticəsində öldürüldülər.

ABŞ-ın keçmişi belə analoji hadisələrlə zəngindir. Lakin bu, keçmişdə qaldımı? Əlbəttə, yox. Bir qədər əvvəl 20 dollarlıq əskinazın guya saxta olması ilə bağlı marketdə satıcı qadının polisə şikayəti qaradərili Corc Floydun ölümünə səbəb oldu. Corc Floydun qardaşı departamentdəki dinləmədə ABŞ ictimaiyyətinə üzünü tutaraq “qaradərililərin qiyməti 20 dollardı” deyərək fəryad etdi.

Hələ 75 il əvvəl Azərbaycanın dahi şairi Səməd Vurğun “Zəncinin arzuları”nı yazırdı, amma ABŞ-da heç nə dəyişməyib. Şair zəncinin dili ilə deyirdi:

“Amerika, hər qərarı, hökmü verən zaman olur,
Bil ki, qullar dünyasının intiqamı yaman olur”.

* * *

Şabran rayonu üzrə həlli vacib olan məsələlər və problemlər:

- Şabran rayon Nizami küçəsində asfalt örtüyünün yenilənməsi, Şabran şəhər Surra yaşayış massivinə içməli su və kanalizasiya xətlərinin çəkilməsi;

- Rayonun Qələgah, Çayqaraqaşlı, Hacıqaraqaşlı, Liman, Sarvan, Xəlfələr, Düzbilici, Leyti, Ləcədi, Çinarlar, Zağlı, Yeləkəsən, Nohurlar kəndlərinin qazlaşdırılması;

- Rayonun Çayqaraqaşlı, Hacıqaraqaşlı, Çölquşçu, Liman, Sarvan, Xəlilli, Surra yaşayış massivi, Gəndov, Ağalıq, Pirəmsən, Təzəkənd, Məliklər, Xəlfələr, Düzbilici, Əmirxanlı, Qazbabalı kəndlərində içməli su xətlərinin çəkilməsi;

- Rayonun Taxtlar, Leyti, Pirəmsən, Şahnəzərli, Rəhimli, Padar, Bor-Bor, Təzəkənd, Xırdaoymaq, Hacıqaraqaşlı, Çayqaraqaşlı, Ləcədi, Qələgah, Qorğan, Mollakamallı, Məliklər, Ağalıq, Çinarlar, Nohurlar kəndlərinin elektrik şəbəkəsinin qurulması və transformatorların yenilənməsi;

- Uzunluğu 7 km olan Günəşli-Daşlıyataq-Ağalıq avtomobil yollarının təmiri, uzunluğu 2 km olan Xırdaoymaq yolunun təmiri, uzunluğu 7 km olan Gəndov-Leyti yolunun təmiri, uzunluğu 2 km olan Pirəmsən yolunun təmiri, uzunluğu 2 km olan Söhbətli yolunun təmiri, 24 km uzunluqda Şabran-Çaraq-Ugah yolunun təmiri, 25 km uzunluğunda Şabran-Məşrif-Çuxurazəmi, Dağbilici-Mumulu yolunun təmiri;

- 36 km uzunluğunda olan Şabran-Pirəbədil-Zeyvə avtomobil yolunun Kilvar kəndindən keçən hissəsinin təmiri;

- 15 km uzunluğunda Aygünlü yolunun təmiri;

- Pirəmsən və Ərəblər kəndlərini birləşdirən Şabrançayın üzərində olan qəzalı vəziyyətdə körpünün yenidən tikintisi;

- Bor-Bor kəndində olan körpünün yenidən bərpası;

- Samur-Abşeron suvarma layihəsinin başa çatdırılması;

- Vəlvələçay-Taxtakörpü kanalından qidalanan 750 min

kvadratmetr olan su anbarının tikintisinin yekunlaşdırılması;

- Şabrançayın və Dəvəçiçayın Şabran rayon ərazisindən keçən hissəsində bənd tikintisi işlərinin aparılması;
- Rayonun 3 saylı ümumi orta məktəb, 480 yerlik Ağbaş və Rəhimli kənd tam orta məktəblərinin əsaslı təmiri;
- 2019–2023-cü illərin Dövlət Proqramına salınmış, lakin öz həllini tapmayan təhsil müəssisələrinin, Şabran şəhər 1 nömrəli Çölquşçu, Gəndab kənd tam orta məktəblərinin əsaslı təmiri və Ağalıq kənd tam orta, Günəşli kənd modul tipli ümumi orta, Qorğan kənd modul tipli ümumi orta, Çayqaraqaşlı kənd modul tipli ümumi, Məliklər kənd modul tipli ibtidai məktəblərin tikintisi;
- Şabran rayon Peşə məktəbi, Şahmat məktəbi, Uşaq Gənclər İnkişaf Mərkəzi üçün yeni binaların tikintisi;
- 35 yerlik Ağalıq kənd körpələr evinin əsaslı təmiri;
- Şabran rayon mərkəzi stadionunun əsaslı bərpası və yenidən qurulması;
- İdman Olimpiya Kompleksinin tikintisi.

Siyəzən rayonu üzrə həlli vacib olan məsələlər və problemlər:

- Siyəzən şəhərinin Heydər Əliyev və Zərifə Əliyeva küçələrinin asfalt örtüyünün yenilənməsi, şəhərin kommunal müəssisələri kombinatının maddi-texniki təminatının yaxşılaşdırılması, o cümlədən KMK-ya texnika və konteynerlərin ayrılması;
- Rayonun Daşlı Çalğan, Orta Çalğan və Dağquşçu kəndlərinin qazlaşdırılması;
- Rayonun dağlıq ərazilərində yerləşən 511 təsərrüfatda 2963 nəfər əhalisi olan Məşrif, Qozağacı, Qalaaltı, Daşlı Çalğan, Orta Çalğan, Dağ Quşçu, Yuxarı Ələz, Ərziküş, Hacışəkər, Yanıq Ələz, Köhnə Quşçu, Künövşə və Qara-

göz kəndlərinin içməli su təminatının yaxşılaşdırılması;

- Siyəzən-Dərəzarat kəndlərarası avtomobil yolunun yenidən qurulması;

- Siyəzən şəhərində 50 km-ə yaxın torpaq məcralı yolların asfalt-beton örtüklə təmiri;

- Siyəzən şəhərində su-kanalizasiya sistemi yenidən qurularkən layihəyə salınmamış 289 evin su-kanalizasiya sistemi ilə təmin edilməsi;

- Siyəzən şəhəri Tofiq İsmayılov və Hökmulla Talıbov küçələrində 1038 ailənin, 3696 sakinin yaşadığı 21 ədəd beşmərtəbəli binanın zirzəmilərində su-kanalizasiya xətləri tam sıradan çıxdığı üçün binaların qəzalı vəziyyətə düşmə ehtimalı yaranmışdır. Həmin binalarda əsaslı təmir işlərinə ciddi ehtiyac vardır;

- 2022-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə Rayon İcra Hakimiyyətinin balansına verilmiş yaşıllıqlara qulluq məqsədi ilə heç bir texnika verilməmişdir. Ona görə də bağlara qulluğu təşkil etmək üçün ən azı 1 ədəd traktor, 1 ədəd fəhlələrin daşınması üçün minik maşını, 1 ədəd su maşını və digər köməkçi texnikaların verilməsi lazımdır;

- Yenikənd kənd, Zarat kənd və Siyəzən şəhər 4 saylı tam orta məktəblərin əsaslı təmiri “Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na salınsa da, işlərə başlanılmamışdır. Hər 3 məktəb qəzalı vəziyyətdədir. İstiliklə tam təmin olunmur. Məktəblərdə təcili əsaslı təmir işlərinə başlanılması lazımdır;

- Siyəzən rayonunda Tarix-diyarşünaslıq muzeyinin olmaması. RİH Siyəzən şəhərinin mərkəzində yerləşən “Siyəzənneft NQÇİ”-yə məxsus köhnə univermaq binasını öz balansına keçirmiş və daxili imkanlar hesabına binada

müəyyən təmir işləri aparılmış, binanın Tarix-diyarşünaslıq muzeyi kimi ərsəyə gəlməsi üçün Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə məktubla müraciət ünvanlanmışdır. Binada əsaslı təmir işləri aparıldıqdan sonra rayonun tarixini əks etdirən maddi-mədəniyyət nümunələrini burada toplamaq və muzey kimi sakinlərin və turistlərin istifadəsinə vermək mümkündür.

**Sevil Mikayılova.** 2024-cü il dövlət büdcəsi haqqında qanun layihəsi milli iqtisadiyyatımızın dayanıqlı əsaslarda inkişaf etməkdə olduğunu bir daha təsdiqləyir. Lakin ən əsas qürurvericidir ki, bu qanun layihəsi öz suverenliyini tam təmin etmiş Azərbaycanın ilk dövlət büdcəsidir. Belə ki, 2024-cü il üzrə dövlət büdcəsi bütün Azərbaycan ərazisini əhatə edəcək.

Xüsusi vurğulanmalıdır ki, dövlət büdcəsinin həm gəlirləri, həm də xərcləri ildən-ilə artırılır. Gələn ilin dövlət büdcəsinin gəlirləri 34 milyard 173 milyon manat, xərcləri isə 36 milyard 763 milyon manat məbləğində nəzərdə tutulur. Bu rəqəmlər rekord göstəricilərdir, bu da ölkəmizin artan iqtisadi qüdrətinin təzahürüdür.

Gələn il üçün də büdcə xərcləri arasında ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, azad edilmiş ərazilərimizin bərpası, əhalinin sosial müdafiəsinin artırılması, ölkənin tranzit potensialının inkişafının dəstəklənməsi və sair məsələlərin ön planda saxlanılması olduqca məqbuldur.

Gələn ilin dövlət büdcəsində sosial yönümlü xərclərin cari ilə nisbətən 1 milyard 35 milyon manat və ya 7 faiz çox olması nəzərdə tutulur.

2024-cü il üzrə vergi siyasətinin əsas istiqamətləri arasında əhalinin və sahibkarlıq subyektlərinin vergi yükünün azaldılmasının ön planda tutulması olduqca təq-

dirəlayiqdir.

Qeyd etmək istərdim ki, 2024-cü ildə infrastruktur layihələrinin icrası məqsədi ilə 1 milyard 783 milyon 516 min manatın ayrılması nəzərdə tutulub. Bu məbləğ ölkəmizdə bir çox infrastruktur layihələrin həyata keçirilməsinə ciddi əminlik yaradır.

Millət vəkili seçildiyim Xaçmaz rayonunda aktual olan, seçicilərlə görüşlərdə daim səsləndirilən yol problemini bildirmək istərdim. Rayonumuzun bir sıra ərazilərində kəndlərarası yolların və bir sıra körpülərin təmirə ciddi ehtiyacı var. Nəqliyyat üçün yararsız olan bəzi yolların örtüksüz olması ilə bağlı şikayətlər seçicilərlə görüşlərdə daim səsləndirilən məsələdir. Yol infrastrukturunun bərbad olması avtomobillərin və əhalinin hərəkətində problemlər yaradır, hərəkəti iflic edir, vaxt itkisinə səbəb olur. Buna görə də rayonun yol infrastrukturunun yenidən planlı şəkildə təmiri və bərpası ilə bağlı əsaslı işlərin görülməsinə ehtiyac vardır.

Seçicilərlə görüşlərdə səsləndirilən problemli yollar və ərazilərin siyahısı tərəfimizdən aidiyyəti quruma – Azərbaycan Dövlət Avtomobil Yolları Agentliyinə dəfələrlə təqdim edilib. Eyni zamanda, rayonumuzda uşaq bağçalarına da ciddi ehtiyac var. Bu istiqamətdə Elm və Təhsil Nazirliyindən müvafiq işlərin aparılmasını xahiş edirik.

Bununla yanaşı, rayonumuzda olan mədəniyyət müəssisələrinin, o cümlədən mədəniyyət klublarının, kitabxanaların, diyarşünaslıq muzeylərinin, bir sıra tarixi abidələrin yararsız vəziyyətini diqqətə çatdırmaq istərdim. Sakinlərin istirahəti, asudə vaxtın təşkili üçün bu müəssisələrin qeydiyyata alınaraq bərpasına və yenidən qurulmasına hökumətin xüsusi diqqət ayırması günün tələbidir.

İmkandan istifadə edərək qeyd etmək istərdim ki, son

illərdə rayonun bir sıra kəndlərində elektrik təchizatı sistemi əsaslı şəkildə yaxşılaşdırılıb, “Azərişıq” tərəfindən aparılan miqyaslı işlər elektrik təsərrüfatının keyfiyyətini daha da yüksəldib. Görülən işlərə görə minnətdarlığımızı ifadə edərək bu işlərin davamlı olmasını xahiş edirik.

Digər sevindirici hal səhiyyə sahəsində ciddi işlərin görülməsidir. Belə ki, aidiyyəti qurumlara edilən müraciətlər öz müsbət nəticəsini verib. Xudat Şəhər Xəstəxanasında əsaslı təmir işlərinə başlanılıb. Öz adımdan və seçicilərimin adından Səhiyyə Nazirliyinə və TƏBİB-ə məsələyə göstərdikləri həssas yanaşmaya görə təşəkkür edirəm.

Dövlət büdcəsinin 2024-cü il üçün uğurlu tərtib olunduğunu bir daha qeyd edərək hökumətə Azərbaycan Prezidenti İlham Əliyevin ölkə iqtisadiyyatının inkişafı və vətəndaş məmnuniyyətinin təmin edilməsi üçün qarşıya qoyduğu hədəf və tapşırıqların həyata keçirilməsində uğurlar arzulayıram.

**Sədaqət Vəliyeva.** Növbəti ilin dövlət büdcəsi düşünülmüş, balanslı, səmərəli büdcədir. Eyni zamanda, 2024-cü ilin dövlət büdcəsi sosial yönümlüdür və vətəndaş məmnunluğuna hesablanmışdır. Büdcənin hazırlanmasında əməyi keçən və zəhmət çəkən hər bir kəsə öz təşəkkürümü bildirirəm. Büdcəni dəstəkləyirəm.

2024-cü ilin dövlət büdcəsi müstəqillik tariximizin ən böyük dövlət büdcəsi olmaqla yanaşı, vaxtı ilə xəyal etdiyimiz büdcədir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, Azərbaycan büdcəsi 0 qəpikdən indiki – vaxtı ilə arzu etdiyimiz, xəyalımızda olan səviyyəsinə qədər yüksəldi. Əlbəttə, bütün bunların əsası Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş və cənab Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilən mükəmməl, güclü və dayanıqlı iqtisadi siyasətin nəticəsində mümkün olmuşdur.

Təqdirəlayiq haldır ki, işğaldan azad olunmuş ərazilərimizdə sürətli bərpa-quruculuq işləri gedir və bu ərazilərimiz cənnətə çevrilməkdədir. Eyni zamanda, Böyük Qayıdış proqramı da uğurla icra olunmaqdadır. Bütün bunlar dövlətimizin qüdrətinin göstəricisidir.

Xüsusi olaraq qeyd etmək istərdim ki, növbəti ilin büdcəsində azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işlərinə ayrılacaq vəsaitlərin tərkibində Xankəndi, Əsgəran, Ağdərə, Xocavənd, Xocalı üzrə də əsaslı xərclərin yönəldilməsi nəzərdə tutulmuşdur. Ordumuzun həyata keçirdiyi lokal xarakterli antiterror əməliyyatlarından sonra bölgədə dayanıqlı sülhün təmin olunması və burada yaşayan Azərbaycan vətəndaşları olan erməni sakinlərinin reinteqrasiyası ilə əlaqədar Qarabağ və Şərqi Zəngəzurun digər şəhər və rayonları kimi Xankəndi, Əsgəran, Xocalı, Ağdərə, Xocavənddə də bərpa-quruculuq işlərinin aparılması, zəruri infrastrukturların və kommunikasiyaların yaradılması, həyati vacib sosial təminatların həlli, iqtisadi, sosial və humanitar xarakterli proqramların həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının qanun layihəsi ilə bağlı təkliflərimi bildirmək istərdim:

1. Azərbaycan dövlət büdcəsindən hər il dövlət orqanlarına kifayət qədər yüksək məbləğdə vəsait ayrılır. Lakin bir məsələyə xüsusi diqqət yetirmək lazımdır. Hər il dövlət büdcəsindən dövlət orqanlarına ayrılan vəsaitlər Azərbaycan dövlətinə hansı xeyir formasında geri qayıdır? Düşünürəm, dövlət büdcəsində vəsait ayrılan hər bir orqan və ya nazirlik bununla bağlı hesabat verməlidir.

2. Yaxşı olardı ki, büdcədən maliyyələşən orqanların hesabatlılığı artırılsın. Belə ki, büdcədən maliyyələşən or-

qanların büdcə vəsaitlərinin xərclənməsi ilə bağlı hesabatı dövri şəkildə (aylıq, rüblük və sair) KİV-də yayımlansın. Belə olduğu təqdirdə mövcud olan və yarana biləcək neqativ halların qarşısı zamanında alınacaqdır.

3. Büdcə vəsaitlərinin xərclənməsi üzərində nəzarət mexanizmi yaradılsın. Belə olduğu təqdirdə büdcə vəsaitlərinin səmərəli, düzgün və təyinatı üzrə xərclənməsi təmin olunacaqdır.

Peşə təhsili ilə bağlı təkliflərimi diqqətinizə çatdırmaq istərdim:

1. Yaxşı olardı ki, zəif oxuyan şagirdlər peşə məktəblərinə yönəldilsin. Qeyd etmək istərdim ki, peşə təhsili həm şagirdlərin gələcəkdə işlə təmin olunmalarında və ixtisaslı kadr olaraq yetişdirilmələrində böyük rol oynayır. Bu mənada peşə təhsilinə diqqəti və maliyyəni artırmaq çox yaxşı olardı. Təəssüf ki, bu gün məktəblərdə dərslərini kafi oxuyan şagirdlər hələ də qalmaqdadır və bu şagirdlər məktəbi bitirib hərbi xidmətə gedib- gəldikdən sonra iş tapmaqda çətinlik çəkirlər. Çünki onların nə diplomu, nə də peşəsi olur. Bu səbəbdən də düşünürəm, yaxşı olardı ki, məktəbdə kafi oxuyan şagirdlər peşə təhsilinə cəlb olunsunlar.

2. Tələbə təhsil kreditinə 8 milyon manat vəsait ayrılmışdır. Təklif etmək istərdim ki, peşə təhsilində təhsil alan şəxslərə də tələbə krediti verilsin. Bu sahədə apardığım araşdırmalara görə, hər il peşə təhsilinə daxil olan tələbələrdən böyük hissəsi təhsil haqqını ödəyə bilmədiyi üçün öz peşə təhsilini yarımçıq saxlamağa məcbur olur. Peşə təhsilinə tələbə kreditinin ayrılması həmin şəxslərin öz təhsilini başa vurmasına və ixtisaslı kadr olaraq yetişmələrinə şərait yaradacaqdır. Düşünürəm, həmin şəxslərə tələbə kreditinin ayrılmasına çox ciddi ehtiyac vardır.

3. Peşə təhsili ilə bağlı qeyd edəcəyim daha bir məsələ peşə təhsili müəssisələrinin maddi-texniki bazalarının yüksəldilməsi və müasir tələblərə cavab verən avadanlıqlarla təmin edilməsidir. Hazırda peşə təhsili müəssisələrinin maddi-texniki bazasının yenilənməsinə və müasir standartlara uyğunlaşdırılmasına ciddi ehtiyac vardır. Eyni zamanda, peşə təhsili müəssisələrinin maddi-texniki bazalarının yüksəldilməsi orada təhsil alanların da peşəkarlıq səviyyəsinin yüksəlməsinə gətirib çıxaracaqdır.

# MÜNDƏRİCAT


13 noyabr 2023-cü il ........................................................... 3

14 noyabr 2023-cü il ......................................................... 127

15 noyabr 2023-cü il ......................................................... 258

21 noyabr 2023-cü il ......................................................... 290

Edilməmiş çıxışların mətnləri.............................................. 425

Altıncı çağırış

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI
VƏ
STENOQRAMLARI

On dördüncü sessiya
Payız

56-cı cild

13 – 21 noyabr 2023-cü il

Buraxılışına məsul
***H. Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi  30, 5. Sifariş 45. Tiraj 150.